Vüsət ƏFƏNDİYEV

# URBANİZASİYA VƏ AZƏRBAYCANIN ŞƏHƏR YAŞAYIŞ MƏSKƏNLƏRİ

*Bakı Dövlət Universiteti Coğrafiya fakültəsinin Elmi Şurasının 01 may 2002-ci il tarixli 07 saylı qərarı ilə çapa tövsiyə olunmuşdur.*

BAKI - 2002

Ə34

ELMİ REDAKTORLARI: - akademik A.A.NADİROV
- prof. Ş.Y. GÖYÇAYLI

RƏYÇİLƏR: - prof. F.M.HÜSEYNOV
- dos. T.G.HƏSƏNOV

91(41)
Ə 92

**Əfəndiyev Vüsət.** Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri (*monoqrafiya*). Bakı, Bakı Universiteti nəşriyyatı, 2002. –397 s.

*Azərbaycan Respublikasında urbanizasiyanın iqtisadi-coğrafi problemlərinə həsr edilən bu monoqrafiyada iqtisadi-coğrafi, sosial-iqtisadi, ekoloji, məskunlaşma, yaşayış məntəqələrinin əlaqəli mövqeyində və funksional sistemində şəhərlərin inkişafının, onlarla əlaqəli miqrasiya proseslərinin müəyyən ərazi sistemində fəaliyyəti, onların qarşılıqlı əlaqələri, şəhər və urbanizasiya məsələlərindən bəhs edilir.*

*Müəllifin bu sahədəki çoxillik elmi-tədqiqat işlərinin fəaliyyətinin nəticələrini özündə əks etdirən və 5 fəsildən ibarət olan bu monoqrafiyada şəhər urbanizasiyasının nəzəri və metodoloji əsasları, iqtisadi-coğrafi amilləri, ekoloji mühitin, demoqrafik inkişafı, şəhərlərin funksional tipoloji təsnifatı, şəhərlərin istehsal ixtisaslaşması, genetik funksiyaları, urbanizasiya fenomeni, şəhərlərin inkişaf problemləri məsələlərindən bəhs edilir.*

*Monoqrafiya elmi işçilər, universitetlərin coğrafiya fakültələrinin müəllimləri, tələbələri, magistrləri, şəhər və şəhərsalma problemləri ilə məşğul olan mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

$Ə\frac{1905010000-12}{658(07)-0111}111-2002$

245279

© Bakı Universiteti nəşriyyatı, 2002

# MÜNDƏRİCAT


Giriş ........ 5

**I fəsil. Şəhər urbanizasiyasının nəzəri, metodoloji əsasları, şəhər mühiti inkişafının qanunauyğunluqları və nizamlanması** ........ 12

1.1. Şəhər urbanizasiyasının nəzəri, metodoloji əsasları ........ 12

1.2. Şəhər mühiti inkişafının coğrafi qanunauyğunluqları və nizamlanmasi ........ 26

1.3. Şəhərlərin inkişafının iqtisadi-coğrafi aspektdə nizamlanması ........ 37

1.4. Şəhərin sosial-iqtisadi inkişaf səviyyəsi və vahid sistemdə formalaşması ........ 63

**II fəsil. Şəhərlərin inkişafının əsas mərhələləri, iqtisadi-coğrafi amilləri** ........ 91

2.1. Şəhərlərin inkişafının əsas mərhələləri ........ 91

2.2. Şəhərlərin soŝial inkişaf imkanları və qanunauyğunluqları ........ 118

2.3. İnzibati şəhərlərin – rayon mərkəzlərinin inkişafının iqtisadi-coğrafi aspekti ........ 126

2.4. Orta və kiçik şəhərlərin, şəhər tipli qəsəbələrin təbii-iqtisadi inkişaf potensialı ........ 146

2.5. Şəhər cəmiyyətinin ərazi və sosial-iqtisadi sisteminin təhlili ........ 156

**III fəsil. Şəhərlərin inkişafında iqtisadi-coğrafi, ekoloji amillər, təbii sərvətlər və urbanizasiya** ........ 172

3.1. Şəhərin inkişafında coğrafi mühitin, təbii sərvətlərin əhəmiyyəti ........ 172

3.2. Şəhərlərin inkişafında iqtisadi, ekoloji amillər, şəhər və torpaq ........ 191

3.3. İqtisadi-coğrafi amillər və urbanizasiya ........ 208

**IV fəsil. Şəhərlərin inkişaf potensialı, demoqrafik xüsusiyyətləri, məskunlaşma və miqrasiya** ............... 228
4.1. Müasir dövrdə Azərbaycan şəhərlərinin inkişaf potensialının qiymətləndirilməsi və tənzimlənməsi ... 228
4.2. Şəhərlərin tipoloji quruluşu, ixtisaslaşma və paytaxtın funksiyası ............................................. 240
4.3. Müasir dövrdə Azərbaycan şəhər əhalisinin demoqrafik xüsusiyyətləri, milli tərkibi, beynəlxalq miqrasiyası ............................................. 271
4.4. Şəhər mühitində məskunlaşma və miqrasiya ........... 297

**V fəsil. Şəhər və urbanizasiya** ............................................. 313
5.1. Urbanizasiyanın məzmununun elmi əsasları və problemləri ............................................. 313
5.2. Şəhərsalma, şəhər nəqliyyatı və urbanizasiya .... ...... 336
5.3. Şəhər və paytaxt fenomeni: tədqiqatın nəzəri aspekti, ümumi və fərdi xüsusiyyətləri ................................. 364

**NƏTİCƏ** ............................................. 378
**ƏDƏBİYYAT** ............................................. 387
**İXTİSARLA YAZILMIŞ SÖZLƏR** ..................... 397

# GİRİŞ

Şəhərlərin yaranması, urbanizasiyanın formalaşması, sosial-iqtisadi inkişafın, istehsalın təmərküzləşməsinin, əhali məskunlaşmasının, elmi-texniki tərəqqiyə əsaslanan sənaye istehsalının nəticəsidir. İqtisadi, sosial, elmi-texniki əlaqələr üzrə mütərəqqi proseslərin məcmusu olan şəhər özündən başqa sair yaşayış məntəqələrinin, rayonların hərtərəfli inkişafına təsir edən urbaniləşmiş, təmərküzləşmiş, antropogen, texnogen təsirlər mühitin ekoloji cəhətdən gərginləşmiş sahəsidir.

Kapitalist istehsal münasibətlərinin formalaşmasına qədər Azərbaycanda şəhərlərin inkişafı ləng gedirdi və həmin dövrdə Azərbaycanda 5 şəhər mövcud idi. XIX əsrin əvvəllərində kapitalist istehsal münasibətlərinin inkişafı ilə yanaşı, Azərbaycanda neftçıxarma, neft emalı, neftmaşınqayırma sənayesinin geniş vüsət alması Bakı şəhərində və Abşeronda bir sıra şəhər tipli qəsəbələrin yaranmasına şərait yaratdı.

Artıq XIX əsrin axırlarında və XX əsrin əvvəllərində Abşeronda şəhər tipli yaşayış məntəqələri haqda məlumat verilmişdir. Rəsmi məlumatlara əsasən 2000-ci ildə əhalinin siyahıya alınmasının nəticələrinə görə Azərbaycanda olan şəhər əhalisinin 30 faizə qədəri Abşeronda məskunlaşmışdır. Bir çox mütəxəssislər tərəfindən neqativ, subyektiv hal kimi qiymətləndirilən belə vəziyyəti fikrimizcə, obyektiv proses kimi qiymətləndirmək olar. Bunu yaradan əsas iqtisadi, sosial amil Abşeronda neft və qazçıxarma, onların emalı, nəql edilməsi, sənaye istehsalının təmərküzləşməsi və bunların yaratdığı urbanizasiya prosesləridir.

Urbanizasiyanın inkişafı bu prosesin nəticəsi olan aqlomerasiyanın nizamlanması aktual olsa da, nisbətən az öyrənilmiş və həll edilməsi çətin olan mürəkkəb problemdir. Son illərdə ölkənin iqtisadi, sosial, siyasi həyatında baş vermiş əsaslı dəyişikliklər coğrafi-ərazi, istehsal baxımından

elə mühüm,çoxsahəli, dinamik prosesdir ki, onlarla əlaqədar ortaya çıxan yeni reallıqları elmi surətdə dərk edib, dövrün tələbatına uyğun tədqiq etmək müasir dövrdə də aktual problemə çevrilmişdir.

Yeni istiqlaliyyət qazanmış suveren Azərbaycan Respublikasının inkişafının müasir şəraitdə urbaniləşmiş və təmərküzləşmiş şəhərsalma siyasətini, iqtisadi-sosial coğrafi prinsiplərə əsaslanmadan, iqtisadi, sosial, ekoloji tədbirlərin həyata keçirilməsi mümkün deyil.

Azərbaycan Respublikasında şəhər problemlərinin iqtisadi, sosial-iqtisadi-coğrafi cəhətdən öyrənilməsi əsasən 1960-cı illərdən-Bakı-Sumqayıt aqlomerasiyasında urbanizasiyanın və istehsalın təmərküzləşməsi vaxtından başlanır.

Bu dövrdə şəhərlərdə əhali məskunlşmasının geniş vüsət almasını təbii olaraq qanunauyğun hesab etmək olar. Bu ondan irəli gəlirdi ki, sosialist şəhərləri məskunlaşmanın tədqiqat obyekti olmaqla qeyri-sabitlik, kəmiyyət və keyfiyyət dəyişkənliyi təmayülündə inkişaf edirdi, iri şəhərlərin əhalisi əsasən miqrasiya hesabına artırdı. O vaxt bu proses şəhər təsərrüfatının, xüsusilə sənaye istehsalının, xidmət sahələrinin; iş yerlərinin açılmasının kənd yerlərinə nisbətən daha sürətlə inkişafı ilə əlaqədar təşəkkül tapırdı.

Sonralar yuxarıda göstərilən proseslər bir qədər sabitləşdiyindən, şəhər ətrafı zonalarda, rayon yerlərində yaşayış məntəqələrinin bir növ «şəhərləşdiyindən» respublika şəhərlərində artan təmərküzləşmə proseslərində urbanizasiya sabit olaraq inkişaf etməyə başlamışdır. Belə şəraitdə elmi-texniki, mədəni-maarif, iqtisadi, sosial inkişaf aspektində dövlətin müvafiq proqramla, modellərlə idarə edilməsində şəhərlər müəyyən iqtisadi-coğrafi mövqedə urbanizasiyanın, təmərküzləşmənin mühüm fəaliyyət meydanı kimi əhəmiyyət kəsb edirdi.

Məlumdur ki, əhali məskunlaşmasının yüksək mərhələsi olan urbaniləşmiş şəhər mühiti müəyyən aqlomerasiya, kommunikasiya daxilində müxtəlif təmayüllü əmək tutumu

müəssisələrinə, xidmət sahələrinə, bunların əmələ gətirdikləri infrastruktur əlaqələrinə malikdir.

Maddi, qeyri-maddi istehsal sahələrinin, sair obyektlərin iqtisadi-coğrafi məkanda paylanması urbanizasiya, təmərküzləşmə, aqlomerasiya sistemindəki şəhər mühitində ərazi-istehsal, xidmət sferası quruluşunu formalaşdırır və bunların sayəsində funksional areal yaradır. Şəhərin funksional ərazi daxilində baş verən mürəkkəb və ziddiyyətli münasibətlərin nizamlayıcı təsir sferasının, iqtisadi-sosial inkişafın, urbanizasiyanın layihələşdirilməsinə, idarə edilməsinə dair xüsusi maraq yaradır.

Bunların həyata keçirilməsi üsulunun metodoloji aspekti iqtisadi-coğrafi məkan sistemində inzibati «idarəçilikdən», şəhərdaxili elementləri formalaşdıran iqtisadi, sosial, ekoloji, urbanizasiya, təmərküzləşmə proseslərinin «nizamlanması» üsulunun tətbiq edilməsindən ibarətdir.

Urbanizasiyanın xüsusi rolu onun şəhər mühitinin əmələ gəlmə mənşəyindən başlayır. Sosial-iqtisadi, mədəni, demoqrafik, məskunlaşma evolyusiya proseslərinin tarixi mərhələlərində mövqelərini genişləndirir, kəmiyyət və keyfiyyət baxımından inkişaf etdirilir. Lakin ictimai, iqtisadi, iqtisadi-coğrafi proses kimi urbanizasiyanın şəhər mühitində formalaşması müəyyən tarixi mərhələdə dövrün inkişafına münasib çoxsahəli, çoxcəhətli mövqedə dəyişikliyə məruz qalır. Yenidənqurma prosesləri şəhərlərin daha geniş sivilizasiya təmayülündə inkişaf etdirilməsinə, aqlomerasiya çərçivəsində urbanizasiya proseslərinin intensivliyinə təsir göstərir.

Urbanizasiyanın genişlənməsi, əhali məskunlaşması ilə əlaqədar iqtisadi, sosial tərəqqinin yeni təmayülləri, texniki tərəqqinin, elmin, maarifin və mədəniyyətin inkişafına uyğun müvafiq peşələr, ixtisaslar, adət və ənənələr yaranır. Eyni zamanda şəhərlərin, ərazi miqrasiyasından, məskunlaşma səviyyəsindən asılı olaraq urbanizasiyanın xüsusiyyətləri, tipləri, intensivliyi müasir dövrdə şəhərlərin inkişafında

istehsalın, xidmət sahələrinin yerləşməsi və fəaliyyətində müxtəliflik mürəkkəblik, qeyri-bərabərlik, çoxcəhətli iqtisadi-sosial əlaqələr yaradır, mütərəqqi, yeni inteqrativ fəaliyyəti genişləndirir.

Təsadüfi deyil ki, şəhərlər və urbanizasiya problemi müxtəlif elm sahələrinin, müvafiq mütəxəssislərin-sosioloqların, iqtisadçıların, coğrafiyaşünasların və b. tədqiqat obyektidir. Bu ondan irəli gəlir ki, urbanizasiya və onun nəticəsində formalaşan şəhərlər coğrafiya elminin bütün qollaı tərəfindən öyrənilən proses və problemlərin nəhəng, geniş meydanıdır. Bu aspektdə ictimai elmlərlə şəhərsalma sintezləşən fiziki coğrafiya, diyarşünaslıq, tarix, şəhərşünaslıq və b. ilə əlaqəli inkişaf edir. Buradan obyektiv olaraq belə nəticə çıxarmaq olar ki, şəhər və urbanizasiyanın çoxcəhətli mürəkkəb problemlərini bir elm çərçivəsində öyrənmək və dərk etmək mümkün deyil.

İnteqrasiya və layihələşdirmə, urbanizasiya baxımından şəhərlərin öyrənilməsi müxtəlif elmlərin-iqtisadiyyatın, iqtisadi-sosial coğrafiyanın, şəhərsalma mütəxəssislərinin tədqiqat obyektidir. Özlərinin cazibə qüvvəsi dairəsində kənd rayonları əhatəsində şəhərlər sıx qarşılıqlı əlaqələr, inteqrasiya prosesləri əmələ gətirir və bir növ keçmiş dövrə xas olan bağlılığı, qapalılığı aradan qaldırır.

Müasir dövrdə şəhər aqlomerasiyasının və nəqliyyat-iqtisadi əlaqələrinin genişlənməsi, şəhərlərlə kəndlər arasındakı mühüm fərqlərin aradan qaldırılması, ərazi və region sistemində iqtisadi-sosial məskunlaşma fəaliyyətini, miqrasiya əlaqələrini genişləndirir. Azərbaycan şəraitində bunları inkişaf etdirən, formalaşdıran amillər aşağıdakılardan ibarətdir:

a) şəhərlərdə elm və texnika baxımından mütərəqqi ixtisaslı mütəxəssislər, işçi qüvvəsi tələb edən sənaye istehsalının, nəqliyyat vasitələrinin, əhaliyə xidmət sahələrinin təmərküzləşməsi;

b) şəhər mühitinin, onun cazibə ərazisinin urbanizasiya,

aqlomerasiya proseslərinə, bununla yanaşı, ekoloji mühitin antropogen, texnogen təsirə məruz qalması;

c) ərazinin iqtisadi, sosial, təbii potensialının, əmək ehtiyatlarının istifadəsi baxımından mənimsənilməsi və səmərəli istifadəsi;

ç) ətraf rayonlardan, şəhəryanı zonalardan «qabarma» və «çəkilmə» təmayülündə kənara mərkəzə doğru əhali hərəkəti;

d ) kəndlə şəhər arasında istehsal vasitələri malları, ərzaq məhsulları, xidmət sferası üzrə iqtisadi əlaqə və mübadilə;

e) şəhərin cazibə zonasının sərhədi daxilində əmək, sosial, məişət əlaqələri, ucqarla mərkəz arasında fəaliyyəti genişləndirən «rəqqas miqrasiyası» və s.

Tarixən belə vəziyyət yaranmışdır ki, Bakı şəhəri neft-qaz mədənləri; onların istismarı rayonları əhatəsində yerləşib. Hazırda Bakı şəhəri və onun əhatə etdiyi şəhər neft mədənləri, sənaye müəssisələri, sıx əhali məskunlaşmasına malik 50-dən çox şəhər tipli və fəhlə qəsəbələri, biri-biri ilə kəsişən yollar əhatəsində yerləşdiyindən, ərazisinin üfüqi istiqamətdə-ekstensiv surətdə genişləndirilməsinə imkan çox məhduddur. Belə vəziyyət müəyyən məkanda Bakı-Sumqayıt şəhər sovetləri ərazisində, xüsusilə sıx tikililərə, qurğulara, kommunikasiyalara malik, dənizkənarı rekreasiya zonalarından və aqrosənayenin inkişafı üçün asudə torpaq sahələrini məhdudlaşdırır. Belə proses rekreasiya zonalarından, torpaq sahələrindən istifadə etmək imkanları intensiv surətdə urbanizləşmiş Bakı və Sumqayıt şəhərlərindən kənarda aparılır ki, bu da urbanizasiya prosesi istiqamətində məskunlaşmalarını artırır.

Bunlara münasib göstərilən şəhərlərin xarici cazibə qüvvəsi olan və urbanizasiyaya məruz qalan rayonlarda «şəhərləşmə» prosesləri güclənir, sənaye, nəqliyyat, aqrosənaye, xidmət sahələri arasında infrastruktur əlaqələrin yaranması problemi ortaya çıxır.

Gəncə, Əli-Bayramlı, Mingəçevir, Naxçıvan, Şəki, Yevlax və s. şəhərlərə gəldikdə isə onların əhatə zonalarında rekreasiya, aqrosənaye, şəhəryanı təsərrüfatlarla yanaşı, asudə əmək qabiliyyətli əhali üçün iş yerləri aça bilən emal sənayesinin inkişaf etdirilməsi zəruri hesab edilir.

Şəhərlər nəhəng tərəqqi potensialına, cazibə qüvvəsinə malik olan lokal ərazi daxilində fəaliyyət sistemidir. Şəhərlərin, onların peyki olan urbanizasiyanın nizamlanması, inkişafı obyektiv qanunauyğunluqların, elmi-praktiki, iqtisadi-coğrafi aspektdə hesaba alınması, dərk edilməsi əsasında mümkündür.

Azərbaycan şəhərlərinin, şəhər urbanizasiyasının, sənaye-istehsal, nəqliyyat təmərküzləşmə sisteminin öyrənilməsində və şəhərsalınma proseslərində dövri olaraq dəyişikliyə, dəqiqləşməyə məruz qalan layihələşdirmə metodlarının, normativlərin, riyazi modellərin tədqiqatının araşdırılmasını qarşıya qoymamışdır, çünki bunlar bir sıra texniki elmlərin, memarlığın, şəhərlayihələşdirmə mütəxəssislərinin səlahiyyətinə aiddir.

Bizim əsas məqsədimiz sosial-iqtisadi, iqtisadi-coğrafi, ekoloji, məskunlaşma, yaşayış məntəqələrinin əlaqəli mövqeyində və funksional sistemində şəhərlərin inkişafının, urbanizasiyasının, onlarla əlaqəli miqrasiya proseslərinin müəyyən ərazi sistemində fəaliyyətini, qarşılıqlı əlaqələrini tədqiq etməkdən ibarətdir. Belə hesab edirik ki, oxuculara təqdim etdiyimiz kitabda buna nail olmuşuq. Şəhər urbanizasiyasının coğrafi, sosial problemləri üzrə sabiq sovet hakimiyyəti illərində çoxlu kitablar, məqalələr yazılmış, elmi konfranslar, simpoziumlar keçirilmişdir. Sovet alimlərindən B.A.Baburin, N.N.Baranski, V.M.Qoxman, S.A. Kovalyov, N.Y.Kovalskaya, L.V.Koçetkov, S.B.Lavrov, Q.M.Lappo, F.M.Listenqurt, O.P.Litovka, Y.M.Moyerqoyz, E.N.Pertsik, V.V.Pokşişevski, Y.Q.Sauşkin, D.Q.Xocayev, B.S.Xorev və b. bu problemə dair sanballı əsərlərin müəllifləridir. Azərbaycanın alim-coğrafiyaşünaslarından Ə.M.Hacızadə,

A.A.Nadirov, Ş.Ə.Göyçaylı, M.A.Abramov, N.A.Babaxanov, Ş.K.Dəmirqayayev, E.Q.Mehrəliyev, K.M.Məmmədov, Ş.M.Muradov, N.Ə.Nəbiyev, M.A.Nəcəfquliyev, C.Z.Rəşidov, A.H.Salmanov R.İ.Umudova, N.Q.Eyyubov və başqalarının urbanizasiya və şəhər problemləri üzrə elmi-tədqiqat işlərinin yerinə yetirilməsində görkəmli xidmətləri vardır.

Elmi-tədqiqat işlərinin, elmi-pedoqoji fəaliyyətinin nəticələri əsasında giriş hissəsindən, 20 bölməni əhatə edən bu kitabın 5-ci fəslində şəhərlərin, şəhər urbanizasiyasının nəzəri və metodoloji əsasları, iqtisadi-sosial inkişafın əsas mərhələləri və urbanizasiyasının iqtisadi-coğrafi amilləri, ekoloji mühitin, demoqrafik inkişafın, təbii sərvət potensiallarının qiymətləndirilməsi, şəhərlərin funksional tipoloji təsnifatı, istehsal ixtisaslaşması, genetik funksiyaları, bu aspektdə urbanizasiya fenomeni, şəhərlərin ərazi inkişafı problemləri haqqında elmi-praktiki tədqiqatlar araşdırılır. Müəllif belə hesab edir ki, kitab geniş oxucu kütləsi, elmi ictimaiyyət, ali məktəb müəllimləri, tələbələri, magistrlər üçün faydalıdır, iqtisadi-coğrafi fənlərin tədrisində dərs vəsaiti kimi istifadə edilə bilər.

İlk dəfə Azərbaycan Respublikasında şəhərlərin inkişafı urbanizasiyasının coğrafi problemlərinə həsr edilən bu kitab müvafiq sahədə olan çoxcəhətli və geniş problemlərin hamısını əhatə etmir. Bir çox illərin tədqiqatı, elmi araşdırmalar əsasında yazdığımız bu kitabda nəzərə çarpan nöqsanlar, çatışmazlıqlar, təkliflər haqqında mülahizələrini bizə bildirən oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk.

# ŞƏHƏR URBANİZASİYASININ NƏZƏRİ, METODOLOJİ ƏSASLARI, ŞƏHƏR MÜHİTİ İNKİŞAFININ QANUNAUYĞUNLUQLARI VƏ NİZAMLANMASI

## 1.1. Şəhər urbanizasiyasının nəzəri və metodoloji əsasları

Cəmiyyətin, elmi-texniki tərəqqinin, sənaye istehsalının müasir inkişafı dünyada baş verən ekoloji, iqtisadi, sosial gərginlik, regional mövqedə informasiya-əlaqələr sistemini, urbanizasiyasını genişləndirir. Belə şəraitdə insanların sənaye-istehsal fəaliyyətini, elmi-texniki potensialını müasir tələblər səviyyəsində yaradıcı qüvvəsini, bacarığını , bunlara münasib yeni-yeni istehsal vasitələrinə, ərzaq məhsullarına, xidmət sahələrinə tələbatı artırır. Eyni zamanda insanların özlərində də yeni tələbat zəruriliyi ortaya çıxır. Bu proses elmi-texniki tərəqqinin sürəti və gərginliyi, informasiya əlaqələrinin inkişafı, mədəniyyətin, səhiyyənin, xidmət sahələrinin səviyyəsi, eləcə də şəhərlərə xas olan həyat tərzinin sivil inkişafı, cəmiyyətlə təbiət, onlarla istehsal, ekoloji mühit arasındakı fəaliyyəti əlaqələndirir.

İndi yer kürəsi şəhərlərində 2,4 mlrd., yaxud ümumi əhalinin 40 faizi yaşayır. İnkişaf etməkdə olan ölkələrin 20 şəhərində 120 mln. nəfərdən artıq əhali məskunlaşıb. MDB ölkələri şəhərlərində, o cümlədən Azərbaycanda əhalinin yarısı şəhərlidir. Müasir urbanizasiya prosesi keçmiş dövrlərdən prinsipial olaraq nəinki sürətli inkişafla, eləcə də iri şəhərlərin coğrafiyasının, tiplərinin, formalarının, üslublarının universallığı, şəhər mühiti inkişafı proseslərinin keyfiyyət göstəriciləri ilə fərqlənir.

Memarlıq üslubu baxımından şəhər mühitinin estetikası, kənd yerlərinə nisbətən mənzil-məişət, xidmət sahələrinin

səmərəli təkmilləşdirilməsi, asudə vaxtlarda əylənmənin, istirahətin təmin edilməsi, urbanizasiyanın, istehsalın təmərküzləşməsinin müasir şəraitində, şəhər həyatına uyğunlaşma, sakinlərin belə mürəkkəb proseslərə qoşulması da şəhər mühitini bir daha gərginləşdirir.

Əhalinin sənaye mallarına, ərzaq, xidmət, mədəni-məişət məhsullarına tələbatının artması şəhər həyatı tərzindən irəli gəlir, çox hallarda insanları biri-birindən təcrid edilmiş vəziyyətdə saxlayır, bir növ qapalı, fərdi yaşayış tərzini formalaşdırır. Belə şəraitdə meqapolis, istehsalla, nəqliyyat vasitələri ilə təmərküzləşmiş yeni inteqrativ formalı urbaniləşmiş struktur yaranır. Göstərilən mürəkkəblikdə çox vaxt biri-birinə əks vəziyyət yaranır ki, bütün problemlərin açarı-"səbəbkarı" olan və onların həllində iştirak edən urbanizasiya problemi özünəməxsus xüsusi forma alır.

Qeyd etmək lazımdır ki, şəhərlərin real inkişaf prosesləri və onların əsasında istehsalın, xidmət sahələri sferasının proqnozlaşdırılması və bunların həyata keçirilməsi üzrə tədbirlər görülməsi urbanizasiya problemlərinin onlara münasib uzlaşdırılması zəruri şərt kimi ortaya çıxır. Birincisi, ona görə ki, urbanizasiya problemlərinin həlli çox mühüm, xüsusi əhəmiyyətli məsələlərin məzmun, mahiyyət baxımından cəmiyyətin inkişaf qanunlarının fəaliyyəti ilə əlaqədardır. İkincisi, şəhər urbanizasiyası üzrə tədqiqat işlərinin həyata keçirilməsi, şəhərlərin məskunlaşma proseslərinin xarakterinin müəyyən edilməsi, eləcə də şəhərlərin iqtisadi, sosial həyat tərzi əlaqəsinin forması və təşkili, mövqeyi cəmiyyətin idarə edilməsində zəruri şərt kimi qiymətləndirilir.

Urbanizasiya proseslərinin yaranmasında, inkişafında, onun məzmun və əhəmiyyətində aşağıdakı təmayüllər yaranır. İlk növbədə şəhərdə urbanizasiya və onunla cəmiyyət arasındakı qarşılıqlı əlaqə inkişaf edir. Müəyyən iqtisadi, sosial şəraitdə məskunlaşma və şəhəri əhatə edən ətraf rayonlarla çoxcəhətli əlaqə yaranır. Deyilənlər bir çox tədbirlərin həyata keçirilməsi sahəsində, coğrafitədqiqat metodları-

nın tətbiqini tələb edir.

Burada ilk növbədə müəyyən urbanizasiya şəraitində şəhərin rolu və yaradıcı, aparıcı amillərin mövqeyinin qiymətləndirilməsi, araşdırılması nəzərdə tutulur. Buna münasib şəhər mühitinin elmi-praktiki araşdırılmasında xüsusi əhəmiyyətə malik, tədqiqatçılar arasında mübahisə doğuran «urbanilaşmiş struktur», «urbanilaşmiş ərazi», şəhərlərin yaradıcı, təşkilati mövqeyin formaşmasının dərk edilməsi yeni aspektlər təmayülündə sosial, iqtisadi, demoqrafik, fəlsəfi baxımdan da təhlil edilməlidir.

Müasir tədqiqatlarda urbanizasiya prosesi ilk növbədə müxtəlif məzmunlu, funksional xarakterli və şəhərlə sıx əlaqəli olan «urbanilaşmiş mühitlə» əlaqədar öyrənilməlidir.

«Urbanilaşmiş mühit» insanların həyatı, sənaye müəssisələrinin fəaliyyəti və mövcudluğu, cəmiyyətlə-təbiətin qarşılıqlı əlaqələri üçün xüsusi mühit kimi qiymətləndirilir. Məsələn, coğrafi nöqteyi-nəzərdən urbanizasiyanın əsas məzmunu yuxarıda göstərilən «urbanilaşmiş ərazi mühitinin səviyyəsindən» ibarətdir. Müvafiq sahədə olan ədəbiyyatlardan istifadə və onlardan nəticə çıxarılması urbanizasiyanı aşağıdakı məzmunda qəbul etməyə imkan verir.

Urbanizasiya üçün təmərküzləşmə prosesi, qeyri-kənd təsərrüfatı istehsalının, nəqliyyatın intensiv inkişafı, şəhər yaşayış tərzinin formalaşması, məskunlaşmanın mütərəqqi formaları, şəhər mədəniyyətinin, təhsil və səhiyyənin qabaqcıl sahələrinin inkişafı səciyyəvidir. Əhəmiyyətinə görə urbanizasiya müəyyən tarixi mərhələlərdə, cəmiyyətin daxilində, şəhər mühitində formalaşmış sıx əhali məskunlaşmasının məzmunudur.

Müasir urbanistikada şəhər urbanizasiyasını yaradan, formalaşdıran təmayülün səbəblərinə, sisteminə xüsusi diqqət verilir. Buradan belə nəticəyə gəlmək olar ki, məskunlaşmanın tarixi əhalinin şəhər həyat tərzindən, istehsal münasibətlərindən, sənaye, nəqliyyat fəaliyyətindən yaranan obyektiv prosesdir. Geniş mənada özünəməxsus sosial,

iqtisadi inkişaf edən şəhər münasibətləri urbanizasiyanın məzmununu təşkil edir.

Urbanizasiya prosesi universal deyil, müxtəsər tarixi fenomendir. Bu prosesin yaranması, kapitalist istehsal münasibətlərinin formalaşması, sənaye istehsalının özülü olan bu münasibətlər nəticəsində şəhəri beynəlxalq əlaqəli mərkəz roluna qədər qaldıran, bütün münasibət əlaqələrində yeni strukturların təmərküzləşməsi ilə sıx əlaqədardır.

Urbanizasiya şəhər yaşayış məntəqələrinin inkişafı, ərazi sistemində yayılması və şəhərlərin intensiv məskunlaşma rayonuna, sosial, iqtisadi rayona çevirilməsi ifadəsi kimi xidmət sahələrinin təmərküzləşməsinin əsas mərkəzidir. Urbanizasiya özünəməxsus həyat tərzinə və müasir şəhərlər üçün səciyyəvi olan elə kompleksdir ki, onun nəticəsi məhsulu kiçik şəhərlərin, çoxlu kənd yaşayış məntəqələrinin, dövlətlərin də ayrı-ayrı malı olur.

Urbanizasiyanı stimullaşdıran, gücləndirən amil ictimai əmək bölgüsü, o cümlədən intellektual əməyin tərəqqisi, elmin bilavasitə məhsuldar qüvvələrə çevrilməsi şəraitində-qeyri kənd təsərrüfatı sahələrinin fəaliyyət dairəsinin artırılmasıdır.

Buna görə sənaye istehsalı, nəqliyyat vasitələri fəaliyyətinin artdığı dövrdə urbanizasiyanı şəhər yaşayış məntəqələrinin inkişafı, xüsusilə şəhərlərdə əhali təmərküzləşməsinin müasir iqtisadi və sosial sahədə dərin quruluş dəyişkənliyinə məruz qalan şəhər həyat tərzinin yayılmasının ifadəsi kimi qiymətləndirmək lazımdır.

Urbanizasiyanın ərazi aspekti hər hansı rayonun, buna məruz qalan zonaların (*ancaq zonaların, areal və rayonların yox*), urbanilaşmiş ərazilərin bölgüsü, şəhər yaşayış məntəqələrinin ayrılması ilə deyil, məskunlaşmanın intensivliyi ilə ifadə edilir. Urbanizasiya şəhər mühitində sıx əhali məskunlaşmasının təzahürüdür. İnkişaf etmiş ölkələrdə sənaye, nəqliyyat, ticarət, mədəniyyət sahələrinin sıx yerləşdiyi mərkəzlərdə urbanilaşmiş şəhər mühiti suburbanizasiya yaradır.

Bu, iri şəhərlərin, şəhərətrafı zonaların sürətli inkişafının nəticəsindən irəli gəlir. Belə proses bir çox şəhər tipli qəsəbələrin kiçik, orta şəhərlərin, şəhər ətrafı yaşayış məntəqələrinin birləşməsi vasitəsilə bütövlükdə aqlomerasiya yaradır.

Urbanilaşmiş Baki, Sumqayıt şəhərləri ərazisini müəyyən mənada aqlomerasiya, suburbanizasiya adlandırmaq olar. Lakin London, Moskva, Nyu-York, Mexiko, Şanxay, Tokio şəhərlərinə xas olan subaqlomerasiya, suburbaniyasiyanın nəticəsi-şəhərlə bərabər şəhəryanı zonalarında intensiv əhali məskunlaşmasıdır. Suburbanizasiya prosesi mərkəzdə yerləşən ərazinin məhdudlaşması, bəzən tükənməsi üzündən müəyyən mərkəzə yaxın aqlomerasiya ərazilərinin əyalətlərin qarışdırılmasının (*birləşdirilməsinin*) ifadəsidir.

Mühüm proses kimi urbanizasiya xüsusi sosial, mədəni inkişafa malik, sənayeləşmiş, təmərküzləşmiş orqanizm olan şəhərin törəməsidir. Şəhər isə tarixi fenomen kimi konkret cəmiyyətdə yenilik törədən və öndə gedən obyektdir. Bunlara münasib olaraq urbanizasiya şəhərdə cəmiyyətin inkişafının məcmusu və prinsipi kimi çıxış edir.

Yuxarıda göstərildiyi kimi urbanizasiyanın formalaşması şəraitində ümumi mədəni, demoqrafik, tarixi, iqtisadi, sosial cəhətdən şəhərin qiymətləndirilməsi aşağıdakı amilləri əhatə edir:

a) xüsusi fenomen kimi cəmiyyətin istehsal, sosial, mədəni potensialını özündə birləşdirib, inkişaf etdirən funksiyasını;

b) bunların meydana çıxmasının obyektiv səbəblərini;

c) xüsusi orqanizm kimi funksiyanın təkrar istehsalını;

ç) yeni informasiya toplusu sistemində gələcəkdə dəyişikliyə, tərəqqiyə məruz qalan obyektiv urbanizasiya proseslərinin öyrənilməsi, mürəkkəb strukturlu, funksiyasının təyin edilməsi ümumi, sosial evolyusiya prosesində tarixi proseslərin qiymətləndirilməsi.

Urbanizasiya ifadəsi qədim və müasir şəhərlərin problemlərinə dair tədqiqatların tarixi mərhələləri üzrə cəmiyyətin inkişafında yeni şəhərlərin yaranmasının və formalaşmasının təzahüründən yaranmışdır.

Bu baxımdan, urbanizasiya şəhərin formalaşması prosesi kimi başqa yaşayış məntəqələrinə nisbətən əhali məskunlaşmasının xüsusi amili olmaqla yanaşı, şəhər mühitinin intensivləşdirilməsinə, istehsalın təmərküzləşməsinə, izafi məhsulların alınmasına təsir edən mühüm amildir.

Tarixi proses kimi urbanizasiya kənd yaşayış məntəqələrinə nisbətən sıx əhali məskunlaşmasına malik şəhərlərin formalaşmasında iştirak edən iqtisadi-coğrafi, sosial sənayeləşdirilmiş iqtisadi amildir. İstehsalın təmərküzləşdiyi, əhali urbanizasiyasına, ekoloji tarazlığın pozulmasına məruz qalan şəhər və onun cazibə qüvvəsi dairəsində, təsərrüfatda, ərazi sistemində xüsusi yer tutan istehsala və əhalinin xidmət sahələrinə də təsir edir.

Belə şəraitdə urbanizasiya nəinki cəmiyyətin ümumi inkişafına, eləcə də müəyyən mərhələdə özündən kənar «cazibə» rayonlarında «şəhər mühitinin» təsirini yayır, şəhər yaşayış tərzini genişləndirir. Şəhərin özünəməxsus funksional inkişafı onu başqa yaşayış məntəqələrindən, məsələn, iqtisadi, sosial baxımdan xeyli fərqli, çox hallarda ziddiyyətli olan kənd yaşayış məntəqələrindən ayırır.

Lakin bu ayrılma ziddiyyətli deyil, ümumi inkişaf fonunda baş verir, iqtisadi, sosial, demoqrafik baxımdan şəhərlə kənd əlaqəli inkişaf edir. Şəhərin başqa strukturla, xüsusilə onun funksiyasına daxil olan iqtisadi, sosial amillərlə əlaqələrinə gəldikdə qeyd etmək lazımdır ki, bu prosesin ilk mənbəyi qədim sivilizasiyanın davamı kimi nəzərə alınmalıdır. Fərq ondadır ki, müasir sivilizasiya şəraitində urbanizasiya intensivliyi və geniş ərazi tutumluğu ilə keçmişdə olduğundan sürətli inkişafa malikdir.

Tarixi mərhələlərdə olduğu kimi, urbanizasiya prosesi müasir dövrdə də inkişaf etməkdə, dəyişməkdə olan şəhər

Б Д У-нун
Елми
китабханасы

mühitinin tələblərini, onun həyata keçirilməsi mexanizmini müəyyən edən fasiləsiz fəaliyyət göstərilən sosial-iqtisadi vasitədir. Bu planda urbanizasiya hərəkəti sadəcə olaraq, yeni element deyil, müəyyən çərçivə (*şəhər mühiti*) daxilində sosial inkişafın mühüm elementidir.

Urbanizasiya prosesi cəmiyyətin sosial əhatəyə, bu sistemdə sıx əhali məskunlaşma ərazisinə daxil olması, yeni məzmun kəsb edən ictimai inkişafa keçməsi ilə əlaqədar hərəkət fəaliyyətində iştirak edir. Burada urbanizasiya tarixi mərhələlərdə əhali məskunlaşması, istehsal təmərküzləşmə obyekti olan şəhər mühitinin inkişaf tərzinə keçməkdə müasir yaradıcı funksiyanın həyata keçirilməsində iştirak edir.

Urbanizasiya mədəniyyət, sosial-iqtisadi inkişaf mərhələlərində, keçici, xüsusi və zəruri komponent və sərbəst proses kimi formalaşır. Bu keyfiyyətdə urbanizasiya sivilizasiya proseslərində, şəhər mühitinin formalaşmasında xüsusi «yük» daşıyan hərəkət prosesidir və sivilizasiya ilə sıx əlaqədə fəaliyyət göstərir.

Məlumdur ki, sosial-iqtisadi, elmi-texniki tərəqqinin, urbanizasiya proseslərinin dinamik fəaliyyətində onlara məxsus hərəkətin ümumi təmayülünü müəyyən edən xüsusi inkişaf zəmini formalaşır. Buna görə şəhər mühitində formalaşan urbanizasiyada struktur əmələgətirici komponentlərin, sivilizasiyanın inkişafında iştirak edən amillərin öyrənilməsi, məzmun səbəblərinin elmi surətdə araşdırılması üzrə gələcəkdə mütərəqqi əhəmiyyətli tədbirlərə yol açan substraktların ortaya çıxarılması tədqiqatın məqsədindən irəli gəlir.

Qeyd etmək lazımdır ki, bu planda cəmiyyətdə baş verən köklü inkişaf xüsusiyyətlərinin məzmunundan yaranan siviliyasiya tarixi proses kimi dövrü olaraq yeniləşir, şəhərlərin funksiyasından asılı olaraq keyfiyyət və kəmiyyət dəyişkənliyinə məruz qalır, iqtisadi, mədəni, sosial sahələrdə müstəsna təkamül prosesi kimi çıxış edir.

Əsasən şəhər mühitində baş verən sivilizasiya dedikdə

əmək bölgüsü əsasında yeni sosial-iqtisadi cəmiyyət yaradan anlayış başa düşülür. Habelə də təsərrüfatın, xüsusilə sənayenin daima hərəkətdə olan istehsal proseslərinin, əhalinin inkişafı və dərinləşməsi başa düşülür.

Bu planda urbanizasiya, istehsalın təmərküzləşməsinin əsas mənbəyi olan sivilizasiya istehsal bölgüsü, əmək bölgüsü, insanların ərazi bölgüsü kimi təzahür edir.

Özünün xüsusi vahidliyində, qarşılıqlı hərəkətində və asılılığında onlar yeni təzahürlərin - «sosial təzahürlərin», şəhərlərin funksional məzmunlarının, sivilizasiyasının, bu səpkidə əmək fəaliyyətinin təzahürünə şərait yaradır. Bu da böyük və iri şəhərlərdə, onların cazibə qüvvəsi olan şəhər ətrafı zonalarda urbanizasiya proseslərinin intensivliyini artırır, sosial təkamüldə kəmiyyət və keyfiyyət dəyişkənliyinə səbəb olur. Bu mənada şəhərlərin inkişafı, onların mədəni inkişaf təkamülündə yenilik gətirən tarixi prosesdir.

Sivilizasiyaya xas olan belə tarixi vəziyyət ictimai əmək, istehsal, fərdi mülkiyyət bölgüsü, diferensləşdirilmiş istehsal, sosial, mədəni, xidmət sahələrinin funksional fəaliyyəti və vəziyyəti daxilində baş verir.

Yuxarıda göstərdiyimiz bölgü prinsiplərinə əsaslanan ictimai, iqtisadi münasibətlər cəmiyyətdə azad inkişaf hüdudunu, insanların intellektual yaradıcılığını, dövrün tələblərinə uyğun vətəndaşların mədəni, elmi-texniki tərəqqisini, zaman və məkan daxilində ortaya çıxan müsbət və mənfi hadisələrin qarşılıqlı əlaqələrini nizamlayır, göstərilən sahələrdə mütərəqqi yolları, şəhərlərin funksiyasını müəyyən edir. Fəaliyyət və inkişaf səviyyəsinə görə urbanizasiya şəhər-ərazi daxilində iqtisadi, sosial-demoqrafik sistemlərin təmərküzləşməsinin, əhalinin məskunlaşmasında sair yaşayış məntəqələrindən fərqlənən ictimai kateqoriyadır. Belə şəraitdə xüsusi sosial, iqtisadi orqanizm kimi və özünün inkişaf mərhələlərində müəyyən ərazi daxilində sıx infrastruktur yaradan şəhərlər urbaniləşmiş sivilizasiya «ocağını» formalaşdırır.

Müasir urbanizasiyanın dəyişdirici-təkmilləşdirici fəaliyyəti inkişaf vəziyyətinin, onların ərazi-istehsal sistemində tutduğu mövqeyin, hərəkət fəaliyyətinin, istehsalın təmərküzləşməsinin nəticəsi kimi qiymətləndirilir. Urbanizasiya bir tərəfdən cəmiyyətin yaradıcı qüvvəsinin inkişafı, onunla şəhər mühitində təmərküzləşən istehsal sahələrinin, formalaşan intellektual qüvvə arasında uzlaşmanın ifadəsi olaraq təzahür edir. Digər tərəfdən, mövcud olan mütərəqqi, yaradıcı amillərin əlaqəsinin, cəmiyyətin, insanların inkişafında, şəhərdən kənar rayonlarda tətbiq edilməsini təmin edən ictimai-sosial prosesdir.

Urbanizasiyanın belə qanunauyğunluğu son nəticədə inkişafın özül-etimoloji xarakteri ilə müəyyən edilir və bu aspektdə yenilik gətirən mütərəqqi amillər hər yerdə yaranmır, əlverişli şəhər mühitində, sənaye mərkəzlərində baş verir.

Mütərəqqi inkişaf prosesi kimi son mərhələ cəmiyyətin təkrar istehsal qabiliyyətinin, ətraf mühitin potensial hərəkəti daxilində müxtəlif ərazi şəraitində qarşılıqlı fəaliyyətini yerinə yetirir. Urbanizasiyanın özünəməxsus xassəsi funksiyası sivil ölkələrə məxsus inkişaf təzahürü kimi şəhərin və onun mühiti daxilində uzun müddət əvvəlki inkişaf fəaliyyətini saxlamır, dövrü olaraq dəyişir.

İnteqrativ başlanğıc hərəkəti kimi istehsal münasibətləri, elmi-texniki tərəqqi inkişaf edib təkmilləşdikcə onun parametrinin, miqyasının dəyişməsi nəticəsində bunlara münasib mütərəqqi qarşılıqlı fəaliyyət problemləri yaranır və bu, forma, məzmun etibarilə dəyişikliyə məruz qalır. Müasir istehsal münasibətləri, mülkiyyət formaları, informasiya, inkişaf (*qarşılıqlı hərəkət*) şəraitində bu sistem daxilində fəaliyyətdə olan urbanizasiya özünəməxsus əlaqələri saxlamaqla ərazinin mütərəqqi təmərküzləşməsinə, formalaşmasına uyğun olaraq genişlənir, daha da mürəkkəbləşir.

Hansı şəraitdə olursa-olsun urbanizasiya müəyyən mühit daxilində hərəkət mövqeyini dəyişdirir, formalaşır,

iqtisadi, sosial-mədəni mühitin təkmilləşdirilməsində iştirak edir. Bu səpkidə yeni məzmun alan urbanizasiyanın lokal-məkan, kəmiyyət, mahiyyət fəaliyyəti də dəyişir. Bu mənada urbanizasiya nəinki şəhər mühitinin göstəricisi, fəaliyyət prosesinin nəticəsi, eləcə də hərəkətdə olan müstəsna fəal dəyişdirici, şəhər mühitində yaranan sosial sistemin tərkib hissəsi, zaman və məkan daxilində iqtisadi-sosial inkişafın məhsulu kimi çıxış edir.

Çoxsaylı və müxtəlif variantlarda, istehsal, mədəni, ekoloji inkişaf təzahüründə və kontekstində, sosial-tarixi məzmunda hərəkət mahiyyətini saxlamaqla yanaşı, urbanizasiya istehsalla, cəmiyyətlə, müxtəlif mülkiyyət formaları daxilində qarşılıqlı inteqrasiya fəaliyyətini saxlayır, davam etdirir.

Şəhərlərin funksiyasından, ərazi tutumundan, istehsalın təmərküzləşməsindən asılı olaraq mürəkkəb təşkilatı, çoxplanlı, çoxsəviyyəli proses kimi ayrı-ayrı şəhər elementlərinin formalaşmasında, sənayenin, nəqliyyatın, əhali məskunlaşmasının, onların əmək fəaliyyətinin kiçik ərazi sistemində möhkəmlənməsində, aparıcı fəaliyyətin formalaşmasında urbanizasiya mühüm amil kimi çıxış edir.

Bu, prosesin obyektiv reallığı, XIX əsrdə şəhərlərin geniş surətdə inkişafı, miqrasiya hərəkətinin fəal, ölkələrin demoqrafik quruluşunda şəhərlərin xüsusi çəkisinin artması, meqopolislərin yaranması vaxtı dərk edilmişdir.

Yüz il bundan əvvəl dünyada tək-tək şəhərlərin əhalisi 100 min nəfər olduğu halda, indi onların miqdarı 300-dən çoxdur. Əhalisinin sayı 10 milyondan artıq olan onlarla şəhər var. İndi heç kimi təəccübləndirmir ki, yaxın illərdə dünyanın şəhər əhalisi kənd əhalisi ilə bərabərləşəcəkdir. Bu isə qlobal miqyasda iqtisadi, sosial-demoqrafik baxımdan həyəcan təbili və mürəkkəb proses kimi qiymətləndirilən superurbanizasiya bəşəriyyətin qarşısında çətin həll edilə bilən bir sıra problemlər yaradacaqdır.

Urbanizasiya proseslərinin, şəhərlərin genişlənməsinin

dərk edilməsi onunla çətinləşir ki, mahiyyəti, məzmunu, miqyası, istehsal sahələrinin təmərküzləşməsinə görə «şəhər» məfhumu dəqiq anlayışa malik deyil, bəzi hallarda onun sərhədi «şəhər-şəhər deyil» kimi də mübahisə doğurur. Elə kəndlər, şəhər tipli qəsəbələr var ki, onların əhalisi, istehsal təmayülü, funksiyası bir sıra şəhərlərin funksiyasından geri qalmır. Əlbəttə, belə obyektiv proses o demək deyil ki, bu kimi yaşayış məntəqələrinin hamısı gərək şəhərə çevrilsin.

Böyük Bakı ərazisində olan şəhər tipli qəsəbələrin əhalisi respublikanın rayon mərkəzi olan şəhərlərdən bəzən böyük olmasına və istehsal fəaliyyətinin, əsasən sənaye, ticarət, xidmət sahələri təşkil etməsinə baxmayaraq, onlar «şəhər» statusu almamışlar. Bunlara Əhmədli (*7,5 min*), Bakıxanov (*64,3 min*), Qaraçuxur (*69 min*), rayon mərkəzi Xırdalan (*28 min*), Biləcəri (*40 min*), Rəsulzadə (*42 min*), Buzovna (*24 min*), Lökbatan (*30 min*) və s. qəsəbələr daxildir.

Göstərilən şəhər tipli qəsəbələrə «şəhər» statusunun verilməməsinin səbəbi ondan ibarətdir ki, Bakı Şəhər İcra Hakimiyyətinin fəaliyyəti, idarəedici funksiyası daxilində siyahıyaalma, inzibatçılıq funksiyası da həyata keçirilir. Respublikada mövcud olan 114[1], bəzi məlumatlara görə 130[2] ştq-də də (*o cümlədən 50-si Abşeron iqtisadi rayonunda*) bütün şəhərlərə məxsus urbanizasiya prosesləri gedir.

Urbanizasiya şəhər həyat tərzinin stereotipi, texnoloji, şəhər mentaliteti yayan mühüm fəaliyyət prosesi kimi mahiyyətinə görə insanların biogenosenozunun inkişaf fazası, süni surətdə yaradılmış sənaye, nəqliyyat, sosial-mədəniyyət mühitin yaradıcısıdır. Fasiləsiz məskunlaşma prosesinin «məhsulu» olan urbanizasiya antropogenezin üzvü hissəsidir. Bu proses sənaye mərkəzlərində, nəqliyyat qovşaqlarında və ştq-lərdə də gedir.

Belə olduğu şəraitdə yaşayış məntəqələrinin urbanilәş-

---

[1] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. I hissə, 2001-ci il
[1] The informative coutografic referenubook of Azerbaycan, Baku 2000.

miş tiplərə ayrılmasında dəqiq meyar yoxdur. Müəyyən «sərhəd» daxilində kompakt məskunlaşma ərazisinin tarixən formalaşmış şəhərə daxil edilməsi urbanizasiya prosesi baxımından hələ ki «dayaq nöqtəsi» kimi qəbul edilmir.

İndi dünyada 6 mlrd. əhali məskunlaşan ərazini 4 tipə ayırmaq olar:

a) insan yaşamayan sərt təbii şəraitə malik rayonlar ekoloji tarazlığın inkişaf etdiyi buzlaqlar, yüksək, qayalı dağ zonaları;

b) seyrək məskunlaşan, insanların əmək və istehsal fəaliyyətləri nəticəsində antropogen, texnogen təsirlərə cüzi məruz qalan, təbiətə mənfi təsiri olmayan təkrar istehsalın getdiyi ərazi;

c) insanların antropogen, texnogen təsirinə məruz qalan, ilk təbii şəraitini dəyişən ərazi-kvazi təbii zona;

ç) insan fəaliyyətinin yaratdığı süni yaşayış və məskunlaşma mühiti - Artotəbiət zonası. Elmi təmayüldə urbanizasiyanın obyektini kvazitəbiətlə kontaktda, əlaqədə olan artotəbiət ərazi təşkil edir.

İnsanlar tərəfindən yaranmış, formalaşmış süni mühit cəmiyyətlə təbiət arasında qarşılıqlı əlaqəni optimallaşdıran, maddi və mənəvi əlaqələri, istehsal, qeyri-istehsal sahələrinin inkişafını əmək prosesləri ilə nizamlanan (*əmək obyektlərini, təbiətdən istifadə edilməsini, faydalı qazıntıların istismarı, məskunlaşma və s.*) ictimai prosesdir.

Müasir dövrdə elə bir təsəvvür mövcuddur ki, urbanizasiya prosesi iqtisadi və sənaye inkişafına görə şəhərlərdən geri qalan kənd təsərrüfatı ərazilərinə də şamil edilir. Hazırda bir sıra dövlətlərdə texnoloji, sənaye emalı, əhali məskunlaşması baxımından şəhəryanı, şəhərətrafında qruplaşan, istehsalla məşğul olan kənd təsərrüfatı ərazisi urbanizasiya, təmərküzləşmə baxımından heç də şəhər ərazisindən geri qalmır, şəhəryanı zona ilə, şəhərlə əlaqəli halda inkişaf edir.

İqtisadi, sosial, mədəni əlaqə şəbəkəsi ayrıca şəhərləri,

urbanilәşmiş zonaları, mәskunlaşma sistemini formalaşdırır, onların arasında iqtisadi, sosial, ekoloji prosesləri və vəhdəti yaradır. Şəhərlərin inkişafı və urbanizasiya proseslərində olan «əlaqə şəbəkəsi» texniki-texnoloji, sənaye-enerji, nəqliyyat-iqtisadi əlaqələr və şəhərəmələgətirici sosial-mədəni baxımdan bütün tarixi mərhələ üçün səciyyəvidir.

Superşəhərlərin, «milyoner» şəhərlərin inkişafında texnoloji, sənaye, istehsalın, nəqliyyat vasitələrinin insanla təbiət, ekoloji nizami inkişaf arasındakı müvazinət nəzərə alınmalıdır. Sıx urbanilәşmiş, təmərküzləşmiş, texnogenləşmiş havası, torpağı çirklənmiş, tənəzzülə uğramış, təbiətin canlı aləmi, şəhər mühiti insanın yaşayış məskəni üçün «əlverişsiz» obyektin yaranmasına səbəb olur.

Geniş mənada yuxarıda qeyd edilən «əlaqələrin», istehsal münasibətlərinin dəyişkənliyi, sənaye istehsalının inkişafı dövründə «növbələşməsi», «yeniləşməsi», müvafiq dövrün tələblərinə uyğun tutduğu miqyas urbanizasiya proseslərinin simasını, fəaliyyətini müəyyən edir.

İnsanlar tərəfindən müxtəlif fəaliyyət və sənaye-istehsal prosesləri vasitəsilə mənimsənilmiş və yaradılmış şəhər və urbanilәşmiş texnogen ərazi hər şeydən əvvəl müxtəlif səpkidə özünü nizamlayıcı və nizamlandırıcı dinamik sistemdir. Bu proses zaman, məkan daxilində istehsal, məskunlaşma, informasiyanın və s. həyata keçirilməsi dairəsində hərəkət edir.

Şəhərin inkişafı urbanizasiya baxımından, iqtisadi, sosial əlaqələrin məzmununu, onların sərhədi sistemində enerji, sənaye, nəqliyyat, xidmət sahələri üzrə informasiya materiallarının təhlili onların istifadəsində sistem əmələgətirici amil kimi mühüm əhəmiyyət kəsb edir. Müasir şəhərlərin inkişafının, funksional əhəmiyyətinin mürəkkəbliyi yuxarıda göstərilən əlaqələrin müxtəlifliyi ilə əlaqədardır.

Praktiki olaraq şəhərin inkişafı və fəaliyyəti qarşılıqlı əlaqələr üzərində qurulmuşdur ki, bu da sistemyaradıcı elementləri, onların quruluşunu, inkişafını, regenarizasiyanı,

müvafiq elementlərin bunlara əlavə edilməsini qarşıda qoyur. Buna sadə bir misal – şəhərdə avtomobil və sair nəqliyyat vasitələri hərəkətinin uzlaşdırılması, nizamlanması, onlara münasib küçə hərəkətlərinin, informasiya göstəricilərinin, yol-nəqliyyat nişanlarının, keçidlərin qaydaya salınması və onlara riayət edilməsi zəruri sayılır. Ona görə də nəqliyya-iqtisadi əlaqələrə kompleks baxımından yanaşılsa, hər hansı ictimai proses başqası ilə qarşılıqlı fəaliyyətdə olarkən səmərə verə bilər, hərəkətini, fəaliyətini stimullaşdırar.

Şəhər mühitinin intensiv urbanizasiya, təmərküzləşmə şəraitində daha çox əhəmiyyətə malik əmək, əmək aspekti vasitəsi arasında qarşılıqlı münasibət və əlaqə, təzahürlər yaradan əmək sistemi kimi daha mürəkkəb xarakterə malik olur.

Şəhərsalma problemlərinə həsr olunmuş ədəbiyyatlarda, elmi nəşrlərdə yerüstü, yeraltı nəqliyyatı, su kəmərləri, elektrik ötürücü xətləri, enerji sisteminə və s. texniki sistem funksiyası səviyyəsində baxılır. Bunların inkişafında qarşılıqlı münasibətlərin aparılması əlaqələrin səmərəsini yaradan əsas əlamətdir.

Müasir dövrdə şəhərlərin inkişafı informasiya, kommunikasiya, urbanizasiya ilə təmərküzləşmə əlaqələrinin nəticəsidir. Şəhərlərdə istehsalın təmərküzləşməsi, kommunikasiya (*nəqliyyatın, mühəndis, texniki, su, enerji təchizatı sisteminin*) vasitələrinin, xidmət sahələrinin nəticəsidir. Bunlar da öz növbəsində göstərilən xidmətlərin əks aqibəti olaraq ekoloji sarsıntı yaradır.

Yuxarıda deyilənlərdən belə obyektiv nəticəyə gəlmək olar ki, müasir dövrdə cəmiyyətin qarşısında duran ən zəruri vəzifələrdən biri böyük və superşəhərlərdə urbanizasiyanın, sənayenin, nəqliyyatın, mühəndis-texniki vasitələrin təmərküzləşməsinin seyrəldilməsi, bunun vasitəsilə «peyklərin», onlardan kənar yaşayış məntəqələrinin optimal surətdə inkişafının təmin edilməsidir.

## 1.2. Şəhər mühiti inkişafının coğrafi qanunauyğunluqları və nizamlanması

Təbiət insanlara, sabaha inamla baxmaq, gələcəyini yaxşılaşdırmaq, özünün istəyi kimi onlara nail olmaq niyyətini vermişdir. Göstərilən amillər təmayülündə ictimai, fərdi həyatın, istehsalın idarə edilməsi, insan fəaliyyətindən asılı və asılı olmayan hadisələr arasında baş verən qarşılıqlı uyğunsuzluqların nizamlanması, insanların qarşıda qoyduqları vəzifələrin həyata keçirilməsi, yaşayış yerlərinin abadlaşdırılması, mənzil-məişət şəraitinin yaxşılaşdırılması olmuşdur.

Təbiətdə baş verən iqtisadi, cosial, təbii hadisələrin nizamlanması ilə yanaşı şəhərsalma proseslərində bir sıra tədbirlərin həyata keçirilməsi müvafiq dövrün tələblərinə uyğun qarşıda duran ciddi tədbirdir. Bu prosesin özü bu və ya digər rayonların coğrafi mühitdən, təbii şəraitdən asılı olaraq şəhərsalma siyasətində iqtisadi, texniki, ekoloji, demoqrafik, təbiəti mühafizə problemlərinin həllini qarşıda qoyur.

Uzun müddət şəhərsalma baş planında bir qayda olaraq əhalinin maddi rifah halının yaxşılaşdırılması, istehsalın təmərküzləşməsi, əhali urbanizasiyası vasitəsi ilə onların idarə edilməsi və sənaye istehsalının inkişafı ön planda göstərilir. Ətraf rayonların əhalisinin şəhər yaşayış mühitinə cəlb edilməsi, başqa rayonlarla və şəhərlərlə sosial, iqtisadi əlaqələrin genişlənməsi, onların arasındakı müvazinət müəyyən qədər gərgin vəziyyətdə baş verir. Əhalinin ərzaq məhsulları, sənayenin xammalla təmin edilməsində bu uyğunsuzluq və çətinlik yaradır.

Şəhərlərin layihələşdirilməsi, istehsalın modelləşdirilməsi, sənayeləşdirilməsi və bunların yerləşdirilməsi mürəkkəb prosesdir, onların inkişafı gələcəkdə istehsal, sosial, demoqrafik proseslərin tərəqqisinə əsaslanır. Şəhərin inkişafında

belə hallar meydana çıxır ki, əvvəllər planda və layihədə nəzərdə tutulmuş inkişaf prosesləri müəyyən dəyişkənliyə, təkmilləşməyə məruz qalır. Bunlara bir sıra gözlənilməyən hadisələr, məsələn, həddən artıq əhali axınına, iqtisadi, ekoloji problem üzündən yaranan gərginliyə, bir sıra hallarda su çatışmazlığına, həddən artıq təmərküzləşməyə və s. səbəb olur.

Şəhər salınmasında və genişlənməsində əsas məqsəd iqtisadi, coğrafi mövqeyi də hesaba almaqla, insanların şəhər mühitinə uyğunlaşması, sənaye istehsal strukturunun inkişafını təmin edən müvafiq ərazilərin seçilməsi və yeni ərazilərin mənimsənilməsidir. Burada bir sıra mütəxəssislərin irəli sürdüyü kimi, ərazi mühitində şəhər təsərrüfatının, başqa rayonlarla iqtisadi əlaqəsinin nizami inkişafına şərait yaradan və gözlənilməyən təbii hadisələrin zərərini aradan qaldıra bilən tədbirlərin həyata keçirilməsi zəruri şərt kimi qarşıda durur. Buna görə şəhər memarlığında elə sərfəli layihələrin yerinə yetirilməsi vacibdir ki, onlar sakinlərin müvəqqəti deyil, daimi rahatlığını, yaşayış komfortunu, maddi, mədəni ehtiyacının ödənilməsini təmin etsin.

Bir sıra şəhərşünaslar şəhərsalma prosesində, əhali məskunlaşmasında, sosial həyatın, iqtisadiyyatın inkişafında təbiətlə sənayeləşmiş şəhər mühiti arasında olan əlaqələrin nizamlanmasında uyğunsuzluqların nəzərə alınmasını qeyd edirlər və şəhərin inkişafını hərtərəfli təmin edən amilləri nəzərdə tuturlar. Sabiq Sovet hakimiyyəti illərində şəhərsalma prosesində həyata keçirilən amilləri nəzərə alsaq, bir sıra neqativ halların ortaya çıxmasını görərik. Respublikanın Bakı, Gəncə, Bərdə, Şəki kimi çox əsrlər yola salmış qədim şəhərlərinin, tikililərinin əksəriyyəti «Xruşşov», «Stalin» tipli binalara nisbətən dəyişkənliyə, aşınmaya daha davamlıdır, rahatlıq və konfort üçün əlverişlidir. Müasir dövrdə şəhərlərin idarə edilməsi strukturunda baş verən texnogen, nəqliyyat, sənaye inkişaf prosesləri ilə əhalinin yaşayışını təmin edən təbii mühitdə gedən dəyişiklik arasında

«özünü inkişaf prosesi» bir-birini tamamlamır.

Şəhərlərdə baş verən «idarəetmə», şəhər mühitinin formalaşması, urbanizasiya, istehsalın təmərküzləşməsi altında müşahidə edilir. Burada hər adam çalışır ki, yaşayış tərzinə münasib o yeri seçsin ki, iqtisadi-ekoloji, rekreasiya əhəmiyyətli şəraitə, inkişafa nail olsun. Beləliklə, şəhər əhalisi «təbii areallar», sərfəli «sosial-iqtisadi mühitə» malik olur ki, müəyyən ərazi məhdudluğu şəraitində də olsa «sosial, iqtisadi, ekoloji» qanunlar özlərinə məxsus fəaliyyət göstərir.

Şəhər və onun əhalisi müəyyən iqtisadi, sosial əlaqələrdə olmaqda, elə bir vahid sistem əmələ gətirir ki, müvafiq coğrafi mühitdə, iqtisadi, təbii şəraitdə özünün inkişafına şərait yaradır. Coğrafi qanunlar, iqtisadi-coğrafi fərqlər çərçivəsində mərkəz şəhərətrafı zonalarda inteqrasiya və diferensiasiya mühitində idarə edilir və bunun üçün imkanlar yaranır.

Şəhər mühiti təbii ərazi-istehsal inkişafı baxımından müxtəlifliyi, onun ayrı-ayrı hissələrinin iqtisadi, coğrafi şəraitinin fərqindən, şəhərin mərkəzi hissəsində təmərküzləşmiş istehsal və qeyri-istehsal sahələrinin fəaliyyətindən, əhali urbanizasiyasının vəziyyətindən asılıdır. Şəhər sisteminin fəaliyyəti və mövcudluğu elə bir qanunla müəyyən edilir ki, onların diferensiasiya və inteqrasiya amilləri balansı ilə uzlaşma böyük əhəmiyyət kəsb edir. İnteqrasiya sistemi, ictimai elementlərin qarşılıqlı təsiri şəhərin etibarlı inkişafını təmin edən əsas vasitə kimi çıxış edir. İctimai prosesdə, özünün funksional tarixi mərhələsində əhəmiyyəti, miqyası vahidliyinə görə iqtisadi-coğrafi inteqrasiyasının və ərazi əlaqələrinin öyrənilməsində şəhər əlverişli obyekt kimi fəaliyyət göstərir. Urbanizasiya prosesinin mənşəyindən başlanğıcını götürən şəhər özünün qanunauyğun inkişafında, diferensiasiyasında iqtisadi inkişaf proseslərinin, demoqrafik və sosial qrupların daxilində gedən diferensiasiyanın uzlaşdırılması və gələcəkdə hərəkəti üçün etibarlı fəaliyyət

mühitidir. Belə prosesdə inteqrasiya elə optimal əlaqədə fəaliyyətdə olmalıdır ki, cəmiyyətin inkişafı ilə əlaqədar uzlaşmasını, birliyini təmin edə bilsin.

Şəhərin ayrı-ayrı hissələrinin (*mərkəzin, orta zonanın, kənarın*), onun inkişafındakı rolunun bir səviyyədə olmaması iqtisadiyyatda, xidmət sahələrində tutduğu mövqe fərqlərindən asılıdır. Mərkəzin əsas funksiyası onu əhatə edən rayonları özünə cəlb etməklə, əsas «özək» ətrafında sosail, iqtisadi xidmət sahələrinin qarşılıqlı əlaqələrinin idarə edilməsini öz üzərinə götürməkdir.

Mərkəzin inkişaf prosesi kimi urbanizasiyanın kənar ərazilər arasındakı fərqi, məskunlaşma ziddiyyətini ortalığa çıxarır, başqa tərəfdən, bunun müəyyən qədər aradan qaldırılmasını təmin edir. Məsələn, Bakının mərkəzi ilə onun mikrorayonları arasında kəmiyyət və keyfiyyət uyğunsuzluqları mövcuddur ki, bunun da səbəbi dövri olaraq mərkəzi hissədə yaranan mütərəqqi inkişaf proseslərinin, yeniliklərin tətbiq edilməsindən irəli gəlir. Burada nəqliyyatın, xidmət sahələrinin, istilik, enerji xidmətlərinin və s. arasında olan fərqlər özünü göstərir.

Şəhərdən kənar rayonlarda çox vaxt tətbiq edilən yeniliklərin ondan xeyli əvvəl şəhər mərkəzində özünə yer tutması qanunauyğun hal kimi baş verir. Mərkəz üçün bəzən yad olan obyektlərin, funksiyaların kənara çıxarılması şəraitində şəhərdə yeni amilləri meydana çıxır. Beləliklə, mərkəzlə ondan kənar ərazilərdə mütərəqqi üsulların, yeniliklərin tətbiq edilməsində müəyyən tədbirlər yerinə yetirilir.

Bu mənada funksional təşkilatçılıqda mərkəzlə mikrorayonlar arasında ərazi-istehsal, əhali-əmək ehtiyatları diferensiasiyasının saxlanılması təmin edilir və bu da şəhərin iqtisadi, sosial inkişafının, ekoloji mühitin hansı şəraitdə olmasından çox asılıdır. Neft-qaz mədənləri, onların məhsullarını emal edən müəssisələr, maşınqayırma, gəmi, vaqon, avtomobil təmiri zavodları və s. sənaye sahələri əhatəsində, intensiv nəqliyyat hərəkəti şəraitində yerləşən Bakı

gərgin ekoloji mühitdə fəaliyyət göstərir. İndi bu sahədə ciddi gərginlik Qara şəhərdə, Keşlədə, şəhərin mərkəzi hissəsində müşahidə edilir. Hazırda bu rayonlarda ekstremal şəraitin yaranmasında əsas səbəb avtomobil nəqliyyatının səs-küyü və havaya buraxdığı dəm qazının, hisin, radiasiya fonunun yüksək olmasıdır. Göstərilənlərin təsirinə Bayıl-Şıx, Binəqədi-Balaxanı neft mədənləri əhatəsindəki yaşayış massivləri də çox məruz qalır.

Bakının Qara şəhər rayonunda yaranmış ekoloji təhlükəli müəssisələr uzun müddət ətraf mühiti çirkləndirməkdə davam etsə də, onların heç birinin kənara - təhlükəsiz zonaya köçürülməsi haqqında tədbir görülmür.

1960-cı illərdə Bakı Tütün Fabrikinin şəhərin mərkəzindən Keşləyə köçürülməsi, Qaradağ Qurum Zavodunun ləğv edilməsi, son ildə qışda mənzillərə, ictimai binalara istilik verməyən qazanxanaların işinin dayandırılması Abşeronda atmosfer havasının təmizliyini xeyli təmin etmişdir. Bunlarla yanaşı, Bakı, Sumqayıt şəhərlərində, onların ətrafında olan müəssisələrin əksəriyyətinin fəaliyyətdən dayanması, Abşeronda atmosferə buraxılan zərərli maddələrin xeyli azaldılmasını təmin etmişdir.

Lakin bu hələ azdır. Abşeronda hələ fəaliyyət göstərən müəssisələr, nəqliyyat vasitələri, 30-dan çox kanalizasiya suyunun Xəzərə axıdılması, neft mədənləri, hərəkətdə olan gəmilər, məişət tullantıları, istixanalardan çıxan polietilen qarışığı, həddən artıq minerallaşmış, kimyalaşmış torpaqlar, səs-küy və s. ətraf mühiti çirkləndirir, atmosfer havasını, yaşayış mühitini korlayır, şəhərlərin hərəkət zonasındakı sakinlərin sağlamlığına pis təsir edir, əhali arasında müxtəlif xəstəlikləri artırır.

Abşeron yarımadası, Gəncə, Mingəçevir zonalarının ekoloji problem təmayülləri müxtəlif səviyyəlidir. Əgər Bakı, Biləcəri, Binəqədi, Xırdalan-Bayıl-Şıx, Suraxana-Binə zonaları üçün radiasiya, radon təhlükəsi səciyyəvidirsə, mərkəz üçün nəqliyyat vasitələri ilə atmosfer havasının çirk-

lənməsi və səs-küydür.

Bunlardan əlavə, neft və qaz mədənləri Qaradağ, Güzdək, Şıx daş karxanaları zonasında, Pirşağı dəniz sahillərində istismardan çıxmış 40 min ha qədər pozulmuş, neftə, mazuta batmış torpaq sahələri yararsız hala salınmışdır.

Gəncə və onun 20-25 km dairəvi ərazisini əhatə edən sahə üçün ən ciddi ekoloji problem yaradan Gəncə Gil-Torpaq Kombinatıdır. Afrikadan (*Qvineyadan*) boksit və Daşkəsəndən gətirilən alunit xammalını saflaşdırılmadan hidrometallurgiya üsulu ilə emal edilməsində, tərkibi zərərli kimyəvi maddələrlə zəngin, havaya buraxılan küllü miqdarda alunit tozu, kükürd anhidridi, istilik, his, qurum, torpağın üstünə atılan şlam, şlak kimi, zərərli təsirlə ətraf təbii mühitdə ciddi ekoloji problemlər yaradır, torpağı, suyu, atmosfer havasını korlayır.

Dörd milyondan artıq əhalini, sənaye müəssisələrini, kənd təsərrüfatını su ilə təmin edən Kür çayının üstündə fəaliyyət göstərən Əli-Bayramlı, Mingəçevir istilik-elektrik stansiyalarının ekoloji mühitə göstərdiyi təsirlər ciddi təhlükə yaradır. Göstərilən elektrik stansiyalarının hər il yandırdıqları 4 min tona qədər mazut, his, qurum geniş dairədə atmosfer havasını korlayır. Stansiyaların generatorlarının soyudulmasından çıxan 35-40 dərəcəli isti su Yuxarı Qarabağ kanalına buraxılır və termal çirklənmə yaradır, bioloji aləmə, xüsusilə balıqların inkişafına mənfi təsir edir, ərzaq məhsulları ehtiyatını məhdudlaşdırır.

Ekoloji təsir, çirklənmə dərəcəsi baxımından respublika şəhərlərinin aşağıdakı təsnifatını vermək olar:

1. Bakının Qara şəhər, Keşlə rayonu neftayırma, neft maşınqayırma, Keşlə şin zavodlarının, Keşlə yük dəmir yolu stansiyasının, İES-lərin, dəniz portunun təsiri zonasını;

2. Şəhərin mərkəzi rayonu üçün ciddi ekoloji təhlükə törədən avtonəqliyyatın havaya dəm qazı buraxdığı çirkli maddələr, səs-küyə məruz qalan ərazini;

3. Binəqədi-Biləcəri, Sabunçu-Suraxanı zonasında eko-

loji təhlükə yaradan, fəaliyyətdə olan və istismardan çıxarılmış neft, qaz quyularından çıxan radon qazı, geniş sahədə torpaqların neftə, mazuta batması, Böyük Şor ətrafı bataqlıqlar, mədənlərdə və mədənlərarası ərazilərdə yaranmış mikrobataqlıqlar, saysız-hesabsız işləməyən neft quyularının tutduğu torpaq sahələri;

4. Bakı-Səbayel rayonu ərazisində-Bayılla Xanlar qəsəbəsi arasında mazuta, neftə batmış, bataqlıqlaşmış torpaq sahələri, daş karxanaları altında qazılmış, rekultivasiya edilməsinə ehtiyacı olan torpaqlar;

5. Neft quyularından, havaya buraxılan radon qazı, radiasiya, Gəncə şəhəri üçün ekoloji təhlükə yaradan gil-torpaq kombinatını, mazutla işləyən qazanxanaları, avtomobil nəqliyyatını da bura daxil etmək lazımdır. Gəncə Gil-Torpaq Kombinatı 20-25 km dairədə zəhərli tozu ilə atmosfer havasını, suyu, torpağı, otlaqları, kənd təsərrüfatı bitkilərini korlayır, insanların, bütün canlıların sağlamlığına mənfi təsir edir.

Gəncə Gil-Torpaq Kombinatının yaxınlığında 45-50 ha sahədə toplanmış zəhərli tullantılar-şleamlar, maye haldakı qarışıqlar, müxtəlif çıxdaşlar torpaqları sıradan çıxarmaqla ətraf mühit üçün ekoloji təhlükə yaradır. Kombinatın gil-torpaq tozu, kükürd turşulu qazı altında olan dahi Nizami Gəncəvinin məqbərəsi çürümə, korroziya vəziyyətini keçirir.

6. Sumqayıt MDB ölkələri daxilində ən çox ekoloji təhlükəli müəssisələrlə gərgin sıxlaşmış, «metallaşmış», «kimyalaşmış» şəhərdir. Burada olan qara və əlvan metallurgiya, orqsintez, superfosfat, polietilen, kimya zavodu və kombinatı, «Ozon» və s. sənaye müəssisələrinin normal fəaliyyəti dövründə şəhər gərgin-ekoloji böhran keçirirdi. Belə şəraitdə şəhərin atmosfer havası torpaqları ilə yanaşı şəhər və onun Xəzərsahili akvatoriyası ciddi çirklənməyə məruz qalırdı. Son 10 ildə şəhərdə sənaye müəssisələrinin əksəriyyətinin fəaliyyətindən dayanması ekoloji mühitə dəyən antropogen, texnogen təsirləri bir qədər zəiflətmişdir.

60-cı illərdən sonra Bakıda doqquz mikrorayonun, Günəşli, Yeni Yasamal, 8-ci kilometr massivlərinin yaradılması «Bakı şəhərinin» yataq zonalarını genişləndirmiş, «işgüzar mərkəzi» rayonlar ilə sıx əlaqə yaratmışdır. Respublikada iri və orta şəhər mühitinin qiymətləndirilməsində nəqliyyatın, istehsalın təhlükəsizliyinin, inzibati təsərrüfat strukturunun fəaliyyət təhlili zəruri hesab edilir. 60-cı illərdən sonra əhalisi 1 mln-dan çox olan mikrorayonların, Əhmədli, Günəşli, Yeni Yasamal yaşayış massivlərinin yaradılması Bakı şəhəri aqlomerasiyasında nəqliyyatın, su, qaz təchizatının gərginliyini artırmışdır.

Ekoloji mühitin şəhər məskunlaşmasına təsiri geniş ərazidə fəaliyyət göstərir, müasir dövrdə şəhərlərin ekoloji mühiti obyektiv və subyektiv amil kimi dərk edilir. Təbii və ekoloji mühit daxilində inkişaf, əhali sıxlığı, estetik, ekoloji vəziyyəti səciyyələndirilən əlamətlər şəhərdə ekoloji vəziyyəti «idarə edən» mühüm amildir.

Sosial, fiziki, mexaniki amillərə məruz qalmış, həddən artıq «hopdurulmuş» şəhər mühiti insanlar arasında yadlıq, özgəlik, soyuq münasibətlər yaradır, həmrəyliyi zəiflədir. Bir sözlə, kənd rayonlarına xas olan mehribanlıq, dostluq, qonşuluq, əlaqələri şəhərdə sönük vəziyyət alır. Bakı, Sumqayıt şəhərlərində adambaşına nə qədər az küçə, səki sahəsi düşürsə, nəqliyyat nə qədər gərgin hərəkət edirsə, urbanizasiya, sənaye, nəqliyyat təmərküzləşməsi nə qədər sıxlaşırsa, insanları harasa tələsdirir, onlarda gərginliyi artırır, ətraf mühiti seyr etmək, dərk etmək, istirahət həvəsini və s. zəiflədir.

İri şəhərlərdə - Bakıda, Sumqayıtda, Gəncədə səsli-küylü, «qaynar» şəhər mühiti küllü miqdarda informasiyalar, yeni-yeni məlumatlar, radio, televiziya verilişləri şəraitində fəaliyyət göstərir. Burada insanların davranışı, özünü dərk etməsi, radiolu, televizorlu, maqnitofonlu mənzillərin məlumatlı, xəbərli, tamaşalı, konsertli mühiti bir növ həyatı canlandırır, gərginləşdirir.

Ekoloqların mənfi mənada qələmə verdikləri səs-küy yuxarıda göstərdiyimiz mənada faydalı hesab edilir. Lakin hər hansı şəraitdə olursa-olsun şəhərdə səs-küyün həddini aşması xoşagəlməzdir, ətraf mühitin normal şəraitini pozan ciddi səbəblərdən biridir. Belə proses insanın normal düşünməsini, iş qabiliyyətini, əmək məhsuldarlığını aşağı salır.

Uzunömürlük, yaxşı yaşamaq, sabaha ümidlə, inamla baxmaq, mütərəqqi iqtisadi, sosial quruluşa malik olmaq kimi arzuların təbiət tərəfindən insan əhvali-ruhiyyəsinə daxil edilməsi təmayüldə gələcəyin proqnozlaşdırılmasının təmin edilməsi, müasir dövlət siyasətinin strateji əsasını təşkil edir. Bunların həyata keçirilməsi kortəbiilikdən kənar şəhərlərin nizami inkişafının təmin edilməsini qarşıda qoyur.

Müxtəlif tarixi mərhələlərdə dövlətin, şəhərlərin inkişafında ortaya çıxan kortəbii halların aradan qaldırılması nizami inkişafda gedən iqtisadi, sosial qurum şəraitində dövrün tələblərinə uyğun şəhər mühitin formalaşmasını təmin edir. Belə şəraitdə şəhərsalma siyasəti ayrı-ayrı dövrlərdə cəmiyyətin tələbatından irəli gəlmişsə də, kəndlə şəhər, sənaye ilə kənd təsərrüfatı, əkinçiliklə emal sənayesi arasında olan əlaqələri istənilən müvazinətdə saxlanmayıb, onların arasındakı fərqlər, ziddiyyətlər aradan götürülməyib, düşünülməmiş həyata keçirilən tədbirlərin mövcudluğu və onun reallıqdan geri qalması şəhərlərin inkişafında uyğunsuzluqlara səbəb olmuşdur.

Sovet hakimiyyəti illərində respublika şəhərlərinin baş planları qarşısında duran əsas məqsəd ictimai, fərdi binaların quruluşunun (*konstruksiyasının*) sadəliyi, artıq yüklərdən (*bəzəklərdən*) azad edilməsi, mərtəbələrin hündürlüyünün qısaldılması, «ekstensiv tikinti» şəraitində çox torpaq tutumluğu və bununla «ümumi yaşayış tərzinin yaxşılaşdırılmasının sürətləndirilməsi» şəraitində əhalinin yaşayış, ictimai mənzillərə olan tələbatının ödənilməsi olmuşdur. Dövrünə görə sadələşdirilmiş «ümumi standarta» uyğun aparılan şəhərsalma siyasəti əhalinin yaşayış yerləri ilə tə-

min edilməsində çox böyük əhəmiyyət kəsb etmişdir. Bakı, Sumqayıt, Gəncə, Əli-Bayramlı, Naxçıvan, Mingəçevir şəhərləri üçün belə inkişaf səciyyəvi olmuşdur.

Ümumilikdə Sovet İttifaqında olduğu kimi Azərbaycanda da belə şəhərsalma siyasəti demək olar ki, hakim olan yeknəsəq, əsasən 5-6- mərtəbəli, memarlıq baxımından kasıb olan, «boz-darıxdırıcı görkəm»-i ilə seçilən şəhərətrafı zonaları-mikrorayonları standartlaşdırmış və şəhərin canlı orqanizmini «kölgə» altında qoymuşdur.

Quruluşu, görkəmi etibarilə «yeknəsəq» olan mikrorayonlar sonralar, daha doğrusu, 70-80-cı illərdən başlayaraq yüksək 9-10-15 mərtəbəli binaların tikintisi keçmişə xas olan darıxdırıcı görkəmi xeyli dəyişdirdi və onların «torpaq tutumluğunu» azaltmaq istiqamətini bir növ ekstensiv yola yönəltdi.

Son 10 ildə xarici şirkətlər tərəfindən və onların köməyi ilə Bakıda tikilən 15-18 mərtəbəli binalar şəhərə müasirlik vermiş, onu gözəlləşdirmişdir. İstər Bakı, Sumqayıt, istərsə də başqa şəhərlərin, mikrorayonların özlərinə məxsus təbii şəraitinə, koloritinə uyğun gözəlliyin saxlanılması, daha doğrusu, onun yaradılması, şəhərlərin özlərinə məxsus fərdiliyinin, xüsusiyyətinin davamı kimi böyük əhəmiyyətə malikdir. İstər yeni şəhərlərin, istərsə də mövcud olanların yenidən qurulmasının layihələşdirilməsi canlı orqanizmin modelləşdrilməsi kimi mürəkkəb prosesdir.

Öz inkişafında şəhər ilk layihə çərçivəsindən kənara çıxır, zaman və məkan tələblərinə uyğun inkişaf edir, dövlətin daxili və xarici siyasətində baş verən fövqəladə hadisələr, dəyişikliklər şəhərin inkişafına təsir edir, əvvəldə nəzərdə tutulduğu plan-mövqe xəttindən kənara çıxarır.

Şəhərsalma təcrübəsində memarlıq, gözəllik, rekreasiya baxımından şəhərlərin inkişafını standartlaşdırmaq, məhdudlaşdırmaq, istirahət, yaşayış zonalarına olan diqqəti azaltmaq şəhər sakinlərinin mədəni həyat səviyyəsinin aşağı salınmasına şərait yaradan amillərdir. Şəhərsalmanın coğra-

fi aspekti olan əhalinin yaşayış tərzinin yaxşılaşmasına, şəhərdaxili sərnişin hərəkətində müvafiq iqtisadi-coğrafi mövqedən, təbii şəraitdə, özünün sərbəst davranışında məqsədyönlü istifadə edilməsi böyük əhəmiyyətə malikdir.

Şəhərsalma layihələrində, şəhərlərin inkişafında yaşayış mənzillərinin, ictimai binaların, sənaye və əhaliyə xidmət müəssisələrinin yerləşməsində təbii şəraitdən, xüsusilə torpaq sahələrindən səmərəli, məqsədyönlü istifadə edilməsi, mühitə sabitlik, gözəllik, özünəməxsus görkəm verir. Müharibədən sonrakı illərdə Bakı şəhərinin tikintisində iqtisadi-coğrafi mövqeyin nəzərə alınması, şəhərətrafı və şəhərdaxili yaşıllıq zonalarının artırılması, yeni-yeni istirahət parklarının yaradılması, şəhərin təbiətini, ekoloji mühitini xeyli saflaşdırmışdır.

İndi şəhərin idarə edilməsində, ictimai, fərdi, inzibati binaların tikintisinin genişləndirilməsində əhali ilə sənaye inkişafı, nəqliyyatla yaşayış yerləri, şəhərdaxili və ətraf rayonlar arasında olan əlaqələr, uzlaşmalar nəzərə alınmalıdır.

Müasir dövrün ən ciddi tələblərindən biri ondan ibarətdir ki, şəhərin inkişaf konsepsiyasının tərtib edilməsində hər bir mikrorayonun, ərazi-istehsal sistemində konkret rayonun-şəhərin yeri ayrılsın. Özünü idarəetmə, istehsal-ərazi təşkili əsasında şəhər tiplərinin formalaşması şəhərdaxili, şəhərətrafı məskunlaşması şəraitində müşayiət edilir.

Bu haqda canlı aləmdə olduğu kimi, şəhər mühitində «təbii seçmə» qaydası ilə hər adamın yaşaması üçün istədiyi yerdə, məhdud ərazi daxilində özünün sosial qanununun hərəkətdə olduğu mühitdə məskən salaraq «insanın təbii arealını» yaradır. Şəhər və onun sakinlərinin yaşayıb-yaratdığı vahid sistem çərçivəsində müəyyən əlaqə yaranır və təkamül prosesində, öz inkişaf yolunda iqtisadi coğrafi qanunlara uyğun fəaliyyət göstərir.

## 1.3. Şəhərlərin inkişafının iqtisadi-coğrafi aspektdə nizamlanması

Şəhərdə əhali məskunlaşması və inkişafı üzrə layihə-plan tədbirləri rəsmi sənədlərdə əsaslandırılır və iqtisadi-coğrafi mövqeyi nəzərə almaqla həyata keçirilir. Bu sənəd şəhərin inkişafının iqtisadi-sosial, şəhərsalma, məskunlaşma baxımından təftiş edilməsini, perspektiv planlarda bir sıra istehsal sahələrinin yenidən qurulmasını əks etdirir. Bunlarla yanaşı, təcrübədən aydındır ki, şəhərsalma layihələrində və dövlət planlarında nəzərdə tutulan tədbirlərin hamısı təcrübədə, həyatda tətbiqini tapa bilmir. Bunun əsas səbəbləri şəhərsalma sənədlərində metodiki-metodoloji məsələlərin çox hallarda müasir tələbata cavab verməməsi, maliyyə vəsaitinin, zəruri materialların çatışmaması və s. ibarətdir. Maddi-texniki təchizatın zəifliyi bir tərəfdən, son 10 ildə respublikada baş verən məlum hadisələr digər tərəfdən, sosial-iqtisadi tənəzzülü dərinləşdirir.

Respublikada belə vəziyyətin yaranmasına baxmayaraq, dövlətin qarşısında duran ən zəruri problemlərdən biri şəhərlərin müxtəlif iqtisadi-coğrafi mövqedə yerləşməsi, məskunlaşması, ixtisaslaşması, funksional xüsusiyyətləri, təbii sərvətlərin istifadəsindən və s.-dən asılı olaraq məhsuldar qüvvələrin, iqtisadi, sosial, memarlıq, demoqrafik baxımdan şəhər təsərrüfatının mövcud, perspektiv inkişafının, plan sənədlərinin reallığının nəzərə alınmasıdır.

Məlumdur ki, şəhərlərin baş planlarında məhsuldar qüvvələrin yerləşməsinə, onların perspektiv inkişafına, əhalinin məskunlaşmasına, urbanizasiya səviyyəsinə münasib istehsal, qeyri-istehsal sahələrinin səmərəli yerləşməsinə aid sənədlər əks etdirilir. Bunlardan başqa, əhalinin mədəni-məişət, xidmət sahələri, baş küçələrin, prospektlərin, onların kəsişmə yerlərinin sərnişin və yük dövriyyəsinə uyğun seçilməsinin layihə sənədlərində əks etdirilməsi, şəhərlərin perspektiv inkişafına dair sənədlərin mühüm tərkibi kimi qiy-

mətləndirilməsi zəruri şərt kimi qəbul edilməlidir.

Bunlardan əlavə, mikrorayonların, sənaye, nəqliyyat qovşaqlarının mühəndis-texnik vasitələrə olan tələbatını, onların yerinə yetirilməsini, tarixi, mədəni abidələri, ekoloji mühitin mühafizəsini real əks etdirən amillərin layihə sənədlərinə daxil edilməsinə ehtiyac duyulur.

Respublikada əhalisi 100 mindən artıq 2 şəhər (*Gəncə, Sumqayıt*) və 2 milyonluq Bakı şəhəri vardır. Baş planda bunların inkişafı üçün iki mərhələdə iş aparılması nəzərdə tutulur: texniki-iqtisadi sənədlərin toplanması, baş planın tərtibi və həyata keçirilməsi. Belə vəziyyətdə texniki-iqtisadi əsaslandırma sənədləri bazasında əhalinin məskunlaşma prosesi, miqrasiya hərəkəti, şəhər təsərrüfatının strukturlaşması nəqliyyat növlərinin inkişafı əks etdirilir.

Yuxarıda göstərilən tədbirlər sistemi ilə yanaşı, şəhərsalma sənədlərinin qəbul edilməsində dövlət ekspertizası tərəfindən təsdiqlənməsi mühüm əhəmiyyət kəsb edir. Texniki-iqtisadi əsaslanma (*TİƏ*) İqtisadi İnkişaf Nazirliyi, Dövlət Tikinti Komitəsi tərəfindən ekspertiza edilir. Bu təmayüldə olan belə sənədlərin təkmilləşdirilməsinə kəskin ehtiyac duyulur və hazırda bu istiqamətdə nazirliklərin, komitələrin, şirkətlərin istehsal müəssisələrinin iştirakı məqbuldur.

Ekoloji mühiti əlverişsiz və qeyri-qənaətbəxş olan Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərinin TİƏ və baş plan sənədlərinin əsas ekspertiza aparıcısının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Nazirliyi tərəfindən yerinə yetirilməsinə indi kəskin ehtiyac vardır.

Bu sənədlərə ayrı-ayrı funksional əhəmiyyətli, müvafiq planlar əsasında formalaşmış müxtəlif şəhərdaxili obyektlərdən ibarət olan və bir-birilə əlaqəli yaşayış yerlərinə, sənaye, idaredici müəssisələrə, ərazi-istehsal, ticarət obyektləri sistemləri daxildir. Bunların inkişaf konsepsiyasının şəhərin aparıcı müəssisələrinin yerləşməsi ilə istehsal-ərazi sistemində iqtisadi, kooperasiya əlaqələrinin uzlaşdırılması, xalq təsərrüfatı kompleksinin, şəhərin xammalla, hazır məhsullar-

la, əhalinin ərzaqla, çoxişlənən mallarla təmin edilməsində şəhərlə onun cazibə rayonları, şəhəryanı təsərrüfatlar ilə münasibətlərin nizama salınması təşkil edir.

Əlbəttə, bir layihə sənədində şəhərlərin perspektiv inkişafına, ölkə sistemində mütərəqqi məskunlaşma, urbanizasiya sistemlərinin formalaşmasına dair bütün məsələləri əhatə etmək mümkün deyil.

Gözlənilməz hadisələrin baş verməsi, ekoloji mühitdə gedən hadisələrin müxtəlifliyi, dövlətlərarası, rayonlararası münaqişələr, təbii fəlakətlər, demoqrafik proseslər haqqında fikir söyləmək, bir-birilə əlaqəli bir sıra kompleks sənədlərin araşdırılmasını tələb edir. Sıx urbanizasiya və istehsal təmərküzləşməsi şəraitində inkişaf edən şəhər mühiti texnogen, antropogen təsirlərə, ekoloji pozuntulara məruz qaldığından kənd yerlərinə nisbətən daha çox davamsızdır. Göstərilən təsirlərin törətdikləri mənfi halların aradan qaldırılması elm və texnikanın nailiyyətləri, böyük həcmdə əmək, kapital qoyuluşu müqabilində mümkündür.

Ümumiyyətlə, şəhər mühitində baş verən təbii hadisələrə, fəlakətlərə, texnogen təsirlərə, onlara qarşı mübarizə tədbirlərinə dair dəqiq fikir-söyləmək və bunları TİƏ sənədlərində tam əks etdirmək çətin məsələdir. Bu sanəddə təxmini də olsa iqtisadi, texniki, ekoloji tədbirlərin nəzərə alınması zəruri hesab edilməlidir.

Şəhərlərin inkişafının nizamlanması, onların, ixtisaslaşma təmayülünün qiymətləndirilməsi mürəkkəb iqtisadi, sosial, siyasi, demoqrafik prosesləri tədqiq etməyi tələb edir. Layihəçilər, sosioloqlar, iqtisadçılar, memarlar və s. şəhərlərin belə şəraitə malik olmalarını çox hallarda dərk etmədikləri üzündən bir çox şəhərsalma, məskunlaşma, miqrasiya, demoqrafik fəaliyyət haqqında olan sənədlərdə çatışmazlıqlar, nöqsanlar ortaya çıxır.

Baş planlar şəhərin əhali məskunlaşmasının, istehsal təmərküzləşməsinin, sosial, demoqrafik proseslərini, əmək qabiliyyətli əhalinin təkrar istehsalının əsas sənədi kimi

qiymətləndirilir. Lakin çox hallarda müvafiq qanunların hərəkətdə, fəaliyyətdə olan inkişafla, ziddiyyətlərlə tam təmasda olması şəhərlərin inkişafına dair nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini məhdudlaşdırır, şəhərdaxili, şəhərətrafı rayonlarda yaşayış məskənlərinin, parkların, istirahət, rekreasiya zonalarının, mədəni xidmət məntəqələrinin, nəqliyyat qovşaqlarının seçilməsi, funksional ərazilərin yaradılması üçün zonalaşdırma tədbirlərində müəyyən əngəllər yaranır. Belə olduqda şəhərin kompleks inkişafı sahəvi inkişafa qurban verilir.

İndiki şəraitdə şəhər təsərrüfatının inkişafı üçün maliyyə vəsaitinin, material, təchizat materiallarının çatışmazlığının xroniki hal alması, nəqliyyat obyektlərinin, mühəndis infrastrukturu, bir sıra abadlıq, memarlıq işlərinin yerinə yetirilməsini məhdudlaşdırır. Respublikanın iri və orta şəhərlərində bu sahədə vəziyyət xeyli gərginləşib. Bakı Metropoliteninin, Azərbaycan Dəmir Yolları, Energetika və Yanacaq Nazirliyinin, Bakı tikinti təsərrüfatı işlərinin müasir tələblərə cavab verməməsinin əsas səbəbi investisiya, maliyyə və texniki təchizat materiallarının çatışmazlığı ilə əlaqədardır.

Bakının, Sumqayıtın mikrorayonlarında şəhər mühitinin müasir dövrün tələbi səviyyəsində formalaşması onlarda infrastruktur hərəkətinin mənbəyi olan sənaye, nəqliyyat, əhaliyə xidmət müəssisələrinin zəif fəaliyyəti, iş yerlərinin, əmək ehtiyatlarının miqdarından xeyli geri qalması, yaşayış rayonları və mikrorayonlarla mərkəzin arasında tarazlaşdırmanı pozub, onların «yataq» yerlərinə çevrilməsinə səbəb olmuşdur.

Uzun müddət Bakının, Sumqayıtın, Gəncənin və s. tikinti işləri əsasən boş torpaqlarda aparıldığı halda, maliyyə çatışmazlığı üzündən mərkəz köhnəliyi saxlayıb. Yalnız son zamanlarda xarici şirkətlərin fəaliyyətilə Baki şəhərinin mərkəzində uca, yaraşıqlı binaların tikintisində təqdirəlayiq işlər aparılır. Respublikanın iri və orta şəhərlərində istehsal və xidmət təmayüllü müəssisələrin bazar münasibətləri tələb-

lərinə uyğun tikilməsində bizim fikrimizcə, üç məsələnin həlli diqqət mərkəzində olmalıdır:

a) istehsal vasitələri istehsalı ilə istehlak malları istehsalı arasında müvazinətin yaradılması:

b) sosial problemin həllində dövlət qayğısının artırılması:

c) şəhərlərlə, onların peykləri olan mikrorayonlar arasında cazibə qüvvəsi altındakı rayonlara vahid orqanizm kimi baxılması, onların kompleks inkişafı:

ç) plan-layihə sənədələrində ekoloji, təbiəti mühafizə tədbirlərinin əks etdirilməsi.

İnkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edərək şəhərsalma sənədlərini, əhali məskunlaşmasını, urbanizasiyanı, istehsal təmərküzləşməsini nizamlayan, səmərəli infrastruktur yaradan tədbirlərin həyata keçirilməsi zəruridir. İndiki dövrdə ərazi-istehsal rayonlaşma təbii şəraitindən, şəhər təsərrüfatının xüsusiyyətlərindən asılı olaraq şəhər funksiyasının zonalaşdırılması əsasında şəhərsalma proqramlarının tərtib edilməsinə ehtiyac duyulur. Belə şəraitdə mikrorayonları da daxil etməklə şəhər ərazisinin təbii şəraitinə münasib, əhali məskunlaşmasının sıxlığı, istehsal, xidmət təmayüllü müəssisələrin öyrənilməsi əsasında proqramlar tərtib edilir.

Əgər məhsuldar qüvvələrin perspektiv inkişafı və şəhərlərin baş planının tərtibində nəzərdə tutulmuş tədbirlər yerinə yetirilsəydi, xalq təsərrüfatı sahələrinin inkişafı və bununla əlaqədar əhali məskunlaşması, istehsalın təmərküzləşməsi sahəsində nöqsanlar, çatışmazlıqlar, ekoloji gərginlik ortaya çıxmazdı.

Respublika şəhərlərinin baş planlarında, layihələşdirmə sənədlərində nəzərdə tutulmuş tədbirlərin xeyli hissəsi bu və ya digər nazirliyin, komitənin, onları maliyyələşdirən müvafiq təşkilatların marağı üzündən göstərişlər, sərəncamlar əsasında dəyişdirilmiş, ixtisara salınmışdır. Son 50-55 ildə Azərbaycanın iqtisadi inkişafında rayonların, şəhərlərin sənayeləşdirilməsində, mədəniyyətində, elmi-texniki tərəqqisində,

inkişafında çox mühüm müvəffəqiyyətlər əldə edilmişdir.

Bununla bərabər, məhsuldar qüvvələrin, xüsusilə, sənaye müəssisələrinin bir sıra şəhərlərdə yerləşdirilməsində ciddi nöqsanlara yol verilmişdir. Bakı şəhərində müxtəlif təmayüllü sənaye müəssisələrinin, təhsil, elm, mədəniyyət, tikinti materialları istehasalı obyektlərinin həddən artıq təmərküzləşməsi, Sumqayıtda, Gəncədə, Mingəçevirdə, Qaradağda ekoloji mühiti korlayan, insanların səhhətinə, təbiətin canlı aləminə ciddi ziyan vuran kimya, metallurgiya, sement zavodlarının təmərküzləşməsi, Gəncə şəhərində ekoloji təhlükəli gil-torpaq kombinatının tikilməsi və s. bunlara misaldır.

Sovetlər Dövründə bir sıra direktiv orqanların, sabiq SSRİ Dövlət Plan Komitəsinin, Nazirlər Sovetinin qərarları və sərəncamları, yerli rəhbərliyin onlara olan itəatkarlığı nəticəsində Azərbaycan xammal istehsalı və ixracı mənbəyinə çevrilmişdi. Respublikanın suveren dövlət kimi inkişaf etdiyi 10 il müddətində bu sahədə hələ də mütərəqqi tədbirlər demək olar ki, tam həyata keçirilməyib. Respublika şəhərlərində istehsal və qeyri-istehsal sahələrinin təmərküzləşməsi, onların yerləşdirilməsi əhali urbanizasiyasını formalaşdıran məskunlaşmanın hərəkət mənbəyidir.

Hər hansı mülkiyyət formasında olursa-olsun, şəhərlərdə bazar iqtisadiyyatına münasib məhsuldar qüvvələrin, istehsal münasibətlərinin, elm və texnikanın ölkənin tələbatının müasir inkişafına uyğun səmərəli təşkili, məskunlaşma prosesində, əmək ehtiyatlarının formalaşmasında mühüm şərtdir.

Sabiq Sovet hakimiyyəti dövründə Azərbaycanın iqtisadi inkişaına xas olan əlamətlərdən biri də ümumi istehsalın sosial təminatı qabaqlaması olmuşdur. Şəhərlərin, rayonların inkişafında cəmiyyətin, iqtisadiyyatın maddi-texniki bazasının yaradılması, sosial vəziyyətin yaxşılaşdırılmasının, əhali məskunlaşmasının idarə edilməsinin və s. ikinci plana daxil edilməsi məqsədəuyğun olmamışdır.

Bunların bir xüsusiyyəti ondadır ki, istə
tərsə də iqtisadi, inzibati rayonlarda məskunlaşı
arxasınca hərəkət edib. Belə şəraitdə xammal
müəssisələr, istehsal istiqamətlərinə uyğun elm və te
nın müasir təlabatından bir qədər kənar, müasir tələb
cavab verməyən ənənəyə üstünlük verilmişdir.

İstehsalın arxasınca hərəkət edən əhalinin, əmək qabiliyyətlilərinin məskunlaşması onun fəaliyyətinin zəifləməsi yaradıcı əməyi məhdudlaşdırmış, küllü miqdarda işçiləri iş yerlərindən məhrum etmişdir.

Azərbaycanın şəhərlərində, müxtəlif bölgələrində fəaliyyətini dayandırmış, tənəzzülə uğramış sənaye sahələrində, kənd təsərrüfatında, ticarət müəssisələrində məskunlaşan fəhlə və qulluqçuların da əmək fəaliyyətini dayandırması buna misaldır. Fikrimizcə, Azərbaycan Respublikasının bazar münasibətlərinə keçid şəraitində müasir dövlət qurumu, əhalinin sıx məskunlaşması məhsuldar qüvvələrin inkişafının və yerləşməsinin cəlbedici amilinin nəticəsindən əmələ gəlir.

Dövlətin real sosial, iqtisadi inkişafından kənar bir məsələni də qeyd eimək lazımdır. Bu da bəzi mütəxəssislərin, alimlərin söylədiyi kimi, istehsalın və bununla əlaqədar məskunlaşmanın ərazi üzrə mütənasib yerləşdirilməsidir. Əlbəttə, bununla razılaşmaq olmaz. Təbii şəraitin, təbii sərvətlərin geniş ərazi sistemində istehsalın, məskunlaşmanın qeyri-bərabər yerləşdirilməsinə şərait yaratmışdır.

Layihələşdirici və planlaşdırıcı təşkilatların vəzifəsi ərazi sistemi üzrə məskunlaşmada, istehsal sahələrinin yerləşdirilməsində olan fərqlərin aradan qaldırılması, bu sistemdə bərabərliyin, proporsionallığın tərəfdarı olmaq deyil, qeyri-bərabər yüksəlməni törədən amillərin səbəblərinin araşdırılmasından, təbii-iqtisadi potensiallardan səmərəli istifadə edilməsindən, onların fəaliyyətinin məqsədəuyğun yönəldilməsindən ibarətdir.

Ərazi sistemində ictimai inkişafa şərait yaradan və əhali məskunlaşmasının qeyri-bərabər yerləşdirilməsində hakim

üzləşməsi obyektiv təzahürdür. Bunun asında istehsalın sənayeləşdirilməsində amildir. Əlbəttə, 86,6 min kv. km-lik la 18 min kv. km-nin erməni işğalçıları ı Azərbaycan Respublikasında şəhər və ırşılıqlı əlaqələrinin mövcudluğu şərai- ıaşma sistemi tezisi bu gün üçün aktual

ımdır ki, müasir sivilizasiyanı tam mənada şənəı ... ıyası adlandırmaq olar. Şəhər həyat tərzi geniş mənada kəndlərə də təsirini göstərir, onları bir növ «mədəniləşdirir», «şəhərləşdirir», əhalisinin müəyyən hissəsini «urbanizasiyaya» cəlb edir.

Urbanizasiya fenomeni inkişaf etmiş ölkələrdə kompleks proses kimi sənaye-istehsal ərazilərini və sıx yerləşmiş kənd yaşayış yerlərini əhatə edir. İndi Bakı da daxil olmaqla Azərbaycanda bu proseslər mövcuddur. Belə şəraitdə urbanizasiya fenomeni baxımından Azərbaycanı orta səviyyəli dövlət kimi qəbul etmək olar. Lakin Bakının iqtisadi, sosial əhəmiyyəti, urbanizasiyanın inkişafındakı rolu bir çox şəhərlərdən fərqli olaraq özünə məxsus xüsusiyyətə malikdir. Ona görə ki, resublikada yaşayan əhalinin 25 faizi bu şəhərdə məskunlaşıb. Respublika əhalisinin bu qədərinin Bakıda məskunlaşmasını müasir dövrdə sosial, iqtisadi, ekoloji baxımdan sərfəli hesab etmək düzgün deyil. Ona görə ki, hər hansı şəraitdə olursa-olsun bu proses sıx təmərküzləşmə vəziyyətində məskunlaşmanı gərginləşdirir, ekoloji mühitə mənfi təsir edir ki, bu da işsizlik, sosial, iqtisadi cəhətdən neqativ hallar yaradır.

Respublikanın gələcək inkişafının səmərəli ərazi təşkili, iqtisadi, sosial vəziyyətin müasir dünya sivilizasiyası səviyyəsinə çatdırılması urbanizasiya fenomeninin, xüsusilə Bakı şəhərində gəlmələr hesabına əhali artımının xeyli qarşısını ala bilər. Buna şərait yaradan mühüm amillərdən biri də rayonlarda elektroenerji, yanacaq-enerji, radio-televizi-

ya, əhaliyə xidmət sahələrinin inkişafı ilə kənd həyat tərzinin şəhər yaşayış tərzinə yaxınlaşdırılması vasitəsilə, onların arasındakı fərqin qismən aradan qaldırılması ola bilər.

Respublikanın müasir inkişafı dövründə iqtisadi islahatların aparılması və postkapitalist istehsal münasibətlərinə keçid dövründə Bakı, Sumqayıt aqlomerasiyasında təmərküzləşmə xeyli seyrəlir. Respublika şəhərlərinin inkişaf təməlini «şəhər mühitinə» xas olan amillərdən başqa onların yerləşdiyi ərazinin təbii və iqtisadi potensialları müəyyən edir. Bu baxımdan şəhərlərin yaranmasının təbii, iqtisadi mənbəyindən asılı olaraq müəyyən dərəcədə əmək ehtiyatlarının istehsal təmayülünə müvafiq formalaşması, uyğunlaşması baş verir.

Məsələn, Daşkəsən, Gəncə şəhərləri əhalisinin əsas hissəsi 50-ci illərdən başlamış 90-cı ilin əvvəlinə qədər dağ-mədən, metallurgiya sənayesi bazasının inkişafı əsasında artmış və onların əmək qabiliyyətli əhalisinin 10 min nəfərə yaxını bu sahədə işləmişlər. Göstərilən sənaye sahələrinin tənəzzülə uğraması və başqa sahələrin də, məsələn, cihazqayırmanın, maşınqayırmanın, tikinti materialları istehsalının, tikinti kompleksinin, yüngül, yeyinti sənayesi sahələrinin fəaliyyətinin dayanması ilə əlaqədar cavan və yaşlı əhali başqa yerlərə, əsasən respublikadan xaricə və Bakı şəhərinə köçmüşlər. Bu səbəbdən həmin şəhərlərdə əhali artımı demək olar ki, yarıbayarı azalmışdır.

Ümumiyyətlə, şəhərlərdə əhali artımı əsasən iki mexanizmin təsiri altında baş verir: təbii artım və miqrasiya. Son 10 ildə Bakı əhalisinin artımında qaçqın və köçkünlərlə yanaşı miqrantların da böyük təsiri olmuşdur. Bundan əlavə, Bakı və Sumqayıt, Gəncə kimi iri şəhər ərazisinin genişləndirilməsinə əhali artımından başqa azlıqda qalan bir qrup varlanan əhalinin də böyük təsiri vardır. Onlar şəhərin boş ərazilərini, şəhərətrafı zonanı müxtəlif yollarla tutmaqla yaraşıqlı evlər, villalar tikməklə şəhər ərazisini genişləndirirlər.

Mərkəzdə – Badamdar, Bakı-Xırdalan, Binəqədi, Bakı-

Hövsan və s. sahələrdə tikilən cazibədar villalar altında «şəhərsalınma» ərazisi buna misaldır. Beləliklə, bir qrup əhalinin sosial vəziyyətinin yaxşılaşması, varlanması şəhər ərazisinin genişlənməsində mühüm amil kimi qəbul edilə bilər.

İnkişaf mərhələlərindən, mədəni, yerli adət və ənənələrdən, şəhərsalma siyasətindən asılı olaraq, şəhərlərin ərazisi müxtəlif formada məskunlaşır. Belə şəraitdə Bakı, Gəncə, Şamaxı, Şəki, Bərdə şəhərləri uzun müddətdir ki, yığcamlığını saxlamışlar.

XIX əsrin əvvəllərindən avtomobil, dəmir və şose yolunun, Xəzər dəniz gəmiçiliyinin inkişafı vaxtından başlayaraq indiyə qədər Bakı üç tərəfdən – Bakı-Rostov dəmir yolu, Bakı-Şamaxı, Bakı-Ələt-Gəncə-Tiflis, Bakı-Xaçmaz-Dərbənd dəmir və şose yolları boyu inkişaf etməkdə davam edir. Bundan başqa, Bakının Abşeron yarımadasının sahilləri boyu istiqamətində inkişaf etməsində neft mədənlərinin, onlarla əlaqəli inkişaf edən sənaye müəssisələrinin böyük rolu olmuşdur.

Mingəçevir, Əli-Bayramlı şəhərlərinə gəldikdə isə onların inkişafı müharibədən sonrakı dövrdə su-elektrik və istilik-elektrik stansiyalarının, neft sənayesinin və onların əsasında respublika əhəmiyyətli sənaye sahələrinin yaradılması ilə əlaqədardır. Hər iki şəhər Kür çayı sahilləri boyu əsasən uzununa inkişaf etmişdir. Şəhər daxilində əsas nəqliyyat magistralları, şəhərin mərkəzində çoxmərtəbəli yaşayış binaları salınmışdır.

Nisbətən az yer tutan bu binalar bir növ şəhər ərazisində torpağa «qənaət edir», lakin müəyyən qədər sıxlıq yaradır. Ümumiyyətlə, şəhərlərin yaranması və formalaşması, şəhərsalma qanunlarına riayət olunmaqla əlverişli təbii zəminlərə, iqtisadi, coğrafi mövqeyə, tarixən təşəkkül tapan və ixtisaslaşan hər hansı sənətkarlığın, istehsal sahələrinin inkişaf etdirilməsinə əsaslanır.

Zaman ötdükcə sənaye istehsalı, xidmət sahələri, infrastruktur əlaqələr, texniki tərəqqi, texnoloji proseslər mütə-

rəqqi istiqamətdə inkişaf edir. Şəhər mühitində urbanizasiyanın, istehsal və qeyri-istehsal sahələrinin təmərküzləşməsinin əhaliyə təsiri də intensivləşir. Belə proses şəhər sakinlərinin saf ekoloji mühitə, təmiz havaya, təbii şəraitə olan ehtiyacını artırır.

Ərazi seçilməsində şəhər təsərrüfatının, nəqliyyat vasitələrinin, sənaye sahələrinin inkişafında göstərilən kompleks məsələlərin nəzərə alınması zəruri şərt kimi qiymətləndirilməlidir. Belə şəraitdə şəhər sakinlərinin müəyyən hissəsi çalışır ki, imkan dairəsində kənarda az da olsa əkib-becərmək üçün boş torpaq sahəsinə malik olsun, təbii şərait mühitində özünü sərbəst hiss etsin.

Azərbaycanın iri və orta şəhərləri əhalisinə xas olan əsas əlamət ondan ibarətdir ki, onlar sənaye mühitində yaşayırlar və sənaye müəssisələri əsasən urbanizasiya hissəsində yerləşir. Bu sahədə köhnə Bakı ilə yeni Bakı ərazisi arasında mühüm fərqlər vardır. Köhnə Bakının bir hissəsi olan Qara şəhər, Keşlə, Bakıxanov qəsəbəsinin müxtəlif təmayüllü müəssisələri - neft emalı, neft-maşınqayırma zavodları ilə əhatə etmişdir. Əsasən 60-cı illərdən sonra yaradılmış mikrorayonlar isə demək olar ki, «sənayesiz» ərazi kimi formalaşmışdır.

Əsasən, 50-ci illərdən şəhər kimi formalaşmış Sumqayıt ağır sənaye müəssisələri-metallurgiya, kimya zavodlarının təmərküzləşməsi şəraitində yaşayır. Xəzər dənizi sahilindəki Sumqayıt şəhəri fəaliyyətdə olan metallurgiya, kimya, yeyinti, yüngül sənaye müəssisələri xammal mənbələrindən uzaqda yerləşir ki, bu da onların daşınmasına sərf edilən küllü miqdarda nəqliyyat xərcləri hesabına məhsulların maya dəyərini bahalaşdırır.

Şəhərsalma təcrübəsində əsasən qəbul edilməz belə şərt Sovet hakimiyyəti illərində «Komsomol şəhəri» kimi qələmə verilən Sumqayıt üçün qeyri-məqbul hesab edilməlidir. Lakin buna riayət edilməməsi şəhəri «ekoloji facia» mühitinə gətirib çıxarmışdır.

Şəhərlərin inkişafı və formalaşmasında, onların daxili

infrastruktur əlaqələrində nəqliyyat həlledici əhəmiyyətə malikdir. Müasir şəhərlər üçün metropolitenlərlə yanaşı avtomobil nəqliyyatı xüsusi əhəmiyyət kəsb edir. Bu, metro nəqliyyatına nisbətən ona görə əlverişlidir ki, sərnişin və yük daşınmasının hərəkət istiqamətləri boyu qapıdan-qapıya daha manevrlidir. Avtonəqliyyatın üstün cəhətlərindən biri də ondan ibarətdir ki, əhalinin iş yerlərinə gedib gəlməsini asanlaşdırır. Lakin bu nəqliyyatın metro xidmətindən baha olması ondan istifadə edilməsini bir qədər məhdudlaşdırır.

Cəmiyyətin müasir dövrünü «İri şəhərlərin epoxası», urbanizasiya prosesinin XX əsrin «sakit inqilabı» adlandırırlar. Həqiqətən dünyada mövcud olan şəhərlərin yaranması XX əsrin birinci yarısının payına düşürsə, əsrin ikinci yarısı intensiv urbanizasiyanın inkişaf dövrünü əhatə edir. Əgər əvvəllərdə planetin sosial-iqtisadi inkişafının formalaşmasında urbanizasiyaya bir növ sərbəst qlobal proses kimi baxılırdısa, indi şəhərlər cəmiyyətin inkişaf prosesinin törəməsi və nəticəsi kimi qiymətləndirilir. Bu məhsuldar qüvvələrin ərazi təmərküzləşməsinin qanunauyğunluqlarını, trans-sərhəd daxilində məskunlaşma formasını, nəqliyyat mərkəzlərinin, dünya şəhərlərinin və s. yaranmasının qanunauyğunluqlarını əks etdirən qlobal prosesdir (*1-ci cədvələ bax*).

Hazırda insanlar inkişaf yolunda mühüm kordinal dönüş, evolyuvasiya astanasında dayanmışlar. Belə ki, 60-cı illər şəhər əhalisi ilə yanaşı, dünya əhalisinin dinamiik modelinin inkişafını əks etdirən dövr kimi səciyyələnir. BMT-nin məlumatına görə, gələcəkdə dünya əhalisi qurumunda kənd əhalisinin xüsusi çəkisinin azalması şəhər mühitini xeyli genişləndirəcəкdir. Beləliklə, sosial məzmununa görə geniş miqyasda şəhər münasibəti kəmiyyət baxımından hakim mövqe kimi özünə möhkəm yer tutacaqdır.

50-ci illərdən başlamış dünyanın şəhər əhalisi hər 20 ildə 2 dəfə, yəni ildə orta hesabla 7 faiz artmışdır. İndi dünya əhalisinin 2700 mln nəfəri (*45 faiz*) şəhərlərdə məskunlaşıb. Dünya əhalisi ölkələr üzrə qeyri-bərabər paylanmışdır, onun yarısı

Çində, Hindistanda, Pakistanda, ABŞ-da, Braziliyada, Rusiya Federasiyasında və Yaponiyada sakinləşib. İndi dünya şəhər əhalisinin 40 faizi bunların payına düşür qalan 60%-i başqa ölkələrdə yaşayır. Dünya ərazisinin 0,17%-ni tutan Azərbaycan Respublikasında onun əhalisinin 0,13%-i məskunlaşıb. Azərbaycan əhalisi əsasən doğum hesabına hər il 1,86% artır ki, bu da 30 ildə 2899,2 min əhali artımı vermişdir.

**Son 50 ildə dünyada və Azərbaycanda urbanizasiya dəyişikliyinin əsas göstəriciləri (*mln. nəfər*)**

**Cədvəl 1**

| Göstəricilər | Dünya üzrə | | | | Azərbaycan üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1950 | 1970 | 1990 | 2000 | 1950 | 1970 | 1990 | 2000 |
| Əhalinin ümumi sayı | 2524 | 3702 | 5282 | 6091 | 2859 | 5117 | 7963 | 8081 |
| Şəhər əhalisi | 1774 | 2345 | 2279 | 2890 | 1252 | 2565 | 4053 | 4121 |
| Kənd əhalisi | 1774 | 2345 | 3003 | 3201 | 1604 | 2552 | 3900,1 | 3900 |
| Şəhər əhalisinin xüsusi çəkisi (*faizlə*) | 29,2 | 36,6 | 43,1 | 47,1 | 44,0 | 56 | 51 | 51 |
| Şəhər əhalisi daxilində iri şəhərlərdə əhalinin cəmi (*faizlə*) | 7,7 | 11,9 | 14,9 | 17,8 | 28 | 32 | 59,0 | 59,0 |
| Şəhər əhalisinin orta illik artım sürəti/min nəfərlə | | 602 | 927 | 617 | 57,6 | 80,4 | 60,0 | 51,0 |
| Ümumi əhali artımında şəhər əhalisi (*faizlə*) | 3,0 | 2,6 | 2,4 | 2,2 | 24,1 | 29,6 | 36,9 | 36,8 |
| Kənd əhalisi (*faizlə*) | 1,2 | 1,6 | 0,7 | 0,4 | 31,0 | 29,3 | 99,0 | 47,6 |
| 500 min nəfərə qədər | 185 | 340 | 577 | 737 | | | | |
| 500 minlə –1 mln arasında | 13 | 165 | 282 | 372 | - | 1 | 1 | 1 |
| «Milyoner» şəhərlərdə əhalinin orta illik sayı | 2,4 | 2,7 | 2,8 | 2,9 | - | 1,3 | 1,7 | 1,9 |

İndi Azərbaycan şəhərlərində respublika əhalisinin 51 faizi, o cümlədən Bakıda 25 faizi yaşayır. İndi şəhər əhalisi məskunlaşmasının artımına ictimai inkişafın nəticəsi və amili kimi baxmaq lazımdır.

**Son 30 ildə Azərbaycanda ümumi əhalinin artım dinamikası**

**Cədvəl 2**[1]

| İllər | Cəmi | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi, *faizlə* | Şəhər əhalisinin sayının illik artım sürəti |
|---|---|---|---|---|---|
| 1970 | 5117,1 | 2564,6 | 2552,5 | 50,1 | 2,4 |
| 1975 | 5644,4 | 2921,3 | 2723,1 | 51,8 | 2,8 |
| 1980 | 6114,3 | 3247,5 | 2866,8 | 53,1 | 2,2 |
| 1985 | 6622,4 | 3524,5 | 3097,9 | 53,2 | 1,7 |
| 1990 | 7131,3 | 3839,8 | 3291,5 | 53,8 | 1,8 |
| 1991 | 7186,6 | 3864,9 | 3321,7 | 53,8 | 0,7 |
| 1992 | 7296,9 | 3919,9 | 3377,0 | 53,7 | 1,4 |
| 1993 | 7367,9 | 3933,2 | 3434,7 | 53,4 | 0,3 |
| 1994 | 7430,7 | 3952,8 | 3477,9 | 53,2 | 0,5 |
| 1995 | 7486,9 | 3967,1 | 3519,8 | 53,0 | 0,4 |
| 1996 | 7535,3 | 3973,2 | 3562,1 | 52,7 | 0,2 |
| 1997 | 7574,3 | 3974,0 | 3600,5 | 52,5 | 0,0 |
| 1998 | 7631,6 | 3983,4 | 3648,2 | 52,5 | 0,2 |
| 1999 | 7953,4 | 4053,5 | 4085,5 | 51,0 | 0,0 |
| 2000 | 8016,3 | 4085,5 | 3930,7 | 51,0 | 0,0 |

Bununla bərabər, obyektiv səbəblərdən asılı olaraq sosial-iqtisadi problemlərin həll edilməsi qlobal məsələ olaraq şəhərlərin tədqiqatı urbanizasiyanın tərkib hissəsi kimi qiymətləndirilməlidir. Geniş mənada bu problemin özü sosial-iqtisadi baxımdan iri şəhərlərin xüsusi tədqiqatının aparılmasını qarşıda qoyur.

Şəhərlər məhsuldar qüvvələrin, işçi qüvvəsinin səfərbər edilməsində, bunun əsasında istehsal və qeyri-istehsal sahələrinin, onların arasında infrastruktur əlaqələrin inkişafında mühüm obyektdir. Hazırda bunların səviyyəsi müasir dövrün tələblərinə münasib mütərəqqi təmayüldə inkişafı dövlət qurumları ilə yanaşı, sahibkarlıqdan, idarəçilik sistemindən çox asılıdır.

Qeyd etmək lazımdır ki, kənd yerlərinə nisbətən şəhərlərdə səhiyyə, təhsil, elm, elmi-texniki, mədəni xidmət sahələrinin inkişaf səviyyəsi xeyli yüksəkdir. İri şəhərlər yaşayış

[1] Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib edilmişdir.

üçün cəzbedici «vasitələrə», eləcə də yüksək səmərəli təsərrüfat, ticarət fəaliyyəti üçün daha əlverişli imkanlara malikdir.

Rəsmi məlumatlara istinad edib demək olar ki, dövlətin iqtisadi inkişaf səviyyəsindən asılı olaraq adambaşına məcmui məhsulun həcminə görə iri şəhərlər ölkə səviyyəsini 1,5-2,0 dəfə qabaqlayıb.

Əlbəttə, iri şəhərlər özlərinə məxsus neqativ hallar yaradır. Əhali sıxlığı, istehsalın, əhaliyə xidmət sahələrinin üstün mövqeyi, səs-küy, ekoloji gərginlik əhalinin narahatlığına səbəb olur, əsəbilik, gərginlik, darıxdırıcı əhval, qapalı həyat tərzi yaradır.

Müasir geourbanistikanın qarşısında bir sıra mühüm və mürəkkəb məsələlər durur və ümumilikdə bunları aşağıdakı böyük qruplara bölmək olar.

Birinci qrup, çoxdan bəri qarşıda qoyulan, daha geniş yer tutan problemlərin müasir dövrün tələblərinə uyğun həllini qarşıda qoyur. Bunun tərkibinə istehsalın səmərəli yerləşdirilməsi, kompleks idarəedilməsi, müxtəlif təmayüllü şəhər təsərrüfatının uzlaşdırılması kimi vəzifələr daxildir.

İkinci qrup vəzifə, müasir dövrdə baş verən geourbanistikanın səbəblərini, onların xüsusiyyətlərini, ölkənin şəhərin inkişafındakı əhəmiyyətini müəyyən etməkdən, istehsalın inkişafının, şəhərin inkişafındakı yolları səmərələşdirməkdən ibarətdir. Göstərilən məsələ praktiki cəhətdən Azərbaycan Respublikası şəraitində, xüsusilə aktual əhəmiyyətə malikdir. Birincisi ona görə ki, şəhər əhalisinin artım sürəti ümumi əhali fəallığını sürətləndirir. İkincisi, demourbanistika ənənəsi ilə sosial-iqtisadi inkişaf arasında sonuncunun səmərəsizliyi şəraitində uyğunsuzluq yaranır. Bakı, Gəncə, Naxçıvan, Əli-Bayramlı, Şəki, Yevlax, Quba, Lənkəran və s. şəhərlərdə iqtisadi, sosial inkişaf sürəti urbanizasiyanın əhali məşğulluğundan xeyli geridə qalır. Göstərilən amillər 1996-cı ildə Kopenhagendə keçirilmiş dövlət başçılarının müşavirəsində beynəlxalq dövlətlər üçün qəbul edilməsi zəruri olan üç mühüm qərarların: işsizliyin, yoxsul-

luğun, sosial stratifikasiyanın aradan qaldırılması kimi problemləri qarşıda qoyan zəruri vəzifədir.

İstər respublikanın şəhər mühitində, istərsə də ümumilikdə bu vəzifələrin yerinə yetirilməsi müasir dövrdə sosial təlabatla iqtisadi inkişaf arasında uçurum yarada bilər. Bunun ən təhlükəli aqibəti əhali arasında həyat səviyyəsinin kəskin tənəzzülü, əhalinin, onun intellektual səviyyəsinin respublikadan kənara axını ilə nəticələnə bilər. Bu proses indi də davam etməkdədir.

Əgər bunun qarşısı alınmazsa, Azərbaycanda dövlətçiliyin inkişafında beynəlxalq miqyasda çətinliklərə gətirib çıxara bilər. Respublikanın müstəqil dövlət kimi inkişaf etdiyi illərdə, qaçqınların və məcburi köçkünlərin şəhərlərə axını şəraitində geourbanistikanın metodoloji, iqtisadi, sosial bazasının təkmilləşdirilməsi, bu sahədə bir sıra iri şəhərlərin təcrübəsinin, yaradıcı amillərin Azərbaycana şamil edilməsi, onlarla səmərəli iqtisadi baza arasındakı əlaqələrin möhkəmləndirilməsi zəruri şərt kimi qiymətləndirilməlidir.

Şəhərlərdə sosial-iqtisadi inkişafın nizamlanması böyük əhəmiyyətə malikdir. Bunlar da təsərrüfatın inkişafı, aqlomerasiyanın irimiqyaslı nizamlanması sosial-iqtisadi zərurətdən irəli gəlir. Belə şəraitdə xalq təsərrüfatı sahələrinin nizamlanmasının iqtisadi baxımdan idarə edilməsinə aşağıdakı tədbirlər sisteminin daxil edilməsini məqsədyönlü hesab edirik:

a) şəhərəmələgətirən obyektlərin səmərəli inkişafı və yerləşdirilməsi istehsal və qeyri-istehsalda işləyən fəhlə və qulluqçuların miqdarından artıq yer tutan yeni müəssisələrin tikilməsinə və yenidən qurulmasına xeyli əmək tutumlu, daha doğrusu, əmək gərginliyi yaradan müəssisələrin yaradılmasına yol verilməməsi;

b) şəhərlə, mikrorayonlarla mərkəz arasında əhali miqrasiyasını nizamlayan istehsalın, nəqliyyatın səmərəli uzlaşdırılması;

c) şəhər peyklərinin iqtisadi, ekoloji baxımdan məq-

sədyönlü yerləşdirilməsi üzrə iqtisadiyyatın idarə edilməsinin, əmək ehtiyatlarının miqdarına uyğun uzlaşdırılması, əhali axınının məhdudlaşdırılması ilə yaşayış arasında mümkün qədər uyğunluq yaradılması.

Təəssüf ki, respublikanın iri şəhərləri üçün son dərəcə zəruri olan bu şərtlərə çox hallarda laqeyd yanaşılır ki, bu da şəhərdaxili və şəhərlərarası «rəqqas miqrasiyası»nı, nəqliyyat hərəkətini gərginləşdirir.

Məlumdur ki, «rəqqas miqrasiyas»ı iri şəhərlərin işçi qüvvəsinə olan təlabatın ödənilməsində mühüm mənbədir. Lakin bu tələbatın yerinə yetirilməsində, «rəqqas miqrasiyası»nda iştirak edənlərin yaşadığı ərazi arasındakı məsafə və burada nəqliyyatın hərəkəti nizama salınmalıdır. Bunları nəzərə alaraq Abşerondakı 50 şəhər tipli qəsəbə və s. yaşayış məntəqələri ilə əsas məşğuliyyət mənbəyi olan Bakı şəhərilə neft-qaz mədənləri sənaye müəssisələri, ticarət obyektləri arasındakı əlaqələr elə nizama salınmalıdır ki, «rəqqas miqrasiyasının» hərəkətində uyğunsuzluq yaranmasın. Əlbəttə, bununla yanaşı, ərazisi genişlənməkdə olan Bakı Şəhər İcra Hakimiyyəti üçün olan «əmək balansı» tədbirlərinin həyata keçirilməsi vacibdir. Əgər belə olarsa, şəhərin əhalisi (*qaçqınları çıxmaq şərtilə*) indikindən xeyli az olardı və burada işsizlik də bir qədər məhdudlaşardı. «Əmək balansının» zəruri tədbirlərindən biri Bakı, Gəncə, Sumqayıt, Əli-Bayramlı, Mingəçevir, Naxçıvan şəhərlərində əmək qabiliyyətli əhalinin, maddi-texniki imkanların mövcudluğuna görə istehsal və qeyri-istehsal təmayüllü müəssisələr fəaliyyətini nizama salmalıdır.

Məşğul əhalinin intensiv urbanizasiyaya malik olan şəhər mərkəzində sənaye, nəqliyyat, ticarət müəssisələrinin bir hissəsinin mikrorayonlara köçürülməsi indi vacib şərt kimi qarşıda durur. Bu tədbir şəhər peyklərində, mikrorayonlarda məskunlaşan əhalinin mədəni-məişət, təminat səviyyəsinin yaxşılaşdırılması, mərkəzə doğru əhali axınını, nəqliyyatda hərəkət gərginliyini xeyli azaldır.

Şəhərlərdə sərnişin-nəqliyyat hərəkətinin nizama salınması və boşdayanmalar, ekoloji mühiti korlayan yanacaga qənaət edilməsinin, yandırılmasının aradan qaldırılması və iş yerlərinə və başqa yerlərə gedib-gəlmə vaxtının qısaldılması avtonəqliyyatdan atmosferə buraxılan zərərli qazların, tüstünün miqdarının azaldılması üçün vacib şərtlərdəndir.

Suveren dövlət qurumu şəraitində Bakı və Sumqayıt da daxil olmaqla respublikanın böyük və orta şəhərlərində material, yanacaq tutumlu sahələrin məhdudlaşdırılması müasir dövrün tələblərindən irəli gəlir. Əmək, enerji, su, material, elm tutumlu sənaye sahələrinin inkişafı imkan və şəraitdən asılı olaraq elə rayonlaşdırılmalıdır, yerləşdirilməlidir ki, iqtisadi və ekoloji səmərə alınsın.

Qarşıda duran vacib məsələlərdən biri də uzaqdan xammal və yarımfabrikatların daşınmasını mümkün qədər məhdudlaşdırmaq, yerli xammaldan, iqtisadi potensialdan, əmək ehtiyatlarından səmərəli istifadə etməklə şəhəryanı aqrosənaye müəssisələrini inkişaf etdirib əhalinin tələbatını yerli istehsal hesabına yaxşılaşdırmaqdır.

Hansı mülkiyyət formasında və istehsal münasibətlərində olursa-olsun böyük şəhərlərdə iqtisadi, sosial inkişafın nizamlanması istehsalın profilindən asılı olaraq fəhlə və qulluqçuların, ixtisaslı mütəxəssislərin əmək bölgüsünün düzgün təşkili, əmək məhsuldarlığının artırılması şəraitində həyata keçirilə bilər. Bununla belə, əhalinin mədəni-məişət xidmətinin yaxşılaşdırılması, xidmət sahələri fəaliyyətinin artırılması mühüm şərtdir.

İndiki iqtisadi-sosial şəraitdə kənd rayonlarında intensivliyin yaratdığı maddi-texniki bazanın kəskin surətdə məhdudluğu, toxum, sürtkü-yanacaq materiallarının, ehtiyat hissələrinin bahalığı üzündən torpaqlardan yarıtmaz istifadə edilməsi, ümumiyyətlə, istehsalın tənəzzülü şəraitində şəhərlərdə iqtisadi, sosial gərginliyi bir daha artırır.

Şəhərlərin tədqiqatının nəzəri, metodiki aspektləri və onun nizamlanması, yeni dövrün tələblərindən irəli gələn

zəruri tədbirlərdir. Şəhərlərin tətqiqatında ilkin məlumatlardan istifadə müasir vəziyyətin təhlili, özlərinə məxsus yaranma şəraitini «yeni», «gənc» şəhərlə köhnələr arasında olan fərqin aradan qaldırılmasında zəruridir və şəhər haqqında sosial-iqtisadi, ekoloji təsəvvürləri əldə etməkdə böyük əhəmiyyət kəsb edir. Göstərilən tədbirlərin qəbul edilməsi tədqiqatın sərhədini genişləndirir, sözün əsl mənasında şəhərlərin yaradılması tarixini də əks etdirir. Buradan belə sual meydana çıxır: hanşı şəhəri biz yeni adlandıra bilərik? Son 40-45 ildə yaranan şəhərləri yeni şəhərlər adlandırmışlar.

Lakin bu həqiqətdən bir qədər uzaqdır, ona görə ki, yaşayış məntəqələrinin hansı ranqa daxil edilməsi əsasən inzibati təşkilatların ixtiyarındadır, bu məsələnin həllində ayrı-ayrı ölkələrdə müxtəlif vaxtlarda qəbul edilmiş meyarlara birmənalı baxılmır. Bu halda qərarların qəbulu hər şeydən əvvəl əhalinin məskunlaşmasından, istehsalın sənayeləşmə səviyyəsindən asılıdır. Əlbəttə, bu ayrı-ayrı ölkələrdə, eləcə də bir ölkə daxilində birmənalı amil kimi qəbul edilmir. Məsələn, sabiq SSRİ respublikalarında əhalinin miqdarına, şəhərlərin böyüklüyünə, ranqına görə təsnifatın aparılması üçün müxtəlif meyarlar qəbul edilirdi.

İdarəetmənin yerinə yetirilməsi yaşayış məntəqəsinə verilən statusdan və buna uyğun funksiyanın müxtəlif təmayüldə fəaliyyət göstərməsindən asılıdır. Mahiyyətinə görə inzibati qərarlar məqsədyönlü xarakterlidir və ayrı-ayrı ölkələrdə onlar müxtəlif hüquqi normalara əsaslanır ki, bunlar da müəyyən vaxtda dəyişkənliyə məruz qalır. Buna görə inzibati tədbirlər ən çox «yeni şəhər»-in müəyyən edilməsində mühüm əhəmiyyətə malikdir.

Şəhər statusunun verilməsində dəqiq meyar onun müasir mövqeyi, tarixi genezisidir ki, bu da onun ərazi strukturu və memarlıq baxımından müəyyən edilir. Bu mənada yeni yaranan şəhərlərə urbanistika və memarlıq məntəqəsi kimi baxmaq lazımdır. Yeni şəhərin yaranması müasir dövrün

tələbləri əsasında müəyyən məkan və zaman daxilində əvvəlki illərə nisbətən tez vaxtda baş verir. Lakin belə yaşayış məntəqələrinin iri şəhərlərə çevrilməsi uzun vaxt tələb edir.

Müharibədən sonra Mingəçevir SES kompleksi əsasında yaranmış eyni adlı şəhər, neft mədənləri rayonunda böyük istilik-elektrik stansiyası yanında yaranmış Əli-Bayramlı, Şəmkir SES bazasında əsası qoyulmuş Kür qəsəbəsi, metallurgiya, kimya və s. sənaye müəssisələrinin əsasında salınmış Sumqayıt şəhəri, açıq dənizdə neft mədənlərinin «pioner» məntəqəsi olan Neft daşları müharibədən sonra şəhər kimi formalaşmışdır.

Yeni şəhər məfhumunun müəyyən edilməsində ən mürəkkəb ölçü funksional meyardır. Çünki şəhərin özü çoxfunksiyalı yaşayış məntəqəsidir. Geniş ərazi tutan Bakı kimi müasir şəhərlərdə əsas funksiyaların yerinə yetirilməsində ictimai ərazi bölgüsü mühüm rol oynayır. Məsələn, Qara şəhər-neft emalı, Keşlə-Montin maşınqayırma müəssisələri, Bayıl elektrik enerji, gəmi təmiri rayonu; İçəri şəhər qədim memarlıq və abidələr-yeri, mərkəz idarəedici, qanunverici inzibati, elm, mədəniyyət, səhiyyə və s. vəzifələri yerinə yetirir.

Göstərilən ərazi bölgüləri çox hallarda inzibati sərhədlərdən kənarda, şəhərətrafı ərazilərin payına düşür. Şəhərin iqtisadi inkişaf əsası onun ənənəvi göstəricisi kimi əmək, maddi-texniki, elm tutumlu sahələrin miqyası ilə ölçülür. Bu mənada şəhər müxtəlif əmək tutumlu (*əhali məşğulluğu*) yerlərə (*sahələrə*) malikdir. Bütün bunlar istehsal, qeyri-istehsal sahələrinin təmərküzləşməsini, urbanizasiya şəraitində şəhər aqlomerasiyasının konurbanizasiyanı yaradır ki, bu da şəhərdə göstərilən istehsal sahələrində, daxili və şəhərətrafı rayonlarda əhali məskunlaşmasını formalaşdırır.

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, şəhər funksiyasının düzgün müəyyən edilməsinin əsas meyarı əhali məşğulluğu, urbanizasiya və istehsalın təmərküzləşməsidir ki, bunlar da şəhərin funksiyasını müəyyən edir. Yeni şəhər özünün əsas funksiyasına mənzil, əmək, istirahət,

maarif və mədəniyyət, təhsil və s. görə özünəməxsus müəyyən şəraitdə inkişaf edir. Sənaye nəqliyyat, tikinti və s. sahələrin inkişafı ilə əlaqədar burada əhaliyə xidmət göstərən müxtəlif təmayüllü xidmət sahələrinin mövcudluğu da mühüm şərtdir.

Göstərilən funksional müxtəlifliklə sosial diferensiallığın, məşğulluğun səviyyəsini təyin edən mühüm amildir. Bütün bu göstərilənlərin mövcud olması şəraitində müəyyən ərazi tutan yaşayış məntəqəsinə şəhər demək olar. Abşeron yarımadasında Bakı və Sumqayıt şəhər sovetliyindəki şəhər tipli və fəhlə qəsəbələrində sakinləşən əhali neft-qazçıxarma mədənlərində, sənayenin, nəqliyyatın aqrosənayenin müxtəlif sahələrində işləyirlər.

Bizim fikrimizə görə, şəhər funksiyasının ən mühüm meyarı ixtisaslaşma səviyyəsində «yeniliyin» müəyyən edilməsidir. Müvafiq yaşayış məntəqəsi funksiyasının köklü surətdə dəyişdirilməsi, əsas təmayülünə aid yeni sahələrin inkişafı üzrə müəyyən ixtisaslaşmaya malik olması, yeni şəhər yaranmasının təzahürüdür.

Bu meyar ona görə şəhərin aparıcı amili olmalıdır ki, başqa sahələrdə, məsələn, demoqrafiyada, morfologiyada, infrastrukturada və s. olan bir çox amillərinin dəyişiklikliyi nəticəsində baş verir. Məlumdur ki, şəhər funksiyasının dəyişməsi, əhali məskunlaşmasının təmərküzləşməsi, müdafiə əhəmiyyətli istehkam qalalarının tikilməsi ilə yanaşı getmişdir. Buna misal İçəri şəhər, Bərdə, Ramana, Mərdəkan, Şuşa, Çıraqqala və s. göstərmək olar.

XIX əsrin ortalarından başlanmış kapitalist istehsal münasibətlərinin inkişafı, məsələn, Azərbaycanda neftçıxarma, neft emalı sənayesinin inkişafı İçəri şəhərdən kənarda yeni sənaye müəssisələrinin inkişafına təkan verdi. Belə proses əvvəllərdə İçəri şəhər üçün səciyyəvi olan ərazi qapalılığını açdı, sosial-istehsal istiqamətində ərazi açıqlığında Azərbaycanın rayonları və bir çox dövlətlərlə əlaqəli surətdə inkişaf edən böyük şəhər yaratdı.

Əsas amillərdən biri də şəhərlərin gözəlliyini əks etdirən morfoloji xüsusiyyətdir. İlk baxışdan yeni şəhər elə bir məntəqədir ki, ya əsası təzə qoyulub, ya da şəhərlərdən fərqli olaraq müəyyən plan layihə əsasında yeniləşdirilib, rekonstruksiya, yaxud da hansısa yaşayış məntəqəsi edilib. Təbii olaraq əslində morfoloji amil şəhər ərazisinin yeniləşməsini, miqyasını yeniləşdirmək onun infrastrukturundan, ərazi strukturundan, quruluş və tipoloji görkəmindən asılıdır.

Əgər göstərilən amillər köklü surətdə dəyişikliyə məruz qalırsa, onda «yeni şəhər», ya da iqtisadi sosial dəyişikliyin miqyasından asılı olaraq transformasiyaya uğramış ərazi haqqında danışmaq olar. Göstərilən meyarlar vaxt və məkan amili ilə əlaqədardır. Ona görə ki, hər hansı yaşayış məntəqəsi mövcud olduğu müddətdə öz görkəmini, ərazi strukturunu müəyyən qədər dəyişdirir, köhnələri yeniləşdirir. Belə olduqda şəhər dövrün tələbatına görə özünü mütərəqqiləşdirir ki, bu da memarlıq nöqteyi-nəzərindən yeni yaranmış kimi qiymətləndirilir.

Burada ortaya çıxan çətinlik müəyyən dövrdə baş verən dəyişikliyi təhlil etməkdən başqa, buna təsir edən amillərin istifadə sərhədinin müəyyən edilməsidir. Əlbəttə, burada bir cəhəti də nəzərə almaq lazımdır ki, dəyişiklik miqyası yeni sahələrin yaranması ilə əlaqədar məşğulluq səviyyəsinin genişləndirilməsi şəhərin fəaliyyətini artırır.

Şəhər strukturunun müəyyən edilməsinin növbəti meyarı əhali, əmək ehtiyatı, məşğulluq strukturunun və sosial inkişafın mövqeyidir. Yeni şəhərə səciyyəvi olan əsas əlamətlərdən biri əhali arasında gənclərin üstünlük təşkil etməsindədir. Yeni adlandırdığımız Sumqayıt, Əli-Bayramlı, Mingəçevir bu sahədə üstünlüyünü müəyyən qədər itirsə də, kişi peşəsi ilə ixtisaslaşan sənaye və s. istehsal sahələri ya onların özündən, ya da ətraf rayonlardan uzun müddət cavanları qəbul etmişdir. Lakin son 10 illik keçid dövrünün istehsal durğunluğu ilə əlaqədar məşğulluq tənəzzülü bu prosesin qarşısını xeyli almışdır. Bununla yanaşı, «demo-

qrafik cavanlığın» müəyyən həddə saxlanılması göstərilən şəhərləri yenilik çərçivəsindən bir qədər çıxarmışdır, və demək olar ki, onlar «orta yaşa» qədəm qoymaqdadır.

İndi yeni istehsal növlərinin, təbii sərvətlərin, məsələn, hidroenerji ehtiyatlarının mənimsənilməsi, Kür çayı üstündə Şəmkir, Yenikənd SES-lərinin istifadəyə verilməsi yeni şəhər qəsəbələri yaradır.

«Demoqrafik cavanlıq» adlanan əhali qrupu və sosial meyar şəhərin və özünün cavanlıq sinonimidir. «Yeni şəhərə» səciyyəvi olan demoqrafik xüsusiyyətin strukturu ilə məskunluq arasındakı fəaliyyət nizamlanır, hamarlanır, lakin bu «cavanlıq» vaxtında olduğu amillərin formalaşmasını, demoqrafik əlaqələrin meyarını xeyli saxlayır. Belə şəraitdə demoqrafik meyarın özünəməxsus əlaməti onunla müəyyən edilir ki, şəhərin mövqeyinin mütəşəkkilliyini, istehsal fəaliyyətini, ərazi-istehsal strukturunu insanlar təkmilləşdirir. Şəhərin yeniliyi onun ərazisinin «sənayeləşdirilməsi» urbaniləşdirilməsi ilə bərabər əhalinin texniki intellektual strukturunun formalaşması əsasında yaranır. Belə şəraitdə əhali mobilliyi böyük əhəmiyyət kəsb edir.

Yerli miqrantlar çox hallarda demoqrafik, sosial, eləcə də milli-etnik xüsusiyyətləri ilə fərqlənirlər. Bakı, Sumqayıt, Gəncə kimi böyük şəhərlərin ətrafından köçüb onlara yaxın yerlərə gedən miqrantlar yeni qəsəbələrin, peyklərinin yaranmasına səbəb olur.

Şəhər infrastrukturunun meyarı iqtisadi, sosial, ictimai münasibətlər baxımından mühüm əhəmiyyətə malik olmaqla stereotip davranışın, əhalinin məskunlaşmasının, adaptasiya mexanizminin idarə edilməsinin dəyişkənliyi, qismən sosial və xidmət sferasının inkişafı ilə əlaqədardır. Əhalinin maddi, mədəni rifahı, mənzillə, müxtəlif xidmət növləri ilə təmin edilməsi nəqliyyatın, rabitənin etibarlı fəaliyyətindən çox asılıdır.

Hazırda kütləvi informasiya vasitələrindən asılı olaraq dünya sivilizasiyasına uyğun davranış qaydalarının qəbul

edilməsinə səy göstərilir. Bir ölkə daxilində qəbul edilən mədəni yenilik, incəsənət təzadları digərləri tərəfindən az-çox qəbul edilir.

Azərbaycanın şəhərlərində baş verən mütərəqqi yeniliklər, dəyişikliklər onun sakinlərinin davranış qaydaları rayon sakinləri tərəfindən də az-çox dərəcədə qəbul edilir. Davranış münasibətləri arasında şəhərlərin inkişafı və formalaşması sahəsində qəbul edilən tədbirlərin, şərtlərin məcmusu təbii olaraq sxematik xarakterli olmaqla yerli iqtisadi-coğrafi mövqeyin təsiri altında fəaliyyətdə olur.

Yeni şəhəri müəyyən edən şərtlərdən biri də «yeniliklə» «köhnəlik» arasındakı fərqlərin araşdırılmasıdır. Yeni şəhər çox nadir hallarda təmamilə mənimsənilmiş ərazidə salınır, adətən mövcüd olan şəhər tipli və fəhlə qəsəbələrin kəndlərin yerində, ya da boş ərazidə yaranır.

Yeni şəhərlərin inkişafına mühüm təsir edən iki genetik tip mövcuddur. Onlardan birincisi, aparıcı funksiyadır ki, bu da şəhər üçün, eyni zamanda genetik mahiyyət kəsb edir. İkinci halda müxtəlif fəaliyyətləri mütərəqqi proseslərin qəbuledici xüçuçiyyətdir. Hər hansı şəhərdə olduğu kimi, yeni şəhərin aparıcı funksiyası orada yaranmış sənaye istehsalı, sair yardımçı sahələrin bu və ya müxtəlif sahəsi təşkil edir. Beləliklə, əvvəlcə ərazi-istehsal meydanı, sonralar işçi qüvvəsinin tətbiqi sferaları əsas amil kimi yararlı olur.

İndi raspublikada yeni yaradılan və təməli qoyulmaqda olan şəhərlər (*Kür qəsəbəsi, Yenikənd*) bu qəbildəndir. Yeni şəhər ərazilərinin formalaşmsının potensial imkanları ilk növbədə yaşayış binalarının, idarələrin tikilməsi, sənaye qovşaqları, xidmət müəssisələri üçün müvafiq yerlərin seçilməsi, rekreasiya zonalarının təşkili ilə həyata keçirilir. Əsas məqsəd əhalinin yeni açılmış iş yerlərinə cəlb edilməsindən, onlar üçün müvafiq yaşayış, istirahət təşkilindən ibarətdir.

Məlumdur ki, bunlar hələ azdır. Müasir dövrdə yeni şəhər üçün ən zəruri şərt istehsal prosesində elm və texnikanın

mütərəqqi imkanlarından istifadə edib yeni məhsuldar, elmi-tərəqqiyə söykənən ixtiralar əsasında bazar münasibətlərində iştirak etməkdir. Qeyd etmək lazımdır ki, «yeni şəhər» sabit və statik deyil, əksinə dinamikdir. Bu o deməkdir ki, şəhər uzun müddət inkişafda olmalıdır.

Yeni yaranmış şəhərlər zaman keçdikcə köhnəlsə də müasir dövrə xas olan yenilikləri, təzadları qəbul edir, dinamikliyini davam etdirir, köhnəlikdən uzaqlaşır, lakin öz dövrünə xas olan bir sıra amilləri saxlayır. Çox əsrlər yola salmış Bakı, Gəncə dünyanın bir sıra təzə şəhərləri ilə yanaşı inkişaf edir.

Məlumdur ki, «yeni şəhər» başlanğıcını müəyyən coğrafi mövqedə sənaye, sənətkarlıq təmayülündə istehsalın təmərküzləşməsindən, bunun əsasında sosial urbanistikanın inkişafından, onların təkmilləşdirilməsindən, dəyişdirilməsindən götürür. Məzmununa uyğun şəhərin təsir miqyası ərazi sistemində, rayonlararası fəaliyyətdə ifadə edilir. Burada fəaliyyət göstərən vasitələrdən biri məskunlaşma və əhali miqrasiyasıdır. Yeni şəhərlərə səciyyəvi olan mühüm amil cavan əhali hesabına əhali artımının yüksək səviyyədə olmasıdır. Lakin vaxt ötdükcə əhalinin «qocalması» ilə bu proses bir qədər zəifləyir.

Şəhər mühitində əhalinin strukturu və təbii artımı tədricən sabitləşir. Ümumiyyətlə, dünya təcrübəsindən məlumdur ki, yeni şəhər üçün demoqrafik inkişafın nisbi sürətini 25-30 il qəbul etmək olar. Ondan sonra nisbi durğunluq yaranır, region səviyyəsinə uyğun inkişaf davam edir. Maddi istehsalla «insan komponentləri» arasında mövcud olan fərqlərin araşdırılması göstərir ki, 40-50 ildə yeni şəhər öz səlahiyyətini «orta yaşlı» və bundan sonra «köhnə şəhərə» verir.

Dünyanın başqa ölkələrində olduğu kimi, Azərbaycanda da XIX əsrin ikinci yarısından başlamış İkinci Dünya müharibəsindən sonrakı dövrü yeni şəhərlərin yaranması, «Urbanizasiya inqilabı», şəhərlərə əhali axınının «intensiv

dövrü» adlandırmaq olar.

Müasir dövrdə ölkəmizdə baş verən iqtisadi, siyasi, sosial dəyişikliklər şəhərlərin və ştq-nin inkişafına böyük təsir göstərir. Yeni mülkiyyət münasibətlərinin formalaşması, bazar iqtisadiyyatına keçid şəraitində respublika şəhərlərinin onlara münasib inkişafını qarşıda qoyur.

Uzun müddət formalaşmış, ictimai, iqtisadi münasibətlərə uyğun inkişaf edən şəhərlər son dövrdə baş verən regional hadisələrin nəticəsində xeyli tənəzzül yolu keçirir. Belə ki, 1988-ci ildən sonra Dağlıq Qarabağ ətrafında başlayan və sonradan qanlı müharibəyə çevrilən Ermənistan-Azərbaycan münaqişəsi zəminində əvvəlcə Ermənistanda yaşayan soydaşlarımızın hamısı - 300 minə yaxın adam oradan qovuldu və onların böyük əksəriyyəti Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərində məskunlaşdı. 1989-1990-cı illərdə yuxarıda adları çəkilən və digər şəhərlərin 400 minə yaxın erməni əhalisi də respublikadan köçüb getdi. 1992-ci ildən etibarən respublikanın Qarabağ, Kəlbəcər, Laçın, Şuşa, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli rayonları ermənilər tərəfindən işğal ediləndən sonra milyon nəfərə qədər qaçqının təxminən yarısı respublikanın şəhərlərində sığınacaq tapdı.

Bunlarla yanaşı, Gürcüstanda da yaşayan soydaşlarımızın xeyli hissəsi və respublika rayonlarının on minlərlə sakini böyük şəhərlərin əhalisini xeyli artırmış və ciddi gərginlik yaratmışdır. Bunlarla əlaqədar urbanizasiyanın gərginliyi şəhər əhalisinin cins-yaş, peşə, etnik, milli tərkibində ciddi dəyişikliklərə səbəb olmuşdur.

Son illərdə respublikanın şəhərlərinə gələnlərin çoxunun kəndli, gedənlərin isə fəhlə, qulluqçu, ziyalı olması şəhər əhalisinin kəmiyyət və keyfiyyət dəyişikliklərində mənfi hallar yaratmış məşğulluq, sənətkarlıq, peşə, sosial problemlərdə ermənilərin, yəhudilərin, rusların köçüb getmələri bir sıra çətinlikləri ortaya çıxarmışdır.

## 1.4. Şəhərlərin sosial-iqtisadi inkişaf səviyyəsi və vahid sistemdə formalaşması

Azərbaycanda urbanizasiyanın inkişafı və onun tənzimlənməsi, əhalinin demoqrafik davranışına olan təsirin tədricən artması XIX əsrin 70-ci illərindən başlayaraq, Abşeronda neft sənayesinin inkişafı ilə əlaqədardır. Respublika əhalisinin artım sürətinə görə son 100 ili 3 mərhələyə bölmək olar. a) 1897-1926; b) 1927-1970; c) 1971-2000 həmin dövrlərdə əhali artımı müvafiq olaraq belə olmuşdur: a) 1,3; b) 2,2; c) 1,6 dəfə, 1926-1970-ci illərdə əhali artımının məhdudluğu ən çətin dövrlərlə-intervensiya, müharibə, bərpa illərinin təsiri ilə əlaqədardır. Aşağıdakı cədvəldən göründüyü kimi son 100 ildə Azərbaycanda ümumi əhali 4,5 dəfə, şəhər əhalisi isə 13,6 dəfə artmışdır.

Qeyd etmək lazımdır ki, 1897-1970-ci illərdə respublikada urbanizasiya səviyyəsinin inkişaf tempi daha yüksək olduğu halda, sonrakı illərdə, xüsusən 80-cı illərdən zəifləyərək sabitləşmişdir. 1979-2000-ci illərdə şəhər əhalisinin mütləq sayı 950 min nəfər (*30 faiz*) artmasına baxmayaraq, bu dövrdə urbanizasiya səviyyəsi cəmi 0,6 faiz yüksəlmişdir ki, bu da kənd əhalisinin bir qədər sürətli artması ilə əlaqədardır. Bu dövrdə kənd əhalisinin sayı 1093 nəfər (*40 faiz*) artması şəratində onun xüsusi çəkisi ümumi əhali tərkibində indi 49,7 faizdir.

Məlumdur ki, şəhər və kənd məskənləri həmişə əhalinin təbii hərəkəti göstəricilərinə görə bir-birindən fərqlənmişlər. Urbanizasiyanın müxtəlif inkişaf mərhələlərində bu göstəricilər böyük tərəddüdlərə malik olmaqla əsasən həyat şəraitindən asılı dəyişkənliyə məruz qalmışdır. Şəhərlə kənd əhalisinin həyat tərzi və şəraiti arasında müəyyən yaxınlıqların baş verməsinə baxmayaraq, onlar həmişə bir-birindən fərqlənmişdir ki, bu da demoqrafik proseslərin hərəkətində özünü göstərir. Məsələn, şəhərlərdə ailənin tənzimlənməsi prosesi müəyyən qədər nail olunduğu halda, kənd yerlərində

buna az riayət edilir. Ona görə də şəhər ailələrində uşaqların sayı 2, nadir hallarda ondan çox olduğu normaya çevrilmişdirsə, kənd yerlərində çoxuşaqlı ailələr mövcuddur.

**Son 100 ildə Azərbaycan əhalisinin artım dinamikası**

**Cədvəl 3**[1]

| İllər | Bütün əhali (min nəfər) | O cümlədən: | | Cəminə görə faizlə | |
|---|---|---|---|---|---|
| | | Şəhər əhalisi | Kənd əhalisi | Şəhər əhalisi | Kənd əhalisi |
| 1897 | 1806.7 | 305.1 | 1501.6 | 16.9 | 83.1 |
| 1913 | 2339.2 | 555.9 | 1783.3 | 23.8 | 76.2 |
| 1917 | 2353.7 | 56.2 | 1793.5 | 23.8 | 76.2 |
| 1920 | 1952.2 | 405.8 | 1546.4 | 20.8 | 79.2 |
| 1926 | 2313.7 | 649.5 | 1664.2 | 21.1 | 71.9 |
| 1939 | 3205.2 | 1156.8 | 2048.4 | 36.1 | 63.9 |
| 1959 | 36.97.7 | 1767.3 | 1930.4 | 47.8 | 52.2 |
| 1970 | 5117.1 | 2564.6 | 2552.6 | 50.1 | 49.9 |
| 1979 | 6028.3 | 3200.3 | 2828.0 | 53.1 | 46.9 |
| 1985 | 6632.4 | 3524.5 | 3097.9 | 53.1 | 46.8 |
| 1990 | 7131.3 | 3839.8 | 3291.5 | 53.8 | 46.2 |
| 1992 | 7296.9 | 3919.9 | 3377.0 | 53.7 | 46.3 |
| 1995 | 7726.2 | 4008.4 | 3635.1 | 52.4 | 47.6 |
| 1999 | 7953.4 | 4053.6 | 3883.1 | 51.5 | 49.5 |
| 2000 | 8081.0 | 4150 | 3931 | 51.3 | 49.7 |

Şəhər əhalisinin istehsal inkişafı üçün əlverişli yaş tərkibinə malik olmasına baxmayraq, nigah yaşının xeyli yüksək olması (*25-27 yaş*), nigahda onların nisbətən azlığı və boşanma əmsalının yüksək olması, mənzil problemi, sosial gərginlik üzündən demoqrafik tənəzzül nəzərə çarpır.

Son 60 ildə respublikanın şəhər və kəndlərində əhalinin təbii hərəkət dinamikasında və bu göstəricilərin bir-birinə olan nisbətlərində əsaslı dəyişikliklər baş vermişdir. Bunu aşağıdakı cədvəlin rəqəmlərindən aydın görmək olar. Cədvəlin təhlili

[1] Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib edilmişdir.

göstərir ki, 1940-cı illərin axırı üçün şəhər yerlərinin doğum və ölüm əmsalları kənd məskənlərinin müvafiq göstəricilərindən yüksək olduğuna görə şəhər əhalisinin təbii artımı kənd əhalisinə nisbətən 5,5 əmsal aşağı idi. 1950-ci illərdən sonra həm şəhər, həm də kənd əhalisinin doğum və ölüm göstəriciləri bir-birinə yaxınlaşmağa başladı.

1960-cı illərdə doğum səviyyəsi yüksək həddə çatdı (*bioloji maksimum səviyyəsinə*). Sonrakı illərdə ölüm əmsalının əsasən sabitləşməsi, doğum səviyyəsinin şəhər və kənd yerlərində tədricən aşağı düşməsi prosesi müşahidə olunur. Lakin 1950-ci ildən sonra şəhər məskənlərində doğum əmsalı və doğum səviyyəsi kənd yerlərinə nisbətən həmişə aşağı olmuşdur. 1980-cı ildə kənd şəhərə nisbətən bir qədər yüksəlməyə meyl etmişsə də, şəhər yerlərində bu artım qalmaqda davam edir və bu indi də davam etməkdədir. Respublikada 1946-1999-cu ildə əhalinin təbii hərəkəti aşağıdakı 4-cü cədvəldə verilir.

Qeyd etmək lazımdır ki, respublikanın ümumi urbanizasiyalaşma səviyyəsinin yüksəlməsi və onun rayon yerlərinə təsirinin artması kənd əhalisinin də tədriclə ailə tənzimlənmə prosesinə qoşulmasına və rayon yerlərində yeni demoqrafik şəraitin formalaşmasına səbəb olur.

Kənd yerlərindən şəhərlərə doğru gənclərin miqrasiyası əhali tərkibində dəyişkənliyə demoqrafik göstəricilərin bir qədər zəifləməsinə səbəb olur. Şəhər və şəhər tipli qəsəbələrdə isə ümumi əhali tərkibində gənc yaşlıların xüsusi çəkisi nisbətən yüksək olur ki, bu da təbii artıma təsirini göstərir.

Şəhərin böyüklüyü əhali artmasına müəyyən qədər təsir edir. Bir qayda olaraq kiçik şəhərlərə nisbətən böyük şəhərlərdə doğum əmsalı aşağı, ölüm əmsalı yuxarı və təbii artım az olur. Lakin bu qanunauyğunluq cavan şəhərlər (*Sumqayıt, Mingəçevir, Əli-Bayramlı*) üçün səciyyəvi deyil, ona görə ki, onların əhalisinin çox hissəsi kənd əhalisi olduğundan özlərinə xas olan ənənəyə uzun müddət sadiq qalır. Məsələn, 2000-ci ildə Bakı şəhərində hər 1000 nəfərə görə

doğum 19,6, Gəncədə 10,8, Sumqayıtda 14,1, Mingəçevirdə 15,8, Əli-Bayramlıda 16,3, Şəkidə 14,8, Daşkəsəndə 24,3 olduğu halda, digər kənd rayonlarında üstündür: Cəbrayılda 26,1, Yardımlıda 38,9, Neftçalada 19,2, Ucarda 18,6, Oğuzda 19,8, Beyləqanda 23,6 və s.

Belə fərqlər əhalinin həyat tərzi və şəraitindən, maddi vəziyyətindən asılıdır. Böyük şəhərlərdə əhalinin strukturu, məşğulluq səviyyəsi (*xüsusən qadınların*) mədəni-məişət şəraiti və davranışı kiçik şəhərlərdən xeyli fərqlənir. Böyük şəhərlərdə ziyalıların, ali və orta ixtisas məktəblərində oxuyan gənclərin xüsusi çəkisi yüksəkdir. Bütün bunlar və həyat tərziinin digər analoji komponentləri böyük şəhərlərdə doğumun az olmasına gətirib çıxarır.

Urbanizasiya istehsalın təmərküzləşməsini, əhalinin mexaniki hərəkətini rayonlararası və «rəqqas miqrasiyası»nı sürətləndirir. Məhsuldar qüvvələrin inkişaf tempi yüksəldikcə əhalinin miqrasiya hərəkəti də artır. Onların kəndlərdən şəhərlərə axını bir qayda olaraq kortəbii surətdə baş verir, lakin müəyyən dövrlərdə mühüm dövlət əhəmiyyətli tikintilərə, sair işlərə işçi qüvvəsi cəlb etmək bu problemi artırır.

Miqrasiya statistikasının təhlili göstərir ki, sabiq Sovet hakimiyyətinin ilk illərində kənardan respublikaya çoxlu miqdarda işçi qüvvəsi gətirilirdi və Azərbaycana gələnlərin çoxu şəhərlərdə yerləşdirilirdi. İkinci Dünya müharibəsinə qədər respublikada şəhər əhalisinin ümumi artımının çoxunu kənardan gələnlər təşkil edirdi.

Ümumiyyətlə, respublikanın şəhər yaşayış məskənlərinə miqrasiya axınlarının miqyası müharibədən sonrakı illərdə tədriclə azalmağa başlamış və 1970-ci illərdə ən aşağı kəmiyyətlərə çatmışdır. Bunu aşağıdakı 4-cü cədvəldən görmək olar.

Göründüyü kimi, Azərbaycan Respublikasında şəhərlərin miqrasiya dövriyyəsi müxtəlif vaxtlarda böyük rəqəmlərlə səciyyələnmiş və 1970-ci ilə kimi müsbət miqrasiya saldosuna malik olmuşdur. Şəhər əhalisinin mexaniki artımı

1946-cı ildən başlayaraq daima azalmaqla, 1968-ci ildə ən aşağı səviyyəyə enmişdir. 1980-cı ildən sonra respublikaya gələnlərin və gedənlərin mütləq sayı 70-ci illərlə müqayisədə xeyli aptsa da, miqrasiya saldosu mənfi olmuşdur. Yalnız 1989-cu il istisna təşkil edir ki, bu da respublikaya çoxlu məcburi köçkünlərin və qaçqınların gəlməsi ilə izah olunur.

Respublika şəhərləri əhalisinin mexaniki artımının əsas hissəsi Bakı və Sumqayıt şəhərlərinin payına düşür. Düzdür, Bakı və Sumqayıtdan əlavə Gəncə, Mingəçevir, Əli-Bayramlı və Naxçıvan şəhərlərinin də miqrasiya saldosu son illərdə mənfi olsa da, bunlarda da şəhərlərin mexaniki artımı qaçqınlar və köçkünlər hesabına artıb.

Azərbaycan Respublikasının miqrasiya hərəkətində keçmiş SSRİ respublikalarının hamısı iştirak etmişdir, lakin şəhər məntəqələrinə gələnlərin böyük əksəriyyəti 5 əsas istiqamətdən Azərbaycanın özündən 1940-cı ildən 1970-ci ilə qədər hər il orta hesabla 42 min nəfər, Rusiya Fedarasiyasından 15 min nəfər, Ukraynadan 3,5 min, Ermənistandan 2 min nəfər və Gürcüstandan 1,8 min nəfər olmuşdur.

Əgər 90-cı illərə qədər respublikanın şəhər məskənlərində yalnız daxili miqrasiya prosesləri hakim idisə, SSRİ dağıldıqdan sonra xarici ölkələrə, xüsusən İsrailə, ABŞ-a Fransaya, Hollandiyaya, Almaniyaya, Türkiyəyə, Dubaya və s. daima yaşamağa gedənlərin sayı durmadan artmaqdadır.

Urbanizasiyanın inkişafı, son 10 ildə miqrasiya axınının artımı şəhər əhalisinin cins, yaş, peşə, ictimai milli tərkibində mühüm dəyişikliklərə səbəb olmuş və bunlar peşə, milli etnik qurumda əsaslı dəyişikliklər yaratmışlar. Qaçqın və köçkünlərin çoxunun kəndli, respublikadan xarici ölkələrə gedənlərin isə fəhlə və qulluqçu, ziyalı olduğunu nəzərə alsaq, şəhər əhalisinin peşə tərkibi də baş vermiş kəmiyyət və keyfiyyət dəyişiklikləri haqqında təsəvvür yaranar. Bu dəyişikliklər şəhərlərdə məşğulluq problemini xeyli gərginləşdirmiş, yeni gələnləri öz peşələri üzrə işlə təmin etməkdə əlavə çətinliklər yaratmışdır.

## Əhalinin miqrasiyası

**Cədvəl 4**

| İllər | Gələnlərin sayı | Gedənlərin sayı | Mexaniki artım ± |
|---|---|---|---|
| 1939 | 120480 | 75431 | 45049 |
| 1940 | 90321 | 69620 | 20701 |
| 1946 | 100231 | 41496 | 59035 |
| 1947 | 89313 | 50264 | 39349 |
| 1948 | 74494 | 64287 | 10207 |
| 1949 | 73901 | 59859 | 14042 |
| 1950 | 90558 | 59288 | 31270 |
| 1951 | 106086 | 87342 | 18678 |
| 1952 | 110586 | 88543 | 23043 |
| 1953 | 129345 | 89252 | 40093 |
| 1954 | 11131 | 102578 | 8853 |
| 1955 | 97326 | 95963 | 1363 |
| 1956 | 73741 | 81952 | 11789 |
| 1957 | 77903 | 74439 | 3514 |
| 1958 | 78984 | 75143 | 3841 |
| 1959 | 76990 | 66790 | 10200 |
| 1960 | 83396 | 70143 | 13253 |
| 1961 | 77533 | 65926 | 11607 |
| 1962 | 76700 | 66308 | 10392 |
| 1963 | 79776 | 64427 | 10649 |
| 1964 | 76834 | 62268 | 14566 |
| 1965 | 31323 | 66638 | 14690 |
| 1966 | 81183 | 71135 | 10048[1] |
| 1967 | 79384 | 72377 | 7007 |
| 1968 | 77034 | 75404 | 1630 |
| 1970-80 | 69144 | 73017 | 153400 |
| 1988 | 119692 | 103073 | -3381 |
| 1989 | 171870 | 161925 | 9915 |
| 1990 | 104325 | 11530 | -91105 |
| 1995 | - | - | - |
| 1999 | 4400 | 10000 | -5600 |

Hazırda Azərbaycan Respublikasının şəhərlərində (*xüsusən paytaxt və digər böyük şəhərlərdə*) gərgin demoqrafik

[1] Cədvəl AR DSK-nın müvafiq illərə dair materialları əsasında tərtib edilmişdir.

şərait yaranıb. Mövcud ictimai-siyasi, iqtisadi və hərbi durum üzündən demoqrafik proseslərin əvvəlki sakit axını xeyli pozulmuşdur. Nəticə etibarilə doğum səviyyəsi azalmağa, ölüm əmsalı artmağa başlamış, evlənənlərin sayı kəskin azalmış, boşanmaların sayı artmışdır.Göstərilənlər əsasən mənzil-məişət şəraitinin və məşğulluq probleminin son dərəcə gərgin vəziyyət alması ilə əlaqədardır. Bunları nizama salmaq üçün dövlət səviyyəsində əsaslı islahatlar aparılması zərurəti yaranmışdır.

Elmi-texniki tərəqqinin, bazar münasibətlərinə keçid dövrünün müasir inkişaf mərhələsində bir çox elm sahələrində olduğu kimi, urbanizasiya məsələlərinin öyrənilməsində tədqiqat metodlarından istifadə edilir. Məlumdur ki, iqtisadi, sosial amillərin xarakteri çox mürəkkəbdir, deməli, sistem metodla yanaşmanın təcrübədə özünü doğrultması yaxşı nəticə verir. Urbanizasiya şəhərsalmada sistem dedikdə, öz vahidliyi və bitkinliyi ilə fərqlənən sosial orqanizm nəzərdə tutulur. Bu baxımdan, şəhər yaşayış məntəqələri mürəkkəb və qarşılıqlı əlaqələri olan sosial orqanizmdir.

Elmi ədəbiyyatda sistem məfhumuna və onun tərifinə xeyli diqqət verilir. Məsələn, A.D.Xoll və R.Y.Feyginin fikrincə, sistem çoxlu obyektlər və onların nisbəti ilə obyekt xüsusiyyətlərinin məcmusudur. ~~A. Rappqorta görə, əlaqəli~~ «~~münasibətlər nə qədər sıx olarsa, onlardan yaranan sistem~~ daha ~~mütəşəkkil~~ olar». V.Q. Afanasyev qeyd edir ki, «Sözün həqiqi mənasında sistem onu təşkil edən komponentlərlə yanaşı yeni keyfiyyətlərə malik bütöv varlıqdır». O.V. Lerman isə aşağıdakı tərifi təqdim edir: «Sistem bir növ fəaliyyət göstərən, inkişaf edən, qanunlara tabe, bir-biri ilə üzvü surətdə qarşılıqlı əlaqədə olan kompleksdir».

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Azərbaycanın şəhər məskənləri sistemi müxtəlif funksiyalı və dərəcəli şəhər tipli fəhlə qəsəbələrindən ibarət olmaqla müxtəlif komponentləri əks etdirir. Belə ki, respublikanın 183 belə obyekti içərisində əhalisi 2 milyon nəfərə yaxın olan Böyük

Bakı, əhalisi min nəfərdən də az bir neçə qəsəbə ilə yanaşı, Gəncə, Sumqayıt kimi böyük şəhərlərdə, habelə dağlar qoynunda yerləşən kiçik Paraqaçay Alunit, Gümüşlü ştq-ləri mövcuddur. Bu, o deməkdeyil ki, Azərbaycan şəhərləri bir-birindən təcrid olunmuş, nizamsız səpələnmiş məskənlər toplusudur. Əsas məsələ odur ki, şəhərlərdə yerləşən və struktur aparıcı əhəmiyyətli sənaye sahələri mühüm sementləyici rol oynamaqla, əslində sistemin mühüm komponentidir.

İstehsal və istehlak qədim zamanlardan Azərbaycan şəhərlərinə xasdır. Lakin Azərbaycanın nə qədim, nə də kapitalizm dövründə yaranmış şəhərləri, Bakı, Gəncə, Sumqayıt müstəsna olmaqla, inkişaf mərhələsində sistem yaratma səviyyəsinə çata bilməmişlər. İnqilabdan əvvəlki şəhərlərin maddi funksiyalarının nisbətən zəif inkişaf etməsi şəraitində maşınlı sənaye yenicə yaranırdı. Abşerondakı neft sənayesi istisna olmaqla, digər sahələr arasında istehsal formalaşma mərhələsində idi. Nəqliyyat, digər kommunikasiya şəbəkəsi zəif inkişaf etmişdi və o zamankı istehsalın belə ehtiyaclarını tam ödəyə bilmirdi.

Respublikada müxtəlif funksiyalı şəhərlərin olmasına, onların «cazibə zonalarında» əhalinin şəhərləşməyə təsir etməsinə baxmayaraq, ümumi urbanizasiyalaşma səviyyəsi çox aşağı idi. Bu da şəhərlər və kəndlər arasında sıx əlaqə yaratmağı ləngidirdi, Bakı ilə digər əyalət şəhərlərinin əlaqəsini zəiflədirdi.

Müxtəlif quberniyalara və inzibati ərazi vahidlərinə daxil olan Azərbaycan şəhərlərinin iyerarxiya əlaqələri də zəif təzahür etmişdi.

Şəhərlərin mədəni həyatı və intellektual potensialları da ölkənin ümumi iqtisadi inkişafı kimi zəif olduğundan, ümummilli birliyin formalaşmasına zəif təsir göstərirdi. Bir sözlə inqilabdan əvvəlki Azərbaycan şəhərləri və onların törətdiyi urbanizasiya vahid şəhər sisteminin yaranmasının yalnız hazırlıq mərhələsi olmuşdur.

İkinci Dünya müharibəsindən əvvəlki inkişaf mərhələsi

respublikada sənayeləşmənin daha da sürətləndirilməsi, Abşeronda neft-qaz mədənləri əsasında yeni şəhər tipli qəsəbələrin yaranması, Abşeron kəndlərinin abadlaşdırılması, Azərbaycanda 1930-cu ildə aparılan inzibati-ərazi bölgüsünün qəbulu və digər quruculuq işləri şəhər məskənlərinin artması, şəhər həyat tərzinin inkişafına, iqtisadi və mədəni, ticarət əlaqələrinin genişlənməsinə və beləliklə sistemyaradıcı amillərin formalaşmasına gətirib çıxarırdı.

İqtisadi inkişafın təsiri ilə yaşayış məntəqələri sosial-iqtisadi həyatda aparıcı rola malik oldular. Təkcə onu qeyd etmək kifayətdir ki, şəhər əhalisi 1920-ci ildəki 406 min nəfərdən 1940-cı ildə 1157 min nəfərə çatdı və ya 2,85 dəfə artdı, şəhər tipli yaşayış qəsəbələrinin sayı 15-dən 85-ə çatdı. Beləliklə, urbanizasiyanın müharibədən əvvəlki inkişaf mərhələsini ayrı-ayrı səpələnmiş şəhər məskənləri şəbəkəsindən şəhərlər sisteminin formalaşmasının ilkin mərhələsi hesab etmək olar.

Müharibədən sonrakı illərdə respublikada xalq təsərrüfatının bərpası və dirçəldilməsi, ilkin, təkrar xammal, xüsusilə yanacaq, energetika, dəmir filizli, alunit, tikinti materialları sərvətləri əsasında iri sənaye müəssisələrinin, Mingəçevir, Varvara, Sərsəng, Şəmkir su elektirik stansiyalarının, Naxçıvan hidroenerji qovşağının tikilməsi respublikanın ümumi iqtisadi inkişafını təmin edə biləcək səviyyədə ali, orta və peşə təhsilli kadrlar hazırlayan təhsil ocaqları şəbəkəsinin genişləndirilməsi şəhər əhalisinin artmasına səbəb oldu.

Respublikada sənayenin strukturunda baş verən keyfiyyət dəyişiklikləri onun bir sıra rayonlarında Daşkəsən, Kəlbəcər, Laçın, Ordubad, Şərur, Dəvəçi, Siyəzən və s. yerləşən metallurgiya, yanacaq-enerji sənaye əhəmiyyətli inşaat xammallarının istifadəyə verilməsi əhalinin peşə tərkibində keyfiyyət dəyişikliyinə səbəb oldu. Mingəçevir SES əsasında Mingəçevir şəhəri, Gəncə, Daşkəsən, Dəvəçi-Siyəzən, Yevlax-Mingəçevir, Əli-Bayramlı – Salyan sənaye qovşağı yarandı, Abşeronda Sumqayıt kimi sənaye nəhəngi meyda-

na gəldi, 1960-cı ildən 2000-ci ilə qədər respublikada 250-dən çox iri sənaye müəssisəsi tikilib istifadəyə verildi. Belə mütərəqqi inkişaf şəhər yaşayış məntəqələrinin istehsal, mədəni, elmi, infrastrukturunu xeyli genişləndirdi.

Deməli, müharibədən sonrakı illərdə respublikada şəhər yaşayış məntəqələrinin yaranmasının əsas mərhələsi başlandı, 80-90-cı illərdə bu sistem artıq real varlığa çevrildi.

Müharibədən sonrakı dövrdə respublikada urbanizasiyanın inkişafını sistemin yaradıcı proseslər baxımından qiymətləndirsək, o zaman bir sıra irəliləyişlər baş verdiyini aydın görərik. İlk növbədə sistem komponentlərinə daxil olan yeni şəhərlərin sayı 1940-cı ilə nisbətən 2.5 dəfədən çox artmışdır. Çoxlu kiçik şəhər tipli fəhlə qəsəbələrinin yaranması üzündən şəhər məskənlərində əhalinin sayı ilə yanaşı tərkibi də son 50 ildə xeyli dəyişilmişdir. Çoxillik statistika məlumatları göstərir ki, əgər 1939-cu ildə orta hesabla hər bir şəhərdə 35,8 min nəfər, şəhər tipli qəsəbədə isə 4,7 min nəfər adam məskunlaşmışdısa, 1959-cu ildə müvafiq olaraq bunların miqdarı 31,5 min və 5,5 min, 1980-cı ildə 40,5 min və 6,5 min, 2000-ci ildə isə 46,0 min və 7,6 min nəfərə çatır.

Urbanizasiya prosesində həlledici rol oynayan, nisbətən yaxşı inkişaf etmiş şəhərlərin müvafiq sistemdəki yeri aydın seçilməyə başladı və ikincisi, iqtisadi, ictimai, mədəni həyatın bütün sahələrində şəhərlərin rolu xeyli artdı.

Bu və ya digər xalq təsərrüfatı və sosial funksiyaların daşıyıcısı rolunu tək-tək şəhərlər deyil, müəyyən dərəcədə fərdi xüsusiyyətləri ilə fərqlənən şəhərlər qrupu oynamağa başladı. Üçüncüsü, yaxın rayonlara daha çox təsir göstərən inkişaf etmiş şəhərlərin ətrafında yaranan yeni şəhər yaşayış məntəqələri öz funksiyalarını daha da möhkəmlətdi və şəhərin mərkəzilə əlaqələri artırdı. Bundan sonrakı mərhələdə mərkəzi şəhərlərin və onların ətraf qəsəbəsi arasında olan əlaqələrin intensivləşməsi şəhər aqlomerasiyasının gərginliyinə səbəb oldu.

Artıq 60-cı illərdə Azərbaycanda Bakı aqlomerasiyası

formalaşıb dünya standartına uyğun yeni sistemdə inkişaf etdi, 80-cı illərdən etibarən hərəsinin 300 min əhalisi olan Gəncə və Sumqayıt şəhər aqlomerasiyaları da buna münasib formalaşmağa başladı.

Beləliklə, şəhərdaxili komponentlərin xüsusiyyətlərinin dəyişməsi, təkmilləşməsi daxili və xarici əlaqələrin intensivləşməsi nəticəsində respublika şəhərlərinin xarici və daxili görkəmi yeniləşmiş, yeni inteqral keyfiyyətlər əmələ gəlmişdir. Bu keyfiyyətlərə misal olaraq aşağıdakıları göstərmək olar.

a) respublika əhalisinin yarıdan çoxunun şəhərlərdə məskunlaşması iqtisadiyyatın, mədəniyyətin elm, texnika təmayüllü müəssisələrin fəaliyyət göstərməsi sayəsində urbanizasiyanı, təmərküzləşməni intensivləşdirdi və iqtisadi əlaqələri genişləndirdi;

b) bu sistem mülkiyyət formalarından, yeni idarəçilik üsulundan asılı olmayaraq istehsal münasibətlərində bir sıra problemləri həll etməyə qadir mühüm sosial orqanizm kimi fəaliyyət sistemini intensivləşdirdi;

c) sənaye, elmi-texniki, iqtisadi, təbii, mədəni-məişət baxımından üstün imkanlara malik olan şəhər mühiti intellektual dövrün tələbinə uyğun kadr potensialı hazırlanmasında və bu sahədə başqa rayonlara təsir göstərməkdə mütərəqqi mövqedə fəaliyyət göstərməyə başladı.

Cəmiyyətin inkişafının ən yüksək mərhələlərindən biri onun mühüm kəşflərindən, yaradıcı obyektlərindən olan şəhər, onun yaratdığı həyat tərzini əks etdirən bu varlıq vahid, bitmiş sistem kimi fəaliyyət göstərir. İbtidaidən aliyə doğru inkişaf edən şəhər yaşayış məntəqələri ictimai, iqtisadi, sosial inkişafa fəal təsir edir və onları təkmilləşdirir.

Şəhər yaşayış məntəqələri özünəməxsus elə bir obyektdir ki, məhdud ərazidə insan kütləsi, müxtəlif təyinatlı maddi, qeyri-maddi sahəsini, yaşayış və ictimai binaları, xidmət müəssisələrini, yeraltı, yerüstü kommunikasiya şəbəkələrini, nəqliyyat, sənaye obyektlərini özündə cəmləşdirir.

Şəhər yaşayış məntəqələri və onları təşkil edən elementlər arasındakı sistemdaxili əlaqələrin möhkəmlənməsinin nəticəsi kimi komponentlər müəyyən funksiya daşıyan struktur elementi kimi çıxış edir. Bunların iqtisadi, sosial, elmi-texniki, təhsil, mədəni təmayüldə inkişaf səviyyəsi imkanları nə qədər yüksək olursa, onların əhəmiyyəti bir o qədər də yüksəlir. Məsələn, nəqliyyat, sənaye, enerji kommunikasiyalar qovşağı rolunu oynayan kompleks istehsal sahələri daxili rayonlararası iqtisadi, sosial əlaqələrin yaranması və uzlaşdırılmasını təmin edir.

Bu baxımdan daha yüksək səviyyəli şəhərlər və kommunikasiya mərkəzləri olan Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Əli-Bayramlı, Yevlax, Şəki, Naxçıvan, Salyan, Şamaxı, Lənkəran, Xaçmaz və digərləri iqtisadi, sosial əlaqələrinin çoxsahəli karkasını yaradırlar.

Qeyd etmək lazımdır ki, Sumqayıt, Gəncə, Naxçıvan, Mingəçevir, Yevlax, Əli-Bayramlı kimi sənaye və nəqliyyat qovşağı mərkəzlərinin köməyilə sistem üçün səciyyəvi olan, daim genişlənən və mürəkkəbləşən qarşılıqlı istehsal-iqtisadi əlaqələr yaranır.

Bu sistemdə tutduğu mövqeyindən asılı olmayaraq hər şəhərdə ümumi və fərdi keyfiyyətlər, xüsusiyyətlər ortaya çıxır. Şəhərin fəaliyyətinin mövcudluğu arasında yaranan qarşılıqlı əlaqələrdə böyük əhəmiyyət kəsb edən istehsal və qeyri-istehsal sahələri də mühüm rol oynayır.

Əgər şəhər sisteminə məskunlaşma baxımından yanaşsaq, onda görərik ki, istehsalla yanaşı əhalinin istehsal, xidmət fəaliyyət komponentləri qarşılıqlı əlaqələrdə və xalq təsərrüfat kompleksində özünü göstərir. Şəhərlərin funksiyasının, fəaliyyətinin təhlilindən məlum olur ki, ayrı-ayrı sahələr əsas yaradıcı amil kimi çıxış edir, kompleks sistemin formalaşmasında iştirak edir.

Aparıcı təsərrüfat və xidmət sahələri şəhər komponentləri olmaqla yanaşı özləri də müəyyən fərd kimi çıxış edir. Məsələn, istehsalın və sosial infrastrukturun ən mühüm

elementi olan elektroenergetika, maşınqayırma, neft emalı müəssisələri şəhər komponentləri arasında qarşılıqlı münasibətləri genişləndirir.

İstilik, su-elektrik stansiyaları, metallurgiya, maşınqayırma, neftçıxarma, xammalların emalı, yüksək gərginlikli elektrik ötürücü xətləri, nəqliyyat vasitələri respublikada iri sənaye istehsalını formalaşdırdı, Zaqafqaziyada vahid elektrik şəbəkəsinin fəaliyyətini təmin etdi. Mingəçevir, Əli-Bayramlı, Şəmkir, Gəncə, Bakı, Sumqayıt və Naxçıvan kimi energetika sənaye mərkəzləri respublikanın rayonlarını elektrik enerjisi ilə təmin etməklə enerji, elm, texnika tutumlu sahələrin inkişafına şərait yaratdı.

Ümumiyyətlə, respublikada təşəkkül tapmış sənaye, energetika, nəqliyyat kommunikasiya növləri tədriclə inkişaf etdi. Məsələn, Azərbaycan ərazisində poçt 1894-cü ildən, teleqraf rabitəsi 1860-cı ildən, telefon əlaqəsi 1873-cü ildən, dəmir yolu nəqliyyatı 1883-cü ildən, boru kəməri nəqliyyatı 1880-cı ildən, avtomobil nəqliyyatı 1910-cu illərdən, hava rabitəsi 1920-ci ildən, yüksək gərginlikli elektrik otürücü xətləri 1930-cu illərdən, radio verilişləri 1925-ci illərdən, televiziya verilişləri isə 1956-cı ildən, Bakı metro yolu 1967-ci ildən fəaliyyətə başlamışlar. Göstərilən kommunikasiya növləri daxili və xarici əlaqələrdə öz əhəmiyyətinə, xüsusiyyətlərinə görə eyni olmasa da, onların hər birinin meydana gəlməsi şəhərlərarası əlaqələrin inkişafında mütərəqqi rol oynamışdır. Bütün kommunikasiyalar sisteminin vahid məkan və zaman daxilindəki fəaliyyəti isə yalnız şəhərlərarası əlaqələrin yox, həm də xarici əlaqələrin formalaşmasında böyük əhəmiyyət kəsb etmişdir. Bu baxımdan Azərbaycanın əlaqələrində ən mühüm rolu dəmir yolu, hava nəqliyyatı və televiziya verilişləri oynayırdı. Şəhərlərin kommunikasiya şəbəkəsinin yaranması onların intensiv inkişaf mərhələsinə keçməsini təmin etdi.

Respublika şəhərlərinin qarşılıqlı funksional inkişaf fəaliyyətində iyerarxiya tabeçiliyi mövcuddur, bunun əsasını

onun siyasi, sosial-iqtisadi və mədəni həyatda oynadığı rol təşkil edir. Hər şəhərin iyerarxiya pilləsində tutduğu yer onun yerinə yetirdiyi funksiyanın ölçüləri ilə müəyyən olunur. Qeyd etdiyimiz parametrlər şəhər əhalisinin sayına və iqtisadi, sosial mövqeyinə görə formalaşır və bu funksiyanın nizamlayıcı meyarıdır (*sxemə bax*).




**Şəhərlərin böyüklüyü və funksiyasını göstərən sxem 1.**

Azərbaycan şəhərlərinin ərazi tutumluğundan, urbanizasiya səviyyəsindən, istehsal təmərküzləşməsindən asılı olaraq bir-birilə əlaqəli, iyerarxiya tabeçiliyi yaranır. Bu mənada Azərbaycanın şəhərləri iyerarxiya tabeliyinə və uzlaşma şəraitinə görə aşığıdakı pillələrə bölünür:

a) paytaxt şəhərlər;
b) respublika tabeliyindəki şəhərlər;
c) rayon tabeliyindəki şəhərlər;
ç) şəhər tipli qəsəbələr;
d) fəhlə qəsəbələri.

Hazırda Azərbaycanda respublika tabeliyində 11 şəhər, raoyn tabeliyində 64 şəhər 1999-cu ilin siyahıya alınması sənədində 114[1], 2000-ci ildə nəşr edilmiş «Azərbaycan regionları» (*Bakı-2000*) statistik məcmuədə 130 şəhər tipli qəsəbə, 4 fəhlə qəsəbəsi göstərilir.

Şəhərlərin fəaliyyətində mövcud olan sistem ierarxiyasına respublikanın paytaxtı Bakı başçılıq edir. Bakı bütün şəhərlərdən yalnız əhalisinin sayına görə deyil, həm də iqtisadi funksiyasının müxtəlifliyinə, miqyasına, iqtisadi, sosial, mədəni, təhsil, tibbi və s. təsir dairəsinə, tutduğu ərazisinin genişliyinə görə də fərqlənir. Öz iqtisadi-siyasi və mədəni-intellektual potensialına görə ölkə şəhərləri sistemi ierarxiyasının ən yüsək pilləsini tutur.

Bundan sonrakı pillələrdə Gəncə və Sumqayıt durur. Göstərilən şəhərlər əhalisinin sayına görə bir-birinə yaxın olsalar da, iqtisadi, sosial, mədəni-məişət funksiyalarına görə xeyli fərqlənirlər. Belə ki, Gəncə respublikanın qərb zonasında Azərbaycanın ikinci mühüm sənaye, elm və mədəniyyət mərkəzi olmaqla, sənaye potensialına və onun strukturuna görə Sumqayıtdan geri qalsa da, özünün təsir dairəsinə, mənimsəmə arealının sahəsinə, konstruktiv əhəmiyyətli mineral-xammal ehtiyatlarını mənimsəməsinə, emalına, aqrosənayenin elmi, elmi-tədqiqat, təhsil müəssisələrinin inkişafına görə respublikanın digər şəhərlərindən fərqlənir.

Orta və kiçik şəhərlər öz əhəmiyyətlərinə, funksional təmayülünə görə böyük və iri şəhərlərdən xeyli geri qalır. Mühüm ierarxiya qrupuna Mingəçevir, Əli-Bayramlı, Şəki, Yevlax, Lənkəran şəhərlərini daxil etmək olar. Əhalisinin sayına görə orta səviyyədə duran bu şəhərlər inzibati cəhətdən respublika tabeliyində olmaqla sənaye potensialı və funksional sahə strukturu ilə fərqlənirlər. Naxçıvan şəhəri muxtar respublika paytaxtı olmaqla iqtisadi-siyasi, idarəetmə sisteminin strukturuna görə xalq təsərrüfatının imkan-

[1] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması, Bakı-2000 il

ları baxımından Sumqayıtdan, Gəncədən bir qədər geri qalsa da, inzibati idarəetmə, mədəni, ticarət, təhsil, elm və digər funksiyalarına görə mühüm yer tutur.

Sonrakı pillələri əhalisinin sayı 20 mindən 50 min nəfərə qədər olan Ağdam, Göyçay, Xaçmaz, Quba, Şamaxı, Salyan, Sabirabad, Qazax, Kürdəmir və s. şəhərlər tutur. Bunlar funksional, genetik xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər, inzibati rayon mərkəzləri olmaqla rayonlararası mədəni, təsərrüfat, xidmət və ticarət mərkəzləri kimi seçilirlər. Bu şəhərlərin hər biri qonşu inzibati rayonlar üçün mühüm təsərrüfat, iqtisadi əlaqələr qovşağı rolunu oynayır.

Bu iyerarxiya tipinin digər şəhərləri əsasən təsərrüfat, məişət, sənaye-nəqliyyat, ticarət paylaşdırıcı funksiyaları daşımaqla inzibati rayonları siyasi və təsərrüfat həyatını idarə edir, məhdud dairədə rayonlararası əlaqə fəaliyyətində iştirak edirlər. Bu cəhətdən dünyada analogiyası olmayan neftli müalicə sahəsi üzrə ixtisaslaşmış, sağlamlıq bazası kimi məşhur olan Naftalan şəhəri müstəsnalıq təşkil edir.

İyerarxiyanın ən aşağı pillələrini isə şəhər tipli qəsəbələr tutur. Bu qrupa aid bəzi qəsəbələr (*Gədəbəy, Babək, Sədərək, Yardımlı, Şahbuz, Xırdalan*) inzibati rayonların mərkəzi, digərləri isə kənd təsərrüfat xammalının emalı, faydalı qazıntıların çıxarılması, rekreasiya bazasında meydana gəlmişlər. Bu pillədə duran şəhər yaşayış məntəqələri ən çox yerli mərkəz rolu oynayırlar. Bu iyerarxiyanın qəsəbələri içərisində Bakı şəhər aqlomerasiyasına daxil olan, əhalinin sayına, funksional və digər əlamətlərinə görə seçilən bir qrup qəsəbə (*Sabunçu, Bilgəh, Bakıxanov, Binəqədi, Xırdalan, Maştağa, Buzovna, Mərdəkan və s.*) xüsusi mövqe tuturlar.

Şəhərlərin iyerarxiyasının yuxarıda göstərdiyimiz strukturunda əmələ gələn dəyişikliyə bir sxem kimi baxmaq düzgün olmazdı. Belə ki, məhsuldar qüvvələrin inkişafı, ərazi sistemində yerləşməsi ilə əlaqədar şəhərlərin ierarxiyasını müəyyən

edən bütün amillər bir-birilə qarşılıqlı əlaqədə olduqlarına görə müvafiq şəraitlə əlaqədar dəyişir, bəziləri sürətlə inkişaf edir, bəzilərində isə bu zəif gedir. Ona görə də iyerarxiya pillələrində şəhərlərin tutduqları yer də dəyişir. Məsələn, Sumqayıt, Mingəçevir, Əli-Bayramlı, Daşkəsən, Siyəzən və digərləri aparıcı sənaye sahələrinin inkişafı proseslərində ierarxiya proseslərinin nizamlı inkişafını saxlamışlar. Bununla belə, Ağdam, Şamaxı, Kürdəmir, Şəmkir, Fizuli, Qazıməmməd, Ağsu, Laçın və başqaları ləng inkişaf edir.

Urbanizasiya səviyyəsinin nizamlanmasında ətraf təbii mühit iştirak edir, özünü iri şəhərlər mühitində qabarıq göstərir. Sənaye, nəqliyyat cəhətdən inkişaf etmiş şəhərlərdə təbii şəraitin, ekoloji mühitin dəyişməsi onlarda sakinləşən əhalinin həyat şəraitini gərginləşdirir. Bu da ətraf mühitin mühafizəsi məsələsini günün vacib problemləri sırasına çıxarır.

Hazırda respublikanın iri sənaye mərkəzlərində şəhər ərazisinin hər kvadrat kilometrinə düşən zərərli maddələrin həcmi yol verilən həddən qat-qat artıqdır. Odur ki, şəhərlərin müasir və perspektiv inkişafı planları işlənib hazırlanarkən ətraf mühitə mənfi təsirlərin azaldılması və şəhərlərin ekoloji mühitini yaxşılaşdırmaq üçün səmərəli mühafizə tədbirlərinin müəyyən edilib həyata keçirilməsi, dövrün tələbləri səviyyəsinə qaldırılması dövlət nəzarətinin gücləndirilməsini tələb edir.

Elmi-texniki tərəqqinin müasir inkişaf mərhələsində neftçıxarma və neft emalı, inşaat materialları, kimya, metallurgiya sənaye sahələrinin daha çox təmərküzləşdiyi Bakı, Sumqayıt, Gəncə, Əli-Bayramlı və Mingəçevir şəhərlərində gərgin ekoloji vəziyyət yaranmışdır. Respublikada vahid şəhərlər sisteminin özəyini və bütün məskunlaşma sisteminin karkasını təşkil edən bu şəhərlərin sosial-iqtisadi orqanizm kimi normal fəaliyyətinin təmin olunması əhalinin sağlam mühitdə yaşaması deməkdir.

**Şəhər tipli qəsəbələr**. Azərbaycanın şəhər tipli qəsəbələri (ştq) ümumi məskunlaşma sisteminin tərkib hissəsi olmaqla

ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayır. ştq-ləri şəhər yaşayış məntəqəsinin aşağı pilləsi kimi Sovet hakimiyyəti dövründə meydana gəlmişdir. Bu növ yaşayış məntəqələrinə keçmiş SSRİ respublikalarından başqa dünyanın digər ölkələrində az təsadüf edilir. Qeyd etmək lazımdır ki, bu tip yaşayış məskənləri yeni olsa da, Abşeron kəndlərinin çoxu hələ inqilabdan əvvəl faktiki olaraq qəsəbə olub, müasir şqt üçün səciyyəvi olan funksiyalar daşımışlar.

Hər bir ştq-nin yaranması respublika ali qanunvericilik orqanı tərəfindən rəsmiləşdirilir. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 17 iyun 1959-cu ildə təsdiq etdiyi əsasnaməyə görə respublikada şqt-lər sırasına əhalisinin sayı 2 min nəfərdən az olmayan və ümumi əhalisinin 60 faizini fəhlələr, qulluqçular və onların ailə üzvləri təşkil edən yaşayış məntəqələri aid edilirlər. ŞTQ-lərin aşağı pilləsi olan fəhlə qəsəbələrinin əhalisinin sayı isə 500 nəfərdən az olmamalıdır. Lakin təcrübədə, ümumiyyətlə, bir çox qəsəbələrin əhalisinin sayı rəsmən müəyyən olunmuş hədlərdən xeyli aşağı olur.

Xalq təsərrüfatı funksiyalarının xarakterinə görə respublikada ştq yaxın və bir sıra yaşayış məntəqələri (*dəmir yolu stansiyaları, sağlamlıq məntəqələri və b.*) kənd yaşayış məntəqələri hesab olunurlar və onlar keçid mərhələsindədirlər.

ŞTQ-lərin, eləcə də şəhərlərin sayının artması rayonların iqtisadi inkişaf səviyyəsindən, xüsusən sənayeləşmədən, əhaliyə xidmət sahələrinin artmasından asılıdır. Azərbaycanda ştq-lərin ilk yaranması 1933-cü ilə (*Qırmızı qəsəbə, Quba rayonu*) təsadüf edir.

İkinci Dünya müharibəsi (1941-1945-ci illər) respublikanın iqtisadi inkişafını xeyli ləngitdi, nəticədə urbanizasiyanın da surəti zəiflədi. Lakin yeni aşkar edilmiş təbii ehtiyatların mənimsənilməsi ilə əlaqədar müharibə iillərində də bir sıra qəsəbələr (*Daşkəsən, Madagiz, Hacıkənd*) meydana gəldi. Sonrakı bərpa illərində məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar urbanizasiya prosesləri xeyli sürətləndi ki, bu da

1940-1960-cı illərdə respublikada şəhərlərin inkişafı ilə yanaşı yeni ştq-lərin yaranmasına səbəb oldu. 1946-1960-cı illərdə 35 ştq yarandı ki, bunlardan 10 Abşeron iqtisadi rayonundadır.

Azərbaycanda sosializm quruculuğunun, kollektiv-ictimai təsərrüfatların ilk dövrü olan 30-cu illər ştq-lərin ən çox yaranması vaxtı hesab edilir. Bu dövrdə 51 ştq yaranmışdır. Bundan sonrakı dövrdə 40-cı illərdə 18, 50-ci illərdə 9 ştq yaranmışsa, bundan sonrakı 30 ildə (*1970-2000-ci illərdə*) 20 ştq formalaşmışdır. İndi respublikada mövcud olan 114 ştq-nin 50-si Bakı – Sumqayıt aqlomerasiyasının payına düşür (*cədvələ vax*).

Sonralar həmin dövrdə faydalı qazıntı yataqlarının istismarı, yeni sənaye müəssisələrinin tikilməsi, habelə inzibati funksiya əsasında respublikanın xəritəsində Neft daşları, Paraqaçay, Çeyildağ, Qobustan, Ceyranbatan, Alunitdağ, Qutqaşen (*Qəbələ*), Qarayeri və digər şəhər tipli qəsəbələr fəaliyyətə başladı.

1960-cı illərdən sonrakı dövrdə Azərbaycan iqtisadiyyatı böyük inkişaf mərhələsinə qədəm qoydu. Bu dövr genişmiqyaslı sənaye-tikinti, aqrar-sənaye komplekslərinin yaranması və inkişafı, inzibati-ərazi bölgüsü sisteminin daha da təkmilləşdirilməsi, mənzil tikintisinin genişləndirilməsi ilə əlaqədar olmuşdur. Bu dövrdə 26 ştq şəhər statusu almışdır. Göründüyü kimi, qəsəbələr, şəhərlər şəbəkəsinin genişləndirilməsi üçün mühüm ehtiyat mənbəyidir. Hazırda respublikanın ştq-ində 940164 nəfər adam yaşayır ki, bu da onun əhalisinin 12,5 faizini, o cümlədən şəhər əhalisinin 25 faizini təşkil edir. Respublikanın ştq-də əhalisinin 70,0 faizi Bakı şəhər aqlomerasiyası hüdudlarında məskunlaşıb.

Azərbaycan Respublikasında 2000-ci ildə mövcud olan ştq-lərin və onlarda məskunlaşan əhalinin sayı aşağıdakı cədvəldə verilir.

**Azərbaycan ştq-ləri və onların əhalisi (*nəfərlə*)[1]**
**2000-ci il.**

**Cədvəl 5**

| № | Şəhər tipli qəsəbələr | Əhalinin cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Kişilər | Qadınlar |
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | M.Ə. Rəsulzadə | 41782 | 20460 | 21322 |
| 2. | Binəqədi | 15467 | 7543 | 77924 |
| 3. | Biləcəri | 40034 | 19588 | 20446 |
| 4. | Xocasən | 2381 | 1200 | 1181 |
| 5. | Mərdəkan | 14560 | 7193 | 7367 |
| 6. | Binə | 23526 | 11708 | 11818 |
| 7. | Çilov | 745 | 390 | 355 |
| 8. | Pirallahı | 12986 | 6215 | 6771 |
| 9. | Şağan | 3151 | 1577 | 1574 |
| 10. | Neft daşları | 850 | 822 | 28 |
| 11. | Buzovna | 24276 | 11831 | 12445 |
| 12. | Kürkən | 715 | 339 | 376 |
| 13. | Zirə | 9562 | 4753 | 4809 |
| 14. | Qala | 2269 | 1101 | 1168 |
| 15. | Türkan | 9100 | 4608 | 4492 |
| 16. | Şüvəlan | 14741 | 7336 | 7405 |
| 17. | Əhmədli | 7465 | 3657 | 3808 |
| 18. | Sahil | 21000 | 1045 | 10655 |
| 19. | Lökbatan | 29282 | 14118 | 15164 |
| 20. | Müşfiqabad | 7914 | 3942 | 3972 |
| 21. | Qobustan | 12636 | 6249 | 6387 |
| 22. | Puta | 1008 | 509 | 499 |
| 23. | Səngəçal | 3475 | 1702 | 1773 |
| 24. | Ceyildağ | 993 | 489 | 504 |
| 25. | Ələt | 11674 | 5723 | 5951 |
| 26. | Qızıldaş | 3856 | 1929 | 1927 |
| 27. | Şonqar | 543 | 274 | 269 |
| 28. | Gərgəz | 1905 | 948 | 957 |
| 29. | Keşlə | 17264 | 8441 | 8823 |
| 30. | Bakıxanov | 64289 | 30866 | 33423 |

[1] Azərbaycan Respublikasının siyahıya alınması, I hissə. Bakı.2000.

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 31. | Zabrat | 20841 | 10457 | 10384 |
| 32. | Kürdəxanı | 4728 | 2348 | 2380 |
| 33. | Maştağa | 38858 | 19158 | 19700 |
| 34. | Nardaran | 7172 | 3536 | 3636 |
| 35. | Pirşağa | 4662 | 22399 | 2263 |
| 36. | Sabunçu | 20343 | 9822 | 10521 |
| 37. | Balaxanı | 10498 | 5116 | 5382 |
| 38. | Bilgəh | 8744 | 4436 | 4308 |
| 39. | Ramana | 8484 | 4044 | 4440 |
| 40. | Badamdar | 10875 | 5288 | 5587 |
| 41. | Bibiheybət | 1359 | 651 | 708 |
| 42. | Yeni Suraxanı | 14779 | 6953 | 7826 |
| 43. | Bülbülə | 15773 | 7713 | 8060 |
| 44. | Hövsan | 35066 | 17154 | 17912 |
| 45. | Zığ | 5507 | 2675 | 2832 |
| 46. | Əmircan | 25588 | 12229 | 13359 |
| 47. | Qaraçuxur | 69082 | 33646 | 35436 |
| 48. | Hökməli | 13935 | 2010 | 1925 |
| 49. | Güzdək | 2152 | 1049 | 1103 |
| 50. | Ceyranbatan | 5213 | 2625 | 2588 |
| 51. | Digah | 2895 | 1449 | 1446 |
| 52. | Qobu | 6762 | 3342 | 3420 |
| 53. | Saray | 9310 | 4549 | 4761 |
| 54. | Xırdalan | 28576 | 13951 | 14625 |
| 55. | Ləki | 3711 | 1751 | 1960 |
| 56. | Vurğun | 2586 | 1227 | 1359 |
| 57. | Kijobə | 4121 | 2016 | 2105 |
| 58. | Qabaqçöl | 1011 | 457 | 554 |
| 59. | Qəhrəmanlı | 1688 | 762 | 926 |
| 60. | Yuxarı Daşkəsən | 1698 | 839 | 859 |
| 61. | Daşkəsən | 374 | 197 | 177 |
| 62. | Horadiz | 2238 | 1058 | 1180 |
| 63. | Qazanbulaq | 718 | 345 | 373 |
| 64. | Aşağı Ağcakənd | 159 | 78 | 81 |
| 65. | Yuxarı Ağcakənd | 33 | 17 | 16 |
| 66. | Qızılhacılı | 5955 | 2842 | 3113 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 67. | Muğan | 4210 | 2090 | 2120 |
| 68. | Şollar | 230 | 111 | 119 |
| 69. | Muxtadır | 2393 | 1098 | 1295 |
| 70. | Hacıməlik | 3676 | 1797 | 1879 |
| 71. | Xacobağı | 59 | 29 | 30 |
| 72. | Xızı | 926 | 460 | 466 |
| 73. | Altıağac | 1057 | 526 | 531 |
| 74. | Giləzi | 3159 | 1612 | 1547 |
| 75. | Şuraabad | 1830 | 920 | 910 |
| 76. | Bəhrəmtəpə | 3995 | 1967 | 2028 |
| 77. | Basqal | 1140 | 544 | 596 |
| 78. | Lahıc | 861 | 407 | 454 |
| 79. | Mərəzə | 3452 | 1702 | 1750 |
| 80. | Qonaqkənd | 1468 | 689 | 779 |
| 81. | Fətəlixan | 3250 | 1649 | 1601 |
| 82. | Samur | 1887 | 910 | 977 |
| 83. | Lerik | 6621 | 3332 | 3289 |
| 84. | İstisu | 2813 | 1326 | 1487 |
| 85. | Hirkan | 3956 | 1949 | 2007 |
| 86. | Haftoni | 1636 | 820 | 816 |
| 87. | Kərmətük | 3892 | 1969 | 1923 |
| 88. | Nərimanabad | 4380 | 2109 | 2271 |
| 89. | Boradigah | 5344 | 2735 | 2609 |
| 90. | Bankə | 6750 | 3306 | 3444 |
| 91. | Xıllı | 3704 | 1768 | 1936 |
| 92. | Həsənabad | 3953 | 1860 | 2093 |
| 93. | Qaraçala | 3629 | 1730 | 1899 |
| 94. | Nəbiağalı | 5354 | 2640 | 2714 |
| 95. | Qarayeri | 5450 | 2597 | 2853 |
| 96. | Mədrəsə | 2272 | 1102 | 1170 |
| 97. | Turan | 1697 | 844 | 853 |
| 98. | Dəllər | 4189 | 2108 | 2081 |
| 99. | Zəyəm | 7179 | 3529 | 3650 |
| 100. | Çinarlı | 6668 | 2981 | 3087 |
| 101. | Kür | 6284 | 3091 | 3193 |
| 102. | Şıxarx | 321 | 160 | 161 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 103. | Qovlar | 12021 | 5903 | 6118 |
| 104. | Yardımlı | 3646 | 1873 | 1773 |
| 105. | Aran | 6561 | 3181 | 3380 |
| 106. | Əliabad | 8676 | 4261 | 4415 |
| 107. | Bəyimli | 741 | 385 | 356 |
| 108 | Hacıqəhrəmanlı | 2129 | 1047 | 1082 |
| 109. | Hacıkənd | 463 | 228 | 235 |
| 110. | Corat | 8339 | 4114 | 4225 |
| 111. | H.Z. Tağıyev | 18060 | 8932 | 9128 |
| 112. | Babək | 2844 | 1368 | 1476 |
| 113. | Paraqaçay | 103 | 56 | 47 |
| 114. | Şahbuz | 2556 | 1244 | 1312 |
| | **CƏMİ:** | **940164** | **462104** | **478060** |
| | **FAİZLƏ** | **100** | **49** | **51** |

Əhalinin miqdarına görə göstərilən cədvəlin təhlilindən məlum olur ki, ən çox əhalisi 5 minlə 10 min (*16,9 faiz*), 10 minlə 20 min (*18,6 faiz*), 20 minlə 30 min (*19,9 faiz*) arasında məskunlaşan qəsəbələrdə yerləşir. Demək olar ki, bunların hamısı Abşeron aqlomerasiyasında yerləşir. Say qrupuna görə ştq-lərdə əhalinin yerləşməsi 6-cı cədvəldə verilir.

Ərazi xarakterinə görə Azərbaycanın qəsəbələri və böyük şəhərləri ətrafında qrup halında toplanmış peyklərə bölünür. Ən böyük ştq-lər toplusu tarixən təşəkkül tapmış sənaye istehsalı ilə əlaqədar Abşeronda yerləşir.

Belə vəziyyət keçmiş Sovet İttifaqı üçün xarakterik idi. Bakıdan başqa ölkədə geniş ərazi tutan iri şəhər soveti olmamışdır ki, onun tabeliyində bu qədər sayda şəhər tipli qəsəbə olsun. Buna bənzər vəziyyət yalnız Ukrayna Respublikasında Donbasda Makayevka şəhəri ətrafında mövcuddur.

Bakı, Sumqayıt şəhəri ətrafında qəsəbələrin toplanması faydalı qazıntıların çıxarılması və yaşayış yerlərinin bilavasitə hasilat mənbələrinə yaxın olması ilə müəyyən edilir. Hesablamalar göstərir ki, Bakı şəhər sovetliyində hər qəsəbədə

orta hesabla indi 15,2 min nəfər əhali yaşayır.

Cədvəl 6[1]

| ŞTQ-lərin sayı | Məskunlaşma üzrə say qrupu | Əhalinin cəmi | O cümlədən | | Cəmə nisbətən faizlə | | 80 |
|---|---|---|---|---|---|---|---|
| | | | kişi | qadın | kişi | qadın | |
| 17 | 1000-nəqədər | 48812 | 23688 | 25224 | 48.4 | 51.6 | |
| 26 | 1001-3000 | 84730 | 41915 | 42815 | 49.4 | 50.6 | |
| 23 | 3001-5000 | 163811 | 78680 | 85131 | 48,2 | 51,8 | |
| 23 | 50001-10000 | 181334 | 90605 | 90729 | 49.9 | 50.1 | |
| 13 | 10001-20000 | 193432 | 94461 | 98971 | 48.8 | 51.2 | |
| 8 | 20001-30000 | 73924 | 36312 | 37612 | 45.1 | 50.9 | |
| 2 | 30001-40000 | 81816 | 40048 | 41768 | 48.9 | 51.1 | |
| 2 | 40001-50000 | - | - | - | - | - | |
| - | 50001-60000 | 133371 | 64512 | 68859 | 48.3 | 51.7 | |
| 114 | 60001-70000 | 961230 | 470221 | 495060 | 49.0 | 51.0 | |

Qəsəbələrin əksəriyyəti əlverişli tikinti meydançaları və nəqliyyat, coğrafi mövqedə yerləşir. Yalnız filiz çıxarılması ilə əlaqədar yaradılmış qəsəbələr (*onlar da əsasən əlverişli tikinti meydançasına malikdirlər*) magistral yollardan kənarda yerləşir.

Azərbaycan Respublikasının qəsəbə məskənlərinin başlıca xüsusiyyəti kənd rayonlarında kiçik, Bakı şəhəri ətrafında isə iri qəsəbələrin üstünlük təşkil etməsidir. Respublikanın qəsəbələri əhalisinin sayına görə bir-birindən kəskin fərqlənirlər, belə ki, onların yarıya qədərinin əhalisi 3 min nəfərdən artıq deyildir. Buna baxmayaraq belə qəsəbələrdə respublikanın bütün qəsəbə əhalisinin yalnız 15,0 faizi yaşayır. Kənd yerlərindəki qəsəbələrin əksəriyyətinin əhalisi 3-5 min nəfərə qədərdir. Yalnız bir neçə qəsəbənin (*Aran, Boradigah, Kür, Lerik, Horadiz, Zəyəm və b.*) əhalisi 7 min nəfərə çatır.

Daha çox əhalisi olan ştq-lərin hamısı Bakı şəhər aqlomerasiyası hüdudları daxilində yerləşirlər. Bu qəbildən olan məntəqələrdə respublikanın qəsəbə əhalisinin 70 faizi to-

[1] Cədvəl Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il, I hissə, Bakı 2000 kitabına əsasən tərtib edilmişdir.

planmışdır. Belə fakta diqqət yetirmək lazımdır ki, mənzil tikintisinin genişləndirilməsi və şəhərətrafı zonanın böyüməsi ilə əlaqədar Bakının yaxınlığında yerləşən Rəsulzadə, Biləcəri, Sabunçu, Bakıxanov, Xırdalan, Qaraçuxur qəsəbələrinin əhalisi daha sürətlə artıb.

Əhalisinin sayı 10 min nəfərdən artıq olan Abşeron qəsəbələri həm əhalinin sayına görə, həm də sənaye müəssisələrinin, mədəni-maarif ocaqlarının çoxluğuna və abadlıq səviyyəsinə görə respublikanın bir sıra rayon tabeliyindəki şəhərlərindən üstündür və birbaşa şəhərlər kateqoriyasına aiddir. Lakin belə peyk qəsəbələr Bakı şəhərinin ən yaxın dairəsində yerləşməklə faktiki olaraq onunla birləşmişdir. Təcrübədə Bakı şəhəri ilə ona bitişik qəsəbələrin sərhədlərini ayırmaq çox çətindir. Elə təsəvvür yaranır ki, Abşeron yarımadası sanki başdan-başa şəhər tikililəri altındadır.

Respublikanın ştq-ləri funksional-genetik xüsusiyyətlərinə görə çox müxtəlifdir və onların əksəriyyəti indi abadlaşdırılmaqda olan qədim kəndlərdən ibarətdir, digər hissəsi isə tamam boş yerdə (*Qaraçala, Dənizkənarı, Nərimanabad və b.*) meydana gəlmişdir. ŞTQ-lər şəhərlərlə birlikdə sənayenin simasını müəyyən edir, hasilat, emaledici sənaye məskəni olmaqla yanaşı ətraf ərazilərin mühüm inzibati-təsərrüfat obyektlərinə çevrilirlər.

Azərbaycanın şəhər tipli qəsəbələrini aşağıdakı funksional tiplərə ayırmaq olar:

a) sənaye, o cümlədən hasilat və emaledici sənaye;

b) kənd təsərrüfatı, aqrosənaye;

c) təşkilat-təsərrüfat;

s) kurort-istirahət;

d) qarışıq tipli

Sənaye qəsəbələri – hasilat sənayesi mərkəzləri qrupuna Alunitdağ, Yuxarı Daşkəsən, Çıraqdərə, Daşkəsən, Quşçu, Paraqaçay, Pirsaat, Gilgilçay, Binəqədi, Səbayel, Zığ, Qala, Yeni Suraxanı, Balaxanı, Puta, Kürkən, Şonqar, Xocasən, Şubanı, Neft daşları, Çilov, Kərkəz,Çeyildağ, Qobustan,

Qızıldaş, Pirallahı qəsəbələri daxildirlər. Bunların məşğul əhalisinin əksər hissəsi mineral xammal, filiz, neft, qaz çıxarılmasında və onlara xidmət edən sahələrdə çalışır. Lakin adları çəkilən qəsəbələrin bəzilərində (*xüsusən Abşeronda*) emaledici sənaye müəssisələrində də fəaliyyət göstərir. Neftçıxarma ilə bağlı yaranan qəsəbələr Bakı şəhəri və ona yaxın yerləşən qəsəbələrdə sıx istehsal, mədəni-məişət və əmək əlaqələrinə malik olmaqla bir qədər fərqli funksiyalar daşıyırlar.

Emaledici sənaye mərkəzləri qrupuna aşağıdakı şəhər tipli qəsəbələri aid etmək olar: Rəsulzadə, Müqtədir, Ələt, Dənizkənarı, Hövsan, Nərimanabad, Bankə, Zəyəm, Zabrat, Dəllər, Qazanbulaq. Bu qəsəbələrin sənayesi başlıca olaraq bir-iki maşınqayırma (*Zabrat, Zəyəm, Ələt, Qazanbulaq*) inşaat materialları (*Dənizkənarı, Dəllər*), üzümün ilkin emalı (*Dəllər*), habelə balıq və balıq məhsulları (*Bankə, Hövsan, Müqtədir, Nərimanabad*) emal edən müəssisələrdən ibarətdir. Rəsulzadə qəsəbəsi həmçinin Bakı şəhərinin yataq-peyki rolunu da oynayır. Belə ki, qəsəbə sakinlərinin əksəriyyəti Bakıda işləyib yalnız istirahət üçün qəsəbəyə qayıdırlar.

**Aqrosənaye, yüngül, yeyinti sənaye üzrə ixtisaslaşan qəsəbələrdə** geniş yer tutur. Burlara əsasən respublikanın kənd rayonlarında yerləşən qəsəbələri: Qırmızı Qəsəbə, Qaraçala, Hökməli, Horadiz, Digah, Kürdəxanı, Qobu, Ləki, Bəhrəmtəpə, Zirə, Qarayeri, Aran, Əskəran, Qırmızı Bazar, Türkan, Xıllı, Avrora, Bəyimli, Boradigah, Haftoni, Qəhrəmanlı, Kijoba, Qonaqkənd, Vurğun, Mədrəsə, Nardaran, Saray, Qovlar, Şıxarx, Sabir, Türyançay, Nəbiağalı, Yuxarı Ağcakənd, Aşağı Nüvədi, Kərmətük, Əliabad, Altıağac, Xırdalan və Şürabad daxildirlər. Bu qəsəbələrin iqtisadi həyatında kənd təsərrüfatı, onların məhsullarını emal edən müəssisələr aparıcı rol oynayır. Onların çoxunda (*Haftoni, Kijoba, Sabir, Mədrəsə, Şuraabad, Qobu, Qarayeri və s.*) keçmişdə məşğul əhalinin 40-60 faizi kənd təsərrüfatı sahə-

larında çalışıb. Bunlarda sənaye zəif inkişaf etmiş mövcud sənaye müəssisələri isə yerli kənd təsərrüfatı xammalının (*ilkin şərab zavodları, çay fabrikləri, pambıqtəmizləmə zavodlar və s.*) emalı ilə məşğuldur. Bu qrupun Bakı şəhər aqlomerasiyasına daxil olan qəsəbələri əhalisinin bir qismi başqa sənaye, nəqliyyat və xidmət sahələrində çalışırlar.

**Təşkilat-təsərrüfat qəsəbələri**. Kənd təsərrüfatı ərazilərdə yerləşməklə eyni adlı inzibati rayonların mərkəzi funksiyasını yerinə yetirir. Buraya Mərəzə, Şahbuz, Babək, Xızı və Yardımlı və s. daxildirlər. Özünəməxsus xüsusiyyətlərindən asılı olaraq bunların hamısı demək olar ki, çoxfunksiyalıdır. İnzibati, ticarət-paylaşdırma, mədəni-məişət və təchizat funksiyaları ilə yanaşı yerli iqtisadi mərkəzlər kimi rəhbərlik etdikləri rayonların iqtisadi və sosial həyatına böyük təsir göstərirlər. Bunlarda sənaye zəif inkişaf etmişdir. Digər qəsəbələrdə isə xırda yeyinti və yerli sənaye müəssisələri mövcuddur, əhalinin müəyyən hissəsi kənd təsərrüfatı ilə məşğuldur.

**Kurort, müalicə, rekreasiya qəsəbələri**. Buraya Bilgəh, Pirşağa, Mərdəkan, Buzovna, Şüvəlan, İstisu və Hacıkənd və b. qəsəbələr daxildir. Respublikanın səfalı kurort-rekreasiya zonalarında yerləşən bu qəsəbələrdə müvafiq təsərrüfatları inkişaf etdirmək üçün geniş imkanlar vardır ki, bunlardan da çox zəif istifadə olunur. İndi erməni işğalı altında olan İstisu qəsəbəsi ilə əlaqə kəsilmişdir. Bilgəh qəsəbəsinin dənizkənarı zolaqda yerləşən, sanatoriya və istirahət evləri, habelə xüsusi müalicəxanalar bütün ilboyu əhaliyə xidmət göstərir. Yay aylarında burada çoxlu məktəbli, məktəb yaşlı uşaqlar dincəlir.

**Qarışıq tipli qəsəbələr**. Bu qrupa 23 şəhər tipli qəsəbə daxildir və onların əksəriyyəti Abşeron yarımadasında yerləşir. Bunlara Əmircan, Əhmədli, Biləcəri, Badamdar, Binə, Buzovna, Bülbülə, Güzdək, Corat, Mərdəkan, Maştağa, Hacı Zeynalabdin Tağıyev, Sabunçu, Bakıxanov, Keşlə, Bibiheybət, Şüvəlan, Ceyranbatan, Şollar, Mincivan, Lahıc,

Səngəçal, daxildir. Bakı şəhər aqlomerasiyasına daxil olan qəsəbələr bir tərəfdən sənaye funksiyası, digər yandan inzibati-təsərrüfat, ticarət, mədəni-məişət, kurort (*Mərdəkan, Şüvəlan, Buzovna*), nəqliyyat (*Biləcəri, Binə, Sabunçu, Bakıxanov, Bülbülə, Əmircan, Keşlə və s.*) funksiyasını daşıyırlar.

Abşeron yarımadasından kənarda yerləşən qəsəbələr isə əsasən ixtisaslaşdırılmış şəhər məskənidir. Məsələn, Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu qəsəbəsi respublika pambıqçılıq İnstitutu alimlərinin şəhərciyi, Şollar su kəməri işçilərinin qəsəbəsi, Lahıc isə ənənəvi xalq sənətkarlığı mərkəzidir. Bu qəsəbələrin iqtisadiyyatında ixtisaslaşmış funksiyalarla yanaşı təsərrüfatın digər sahələrinin də müəyyən əhəmiyyəti vardır.

ŞTQ-lərin inkişaf perspektivlərini qiymətləndirərək qeyd etmək olar ki, onların bəziləri yaxın gələcəkdə rayon tabeliyində olan şəhərlər şəbəkəsinə daxil olmaq perspektivləri vardır. Bu adı almağa ilk növbədə rayon mərkəzi olan qəsəbələr, habelə Bakı şəhərinin 2005-ci ilədək olan dövr üçün nəzərdə tutulmuş baş planına əsasən Dənizkənarı, Maştağa, Zabrat, Dübəndi və Türkan qəsəbələri yaxındırlar. Gələcəkdə bir-birinə yaxın yerləşən şəhərtipli qəsəbələr birləşib aqlomerasiya da eyni funksiyalı mərkəz əmələ gətirə bilərlər. Məsələn, Şüvəlan-Mərdəkan və Şağan-Mərdəkan, Buzovna, Biləcəri, Binəqədi, Rəsulzadə, Əmirhacıyan, Suraxanı, Ramana, Binə, Qala kimi qəsəbələrin vahid şəhər mərkəzlərini əmələ gətirmələrinə çox ehtimal vardır. Aqrar-sənaye inteqrasiyasının inkişafı, bazar münasibətlərinin inkişafı yeni təsərrüfat formalarının yaranması nəticəsində respublikanın kənd rayonları ərazisində yerləşən şəhər tipli qəsəbələr də inkişaf edəcək və yeni qəsəbələr meydana gələcəkdir.

# ŞƏHƏRLƏRİN İNKİŞAFININ ƏSAS MƏRHƏLƏLƏRİ, İQTİSADİ-COĞRAFİ AMİLLƏRİ

## 2.1. Şəhərlərin inkişafının əsas mərhələləri

Azərbaycanda şəhərlərin yaranması çox qədim zamanlardan başlayaraq, mürəkkəb tarixi dövr keçmişdir. Məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğun ictimai münasibətlərdən asılı olaraq həyat tərzinin təşəkkülü və formalaşması üçün şəhərlərin özlərinə məxsus şəraiti yaranmış və zaman keçdikcə təkmilləşmişdir.

Azərbaycanın qədim şəhərləri müxtəlif funksiyalar - iqtisadi, hərbi, siyasi, mədəni-maarif, ticarət, sənətkarlıq sahələrinin yaranmasının demək olar ki, ilk mənbəyi olmuşdur. Bununla yanaşı, xaricdən müdaxilə təhlükəsi şəhərsalmada müdafiə qurğuları ilə əhatələndirməyə zərurət yartmışdır. Bu qurğular şəhərlərin müdafiəsini tam təmin etməsə də, müəyyən vaxtda müdaxiləni saxlayırdı. Dövrü olaraq baş verən müdaxilələr, hərbi hücumlar Azərbaycanın şəhərlərini – Şamaxını, Bərdəni, Gəncəni talan edib tənəzzülə uğratmışdır. Çox hallarda şəhər həyat tərzi elementlərinin bəsit təşəkkülü məhsuldar qüvvələrin zəif inkişafı ilə əlaqədar idi.

İctimai-siyasi həyatda şəhərlərin rolu uzun müddət eyni səviyyədə olmamışdır. Yaradıcı amillərin inkişafı ilə əlaqədar şəhərlər tədricən güclənmiş, təsir dairəsini artırmışdır. Bu cəhətdən orta əsrlər (*XI-XIII əsrlər*) Azərbaycan şəhərlərinin inkişafında xüsusi əhəmiyyət kəsb etmişdir.

Azərbaycan şəhərlərinin tarixi və inkişaf mənbələrinə əsaslanaraq daha geniş məlumat vermək mümkündür:

a) Roma, yunan, ərəb, fars, türk, rus və s. mənbələrin tarixi və coğrafi əsərləri;

b) xarici ölkə səfirləri və səyyahlarının yazılı məlumatları;

c) orta əsrlərə dair arxiv materialları və qədim əlyazmaları;

ç) XIX-XX əsrlərdə nəşr edilmiş məlumatlar;

d) Azərbaycan tarixçilərinin, arxeoloqlarının, coğrafiyaşünaslarının, etnoqraflarının, iqtisadçılarının, memarlarının, mütəfəkkirlərinin əsərləri.

XIX əsrin üçüncü rübündə və XX əsrin əvvəllərində kapitalist istehsal münasibətləri zəminində şəhərlərin inkişafı daha intensiv şəkil alır və həmin dövrdə Azərbaycanın sosial-iqtisadi həyatında onların rolu artır.

Azərbaycanın qədim şəhərləri haqqında ilk məlumatlara Strabonun, Ptolomeyin, İdrisinin, Qəzvininin, Əlhəməvinin və digər alim və səyyahların əsərlərində rast gəlirik. Məsələn, məşhur yunan riyaziyyatçısı-astronomu, coğrafiyaşünası Klavdi Ptolomeyin (*90-168-ci illər*) xəritəsində Qafqaz Albaniyasının 29 «şəhərinin» adı çəkilir. Onların içərisində Dərbənd, Şamaxı, Niyazabad, Cora, Niqa (Nuxa), Albana, Xabala (*Qəbələ*), Baruxa (*Bakı*) vardır.

Təxminən X əsrdə yaşamış ərəb coğrafiyaşünası Əbu-İshaq-İbrahim ibn-Məhəmməd İstəhri «Ölkələrə gələn yollar» adlı kitabına əlavə etdiyi xəritəsində Muğan, Şirvan, Arran, Babu-ul-Avbad (*Dərbənd*), Baka (*Bakı*), Astrabad kimi şəhərləri daxil etmişdir.

Azərbaycan şəhərləri və digər yaşayış məntəqələri haqqında maraqlı məlumatlara Yaqut-əl-Həməvinin (1179-1229) çoxcildlik «Muğam-əl-buldan» (*ölkələrin əlifba sırası ilə siyahısı*) coğrafiya lüğətində yer verilmişdir. Bu lüğətdə Azərbaycana aid verilmiş materialları məşhur Azərbaycan tarixçisi, şərqşünas akademik Z.M.Bunyadov P.K.Ekuze ilə birlikdə ərəbcədən rus dilinə tərcümə etmişdir. Kitabda coğrafi adlar haqqında məlumatlar verilmişdir.

Azərbaycanın məşhur şəhərlərindən onun paytaxtı Təbriz, ictimai, iqtisadi, mədəni həyatında görkəmli mövqedə

durardu. Azərbaycanın qədim paytaxtı Marağa ilə yanaşı lüğətdə Xoy, Salmas, Urmiya, Ərdəbil, Mərənd haqqında məlumatlar və s. verilir. Tarixi ədəbiyyatlarda Ərdəbil, Urşak, Urmiya, Uşnu, Dərbənd, Bəcirəvan, Bakuya, Baric, Bərdə, Bərzənc, Təbriz, Arran, Şabran, Şirvan, Şamaxı, Qəbələ, Gəncə və s. şəhərlərin haqqında geniş məlumatlara rast gəlinir.

XII əsrin sonunda XIII əsrin əvvəllərində Y.Həməvi Azərbaycanın 41 şəhərinin adını çəkir. Bunlar da monqol işğalından əvvəlki dövrə aiddir. Göstərilən şəhərlər və yaşayış məntəqələri haqqında monqol hücumlarından sonrakı dövrə aid olan məlumatlar isə Həmdulla Qəzvinin «Nüzhat-əl-Külub» adlı əsərində verilir. Bu məlumatları da oradan akademik Z.M.Bünyadov götürüb, yuxarıda adı çəkilən kitaba əlavə etmişdir.

Azərbaycan şəhərləri haqqında orta əsr müəllifləri içərisində məşhur Azərbaycan coğrafiyaşünası Əbdürrəşid Bakuvinin əsərləri xüsusi əhəmiyyət kəsb edir. Özünün «Təlxeyi-əl-əsər» adlı kitabında Ə.Bakuvi Baku, Naxçıvan, Bərdə, Təbriz, Arran, Baylakan (Beyləqan), Şabran, Dərbənd, Gəncə (*Qanza*) və s. şəhərlərə qiymətli əsər həsr etmişdir.

Rusiyanın Qafqaza, Azərbaycana olan marağının artması, xüsusən ölkənin Rusiyaya birləşdirilməsindən sonra Azərbaycanın şəhərləri və şəhər əhalisi haqqında məlumatlar rus tədqiqatçılarının əsərlərində geniş yer tutmağa başlayır. Onların məlumatları nisbətən mükəmməlliyi və statistik rəqəmlərin dolğunluğu ilə fərqlənir. Rus mənbələri içərisində «Rusiyanın Qafqaz arxasındakı mülklərinin icmalı», «Qafqaz şəhərləri haqqında məlumatlar», P.Q.Butkovun 1910-cu ildə nəşr etdiyi «1722-ci ildən 1830-cu ilədək Qafqazın yeni tarixi üçün materiallar», «Zaqafqaziya Diyarı Dövlət kəndlilərinin məişətinin öyrənilməsi üçün materiallar», 1880-cı il; Semyenov-Tyanşanskinin «Avropa Rusiyasının şəhər və kəndləri», 1910-cu il ( *rus dilində*) əsərlərində verilib.

Azərbaycanın qədim şəhərlərini öyrənmək üçün «Azərbaycan tarixi» əsəri (*3 cilddə*) böyük əhəmiyyət kəsb edir. Bu külliyyatda Azərbaycan tarixinin müxtəlif inkişaf mərhələlərində konkret obyektiv tarixi və sosial-iqtisadi şəraitlə əlaqədar şəhərlərin yaranması və inkişafı haqqında geniş məlumatlar verilir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra arxeoloji qazıntıların və tədqiqatların genişlənməsi, müxtəlif səpkili məlumatların çoxalması nəticəsində şəhərlərin öyrənilməsinə olan maraq artdı. İkinci Dünya müharibəsindən sonrakı illərdə Azərbaycan tarixçiləri A.A.Əlizadə[6], F.M.Əliyev[7], M.X.Heydərov[33] və başqalarının şəhərlərin öyrənilməsində böyük xidmətləri olmuşdur.

Şəhər kapitalist sənayesinin yaranması ocaqları kimi akademik Ə.S.Sumbatzadənin[95] və digər müəlliflərin əsərlərində də diqqət mərkəzində olmuşlar. Şəhər məskənlərinin müxtəlif cəhətləri, həmçinin memarların və şəhərsalanların – Ə.V.Salamzadənin, M.S.Bretanitsknin[17] və s. əsərlərində şərh olunmuşdur. Azərbaycan şəhərlərinə həsr olunmuş əsərlər içərisində akademik A.A.Nadirovun xidməti təqdirə-layiqdir.

1960-70-ci illərin ortalarında Şamaxı, Sumqayıt, Daşkəsən, Əlibayramlı, Mingəçevir, Quba və s. şəhərlərə həsr olunmuş bir sıra elmi-kütləvi, elmi əsərlər yazılır. Azərbaycanda urbanizasiya proseslərinin və şəhərlərin öyrənilməsində respublikamızın coğrafiyaşünaslarının da böyük xidməti olmuşdur. Belə ki, mərhum, professor Ə.M. Hacızadə Azərbaycanın şəhərlər sistemini tədqiq etmiş, respublikanın paytaxtı Bakı şəhəri haqqında kitab yazmışdır. Quba, Şəki, Şuşa, Gəncə şəhərlərinə həsr edilmiş kitabçalarda onların tarixi, iqtisadi, mədəni xarakteri haqqında maraqlı məlumatlar verilir. Ş.Q.Dəmirqayayevin[1], E.Q.Mehrəliyevin[1], N.Eyyubovun[41] əsərlərində Azərbaycan şəhərlərinin müasir inkişafına dair zəngin materiallar verilir.

Yuxarıda göstərilənləri yekunlaşdıraraq qeyd etmək

olar ki, əgər ilk mənbələr yalnız şəhərlərin varlığı faktını göstərib, bəzən onlar haqqında, ziddiyyətli məlumatlar verirdisə, sonrakı mənbələr mötəbərliyi ilə seçilir, müəyyən kəmiyyət, keyfiyyət göstəricilərinə malikdir. Azərbaycan şəhərlərinin müasir tədqiqinin vəziyyətinə gəlincə isə göstərmək lazımdır ki, nəşr edilmiş müxtəlif istiqamətli və çoxsaylı yazıların olmasına baxmayaraq, Azərbaycanın şəhərlərinə və respublikada gedən urbanizasiya proseslərinə həsr olunmuş ümumiləşdirici və kompleks xarakterli əsərlər demək olar ki, yoxdur. Bu baxımdan boşluğun doldurulması oxuculara təqdim olunan kitabın əsas məqsədlərindən birini təşkil edir.

Azərbaycan Respublikası ərazisində şəhərlərin yaranması və inkişafı hələ feodalizm dövründən çox-çox əvvəllər başlamışdısa, onların əsas inkişafı və şəhər mədəniyyətinin geniş yayılması feodalizm quruluşunun bərqərar olmasından sonrakı dövrə aiddir. Bizim eranın III-V əsrlərində feodal münasibətlərinə keçilməyə başladı. Artıq VI əsrin ortalarında xeyli dərəcədə möhkəmlənmiş feodal münasibətləri kənd təsərrüfatında və sənətkarlıqda məhsuldar qüvvələrin inkişafına səbəb oldu. Bu dövrdə Bərdə, Qəbələ, Beyləqan, Dərbənd, Şəmkir, Şabran, Naxçıvan, Şəki, Təbriz şəhərləri iqtisadi, sənətkarlıq, ticarət və s. cəhətdən inkişafına görə fərqlənirdilər.

Bunların içərisində Bərdə daha çox seçilirdi. Lakin məhsuldar qüvvələrin o dövrkü səviyyəsi hələ də şəhər həyatının sürətli inkişafını təmin edə bilmirdi, bəzi hallarda bu və ya digər şəhərlərin inkişafı tənəzzülə uğrayırdı. Bir sıra şəhərlər, məsələn, Beyləqan, Qəbələ, Şabran, Ərəş, Bacirəvan və digər şəhərlər tənəzzülə uğrayaraq tarixi səhnədən silinib getmişlər.

VII əsrin ortalarında başlayan ərəb xilafəti hücumları Azərbaycan şəhərlərinə böyük zərbə vurdusa da, onların inkişafını uzun müddət dayandırmadı. IX-XI əsrlərdə Azərbaycanın sosial-iqtisadi həyatında müəyyən dəyişikliklər baş

verdi. Feodal münasibətləri daha da inkişaf etdi. İri feodal torpaq mülkiyyətləri möhkəmləndi. IX əsrin ortalarında Azərbaycanın Ərəb xilafəti əsarətindən qurtarması ölkə təsərrüfatının inkişafını da sürətləndirdi. Bu dövrdə əkinçiliyin, bağçılığın, heyvandarlığın, sənətkarlığın və ipəkçiliyin inkişafı şəhərlərin də yüksəlməsinə təsir etdi.

Məhz bu dövrdə Bərdə, Şamaxı, Gəncə, Bakı, Şabran, Beyləqan, Naxçıvan və digər şəhərlər nəzərə çarpan dərəcədə inkişaf etdilər. IX əsrin ikinci yarısında Bakıda 500 quyudan neft, Naxçıvanda mis, indiki Daşkəsən yaxınlığında dəmir filizi çıxarılırdı. Sənətkarlıqla yanaşı Şamaxıda yun, ipək paltarlar, kargüzarlıq məmulatları, ticarət məhsulları, Muğanda, Şirvanda nəfis xalçalar və s. hazırlanırdı.

XI-XIII əsrlərdə – yetkin feodalizm dövründə Azərbaycan (*xüsusən Şirvanşahlar dövlətinin*) öz inkişafının zenit mərhələsinə çatanda şəhərlərin çiçəklənməsi üçün daha əlverişli şərait yarandı. Yerli dövlət hakimiyyətinin qüvvətlənməsi ölkədə tərəqqi və sosial-iqtisadi həyat üçün əlverişli imkanlar açdı. Elm, mədəniyyət, memarlıq və şəhərsalma sahələrində görkəmli nailiyyətlər əldə edildi.

Ümumiyyətlə, tarixi məlumatlara görə, XII əsrlə, XIII əsrin əvvəllərində Azərbaycanda onlarla böyük, orta və kiçik şəhərlər var idi. Onların iqtisadi tərəqqisinə ölkənin beynəlxalq tranzit və ticarət yollarının üzərində yerləşməsi də kömək edirdi. Şərq ölkələrindən şimala slavyan torpaqlarına, Baltikyanı və digər Avropa ölkələrinə gedən ticarət yolları məhz Azərbaycandan keçirdi. Elə o dövrdən Azərbaycanın Rusiya ilə ticarət əlaqələri başlamışdı.

1220-1221-ci illərdə monqol istilası nəticəsində Beyləqan, Marağa, Örənqala, Şamaxı və digər şəhərlər qarət olunub, dağıdılıb. Cəlaləddinin viranedici yürüşləri Azərbaycanın iqtisadi inkişafını xeyli ləngitdi, şəhərləri süquta uğratdı. XIV əsrin axırlarından etibarən ölkənin iqtisadi həyatının dirçəlməsinin yeni mərhələsi başlandı. Ölkə monqol hücumlarından xilas oldu, Şirvanşahlar dövləti yenidən qüvvət-

lənməyə başladı. Bu vaxt ticarət və sənətkarlıq dirçəldi, dağıdılmış şəhərlər bərpa edildi. XV əsrin ikinci yarısından başlayaraq İran və Türkiyənin Azərbaycanda hökmranlıq uğrunda uzunmüddətli rəqabəti başlandı. Belə şəraitdə ölkədə şəhər həyatı tənəzzülə uğramağa başladı, bir çox şəhərlər süqut etdi, qalan şəhərlərin iqtisadi funksiyaları kəskin şəkildə məhdudlaşdı.

Bütövlükdə Azərbaycanın feodal dövründəki hərbi-siyasi və iqtisadi vəziyyəti şəhər yaşayış məntəqələri üçün əlverişli olmamışdır. Yalnız bəzi mərhələlərdə bu və ya digər tarixi-coğrafiya əyalətlərdə şəhər həyatının bir qədər canlanmasına səbəb olan şərait yaranırdı. Məsələn, XVIII əsrin ikinci yarısında ayrı-ayrı xanlıqlarda (*Quba, Qarabağ, Gəncə, Şəki, Şirvan və s.*) belə olmuşdur. Bu dövrdə xanlıq mərkəzləri, qala-şəhərlər Şuşa, Quba, Şamaxı, Şəmkir və Lənkəran yarandı.

Azərbaycanda xanlıqlar arasında tez-tez baş verən toqquşmalara və müdaxilə qorxusuna baxmayaraq qala şəhərlər ticarət, sənətkarlıq fəaliyyəti nəticəsində inkişaf edirdi. Xarici düşmənlərdən qorunmaq üçün qala divarları ilə yanaşı saray komplekslərinin tikintisinə, möhkəmləndirilməsinə də böyük diqqət yetirilirdi. Məhz bu dövdə Azərbaycanın özünəməxsus hüsnü və koloriti olan Şuşa, Şəki və Quba şəhərlərinin memarlıq, layihələşdirmə, mədəni quruculuq işləri formalaşmağa başladı.

Yerli şəraitdən asılı olaraq tarixən təşəkkül tapmış şəhərlərin bəziləri məhdud qala divarları arasında ticarətin, mədəniyyət obyektlərinin genişlənməsi, ölkədaxili və ölkələrarası iqtisadi əlaqələrin fəaliyyətini artırdı. Quba, Gəncə, Qəbələ, Lənkəran və s. meyvə bağları içərisində şəhərlər inkişaf etməkdə davam edirdilər. Şəhərlərdə əhali artımı, sənətkarlığın, mədəniyyət obyektlərinin genişlənməsi sürətləndirildi. Təbii, iqtisadi şərait şəhərlərin planlaşdırma struktrunu müəyyən edirdi ki, bu da müxtəlif kompozisiyalı şəhər tikililərinin yaranmasına səbəb olurdu.

XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya ilə birləşdirilməsi onu iki yerə bölsə də, Şimali Azərbaycanın sosial-iqtisadi həyatında müsbət dəyişikliklərə səbəb oldu. Ölkənin iqtisadiyyatını pozan, şəhərləri viran edən, şəhər həyat tərzini tənəzzülə uğradan və məhsuldar qüvvələrin inkişafını ləngidən xarici hərbi müdaxiləyə və daxili feodal çəkişmələrinə son qoyuldu.

Bununla yanaşı, iqtisadiyyatın, mütərəqqi istehsal sahələrinin, ticarətin, sənətkarlığın inkişafı sürətləndi, istehsal olunan məhsullar ölkələrarası mübadilədə iştirak etdi. Muzdlu əmək təmayüllü manufaktura müəssisələri meydana gəldi ki, bu da xarici və daxili ticarəti xeyli genişləndirdi.

Siyasi-inzibati quruluşun və yeni idarəçilik sisteminin tətbiqi nəticəsində şəhəryaradıcı quberniya və qəza mərkəzlərinin inzibati funksiyası tətbiq edilən ərazidə mədəni-maarif, səhiyyə xidməti xeyli möhkəmləndi.

Nəhayət, Azərbaycanın sənaye əhəmiyyətli mineral-xammal ehtiyatlarının aşkar edilməsi və onların tədricən istehsala cəlb olunması nəticəsində mühüm sənaye sahələrinin, dəmir yolu nəqliyyatının, dənizçiliyin inkişafı şəhərlərin və şəhər həyatının canlanmasına şərait yaratdı. Lakin o zaman təzahür edilən bir sıra sosial-iqtisadi və siyasi səbəblər üzündən göstərilən əlverişli zəminlərdən istifadə edilməsi zəif təşəkkül tapırdı və onların fəaliyyət miqyası məhdud olduğundan XIX əsrin birinci yarısında şəhərlərin inkişafını xeyli ləngitdi.

Obyektiv səbəblər üzündən belə vəziyyət qanunauyğun sayılmalıdır. Çünki bütün Rusiyada olduğu kimi, Azərbaycanda da məhsuldar qüvvələri və son nəticədə şəhər həyatının inkişafını ləngidən feodal-patriarxal qalıqlar özünü göstərirdi. Bu cəhətdən Rusiyanın mərkəzi quberniyaları ilə müqayisədə Azərbaycanda vəziyyət daha ağır idi. Çar hökümətinin müstəmləkə siyasəti ölkənin iqtisadi cəhətdən daha inkişaf etmiş xammal bazasına çevirməyə və daxildə sənayenin inkişaf etdirilməsinə yönəldilmişdir. Bu dövrdə

dövrdə sənətkarlıq məhsulları respublika şəhərləri əhalisinin əsas dolanacaq vasitəsi idi.

Erkən kapitalist dövründə də şəhəryaradıcı amillərin zəif olmasına baxmayaraq yeni şəhərlərin yaranması prosesi davam edirdi. Məsələn, Rusiyanın Zaqafqaziyada ölkənin hərbi orqanları hələ 1820-ci ildə Ağstafaçay və Həsənli çayları boyunca şəhərlər salmaq üçün yer axtarmışlar. Lakin bu cəhdlər axıra çatdırılmadı. Bununla belə, Azərbaycanın digər strateji məntəqələrində, Dağıstanla sərhəddə, Zaqatala, Qax, Qusar qalaları tikildi ki, bunlar gələcəkdə eyni adlı şəhərlərin müdafiəsi üçün vasitə oldular.

Sonralar Cavad, Ağdam, Ağdaş, Göyçay və kurort şəhərciyi Hacıkənd meydana gəldi. Hələ XIX əsrin 50-70-ci illərinin əvvəllərində həmin əsrin 40-cı illərinə nisbətən şəhərlərin və 1854-1874-cü illərdə şəhər əhalisinin artımı meyli müşahidə edilir. Bu proses aşağıdakı cədvəldə verilir:

**Cədvəl 7.**

| **Şəhərlərin Adı** | **Əhalinin sayı** | | |
|---|---|---|---|
| | **1854** | **1874** | **Əhalinin artımı 1854-1874-cü illərdə əhali artımı (faizlə)** |
| Şamaxı | 19,733 | 24,133 | 122,3 |
| Nuxa (Şəki) | 17,945 | 29,917 | 117,0 |
| Şuşa | 15,194 | 24,552 | 156,1 |
| Yelizavetpol (Gəncə) | 15,081 | 18,505 | 124,0 |
| Bakı | 8,74 | 14,577 | 185,3 |
| Quba | 7,909 | 11,113 | 141,7 |
| Salyan | 6,746 | 9,088 | 133,9 |
| Naxçıvan | 5,57 | 8,878 | 133,4 |
| Ordubad | 4,302 | 5,525 | 128,4 |
| Lənkəran | 3,970 | 4,779 | 127,6 |

Göründüyü kimi, o dövrdə Azərbaycanın ən böyük şəhəri, quberniya və sənətkarlıq mərkəzi (*sənətkarlar və onların ailə üzvləri ümumi əhalinin 26 faizini təşkil edirdilər*) Şa-

maxı olmuşdur. Rusiya bazarının tələbatı nəticəsində bir sıra baramaaçan fabrikləri tikilən Nuxa və Şuşa şəhərlərində həyat dirçəlməyə başladı. Lakin 15 may 1859-cu ildə baş verən dağıdıcı zəlzələ Şamaxı şəhərini xarabalığa çevirdi. Bu münasibətlə Qafqaz canişini knyaz A.İ.Baryatinski 7 iyun 1859-cu ildə Şamaxının hərbi qubernatoruna yazırdı: «Mən quberniya idarələrinin Bakı şəhərinə köçürülməsi fikrinə gəlmişəm. Bu şəhərin dəniz sahilində yerləşməsi, liman yaratmaq imkanları, gələcəkdə çəkiləcək dəmir yolunun başlanğıc məntəqəsi olması, mübaliğəsiz olaraq Bakını qısa müddətdə əhəmiyyətli liman şəhərinə çevirər, əhali üçün əlverişli şərait yaradar və Şamaxını köhnə yerində bərpa etməkdən azad edər». 1859-cu ilin dekabrında çar II Aleksandrın fərmanı ilə quberniya mərkəzi Şamaxıdan Bakıya köçürüldü.

Qeyd etmək lazımdır ki, rus knyazının fikri özünü tam doğrultmadı və tez vaxtda Şamaxı xarabalıqdan çıxıb Azərbaycanın iri şəhərlərindən birinə çevrildi. Zəlzələdən 15 il sonra onun əhalisi əvvəlkinə nisbətən 122,3 faiz artdı.

İslahatdan əvvəlki dövrdə bir çox Azərbaycan şəhərlərinin əhalisi üçün səciyyəvi hal onların xeyli hissəsinin əkinçilik və heyvandarlıqla məşğul olmasıdır. Məsələn, 1849-cu ildə Nuxanın (Şəkinin) 17 minlik əhalisinin 2 min nəfəri əkinçiliklə məşğul idi.

XIX əsrin 60-70-ci illərində keçirilmiş islahatlar şəhərlərin inkişafı üçün əlverişli şərait yaratdı, kəndlilərin təhkimçilik hüququndan azad edilməsi bu sahədə mütərəqqi tədbirlərdən oldu. Azad kəndli iş tapmaq üçün şəhərlərə üz tutmaqla urbanizasiyanı genişləndirdi. Əmtəə-pul münasibətlərinin genişlənməsi getdikcə kəndli təsərrüfatının, şəhərlə əlaqəsini genişləndirdi. Bu dövrdə əhalinin əmlak və gəlir dərəcələrinə görə təbəqələşməsini tədricən artdı, iri təsərrüfatları, xüsusilə sənaye müəssisələrinin yaranmasına səbəb oldu. Bu dəyişikliklər son nəticədə kənd təsərrüfatında əmtəəlik məhsulun artmasına, mal mübadiləsinin və beləliklə

şəhər burjuaziyasının hakimliyini yalnız şəhərlərdə deyil, həm də kəndlərdə möhkəmlənməsinə şərait yaratdı.

Kapitalizm dövründə Azərbaycan şəhərlərinin inkişafının əsas mənbələrindən biri də sənaye istehsalı idi. XIX əsrin 70-ci illərindən başlayaraq neftçıxarmada kapitalizm sisteminin ləğv olunub icarə sistemi ilə əvəz olunması neft sənayesinin və bununla da Bakı şəhərinin sürətlə inkişafına şərait yaratdı.

Rusiyadan və xarici ölkələrdən Bakıya kapital axmağa başladı. Bu isə XIX əsrin axırlarında Abşeron yarımadasında dünyanın ən iri neft rayonunun formalaşmasına şərait yaratdı. Sürətlə inkişaf edən neft sənayesinə o vaxt çoxlu işçi qüvvəsi lazım idi. Rusiyanın, Şimali Azərbaycanın və Cənubi Azərbaycanın hər yerindən Bakı neft mədənlərinə işçi qüvvəsi axmağa başladı ki, bu da şəhər əhalisini sürətlə artırdı.

Bakıdan əlavə XIX əsrin əvvəllərində Azərbaycanda daha 12 şəhər mövcud idi. Bunlar Naxçıvan (*8220 nəfər*), Ordubad (*5227 nəfər*), Qazax (*1192 nəfər*), Göyçay (*3750 nəfər*), Lənkəran (*5938 nəfər*), Zaqatala (*950 və s.*) şəhərləri idi.

İnkişaf etmiş kapitalizm dövründə Azərbaycan şəhərləri arasında Bakıdan sonra nisbətən inkişaf edən Gəncə şəhəri idi. Burada pambıqtəmizləmə, şərab zavodları, tütünçülük müəssisələri, iri dəmiryol deposu, ticarət obyektləri, quberniya inzibati idarələri və s. fəaliyyət göstərirdi. 1910-cu ildə Gəncənin əhalisi 60 minə çatdı. Əhalinin sayına görə (*39 min nəfər*) Şuşa üçüncü yerdə idi. Kapitalizm dövründə Şuşa, Gəncə və Şəki Azərbaycanın iri şəhərləri və mədəni mərkəzlərindən hesab edilirdi.

Sənaye istehsalının inkişaf səviyyəsinə görə Zaqafqaziyanın ipəkçilik mərkəzi olan Nuxa (*36,5 min nəfər*) da əhəmiyyətli şəhərlərdən biri idi. Sənətkarlığın, xalçaçılığın, habelə ticarətin geniş inkişafı sayəsində Quba (*24,3 min nəfər*) və Şamaxı (*22,2 min nəfər*) şəhərləri də müəyyən inkişaf sə-

viyyəsinə çatmışdılar.

Şəhərlərin inkişafında mühüm rol oynayan inqilabdan əvvəlki sənaye istehsalı iki qrupa bölünürdü. Ən böyük əhəmiyyət kəsb edən birinci qrupa XIX əsrin axırlarından Abşeron neft yataqlarına əsaslanan Bakı böyük istehsal və hasilat sənaye mərkəzi idi. Məhz neft sənayesi, əsas şəhəryaradıcı amil kimi Bakının sürətli iqtisadi və sosial inkişafını təmin edirdi. Bunlarla yanaşı, Azərbaycanın ucqar rayonlarında hasilat sənayesinin şəhəryaradıcı rolu çox zəif idi.

İkinci qrupa isə emaledici sənaye müəssisələri şəhərləri daxil idi. Belə müəssisələr başlıca olaraq yerli kənd təsərrüfatı, habelə gətirilən xammala əsaslanmaqla iri istehsal mərkəzlərində və yaxud nəqliyyat qovşaqlarında (*Bakı, Gəncə, Şəki, Ordubad, Saylan*) yerləşirdi.

Azərbaycanın kapitalist dövrü şəhərlərinin inkişafında sənətkarlıq, kustar və kiçik sənaye sahələri əhəmiyyətli rol oynamışdır. Bu dövrdə fabrik-zavod sənayesinin, sənətkarlığın inkişafını tədricən sıxışdırmasına baxmyaraq, onların sayı artmaqda davam edirdi. Bakı, Gəncə və Şəki şəhərləri istisna olmaqla, digər şəhərlərdə fabrik-zavod sənayesi olduqca zəif inkişaf etmişdi. Əhalinin ilkin tələbat mallarına artmaqda olan tələbatı sənətkarlıq istehsalı hesabına ödənilirdi. Bu zaman Şamaxı, Quba və Şuşa da sənətkarlıq mərkəzləri kimi fəaliyyət göstərirdi.

Bu dövrdə şəhərlərin inkişafında nəqliyyat müstəsna rol oynamağa başladı. 1883-cü ildə istifadəyə verilən və Azərbaycanın mərkəzi rayonlarından keçən Bakı-Tiflis və 1890-cı ildə Azərbaycanı Rusiya ilə birləşdirən Bakı-Dərbənd dəmir yolları şəhərlərin sosial-iqtisadi, sənaye cəhətdən inkişafı üçün möhkəm zəmin yaratdı və Bakı mühüm kommunikasiyalar qovşağına çevrildi.

Dəniz və çay nəqliyyatının inkişafında Bakı ilə yanaşı Lənkəran, Salyan şəhərləri də mühüm əhəmiyyət kəsb edirdi. Beləliklə, Azərbaycan şəhərlərinin nəqliyyat-coğrafi mövqeyi tədricən genişlənməklə onun iqtisadi mədəni tə-

rəqqisini artırdı. Bunlarla yanaşı, ticarət, sənətkarlıq, şəhəryaradıcı təsir altında inikişafa başladı. Ticarət və sənətkarlıq yalnız feodalizm dövrü şəhərlərinin başlıca iqtisadi funksiyası olmayıb, həmçinin kapitalizm dövrü üçün də səciyyəvi hal kimi fəaliyyət göstərirdi.

Azərbaycanın ən iri və iqtisadi cəhətdən inkişaf etmiş şəhərləri müəyyən mədəni-maarif funksiyalarını da daşıyırdılar. İnqilabdan əvvəlki Bakı, Gəncə, Şəki, Lənkəran, Naxçıvan və digərlərində tədris-mədəniyyət müəssisələri, teatrlar, kitabxanalar, səhiyyə ocaqları və s. obyektlər fəaliyyət göstərirdi.

XIX əsrin yarısından etibarən inzibati-idarəçilik funksiyası şəhəryaradıcı amillərdən biri hesab olunurdu. Rus inzibati idarə üsuluna keçməklə Bakı ilə yanaşı Azərbaycanın müxtəlif əyalətlərində qəza şəhərləri olan Gəncə, Şamaxı, Dərbənd, sonralar Şuşa, Ağdaş, Cavad kimi yeni şəhərləri meydana gəldi.

Beləliklə, Azərbaycanda kapitalist istehsal münasibətlərinin formalaşması və inkişafı ilə əlaqədar onun şəhərləri də böyüyüb inkişaf etməyə başladı. Əgər 1897-ci ildə Azərbaycan əhalisinin yalnız 12,2 faizi şəhərlərdə yaşayırdısa, 1913-cü ildə bu göstərici 24,0 faizə çatmışdı. Bu dövrdə Şimali Azərbaycan ərazisində 13 şəhər var idi və Bakı istisna olmaqla onlarda yaşayan əhalinin orta sayı 33 min nəfər təşkil edirdi. Şəhərlərin memarlıq üslubundan köhnə ənənəvi elementləri qalsa da əsaslı müsbət keyfiyyətlər (*xüsusən Bakıda*) meydana gəldi, onların abadlıq səviyyəsi xeyli yüksəldi.

Birinci Dünya müharibəsi, ondan sonra baş vermiş inqilablar və xarici hərbi müdaxilələr Azərbayca şəhərlərinin iqtisadi, sosial həyatına güclü zərbə vurdu, onların təsərrüfatının bütün sahələri tənəzzülə uğradı ki, bu da şəhər həyatına çox mənfi təsir göstərdi. Azərbaycan şəhər əhalisinin sayı 1913-cü ildəki 556 min nəfərdən 1920-ci ildə 405,8 min nəfərə endi və yaxud 37 faiz (*o cümlədən Bakının əhalisi 1,3*

*dəfə)* azaldı.

1920-ci ildən sonrakı illəri Azərbaycanda şəhər həyatının sürətli inkişaf mərhələsi adlandırmaq olar. Ölkənin sosial-iqtisadi həyatının son 70 ili şəhərlərin tərəqqi dövrü olmuşdur. Onların coğrafi əmək bölgüsündə rolu xeyli artmışdır. İctimai istehsalın genişlənməsi ilə yanaşı şəhərlərin elm-maarif, ümummədəni və siyasi inzibati funksiyaları dövlətin siyasi, ictimai qurumuna münasib artmışdır.

Azərbaycanın sovetləşməsindən sonrakı bərpa dövründə başlıca diqqət respublikada neft, maşınqayırma, metalemalı, emaledici sənayenin, nəqliyyatın yenidən qurulmasına yönəlmişdi ki, bunların da əsas hissəsi şəhərlərdə cəmlənmişdi.

Belə ki, 1930-cu illərin ikinci yarısında şəhərlərdə yeni-yeni sənaye müəssisələri, Xankəndində ipək kombinatı, Ordubadda baramaaçma, ipəkçilik-fabriki, Gəncədə toxuculuq, yağ-piy, pambıqtəmizləmə, yeyinti sənaye müəssisələri, Sabirabad, Əlibayramlı, Ağstafa, Noraşen (*Şərur*), Yevlax, Göyçay, Ucar, Quba, Qusar, Xaçmaz, Tovuz, Zaqatala, Şəki və s. yerli kənd təsərrüfatı xammallarını emal edən yeyinti, yüngül sənaye müəssisələri, Bakıda, Gəncədə istilik-elektrik stansiyaları, Neftçalada yod-brom zavodu və s. fəaliyyətə başladı. Gəncə şəhəri respublikanın ikinci sənaye mərkəzinə çevrildi.

Azərbaycanda şəhərlər şəbəkəsinin genişlənib inkişaf etməsində 1930-cu ildə aparılmış inzibati rayonlaşmanın böyük əhəmiyyəti oldu. Belə ki, rayon mərkəzi olan şəhərlər, inzibati, təsərrüfat, ticarət-paylayıcı, mədəni və s. funksiyaları yerinə yetirməyə başladı.

1926-cı ilin siyahıya alınmasına görə Azərbaycanda 19 şəhər mövcud idisə, 1939-cu ildə onların sayı 25-ə çatdı. Bu dövrdə Xankəndi, Qusar, Kürdəmir, Laçın, Sabirabad, Xanlar, Qazıməmməd, Ucar şəhər statusunu aldı. Bütövlükdə köhnə şəhərlərin də inkişafı nəzərə alınmaqla onlarda əhalinin artım surəti 1920-1939-cu illərdə 250 faiz,

1959-1979-cu illərdə 156 faiz, 1989-1999-cu illərdə 10 faiz olmuşdur. Göründüyü kimi, 1920-1939-cu illərdə Bakı şəhərində əhalinin artım sürəti azalmağa meyl edir ki, bunun da əsas səbəblərindən biri təbii artımın tədricən aşağı düşməsi ilə əlaqədardır. Son 10 ilin əhali artımında isə kəndlərdən başlanan miqrasiya əsas yer tutur.

İkinci Dünya müharibəsi (1941-1945) ölkənin iqtisadiyyatına, demoqrafik inkişafına çox böyük zərər vurdu. Bir sıra sahələrdə sənaye istehsalı həcminin azalması, mənzil tikintisinin demək olar ki, dayandırılması və s. səbəblər üzündən şəhərlərin yaranması prosesi ləngidi. Çoxlu sayda cavanların orduya çağırılması təbii artımın kəskin şəkildə azalması, kənddən şəhərə əhali axınının xeyli zəifləməsi nəticəsində şəhər məskunlaşması tənəzzülə uğradı.

Müharibədən sonrakı bərpa illərində respublikada iqtisadi və sosial inkişafın geniş vüsət alması şəhərlərin də sürətli tərəqqisinə səbəb oldu. Bu dövr (*son illəri nəzərə almasaq*) sənaye, mənzil və sosial infrastruktur tikintisinin geniş vüsəti, yeni sənaye sahələrinin meydana gəlməsi, metallurgiya, kimya əhəmiyyətli mineral-xammal ehtiyatlarının sürətlə təsərrüfat dövriyyəsinə cəlb edilməsi, nəhayət respublikamızın müstəqil dövlət kimi inkişaf yoluna qədəm qoyması ilə səciyyələnir.

Nəticə etibarilə köhnə şəhərlər xeyli inkişaf edib genişləndi və yeniləri meydana gəldi. Beləliklə, Abşeronda sənayenin, xüsusən emaledici müəssisələrin inkişafı nəticəsində 1959-cu ildə Bakının peyk şəhəri olan və hazırda əhalinin sayına görə 3-cü, sənaye istehsalının həcminə görə 2-ci yeri tutan Sumqayıt şəhərini daxil etmək olar.

Yeni-yeni təbii ehtiyatların, xüsusilə neft-qaz, dəmir və alunit, mis-molibden, sink, qurğuşun mədənlərinin mənimsənilməsi və istismarı nəticəsində Əli-Bayramlı, Daşkəsən, Mingəçevir, Neftçala, Siyəzən,Göytəpə kimi şəhərlər, Altınitdağ, Quşçu körpüsü, Daşkəsən, Yuxarı Daşkəsən, Paraqaçay, Ələt, Çilov, Neft daşları və digər şəhər tipli qəsəbələr

inkişafa başladı.

Şəhər yaşayış məntəqələri sisteminin formalaşması ardıcıl, qırılmaz və yeniləşən bir prosesdir. Məhsuldar qüvvələr inkişaf etdikcə yeni şəhər tipli qəsəbələrə ehtiyac yaranırdı. Məlumdur ki, şəhər yaşayış məskənləri ehtiyac və əlverişli şərait olan yerlərdə yaranır. Məsələn, Mingəçevir şəhəri ilk növbədə burada hidroenerji, suvarma kompleksinin yaradılması ilə əlaqədar, Əli-Bayramlı və Siyəzən şəhərləri neftçıxarma, Daşkəsən dəmir filizi mədənlərinin istismarı əsasında şəhər kimi formalaşıb.

Azərbaycanda şəhərəmələgəlmə prosesi 30 ildən sonra daha da sürətlənir. Yalnız 1971-1990-cı illərdə respublikanın xəritəsinə Balakən, İsmayıllı, Qax, Naftalan, Göytəpə, Biləsuvar, Ağsu, Oğuz, Beyləqan, Zəngilan, Zərdab, Göranboy və s. kimi şəhərlər daxil edildi. Hazırda respublikada 114 şəhərtipli qəsəbə mövcuddur ki, onların haqqında ayrıca bölmədə geniş məlumat verilir.

Azərbaycanın son 70 illik tarixi ərzində şəhərlərin inkişaf prosesinin təhlili göstərir ki, bu dövrdə şəhərsalma sistemi formalaşmış və urbanizasiya xeyli inkişaf etmiş, mütərəqqi məskunlaşma formaları olan lokal və aqlomerasiyalar sistemi yaranmış, Gəncə, Bakı, Sumqayıt aqlomerasiyaları genişlənmişdir.

Respublikanın paytaxtı Bakı, iri sənaye mərkəzi olan Sumqayıt, Gəncə, Mingəçevir, Əli-Bayramlı şəhərləri respublikanın iqtisadi inkişafında, ictimai əmək bölügüsündə mühüm yer tutmuşdur. Lakin onların dinamik inkişafı fonunda kiçik şəhərlər iqtisadi-sosial baxımdan zəif inkişaf etmişlər. Məsələn, Quba, Şamaxı, şəhərlərinin əhalisi əsrimizin sonunda, yəni sənətkarlığın və ticarətin inkişaf etdiyi dövrdə olduğu səviyyəyə çata bilməmişdir.

Şəhərlərin şəhəryaradıcı amilləri sənaye istehsalı, iqtisadiyyatın elmi-texniki tərəqqinin aparıcı sahəsi, tikinti, nəqliyyat və s. xeyli dərəcədə möhkəmlənmişdir. Nəqliyyatın inkişafı əsasında Yevlax, Qazıməmməd, Kürdəmir, Sabi-

rabad, Əli-Bayramlı, Culfa, Xaçmaz, Salyan, Ağdam və s. təsərrüfatdaxili, rayondaxili, rayonlararası iqtisadi əlaqə genişlənmişdir.

Müasir şəhərsalma prinsiplərinə uyğun olaraq inkişaf etmiş şəhərlərdə iqtisadi, sosial həyatın, infrastruktur əlaqələrin genişlənməsinə indi kəskin ehtiyac vardır. 1988-ci ildən sonra Azərbaycana qarşı baş verən erməni təcavüzü nəticəsində respublikanın Dağlıq Qarabağ vilayətinin, ondan başqa yeddi inzibati rayonun 12 şəhəri, 800-ə qədər kəndi zəbt edilib dağıdılmış, iqtisadi böhran məngənəsində çoxsaylı qaçqınlar ordusu yaranması nəticəsində əvvəlki təravətini itirmiş və indi onlar durğunluq dövrünü keçirirlər.

Abşeron yarımadasının cənub-qərq hissəsində, Xəzər dənizinin Bakı buxtası sahilində iri nəqliyyat qovşağı olmaqla, Zaqafqaziya respublikaları ilə Orta Asiya, Qazaxıstan, İran, Rusiya Federasiyası arasında tranzit yolu üstündə beynəlxalq dəniz portudur. Xəzər dənizindən keçməklə Bakıdan dörd dövlətlə – Rusiya Federasiyası, Qazaxıstan, Türkmənistan və İranla nəqliyyat iqtisadi əlaqələr aparılır.

Bakı –Abşeron yarımadasının kurort, rekreasiya zonası, şəhər tipli qəsəbə, fəhlə qəsəbələri, sənaye müəssisələri, şəhəryanı aqlomerasiya sahələri ilə birlikdə Böyük Bakı aqlomerasiyasını yaradır. Yuxarıda göstərilən obyektlər bir-birilə əlaqəli surətdə inkişaf edib iqtisadi və əhaliyə xidmət sahələri sistemində görkəmli yer tutur. İndi Bakı şəhərinə 50 şəhər tipli qəsəbəni birləşdirən 11 inzibati rayon daxildir.

Böyük Bakı Abşeron yarımadasının əsas hissəsi kimi Bakı arxipelaqının və Qaradağ inzibati rayonu ərazisindəki Qobustan yaylağının bir hissəsini əhatə edir. Böyük Bakının Xəzərsahili ərazisi dəniz səviyyəsindən aşağıda yerləşir. Bakı neft, qaz mədənləri əhatəsində olub, iri sənaye, şəhəryanı və onların əlaqəli inkişaf etdirilməsində böyük əhəmiyyəti olan nəqliyyat vasitələrinə malikdir. Bakı şəhərinin neft, qaz mədənlərindən başqa Abşeronun sənaye ehtiyatına malik mi-

neral tikinti materialları (*mişar daşları, qum, çınqıl, sement xammalı, neft tərkibli müalicə palçığı, kurort, rekreasiya resursları və s. vardır*). Abşeronu tükənməz duz ehtiyatına malik «göllər ölkəsi» adlandırmaq olar. İndi Abşeron iqtisadi rayonunda olan 2,75 mln. əhalinin 2,0 mln-a yaxını Böyük Bakı aqlomerasiyasında cəmlənib.

Abşeron yarımadasında aparılmış qazıntı materialları göstərir ki, Bakının yerləşdiyi ərazi qədim yaşayış məskəni olub.

Tarixi məxəzlərə əsaslanıb demək olar ki, Bakının bina edilməsi bizim eranın üçüncü əsrinə aid edilsə də, onun vaxtı dəqiq məlum deyil. Şəhərin ərazisində tapılmış 5-ci, 7-ci əsrlərə məxsus Sasani dövlətinin xəzinələri burada iri yaşayış məntəqəsi olmasını sübut edir. V-VI əsrlərdə Baqavan və ya Baquvan adı ilə məlum olan Bakı hələ o vaxtı şərqin mühüm sənətkarlıq, ticarət məskənlərindən biri olmuşdur. X əsr Ərəb məxəzlərində Bakıya «Baku», XV əsrlər Rus məxəzlərində «Baqa», fars ədəbiyyatında Səfəvilər dövrü «Badıkubə» adlanan Bakı müasir dövrə qədər uzun tarixi yol keçmişdir. İqtisadi-coğrafi mövqedən - Xəzər dənizinin buxtası sahilində yerləşən Bakı hələ orta əsrlərdə Yaxın və Orta Şərqin ən iri şəhərlərindən biri idi.

Y.N.Persikin yazdığına görə orta, əsrlər tarixində, ümumiyyətlə, şəhər məskunlaşma sistemi dörd dövrə ayrılır;

I. V-IX əsrlərdə bir sıra Asiya ölkələrində III-IX əsrlərdə formalaşmış orta əsrin əvvəllərində feodal münasibətlərinin inkişaf dövrü;

II. XI əsrin sonu və XV əsrlərdə kapitalizmin inkişafı dövrü. Bir sıra ölkələrdə bu proses XVI əsrə qədər davam etmişdir;

III. Orta əsrin sonunda–XVIII və XIX əsrin əvvəllərində inkişaf tənəzzülünün və kapitalist istehsal münasibətlərinin yaranması dövrü;

IV. Orta əsrlərin sonunda feodalizmin tənəzzülü və kapitalist istehsal münasibətlərinin yaranması dövrü;

Yuxarıda göstərilən dövrlər mürəkkəb, ziddiyyətli olsa da, şəhər mühitinin formalaşmasında mühüm rol oynamışdır. Bu dövrlərdə Bakı müxtəlif təsirlərə məruz qalmışdır.

Özündən əvvəlki quldarlıq cəmiyyətindən fərqli olaraq mütərəqqi istehsal münasbətlərinə malik olan feodalizm quruluşunda bəsit əmək alətlərinə malik olan kəndli əldə etdiyi izafi məhsulun bir hissəsini özündə saxlamaqla əmək məhsuldarlığının, məhsul istehsalının artırılmasında maraqlı idi. Bununla əlaqədar dünyanın başqa regionlarında olduğu kimi, Azərbaycanda qədim şəhərlərdən olan Bakı, Şamaxı, Naxçıvan, Bərdə, Qəbələ əvvəlki dövrlərə nisbətən iqtisadiyyatın inkişafına başlayır ki, bu da manufakturanın əsasını qoyan kiçik əmtəə istehsalının tərəqqisinə səbəb olur.

Bunlarla yanaşı, orta əsrlərdə Bakı ərazisində və onun ətrafında neft və qaz mədənlərinin istismarına maddi maraq artır. X əsr Ərəb səyyahı Əl-Əlafinin məlumatına əsasən XIX əsrin əvvəlində Bakı neft mədənlərindən ildə 720 dirhəm[1] gəlir əldə edilmişdir. Feodal istehsal münasibətləri sənətkarlığın, bununla əlaqədar ticarətin inkişafı Bakının tərəqqisinə təkan vermişdir.

Bakının əlverişli coğrafi-mövqeyi – Şərqlə Qərb, Şimalla Cənub arasında yerləşməsi bir tərəfdən əhalinin artması, digər tərəfdən qonşu ölkələrlə əlaqələrin və şəhərdə ticarətin, sənətkarlığın inkişafına şərait yaratdı. Sənətkarlıq və kustar sənaye ilə yanaşı Bakıda, onun yerləşdiyi Abşeron yarımadasında bağçılıq, bostançılıq, üzümçülük, ipəkçilik, zəfəran, zeytun istehsalı inkişaf etdirilir. Bunlarla yanaşı, Abşeronda neft hasilatının artması şəhərin Rusiya, Orta Asiya, Qazaxıstan, Dağıstan, İranla iqtisadi əlaqələrin genişləndirilməsinə Bakının dünya əhəmiyyətli porta çevrilməsinə imkan yaratmışdır.

Beynəlxalq miqyasda Gilan, Şamaxı, Şəki, Ordubad və s. ilə bərabər Bakı ipəkçilik məhsullarının, sənətkarlıq mal-

---

[1] Dəyəri 27 qr.təmiz gümüşə bərabər qədim ərəb gümüş puludur. 615-ci ildə buraxılmış dirhəm başqa ölkələrlə ticarətdə işlədilib.

larının satışı və başqa regionlara ixrac etmək məntəqəsinə çevrilir. Bununla yanaşı, Abşeronun əlverişli coğrafi mövqedə yerləşməsi başqa ölkələrlə nəqliyyat və iqtisadi əlaqəni genişləndirməklə ticarət əhəmiyyətini də artırırdı.

Beynəlxalq miqyasda nəqliyyat, iqtisadi-coğrafi baxımdan əlverişli mövqedə duran Bakı ərazisinin, onun yerləşdiyi Abşeron yarımadasının, eləcə də Azərbaycanın zəngin təbii ehtiyatları, geopolitik vəziyyəti xarici işğalçıların iştahasını artırırdı. XVIII əsrin 20-ci illərində Birinci Pyotrun Xəzər dənizinə göndərdiyi ekspedisiyası Bakı şəhərini, onun neft mədənlərini zəbt etdi. Bu dövrdən Azərbaycanın ərazisi Rusiyanın istismar, iqtisadi təsir regionuna çevrilir və onunla nəticələnir ki, 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən Azərbaycan Rusiyanın tərkibinə daxil edilir. Bu da Rusiyanın Azərbaycana olan iqtisadi marağını, xüsusilə neftə olan iştahasını artırır. Bakıda neft çıxarılması sənaye istehsalını, nəqliyyatın, şəhər təsərrüfatının inkişafını, miqrasiya hesabına urbanizasiyanı genişləndirir.

1849-cu ildə Bakıda ilk dəfə su təmizləmə qurğusu işə salınır və əhalinin şirin su ilə təmin edilməsi yaxşılaşır. Həmin dövrdə şəhərdə binaların miqdarı 1600-ə, əhalinin sayı 8120 nəfərə çatır. Əvvəldə deyildiyi kimi, 1859-cu il Şamaxıda baş verən dəhşətli zəlzələdən sonra quberniya mərkəzi buradan Bakıya köçürülür və şəhər sürətlə inkişaf etməyə başlayır.

Neft çıxarılmasının, emalının, neft maşınqayırma sənayesinin, ticarətin inkişafı, fəhlə sinfinin, intellektual səviyyəli sənətkarların formalaşması, beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsi, bunlarla yanaşı sahibkarların, xüsusilə neft maqnatlarının meydana çıxması, Bakıda çoxmərtəbəli tikinti obyektlərinin, ictimai, inzibati, fərdi mənzillərin tikilməsi ilə yanaşı gedir.

Bakı şəhərini bəzəyən Elmlər Akademiyasının, Əlyazmaları İnstitutunun, Dövlət İqtisad Universitetinin, Bakı Şəhər İcra Hakimiyyətinin binaları, «Bakı Soveti» metrosu ilə

üzbəüz ucalan 7 mərtəbəli bina, Hacı Zeynalabdin Tağıyevin yaşayış evi olmuş indiki Azərbaycan Tarixi Muzeyinin binası XIX əsrin sonunda XX əsrin əvvəllərində yaşamış milyonçuların yaratdıqları gözəl və dəyərli tarixi abidələrdir.

XIX əsrin ikinci yarısı və XX əsrin əvvəli Bakının və ümumiyyətlə, Azərbaycanın iqtisadi, nəqliyyat, kənd təsərrüfatı sahəsində dirçəliş dövrü olmuşdur. 1883-cü ildə Bakı-Tiflis dəmir yolunun istifadəyə verilməsi və bu yolu Petrovsk (*indiki Mahaçqala*)-Qroznı-Rostov dəmir yolu ilə birləşdirilməsi iqtisadiyyatın, Qafqazın, Ukraynanın, Rusiyanın rayonları ilə nəqliyyat-iqtisadi əlaqələrin genişləndirilməsinə təkan verdi. İnkişaf etməkdə olan neft, maşınqayırma, metal emalı, təmir müəssisələri, tikinti və ticarət obyektləri, nəqliyyat müəssisələri Bakını Qafqazda ən böyük nəqliyyat qovşağı mərkəzinə çevirdi.

Göstərilən dövrdə Xəzər dənizində gəmiçiliyin inkişafı ilə məşğul olan «Qafqaz-Merkuri» Cəmiyyəti yaradılır. Xəzər dənizi nəqliyyatı ilə dəmir yolu nəqliyyatının qarşılıqlı fəaliyyəti ilə uzlaşma Bakı portunun texniki bazasını möhkəmləndirdi, yük dövriyyəsini artırdı. Bunların sayəsində Bakı portu Rusiyanın mühüm yük və sərnişin dövriyyəsi məntəqəsinə çevrilir. XX əsrin əvvəlində Bakıdan Batumiyə (Qara dəniz sahilinə) neft kəməri çəkilir və burada neft emalı zavodu istifadəyə verilir.

1898-ci ildə umumrusiya dəniz donanması yük dövriyyəsinin 40 faizini Bakı portu yerinə yetirirdi. Bununla yanışı, dəmir yolu və dəniz nəqliyyatının yük dövriyyəsində böyük rol oynayan avtomobil nəqliyyatı da inkişaf etməyə başlayır. O dövr üçün müasir nəqliyyatın inkişafı, nəqliyyat-iqtisadi əlaqələrin genişləndirilməsi, şəhər təsərrüfatının texniki təchizatının artırılması, İrandan, Rusiyadan gələnlər və yerli miqrasiya hesabına şəhər əhalisinin artımı ilə yanaşı gedirdi. Bu prosesdə xarici kapitalın respublikaya daxil olması da böyük rol oynayır, bir çox mədənlər onların şirkətlərinin ixtiyarına keçir.

Neft mədənlərinə verilən külli miqdarda kapital qoyuluşu hesabına neftin istehsalı artır. Bununla yanaşı şəhərdə abadlıq işləri geniş vüsət alır, yeni-yeni çoxmərtəbəli, yaraşıqlı binalar tikilir ki, bununla da urbanizasiyasının dünya şəhərləri səviyyəsinə uyğun artırır. Neft sənayesinin inkişafı, onun texniki təchizatının artması zərurəti ilə əlaqədar Bakıda və onun ətrafında gəmi təmiri, maşınqayırma, metal emalı, tikinti materialları, sement zavodları, istilik-buxar qazanxanaları, istilik-elektrik stansiyaları inkişaf etdirilir.

Bunlarla yanaşı, qadın əməyi geniş tətbiq olunan müəssisələr – tikiş, trikotaj, ayaqqabı, qənnadi, tütün fabrikləri işə başlayır. Burada göstərilən müxtəlif istehsal sahələrinin inkişafı şəhərdə olan çoxsaylı işçi qüvvəsini işlə təmin etməklə urbanizasiyanı genişləndirir. Sənayenin, nəqliyyatın, xidmət sahələrinin inkişafı şəhərdə yaşayış, ictimai, inzibati, idarə binaları fondunun artırılmasına səbəb olur. Belə şəraitdə şəhərin, xüsusilə onun mərkəzi hissəsinin yenidən qurulmasına, istehsalın elektrikləşdirilməsinə, əməyin mexanikləşdirilməsinə, enerji təchizatının artırılmasına olan tələbat və bununla əlaqədar dövrün tələbi səviyyəsində kadr hazırlığı artmışdır.

XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlamış neft sənayesinin və bunlarla əlaqədar başqa sahələrin, şəhər təsərrüfatının inkişafı, yanacaq-enerji istehsalının artırılmasını qarşıda qoyur. Bu dövrdə bir-birinin ardınca Bakıda yerli xammala (*mazutla, qazla*) işləyən istilik-elektrik stansiyaları – Krasin adına, «Qırmızı ulduz», «Şimal DRES» stansiyaları istifadəyə verilir. Bunların sayəsində elektrik enerjisinin artırılması Bakıda və onun təsir zonası olan Abşeronda enerji, əmək tutumlu sənaye sahələrinin-elektrotexnikanın, cihazqayırmanın, radiotexnikanın, metal emalının, metallurgiyanın, neft-kimya sənayesinin inkişaf etdirilməsinə texniki – iqtisadi imkanlardan istifadəni artırır.

Bakıda fəaliyyətdə olan neft emalının, maşınqayırma zavodlarının, istilik-elektrik stansiyalarının, texniki təchiza-

tının təkmilləşdirilməsi ilə yanaşı onların istehsal gücü də artırılır. Bunların sayəsində Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrdə iştirakı geniş miqyas alır, bir çox dünya ölkələri ilə əməkdaşlıq genişlənir.

Böyük nəqliyyat qovşağı olan Bakıda dəmir yolu, avtomobil yolları, dəniz yolu, hava yolu, boru-kəmər xətləri bir-biri ilə sıx əlaqəsi və uzlaşması şəraitində fəaliyyət göstərir. Sovet hakimiyyəti illərində yük və sərnişin daşınmasında Bakı Zaqafqaziyada birinci yerdə olmuşdur. Bakıdan ayrılan Tiflis-Batumi, Dərbənd-Mahaçqala-Rostov, Cülfa-Təbriz-Tehran, Naxçıvan-İrəvan dəmir yolları, Bakı-Türkmənbaşı dəniz-bərə yolu həmin rayonlarla və onlardan keçməklə başqa regionlarla iqtisadi, nəqliyyat əlaqələrinin aparılmasında görkəmli yer tutur.

1926-cı ildə Bakı ilə Sabunçu arasında keçmiş ittfaqda ilk dəfə olaraq elektrikləşdirilmiş dəmir yolu fəaliyyətə başlayır. Xəzər dənizində ən iri port şəhəri kimi Bakı, Volqa-Don, Volqa-Baltik gəmiçilik kanalları vasitəsilə Rusiya Federasiyası, Xəzər dənizi ilə Türkmənistan, Qazaxıstan, Orta Asiya Respublikaları, İran ilə nəqliyyat, iqtisadi ticarət əlaqələri saxlayır.

1990-cı ildən bu vaxta qədər tənəzzülə uğrayan Xəzər gəmiçiliyi Sovet hakimiyyəti illərində ölkənin iqtisadi inkişafında böyük rol oynamışdır ki, buna da Abşeronda neft və qazın istehsalı, tankerlərlə, dəmir yolu və boru vasitələri ilə neftin Xəzəryanı ölkələrlə daşınması olmuşdur. 1994-cü ildən bu vaxta qədər Xəzər neft mədənlərinin istismarı üzrə xarici dövlətlərlə 15 kontrakt müqavilələr imzalanmışdır. Bakı neftinin xaricə nəql edilməsi məqsədilə hazırda Bakı-Novorossiysk, Bakı-Supsa (*Gürcüstan*) neft kəmərlərindən başqa Gürcüstandan keçməklə Bakıdan Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan portuna ildə 40 mln ton ötürmə gücü olan neft kəmərinin çəkilməsi üçün kontrakt imzalanmışdır.

## 1939-1999-cu illərdə Azərbaycanda şəhər əhalisinin artımı.[1]

**Cədvəl 8**

| № | Şəhərin adı | 1999 | | | 1989 | | | 1959 | | | 1939 | | | 1939-ci ilə nisbətən 1999-cu ildə əhalinin artımı | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | |
| | | | kişi | qadın | | kişi | qadın | | kişi | qadın | | kişi | qadın | | kişi | qadın |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| | **1. Paytaxt şəhərlər** | | | | | | | | | | | | | | | |
| 1. | Bakı | 1788,9 | 869,7 | 919,2 | 1150,0 | 558,6 | 591,4 | 1003,3 | 473,7 | 529,6 | 809,4 | 398 | 411,4 | 2,2 | 2,2 | 2,2 |
| | **2. Böyük şəhərlər** | | | | | | | | | | | | | | | |
| 1. | Gəncə | 299,3 | 143,5 | 155,8 | 278,0 | 134,9 | 143,1 | 164,5 | 77,8 | 86,7 | 99,0 | 50,1 | 48,9 | 3,0 | 2,9 | 3,2 |
| 2. | Sumqayıt | 283,2 | 138,7 | 144,5 | 231,5 | 115,7 | 115,4 | 70,3 | 35,4 | 34,9 | - | - | - | - | - | - |
| | **Yekun** | **582,5** | **582,2** | **300,3** | **509,1** | **250,6** | **258,5** | **234,8** | **113,2** | **121,6** | **99,0** | **50,1** | **48,9** | **5,8** | **5,6** | **6,1** |
| | **3. Orta şəhərlər** | | | | | | | | | | | | | | | |
| 1. | Agdam | 37,2 | 17,9 | 19,3 | 28,0 | 14,3 . | 13,7 | 16,0 | 7,8 | 8,2 | 10,9 | 5,1 | 5,8 | 3,4 | 3,5 | 3,3 |
| 2. | Ağdaş | 22,5 | 10,8 | 11,7 | 23,3 | 13,3 | 10,0 | 9.8 | 4.7 | 5,1 | 8,9 | 4,7 | 4.2 | 2,5 | 2,2 | 2.8 |
| 3. | Ağcabədi | 33.7 | 16,6 | 17,1 | 25.2 | 12,5 | 12,7 | - | - | - | - | - | - | - | - | - |
| 4. | Bərdə | 36,0 | 17,5 | 18,5. | 31,0 | 15,5 | 15,5 | 13,0 | 6,3 | 6,7 | 4,6 | 2,5 | 2,1 | 7,8 | 7,0 | 8,8 |
| 5. | Ğəlilabad | 34.6 | 17,3 | 25,8 | 12,7 | 13,1 | 6,1 | 2,9 | 3,2 | - | - | - | - | - | - | - |
| 6. | Dəvəçi | 20,3 | 9,8 | 10,5 | 18,7 | 9,2 | 9,,,5 | 5,9 | 2,8 | 3,1 | - | - | - | - | - | - |
| 7. | Fizuli | 25,6 | 12,3 | 13,3 | 22,8 | 11,4 | 11,4 | 7,6 | 3,6 | 4,0 | 6,0 | 3,3 | 2,7 | 4,5 | 3,7 | 4,9 |
| 8. | Ğöyçay | 34,8 | 16,7 | 18,1 | 31,0 | 15,0 | 16 | 16,4 | 8,2 | 8,2 | 10,7 | 5,8 | 4,9 | 3,2 | 2,9 | 3,7 |
| 9. | Qazıməmməd | 22,2 | 10,8 | 11,4 | 21,5 | 10,8 | 10,7 | 12,2 | 5,9 | 6,3 | 5,5 | 2,4 | 3,1 | 4,0 | 3,2 | 3,7 |
| 10. | Xaçmaz | 35,11 | 16,7 | 18,4 | 299,0 | 16,0 | 13,0 | 17,1 | 7,9 | 9,2 | 7,66 | 4,1 | 3,5 | 4,6 | 4,1 | 5,3 |
| 11. | İmişli | 30,7 | 15,2 | 15,5 | 25,7 | 13,0 | 12,7 | 9,4 | 4,5 | 4,9 | - | - | - | - | - | - |
| 12. | Quba | 22,0 | 10,6 | 11,4 | 20,8 | 10,2 | 10,6 | 15,9 | 7,9 | 80,0 | 12,.2 | 5 | 5,7 | 1,8 | 1,6 | 2,0 |
| 13. | Lənkəran | 48,1 | 23,3 | 24,.8 | 27,9 | 14,6 | 25,1 | 11,6 | 13,5 | 16,8 | 8,5 | 8,3 | 2,9 | 2,7 | 3,0 | |

---

[1] Şəhər tipli qəsəbələrsiz.

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 14. | Sabirabad | 27,3 | 13,33 | 14,0 | 18,6 | 9,2 | 9,4 | 8,8 | 4,1 | 4,7 | 6,2 | 3,3 | 2,9 | 4,4 | 4,0 | 4,8 |
| 15. | Səlyan | 35,4 | 17,0 | 18,4 | 30,4 | 15,1 | 15,3 | 17,1 | 8,0 | 9,1 | 13,7 | 7,1 | 6,6 | 2,6 | 2,4 | 2,8 |
| 16. | Siyəzən | 21,1 | 10,5 | 10,6 | 18,7 | 9,3 | 9,4 | 8,9 | 4,4 | 4,5 | - | - | - | - | - | - |
| 17. | Şamaxı | 27,8 | 13,6 | 14,2 | 24,7 | 12,4 | 12,3 | 13,0 | 6,5 | 6,5 | 8,7 | 4,7 | 4,0 | 3,2 | 2,9 | 3,6 |
| 18. | Şəki | 34,6 | 17,2 | 17,4 | 28,0 | 14 | 14,0 | 9,1 | 4,1 | 5,0 | 3,6 | 1,8 | 1,8 | 9,6 | 9,5 | 9,7 |
| 19. | Şəmkir | 34,6 | 17,2 | 17,4 | 28,0 | 14 | 14,0 | 9,1 | 4,1 | 5,0 | 3,6 | 1,8 | 1,8 | 9,6 | 9,5 | 9,7 |
| 20. | Yevlax | 52,0 | 25,3 | 26,7 | 45,7 | 22,6 | 23,1 | 23,3 | 11,6 | 11,7 | 11,0 | 6,4 | 4,6 | 4,7 | 4,0 | 5,8 |
| 21. | Əli Bayramlı | 69,5 | 34,2 | 35,3 | 58,2 | 29,5 | 28,7 | 13,4 | 7,2 | 6,2 | 3,1 | 1,8 | 1,3 | 20,1 | 18,4 | 26,3 |
| 22. | Xankəndi | 54,5 | 26,3 | 28,2 | 56,7 | 27,8 | 28,69 | 20,3 | 9,4 | 10,9 | - | - | - | - | - | - |
| 23. | Minqəçevir | 94,0 | 45,6 | 48,4 | 85,4 | 42,9 | 42,5 | 43,6 | 16,4 | 27,2 | 34,3 | 16,3 | 18,0 | 2,7 | 2,8 | 2,7 |
| 24. | Naxçıvan | 62,2 | 30,6 | 32,6 | 29,5 | 14,4 | 15,1 | 25,3 | 12,1 | 13,2 | 15,7 | 8,5 | 7,2 | 4,0 | 3,6 | 4,5 |
| | **Yekun:** | **943,6** | **458,5** | **485,1** | **782,6** | **391,4** | **391,2** | **337,3** | **157,9** | **179,0** | **212,2** | **109,8** | **102,4** | **4,5** | **4,1** | **4,7** |
| | **4. Kiçik şəhərlər** | | | | | | | | | | | | | | | |
| 1. | Ağstafa | 11,9 | 5,5 | 6,4 | - | - | - | - | - | - | 4,1 | 2,1 | 2,0 | - | - | - |
| 2. | Ağsu | 16,2 | 7,9 | 8,3 | 14,2 | 6,9 | 7,3 | 7,1 | 3,4 | 3,7 | - | - | - | 2,9 | 2,5 | 6,4 |
| 3. | Astara | 14,4 | 7,1 | 7,3 | 13,0 | 6,2 | 6,8 | 5,3 | 2,4 | 2,9 | - | - | - | - | - | - |
| 4. | Balakən | 8,9 | 4,2 | 4,7 | 8,1 | 4,0 | 4,1 | 1,8 | 0,8 | 1,0 | - | - | - | - | - | - |
| 5. | Biləsuvar | 17,3 | 8,3 | 9,0 | 18,6 | 9,1 | 9,5 | 5,9 | 2,8 | 3,1 | - | - | - | - | - | - |
| 6. | Cəbrayıl | 7,5 | 3,6 | 3,9 | 6,1 | 3,1 | 3,0 | 2,9 | 1,4 | 1,5 | - | - | - | - | - | - |
| 7. | Daşkəsəən | 9,4 | 4,5 | 4,9 | 10,4 | 5,1 | 5,3 | 9,6 | 5,1 | 4,5 | - | - | - | - | - | - |
| 8. | Gədəbəy | 8,4 | 4,0 | 4,4 | 5,0 | 2,4 | 2,6 | 3,5 | 1,8 | 1,7 | - | - | - | - | - | - |
| 9. | Goranboy | 7,1 | 3,5 | 3,6 | 6,1 | 3,1 | 3,0 | 9,1 | 4,4 | 4,7 | - | - | - | - | - | - |
| 10. | Xanlar | 17,5 | 8,7 | 8,8 | 15,3 | 7,7 | 7,6 | 11,4 | 5,4 | 6,0 | 5,6 | 2,7 | 2,9 | - | - | - |
| 11. | İsmayıllı | 13,1 | 6,4 | 6,7 | 11,4 | 5,6 | 5,8 | 3,9 | 1,9 | 2,0 | 2,7 | 1,2 | 1,5 | 3,1 | 3,2 | 3,0 |
| 12. | Kəlbəcər | 8,0 | 4,0 | 4,0 | 7,2 | 3,6 | 3,6 | 1,4 | 1,4 | - | - | - | - | - | - | - |
| 13. | Kürdəmir | 17,7 | 8,6 | 9,1 | 15,4 | 7,4 | 8,0 | 10,4 | 5,0 | 5,4 | 5,9 | 3,2 | 2,7 | - | - | - |
| 14. | Qax | 11,7 | 5,6 | 6,1 | 11,4 | 6,0 | 5,4 | 3,4 | 1,6 | 1,8 | - | - | - | - | - | - |
| 15. | Qazax | 18,8 | 9,1 | 9,7 | 19,0 | 9,4 | 9,6 | 9,2 | 4,5 | 4,7 | 6,7 | 3,9 | 2,8 | - | - | - |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 16. | Qəbələ | 11,3 | 5,6 | 5,7 | 13,2 | 6,6 | 6,6 | 4,1 | 2,0 | 2,1 | - | - | - | 2,8 | 2,3 | 3,5 |
| 17. | Qubadlı | 6,5 | 3,1 | 3,4 | 5,5 | 2,8 | 2,7 | 1,63 | 0,7 | 0,6 | - | - | - | - | - | - |
| 18. | Qusar | 15,5 | 7,4 | 8,1 | 14,2 | 6,9 | 7,3 | 7,4 | 3,4 | 4,0 | 4,4 | 2,4 | 2,0 | 3,5 | 3,1 | 4,6 |
| 19. | Laçın | 10,8 | 5,2 | 5,6 | 7,6 | 3,8 | 3,8 | 2,3 | 1,1 | 1,2 | 1,1 | 0,6 | 0,5 | 9,8 | 8,7 | 11,2 |
| 20. | Masallı | 9,0 | 4,4 | 6,0 | 14,7 | 7,1 | 7,6 | 6,6 | 3,2 | 3,4 | - | - | - | - | - | - |
| 21. | Neftçala | 17,9 | 8,9 | 9,0 | 14,7 | 7,5 | 7,2 | 5,0 | 2,3 | 2,7 | 5,9 | 3,1 | 2,8 | 3,0 | 2,9 | 3,2 |
| 22. | Oğuz | 6,4 | 3,1 | 3,3 | 5,1 | 2,5 | 2,6 | - | - | - | 3,1 | 1,6 | 1,5 | 2,1 | 1,9 | 2,2 |
| 23. | Saatlı | 16,4 | 8,1 | 8,3 | 14,2 | 7,1 | 7,01 | 5,9 | 2,8 | 3,1 | - | - | - | - | - | - |
| 24. | Şuşa | 6,8 | 3,2 | 3,6 | 15,0 | 7,0 | 8,0 | 6,1 | 3,1 | 3,0 | - | - | - | - | - | - |
| 25. | Tərtər | 17,7 | 8,7 | 9,0 | 12,6 | 6,1 | 6,5 | 6,0 | 2,9 | 3,1 | - | - | - | - | - | - |
| 26. | Tovuz | 12,8 | 6,0 | 6,8 | 13,4 | 6,6 | 6,8 | 7,4 | 3,6 | 3,8 | 4,1 | 2,1 | 2,0 | 3,1 | 2,9 | 3,4 |
| 27. | Ucar | 15,5 | 7,3 | 8,2 | 14,3 | 7,0 | 7,3 | 7,7 | 3,6 | 4,1 | 3,1 | 1,9 | 1,4 | 5,0 | 3,8 | 5,8 |
| 28. | Zakatala | 17,9 | 8,3 | 9,6 | 18,2 | 8,9 | 9,3 | 1,2 | 5,1 | 5,1 | 8,7 | 5,0 | 3,7 | 2,1 | 1,7 | 2,6 |
| 29. | Zənqilan | 13,2 | 6,5 | 6,7 | 7,0 | 3,5 | 3,5 | 2,9 | 1,4 | 1,5 | - | - | - | - | - | - |
| 30. | Zərdab | 9,9 | 4,8 | 5,1 | 8,5 | 4,1 | 4,4 | - | - | - | - | - | - | - | - | - |
| 31. | Naftalan | 7,5 | 3,6 | 7,5 | 3,8 | 3,7 | - | - | - | - | - | - | - | - | - | - |
| 32. | Xocalı | 6,6 | 3,3 | 3,3 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 33. | Culfa | 10,1 | 5,1 | 5,0 | 9,2 | 4,6 | 4,6 | 4,0 | 1,9 | 2,1 | 2,5 | 1,6 | 0,9 | 4,0 | 3,2 | 5,6 |
| 34. | Ordubad | 9,8 | 4,8 | 5,0 | 9,4 | 4,8 | 4,6 | 66,6 | 3,2 | 3,4 | 4,3 | 2,2 | 2,1 | 2,3 | 2,2 | 2,4 |
| 35. | Sədərək | 10,8 | 5,4 | 5,4 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 36. | Şərur | 6,5 | 3,2 | 3,3 | 6,0 | 3,0 | 1,4 | 0,7 | 0,7 | - | - | - | - | - | - | - |
| 37. | Dəliməmmədli | 4,6 | 2,2 | 2,4 | 4,5 | 2,2 | 2,3 | - | - | - | - | - | - | - | - | - |
| 38. | Xocavənd | 9,0 | 4,4 | 4,6 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 39. | Beyləqan | 13,9 | 6,8 | 7,1 | 12,3 | 6,1 | 6,2 | - | - | - | - | - | - | - | - | - |
| 40. | Goytərə | 12,7 | 6,2 | 6,5 | 10,1 | 4,7 | 5,4 | - | - | - | - | - | - | - | - | - |
| 41. | Liman | 9,5 | 4,6 | 4,9 | 8,7 | 4,1 | 4,6 | - | - | - | - | - | - | - | - | - |
| 42. | Xudat | 12,9 | 6,3 | 6,6 | 10,9 | 5,3 | 5,6 | 7,0 | 3,3 | 3,7 | - | - | - | - | - | - |
| | **Yekun** | **489,5** | **237,3** | **252,2** | **416,0** | **205,3** | **210,7** | **176,1** | **862,1** | **89,9** | **62,4** | **6** | **28,8** | **17,9** | **7,1** | **8,8** |

Bunlarla əlaqədar Bakı şəhəri çoxsaylı şirkətlərin, bankların, tikinti kompaniyalarının irimiqyaslı qəbul məntəqəsinə çevrilmişdir. Son 10 ildə Bakının dünya standartına uyğun yüksək mərtəbəli (*10, 12, 16, 18, 25*) yaşayış, inzibati, ictimai binaların inşa edilməsi şəhər aqlomerasiyasını şaquli istiqamətdə inkişaf etdirir və onun qarşısında bir sıra yeni problemlər qoyur.

Şəhər təsərrüfatının, şəhər salınmasının inkişafına iqtisadi-coğrafi baxımdan yanaşmanın zəruriliyi indiki dövrdə aktual məsələ kimi diqqət mərkəzində olmuşdur. Əsas məsələ urbanizasiyanın, istehsalın, nəqliyyatın, yaşayış səviyyəsinin təmərküzləşməsi, sosial mühitin, təbii şəraitin texnogenləşməsi şəraitinə uyğun, bazar münasibətlərinə rəqabət tutumlu istehsal, xidmət sahələrinin inkişaf etdirilməsidir. Bu planda şəhər tikintisi, şəhər təsərrüfatının genişləndirilməsi, xüsusilə onun mərkəzinin təbii şəraiti, iqtisadi-coğrafi mühitlə qarşılıqlı əlaqəsinin təmin edilməsidir.

Memarlıq üslubunda qurğuların, sənaye müəssisələrinin, sosial obyektlərin tikilməsində təbii şəraitin, relyefin, bitki və torpaq örtüyünün, küləklərin istiqamətinin, hidrogeoloji şəraitin nəzərə alınmasının ən vacib tədbir kimi qiymətləndirilməsi dövrün tələblərindən irəli gəlir. Göstərilən amillərin lazımi səviyyədə nəzərə alınmaması bir sıra mənfi aqibətlərin, qarşısı alına bilməyən hadisələrin baş verməsinə səbəb olur. 2000-ci ilin mart ayında Bakının Bayıl yaşayış sahəsində geniş miqyaslı sürüşmələr nəticəsində yüzdən artıq binaların, Paris Kommunası adına Gəmi Təmiri Zavodunun bir neçə hissəsinin uçulması, şose yolunun dağılması bunlara canlı misaldır.

Şəhər tikintisində, infrastrukturun inkişafında təbii şəraitin, iqtisadi-coğrafi mövqeyin nəzərə alınması, maddi nemətlərdən, təbii sərvətlərdən, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, şəhər əhalisinin sağlamlığının mühafizəsi, ekoloji mühitdə nizami inkişafını təmin edilməsində ən zəruri şərtdir. Belə olduqda sənaye istehsalının, nəqliyyatın,

xidmət sahələrinin inkişafı ərazi daxilində ekoloji mühitə zərər yetişdirmədən əlverişli infrastruktur şəraitində fəaliyyət göstərə bilər.

## 2.2. Şəhərlərin sosial inkişaf imkanları və qanunauyğunluqları

Respublikanın özünəməxsus məskunlaşma və istehsalın təmərkizləşməsi sistemi ictimai-iqtisadi, geosiyasi, təbii şərait, təbii sərvətlər potensialından asılı olaraq müxtəlif tarixi mərhələlərdə formalaşmışdır.

Son yüz ildə Azərbaycanın (*indiki sərhəd daxilində*) əhalisi 1 mln. 800 min nəfərdən 8 mln nəfərə çataraq, mütləq rəqəmlə 6200 min, yəni 4,44 dəfə, həmin müddətdə şəhər əhalisi 305 mindən 4150 minə çataraq 13,6 dəfə artmışdır. Deməli, ümumi əhali artımına nisbətən şəhər əhalisinin artım sürəti 2,9 dəfə çox olmuşdur. Şəhərlərin və şəhər əhalisinin sürətlə artması əsas etibarilə istehsal proseslərinin bununla əlaqədar olaraq yeni-yeni kəndlərin şəhər statusu alması və şəhər tipli qəsəbələrin şəhərə çevrilməsi olmuşdur. Bu proses xüsusilə 1940-cı illərdən sonra daha sürətlə inkişaf etmişdir. Son 60 ildə respublikada şəhərlərin miqdarı 2,6 dəfə (*25-dən 63-dək*), şəhər tipli qəsəbələr 2,3 dəfə artmışdır.

114 şəhər tipli və fəhlə qəsəbələrinin 50-dən çoxu Abşeron iqtisadi rayonunun ərazisində yerləşir. Bunlar Bakı-Sumqayıt şəhər mühitinin, əsasən neft-qaz çıxarma idarələrinin təsiri altında formalaşmışdır. Abşeronun bütün şəhər tipli və fəhlə qəsəbələri Bakının və Sumqayıtın sənaye xidmət sahələri ilə az-çox dərəcədə bağlıdır və onların əmək qabiliyyətli əhalisinin əksəriyyəti «kəfkir» miqrasiyası hərəkəti ilə yuxarıda göstərilən məntəqələrlə əlaqəlidir.

Beləliklə, istər Abşeronda, istərsə də respublikanın digər iqtisadi rayonlarında sosial-iqtisadi amillər, xüsusilə sənaye təmayülündə istehsalın artması şəhər urbanizasiyasının və istehsal təmərküzləşməsinin əsasını təşkil edir.

Müharibədən sonrakı illərdə şəhər mühitinə nisbətən kənd yerlərində sosial-iqtisadi vəziyyətin aşağı səviyyədə olması və əmək qabiliyyətli əhalinin artımına nisbətən iş yerləri açılmasının məhdudluğu iri və orta şəhərlərdə əhali miqrasiyasını artırmışdır.

Bir tərəfədən təbii artım, digər tərfədən kənd rayonları hesabına miqrasiya hərəkəti nəinki Bakı, Sumqayıt şəhərlərində, eləcə də orta şəhərlərdə (*əhalisi 20000-dən 100000-dək olan*), şəhər əhalisinin miqdarını artırmışdır.

Statistik məlumatlara əsasən yüz ildə respublikanın paytaxtı Bakı şəhərinin əhalisi 17,8 dəfə artaraq 112 mindən 2000 min nəfərə çatmışdır. Bakı şəhər əhalisinin belə sürətlə artması əsas etibarilə başqa rayonlardan gələn miqrasiya hesabına olmuşdur. Əsas «rəqqas miqrasiyası»nda iştirak edən əhalini nəzərə alsaq, Bakı şəhərində ən azı 2,5 milyon əhalinin cəmləşməsi məlum olar.

Şəhər əhalisi tərkibində «rəqqas» miqrasiyasında iştirak edənlər ona görə nəzərə alınır ki, müvəqqəti olsa da, onlar şəhər sakinlərinə xas olan funksiyaları yerinə yetirirlər və urbanizasiya sıxlığını artırırlar. Tarixi mərhələlərdə Azərbaycan şəhərləri üçün aşağıdakı qanunauyğunluqlar müşahidə olunur. Şəhər nə qədər böyükdürsə və şəhərin iqtisadi təmayülündə emaledici müəssisələrin miqdarı nə qədər çoxdursa, sənayedə işləyənlərin sayı bir o qədər yüksəkdir.

İqtisadi-sosial, əhaliyə xidmət sahələri inkişafının normal fəaliyyəti dövründə, məsələn, 1980-cı illərdə Azərbaycanda əhalisinin sayı 20 min nəfər olan şəhərlərdə sənayedə çalışanların xüsusi çəkisi 10-18 faiz arasında olmuşdur ki, bu da kiçik və orta şəhərlərin iqtisadi, texniki təchizat bazasının zəif olmasını göstərir. Belə şəraitdə şəhərlər ətrafındakı ərazilərin iqtisadi-sosial təsirinə olan qüvvəsini xeyli zəiflədir.

Respublika şəhərlərinin inkişafı bir sıra təbii-iqtisadi, demoqrafik, iqtisadi-coğrafi amillərin təsiri altında inkişaf edir. Onların içərisində təbii sərvətlərin, xüsusilə faydalı qa-

zıntıların, kənd təsərrüfatı xammallarının emal edilməsi, onların əsasında müvafiq sənaye sahələrinin inkişafı və yerləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Respublikanın iqtisadiyyatında yanacaq-energetika, metallurgiya, kimya-metallurgiya, tikinti materialları və s. çıxarılması, onların emalı Abşeron, Salyan, Neftçala, Quba, Xaçmaz, Naxçıvan MR, Gəncə, Qazax, Kəlbəcər-Laçın iqtisadi rayonlarında sənaye istehsalının inkişafına təkan vermişdir.

Göstərilən xammal əsasında həmin rayonlarda fəaliyyətdə olan neft-qaz, metallurgiya, kimya, tikinti materialları sənayesi respublikanın iqtisadi-sosial, mədəni inkişafında həlledici əhəmiyyətə malik olmuşdur.

Təbii-iqtisadi ehtiyatlardan istifadə əsasında Bakı-Sumqayıt şəhər aqlomerasiyası daha yüksək tərəqqiyə malik olmuşdur. Neft-qaz sənayesi, bunların bazasında fəaliyyətdə olan və onlara xidmət edən neft-qaz emalı, energetika, kimya, neft maşınqayırma müəssisələri, gəmi təmiri zavodları əsasında Abşeron aqlomerasiyası daxilindəki şəhər və şəhər tipli yaşayış məntəqələri arasında əmək bölgüsü, müəssisələr və rayonlararası iqtisadi əlaqələr və kooperasiya sistemi yaranmışdır.

Əli-Bayramlı, Salyan, Neftçala sənaye rayonlarında da neft, qaz, lay sularının çıxarılması və emalı əsasında müvafiq sənaye sahəsi, o cümlədən yod-brom zavodu fəaliyyətdədir.

Gəncə-Qazax iqtisadi rayonunda isə dövrün tələblərinə uyğun mütərəqqi sənaye müəssisələri şəhərlərin yaranması və formalaşmasının əsas mənbəyidir. Daşkəsən rayonunda fəaliyyətdə olan Daşkəsən dəmir-filizi, Zəylik alunit mədənləri, Qazax bentonit-gili bazasında işləyən Daşkəsən Dağ-mədən Kombinatı, Gəncə Gil-Torpaq Kombinatı şəhərlərdə əhali məskunlaşması və urbanizasiyanın, müvafiq istehsal sahələrinin təmərküzləşməsini formalaşdıran əsas amildir.

Azərbaycanın kiçik və orta şəhərlərinin iqtisadi bazası-

nı başlıca olaraq yerli kənd təsərrüfatı xammalı əsasında işləyən yüngül, yeyinti sənaye müəssisələri, eləcə də ticarət, sənətkarlıq təşkil edir.

Neft, neft-kimya sənayesinin inkişafı böyük şəhərlərin yaranmasında və inkişafında mühüm rol oynamışdır. Bu səhərlər müəyyən mərhələlərlə Bakı şəhər aqlomerasiyası ərazisində daha yüksək inkişaf etmişdir. Məhz neft sənayesi bazasında buradakı yaşayış məntəqələri arasında əmək bölgüsü, məntəqələrarası müxtəlif iqtisadi əlaqələr yaranmışdır. Əli-Bayramlı şəhər Soveti ərazisində də inkişaf edən neft və qazçıxarma sənayesi sahələrinin sonrakı emal mərhələlərinin yaranmasına və iqtisadi inkişafına təkan vermişdir.

Azərbaycan ərazisində əsasən ilkin emal mərhələsi olan dağ-mədən sənayesi də inkişaf etmiş, Daşkəsən şəhəri, ona yaxın olan şəhər tipli qəsəbələr məhz bu sənaye əsasında yaranmışdır.

Azərbaycanın kiçik və orta şəhərlərinin çoxu kənd təsərrüfatı bazası əsasında inkişaf edib, onlarda fəaliyyət göstərən istehsal sahələrinin əsasını yüngül və yeyinti sənayesi müəssisələri təşkil edir. Bu amil əhalisinin sayı 5 min nəfərdən 20 min nəfərədək olan bütün şəhərlər və əhalisinin sayı 30 min nəfərdən 40 min nəfərə qədər olan bəzi şəhərlər üçün səciyyəvi hal olmaqla iri kənd yaşayış məntəqələrinin şəhər tipli qəsəbələrə, sonralar isə şəhərlərə çevrilməsi böyük rol oynayır.

Pambıq xammalı əsasında fəaliyyət göstərən sənaye müəssisələri Salyan, Əli-Bayramlı, Yevlax, Bərdə, Göyçay, Kürdəmir, İmişli, Sabirabad və s. şəhərlərin inkişafına təkan verir.

Respublikanın bir sıra şəhərlərinin, məsələn, Cəlilabad, Ağdam, Xaçmaz, Quba, Qusar, Xanlar, Lənkəran, Balakən, Zaqatala, Qazax, Şamaxı və b. inkişafı üzümçülükşərabçılıq, konserv və digər yeyinti sənayesi müəssisələrinin yaranması və fəaliyyəti hesabınadır. Mingəçevir Su-Elektrik Stansiyası, suvarma qovşağı bazasında yaranan Mingəçevir şəhəri 60 ilə yaxın müddətdə yüksək əmək və enerji tutumlu

sənaye sahələrinə malik müasir şəhərə çevrilib. Bu şəhərin əhalisi 1948-ci ildə cəmi 3 min nəfər idisə, indi burada əhali 100 min nəfərə qədər artıb.

Azərbaycan Respublikasının xalq təsərrüfatı strukturunda kənd təsərrüfatının böyük əhəmiyyəti olmuşdur. 1980-ci illərə qədər respublikada istehsal olunan daxili ictimai məhsulun 17 faizi, əmək qabiliyyətli əhalinin 32-33 faizi burada çalışıb. Kənd təsərrüfatının şəhər yaşayış məskənlərinə olan təsiri bir çox şəhərlərdə müxtəlif şəkildə təzahür edir. Belə ki, kənd rayonlarında yerləşən bir sıra şəhər məskənlərinin başlanğıc mərhələsi məhz kənd təsərrüfatı və onun məhsullarının emalı ilə əlaqədardır. Nisbətən iri şəhərlərdə kənd təsərrüfatı təmayüllü müəssisələrlə yanaşı, gətirmə xammalı əsasında işləyən toxuculuq və metalişlətmə müəssisələri də fəaliyyətdədir.

Kənd təsərrüfatı xammalının emalı müəssisələri əsasında formalaşan şəhərlərin bir çoxunun iqtisadi potensialının zəif olmasına baxmayaraq, onlar ətraflarında yerləşən kənd və şəhər tipli qəsəbələrdə istehsalın inkişafında, mədəni-məişət əlaqələrinin genişlənməsində böyük rol oynayırlar. Rayon mərkəzi olan şəhərlərdə kənd təsərrüfatında çalışanların sayı çox olur. Məsələn, Ağcabədi, Beyləqan, Zərdab, Dəvəçi və digər şəhərlərdə kənd təsərrüfatında çalışanlar ümumi əmək qabiliyyətli əhalinin 23,0 – 26,0 faizini təşkil edir.

Azərbaycan şəhərlərinin formalaşmasında və inkişafında nəqliyyat amilinin də böyük rolu vardır. Respublikada nəqliyyatın vəziyyətini qiymətləndirsək, aydın olar ki, ümumiyyətlə, ərazinin nəqliyyatla təminatı qənaətbəxşdir, burada nəqliyyatın bütün sahələri inkişaf etmişdir. Nəqliyyat şəbəkəsinin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, onun əsas növləri respublikanın ərazicə kiçik olan Bakı aqlomerasiyası ilə bərabər düzən və dağətəyi rayonlarında yerləşməsidir. Lakin dağlıq rayonlarda hələlik nəqliyyat şəbəkəsinin əlverişli inkişafı üçün çox işlər görüləsidir.

Respublika ərazisinin 20,3 min kv. km-də və yaxud 24,2 faizində dəmir yolu xətləri yoxdur. Belə ərazilərdə 1 mil-na yaxın əhali yaşayır və bunların əksəriyyəti kənd təsərrüfatı ilə məşğuldur. Dəmir yolu olmayan ərazilərdə əhalisinin sayı 15,0-20,0 min nəfərdən artıq olmayan 20-ə qədər şəhərdə 400 minə yaxın, yaxud şəhər əhalisinin 20 faizə qədəri yaşayır. Dəmir yolundan 30 km-lik məsafədə yerləşən şəhərin əhalisi adətən 20 min nəfərdən artıq olmur.

Azərbaycan şəhərlərinin funksional tərkibinin təhlili göstərir ki, ən mühüm sənaye, nəqliyyat və mədəniyyət mərkəzləri dəmir və avtomobil yolları qovşaqlarında yerləşir. Ümumiyyətlə, nəqliyyat qovşağı şəhərlərinin (*Gəncə, Yevlax, Mingəçevir, Xaçmaz, Naxçıvan, Kürdəmir, Ağstafa, Bərdə və s.*) əhalisinin artım tempi daha yüksəkdir. Bununla bərabər, mühüm avtomobil magistralları üstündə yerləşən bəzi şəhərlər (*Saatlı, Sabirabad, Goranboy və b.*) iqtisadi cəhətdən nisbətən zəif inkişaf etmişlər. Bu da onu göstərir ki, respublikada hələ də şəhərlərin iqtisadi-coğrafi inkişafında nəqliyyat imkanlarından kifayət qədər istifadə olunmur.

Şəhərin nəqliyyat-coğrafi mövqeyi onun funksional strukturuna güclü təsir göstərir. Bir qayda olaraq dəmiryol və avtomobil magistralları üstündə yerləşən şəhərlər çoxsahəli istehsal strukturuna malikdirlər, onların emal sənayesi nisbətən yüksək templə inkişaf edir.

Şəhərlərin sosial problemlərinin kompleks həlli üçün respublikada sosial inkişaf planlarının işlənməsi təcrübəsindən geniş istifadə olunur. Bu baxımdan şəhərin sosial inkişaf planlarının həyata keçirilməsində əsas mərhələlərin ayrılması zəruridir.

Məlumdur ki, respublikada şəhər əhalisinin sayı artır və bu proses mövcud müəssisələrin genişləndirilməsi və mədəni-məişət təyinatlı yeni istehsal sahələrinin yaradılması ilə sıx əlaqədədir. Bununla yanaşı, son illərdə respublikanın ictimai-iqtisadi şəraitinə uyğun urbanizasiya səviyyəsi də dəyişmişdir.

Respublikanın rayon mərkəzləri istənilən templə inkişaf etmir və ona görə də ümumi sənaye məhsulu istehsalının həcmində belə şəhərlərin payı azdır. 2001-ci ilin statistik məlumatlarına əsasən respublikada istehsal olunan ümumi sənaye məhsulunun 90 faizdən çoxu Bakı, Sumqayıt şəhər aqlomerasiyası daxilində istehsal olunur. Sənayenin belə təmərküzləşməsi Abşeronda əmək məhsuldarlığının artmasına, istehsal mədəniyyətinin yüksəlməsinə, sosial sahələrin inkişafına və əhalinin xeyli artmasına səbəb olsa da, respublikanın əyalətlərində yerləşən kiçik və orta şəhərlərin inkişaf prosesini xeyli ləngidir.

Digər tərəfdən, təmərküzləşmə Abşeron şəhər aqlomerasiyasında kəskin ekoloji gərginliyə, mənzil, su çatışmazlığına, sosial-infrastrukturun digər elementlərinin son dərəcə kəskin işləməsinə gətirib çıxarmışdır. Halbuki kiçik və orta şəhərlərin sənaye potensialının inkişafı bütövlükdə respublikanın iqtisadi inkişafını yüksəldə bilər və kənd əhalisinin həyat şəraitini xeyli yaxşılaşdıra bilərdi.

Hazırda milli müstəqillik şəraitində istehsal münasibətləri xarakterinin dəyişməsi, yeni mülkiyyət formalarına, bazar iqtisadiyyatına keçid, ticarətin liberallaşdırılması, sənaye müəssisələrinin, digər istehsalçıların, şəhər və rayonların sərbəstliyinin xeyli genişlənməsi, sahibkarlığın inkişafı, xarici ölkələrlə müştərək müəssisələrin yaradılması və s. tədbirlərin həyata keçirilməsi Azərbaycan şəhərlərinin sosial-iqtisadi inkişaf imkanlarını daha da artıracaqdır.

Şəhərlər sosial-iqtisadi münasibətlərin bir yerdə fəaliyyət göstərdiyi və həmin ərazinin təsiri altında müəyyən dəyişikliyə məruz qaldığı obyektdir. İqtisadi-sosial, ekoloji vəziyyətlə əlaqədar şəhər mühiti formalaşır. Memarlıq, mədəni, ekoloji məskunlaşma xüsusiyyətlərindən asılı olaraq şəhər mühiti özünəməxsus fəaliyyət göstərir. Müasir texnika, enerji ilə silahlanmış insanlar hər yerdə bu və ya digər dərəcədə antropogen təsirə məruz qalmaqla yaşadığı mühiti müəyyən qədər dəyişdirir.

Yığcam ərazi daxilində dayaq məntəqəsi kimi dayanan şəhər bir sıra neqativ təsirlərə də məruz qalır və öz növbəsində əks təsirlə buna cavab verir. Bu o deməkdir ki, şəhər böyüdükcə sənaye istehsalı, texniki tərəqqi artdıqca məskunlaşmanın, təmərküzləşmənin də təsiri artır, istehsal və qeyri-istehsal sahələrinin, urbanizasiyanın təmərküzləşməsindən, nəqliyyatın inkişafından asılı olaraq ekoloji təsirlərə məruz qalır. Belə təsir iri şəhərlərdə daha kəskin surətdə özünü göstərir.

Respublikada hərəkətdə olan 400 minə yaxın avtomobilin 65,0-66,0 faizdən çoxunun yerləşdiyi Böyük Bakı aqlomerasiyası uzun müddət texnogen, antropogen təsirlərin, istilik qazanxanalarının atmosferə buraxılan zərərli çirkləndiricilərin təsirinə məruz qalır. Lakin son illərdə şəhərdə müxtəlif markalı avtomobillərin, sair nəqliyyat növlərinin çoxalması hərəkətin gərginliyinə səbəb olur, atmosfer havasını çirkləndirir, səs-küyü artırır, əsəbilik, xəstəlik mənbəyini genişləndirir. Antropogen təsirlərə görə Bakı şəhərinin ərazisini aşağıdakı zonalara ayırmaq olar:

a) maşınların səs-küyünə görə çirklənməyə məruz qalan şəhər və mikrorayonların məskunlaşma ərazisi;

b) neftayıran zavodların, istilik-elektrik stansiyalarının, istilik qazanxanalarının dənizə, havaya buraxdıqları maye qaz və tüstü ilə çirkləndirilən Qara şəhər ərazisi;

c) maşınqayırma, təmir-texniki zavodlarının bərk, maye, qaz və tüstü tullantılarının təsirinə məruz qalan Keşlə-Montin qəsəbələri rayonu;

ç) neftçıxarma mədənlərinin torpağa, suya, havaya buraxdıqları neft tullantıları mazut, radon qazı, müxtəlif dəmir hissələri ilə çirkləndirilən Binəqədi, Səbayel rayonları;

d) sement zavodunun atmosferə barıxdığı zərərli qarşılıqlı tüstüyə-dumana məruz qalan Qaradağ rayonu ərazisi;

Gəncə şəhəri üçün ciddi ekoloji təhlükə yaradan Gəncə Gil-Torpaq Kombinatıdır. Bundan əlavə, avtomobil nəqliyyatının havaya buraxdığı qaz və tüstü onun bağlı-bağatlı, mühitinə mənfi təsir göstərir.

Mingəçevir, Əli-Bayramlı şəhərlərinin çirklənməsi onlarda olan DRES-də mazutun yandırılmasından çıxan və havaya buraxdıqları qazlar, Kür çayına və Yuxarı Qarabağ kanalına axıdılan çirkli, isti sulardır. Antropogen, texnogen təsirlərin araşdırılması ayrı-ayrı çirkləndirici obyektlər üzrə təsnifatın aparılması və ya sosioloji sorğu əldə edilmiş materiallar əsasında müvafiq xəritələr tərtib edilməsini tələb edir.

İntensiv məskunlaşma istehsalın təmərküzləşməsinə, insanların bir növ fərdiləşməsinə malik olan iri şəhərlərdə o vaxt normal həyat mümkündür ki, şəhər mühiti ilə cəmiyyət arasında sosial-ekoloji qarşılıqlı müvazinətli əlaqələr yaransın, istehsal, istirahət, sosial uzlaşmalar fəaliyyətdə olsun. Şəhər və şəhər mühitini yaradan insanlar özlərini də dəyişdirir. Şəhərsalma siyasəti cəmiyyətin siyasəti kimi qəbul edilir və sonralar fəaliyyət sisteminə çevrilir. Həyat təcrübəsindən göründüyü kimi əsas məsələ şəhər mühitində yaranan problemlərin həllini ortaya çıxaran antropogen təsirlərin aradan qaldırılmasına, şəhər sakinləri ilə həmin mühit arasında davam edən qarşılıqlı əlaqələrin uzlaşdırılmasına yönəldilir.

## 2.3. İnzibati şəhərlərin–rayon mərkəzlərinin inkişafının iqtisadi-coğrafi aspekti

Azərbaycanın kiçik və orta şəhərləri – rayon mərkəzləri mövcud və perspektiv inkişafda bir sıra təbii - iqtisadi-coğrafi imkanlara malikdir. Bunlara aşağıdakılar daxildir:

a) yerli kənd təsərrüfatı məhsullarını emal edən, onların əsasında işləyən yeyinti, yüngül sənaye sahələri, tikinti materialları istehsalı, nəqliyyat, təmir-texniki müəssisələri, bol əmək ehtiyatları və ixtisaslı mütəxəssislər, əsas və dövriyyə istehsal fondları;

b) torpaq, su, mineral xammal, tikinti materialları ehtiyatları, bol günəş enerjisi şəraitində əlverişli təbii şərait və təbii sərvətlər;

c) respublika ərazisinin yarısını tutan dağ, dağətəyi zonasında kənd təsərrüfatının, kurort rekreasiya kompleksinin in-

kişaf etdirilən torpaq, iqlim, bitki sərvətləri, coğrafi mövqeyi;

ç) əhalinin və istehsalın texniki, içməli, müalicə tələbatını ödəyən yerüstü, yeraltı su ehtiyatı;

d) müxtəlif təmayüllü tikinti obyektlərinin inkişaf etdirilməsi üçün geniş torpaq sahələri, yeraltı, yerüstü su ehtiyatı;

e) dağ, dağətəyi, dəniz kənarı zonalarda – Abşeron iqtisadi rayonunda, rayon mərkəzləri ərazisində yerləşən rekreasiya, kurort bolneoloji sərvətlər.

Yuxarıda qeyd olunan amillər inzibati rayonların inkişafında özünəməxsus kompleks əhəmiyyət kəsb edir. Ümumiyyətlə, Azərbaycan Respublikasının xalq təsərrüfatı quruluşunda sənayenin üstün mövqe tutmasına baxmayaraq Bakı və Sumqayıt şəhərlərinin ərazisini çıxmaq şərtilə, respublikanın kiçik və orta şəhərləri, rayon mərkəzləri kənd rayonlarında yerləşir. Ərazisinə, əhalisinin miqdarına, yaşayış məntəqələrinin tiplərinə və Bakı şəhərindən yerləşmə məsafəsinə görə respublikanın şəhərləri aşağıdakı 9-cu cədvəldə verilir. Qeyd edilməlidir ki, rayon mərkəzlərinin hamısı birlikdə götürüldükdə təkcə Bakı şəhərinin verdiyi sənaye məhsulundan 3 dəfə az məhsul verirlər.

- Əhalinin hər nəfərinə düşən sənaye məhsuluna görə də Abşeron iqtisadi rayonunun şəhərləri kənd rayon mərkəzlərinə nisbətən 3,5-4,0 dəfə irəlidir.

Ümumi məhsul istehsalında rayon mərkəzləri şəhərləri respublikanın müvafiq məhsul istehsalında 18,0-20,0 faiz, əhalinin ümumi sayında 3-4-cü yerdə durur. Respublikanın kiçik şəhərlərinin əhalisi ümumrespublika şəhər əhalisinin 30,0-31,0 faizini təşkil edir.

Azərbaycan Respublikasının iqtisadi inkişafı üçün təbii sərvət, sənaye potensialı, məhsuldar torpaq sahələri, müxtəlif növ faydalı qazıntıları, neft, qaz və s. tikinti materialları, əmək ehtiyatları, ixtisaslı mütəxəssisləri ilə birlikdə kiçik şəhərlərin mədəni, texniki, iqtisadi inkişafının etibarlı zəminidir. Əlbəttə, burada hər hansı şəhər uzun müddət ixtisaslaşmış istehsal istiqamətində inkişaf etməlidir.

# Azərbaycan rayonlarının urbanizasiya səviyyəsi

Cədvəl 9[1]

| № | İnzibati rayonlar və şəhərlər | Ərazi (kv.km) | Əhalisi (min nəf.) | Şəhərlərin sayı | ŞTQ-lərin sayı | Kəndlərin sayı | 1 kv. km-də əhalinin sıxlığı | Bakıdan uzaqlığı (km) |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 1. | Bakı ş. | 2192 | 1789,0 | 1 | 50 | 17 | 816 | |
| 2. | Əli-Bayramlı ş. | 3,1 | 70,0 | 1 | - | - | - | 122 |
| 3. | Gəncə ş. | 9,0 | 297 | 1 | - | | | 375 |
| 4. | Naftalan ş. | 55,0 | 30,0 | 1 | - | | | 330 |
| 5. | Xankəndi ş. | 128 | 7,5 | 1 | - | 68 | | 385 |
| 6. | Mingəçevir ş. | 83,0 | 94,0 | 1 | - | | 734,4 | 288 |
| 7. | Sumqayıt ş. | 1362 | 255 | 1 | 2 | | 3072,3 | 31 |
| 8. | Abşeron | 1154 | 82 | 1 | 7 | 9 | 60,2 | 5 |
| 9. | Ağdam | 1048 | 153 | 1 | - | 120 | 132,6 | 362 |
| 10. | Ağdaş | 1756 | 89 | 1 | 2 | 78 | 84,9 | 249 |
| 11. | Ağcabədi | 1504 | 108 | 1 | - | 44 | 61,5 | 263 |
| 12. | Ağstafa | 1020 | 74 | 1 | 1 | 37 | 49,2 | 461 |
| 13. | Ağsu | 616 | 62 | 1 | - | 79 | 60,8 | 167 |
| 14. | Astara | 923 | 84 | 1 | 1 | 92 | 136,4 | 313 |
| 15. | Balakən | 957 | 84 | 1 | 1 | 54 | 91,0 | 394 |
| 16. | Bərdə | 1131 | 130 | 1 | - | 107 | 135,8 | 314 |
| 17. | Beyləqan | 1397 | 79 | 1 | 2 | 38 | 69,8 | 265 |
| 18. | Biləsuvar | 1047 | 75 | 1 | - | 22 | 53,7 | 182 |
| 19. | Daşkəsən | 1088 | 30 | 1 | 4 | 44 | 28,6 | 397 |
| 20. | Dəvəçi | 1386 | 46 | 1 | - | 72 | 42,3 | 122 |
| 21. | Füzuli | 1548 | 136 | 1 | 1 | 72 | 98,1 | 310 |
| 22. | Qəbələ | 1225 | 83 | 1 | - | 61 | 53,6 | 225 |
| 23. | Gədəbəy | 1494 | 86 | 1 | - | 106 | 70,2 | 444 |
| 24. | Qax | 699 | 51 | 1 | - | 60 | 34,1 | 345 |
| 25. | Qazax | 1791 | 81 | 1 | - | 35 | 115,8 | 470 |
| 26. | Goranboy | 1806 | 94 | 2 | 5 | 60 | 52,5 | 317 |
| 27. | Qobustan | 739 | 34 | - | | 33 | 188,8 | 101 |
| 28. | Göyçay | 2574 | 101 | 1 | - | 555 | 136,6 | 226 |
| 29. | Quba | 802 | 137 | 1 | 2 | 154 | 59,2 | 168 |
| 30. | Qubadlı | 802 | 33 | 1 | - | 94 | 41,1 | 403 |
| 31. | Qusar | 1282 | 81 | 1 | 1 | 81 | 101,0 | 180 |
| 32. | Hacıqabul | 1821 | 58 | 1 | 1 | 28 | 45,2 | 113 |
| 33. | İmişli | 2064 | 104 | 1 | 1 | 51 | 57,1 | 230 |
| 34. | İsmayıllı | 1441 | 72 | 1 | 2 | 107 | 34,9 | 185 |
| 35. | Cəlilabad | 1050 | 170 | 2 | - | 118 | 117,9 | 210 |
| 36. | Cəbrayıl | 3054 | 59 | 1 | - | 76 | 56,2 | 338 |
| 37. | Gəlbəcər | 1046 | 66 | 1 | 1 | 122 | 21,6 | 445 |

[1] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması I hissə. Bakı-2000.

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
|---|---|---|---|---|---|---|---|---|
| 38. | Xaçmaz | 1183 | 144 | 2 | 2 | 148 | 137,6 | 157 |
| 39. | Xanlar | 936 | 53 | 1 | 3 | 49 | 44,8 | 364 |
| 40. | Xocalı | 1458 | 24 | 1 | 2 | 52 | 25,6 | 375 |
| 41. | Xocavənd | 1853 | 40 | 1 | 2 | 76 | 27,4 | 334 |
| 42. | Xızı | 1632 | 13 | - | 4 | 19 | 7,01 | 104 |
| 43. | Kürdəmir | 1835 | 92 | 1 | - | 61 | 56,3 | 189 |
| 44. | Laçın | 1500 | 63 | 1 | - | 118 | 343 | 414 |
| 45. | Lənkəran | 1084 | 190 | 2 | 6 | 78 | 126,6 | 268 |
| 46. | Lerik | 792 | 63 | - | 1 | 158 | 58,1 | 323 |
| 47. | Masallı | 1500 | 174 | 2 | 1 | 83 | 219,6 | 232 |
| 48. | Neftçala | 1077 | 72 | 1 | 3 | 51 | 48,0 | 176 |
| 49. | Oğuz | 1145 | 36 | 1 | - | 36 | 33,4 | 268 |
| 50. | Saatlı | 1627 | 83 | 1 | - | 34 | 72,4 | 182 |
| 51. | Sabirabad | 1299 | 137 | 1 | - | 81 | 84,2 | 170 |
| 52. | Salyan | 1210 | 112 | 1 | 1 | 56 | 86,2 | 126 |
| 53. | Samux | 2177 | 50 | - | 3 | 29 | 41,3 | 362 |
| 54. | Şamaxı | 1160 | 80 | 1 | 2 | 61 | 36,7 | 135 |
| 55. | Şəmkir | 3408 | 173 | 1 | 4 | 57 | 149,1 | 399 |
| 56. | Şəki | 289 | 156 | 1 | 1 | 60 | 64,7 | 305 |
| 57. | Şuşa | 703 | 24 | 1 | - | 30 | 83,0 | 373 |
| 58. | Siyəzən | 957 | 33 | 1 | 1 | 36 | 46,9 | 103 |
| 59. | Tərtər | 1903 | 96 | 2 | 1 | 60 | 100,3 | 332 |
| 60. | Tovuz | 853 | 143 | 1 | 1 | 48 | 75,1 | 439 |
| 61. | Ucar | 667 | 71 | 1 | - | 31 | 83,2 | 234 |
| 62. | Yardımlı | 1555 | 49 | - | 1 | 84 | 73,5 | 286 |
| 63. | Yevlax | 1348 | 108 | 1 | 1 | 49 | 69,4 | 287 |
| 64. | Zaqatala | 707 | 107 | 1 | 1 | 65 | 79,3 | 372 |
| 65. | Zəngilan | 856 | 35 | 1 | 1 | 80 | 49,5 | 385 |
| 66. | Zərdab | 146 | 46 | 1 | 1 | 39 | 53,7 | 231 |
| 67. | Naxçıvan | 1300 | 63 | - | - | - | 48,5 | 560 |
| 68. | Babək | 1169 | 71 | - | 1 | 48 | 60,7 | 560 |
| 69. | Culfa | 995 | 36 | 1 | - | 23 | 36,2 | 520 |
| 70. | Ordubad | 972 | 41 | 1 | 1 | 47 | 42,2 | 484 |
| 71. | Sədərək (Şərur) | 1164 | 123 | 1 | 1 | 70 | 105,7 | 645 |
| 72. | Şahbuz | 917 | 20 | - | 1 | 24 | 21,8 | 595 |
| | **CƏMİ:** | **86600** | **7952,0** | **61** | **130** | **4197** | **66,0** | |

Hər hansı kiçik şəhərlərin inkişaf istiqaməti onun yerləşdiyi inzibati rayonun istehsal ixtisaslaşma səviyyəsinə uyğun olmalıdır. Əgər Şamaxı, Tovuz, Şəmkir, Ağstafa və s. şəhərlərinin mövcud və perspektiv inkişafı əsasən üzümçülüyə, şərabçılığa, maldarlığa əsaslanırsa, Ağsu, Kürdəmir, Ağdaş, Zərdab, Ucar şəhərləri pambıqçılığa, taxılçılığa, heyvandar-

lığa, Quba, Xaçmaz, Qusar, İsmayıllı, Qəbələ, Qax və s. meyvəçiliyə, taxılçılığa, heyvandarlığa, onların əsasında inkişaf etdirilən yüngül və yeyinti sənayesinə, Salyan, Neftçala, Siyəzən, Dəvəçi şəhərləri neft, qaz sənayesi ilə yanaşı əsasən heyvandarlıq və pambıqçılığa da əsaslanır.

Göstərilən başlıca istehsal təmayüllərindən başqa, qədim peşə ixtisasından asılı olaraq bir sıra rayonlarda müvafiq mütəxəssislərin, sənətkarların iştirakı əsasında xalçaçılığın və b. milli sənətkarlığın, qənnadı məhsulları istehsalının inkişaf etdirilməsi mümkündür. İctimai istehsalın kolxoz, sovxoz sair dövlət təsərrüfatının əmlaklarının özəlləşdirilməsi, bazar münasibətlərinə keçid dövründə kiçik şəhərlərin gələcək inkişaf istiqamətlərində yeni keyfiyyət təmayülləri ortaya çıxır. Bunun əsasını dünya standartına uyğun, bazar münasibətlərində rəqabətə davamlı məhsulların istehsalı üzrə kiçik və orta gücə malik müəssisələrin yaradılması, yerli istehsal əsasında əhalinin müasir tələbatına cavab verən təsərrüfatların yaradılması, bu səpkidə istehlak mallarının istehsalı təşkil edir.

Bir sıra kiçik şəhərlərdə – Daşkəsəndə, Xanlarda, Ordubadda, Şərurda, İsmayıllıda, Lahıcda enerji, əmək tutumlu istehsal sahələrinin (*cihazqayırma, ev əşyaları, metal-işləmə məmulatlarının və s.*) inkişafı dövrün tələblərindən irəli gəlir. Müasir dövrdə respublikanın ictimai, fərdi, şəxsi təsərrüfatlarının tikinti materiallarına olan tələbatı əhali artımı yeni tikintilərin hesabına yerinə yetirilir. Həmin məhsullara olan tələbatı ödəmək üçün demək olar ki, respublikanın bütün rayonları və kiçik şəhərləri maddi imkanlara malikdir. Bunların əsasını tikinti və müxtəlif ev əşyaları üçün yararlı gil, çınqıl, qırma-mişar daşı, mərmər, traveritin, qabbro, tikinti qumu, əhəng, kərpic-kirəmit xammalları və s. təşkil edir.

Kapitalist istehsal münasibətlərində – fərdi, istərsə də dövlət tabeliyində, özəl təsərrüfatların bazar iqtisadiyyatına uyğun formalarının yarandığı indiki şəraitdə respublika şə-


AZƏRBAYCAN RESPUBLİKASI
ƏHALİNİN İNZİBATİ RAYONLAR ÜZRƏ YERLƏŞMƏSİ
RUSİYA FEDERASİYASI
DAĞISTAN
GÜRCÜSTAN
ERMƏNİSTAN
İRAN
XƏZƏR DƏNİZİ
BAKI
SUMQAYIT
GƏNCƏ
MİNGƏÇEVİR
YEVLAX
ŞƏKİ
XANKƏNDİ
ƏLİ BAYRAMLI
NAXÇIVAN
Balakən
Qabaqçöl
Zaqatala
Əliabad
Qax
Qazax
Ağstafa
Tovuz
Vurğun
Qovlar
Zəyəm
Şəmkir
Gədəbəy
Daşkəsən
Yeni Daşkəsən
Hacıkənd
Xanlar
Goranboy
Nəbiağalı
Qarayeri
Naftalan
Sıxarx
Tərtər
Kəlbəcər
Ağdam
Xocalı
Laçın
Şuşa
Xocavənd
Cəbrayıl
Qubadlı
Zəngilan
Füzuli
Beyləqan
Dəhrəmli
Ağcabədi
Bərdə
Ağdaş
Ucar
Zərdab
Beyimli
Kürdəmir
Göyçay
Oğuz
Qəbələ
İsmayıllı
Basqal
Lahıc
Şamaxı
Ağsu
Mədrəsə
Mərəzə
Altıağac
Xızı
Gilezi
Şuraabad
Siyəzən
Dəvəçi
Xaçmaz
Muxtadir
Samur
Qusar
Şollar
Quba
Qonaqkənd
Hacıqabul
Sabirabad
Saatlı
İmişli
Qaraçala
Salyan
Banke
Xıllı
Neftçala
Biləsuvar
Cəlilabad
Masallı
Yardımlı
Lerik
Astara
Lənkəran
Kijəba
Qarmətük
İstisu
Sədərək
Şərur
Şahbuz
Babək
Culfa
Ordubad
Göyçə gölü
Mingəçevir su anb.
Alazan
Kür
Araz
Samur
Pirallahı
Çilov
Zirə
Hövsan
Çeyildağ
Qaradağ
Sanqaçal
Puta
45°
46°
47°
48°
49°
50°
39°
40°
41°
Respublika rayonlarının əhalisi (min nəfərlə)
20-yə qədər
20 - 50
50-100
100-150
150-dən çox
Şəhər tipli qəsəbələr
Əhalinin sayı (nəfərlə)
1000-ə qədər
1000-3000
3000-5000
5000-10000
10000-20000
20000-30000
30000-dən çox
ŞƏRTİ İŞARƏLƏR
Respublika şəhərlərinin əhalisi (min nəfərlə)
300-dən çox
100-300
40 - 100
30 - 40
20 - 30
10 - 20
10-a qədər
Şəhər əhalisi
O cümlədən
Qadınlar
Kişilər
Böyük şəhər
Şəhər tipli qəsəbələrin adları
1.Türkan
2.Kirxan
3.Daşkəsən
4.A.Ağcakənd
5.Y.Ağcakənd
6.Xasobağı
7.Hacıkənd
8.B-Heybət
9.Haftonı
10.Turan
11.Şağan
12.Şahil
13.Küdəxana
14.Hökməli
15.Muğan
16.Giləzi
17.Bəhramtəpə
18.Hacıməlik
19.Hırkan
20.Fətəlixan
21.Həsənabad
22.Dəllər
23.Müşviqabad
24.Nardaran
25.Ramana
26.Zığ
27.Ceyranbatan
28.Qobu
29.Boradigah
30.Çinarlı
31.Kür
32.Aran
33.Corat
34.Bilgəh
35.Nərimanabad
36.Binəqədi
37.Mərdəkan
38.Şüvəlan
39.Qobustan
40.Keşlə
41.Balaxana
42.Badamdar
43.Yeni Suraxanı
44.Bülbülə
45.H.Z.Tağıyev
46.Binə
47.Lökbatan
48.Zabrat
49.Sabunçu
50.Əmircan
51.Xırdalan
52.Maştağa
53.Qaraçuxur
54.Bakıxanov
55.Rəsulzadə
56.Biləcəri
57.Buzovna
58.Şüraabad
59.Qızıldaş
60.Şonqar
61.Yeni Suraxana
62.Qərqəz
63.Digah
64.Əhmədli
65.Əlat
66.Pirşağı
67.Güzdək
68.Saray
69.Hacıqədirli
70.Qazanbulaq
71.Qızılhacılı

hərlərinin dövrün tələbinə uyğun keyfiyyət baxımından inkişafına, bir çoxlarının ixtisaslaşma təmayülünün dəqiqləşdirilməsinə ehtiyac vardır. Bu baxımdan respublika şəhərlərini bir neçə qruplara bölmək zəruriyyəti ortaya çıxır.

Azərbaycanın kiçik şəhərlərinin əksəriyyətini kənd təsərrüfatı zonalarında yerləşən rayon mərkəzləri təşkil edir. Demək olar ki, bunların hamısı Sovet İttifaqı dövründə sənaye istehsalı, kənd təsərrüfatı məhsullarının emalı üzrə ixtisaslaşmışdır. Bundan başqa. şəhərlərin hamısında əhaliyə xidmət sahələri fəaliyyətdə olmuşdur. Sovet hakimiyyəti illərində direktiv plan tapşırıqlarının yerinə yetirilməsi istehsalla istehlak arasında olan uyğunsuzluq, səmərəsiz yük və sərnişin daşınma səbəbindən artıq nəqliyyat xərcləri sərfinə yol verilirdi. Məsələn, əhalinin tələbatını nəzərə almadan bir şəhərdə istehsal edilən məhsul başqa rayonlara aparılırdı və oradan da eyni məhsullar həmin şəhərə gətirilirdi. Bu isə iqtisadi və sosial baxımdan səmərəsiz, qəbul edilməz istehsal hərcmərcliyidir.

Müasir dövrdə iri istehsal sahələrinin, şəhərlərin ixtisas təmayüllərinin formalaşmasında fəal iştirak edən ən mühüm amil istehsal və xidmət sahələri üzrə ixtisaslaşmanın təkmilləşdirilməsi, yerli istehsal məhsulları hesabına əhalinin tələbatını ödəmək, rəqabət tutumlu məhsulların başqa rayonlara aparılmasından ibarətdir.

Respublikanın faydalı qazıntıları, təkrar metal materialları mərkəzlərində yerləşən şəhərlərdə metallurgiya, maşınqayırma, metal emalı zavodlarının yeni tələblər səviyyəsində tikilməsinə indi böyük ehtiyac vardır.

Metallurgiya, kimya sənaye şəhəri olan Sumqayıtda bir neçə ildir ki, istehsal sahələri xeyli tənəzzülə uğrayan Aliminium , Boru-yayma və b. zavodların standartlara çatdırılması elmi-texniki, texnoloji baxımdan beynəlxalq miqyasda mühüm vasitədir. Dağ-mədən mərkəzi olan Daşkəsən, ondan gətirilən alunit xammalının əsasında aliminium oksidi verən Gəncə şəhəri təkrar metal materiallarının

əmələ gəlməsi və tədarük edilməsi, eləcə də intensiv kənd təsərrüfatı istehsal zonasında yerləşən bol işçi qüvvəsinə malik Gəncənin ixtisaslaşması kompleks təmayüllüdür.

Bakı, Sumqayıt, Gəncə şəhərlərində qara, əlvan metallurgiya, kimya-metallurgiya, maşınqayırma, metal emalı sənayesinin inkişafı çuqun və poladtökmə sənayesinin yaradılmasını və genişləndirilməsini tələb edir. Bu məqsədlə yerli xammal əsasən Daşkəsəndə çuqunəritmə, Gəncədə və Alabaşlıda poladəritmə üzrə «mini» zavodlırın yaradılması məqsədyönlüdür.

Azərbaycan Respublikasının bazar iqtisadiyyatına keçməsilə Gəncə şəhərinin kimya-metallurgiya, metal işləmə, nəqliyyat-maşınqayırma, yüngül və yeyinti sənaye sahələri üzrə ixtisaslaşması üçün geniş imkanlar açılmışdır.

Bir neçə böyük, orta şəhərləri çıxmaq şərtilə, respublikanın şəhərləri kiçik olduğundan və kənd təsərrüfatı zonalarında yerləşdiyindən onların hamısının fərdilikdə bu və ya digər sahələr üzrə ixtisaslaşmasından bəhs etmək məqsədyönlü deyil. Buna görə oxşar ixtisaslaşma baxımından respublikanın kiçik şəhərlərinin bəzi yerdə qrup halında yerləşməsini nəzərə alaraq bu halda da onların ixtisaslaşması təmayülünü təkmilləşdirmək məqsədyönlüdür.

Təbii şəraitdən və xalq təsərrüfatının inkişafı cəhətdən oxşar şəraitdə yerləşən bəzi şəhərlərin qrup halında ixtisaslaşması inkişafını təmin edən mühüm amildir. Bu cəhətdən Şəki-Zaqatala, Quba-Xaçmaz, Kur-Araz, Lənkəran-Astara, Naxçıvan MR rayonları arasında oxşarlıq vardır.

Göstərilən şəhərlərin bir qrupunun istehlak malları istehsalı üzrə ixtisaslaşması, onların yerləşməsi təsərrüfat xüsusiyyətlərindən irəli gəlir. Bu sahədə Quba-Xaçmaz iqtisadi-rayonunun şəhərləri tumlu meyvələr, tərəvəz istehsalı və onların emalı, Lənkəran-Astara rayonunun şəhərləri rütubətli subtropik, çayçılıq, taxılçılıq, onların emalı, Kür-Araz zonası şəhərləri pambıq emalı, toxuculuq, tikiş sənayesi üzrə ixtisaslaşmaya daha çox meyl edir.

Hansı mülkiyyət formasında olursa-olsun, respublikada ağır sənaye, neft-qaz çıxarma, onların emalı, dağ-mədən, qara, əlvan metallurgiya, kimya- metallurgiya, maşınqayırma, cihazqayırma və s. sənaye sahələrinin inkişafı elektrik enerjisinə tələbatı artırır. Bunu nəzərə alaraq Əli-Bayramlı – Varvara-Mingəçevir, Şəmkir-Yenikənd istiqamətində elektrik enerji hasilatının iqtisadi-ekoloji aspektdə formalaşması mühüm problemlər yaradır. Bu mənada daha gərgin yük altında olan Mingəçevir, Əli-Bayramlı şəhərlərinin iqtisadi-ekoloji inkişafının nizamlanması diqqət mərkəzində olmaqla əlavə kapital qoyuluşu tələb edir.

Respublikanın kiçik və orta şəhərlərində yeni müəssisələrin yerləşdirilməsi və ixtisaslaşması, məhsulların istehsalı, istehlakı, realizasiyası, kişi və qadın əməyindən səmərəli istifadəsi indi şəhər probleminin mühüm tərkib hissəsidir.

Şəhərlərin ixtisaslaşması təmayülündə həll edilməsi zəruri olan ən mühüm məsələlərdən biri əhalinin ən çox tələb etdiyi yeyinti və yüngül sənayesinin respublika şəhərlərində xammal və istehlaka uyğun yerləşdirilməsidir. Göyçay, Kürdəmir, Ucar, Babək, Ordubad, Şərur, Zaqatala, Quba və s. kimi şəhərlərdə yerləşən yeyinti və yüngül sənaye müəssisələri yaxşı olardı ki, başqa sənaye mərkəzləri olan Sumqayıt, Əli-Bayramlı, Mingəçevir, Gəncə, Naxçıvan və b. kimi şəhərlərdə də yerləşdirilsin. Yüngül və yeyinti sənaye müəssisələrinin yuxarıda göstərilən şəhərlərdə yerləşdirilməsi təkcə onların ixtisaslaşma səviyyəsindən deyil, eləcə də əhalinin şəhərlərdə artmasından çox asılıdır.

Sovet hakimiyyəti illərində Azərbaycanda ümumi sənaye məhsulunun 37,0- 38,0 faizini yüngül və yeyinti sənayesi verirdi. İndi başqa sənaye sahələri ilə yanaşı yerli istehsal hesabına göstərilən sənaye sahələrinin məhsul istehsalı xeyli tənəzzülə uğramışdır.

Son 10 ildə respublikada yeyinti və yüngül sənayenin xammalını, ərzaq məhsullarını verən kənd təsərrüfatının, xüsusilə, üzümçülüyün, pambıqçılığın, ictimai heyvandar-

lığın xeyli iflasa uğraması, istər böyük, istərsə də orta və kiçik şəhərlərdə dövlət tabeliyində fəaliyyət göstərən yüngül və yeyinti sənaye müəssisələrinin sıradan çıxması, onların istehsal fəaliyyətlərinin tam dayandırılması, istehsal və istehlak malları alınmasını ciddi surətdə məhdudlaşdırmışdır.

İctimai, dövlət müəssisələrinin, əhaliyə xidmət sahələrinin özəlləşdirilməsi bir tərəfdən, yeyinti, yüngül və s. sənaye müəssisələrinin çox hissəsinin fəaliyyətdən dayanması digər tərəfdən rayonlarda və şəhərlərdə işsizlik yaratmış, sosial vəziyyəti gərginləşdirmişdir.

Müasir dövrdə, həmçinin gələcəkdə respublikada kiçik və orta şəhərlərin inkişafı onlarda olan əmək qabiliyyətli əhalinin işlə təmin edilməsi, bunların vasitəsilə iqtisadi, sosial vəziyyətin yaxşılaşdırılması, mülkiyyət formalarından asılı olmayaraq onlarda kənd təsərrüfatı məhsullarının emal edilməsi üzrə sənaye-istehsal funksiyasının artırılmasını tələb edir. Bu isə hansı mülkiyyət formalarının tabeliyindən asılı olmayaraq mövcud istehsal, qeyri-istehsal müəssisələrinin yenidən qurulmasını, əlavə iş yerlərinin yaradılmasını tələb edir.

Azərbaycan Respublikasında kiçik şəhərlərin inkişafında ən aktual məsələlərdən biri də sənaye sahələrinin fəaliyyətində yerli və gətirilmə xammalların istehsal vasitəsi mallarının istifadəsi əsasında istehsalın genişləndirilməsi və əhali məşğuliyyətinin artırılmasıdır.

Bir çox mütəxəssislər göstərilən amilləri əsas götürərək şəhərlərdə sənaye istehsalının inkişafını əsas meyar kimi qəbul edirlər. Lakin bu düz deyil, kiçik və orta şəhərlərdə – rayon mərkəzlərində sənaye istehsalında və onlarda işləyən əhali məşğuliyyətinə həddən artıq aşağı qiymət verilməsi milli sənətkarlığın, əhaliyə xidmət sahələrinin inkişafını xeyli məhdudlaşdırır və bu prosesdə sosial vəziyyəti müəyyən qədər gərginləşdirir.

Orta və kiçik şəhərlərin inkişafında iqtisadi, sosial proseslərin nizamlanmasının bir mühüm şərti də ondan ibarət-

dir ki; yaxınlıqda yerləşən kənd əhalisinin «rəqqas miqrasiyası» ilə işə cəlb edilməsində iştirak etsin. Bunun əsas məzmunu ondan ibarətdir ki, kiçik və orta şəhərlərdə mövcud olan əmək qabiliyyətli əhali şəhər hesabına müəyyən qədər işlə təmin edilsin, şəhərdən kənar ərazilərdə kənd təsərrüfatı istehsalının inkişafı məqsədilə işçi qüvvəsi sabit saxlanılsın.

Göstərilən iqtisadi amilin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, əhalinin ərzaq məhsulları ilə, kiçik və orta şəhərlərdəki yüngül və yeyinti sənayesinin xammala olan tələbatı təmin edilsin. Bu proses kəndlə şəhər arasındakı iqtisadi, kooperasiya əlaqələrini təmin etməkdə mühüm amildir.

Sosial-iqtisadi problemlərin həllində, xüsusilə rəqqas miqrasiyası və kəndlərdən ümumi axın hesabına kiçik, orta şəhərlərin əsasən texniki-tərəqqi və sənayenin bir qədər kənarda olması bir tərəfdən məhsul qıtlığına, digər tərəfdən, işsizlik, kənd yerlərində isə işçi qüvvəsi çatışmazlığına səbəb olmuşdur. Uzun illər ərzində respublikada buraxılan belə səhvlər sosial-iqtisadi gərginlik yaratmışdır. Bu eyni zamanda kiçik və orta şəhərlərdə özlərinə iş tapmayan əmək qabiliyyətli əhalinin ya respublika paytaxtına, ya da xarici ölkələrə iş dalınca getmələrinə səbəb olmuşdur. Bu proses indi daha qabarıq halda fəaliyyətdədir.

İctimai və kollektiv təsərrüfatların özəlləşdirilməsi, müxtəlif mülkiyyət formalarının yaradılması və fəaliyyəti olan müəssisələrin, kənd təsərrüfatının son 10 ildə intensiv tənəzzülü dövründə respublikada işsizlər xeyli çoxalmışdır. Buradan da şəhərlə kənd arasında olan iqtisadi-sosial münasibətlər elə gərgin vəziyyət almışdır ki, yaradıcı qüvvəyə malik ixtisaslı, intellektual səviyyəli, əmək qabiliyyətli əhalinin əksəriyyəti ya işsizdir, ya da irili-xırdalı alverlə məşğuldur. Bu proses xüsusilə iri və orta şəhərlər üçün səciyyəvidir.

Kəndlərdə işçi qüvvəsini o vaxt ixtisara salmaq olar ki, mülkiyyət formasından asılı olaraq əkinçilik və heyvandar-

lıq sahələrini müxtəlif texniki avadanlıqla təmin etmək şəraitində əmək məhsuldarlığını xeyli artırmaq mümkün olsun. Bu yolla kənd təsərrüfatı istehsalından azad olan işçi qüvvəsi «rəqqas miqrasiyası» və ya ümumi miqrasiya yolu ilə şəhərlərə iş tapmaq məqsədilə gedə bilər. Lakin məcburi və əsassız olaraq kənddən başqa yerlərə, xüsusən şəhərlərə əmək qabiliyyətli əhalinin axını ictimai əmək məhsuldarlığını aşağı salmaqla, bu və ya digər rayonda ərzaq məhsulu istehsalını tənəzzülə uğrada bilər.

Bir çox şəhərşünas mütəxəssislər kiçik və orta şəhərlərdə bu və ya digər sənaye sahələrinin yerləşdirilməsini asudə əmək qabiliyyətlərin miqdarına görə nizamlanması fikrini irəli sürürlər. Bizim fikrimizcə, istehsalın bu yolla təşkilini düzgün hesab etmək olmaz. Ona görə ki, bu və ya digər şəhərlərdə yeni istehsal sahələrinin yaradılması, xüsusilə sənaye müəssisələrinin tikilməsi müvafiq xammal bazasının və iqtisadi zəminin olmasına əsaslanmalıdır. Digər tərəfdən, bu sahəyə işçi qüvvəsinin cəlb edilməsi şəraitində ixtisaslı kadrların və mütəxəssislərin intellektual qüvvəsindən istifadə edilməsi zəruri hesab edilir.

Azərbaycan Respublikasında 800 min nəfərə qədər ali və orta ixtisaslı savadlı kadrlar var. Lakin onların respublika rayonları üzrə qeyri-bərabər yerləşməsi, əksəriyyət hissəsinin Bakı və Sumqayıt şəhərlərində cəmləşməsi onlardan səmərəli istifadə edilməsini çətinləşdirir. Bu da ondan irəli gəlir ki, müstəqil inkişaf yolunda olan Azərbaycanda ixtisaslı əmək potensialı istehsal və qeyri-istehsal sahələrini hərəkətə gətirən təbii və iqtisadi potensial arasında uyğunsuzluq əmələ gəlmişdir. Ümumiyyətlə, belə vəziyyət istər xalq təsərrüfatının və istərsə də şəhərlərin səmərəli inkişafında əngəl törədən amilə çevrilmişdir.

İstehsal sahələrinin və sosial qurumların səmərəli inkişafı şəraitində, bazar münasibətinə keçid dövründə də kiçik və orta şəhərlərdə əmək ehtiyatları kifayət qədərdir. Bunlardan səmərəli istifadə etmək üçün yerli təbii sərvətlərdən

səmərəli istifadə etməklə istehsalın düzgün təşkili mühüm məsələlərdəndir.

İctimai və fərdi istehsaldan kənarda qalan asudə işçi qüvvəsinə görə Azərbaycan Respublikası şəhərlərini aşağıdakı qrupa ayırmaq olar:

a) yüksək əmək ehtiyatı, ixtisaslı, asudə işçi qüvvəsinə, sənaye istehsal fonduna malik olan şəhərlər. Onlarda iri müəssisələrin yaradılmasına, fəaliyyət göstərməsinə iqtisadi imkanlar mövcuddur. Bu qrupa Respublikada Bakı və Sumqayıtla yanaşı, Gəncə, Əli-Bayramlı, Mingəçevir, Naxçıvan, Şəki şəhərlərini daxil etmək olar. Əhalisinin çoxluğu, təbii ehtiyatların, iqtisadi imkanların genişliyinə görə Göyçay, Lənkəran, Xaçmaz, Quba şəhərlərini də bu cərgəyə qoşmaq düzgün olardı;

b) əsasən kənd təsərrüfatı xammalının emalı üzrə kiçik həcmli sənaye müəssisələrinin yaradılması üçün təbii, iqtisadi imkanlara, bol işçi qüvvəsinə malik olan inzibati rayon mərkəzləri;

c) bu qrup şəhər tipli qəsəbələrdə səciyyəvi amil ondan ibarətdir ki, əmək qabiliyyətli əhalinin miqdarı az olduğundan iri həcmli sənaye sahələrinin inkişafı üçün lazımi tələbata cavab vermir. Buna görə də belə qəsəbələrdə kənd təsərrüfatı məhsullarını emal edən yeyinti və yüngül sənaye sahələrinin inkişafı, sənətkarlığın fəaliyyətinin genişləndirilməsi məqsədyönlüdür.

Bundan əlavə, xalq sənətkarlığının, əhaliyə xidmət sahələrinin inkişafı onlar üçün xarakterikdir. Belə qəsəbələrdə işçi qüvvəsinə olan tələbat əsasən kəndlər hesabına ödənilir. Kiçik şəhərlərdə, ştq-lərdə əhalinin mobil (*daimi yaşayış tərzinin*) saxlanılması hər şeydən əvvəl yerli təbii sərvətlərdən, xammal ehtiyatlarından, mövcud işçi qüvvəsindən və iqtisadi potensialdan istifadə edilməsindən asılıdır.

Kiçik şəhərlərin və ştq-lərin inkişafı, onlarda əhali mobilliyinin artırılması ərazinin iqtisadi-coğrafi mövqeyindən, nəqliyyatın, yolların vəziyyətindən çox asılıdır. Bu məqsədlə

respublika ərazisində avtomobil yollarının, dəmir yolunun (*başlıca olaraq dəmir yolu və şose yolları*) rayonlaşdırmadakı yeri böyük əhəmiyyət kəsb edir.

Ərazinin nəqliyyat yolları və vasitələri üzrə rayonlaşma sxemi göstərir ki, ən sıx sənaye təmərküzləşməsinə malik olan Abşeron iqtisadi rayonunda şəhər, ştq-lərin əhalisi ilə əmək ehtiyatları arasında müəyyən uzlaşma varsa da, onların istifadəsi arasında xeyli uyğunsuzluq nəzərə çarpır. Belə şəraitdə də nəqliyyat vasitələri şəhərdaxili və ətraf rayonlarla iqtisadi əlaqələri saxlayır, əhali ilə istehsal arasında qarşılıqlı əlaqə yaradır.

Dağlıq şəraitdə yerləşən və məhdud nəqliyyat vasitələrinə malik olan Şəki-Zaqatala, Lənkəran, Kəlbəcər-Laçın iqtisadi rayonlarının inkişafı məhdudlaşır, əhalinin başqa rayonlara miqrasiyası artır. Bundan başqa, göstərilən rayonlarda, xüsusilə dağlıq ərazidə istehsalın inkişafını, kənd təsərrüfatı sahəsindən əldə edilən xammalın, hazır məhsulların başqa rayonlara daşınmasını ləngidir. Belə vəziyyətdə əhalinin xeyli hissəsi yaşadığı ərazini tərk etmək məcburiyyətində qalır.

Göstərilən ərazilərdə şəhərlərin, ştq-lərin, kəndlərin inkişafına, onlarda yaşayan əhalinin qeyri-mobilliyinə xas olan səbəblərdən biri yaşayış məntəqələrinə təbii qazın, elektrik enerjisinin fasilələrlə verilməsidir.

Respublikanın mərkəzi rayonlarına gəldikdə isə onların nəqliyyat yolları və vasitələri ilə təmin edilməsi qənaətbəxş sayılır. Bakı, Gəncə, Yevlax, Balakən indi fəaliyyətdən dayanan Yevlax-Xankəndi dəmir yolu, bunlarla paralel istiqamətdə gedən şose yolları, indi işləməyən Yevlax-Kəlbəcər şose yolları və onlardan müxtəlif istiqamətlərə ayrılan avtomobil yolları, şəhərləri, qəsəbələri, kəndləri birləşdirir.

Respublikanın şimal istiqamətində Bakı-Xaçmaz-Dərbənd dəmir və şose yolları iqtisadi əlaqələrin möhkəmləndirilməsində, istehsalın inkişafında böyük əhəmiyyət kəsb edir. Bunlardan əlavə, Şollar-Bakı, Kür-Bakı, Ceyran-

batan-Bakı su kəmərləri 1904-cü ildən bu vaxta qədər fəaliyyət olan Bakı-Batumi, 1997-ci ildə istifadəyə verilmiş Bakı-Novorossiysk, ondan Supsaya (*Gürcüstana*) ayrılan neft kəmərləri tikilməsi qərarlaşdırılmış Bakı-Tibilisi-Ceyhan (*Türkiyə*) neft kəməri boyu və yaxınlığından keçən şəhərlərin, ştq -lərin gələcək inkişafında mühüm təsir göstəricisidir.

Tədqiqat göstərir ki, respublika şəhərlərinin 60 faizdən çoxu dəmir yolu və magistral şose yolları üstündə yerləşir. Avtomobil nəqliyyatının inkişafı sərnişin və yük daşınmasını artırmaqla şəhərləri və ştq-ləri özünə cəlb edir, mövcud olanların isə inkişaf potensialını artırır.

Uyğun şəhərsalma ictimai, fərdi binaların tikilməsi, bir çoxlarının yenidən qurulması, yeni parkların yaradılması sahəsində böyük işlər görülmüşdür. Lakin bunlar hələ də əhalinin tələbatını ödəmir. Göstərilən şəhərlər üçün bir səciyyəvi cəhət də ondan ibarətdir ki, son vaxtlarda tikilən kooperativ, «şirkət», «kompaniya» binaları geniş əhali kütləsi üçün əlçatmazdır. Onların qiyməti ilə əhalinin real gəliri arasında yaranan kəskin uyğunsuzluq imkan vermir ki, ehtiyacı olanlar mənzil alma imkanına malik olsun. Belə bir uyğunsuzluq külli miqdarda xərc və vəsaitlə tikilən binaların «ölüləşdirilməsinə» səbəb olur.

Rahat yaşayış üçün əlverişli olan saysız-hesabsız komfort mənzillər boş qaldığı vəziyyətdə, yüz minlərlə əhali zirzəmilərdə, daxmalarda, çadırlarda günlərini keçirir. Yaradılmış maddi nemətlə yaşayış üçün tam əlverişli obyektlərin mövcudluğu vəziyyətində evsizliyin, yoxsulluğun üz-üzə dayanması dövrün faciəsindən başqa bir şey deyil.

Respublikanın iri və orta şəhərlərinin müxtəlif təmayüllü problemləri mövcuddur. Bakı şəhəri üçün səciyyəvi vəziyyət ondan ibarətdir ki, onun mərkəzi hissəsində əsasən inqilabdan əvvəl tikilmiş 5-7 mərtəbəli binalar keçmişin abidəsi kimi durur. 1960-cı illərdən başlamış yaradılan mikrorayonlarda əsasən 5-6 mərtəbəli, sonralar isə tikilmiş 8-9-10 mərtəbəli binalar geniş ərazi tutur.

Son illərdə SSRİ-nin süqutundan sonra Azərbaycan şəhərlərində, xüsusilə, Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda xarici şirkətlərin tikdiyi yüksək (10-15-20) mərtəbəli yaraşıqlı binaları şəhərlərin müasir dövrün tələbinə uyğun abadlaşdırılmasında böyük işlərin başlanğıcı hesab etmək olar.

SSRİ-nin süqutundan sonra respublikanın tikinti-quraşdırma müəssisələrinin tənəzzülü, xarici kompaniyaların, şirkətlərin Azərbaycana axını iki təzahürdə özünü göstərir. Birincisi ondan ibarətdir ki, dövlət hesabına tikilən binalarda işin dayanması bu prosesdə geniş əhali kütləsini dövlətdən mənzil almaq imkanından məhrum etdi. İkincisi, xarici şirkət və kompaniyaların Bakıda, Sumqayıtda, Gəncədə 15-16-20 mərtəbəli gözəl binalardakı mənzillər çox baha olduğundan yalnız imkanlı adamlara nəsib olur.

Buradan belə nəticə çıxır ki, perspektivdə şəhərlərin inkişafı və şəhərsalma zəruriliyini təkcə dəmir yolu ilə əlaqələndirmək düzgün deyil. Çünki sürətlə inkişaf etməkdə olan avtomobil nəqliyyatı bu vəzifənin çox hissəsini «öz üzərinə» götürür. Lakin elə şəhərlər var ki, onların ətrafında mövcud olan faydalı qazıntıların istismarı, bunun əsasında ağır sənayenin inkişafı, eləcə də neft-qaz sənaye mərkəzlərinin tərəqqisi dəmir yollar olmadan mümkün deyil. Daşkəsən dağmədən, Zəylik alunit mədənlərinin, Filizçay polimetal yataqlarının, Nehrəm, Naxçıvan duz, dolomit mədənlərinin istismarı külli miqdarda yük əmələ gətirir.

Məlumdur ki, kütləvi yüklərin uzaq məsafəyə daşınması üzrə avtonəqliyyatın tamamilə yerinə yetirə bilməyəcəyinə görə bu vəzifənin bir hissəsinin öhdəsindən dəmir yolu gələ bilər. Buna görə göstərilən mədən idarələrinin inkişafı dəmir yolunun fəaliyyətinin artırılması ilə həll oluna bilinər.

Son 5-6 ildə Azərbaycanın orta və kiçik şəhərlərində əhali artımı azalmaqdadır və ya durğunluq dövrünü keçirir. Bu hadisə əsasən son vaxtlarda yaranmış vəziyyətlərlə əlaqədardır.

a) Sovet İttifaqının süqutundan sonra dövlətin idarəetmə quruluşunda fəaliyyət göstərən müəssisələrin, təşkilatların süqutu ilə;

b) əhaliyə xidmət sahələrinin fəaliyyətlərinin zəifləməsi, onların sərəncamında olan əsas istehsal fondlarının qısa müddətdə sıradan çıxması ilə;

c) şəhərləri ərzaq məhsulları, xammalla təmin edən şəhərətrafı təsərrüfatlarda ərzaq məhsullarının tənəzzül etməsi ilə;

ç) özünü və ailəsini dolandırmaq məqsədilə başqa rayonlara, əsasən respublikadan kənarda iş axtarmağa getmələri və xüsusilə cavanların xarici ölkələrə getməsi ilə əlaqədar qızların ailə qurmaq imkanından məhrum olmaları, bununla əlaqədar şəhərlərdə doğuşun azalması, əhali arasında «qocalmanın» artması və s.;

Kür-Araz ovalığı şəhərlərinin və onların inkişafını məhdudlaşdıran obyektiv səbəblərdən biri yay aylarında suyun, qışda yanacağın qıtlığıdır.

Azərbaycan şəhərlərinin su ilə təmin edilməsi müxtəlif mənbələr hesabına yerinə yetirilir. Yarımsəhra şəraitində yerləşən, səth sularından məhrum olan Abşeron yarımadasının ştq-ləri əsrimizin əvvəlindən bəri başlıca olaraq kənardan gətirilən su ilə təmin olunur. 1915-ci ildə çəkilmiş Bakı-Şollar su kəməri Abşeronun şəhər və kəndlərini su ilə təmin edir. Bundan əlavə, Abşeronun kənd və şəhər əhalisi su quyularından, istifadə edirlər.

Əhali artdıqca şəhərlərin, şəhər təsərrüfatının, sənaye və s. sahələrin suya olan tələbatı da çoxalır. Bununla əlaqədar 1950-ci illərdən başlayaraq bu vaxta qədər Kür çayından Bakı şəhərinə çəkilmiş sü kəməri rayonun sənayesini, kənd təsərrüfatını su ilə təmin edir. 1940-cı illərin əvvəlində çəkilmiş Samur-Dəvəçi (*Samur-Abşeron*) suvarma kanalı keçdiyi ərazi boyu suvarmaya və əhalinin içməli suya olan tələbatı qismən ödənilir. Samur-Abşeron kanalının suyu ilə doldurulmuş Ceyranbatan su anbarı Bakı-Sumqayıt şəhər-

lərinin əhalisini və yarımadanın kənd təsərrüfatını su ilə təmin edir.

Ümumiyyətlə, müasir dövrdə və gələcəkdə respublika şəhərlərinin su təchizatı dərəcəsini aşağıdakı kimi vermək olar:

a) çaylardan çəkilmiş su kəmərləri vasitəsilə təmin olunan şəhərlər.Bura Abşeron, qismən Gəncə, Hacıqabul, Əli-Bayramlı və b.

b) kanallar və su anbarlarından istifadə edən şəhərlər və ştq-lər. Naxçıvan Muxtar Respublikasının, Kür-Araz ovalığının şəhərləri və bir neçə ştq-lər.

c) bilavasitə çaylardan və bulaqlardan istifadə edən şəhərlər: Şəki-Zaqatala, Lənkəran-Astara, Kəlbəcər-Laçın, Quba-Xaçmaz rayonlarının şəhərləri və bəzi ştq-lər.

Şəhərlərin inkişafında su problemi həlledici əhəmiyyət kəsb edir. Respublikada hidrotexniki qurğuların, göllərin, su anbarlarının yaradılması haqqında çox materiallara rast gəlinir. Lakin onların orta və kiçik şəhərlərə elmi, ekoloji və ətraf mühitə olan təsir haqqında yazılar demək olar ki, çox azdır.

Bir qayda olaraq şəhərlərin salınmasında, şəhərdaxili və şəhərətrafı təsərrüfatın inkişafında su problemlərinin həlli ön plana çəkilir, su mənbələrinə, suyun keyfiyyətinə mühüm amil kimi baxılır.

Respublikada azlıq təşkil edən dağ rayonlarının şəhərləri müstəsna olmaqla qalan şəhər və ştq-lər mənfi su balansına malik quraq ərazidə yerləşir. Onların əhalisinin miqdarı və şəhər təsərrüfatının inkişafı bilavasitə su problemlərinin həllindən asılıdır. Belə şəhərlərdə suyun optimal səviyyədətəchiz olunması üçün külli miqdarda əmək, material, kapital qoyuluşu lazımdır. Bu da iqtisadi və ekoloji baxımdan hər zaman sərfəli deyil.

Respublikanın bir sıra rayonlarında, xüsusilə Qarabağ, Şəki-Zaqatala, Lənkəran-Astara regionlarının şəhərlərində artezian sularından texniki məqsədlər üçün istifadə edilir.

Bizim fikrimizcə, bu, iqtisadi və ekoloji baxımdan səmərəli hesab edilə bilməz. Artezian suları məhdud olmaqla respublikanın su balansında «qızıl fond», kimi qiymətləndirilir, ona görə artezian quyularından texniki məqsədlərdə və məişətdə istifadə edilməsi yolverilməz hesab edilməlidir.

Gələcəkdə respublikanın Qarabağ, Şəki-Zaqatala, Lənkəran-Astara, Quba-Xaçmaz, Gəncə-Qazax, Şamaxı-İsmayıllı rayonları əhalisinin, xüsusilə şəhər sakinlərinin şirin su təminatında artezian, subartezian quyuları ən etibarlı mənbədir. Bunu nəzərə alaraq respublikanın yeraltı şirin su ehtiyatlarından qənaətlə, məqsədyönlü və səmərəli istifadə edilməsi vacibdir. Burada sıx sənaye, xidmət, mədəni-məişət sahələrinə malik Abşeron yarımadası xüsusi yer tutur.

Qarşıda duran ən mühüm tədbirlərdən biri yeraltı suların, Abşeron yarımadasının quyu sularının çirklənmədən mühafizə edilməsidir. Bundan başqa, istiliklərin, şitilliklərin, əkinlərin suvarılmasında, kübrələnməsində, ziyanvericilərə qarşı kimyəvi maddələrin verilməsində yeraltı suların çirklənmədən mühafizəsi tədbirlərinin həyata keçirilməsi mühüm şərt kimi qəbul edilməlidir.

Ən əsas məsələlərdən biri saysız-hesabsız istixanalardan çıxarılan, kimyalaşmış zərərli torpaqların əkin torpaqlarının üstünə atılması, yeraltı suların üzə çıxıb bataqlıq əmələ gətirməsi şəhər mühitində və onun ətrafında yaşayan əhali üçün təhlükəli vəziyyət yarada bilməsidir. Belə şəraitdə çirklənməyə məruz qalan quyu sularının yararsız hala salınması ekoloji və insanların sağlamlığı baxımından təhlükəlidir.

Orta və kiçik şəhərlərin, ştq-lərin inkişafında plan-layihə sənədlərinin yerli şəraitə uyğun tərtibi, eləcə də sosial və təsərrüfat baxımından əlverişli yerlərin seçilməsi zəruri şərtlərdən biridir.

Azərbaycanda bazar iqtisadiyyatı şəraitinə uyğun olaraq iqtisadi-coğrafi mövqedə torpaqların məhsuldarlığının, su ehtiyatı və onun keyfiyyətinin nəzərə alınması vacib şərtdir.

Əvvəlki illərdən fərqli olaraq indi iri yaşayış məntəqələrinin yaranması, onların ştq-lərə, şəhərlərə çevrilməsində və ərazisindəki təbii sərvətlərdən – torpaqdan, sudan mineral xammal ehtiyatlarından istifadə edilməsi vacib şərt kimi qəbul edilir. Belə vəziyyətdə yeni yaranmış yaşayış məntəqələri avtonəqliyyat vasitəsilə, magistral yollarla birləşdirilir. Uzun müddət respublikada elə bir vəziyyət yaranmışdır ki, şəhər və ştq-lərin əksəriyyəti dəmir yolu, şose yolu üstündə yerləşmişdir. Lakin bu şərait kəndlərarası avtomobil nəqliyyatının inkişafı ilə əlaqədar əhəmiyyətini xeyli itirmişdir. Əlbəttə, hər hansı yaşayış məntəqəsinin yaradılması müvafiq ərazilərin seçilməsini, gələcəkdə onların nəqliyyat-iqtisadi əlaqələrdə fəaliyyətinin nəzərə alınmasını tələb edir.

Mühüm məsələlərdən biri şəhərdaxili və şəhərətrafı zona fərqlərinin və şəhərin funksiyasının müəyyənləşdirilməsidir. Əsas şəhər səciyyəsinə görə Bakı-Sumqayıt, Gəncə şəhərlərinin qiymətləndirilməsində iqtisadi-sosial, xidmət sahələri arasında obyektiv fərqlər mövcuddur. Şəhərin mərkəzi hissəsi ilə şərq və şimal-şərq tərəfdə yerləşən Əhmədli, 8-ci kilometr, Günəşli massivi, eləcə də qərb və şimal-qərb tərəfi əhatə edən mikrorayonlar arasında coğrafi şərait, məişət xidməti, yol-nəqliyyat və s. amillər arasında müəyyən fərqlər nəzərə çarpır.

İçəri şəhər, dənizkənarı sahə, Qara şəhər, Bayıl hissəsi və Xanlar qəsəbəsinə qədər olan ərazi əhali sıxlığına, nəqliyyatın hərəkətinə, portların, sənaye müəssisələrinin sıx yerləşməsinə, infrastruktur əlaqələrinin səviyyəsinə görə bir-birindən seçilir. Şəhərin keyfiyyət baxımından qiymətləndirilməsində urbanizasiya prosesi əsas meyar kimi götürüldüyündən başqa problemlərin və qeyri-istehsal proseslərinin hamısı onunla əlaqədardır. İstehsalın təmərküzləşməsi, xidmət sahələrinin yerləşməsi göstərilən əmək ehtiyatlarından istifadə edilməsini tənzimləyən mühüm amildir. Özlüyündə bu proses həm «rəqqas miqrasiyası»nın, həm də kənar rayonlardan şəhərə əhali axınını fəaliyyətə gətirən

«qüvvədir».

Şəhərin iqtisadi, sosial vəziyyəti nəqliyyat vasitələrinin intensiv hərəkəti yuxarıda deyildiyi amillərə qarşılıqlı surətdə «fəaliyyət» göstərir. Buradan ortaya çıxan əsas neqativ vəziyyət şəhər muhitinin müxtəlif sənaye, mənzil-məişət tullantıları ilə çirkləndirilməsi və bunun şəhər əhalisinin səhhətinə zərər yetirməsidir.

Şəhər mühiti şəraitində sakinlərə göstərilən əsas xidmət və vəzifə onların harada yaşamasından asılı olmayaraq, maddi və mədəni həyat səviyyəsinin yaxşılaşdırılmasından, ekoloji mühitin, təbii şəraitin şəhər əhalisinə verə biləcəyi neqativ təsirlərin aradan qaldırılmasından ibarətdir. Burada nəzərə almaq lazımdır ki, Azərbaycanın orta və böyük şəhərlərinin mərkəzi ilə kənarında şəhərətrafı zonada yaşayan əhalinin miqdarı və onların iqtisadi-ekoloji baxımdan təsirə məruz qaldığı şərait arasında xeyli fərqlər vardır. Ən çox əhali şəhərlərin mərkəzi hissəsində cəmlənir. Bakı şəhərinə gəldikdə isə onun mərkəzi hissəsi ilə qovuşan Qara şəhər sıx əhali məskunlaşmasına və sənaye müəssisələrinin (*gəmi təmiri, neft emalı zavodları, istilik-elektrik, təmir-texniki stansiyaları*) təmərküzləşməsinə malikdir.

Bunların «davamçısı» olan Nərimanov rayonundakı və Keşlə yaşayış massivindəki maşınqayırma zavodları, təmir-tikinti müəssisələri, yükləmə və boşaltma dəmir yolu stansiyası, həmin ərazilərdə nəqliyyatın gərgin hərəkəti, urbanizasiyanın və təmərküzləşmənin klassik «obyektidir». Bakı şəhərinin sənaye, nəqliyyat, xidmət sahələri üzrə müəssisələrin, təşkilatların yerləşməsi kənarlarda yaranır, getdikcə seyrəlir.

Şəhərin mərkəzi hissəsi onun «intensiv» istehsal-nəqliyyat sahələri, urbanizasiya ilə müəyyən qədər sıxışdırılır. Mərkəzdən kənara doğru əhali və istehsalın təmərküzləşməsi seyrəlir. Bakının, Sumqayıtın mikrorayonlarına gəldikdə isə onlar bir növ «yataq» rayonlarının istirahət zonaları rolunu oynayır. Bu onu göstərir ki, yuxarıda

göstərilən şəhərlərdə mərkəzlə kənarlar, «mənzil» və «əmək» tətbiqi rayonları ilə sıx əlaqə mövcuddur. Şəhərlərə məxsus olan belə bir vəziyyət çox hallarda, xüsusilə Bakı şəhəri üçün müəyyən qədər intensivlik və uğursuzluq yaradır.

Göstərilən neqativ halların aradan qaldırılması üçün istər mövcud şəraitdə, istərsə də yeni şəhərsalınma layihələrində şəhərlərdə əhali yerləşməsinin təbii-iqtisadi şəraitinin əlverişli mövqeyindən asılı olaraq urbanizasiya və təmərküzləşmə proseslərinə nail olunmuşdur.

## 2.4. Orta və kiçik şəhərlərin, şəhər tipli qəsəbələrin təbii-iqtisadi inkişaf potensialı

1990-cı ildən başlamış iqtisadi islahat tədbirlərindən əvvəl Respublikada perspektiv əhəmiyyətli kiçik və orta şəhərlərdə əsasən kənd təsərrüfatı məhsullarını emal edən müəssisələrin yerləşdirilməsinə və mövcud olanların yenidən qurulmasına diqqət verilirdi. Bu tədbir yerli əhali miqrasiyası (*kəndlərdən gələnlər*) hesabına məskunlaşmanı artırırdı, sənaye potensialının, istehsal və sosial infrastrukturun inkişafına səbəb olurdu. Rayonlararası idarəetmə funksiyasını yerinə yetirməklə, regional sistemdə kəndlərə nisbətən şəhərlərin inkişafını artırırdı. Bununla yanaşı, qeyd etmək lazımdır ki, çoxlu investisiyaya malik nazirliklər və idarələr kapital qoyuluşunun əsas hissəsini şəhərlərdə yeni tikntilərə sərf edirdilər.

Şəhərdə istehsal, xidmət sahələrinin inkişafını yaxınlaşdıran tədbirlər eyni zamanda bir başa «kəfkir» miqrasiyası hesabına məskunlaşma səviyyəsini artırırdı.

Bazar münasibətlərinə keçid şəraitində Azərbaycan rayonlarının iqtisadiyyatı, əhalisi keçmişdə olduğu kimi mərkəzləşdirilmiş kapital qoyuluşundan demək olar ki, məhrum olmuş, onlarda sənaye sahələri aşağı texnoloji təchizata malik olmuşdur. İstehsal fondlarının fəal hissəsi yüksək dərəcədə aşınmaya məruz qalmaqla bazar şəraitində

rəqabətə davamsız vəziyyətdədir. Bunlar istehsal əlaqələrinin pozulmasına, elektrik, istilik enerjisi istifadəsinə haqq verilməsinin, nəqliyyat və rabitə xidmətinə görə ödəmələrin artmasına şərait yaratmışdır. Bunların hamısı büdcə vəsaitlərinin qıtlığı şəraitində Azərbaycan şəhərlərində sənaye istehsalının tənəzzülünə və bunların sayəsində sosial-iqtisadi sferanın böhran hala düşməsinə gətirib çıxarmışdır.

Olduqca zəif maliyyə vəsaitinə, maddi-texniki bazaya malik olan bələdiyyə idarələri, icra təşkilatları müasir şəraitdə orta və kiçik şəhərlərdə sənayenin, nəqliyyatın, xidmət sahələrinin suveren dövlətin tələblərinə uyğun inkişafının təmin edilməsində məhdud imkanlara malikdir.

Kiçik və orta şəhərlərin sosial-iqtisadi inkişafı istehsalın, qeyri-istehsal sahələrinin, xidmət sferasının, onların təbii-iqtisadi potensialından istifadə edilməsindən asılıdır. Kiçik və orta şəhərlərin potensial inkişafının əsasını təbii-və iqtisadi, sosial, elmi-texniki xarakterli imkanlar təşkil edir ki, bunlar sosial-iqtisadi tərəqqini təmin edən və ya məhdudlaşdıran amillər sırasına daxildir. Bunların hamısını müxtəlif növlü bütöv sistem kimi qiymətləndirmək olar. Göstərilən sistemin vahidliyi şəhərin və onun cazibə qüvvəsi altında olan ərazinin təbii, sosial-iqtisadi, əlaqələr sistemini təşkil edir.

Kiçik və orta şəhərlərin inkişafında, onlarda əhalinin məskunlaşması həyat səviyyəsinin yaxşılaşdırılmasında, urbanizasiyanın nizama salınmasında iqtisadi, təbii ehtiyatlar, rekreasiya potensialı əsas əhəmiyyətə malikdir. Şəhərin ümumi imkanlarından istifadə edilməsi iqtisadi və sosial inkişafı, asudə işçi qüvvəsindən istifadəni təmin edən mühüm amildir. Bu imkanları birləşdirən amillərin miqdarı nə qədər çox olarsa, şəhərlərin inkişaf potensialı da çox olar.

Burada iqtisadi, mədəni inkişafın fərdi və ümumi potensial qiyməti orta və kiçik şəhərlərin təbii şəraitinin, təbii sərvətlərinin xüsusiyyətləri ilə əlaqədar perspektiv inkişafını müəyyən edir. Kiçik və orta şəhərlərin inkişafı lokal və regi-

onal sistemdə məskunlaşmanın səviyyəsindən də çox asılıdır.

Azərbaycanda şəhər əhalisi ayrı-ayrı şəhər qrupları üzrə aşağıdakı kimi yerləşib: Bakı, Sumqayıt, Gəncə – böyük şəhərlərdə 58 faiz, orta şəhərlərdə 20,1 faiz, kiçik şəhərlərdə 9,2 faiz, ştq-lərdə 12,7 faiz.

Kiçik və orta şəhərlərin əksəriyyəti rayon mərkəzlərindən, şəhər və qəsəbə nümayəndəliyindən ibarətdir. Onların rayon əmələgətirici fəaliyyəti və ətraf mühitə təsiri nəinki əhalisinin miqdarından, eləcə də nəqliyyat, iqtisadi mövqeyindən, sosial-iqtisadi inkişafından onları, əhatə edən ərazidə istehsal və s. əlaqələrdən asılıdır. Bu xüsusiyyətlərdən asılı olaraq məskunlaşmanın regional sistemində və gələcək inkişafında rolu müəyyən edilməlidir.

Orta və qismən də kiçik şəhərlər rayonlararası və rayonlardaxili vəzifəni yerinə yetirir. Kiçik şəhərlərin və şəhər tipli qəsəbələrin əksəriyyəti və perspektivdə olan inzibati rayonların səpkisində sosial-iqtisadi inkişafa təsir göstərən yaşayış məntəqələridir. Bu sahədə yüksək potensiala malik olan şəhərlər sırasına Yevlax, Ağstafa, Şəmkir, Tovuz, Mingəçevir, Əli-Bayramlı, Şəki, Xaçmaz, Quba, Şamaxı, Salyan, Lənkəran və b. daxildir.

Göstərilən şəhərlərin avtomobil, şose yolları üstündə, Xəzər sahilində, kür çayı sahilində yerləşməsi, əlverişli əhali məskunlaşması şəraitinə malik olması əsasən yeyinti və yüngül sənaye sahələrinin inkişafına, yol-nəqliyyat qovşaqlarının formalaşmasına şərait yaradır.

Kiçik və orta şəhərlərin inkişafında əsas məqsəd emal sənayesinin, əhaliyə xidmət sahələrinin yerləşməsi, idarəetmə sisteminin təşkili ilə əlaqədar mütərəqqi istehsal sahələrində əhali məşğulçuluğunun təşkili və onların həyat səviyyəsinin yaxşılaşdırılmasından, dövlətiin müvafiq məhsullara olan tələbatının ödənilməsindən ibarətdir.

Göstərilən məqsədə nail olmaq isə şəhər mühitində sosial-iqtisadi, mənəvi miqyasın yaşayış səviyyəsinin yaxşılaş-

dırılmasının ödənilməsinə yönəldilməsini təmin edən əsas vasitələrdəndir.

Kiçik və orta şəhərlərdə göstərilən potensial növləri və onu əmələ gətirən demoqrafik şəhər mühiti, yaşayış tərzi, səviyyəsi çox aşağıdır.

Bununla belə respublikanın iri və böyük şəhərlərinə nisbətən orta və kiçik şəhərlərin demoqrafik potensialı yüksəkdir. Son on ildə Bakı, Sumqayıt, Gəncə şəhərləri də təbii artım hesabına hər 1000 nəfərə orta hesabla 9 əhali artmışsa, kiçik və orta şəhərlərdə ondan xeyli yüksək 12 olmuşdur.

İqtisadi potensial şəhər yaşayış məntəqələri təsərrüfatının səmərəli inkişafı ilə ifadə edilir. Kiçik və orta şəhərlərin inkişafı üçün istehsal və maliyyə potensialı (ehtiyatı) da böyük əhəmiyyətə malikdir.

Şəhər yaşayış məntəqələrinin inkişaf potensialı sənaye istehsalı, onun quruluşu, ixtisaslaşması ilə müəyyən edilir. Bazar iqtisadiyyatına keçid şəraitində çoxsahəli sənaye quruluşuna malik olan şəhər yaşayış məntəqələrinin fəaliyyətində, onların «cəlbedici» əraziləri təbii, iqtisadi, əmək ehtiyatı potensialından istifadə edilməsi üçün geniş imkanlara malikdir. İndi sənaye istehsalının ümumi tənəzzülü şəraitində kiçik və orta şəhərlərdə mövcud müəssisələrdə, xidmət sferası sahələrində bu imkanlardan necə istifadə edilməsindən asılıdır. Bakı, Sumqayıt, Gəncə kimi iri şəhərlərdə konstriktiv əhəmiyyətli metallurgiya, kimya-metallurgiya, maşınqayırma, metal emalı müəssisələrinin tənəzzülü şəraitində, yanacaq-energetika, elektroenergetika sənayesi sahələri iqtisadi, təbii potensialdan istifadə etməklə əvvəlki mövqelərini saxlamışlar. Qismən orta şəhərlərdə istər yerli, istərsə də xarici şirkətlərin iştirakı ilə yeni istehsal sahələri, əsas etibari ilə tikinti kompleksləri və əhaliyə xidmət edən müəssisələr yaradılmışdır.

Respublikada əhalisi 100 mindən artıq olan şəhərlərin sənayesi, xidmət sahələri müxtəlif quruluşlu olduğu halda

kiçik və orta şəhərlərdə mövcud sənaye sahələri əsas etibar ilə yerli kənd təsərrüfatı xammalını emal edən yüngül və yeyinti, qismən də sənətkarlıqla ixtisaslaşmışdır. Bununla yanaşı, Salyan, Xaçmaz, Lənkəran, Naxçıvan, Siyəzən və s. şəhərlərdə kimya, metal emalı, maşınqayırma kimi sənaye müəssisələri demək olar ki, inkişafdan qalmır. Lakin onların potensial imkanları varlığını saxlamışdır.

Belə müəssisələr texniki tərəqqinin «carçısı» olmaqla, əhalinin müəyyən hissəsinin bu təmayüldə ixtisaslaşmasına, kadr hazırlığının təşkilinə şərait yaradan obyektlərdir. Qeyd etmək lazımdır ki, məlum səbəblər üzündən son illərin hadisəsi, respublikanın keçid dövründə ümumi istehsalın tənəzzülü göstərilən sahələrə mənfi təsirini göstərmişdir.

Bazar iqtisadiyyatına keçid şəraitində respublikanın kiçik və orta şəhərlərinin əmək, kadr, iqtisadi potensialını, eləcə də sənayenin, elm və texnikanın müasir tələblərinə uyğun inkişafını, Bakı, Sumqayıt aqlomerasiyasında istehsalın urbanizasiyasının seyrəldilməsi zəruriliyini nəzərə alaraq əsas diqqət orta və kiçik şəhərlərdə yeni müəssisələrin tikilməsinə verilməlidir.

Bu tədbir kənd yerlərində əhali mobilliyini sabit saxlayır, mülkiyyət formalarından asılı olmayaraq asudə əmək ehtiyatlarından istifadə etməyi yaxşılaşdırır, rayonlardan böyük və orta şəhərlərə doğru miqrasiyanın qarşısını alır.

Müasir dövrdə iqtisadi islahatlar aparılması, bazar münasibətlərinə keçid dövründə təbii sərvətlərdən, iqtisadi, elmi-texniki potensialdan istifadə edilməsi zəifləmişdir. Daşkəsən, Mingəçevir, Əli-Bayramlı şəhərlərində dağ-mədən, metallurgiya, kimya-metallurgiya, yanacaq-energetika, yeyinti, yüngül sənaye müəssisələri kəskin tənəzzülə uğramışlar. İndi bu şəhərlərdə olan və son illərdə əsas fondların mənəvi və fiziki cəhətdən sıradan çıxması, subyektiv səbəblər üzündən dağıdılması o yerə gətirib çıxarmışdır ki, bunların bərpası demək olar ki, indi külli miqdarda kapital qoyuluşu və uzun vaxt tələb edir.

Respublika şəhərlərinin kapitalist istehsal münasibətləri şəraitində iqtisadi inkişafı və bunun ümumdünya standartına uyğun təşkili iki istiqamətdə fəaliyyət göstərilməsini qarşıya qoyur:

a) müvafiq tələblər səviyyəsində maliyyə potensialının artırılmasını;

b) bazar münasibətlərinin tələblərinə uyğun istehsalın inkişafını.

Respublika şəhərlərinin maliyyə potensialının əsasını yerli büdcənin vergi resursları təşkil edir. Bələdiyyə mülklərinin satılmasından, lisenziya fəaliyyətindən, torpaq rentasından əldə edilən vergilərin məhdudluğu şəraitində, əhalidən, müxtəlif müəssisələrdən və idarələrdən alınan gəlir üstünlük təşkil edir. Müasir dövrdə kiçik və orta şəhərlərin inkişafı üçün həm yerli, həm də dövlət büdcəsi maliyyə vəsaitinin istifadəsinə çox ehtiyac vardır.

Təbii sərvətlərin məcmusundan yaranan inkişaf potensialı şəhər yaşayış məntəqələrinin formalaşmasında maddi və mənəvi həyat tərzinin yaxşılaşmasında mühüm mənbədir. Həmin sahənin potensialı təsərrüfat əhəmiyyətli ehtiyatları mineral xammalları, torpaq, su, meşə sərvətlərinin ehtiyatı və s. ilə müəyyən edilir ki, bunlar da şəhər yaşayış məntəqələrinin fəaliyyətində zəruri vasitədir.

Respublika şəhərlərinin ətrafında və yerləşdiyi ərazidə müxtəlif növlü, xüsusi ilə sənaye əhəmiyyətli mineral xammal ehtiyatları var ki, bunlar da yerli, rayonlararası və ölkə əhəmiyyətlidir. Respublikanın kiçik və orta şəhərlərinin yerləşdiyi ərazidə və onların ətrafında olan gil, qum, çınqıl yataqları yerli xammal kimi tikintidə, abadlıq işlərinin aparılmasında, evtikmə, dəmir-beton konstruksiyaların, kirəmit, kərpic, istehsalında istifadə edilir. Şəmkir, Tovuz, Mingəçevir, Daşkəsən, Qazax, Ağstafa, Ağdam, Quba və s. şəhərlərin ətrafındakı mineral tikinti materialları, odadavamlı tikinti gilləri, mergel və s. tikinti materialları saxsı qabları, divar örtüyü və hörgü materialları kimi istifadə edilir.

Bir çox orta və kiçik şəhərlərin yerləşdiyi ərazilər termal və soyuq bulaqlara malikdir. Naxçıvan MR-nın, Babək, Ordubad, Şahbuz şəhərləri ətrafındakı Badamlı, Vayxır, Sirab mineral bulaqları 1980-cı illərdə 150-160 mln.litr müalicə və içməli su vermişdir. İndi erməni işğalı altında olan İsti su, (Kəlbəcər) mineral bulaqları əsasında tikilən bolneoloji sanatoriya-kurort kompleksi Sovet hakimiyyəti dövründə əhaliyə xidmət etmişdir.

Sosial-iqtisadi proseslərin və ayrı-ayrı potensialın xarakterinə görə respublikanın kiçik və orta şəhərləri bir neçə tipə ayrılır.

2000-ci ilin statistik məlumatına görə, Azərbaycan Respublikasında 24 orta və kiçik şəhər var idi və bunlarda da 1261 min nəfər adam yaşayırdı ki, bu da respublika əhalisinin 14,8 faizini təşkil edirdi.

Həmin şəhərləri aşağıdakı tiplərə ayırmaq olar: iqtisadi, demoqrafik, estetik-ekistik və mineral xammal əsaslı. Əsas kapitalda sənaye məhsullarına qoyulan investisiyanın həcmi, respublika büdcəsindən ayrılan dotasiyaların miqdarı iqtisadi göstəriciləri müəyyən edir. Bunlar ya bir nəfər adama görə, ya da respublikada tutduğu mövqeyə görə ifadə edilir. Belə ki, 1990-cı ilə qədər hər il respublika sənaye məhsulunun 11,0 faizini verən Sumqayıt, 10,0 faizini verən Gəncə şəhərlərinin əhalisi ümumrespublika əhalisinin müvafiq olaraq orta hesabla 7,5 faizini təşkil edirdi. Bu onu göstərir ki, həmin şəhərlərdə sənaye istehsalının təmərküzləşməsi, əhali urbanizasyiası başqa şəhərlərə nisbətən yüksəkdir.

Sosial-demoqrafik qrup tərkibində olan şəhərlərdə daxili məhsuldan əhalinin hər nəfərinə düşən gəlir, orta əmək haqqının həcmi, əhalinin sayının artma sürəti, məskunlaşmaya görə şəhərin tutduğu yer əsas göstəricilər sırasına daxildir. Kiçik və orta şəhərlərdə sosial göstəricilər xeyli fərqlidir. Məsələn, əhalinin hər nəfərinə düşən gəlir Kürdəmirlə, Ağsu, Ucar, Siyəzən, Neftçala, Mingəçevir arasında 5-6 də-

fə fərqlidir.

Şəhərlərin nəqliyyat-coğrafi mövqeyi rayonaməlegəlmə tədbirlərinin ətraf mühitə olan təsiri, əhali məskunlaşması potensialı səviyyəsini müəyyən edən əsas amillərdəndir.

Yuxarıdakı göstəricilərin məcmusuna görə respublikanın kiçik və orta şəhərləri aşağıdakı tiplərə ayrılır:

1. yüksək inkişaf potensialına malik şəhərlər: Daşkəsən, Tovuz, Qazax, Şəki, Siyəzən, Əli-Bayramlı, Mingəçevir, Beyləqan, Zaqatala, Naxçıvan, Ordubad, Babək, Şamaxı, Ağdam, Salyan, Fizuli, Yevlax;

2. orta inkişaf potensialına malik olan şəhərlər: Quba, Qusar, Şəmkir, Bərdə, Göyçay, Kürdəmir, Lənkəran, Sabirabad, Ucar, Qazıməmməd, Dəvəçi, Neftçala, Cəlilabad;

3. zəif inkişaf potensialına malik olan şəhərlər: Laçın, Cəbrayıl, Zəngilan, İmişli, Goranboy, Lerik, Masallı, Yardımlı, Gədəbəy, İsmayıllı, Zərdab, Mərəzə, Qax, Oğuz, Qəbələ.

Yüksək təbii, iqtisadi, işçi qüvvəsi potensialına malik olan 1-ci tip şəhərlərə xas olan inkişaf istiqamətləri onların yerləşdikləri və ətrafındakı konstruktiv əhəmiyyətli mineral xammallardan istifadə edilməsi əsasında dövrün tələbatına uyğun yenidən qurulması və təzələrin tikilməsidir. Bununla yanaşı, onlarda əmək, material potensiallarından səmərəli istifadəsi əsasında mülkiyyət formalarından və istehsal münasibətlərindən asılı olmayaraq maddi və qeyri-maddi istehsalın bazar münasibətlərinə uyğun inkişafı zəruri amil kimi qəbul edilməlidir.

Sənaye müəssisələrinin istehsal gücünün yaxşılaşdırılması, onların yenidən qurulması, texniki təchizatın artırılması, əlavə iş yerlərinin açılması yerli büdcədən, eləcə də vergi yığımından ayrılmış investisiya hesabına aparılması, dövrün tələblərindən irəli gəlir. Ümumiyyətlə, kiçik və orta şəhərlərdə istehsalın, xidmət sahələrinin inkişafı asudə əmək ehtiyatlarının işlə təmin edilməsi dövlət, bələdiyyə, şəxsi sahibkarların iştirakı ilə aparılır. Bütün bunlar dövlətin ni-

zamlayıcı nəzarəti ilə idarə edilir. Burada əsas məsələlərdən biri dövlətin üzərinə düşən zəruri vəzifə əmək birjaları vasitəsilə əmək qabiliyyətlərinin, yüksək ixtisaslı mütəxəssislərin işlə təmin edilməsindən ibarətdir.

Respublikanın kiçik şəhərlərinin inkişaf problemləri bilavasitə dolayı yolla bir sıra mühüm məsələlərlə əlaqələnir. Məsələ ondan ibarətdir ki, respublikanın kiçik, qismən də orta şəhərləri iqtisadi və coğrafi baxımdan zəif öyrənilmişdir. Ümumilikdə, Bakı müstəsna olmaqla şəhərlərin ayrılıqda öyrənilməsinə dair demək olar ki, tədqiqat işləri yox dərəcindədir.

Sumqayıt, Gəncə, Mingəçevir, Əli-Bayramlı şəhərlərinin öyrənilməsində əsas olaraq onların əhalisi, təbii şəraiti, tarixi inkişafı haqqında məlumatlar verildiyi halda, iqtisadiyyatın, onun ayrı-ayrı sahələrinin formalaşması, respublikadaxili əmək bölgüsündəki tutduqları mövqe haqqında tədqiqatlara az rast gəlinir. Şəhər probleminin öyrənilməsində ən vacib məsələlərdən biri də onun xarici mühitə, şəhərətrafı əraziyə olan tə`sirində «rəqqas miqrasiyası»nın öyrənilməsidir. Bu, şəhərin kompleks öyrənilməsinin mühim amilidir.

Müasir dövrdə şəhərlərin inkişaf istiqamətinin təyin edilməsində məhsuldar qüvvələrin aparıcı qüvvəsi olan əmək ehtiyatlarının formalaşma və təkmilləşmə mənbələrinin müəyyən edilməsi vacibdir. Əsas məhsuldar qüvvədən başqa «istehlakçı», xidmət sahələrinin obyekti olan əhali haqqında tədqiqat aparmadan şəhəri öyrənmək olmaz. Əhalinin tərkibi şəhərin və ya şəhər qruplarının güzgüsünü əks etdirir. Ayrı-pyrı qrup şəhərlərin iqtisadi inkişafı arasındakı fərqlər onlarda yaşayan əhalinin xarakterini əks etdirir. Şəhərin təkcə istehsal obyekti kimi xarakterizə və tədqiq edilməsi məqsədə müvafiq olardı.

Qeyd etmək lazımdır ki, texniki tərəqqi bazasında geniş təkrar istehsalın fəaliyyətində təsərrüfat qurumlarının iqtisadiyyatına, tələblərinə münasib yaradılması dövrün tələblə-

rindən irəli gəlir. İstehsalın təmərküzləşməsinin intensivliyi ilə əlaqədar həmin istehsal sahəsindən işçilərin bir hissəsi azad edilir. İstehsalın təmərküzləşməsi əhalinin sahələrarası miqrasiyasının maddi əsasıdır. O, sahələrdəki istehsalın əlaqəli inkişafı təkrar istehsalı qabaqlayır, onda işçi qüvvəsinin ixtisarı baş verir.

Sovet hakimiyyəti dövründə hakim olan istehsal münasibətləri şəraitində istehsalın və qeyri-istehsal sahələrinin birindən ixtisar edilən işçi qüvvəsi planlı surətdə başqa sahələrə köçürülürdü. Bu proses respublika və ya iqtisadi rayonlar daxilində planlı surətdə əhalinin yerdəyişməsinə səbəb olurdu. Bakı, Mingəçevir, Sumqayıt, Naxçıvan, Gəncə şəhərlərində Sovet hakimiyyəti illərində aparılan iri miqrasiya tikinti işləri respublikadaxili əhali miqrasiyasında, yer dəyişməsində, şəhərlərin formalaşmasında böyük rol oynamışdır. Bundan başqa, istehsalın ərazi üzrə optimal yerləşməsi, iqtisadiyyatın təmərküzləşməsi, texniki tərəqqinin inkişafı sayəsində ixtisara düşən və azad edilən işçi qüvvəsinin başqa sahələrdə istifadə edilməsinə şərait yaradırdı. Ərazi daxilində əhalinin mütənasib yerləşməsini təmin edirdi.

Respublikada əhalinin seyrək olduğu dağlıq rayonlarda təbii sərvətlərin, xüsusilə dağ-mədən, sənaye xammallarının mənimsənilməsi onların əsasında gələcəkdə müvafiq sənaye müəssisələrinin tikilməsi həmin ərazilərdə əmək ehtiyatlarından istifadə edilməsinə, beləliklə də dağ rayonlarında əhali məskunlaşmasının müəyyən qədər sıxlaşmasına şərait yaradacaqdır.

Yuxarıdakı cədvəldən məlum olur ki, respublikanın orta və kiçik şəhərlərində olan əmək qabiliyyətli əhali mülkiyyət formalarından asılı olmayaraq respublikada iqtisadiyyatın, əhaliyə xidmət sahələrinin inkişafında böyük potensial qüvvədir.

Rayondaxili və rayonlararası miqrasiyada iştirak edən, yarısından çoxu asudə əmək ehtiyatı yaradan bu qədər əhalinin əməyindən səmərəli istifadə edilməsi dövlət qayğısının

tərkib hissəsinə çevrilərsə, böyük iqtisadi fayda verər.

## 2.5. Şəhər cəmiyyətinin ərazi və sosial-iqtisadi sisteminin təhlili

Cəmiyyətin maddi, mədəni, mənəvi tələbatından, iqtisadi, sosial inkişafın, texniki tərəqqinin səviyyəsindən asılı olaraq insanların məskan saldıqları yaşayış məntəqələri genişlənir, onların ali təbəqəsi olan yeni-yeni şəhərlər salınır, mövcud olanları böyüyür. Bunlar ərazi daxilində urbanizasiyanın, istehsalın inkişafı və təmərküzləşməsi, müxtəlif nəqliyyat vasitələri ilə intensiv fəaliyyətlə infrastruktur əlaqələrinə qoşulur. Belə mürəkkəb və mütərəqqi proseslərin müasir dövrün tələblərinə uyğun iqtisadi, ekoloji qarşılıqlı inkişafı, idarə edilməsi qanunauyğunluqlarının nəzəri əsaslarının əlaqəli təsirini əks etdirən metodların işlənib hazırlanmasına indi böyük ehtiyac duyulur. Elmi-praktiki baxımdan bu prosesləri araşdırmaq zəruriliyi ortaya çıxır. Tədqiqat təmayülündə mürəkkəb proseslərə malik olan çoxsaylı şəhərlər funksional cəhətdən bir-birindən xeyli fərqlidirlər. Ən geniş yayılmış və elmi cəhətdən əsaslandırılmış tərifə görə 5-10 min nəfər əhaliyə malik, kənd təsərrüfatı istehsalı ilə məşğul olmayan yaşayış məntəqələri şəhər adlanır. Ümumiyyətlə, əhalinin sayına görə şəhərlərin statusunu müəyyən etmək üzrə hamı tərəfindən qəbul edilmiş dəqiq hüdud və meyar yoxdur. Adətən «şəhər» anlayışı hər hansı «mərkəzlə» və məskunlaşma sistemi ilə sıx əlaqədə olmasını ifadə edir. Lakin, ərazinin bütünlüklə urbanizasiyaya uğraması şəhərləri yeni «şəhər-rayon» sisteminə keçirir, onların ərazi tutumunu genişləndirir. Burada «rəqqas miqrasiyası» prosesi şəhər miqrasiya anlayışını genişləndirir.

Təxmini hesablamalara görə hər gün yaxın rayonlardan Abşeronun kənd və qəsəbələrindən Bakı şəhərinə 240-250 min adam gəlib gedir. 1990-cı ilə qədər, yəni Bakı şəhərindəki sənaye, nəqliyyat, əhaliyə xidmət və ticarət müəssisələ-

rinin normal fəaliyyət göstərdiyi vaxt fəhlələrin, qulluqçuların, tələbələrin, ticarətlə məşğul olanların ümumi miqdarının orta illik sayından 14-15 faizi «rəqqas miqrasiyası»nda iştirak edirdi. Böyük Bakı ərazisində əvvəllərdə fəaliyyətdə olan sənaye müəssisələrinin və sair xidmət sahələrinin tənəzzülü «rəqqas miqrasiyası»nı xeyli zəiflətmişdir. «Rəqqas miqrasiyası» Bakı, Sumqayıt, Naxçıvan, Əli-Bayramlı, Mingəçevir şəhərlərinin indi də «peyki» olmaqda qalır. Bu prosesin miqdarını, fəaliyyət dairəsini artıran, nizama salan əsas meyar şəhərlərin böyüklüyü ilə yanaşı, onlarla ətraf ərazilərin iqtisadi, nəqliyyat, mədəni, tibbi infrastruktur əlaqələrindən asılıdır. Bunlarla yanaşı, qeyd etməliyik ki, «şəhər» anlayışının onun böyüklüyünün, quruluşunun, yerinə yetirdiyi vəzifənin təyin edilməsində müvafiq mütəxəssislər, şəhərşünas alimlər arasında hələ vahid fikir birliyi yoxdur.

B.S.Xorev şəhər anlayışının təyin edilməsində coğrafi, sosial, texniki, demoqrafik və s. aspektləri fərqləndirir. İqtisadi mənada şəhər, şəhər əhalisi ilk növbədə hakim əhali məşğuliyyəti üzrə, kənd təsərrüfatı istehsalı ilə məşğul olmayan yaşayış məntəqəsidir. Ayrı-ayrı kənd təsərrüfatı aqroşəhərlərinin mövcudluğuna baxmayaraq sənaye və əkinçilik əməyi arasında olan köklü surətdə fərqlərə əsaslanaraq şəhərlər keyfiyyət baxımından seçilmə fəaliyyətini saxlayır. Bütün aspektlərlə əlaqədar B.S.Xorev belə hesab edir ki, «şəhərlər», sosial, xalq təsərrüfatı, demoqrafik, texniki informasiya proseslərinin mürəkkəb təmərküzləşmə yeridir.

Biz P.İ. Dubrovinin əsərlərində şəhər təyinatında buna oxşar tərifə rast gəlirik. O yazır: «İctimai ərazi törəməsi olan şəhər insanların kütləvi məskunlaşma, hər hansı formada ilkin kənd təsərrüfatı məhsulları istehsalından başqa onların ictimai-faydalı əməyi, mənzil-məişət xidməti, onlarla əlaqədar məhsuldar qüvvələrin inkişafına uyğun təsərrüfat, tikinti komplekslərinin və sairlərinin daima fəaliyyətdə olan

ərazisidir»[1].

M.L.Stronqina şəhərlərin xüsusiyyətini təyin edərkən müəyyən ərazi sistemində, onların iqtisadi və mədəni həyatındakı rolunu da əlavə edir. Bir sıra müəlliflər şəhərlərin ictimai-tarixi təbiətini izah edərkən onların inkişafdakı iqtisadi, siyasi, sosial proseslərin təmərküzləşməsindəki rolunu da əks etdirməyi zəruri hesab edirlər.

Şəhərlərin vahid və çoxcəhətli tərəflərini əhatə edən bir çox anlayışlar – məsələn, memarlıq-şəhərsalınma, mühəndis, həyat tərzi, çoxcəhətli obyektləri – sənaye, nəqliyyat, xidmət sahələrini, ticarət və s. xarakterizə edən anlayışlar mövcuddur. Lakin bunların hamısının birlikdə göstərdiyi qarşılıqlı infrastruktur əlaqələrinin, əhali məskunlaşmasının, əmək qabiliyyətli əhalinin məşğulluğunun vahid anlayışda sintezləşdirilməsi mürəkkəb vəziyyət alır.

Qəbul edilmiş şəhər anlayışına əsasən o qənaətə gəlmək olar ki, «şəhər» meyarı keyfiyyət və kəmiyyət baxımından məhsuldar qüvvələrin məzmununu açıqlamır, yalnız onun statistik amilini müəyyən edir. Şəhərin dolğun və geniş mənasını vermək yalnız onun təbii və idarəedici təkamülü cəmiyyətin sosial-iqtisadi inkişafı ilə ilkin və aparıcı (əsas) amillərin qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsi ilə mümkündür.

İlk növbədə şəhərin xarici görünüşündən kənar ictimai maddi təzahür kimi fəaliyyət göstərən əsas hərəkətverici qüvvənin sosial-iqtisadi təzahürünü və ondan yaranan fərqlərin, ziddiyyətlərin həll edilməsi tələbi qarşıda durur. Hər hansı şəhər dedikdə elm, mədəniyyət, ticarət, səhiyyə və s. müəssisələrin idarəedici, tikinti təşkilatlarının cəmləşməsi nəzərdə tutulur. Lakin bu göstəricilər sistemi hələ kifayət deyil.

Şəhər mühitində müvafiq məhsuldar qüvvələrin inkişafı

---

[1] Дубровин П.И. Агломерации городов (генезис, экономика, морфология). Вопросы географии сб.75. география городских и сельских поселений. География. 1959.

imkanları, onlardan istifadə edilməsi ilə müşahidə edilən ekoloji gərginliyə, ətraf təbii mühitin çirkləndirilməsinə qarşı tədbirlər sisteminin həyata keçirilməsi, nəzərə alınması problemləri yaranır.

Sosial, iqtisadi, ekoloji məsələlərin həllində şəhərlər ictimai, siyasi, geosiyasi sistemin tərkib hissəsi kimi qəbul edilir. Ona görə ki, şəhəri yaradan, onun inkişafını idarə edən ictimai, iqtisadi quruluşdur. Burada məhsuldar qüvvələrlə istehsal münasibətlərinin qarşılıqlı inkişafı dialektik vəhdətlik təşkil edir.

İctimai, fərdi əmək bölgüsü ticarətin, sənətkarlığın, sənayenin, kənd təsərrüfatından ayrılması şəhərləri, kənddən seçir. Ticarətin, sənətkarlığın inkişafı sistemində baş verən qarşılıqlı əlaqələrin nəticəsində kəndlə şəhər arasında istehsal bölgüsü inkişaf edib təkmilləşir. Məhsuldar qüvvələrin inkişaf prosesində elə bir keyfiyyət dəyişikliyi əmələ gəlir ki, bu və ya digər ictimai formasiyalar şəraitində ona uyğun istehsal münasibətləri formalaşır, inkişaf edir ki, bunlar da bir ictimai-iqtisadi formasiyanın başqası ilə əvəz edilməsində mühüm rol oynayır.

Şəhərin tələbatını ödəmək üçün ictimai əmək sferasını yaradan yeni adamlar – dərzilər, çəkməçilər, çörək bişirənlər, daş yonanlar, dülgərlər, həkimlər, müəllimlər, çilingərlər və s. tələb olunur. Belə şəraitdə təbii olaraq əhali artır, keyfiyyət cəhətdən təkmilləşir. Şəhər tələbatına uyğun fabriklər, zafodlar, emalatxanalar, nəqliyyat parkları yaranır. Kəndlər qəsəbələrə, qəsəbələr kiçik, orta şəhərlərə, onlar da böyük şəhərlərə çevrilir. Bunlarla yanaşı, yaşayış məntəqələrində əhali artır. Şəhər nə qədər böyük olursa, ona müvafiq əhalinin də sayı çoxalır.

Əhali məskunlaşması istehsalın təmərküzləşməsi ilə yanaşı, dəmir və şose yollarının məsafəsi artır, şəbəkəsi sıxlaşır, nəqliyyat vasitələrinin hərəkəti intensivləşir, ixtisaslı fəhlələr, kadrlar, sənətkarlar ordusu formalaşır, tikinti, abadlıq işləri genişlənir və bunlarla da yanaşı, şəhərlərin «ərazi cəl-

bedici» fəaliyyəti artır. Şəhərlərin böyüməsi, inkişaf etməsi, onları siyasi, iqtisadi, ticarət, nəqliyyat mərkəzinə çevirir.

Buradan belə nəticə çıxır ki, şəhərlər ictimai təzahürün yaranma və inkişaf formasıdır. Lakin nə qədər ki, məhsuldar qüvvələrin inkişafı, iqtisadi imkanlar və sərvətlər istehsal və qeyri-istehsal sahələrinin respublika daxilində bərabər və ya proporsional yerləşməsini təmin etmir onda şəhərlərin iqtisadi, ictimai, geosiyasi qanunlara uyğun idarə edilməsi problemi ortaya çıxır. Buna riayət edilməsi əsasında şəhər məskunlaşmasını, urbanizasiya prosesini nizama salmaq üçün əlverişli şərait yaratmaq olar. Azərbaycan Respublikasının şəhərlərində əmək şəraitinin, həyat səviyyəsinin yaxşılaşdırılması şəraitində istehsal əlaqələrinin, müəssisələrarası kooperasiyanın inkişafında yerli iqtisadi, maddi-texniki imkanlardan elmi potensialın təbii iqtisadi potensialından dolğun istifadə edilməsinə şərait yaradan mühüm amildir.

Lakin hansı şəraitdə olursa-olsun, istər şəhər daxilində, istehsal, xidmət sahələrinin yerləşməsində, istərsə də şəhərlə kənd arasındakı iqtisadi, sosial, məhsul mübadiləsi əlaqələrində uyğunsuzluqlar mövcuddur və onların tam aradan qaldırılması mümkün deyil. Ortaya çıxan uyğunsuzluqların, şəhərdən kənar rayonlarda xidmət sahələrinin geri qalmasının, əmək ehtiyatlarının tərkibi arasındakı keyfiyyət və onlardan istifadə fərqinin, istehsalın fond təchizatı arasındakı fərqlərin araşdırılması bu sahədə şəhərlə kənd arasındakı kəskin fərqlərin aradan qaldırılması inzibati və iqtisadi rayonlar daxilində, ərazi-istehsal təşkilinin nizama salınmasında mühüm vasitədir.

Şəhərlərin yaranma səbəbləri və zəminin əmək ehtiyatları, təbii sərvətlər, təbii şərait, nəqliyyat, iqtisadi əlaqələr baxımından əlverişli coğrafi ərazi-inzibati, iqtisadi idarəçilik formaları təşkil edir. Şəhərlərin gələcək inkişafı sənaye istehsalı kompleksinin, elmi idarələrin, səhiyyə, mədəni-maarif, əhaliyə xidmət müəssisələrinin formalaşması müəyyən ərazi sistemində əmək bölgüsünün düzgün təşkili, şə-

hərdaxili və rayonlararası iqtisadi əlaqələrin, ictimai əmək bölgüsünün səmərəli təşkilindən asılıdır. Göstərilən iqtisadi, sosial inkişafın, təbii sərvətlərdən, sənaye, əmək potensialından istifadənin səmərəli təşkili şəhər daxilində şəhəryanı «cazibə» rayonlarında istehsal sahələrinin kompleks, uzlaşma təşkilində, əhalinin həyat səviyyəsinin təmin edilməsində əsas amildir. Xalq təsərrüfatının hüceyrəsi kimi şəhər cəmiyyətdə baş verən bütün əlaqələri və prosesləri birləşdirir, əhali arasında ictimai, iqtisadi münasbətləri genişləndirir, onların hərtərəfli inkişafını təmin edir. Xarici və daxili əlaqələrə malik şəhərlərdə istehsal və qeyri- istehsal sahələrinin təmərküzləşməsinin müəyyən parametrləri, əhali urbanizasiyasının elə bir əlaqələndirici, nizamlayıcı göstəricisidir ki, bunun qarşılıqlı inkişafı fəaliyyətlərin ardıcıllığına şərait yaradır. Bunları nəzərə alaraq şəhərin inkişafına iki nöqteyinəzərdən baxmaq zəruriyyəti ortaya çıxır: şəhərin, ölkənin xalq təsərrüfatı inkişafında iştirakı, regionun iqtisadi, sosial tərəqqisindəki ictimai əmək bölgüsündə şəhərlərlə kəndlər arasında müvazinətin saxlanılması.

Birinci məhsuldar qüvvələrin yerləşdirilməsi ictimai əmək- bölgüsü ilə bilavasitə əlaqədardır. Şəhərin əsas funksiyası onun iqtisadi, sosial siyasi sistemi ilə müəyyən edilir. Bu mənada ixtisaslaşma baxımından şəhərlər nəinki sırf istehsal təmayülü ilə, eləcə də əhalinin tələbatının ödənilməsi ilə də əlaqəli olur. Bu mənada Azərbaycanın şəhərlərini bir neçə qrupa bölmək olar: a) dağ-mədən, metallurgiya üzrə ixtisaslaşan şəhər tipli yaşayış məntəqələri – Daşkəsən, Gəncə, Sumqayıt, Gümüşlü, Paraqaçay; b) əsasən maşınqayırma üzrə ixtisaslaşanlar: Bakı, nisbətən Gəncə, Mingəçevir; c) energetika sənayesinə malik Bakı, Mingəçevir, Əli-Bayramlı, Kür qəsəbəsi, Naxçıvan; ç) yeyinti, yüngül sənaye müəssisələrinə malik olanlar: Bakı, Gəncə, Şamaxı, Quba, Şəmkir, Tovuz, Kürdəmir, Naxçıvan, Göyçay, Mingəçevir, Şəki, Ordubad; e) yol-nəqliyyat mərkəzləri: Bakı, Yevlax, Əli-Bayramlı, Kürdəmir, Xaçmaz.

Rayonlararası iqtisadi əlaqələr, istehsal və xidmət sahələrinin təsiri altında formalaşan, ictimai əmək bölgüsü bazar münasibətlərində istehsalın təmin edilməsinə imkanlar yaradır. Məlumdur ki, istehsalın və əhaliyə xidmət sahələrinin inkişafı və ixtisaslaşması o yerlərdə təşəkkül tapır ki, onlar üçün əlverişli təbii, iqtisadi zəmin mövcuddur və onlardan istifadə etmək üçün maddi-texniki baza, investisiya, ixtisaslı kadr potensialı vardır. Təsərrüfat sistemində kompleksində bunların hərəkətə gətirilməsi ayrı-ayrı istehsal sahələri, istehsal qurumları müəyyən ərazi daxilində özlərinə məxsus inkişafa yer tapır, ixtisaslaşır və bu yolla şəhər təsərrüfatının ərazi üzrə formalaşmasına və təkmilləşməsini təmin edir. Göstərilən amillərin qarşılıqlı əlaqəsində əsas məqsəd şəhər əhalisinin tələbatının fasiləsiz ödənilməsi, istehsalın inkişafı üçün təminat yaratmaqdan ibarətdir. Ərazi və ictimai əmək bölgüsü öz növbəsində məhsuldar qüvvələrin inkişafına, sahəvi ixtisaslaşmaya, ictimai istehsalın səmərəliliyinə təsir göstərir. Beləliklə, yuxarıda göstərilən əmək bölgüsü bir-birilə qarşılıqlı surətdə inkişaf edib istehsalın sahəvi və ərazi üzrə inkişafında uzlaşma yaradır. Onların qarşılıqlı inkişafı vahid planlaşdırma yolu ilə istehsal əlaqələrinin təmin edilməsində zəruri şərtdir.

Şəhər təsərrüfatının əhaliyə xidmət sahələrinin bu yolla ərazi kompleksində təmərküzləşməsi «intensiv cazibə qüvvəsinə» çevrilərək şəhərlərətrafı rayonlara olan təsirini artırmır uzun «rəqqas miqrasiyası» dairəsində əhali məskunlaşmasını genişləndirir.

Müasir dövrdə kapitalist istehsal münasibətlərinə keçid, şəhər təsərrüfatının, sənaye, nəqliyyat müəssisələrinin, əhaliyə xidmət sahələrinin özəlləşdirilməsi şəraitində və respublikanın orta və iri şəhərləri daxilində sənayenin, nəqliyyatın, elm, səhiyyə, mədəniyyət, xidmət sahələrinin inkişafı, ekoloji şəraiti, təbiəti, mühafizə tədbirləri şəraitində istehsal növbələrinin qarşılıqlı əlaqəsi hələ məsələni həll etmir. Eyni vaxtda aşağıdakı proseslər baş verir. Şə-

hərlərdə təsərrüfat sahələri ilə şəhərin əmək bölgüsünün dərinləşməsi, başqa tərəfdən sahələrarası inteqrasiya baş verir. Əmək ehtiyatları təbii sərvətlərin mənimsənilməsinə, səmərəli istifadəsinə, elmi potensialın, texnika və texnologiyanın qabaqcıl təcrübəsinin istehsalda tətbiq edilməsində müxtəlif funksiyaların bir-birini əvəz etməsinə cəmiyyətin tələbatı artır. Sabiq Sovet İttifaqı dövründə məhsuldar qüvvələrin ictimailəşdirilməsi (*ümumiləşdirilməsi*) iri və orta şəhərlərdə xalq təsərrüfatı sahələrinin daha geniş miqyasda ictimailəşdirilməsini təmin etməklə iri istehsal kompleksləri yaratmış və bu proses şəhərlərin səmərəli fəaliyyətinin əsasında duran mühüm amildir. İstehsal, sosial, ekoloji mühafizə funksiyalarının artırılması ilə əlaqədar şəhərlərin planlaşdırılmasında, kompleks tədbirlərin həyata keçirilməsi zəruriyyəti yaranır. Bununla əlaqədar olaraq şəhərlərin də əhalinin məşğulluğuna görə təsnifatını nəzərdən keçirməyi məsləhət bilirik. B.S.Xorev şəhərlərin əsas funksional tiplərini aşağıda göstərdiyi kimi vermişdir[1]:

1. çoxfunksiyalı respublika və vilayət mərkəzləri, eləcə də milli mahalların mərkəzi;
2. əsasən sənaye əhəmiyyətli mərkəzlər;
3. əsasən nəqliyyat mərkəzli şəhərlər;
4. sənaye, nəqliyyat və qeyri-sənaye sahəli şəhərlər;
5. əsasən yerli təşkilatlara xidmət mərkəzləri, meşə və kənd funksiyalarını əhatə edən şəhərlər;
6. Yeni tikilən sənaye şəhərləri;
7. əsasən sağlamlıq əhəmiyyətli şəhərlər;
8. Kənd təsərrüfatına xidmət, elmi-eksperimental şəhərlər.

Bizə elə gəlir ki, əhalinin miqdarına, həm də əsas funksional tiplərinə görə şəhərlərin təsnifatlarını müasir dövrün tələbatına görə müəyyən qədər təkmilləşməyə ehtiyaclar vardır. Bunlar aşağıdakılardan ibarətdir.

Cədvəl 10

**Şəhərlərin böyüklüyü**

| Şəhərin qrupu | Əhalisi (min nəfər) |
|---|---|
| ən iri (*super*) | 2000-dən çox |
| iri | 1000 -1500 |
| böyük | 500-1000 |
| orta | 100-500 |
| kiçik | 100-ə qədər |

İstehsal təmayüllərinə, istehsalın ixtisaslaşmasına, əhalinin sayına görə şəhərlərin təsnifatı, ölkənin iqtisadi, sosial mövqeyinin müəyyən edilməsində zəruri tədbirdir. Digər tərəfdən, istehsal təmayüllərinə, ixtisaslaşmasına görə şəhərlərin təsnifatı ölkə daxilində onların kompleks iqtisadi, sosial geosiyasi mövqeyinin əks etdirilməsində mühüm amildir.

Sabiq Sovet İttifaqı dövründə məhsuldar qüvvələrin ictimailəşdirilməsi iri və orta şəhərlərdə xalq təsərrüfatı sahələrinin daha geniş miqyasda ictimailəşdirilməsini təmin etməklə iri istehsal kompleksləri yaratmış və bu proses şəhərlərin səmərəli fəaliyyətinin əsasında duran mühüm amil olmuşdur. İstehsal, sosial, ekoloji mühafizə funksiyalarının artırılması ilə əlaqədar şəhərlərin planlaşdırılmasında, kompleks tədbirlərin həyata keçirilməsi zəruriyyəti yaranır. Bunun zəruriliyi oradan irəli gəlir ki, şəhərlərin iqtisadi funksiyası əhalinin, xalq təsərrüfatının lazım olan qədər ərazi, sənaye məhsullarına, xammala olan tələbatını yerinə yetirsin, ölkənin iqtisadi, hərbi qüdrətinin artırılmasında bazar münasibətlərinə keçid şəraitində ticarət, iqtisadi əlaqələrdə fəal iştirak etsin. Cəmiyyətin sosial siyasətindən asılı olaraq şəhərlərin müxtəlif xalq təsərrüfatı və sosial quruluşu formalaşır.

Şəhərlər xalq təsərrüfatı funksiyasına (*vəzifəsinə*), əhalisinin miqdarına, sosial və demoqrafik quruluşundan inzibati-siyasi vəziyyətinə görə bir-birindən seçilir. Sabiq SSRİ-nin Dövlət Tikinti Komitəsi əhalinin miqdarına görə şəhərlərin təsnifatını aşağıdakı kimi etmişdir.

Cədvəl 11

| Şəhərin qrupu | Əhalisi (min nəfər) |
|---|---|
| ən iri | 1000-500-dən çox |
| iri | 250-500 |
| böyük | 100-250 |
| orta | 50-1000 |
| kiçik | 50-yə qədər |

Əlbəttə, bizim fikrimizcə, indiki dövrdə əhalisi 10-15 mln. nəfər olan şəhərlərin inkişaf dövründə yuxarıda göstərilən təsnifatla razılaşmaq düzgün olmazdı. Əhalisinin təsnifatına və tipologiyasına görə şəhərlərə müasir dövrün tələbləri səviyyəcində yanaşmaq lazımdır. Bu sahədə məşhur şəhərşünas alim B.S.Xorev şəhərin yaranmasına əhəmiyyətli iri sahələrin aqlomerasiyanın morfofunksional sisteminə şəhər rayonun kompleks inkişafı kimi qiymətləndirir.

Ona görə də, şəhərin ərazi valərhidi istehsal, sosial xidmətlər və s., bu və ya digər obyektlərdən istifadəni, məsələn, mühəndis kommunikasiyası, nəqliyyat arteriyası kimi inkişafını, region sistemində onların vahidliyini təmin edir. Ərazi istehsal kompleksi bu və ya digər şəhərin öyrənilməsində müxtəlif təmayüllü sistemyaradıcı fəaliyyəti formalaşdırır.

Nə qədər ki, şəhərin əsas komponentlərini (*tərkib hissəsini*) məhsuldar qüvvələr, onların hərəkətə gətirilməsində əhali təşkil edir və belə halda, istehsal münasibətləri və əməkçi istehsal əlaqələri ön planda iştirak edir.

Bu baxımdan şəhərin ümumi funksiyalarını bir sıra hissələrə ayırmaq olar. Şəhərin infrastrukturunun ayrı-ayrı hissələrə ayrılması – funksional ixtisaslaşması, ərazi baxımından təhlili şəhəryaranma proseslərinin elmi surətdə dərk edilməsində mühüm şərtdir. Bu prosesdə şəhərin maddi-texniki əsasını (*quruluş elementlərini*) və sosial-iqtisadi bazasını, yəni istehsal xidmət sahələrini, nəqliyyat-iqtisadi əlaqələrini, idarəetmə quruluşunu yaradan, formalaşdıran amillər daxili və xarici mühitin, istehsal

münasibətlərinin təsiri altında dəyişir.

Şəhərin hərtərəfli və kompleks əlaqəsi onun layihələşdirilməsi və bina edilməsi proseslərində müəyyən edilir. Şəhər haqqında biliyin, elmi məlumatların, informasiya göstəricilərinin sistemləşdirilməsi çoxlu sferalardan, müxtəlif təbii şəraitdən, iqtisadi sosial əlaqələrdən ibarət amillərin ümumiləşdirilməsində, onların fəaliyyətindən irəli gələn obyektiv nəticələrin, eləcə də maddi istehsalla əhalinin təkrar istehsalı sırası arasında gedən əlaqələrin ümumiləşdirilməsində əsas amildir.

Qeyri-kənd təsərrüfat sahələri ictimai, fərdi əməyi iriмiqyaslı istehsalda birləşdirən, ölkənin, regionun iqtisadi, mədəni, elmi-texniki potensialını inkişaf etdirən, intellektual potensial yaradan şəhər eyni zamanda özündən kənar rayonlara mütərəqqi elmi-texniki ideyaları yayan obyektdir. Ölkə daxilində şəhərin ictimai-sosial, iqtisadi sistemlə əlaqəli olmasını, bütöv bir mütərəqqi orqanizm yaradan sıx əlaqəli inkişafı nəzərə alsaq, mahiyyət etibarı ilə bu sistemdə şəhərin funksiyasının və onun başqa rayonlara olan təsirinin ortaya çıxarılmasına ehtiyac duyulur. Bu, şəhərin sosial-iqtisadi probleminin elmi-təcrübi baxımdan araşdırılmasına, mövcud iqtisadi, təbii imkanların, təbii ehtiyatların aşkarlanmasına, səmərəli istifadə edilməsinə, idarəçilik üsullarının təkmilləşdirilməsi yollarının seçilməsinə imkan verər.

Şəhərlərin baş planlarının iqtisadi ekoloji təmayüldə əsaslandırılması, nümunəvi layihələrin, tikinti-texniki, təbiəti mühafizə, enerji, su təchizatı müasir dövrün tələblərinə uyğun tərtib edilməsi və bunların yerinə yetirilməsi çoxsahəli iqtisadi, siyasi, sosial, ekoloji problemlərin həllində iştirak edir.

Bunların həyata keçirilməsində məskunlaşmış əmək ehtiyatlarının fəal iştirakı mühüm əhəmiyyətə malikdir. 1990-cı ilə qədər, yəni istehsalın, əhali məşğuliyyətinin, xidmət sahələrinin normal inkişafı dövrünə qədər respublikanın bilavasitə xidmət, nəqliyyat, ictimai iaşə və s. sahələrində iş-

ləyənlərin 25-26 faizi məşğul olmuşdur. Son dövrdə dövlət, fərdi, şəxsi ticarət obyektlərinin, sərnişin nəqliyyatının bir qədər inkişafı şəraitində, istehsal sahələrində (*sənayedə, təmir, texniki, təchizat, emal, tikinti müəssisələrində*) işləyənlərin miqdarı sürətlə azalmışdır.

Keçid dövründə baş verən belə bir qeyri-normal inkişaf, xüsusilə sənaye şəhərləri, respublikanın iqtisadi inkişafında əsas əhəmiyyət kəsb edən Bakı, Sumqayıt, Əli-Bayramlı, Mingəçevir, Naxçıvan şəhərlərində daha sürətlə baş verir. Neftçıxarma, elektroenergetika, nəqliyyatın inkişafı müstəsna olmaqla respublikanın şəhərəlrində güclü potensiala malik sənaye müəssisələri sürətlə tənəzzülə uğramışdır.

Əhalinin, xalq təsərrüfatı sahələrinin istehlak mallarına, sənaye məhsullarına, tikinti materiallarına olan tələbatının ödənilməsində respublika şəhərlərinin geniş imkanlarından zəif istifadə edilir. Bunun əsas səbəbi son illərdə iqtisadiyyatın, xüsusilə şəhər təsərrüfatının idarə edilməsində bir sıra maddi istehsal sahələrinin sürətlə özəlləşdirilməsindən, əsas fondlarının, texniki təchizatın tənəzzülü şəraitində, özəlləşdirilmiş sahələrin yeni istehsal fondları ilə, müvafiq texniki, avadanlıqla təchiz edilməməsindən, onlara dövlət yardımının lazımı səviyyədə göstərilməməsindən irəli gəlir. Digər və bunlardan geri qalmayan səbəb də ondan ibarətdir ki, şəhərlərdə və onların təsir dairəsində olan şəhəryanı təsərrüfatlarda illər boyu ixtisaslaşmış, son illərdə tənəzzülə uğramış təsərrüfat sahələrinin bərpasına, yeniləri ilə əvəz edilməsinə kapital qoyuluşunun çatışmazlığı, az da olsa qeyri-istehsal və istehsal sahələrinin inkişafına olan təsirinin kifayət qədər hesaba alınmamasıdır.

Bunun mənfi aqibəti ondan ibarətdir ki, sənaye istehsalının inkişafına olan maddi marağın zəiflədiyi şəraitdə işsizlik artır, istehsalın son məqsədinin itirildiyi şəraitdə əhali arasında işsizlər ordusu yaranır ki, bu da milli gəliri kəskin surətdə məhdudlaşdırır. Müasir dövrdə qarşıda duran ən vacib vəzifə ondan ibarətdir ki, şəhərlərdə və şəhəryanı ara-

zi-istehsal komplekslərində ictimai, fərdi təsərrüfatlarda istehsalla istehlak arasında elə bir müvazinətli quruluş yaradılmalıdır ki, əhalinin istehlak mallarına, sənayenin, tikintinin, nəqliyyatın istehsal vasitələrinə, bazar iqtisadiyyatına olan tələbatı ödənilsin.

İstehsalın, qeyri-istehsal, xidmət sahələrinin özəlləşdirilməsi, bazar münasibətlərinə keçid dövründə uzun müddət fəaliyyət göstərən sənaye müəssisələrinin, nəqliyyat, tikinti obyektlərinin xeyli hissəsi istifadədən, istismardan dayanmışdır. Suveren dövlətin iqtisadi, sosial, mədəni tərəqqisi müəssisələrin səmərəli inkişafı təmin edilmədən, bazar münasibətlərində ölkənin iqtisadi qüdrətini artırmaq mümkün deyil.

Bizə elə gəlir ki, yaxın illərdə onların bərpasının dövrün tələblərinə uyğun həyata keçirilməsi zəruridir və bu sahədə dönüş yaranmalıdır. Göstərilən genişmiqyaslı iqtisadi, sosial tədbirlərin həyata keçirilməsi Böyük Bakıda təmərküzləşmiş sənaye obyektlərinə, təmir, metalilişmə, yüngül yeyinti, tikinti materialları istehsalı müəssisələrinin, xəstəxanaların, ali məktəblərin və ya onların filiallarının bir hissəsinin respublikanın rayonlarına köçürülməsi sosial, iqtisadi ərazinin ekoloji mühafizə baxımından zəruri problemi kimi həll edilməlidir. Bu problemlərin müsbət həlli Bakı və Sumqayıt aqlomerasiyasında dərin urbanizasiya şəraitində sıxlaşan əhalinin bir hissəsinin başqa rayonlara köçürülməsinə zərurət yaranır. Bu tədbirlərin həyata keçirilməsində respublikanın «qəbuledici» şəhərlərinin coğrafi mövqeyi müvafiq istehsal sahəsi üzrə ixtisaslaşması, əmək potensialı, nəqliyyat vasitəsi nəzərə alınmalıdır. Bu təmayüldə bir sıra təklifləri irəli sürməyi məsləhət görürük.

Metal, enerji, əmək tutumlu sənaye sahələrinin Abşeronla yanaşı Gəncə, Daşkəsən rayonunda enerji tutumlu sənaye istehsalının Mingəçevirdə, Əli-Bayramlıda, Abşeronda, yüngül, yeyinti sahələrinin bol xammal mənbəyi olan kənd təsərrüfatının inkişaf etdiyi və çoxlu qadın əməyinə malik bu sahədə ixtisaslaşmış rayonlarda inkişaf etdirilməsi

məsləhətdir. Məsələn, Kürdəmirdə, Ağdaşda, Ucarda, Gəncədə, Ağstafada dəyirmanların, Şəkidə, Ordubadda, Qubada, Tovuzda irək parça istehsalının, Yevlaxda, Şəkidə, Mərəzədə yun emalı, yun parça istehsal sahələrinin və bununla bağlı müəssisələrin inkişafı, müvafiq işçi qüvvəsi baxımından faydalı olar.

Yeyinti sənaye müəssisələrinə gəldikdə kənd təsərrüfatı rayonlarında da təklif və tələbatdan asılı gündəlik tələbat, ət, süd, yağ, yumurta, meyvə-tərəvəz, konserv müəssisələrinin yeni tələblərə, sahibkarlığa uyğun fəaliyyəti zəruridir. Xammalları Bakı, Gəncə, Naxçıvan şəhərlərinə emala göndərib onların hesabına kənd əhalisini təmin etmək iqtisadi, nəqliyyat baxımından həmişə sərfəli deyil.

Göstərilən istehsal təmayülü o vaxt iqtisadi cəhətdən sərfəli ola bilər ki, şəhərdə asudə əmək qabiliyyətli əhalinin işlə təmin edilməsi həyata keçirilsin. Əgər ehtiyac duyulmursa, o zaman çoxişlənən ərzaq məhsullarının əhalinin tələbatına uyğun emal edilməsi daha səmərəli ola bilər.

Göstərilən tədbirlərin həyata keçirilməsi əsas iqtisadi qanundan irəli gələn əmək ehtiyatlarından, əsas fondlardan, təbii, maddi imkanlardan səmərəli istifadə edilməsində mühüm vasitədir.

Respublikanın iri və orta şəhərlərinin inkişafı üçün lazım olan maliyyə vəsaitlərinin iqtisadi, sosial müəssisələrin tabeliyindən, onların iqtisadiyyatın və xidmət sahələrinin inkişafında səmərəli istifadəsi müasir dövrlə çoxşaxəli idarə sistemi şəraitində həyata keçirilir. Belə olduqda iqtisadi qanunun fəaliyyəti müəssisələr və istehsal sahələri çərçivəsində məhdudlaşır və ümumiyyətlə, təsərrüfat vahidi kimi təkcə şəhərlər deyil, ona təsir edən və ondan kənarda yerləşən regionlar daxilində də fəaliyyət göstərir.

Sosial-iqtisadi baxımdan şəhərin inkişaf etdirilməsində, rayonlararası iqtisadi, sosial, əmək bölgüsü, iqtisadi əlaqələrin fəaliyyəti ilə ödənilməsində son illərdə bir çox mənfi aqibətlər ortaya çıxmışdır. Dövlət və qanunverici qurum buna

qarşı zəif mübarizə şəraitində sosial-iqtisadi təxribatın, əhalinin, onun intellektual hissəsinin respublikadan kənara köçüb getməsinə, deməli, şəhərdaxilindəki iqtisadi ehtiyatlardan, istehsal gücündən, əmək ehtiyatlarından natamam, zəif istifadə edilməsinə, beləliklə, milli gəlir yığımının məhdudlaşdırılmasına gətirib çıxarır.

Hazırda respublikanın paytaxtı Bakıdan başqa Sumqayıtda, Gəncədə, Naxçıvanda, Əli-Bayramlıda, Mingəçevirdə, Şəkidə, Şamaxıda və sair şəhərlərdə belə vəziyyətlə rastlaşırıq. Buradan belə nəticə çıxır ki, respublikanın şəhərlərinin müasir inkişaf səviyyəsində mövcud iqtisadi qanunlardan tam istifadə edilməsi üçün hələ müvafiq şərait yaradılmamışdır. Bazar münasibətlərinə keçid şəraitində bir sıra iqtisadi qüdrətləndirici, idarəedici, təkmilləşdirici tədbirlər həyata keçirilməlidir ki, şəhərlərin ərazisindəki ətraf rayonlardakı iqtisadi, əmək, təbii potensial səmərəli istifadə edilsin.

Şəhər istehsal vasitələri üzərində müasir istehsal münasibətlərinin, sosial-iqtisadi yarımsisteminin inkişafının, ekoloji, təbiəti mühafizə tədbirlərinin təmərküzləşmiş təzahürüdür. Buna görə idarəetmənin ümumi nəzəriyyəsi, iqtisadi qanunların dərk edilməsi ilə əlaqəli surətdə cəmiyyət tərəfindən ümumi inkişaf miqyasında şəhərin kəmiyyət və keyfiyyət baxımından idarəedilməsi zəruriyyəti ortaya çıxır.

Şəhərin idarəedilməsinin əsas amilini ümumxalq təsərrüfatı sistemində planauyğun proporsional inkişafın planlaşdırılması və tənzim edilməsi təşkil edir. Sosial-iqtisadi planlaşdırma şəhərin proporsional inkişafının daimi müvazinətdə saxlanılmasına, respublikadaxili və xarici iqtisadi əlaqələrdə qarşılıqlı əlaqələrin təmin edilməsinə, təsərrüfat mallarına, əhalinin istehsal vasitələrinə, istehlak mallarına olan tələbatının ödənilməsinə şərait yaradan mühüm amildir. Şəhərin sosial-iqtisadi inkişafının planlaşdırılması eyni zamanda xalq təsərrüfatının, xidmət sahələrinin təşkilində, idarə edilməsində, ümumi vahid kimi sosial qüvvənin səfərbər edilməsində mühüm vasitədir. Başqa sözlə desək,

ümumtəsərrüfat kompleksində sosial-iqtisadi planlaşdırılmanın əsas məzmununu şəhərin özünəməxsus müvafiq sahə üzrə ixtisaslaşmasından, aparıcı funksiyasından asılı olaraq onun regional inkişafının kompleks qiymətləndirilməsinə nail olması təşkil edir.

Cəmiyyətin daimi artmaqda olan tələbatından, iqtisadi, texniki-iqtisadi imkanlarından asılı olaraq yeni şəhərlərin yaradılması, mövcud olanların yenidən qurulması cəmiyyətin və onların dahi yaradıcı əməli kimi gələcək inkişafına şüurlu olaraq nəzər salınması lazımdır. Bunun zəruriliyi şəhərlərdə sosial-iqtisadi, ekoloji, elmi-texniki tərəqqi, əhali məşğulluğu proseslərinin bir-birilə qarşılıqlı əlaqələrinin səmərəli təşkil edilməsi ilə əlaqədardır.

# ŞƏHƏRLƏRİN İNKİŞAFINDA İQTİSADİ-COĞRAFİ, EKOLOJİ AMİLLƏR, TƏBİİ SƏRVƏTLƏR VƏ URBANİZASİYA

## 3.1. Şəhərlərin inkişafında coğrafi mühitin, təbii sərvətlərin əhəmiyyəti

Böyük və orta şəhərlərin iqtisadi, məskunlaşma, urbanizasiya cəhətdən formalaşmasına, torpağa, suya, iqlimə və sair təbii şəraitə əsaslanan təbii sərvətlərdən istifadə edilməsinin böyük əhəmiyyəti vardır. Həmin prosesdə şəhərətrafı zonanın kənd təsərrüfatı üçün zəruri olan təbii şəraitə və təbii ehtiyatların qiymətləndirilməsinə ehtiyac vardır. Bunun mahiyyəti ondan ibarətdir ki, ətraf rayonlar şəhəri ərzaq məhsulları, kənd təsərrüfatı xammalı, əmək ehtiyatları ilə təmin edir. Bununla yanaşı ticarət, iqtisadi, mədəni, tibbi xidmət əlaqələrinin inkişaf etdirilməsində onunla təmasda olur. Konstruktiv əhəmiyyətli xammaldan, torpaqlardan su, enerji ehtiyatlarından, işçi qüvvəsindən istifadə edilməsi şəhər təsərrüfatlarının, xüsusilə yüngül, yeyinti sənayesinin tərəqqisini təmin edir. Bu münasibətdə şəhərlərin inkişafında, perspektiv planların layihələşdirilməsində, iqtisadiyyatın, xidmət sahələrinin təşkilində kənd rayonlarının rolu nəzərə alınır. Fikrimizcə, bu əlaqələrin əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilməsi məqsədyönlüdür:

a) demoqrafik potensialın artmasında və əhali miqrasiyasında;

b) şəhər əhalisinin müəyyən hissəsinin kənar rayonlarda məskunlaşmasında;

c) şəhərətrafı rayonlarda ticarət, əhaliyə xidmət şəbəkələrinin, kooperasiya əlaqələrinin genişləndirilməsində;

ç) sənaye potensialından istifadə edilməsində, məhsul istehsalının artırılmasında təbii sərvətlərin istehsala səmərəli, məqsədyönlü cəlb edilməsində;

d) şəhəryanı aqrosənaye sahələrinin inkişafında torpaqların, su ehtiyatlarının istifadəsinin səmərəli təşkili;

e) şəhər mühitində ekoloji tədbirlərin, ətraf mühiti mühafizənin nizama salınması;

ə) şəhərlərin kəndlər, sair yaşayış məntəqələri hesabına əmək ehtiyatları və mütəxəssislərlə təmin edilməsi.

Şəhərin inkişafı ətraf rayonların təsiri, ekoloji mühitin, demoqrafik proseslərin qarşılıqlı əhatəsi əsasında fəaliyyət göstərir. Şəhər sərhədləri əhatəsində olan torpaqlardan müxtəlif məqsədlər üçün istifadə edilməsi, şəhəryanı təsərrüfatların inkişaf arealından da asılıdır. Burada şəhər, onu əhatə edən ərazilər sosial-iqtisadi, mədəni-maarif, tibbi əlaqələri iştirak edir.

Şəhərin istehsal, nəqliyyat, ticarət sahəsindəki qarşılıqlı əlaqələri göstərir ki, hər hansı ərazi bu sahədə özünə görə istehsal fəaliyyətinə malikdir. Göstərilən sahədə böyük və orta şəhərlərin fəaliyyəti istehsal sahəsi üzrə «rəqqas» hərəkəti ilə müvafiq olaraq 60-110 km, ticarət üzrə 50-80 km arasında tərəddüd edir.

Bir mühüm amili də nəzərə almaq lazımdır ki, əgər işçi qüvvəsi axını bilavasitə şəhərləri əhatə edən inzibati rayonlar hesabına olursa, ticarət, nəqliyyat əlaqələri şəhər əhalisinin kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi bunlardan daha uzaq rayonlar hesabına aparılır.

Çoxsahəli təsərrüfat təmayüllü rayon əmələgətirici ərazilərdə şəhərlərin təsir dairəsi kompleks xarakterli olur. Burada cəlbedici aqrosənaye, şəhəryanı təsərrüfat sahələri, ərazi iqtisadi əlaqələr və s. funksiyaların inkişafında mikrorayonlar da iştirak edir. Məsələn, Bakı şəhərinin əsas tərəvəz, heyvandarlıq məhsulları bazası Abşeron, Lənkəran-Astara, meyvə bazası Quba-Xaçmaz, taxıl, bostan, ət, süd məhsulları bazası Şirvan, Muğan rayonlarıdır. Beləliklə, hər xidmə-

tin, kommersiya sahəsinin özünəməxsus arealı vardır.

Mühüm iqtisadi, nəqliyyat, sənaye, mədəni-maarif, tibbi, ticarət xidmət mərkəzi olmaqdan başqa, şəhərlər uzaq və yaxın məsafədən əhalini, əmək ehtiyatlarını özünə cəlb edən məntəqədir. Bu mənada şəhərləri əhatə edən inzibati, iqtisadi, rayonların fəaliyyəti onların funksional təmayülündən asılıdır.

İstehsal, ticarət, nəqliyyat, əmək əlaqələri də buna uyğun formalaşır. Maddi istehsal proseslərində bir-birilə əlaqəli, tamamlayıcı, yardımedici mərkəz olmaqla, şəhərlər özlərinin cazibə nüvələri daxilində bunları nizamlayır.

Şəhərlər kənd sakinləri ilə təmasda olan dövrün tələblərinə görə əmək bölgüsünü nizamlayır və burada baş verən iqtisadi, sosial, texniki-iqtisadi elementlər daxili və xarici mühitə təsir edən mühüm amil kimi çıxış edir.

Bu təsirin altında aqrosənaye təmayüllü kənd təsərrüfatı, istirahət zonaları, rekreasiya, kurort obyektləri inkişaf etdirilir. Buna misal olaraq Bakı, Sumqayıt, Gəncə şəhərləri ətrafında səhiyyə, bolneoloji, kurort məntəqələrinə malik olan Mərdəkan, Şüvəlan, Buzovna, Bilgəh, Şıx, Pirşağı qəsəbələrini göstərmək olar.

Bununla yanaşı, sosial-iqtisadi, xalq təsərrüfatı, nəqliyyat sahələrinin inkişafı ilə yanaşı, ekoloji mühitin çirklənməsi şəhərin təbii şəraitinə, atmosfer havasına, suyun keyfiyyətinə, torpaqların mazuta, neftə batmasına, zibilliklər, tullantılar altında qalmasına səbəb olur. Belə neqativ hallar nəinki şəhərin böyüklüyündən, eləcə də əhali məskunlaşmasından, istehsalın təmərküzləşməsindən asılıdır.

Şəhəri və onun miqyasını formalaşdıran əsas meyar sənaye sahələrinin üstünlüyü şəraitində əhalinin sıx məskunlaşması və onun urbanizasiya səviyyəsidir. Əhali artımı və onun sıxlığı isə istehsal və qeyri-istehsal, ictimai əmək bölgüsündə, infrastrukturun fəaliyyətindən əhali miqrasiyasında və s. baş verən dəyişikliklərlə əlaqədardır. Bakı aqlomerasiyasının ətraf rayonlarla nəqliyyat-iqtisadi əlaqələrində

yük və sərnişin daşınmasında müxtəlif nəqliyyat (*avtomobil, dəmir yolu, dəniz və boru nəqliyyatı*) növləri arasında uzlaşma, yeyinti, yüngül sənaye müəssisələrinin ətraf rayonlar hesabına xammalla, işçi qüvvəsi ilə təmin edilməsi, tikinti materialları istehsalı ilə tikinti obyektləri arasındakı iqtisadi mal mübadiləsi əlaqələri burada mühüm amil kimi fəaliyyət göstərir.

Göstərilən amillərin inkişafında xarici və daxili ərazi kompleksi böyük rol oynayır, burada, iqtisadi, sosial inkişaf infrastruktur fəaliyyəti «qapalı şəhər» və «açıq şəhər» mühitində baş verir. «Qapalı» struktur sistemi ərazi və funksioanl istiqamətdə şəhərlərin istehsal, istehlak tələbatını ödəyən, onun inkişafını təmin edən kompleksi (*şəhərdaxili nəqliyyatı, sənaye müəssisələrini, xidmət sahələrini, idarəetmə müəssisələrini və s.*) əhatə edir.

«Açıq» strktur sistemində şəhərdaxili istehsal və qeyri-istehsal sahələri xarici mühit təsiri altında inkişaf etsə də, ərazi cəhətdən onu əhatə edən aqrosənayenin, kurort, müalicə müəssisələrinin inkişafında geniş imkanlara malik rayonlarla sıxı əlaqədardır.

Bakı, Sumqayıt şəhər İcra Hakimiyyətinin inzibati sərhədi olsa da, sosial-ictimai, ekoloji baxımdan bu sərhəd yoxdur. Şəhər tipli qəsəbələr fəhlə qəsəbələri, mikrorayonlarla birləşərək şəhər aqlomerasiyasını yaradır. Bu mənada Böyük Bakı, Sumqayıt, Gəncə şəhərləri geniş ərazidə iqtisadi, sosial inkişafı, ticarət obyektlərini və s. öz fəaliyyəti altında saxlayaraq onları mənafelərinə xidmət etməyə cəlb edirlər. Belə şəraitdə onlar şəhər urbanizasiyasından xeyli kənarda təsir dairəsini artırır, şəhər sənaye müəssisələrinə xammalları, ərzaq məhsulları verən kənd və şəhəryanı təsərrüfatla «cəlbedici» ərazilərin hesabına areallarını genişləndirir.

Şəhərlərin əhatə etdiyi «cəlbedici» əraziyə iqtisadi, texniki, ekoloji, sosial təsirinin miqyası, çox işçi qüvvəsi tələb edən müəssisələrin, ticarətin, əhaliyə xidmət sahələrinin inkişaf səviyyəsində istehsal və qeyri-istehsal sahələrinin infra-

struktur fəaliyyətindən asılıdır.

Şəhərlərin əhatə etdiyi ərazi ilə birlikdə onun funksional qarşılıqlı əlaqələrini aşağıdakı 2-ci sxemdə veririk.

Fuksional əhəmiyyətinə görə şəhərlər müxtəlif növlü xalq təsərrüfatı, sosial, elmi, mədəni, maarif, səhiyyə xidmət sahələrini, sair müəssisələri, təşkilatları özündə cəmləşdirən böyük məntəqədir. Belə şəraitdə şəhərlər onları əhatə edən ərazi ilə birlikdə iqtisadi, inzibati, mədəni-maarif, səhiyyə müəssisələrinin fəaliyyətini, iqtisadi, rayonlararası və dövlətlərarası əlaqələrin qarşılıqlı inkişafını idarə edən vahid mərkəz kimi çıxış edir.

Müxtəlif kənd təsərrüfatı və əhaliyə xidmət sahələrinin təmərküzləşmə yeri olan şəhərlər istehsal, inzibati, elm, təhsil, səhiyyə, mədəni, ticarət mərkəzləridir. Ərazi-istehsal mövqeyində formalaşmış mərkəz kimi sənaye ilə kənd təsərrüfatı arasında əlaqələr yaradaraq elektrikləşmə, ağır iş proseslərinin mexanikləşdirilməsi kəndlə şəhər arasındakı fərqləri aradan qaldırır, əhalinin məskunlaşma formasını, şəhərin əhatə təsirini, mühitini dəyişdirir, kənd təsərrüfatı sahələri ilə sənaye əsasında qarşılıqlı əlaqələr yaradır, torpaqdan, sudan, kurort, rekreasiya ehtiyatlarından istifadə miqyası artır.

Belə olduqda kütləvi müalicə istirahət müəssisələrinin yaradılmasına ehtiyac artır, mühəndis-texniki, sənaye istehsalının fəaliyyəti təkmilləşir, sərnişin-yük nəqliyyatının müasir tələblər səviyyəsinə uyğun inkişafını qarşıda qoyur.

Bununla əlaqədar gərgin sosial-iqtisadi, xalq təsərrüfatı sahələrinin, nəqliyyatın inkişafı, infrastruktur əlaqələrinin genişlənməsi müəyyən qədər şəhərlərin təsirinə məruz qalır.

Kənd rayonları, aqrosənaye və s. ilə iqtisadi, sosial sfera arasındakı qarşılıqlı əlaqələrin xarakteri hər şeydən əvvəl şəhərlərin böyüklüyündən, onların təsir dairəsindən asılıdır. Şəhərlərin istehsala, kənd rayonlarına, ətraf mühitə və s. təsiri urbanizasiyanın, istehsalın, maarif, mədəniyyət və s. sahələrin təmərküzləşməsindən çox asılıdır.




**Sxem 2. Şəhərlərin funksional qarşılıqlı əlaqələri sxemi**

Orta və kiçik şəhərlərə nisbətən böyük şəhərlər daha mürəkkəb, irimiqyaslı vəzifələri, tədbirləri yerinə yetirir, onu əhatə edən ətraf rayonlara, ekoloji mühitə genişmiqyaslı təsir göstərir. Böyük şəhərlərin funksiyasının artması ilə yanaşı onların cəlb etdiyi ərazi və rayonlar da genişlənir. Şəhərlərin ərazi miqyası, əhalisinin miqdarı, funksional xüsusiyyətləri ilə onların təsir dairələri arasında mütənasiblik vardır. Təcrübə və tədqiqat göstərir ki, Azərbaycan Respublikasında əhalisi 300 minlə 1 mln və ondan daha artıq olan şəhərin ərazi təsir dairəsi 140-150 km, orta şəhərlərin 35-40 km, kiçik şəhərlərin 20-30 km arasında tərəddüd edir. Moskva, Kiyev, Bakı və s. kimi super şəhərlərin iqtisadi, mədəni, sosial əlaqələri daha böyük, məsələn, respublika daxili ərazilərdə fəaliyyət göstərir. Bu sahədə Bakı şəhərinin müxtəlif təmayüllü təsiri, əlaqələri respublikanın bütün rayonları ilə fəaliyyətdə olmasındadır.

Şəhərlərin təsir dairəsi təkcə onların əhalisinin sayından asılı olmayıb, funksional vəzifəsindən, istehsal, xidmət sahələrinin mövqeyindən, təsir dairəsinin ilkin, təkrar xammallardan istifadə edilməsindən asılıdır. Ümumiyyətlə, orta şəhərlərin təsir dairəsi 35-40 km qəbul edildiyi şəraitdə, elektroenergetika, yanacaq sənayesi inkişaf etdirilən, faydalı qazıntılar əsasında işləyən müəssisələrə malik Naxçıvan, Mingəçevir, Əli-Bayramlı kimi şəhərlərin təsir dairəsi orta şəhərlərdən genişdir.

Qeyd etmək lazımdır ki, istehsalın inkişafından, təbii şəraitindən, təbii sərvətlərdən istifadə səviyyəsindən asılı olaraq şəhərlərin təsiri çoxsahəlidir. Lakin ətraf rayonların, şəhərlərin inkişafına göstərdiyi təsir haqqında elmi-əsaslı metodik göstərişlərin çatışmazlığı onların planlaşdırılması və layihələşdirilməsi işlərini çətinləşdirir.

Azərbaycanın şəhərlərinin demək olar ki, əksəriyyəti sıx əhali məskunlaşma rayonlarında yerləşir. Belə şəraitdə respublikanın orta və kiçik şəhərləri əsas etibarı ilə kəndlərdən gələn əhali ətrafındakı torpaq, su, sair sərvətlərdən istifadə

hesabına böyüyür. Bunun təsiri nəticəsində geniş torpaq sahələri ilə əhatə olunmuş belə şəhərlərdə əsasən kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan yüngül və yeyinti sənaye inkişaf etdirilir. Belə müəssisələr şəhər ətrafında yerləşən əhalinin müəyyən hissəsini «rəqqas miqrasiyası» yolu ilə cəlb edir.

Ümumiyyətlə, böyük-kiçikliyindən asılı olmayaraq şəhərlərin, onların qarşılıqlı təsiri altında olan rayonların baş planının, genişmiqyaslı tədbirlərin həyata keçirilməsi layihələşdirmə sənədlərinin tərkib hissəsidir. Bu vəzifənin əsas mahiyyəti ondan ibarətdir ki, şəhər təsərrüfatının – sənayenin, xidmət sahələrinin nəqliyyatın inkişafında ərazinin malik olduğu təbii sərvətlərdən, əmək ehtiyatlarından, texniki-iqtisadi vasitələrdən, istifadə səviyyəsindən asılı olaraq onu təkmilləşdirsin. Təcrübə göstərir ki, şəhərlərin, təsiri altındakı yaxın zonaların inkişaf planlarının layihələri tərtib edilərkən şəhərlə-kənd, əhali məşğulluğu ilə istehsal, xidmət sahələri ilkin, təkrar xammal sərvətləri arasındakı qarşılıqlı əlaqələr istənilən səviyyədə nəzərə alınmır.

Şəhərlər mühüm istehsal mərkəzi olmaqdan başqa əhalini, əmək qabiliyyətli işçi qüvvəsini, konstruktiv əhəmiyyətli xammal sərvətlərini özünə cəlb etdirən məntəqədir. Bu mənada şəhərlərin funksiyasının ixtisaslaşması və qiymətləndirilməsində istehsal, nəqliyyat, ticarət, əmək arasındakı əlaqələr əsas yer tutur. Göstərilən sahələr bir-birilə sıx əlaqələri inkişaf etdirməklə şəhərlərin ətraf rayonlara olan təsirini genişləndirir. Kompleks istehsal sistemi çoxsahəli funksiya təmayüllü ərazi daxilində fəaliyyət göstərir, onun təbii, iqtisadi imkanlarından təbii sərvətlərdən istifadə edilir.

Müasir əmək bölgüsü şəhərin mövcud və perspektiv inkişafının əsas sənədi olan plan-layihə sənədlərini ərazi-istehsal kompleksinin tərkib hissəsi kimi qəbul edir. Buna görə şəhərlərə əsasən iki sistem təmayülündə yanaşmaq lazımdır: açıq şəhər, örtülü şəhər.

Göstərilən sistemdən və fəaliyyət funksiyasından asılı

olaraq urbanizasiya əsasən yerli təbii sərvətlər, yanacaq-enerji, metallurgiya xammallarından istifadə etməklə, istehsalın təmərküzləşməsi şəhərin funksional proseslərini mürəkkəbləşdirir. Belə şəraitdə xalq təsərrüfatı və ekoloji çərçivədə yeni problemlər yaranır, bunların yerinə yetirilməsi 150 mühüm iqtisadi, ictimai məsələlərin həllini qarşıya qoyur.

Şəhərlərin ətraf rayonlara olan təsiri tutduğu ərazidən, əhalisinin sayından deyil, əsas etibarilə onun funkstonal əhəmiyyətindən asılıdır. Məsələn, tutduğu ərazinin genişliyi və əhalisinin sayına görə Gəncə Mingəçevirdən 3,0-3,5 dəfə böyük olmasına baxmayaraq, Mingəçevirin təsir dairəsi ondan xeyli böyükdür.

Süper və iri şəhərlərin iqtisadi təsiri bir rayonla, vilayətlə məhdudlaşmır, onların tutduğu ərazidən xeyli kənara çıxır. Məlumdur ki, ətrafı ilə birlikdə respublikanın bütün rayonları Bakı şəhərinin iqtisadi, xidmət, elm, səhiyyə, mədəniyyət, əmək ehtiyatlarının işlə təmin edilməsi təsirinə məruz qalır.

Respublika tabeliyindəki Naftalan, Əli-Bayramlı, Mingəçevir, Sumqayıt, Gəncə, Yevlax şəhərlərinin rayonlararası iqtisadi, sosial, nəqliyyat və s. təsirlərə malik olduğu halda, kiçik şəhərlər bir qayda olaraq tabeliyində olduqları inzibati rayon daxilindən kənara çıxmır.

Özlərinin mövcudluğu və təsir miqyaslarına görə şəhərlər iqtisadi, ticarət, nəqliyyat, əhaliyə xidmət kooperasiyasına, bir sözlə əlaqələndirici əraziyə malik olmaqla ictimai əmək bölgüsündə, iqtisadi əlaqələrdə, mal mübadiləsində mühüm rol oynayır. Özünün çoxsahəli vəzifəsinə görə əsas istiqamətdə mütərəqqi yolla istehsalı əlaqəli sürətdə inkişaf etdirən, elm və texnikanın yaradıcı məkanı, mədəniyyətin, mütərəqqi xidmət sahələrinin beşiyi kimi, sənaye istehsalı əsasında istehsal vasitələri yaradan, insanların intellektual səviyyəsini formalaşdıran, beynəlxalq iqtisadi, mədəni əlaqələri inkişaf etdirən şəhərlər bəşəriyyətin nəhəng kəşfidir.

Başqa böyük şəhərlər kimi, Bakı müasir, sivil fenomeni,

elmi-texniki tərəqqinin, elmi-intellektual potensialın, iqtisadi, maarif, mədəniyyətin inkişafı və formalaşdığı obyektdir və bunlar özlərinə məxsus fəaliyyət çərçivəsi daxilində müəyyən vaxtda səmərəli inkişaf edir.

Şəhər sivilizasiyasının tədqiqatçıları və onların tərəfdarları belə hesab edirlər ki, urbaniləşmiş təmərküzləmiş şəhər mühiti o vaxt özünü doğruldur ki, maddi, intellektual, elmi-texniki, nəqliyyat əlaqələri xidmət sahələrinin inkişafına əlverişli şərait yaratsın və bunların istifadəsi əhalinin, istehsalın tələbatını ödəsin. Göstərilən amillərin şəhər mühitinə etdiyi təsir onun morfoloji quruluşunun vəziyyətindən, iqtisadi, elmi-texniki, intellektual proseslərindən, əhalinin həyat tərzinin yaxşılaşdırılmasından, bu aspektdə şəhər mühitinin inkişafına qiymət verilməsindən asılıdır.

Geniş mənada şəhərə olan tələbatın maddi, qeyri- maddi və sair sahələrin inkişafı mövcud təbii, iqtisadi potensialdan istifadə edilməsini, müasir texnologiyanın tətbiqi sahəsində genişləndirməkdən, şəhər daxilində, onun əhatə etdiyi rayonlarda qarşılıqlı iqtisadi əlaqələrin, informasiya və əmək ehtiyatlarının həyatda tətbiqini, istehsal, istehlak mübadiləsini təmin edən vasitələrin, tədbirlərin artırılmasından ibarətdir.

Şəhərin formalaşmasına və inkişafına təsir edən amillərin içərisində əhali ilə yanaşı iqtisadiyyatın, onun sahələri arasında infrastruktur əlaqələrinin inkişafı emaledici, müəssisələrarası kooperasiyanın, əhali məşğulluğunun, ekoloji mühitin nizamlanmasıdır.

Urbanizasiyanın, istehsalın, nəqliyyatın təmərküzləşməsinin səviyyəsindən asılı olaraq, nəqliyyat, daxili, xarici iqtisadi əlaqələr genişlənir, elmi idarəedici xidmətin və xidmətedici sahələrin əhəmiyyəti artır. Xalq təsərrüfatının inkişafında istilik-enerji istifadə kompleksində nəqliyyat-iqtisadi əlaqələr, sənaye müəssisələri arasındakı kooperasiya mübadiləsində ekoloji mühitdə təbiəti bərpa işlərində, urbanizasiya, təmərküzləşmə prosesləri şəhərlərə mürəkkəb, kompleks halda təsir

göstərir. Bunların şəhər mühitində təsirini müəyyən etmək üçün bir sıra məsələlərin həll edilməsi zəruriliyi ortaya çıxır: Bunlara aşağıdakılar daxildir:

a) funksional nbgkzhbylzy asılı olaraq əhəmiyyəti və xarakteri ilə əlaqədar şəhərin təsnifatının təhlili;

b) inzibati rayon, mikrorayon səviyyəsində istehsalın və qeyri-istehsal sahələrinin kompleks fəaliyyətini əhatə edən şəhərin, şəhər aqlomerasiyasının sahəvi və ərazi sistemində infrastrukturun araşdırılması;

c) işçi qüvvəsinin ilkin, təkrar xammal materiallarının, əmək ehtiyatlarının yerləşdirilməsini və istifadəsini nəzərə alaraq şəhərdaxili, şəhərətrafı fəaliyyət zonalarında iqtisadi, təbii, ekoloji, sosial amilləri tədqiq etmək.

Yuxarıda göstərilənlərin, şərtlərin öyrənilməsi, şəhərəmələgəlmə, şəhərplanlaşdırma işlərinin nizama salınması, iqtisadi inkişafın, infrastrukturun fəaliyyətinin qiymətləndirilməsi üçün zəruridir.

Bu yolda coğrafiyaşünasların qarşısında duran əsas vəzifə şəhər yaşayış məntəqələrinin yerləşməsini, onların səmərəli fəaliyyətini təmin edən, buna şərait yaradan amillərin funksiyasının düzgün müəyyən edilməsidir. Bunlar isə şəhərsalma funksiyasının nəzəri və praktiki bazasının işlənilməsi və həyata keçirilməsi üçün zəruridir.

Sənaye istehsalının, urbanizasiyasının, nəqliyyatın hərəkət intensivliyinin müasir mərhələsində binövrəli, binövrəsiz istehsal sahələrinin ierarxiyasını, aqlomerasiya daxilində fəaliyyət növlərini nəzərə almaqla şəhərlərin təsnifatının təhlili mühüm tədbir kimi qiymətləndirilməlidir.

Şəhərin ətraf mühitə, sənaye istehsalına, texniki tərəqqinin başqa sahələrinə təsiri urbanizasiyaya məruz qalmış rayonların arealını genişləndirir və onları özünə yaxınlaşdırır. Bunların təsiri altında olan sərbəst zonalar, tikintilər, yollar, sair kommunikasiyalar fəaliyyət göstərir. Şəhər funksiyası daxilində gedən sənaye prosesləri ilə şəhərətrafı kənd təsərrüfatı, aqrosənaye sahələri arasında uzlaşma əla-

qələrinin fəaliyyəti artır ki, bunların da formalaşmasında yerli xammal, xüsusilə faydalı qazıntı sərvətlərindən istifadə edilməsi, ekoloji mühitin mühafizəsi, nəqliyyatın rolu böyük əhəmiyyət kəsb edir.

Bu sahədə, xüsusilə şəhəryanı kənd təsərrüfatı inkişaf etdirilən, kurort, rekreasiya, təbii müalicə müəssisələrinə malik olan Bakı, Sumqayıt, Gəncə şəhərləri əhəmiyyətli yer tutur. Göstərilən şəhərlərin intensiv urbanizasiya və təmərküzləşməyə məruz qalan mərkəzi hissələri və onlarda olan istehsal, əhaliyə xidmət sahələri tədricən mikrorayonların ərazisinə keçir, bəzən onların ərazisindən kənara çıxır.

Belə proses şəhərin mərkəzindəki gərginliyi zəiflədir, nəqliyyat, istehsal, sakinlər «yükünü» azaldır. Müasir dövrdə şəhərətrafı seyrək rayonlarda özəl sahələrin bələdiyyə torpaqlarında aqrosənaye təsərrüfatının inkişaf etdirilməsinə çox ehtiyac vardır. Lakin bu problemin həll edilməsini çətinləşdirən bir sıra səbəblər vardır. Onların aradan qaldırılması maliyyə vəsaiti, özəlləşdirilmiş kiçik sahələrə ayrılmış torpaq, onun becərilməsi üçün müvafiq texnika, bunu işə salmaq üçün istehsal imkanına münasib qiymətə yanacaq, sürtgü materialları, mineral kübrə, ziyanvericilərə qarşı preparatlar lazımdır. Bunlarsız şəhərətrafı kənd təsərrüfatının inkişafı mümkün deyil.

Azərbaycanın iri və orta şəhərləri ətrafında istər dövlət, istərsə də şəxsi, fermer, icarə, bələdiyyə və s. tərəfindən kənd təsərrüfatı istehsalının məhdudlaşdırılmasının əsas səbəblərindən biri də xarici bazarlardan ölkəyə gətirilən ucuz və keyfiyyətsiz ərzaq məhsullarıdır.

Elmi-texniki, səhiyyə, mədəni-maarif, ticarət, istehsal, əhaliyə xidmət sahələrinin fəaliyyəti idarəetmə, təşkilatı tədbirlərdən, şəhər planlaşdırma işlərinin rejimindən asılıdır. Öz növbəsində şəhərin əhatə etdiyi rayonlara təsiri istehsal-fəaliyyətindən, əmək ehtiyatlarından istifadə edilməsindən, istehsal, qeyri-istehsal sahələrinin ixtisaslaşmasından, əhaliyə xidmət sahələrinin səviyyəsindən asılıdır. Yuxarıda deyilənləri

nəzərə alaraq Böyük Bakı timsalında təbiəti mühafizə tədbirlərinin istehsalla əlaqələrində iştirak aşağıdakı sxemdə verilir.

Respublikanın paytaxtı Bakı çoxfunksiyalı-iqtisadi, ekoloji, siyasi, inzibati, elmi-texniki, mədəni-maarif, səhiyyə, idman xidməti proseslərinin fəaliyyət məntəqəsi olan mürəkkəb kompleksdir. Respublikanın iri və orta şəhərləri də mürəkkəb, iqtisadi, demoqrafik, sosial, elmi-texniki, mədəni-maarif, təbiəti mühafizə və b. proseslərin fəaliyyətdə olması ilə təzahür edilir.

Müasir dövrdə göstərilən proseslərin hərtərəfli inkişafı, onların arasındakı qarşılıqlı əlaqələrin uzlaşdırılması, təhlili statistik məlumatların araşdırılmasından başqa, elmi-texniki tərəqqinin vasitəsilə ətraf rayonlara edilən təsirin düzgün dərk edilməsi üçün zəruridir.

Şəhərin istehsal və xidmət sahələrinin quruluşunun təkmilləşdirilməsi, sahəvi və regiondaxili iqtisadi əlaqələr əsasında bazar münasibətlərinə uyğun keyfiyyətli məhsullar alınması infrastruktur intensivliyini artıran mühüm amildir.

Sosioloqlar, iqtisadçılar, coğrafiyaşünaslar, memarlar, layihəçilər şəhərin inkişafında, formalaşmasında, onun vəzifəsinin təkmilləşdirilməsində fəal iştirak etməklə, hərəsi özlərinə məxsus konseptual vəzifə payını yerinə yetirir. Kompleks tədbirlərdən təcrid edilmiş, lakin ayrı-ayrılıqda götürülmüş sistem əlaqələri ictimai, fərdi münasibətlərdə qarşılıqlı vəhdəti pozur, infrastruktur inkişafda təçridlik yaradır. Bunların aradan qaldırılması səhiyyə, sosial iqdisadi, elmi-texniki, demoqrafik, konseptual metodların təkmilləşdirilməsini, bunlara təsir edən proseslərin araşdırılmasını tələb edir.

Ərazi baxımından bütün şəhərlər təbii və mədəni landşaft əhatəsində inkişaf edir, istehsalın təmərküzləşməsi, urbanizasiyanın dinamikası ilə yanaşı, antropogen təsirlər genişlənir. Bunların nizama salınması, şəhərin təsərrüfat kompleksinin xidmət sahələrinin idarə edilməsi, təkmilləşdirilməsi cəmiyyətin qarşısında yeni vəzifələr qoyur ki, bunların da həlli külli miqdarda maliyyə vəsaiti, əmək və material tə-

ləb edir.

Şəhər mühitindəki urbanizasiya şəraitində istehsalın təmərküzləşmə təsiri başlıça olaraq təsərrüfatın, xüsusilə sənayenin, nəqliyyatın intensivliyindən asılıdır. Bu mənada təbii mühit yalnız fiziki-coğrafi obyekt deyil, eyni zamanda ona uyğunlaşan ictimayi fəaliyyətin təsiri altında dəyişir, davam edir. Bu o deməkdir ki, biz elə bir mühitdə yaşayırıq ki, şəhərlər və onların hissələri (*rayonları*) elmi-texniki tərəqqiyə və müasir, sivilizasiyaya münasib layihələşdirilməli, dövrün real tələblərinə üyğun inkişaf etdirilməlidir. Bu mənada respublikanın şəhərləri rayonlararası, rayonlardaxili iqdisadi əlaqələr sistemini formalaşdıran və nizamlayan mühüm obyektdir.

Xalq təsərrüfatının müxtəlif sahələri və əhaliyə xidmət müəssisələrinin cəmləşdiyi lokal ərazi vahidliyi olan şəhərlər istehsal, inzibati, mədəni, ticarət mərkəzləri kimi ölkənin iqdisadi, sosial inkişafının təmin edilməsində və nizamlanmasında fəal iştirak edir. İstehsal-ərazi sistemi daxilində formalaşmış və müəyyən dərəcədə mərkəz rolunu oynayan şəhərlər sənaye ilə nəqliyyat, onunla kənd təsərrüfatı arasında əlaqələr yaradaraq rayonların elektrikləşdirilməsi, iş proseslərinin, əməyin mexanikləşdirilməsi, ixtisaslı kadrlar hazırlığı, texniki tərəqqinin inkişafı əsasında kəndlə şəhər arasında olan mühüm fərqləri xeyli aradan qaldırır.

Bunlardan əlavə, şəhər əhalisinin məskunlaşması istiqamətində yaşayış mühitini dəyişdirir, kənd təsərrüfatı ilə sənaye sahələri arasında texniki əlaqələr yaradır, əhalinin istirahət, müalicə-profilaktika müəssisələrinə, rekreasiya zonalarına olan tələbatını artırır.

Şəhərlərdə istehsal prosesləri təkmilləşir, sərnişin və yükdaşıyan nəqliyyatlar müasir səviyyəyə uyğun təşkil edilir. Şəhərlər ətrafında kənd təsərrüfatı sənaye əsaslı inkişaf edərək əhalinin ərzaq məhsulları ilə təmin edilməsində müəyyən qədər əhəmiyyət kəsb edir. Bu isə şəhərlərin tələbatı ilə yanaşı, istehsalın və kənd təsərrüfatının maddi-texniki bazasının genişləndirilməsindən çox asılıdır.

Şəhərlərin istehsala, ətraf mühitə və s. təsiri urbanizasiyanın, sənayenin, nəqliyyatın inkişafından, təmərküzləşdirilməsindən, əhalinin miqdarından asılıdır. Buna görə təbiəti mühafizə tədbirlərinin tərtibi mühüm əhəmiyyət kəsb edir (bax: sxem 3).

Şəhərlərin funksional quruluşunun tədqiqatı göstərir ki, əhalinin məskunlaşması, sənayenin, nəqliyyatın, xidmət sahələrinin təmərküzləşməsi ilə əlaqədar onların iqtisadi, sosial mövqeyi dəyişir. Orta və kiçik şəhərlərə nisbətən böyük və iri şəhərlər daha mürəkkəb, genişmiqyaslı problemləri, tədbirləri yerinə yetirir, onu əhatə edən ətraf rayonlara, ekoloji mühitə genişmiqyaslı təsir göstərir.

Belə şəhərlərin funksiyasının artması ilə yanaşı onların cəlbedici ərazi rayonları da genişlənir. Şəhərlərin ərazi miqyasından, əhalinin miqdarı və məskunlaşmasından, funksional xüsusiyyətlərindən asılı olaraq təsir dairəsi də artır.

Azərbaycanın böyük və orta şəhərlərinin hamısı demək olar ki, sıx əhali məskunlaşması rayonlarında yerləşir, respublikanın orta və kiçik şəhərləri əsas etibarilə kənd əhalisi hesabına böyüyür. Bunun nəticəsində geniş torpaq sahələri ilə əhatə olunmuş belə şəhərlərdə əsas etibarilə kənd təsərrüfatı məhsullarının emalı, yüngül və yeyinti sənaye sahələri inkişaf etdirilir.

Belə müəssisələr şəhər ətrafında yaşayan əhalinin müəyyən hissəsini «rəqqas miqrasiyası» vasitəsilə özünə çəlb edir. Şəhərlərin sənaye, texniki, texnoloji, ekoloji mühitinin təsirinə məruz qalaraq rayonlar tədricən onların çazibəsi altında inkişaf edir, müəyyən qədər şəhərləşir. Sənayenin, xidmət sahələrinin, nəqliyyatın inkişafında təbii sərvətlərdən, texniki, iqtisadi potensialdan istifadə edilməsi də şəhərlə kənd arasındakı əlaqələrin vəziyyətindən, bazar iqdisadiyyatı şəraitində təkmilləşdirilməsindən asılıdır. Təcrübə göstərir ki, şəhərlərin və onların təsir zonalarının perspektiv planlarının, layihələrinin tərtib edilməsində, şəhərlə kənd, müəssisələri ilə xidmət sahələri arasındakı qarşılıqlı əlaqələrin uzlaşdırılması zəruridir.




**Sxem 3. Təbiətin və ekoloji mühitin mühafizəsi sxemi**

Belə tədbirlərin təsirinin yüksəldilməsi və onların istehsalda tədbiq edilməsi müasir dövrün tələblərindən irəli gəlir.

Şəhərlər mühüm istehsal mərkəzi olmaqdan başqa ətraf rayonlardan əhalini, əmək qabiliyyətliləri özünə cəlb etdirən məntəqədir. Bu mənada şəhərlərin özlərinə məxsus ixtisaslaşma funksiyasının qiymətləndirilməsində istehsal, nəqliyyat, ticarət, əmək arasındakı əlaqələr əsas yer tutur. Göstərilən sahələr bir-birilə sıx əlaqələrdə ikişaf etməklə şəhərlərin ətraf rayonlarla olan təsirini genişləndirir. Kompleks sosial-istehsal sistem məntəqəsi olan şəhərlər çoxsahəli funksiya təmayüllü ərazi daxilində fəaliyyət göstərir, onun təbii-iqtisadi imkanlarından istifadə edir.

Şəhər məfhumunun əsas meyarlarından biri maddi elementlərin qarşılıqlı əlaqəsidir və bunun məzmunu sosial-iqtisadi, eləcə də ərazi-istehsal arasındakı olan münasibətlərin nəzərə alınmasıdır.

Abşeron yarımadasının ərazisini əhatə edən Böyük Bakının əsas təbii sərvəti neft və qaz ehtiyatıdır. Burada olan neft mədənlərindən 200 ilə yaxın müddətdə 1 mlrd 300 mln tondan artıq neft çıxarılmışdır. 1950-cı ildən sonra Xəzər dənizi akvatoriyasında külli miqdarda neft və qaz ehtiyatlarının aşkar edilməsi Azərbaycanı dünyanın ən zəngin yanacaq-enerji ölkəsini çevirmişdir.

Bakı şəhər İH ərazisində yerləşən Abşeronun neft və qaz ehtiyatları indi Azərbaycanı ABŞ, Avropa, Asiya ölkələrinin, Xəzər-Qara dəniz hövzəsində Avropa-Asiya nəqliyyat dəhlizinin beynəlxalq maraq hədəfinə çevrib.Yanacaq-enerji ehtiyatlarından istifadə edilməsində, bir sıra ölkələrə onların nəqlində beynəlxalq əhəmiyyətli iri- miqyaslı layihələrin tərtibində Bakı şəhəri dünyanın böyük strateji mərkəzlərindən biridir. Rəsmi məlumatlara əsasən Xəzər dənizində neft ehtiyatı 30 mlrd ton, proqnoz ehtiyatı isə 100 mlrd tondur. Təbii qaz ehtiyatı isə onlarla trilyon kub metr təşkil edir[1].

---

[1] Əliyev N. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Prezidenti, Amerika-Azərbaycan Ticarət Palatasının 4-cü toplantısındakı məruzəsi.

## Şəhərlərin İCM-nin prinsipial quruluşu

Cədvəl 12

| Əlaqə sinfi | Yarıməlaqə sinfi | İCM-lərin növü | İCM-lərin yarım növü |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| A<br>Əsas ərazi münasibət-ləri | 1.İctimai istehsalın elementlərinə münasibət | | Nisbi vəziyyət |
| | | 1.Sənaye- coğrafi | a) Enerji mənbələri (*yanacaq-coğrafi, enerji-coğrafi*).<br>b) İri həcmli xammal və materiallar (*məsələn, metal-coğrafi, meşə-coğrafi, emal sənayesi toplusu*) |
| | | 2.Aqrar coğrafi | a) Ərzaq bazaları (*ərzaq-coğrafi*)<br>b) kənd təsərrüfatı bazası. |
| | | 3.Nəqliyyat coğrafi | a) Dəniz yolları (*dənizkənarı*)<br>b) Sair magistral yollar (*magistral*) (*Nəqliyyat qovşaqları*) |
| | | 4.Ticarət coğrafiyası | a) İstehsal təmayüllü malların satış bazarı (*xüsusilə daş kömürün*) qara metalların və s. zona vəziyyəti. |
| | | 5.Demo-coğrafi | a) Əmək ehtiyatları.<br>b) Elmi-texniki kadrlar. |
| | II.Coğrafi yayılma münasibəti | 1.Daxili yayılma:<br>a)mərkəzi<br>b)eksentrik<br>q)yayılma arealı | |

**cədvəlin ardı**

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| B<br>İstehsal ərazi münasibətləri | 1.İstiqamət və fokus münasibətləri | 1.Yük daşınmasında<br>2.Sərnişin daşınmasında<br>3. Qarşılıqlı vəziyyət | a) İnzibati iqtisadi rayonlar;<br>b) inteqral iqtisadi rayonlar;<br>Sair yayılmalar (*kömür, dəmir filizi hövzələri*) kənd təsərrüfatı ixtisaslaşmasının yayılması, müəyyən millətlərin məskunlaşmasının yayılması, müəyyən millətlərin məskunlaşması; əmək ehtiyatları, iqtisadi mənimsəmə əraziləri və s. |
| V<br>İnteqral ərazi münasibətləri (*münasibətə nisbətən*) | I. Müxtəlif miqyaslı ərazilərə münasibət (*onlarla intensiv əlaqə şərtiilə*) | 1.Makrovəziyyət | a) daxili əlaqələrdə,<br>b) rayondaxili, rayonlararası əlaqələrdə,<br>c) daxili-iqtisadi əlaqələrdə (*əsasən daxili yük, sənişin daşınmasında*)<br>a) şəhərlərin lokal əlaqə sistemləri (*o cümlədən şəhəryanı zonalar*)<br>b) şəhərdaxili ərazi sistemlərinin şəhərləri (*əsasən paytaxtlar*).<br>a) bir və ya bir neçə inzibati rayonlar və ya vilayətin, diyarın, muxtar respublikanın bir hissəsi<br>b) planlaşdırılmış mikrorayonlar. |

Xəzər neftinin istismarı, nəql edilməsi üzrə investisiya qoyan 15 ölkənin 33 kompaniyası tərəfindən Azərbaycanla birlikdə 19 beynəlxalq saziş imzalanmışdır. Bağlanmış kontrakt ərazilərində neftin proqnoz ehtiyatı 4,5 mlrd ton, qazın ehtiyatı 4-5 trilyon kub neft hesablanmışdır.

Azərbaycan Respublikasının iqtisadi, geosiyasi inkişafında ən böyük əhəmiyyətə malik olan Bakı-Ceyhan neft kəməri ilə Bakı neft mədənlərindən Qara dəniz sahilində hər il 35-40 milyon tona qədər neft nəql edilməsi nəzərdə tutulub. 2002-2004-cü ildən tikintisinə başlanan Bakı-Ceyhan neft kəməri respublikanın paytaxtının beynəlxalq aləmdə inkişafında görkəmli əhəmiyyət kəsb etməklə, burada olan çoxminli işçi qüvvəsinin işlə təmin edilməsində böyük ehtiyat mənbəyidir.

## 3.2 Şəhərlərin inkişafında iqtisadi ekoloji amillər, şəhər və torpaq

Şəhərlərin yaranması iqtisadi-coğrafi, iqtisadi, demoqrafik, geosiyasi şəraitdə baş verir və bunlara münasib problemlər yaranır, onların həll edilməsinə münasib qarşılıqlı tədbirlərin zəruriliyi ortaya çıxır. Bu prosesdə böyük şəhərlərin inkişafı iqtisadi şəraitə, iqtisadi-coğrafi mövqeyə, ictimai əmək bölgüsünə uyğun məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, paytaxt şəhərlərinin «cazibə təsiri» mövqeyində kəndlərin «şəhərləşməsi», buna münasib iqtisadi inkişafın, sosial həyat tərzinin uyğunlaşdırılması baş verir.

Şəhərlərdə aparılan tikinti, abadlıq işlərinin, şəhər mühitinin iqtisadi, sosial kompleksdə yaradıcı, idarəedici fəaliyyətindən və cəmiyyətin iqtisadi imkanlarından istifadə etməklə əhalinin, ölkənin tələbatının ödənilməsi problemlərinin həllinə yönəldilməsi zəruri şərtdir.

Bu təmayüldə şəhərsalma problemləri nəzəri və praktiki məsələlərin ortaya çıxmasında, onların həllində sabiq Sovet memarlıq sənətinin təsiri altında Azərbaycan memarları,

şəhərşunasları mühüm tədbirlər həyata keçirmişlər və müəyyən müvəffəqiyyətlər əldə etmişlər. Əsasən 1950-60-cı illərdən sonra respublikada şəhər tikinti işlərinin genişləndirilməsi, son 10 ildə bir sıra xarici kompaniyaların, şirkətlərin Bakı şəhərində tikdikləri çoxmərtəbəli yaraşıqlı binalar paytaxta gözəllik verir.

Bunlarla yanaşı, ayrı-ayrı imkanlı vətəndaşlar tərəfindən istər Bakıda, istərsə də respublikanın başqa şəhərlərində fərdi, şəxsi binaların, «villaların» tikilməsi müsbət mənada onların görkəmini dəyişdirir. Lakin çox hallarda nizamsız, müasir şəhər mühitinin kompazisiyasına cavab verməyən belə tikintilər mərkəzin, onun ətrafının memarlıq görkəmini pozur. Şəhərin mərkəzində və mikrorayonlarda belə binaların nizamsız tikilməsi memarlıq baxımından bir sıra uyğunsuzluqlar yaratmışdır. Azərbaycanda şəhər tikintilərinin inkişafı ayrı-ayrı şəhərlərdə, xüsusilə orta və iri yaşayış məntəqələrində əsaslı konseptual layihə sənədləri tərtibindən başlamış onların həyata keçirilməsinə qədər mürəkkəb məsələlərin, xüsusilə maliyyə vəsaitlərinin həlli ilə əlaqədardır.

Köhnə məskunlaşma sisteminin yeni şəhərsalma qaydalarına uyğun dəyişdirilməsi, yeniləşdirilməsi mühüm tədbir olmaqla, onların həyata keçirilməsi qısa vaxtda mümkün deyil. Bu problemin həlli elmi-texniki tərəqqinin, cəmiyyətin gələcək tələbatının, dünya standartı səviyyəsində şəhərlərin tutduğu mövqelərin nəzərə alınmasını tələb edir.

Böyük şəhərlərdə, o cümlədən respublikanın paytaxtı Bakıda müxtəlif növlü və təmayüllü istehsal, qeyri-istehsal sahələri mövcuddur, dövri olaraq onların yeni layihələri, perspektiv planları tutulur. Bu, zəruri proses olmaqla müasirləşmə, yenilik və mütərəqqinin arasında uzlaşma yaradır. Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Əli-Bayramlı, Naxçıvan kimi iri və orta şəhərlərin də müxtəlif təmayüllü zavodlar, fabriklər, nəqliyyat vasitələri, yaşayış, inzibati binalar, bəndlər, su anbarları, elektrik stansiyalarının gələcək kompleks inkişaf planları mövcuddur.

Bunların hamısı bir məqsədə-mütərəqqi üsulların nailiyyətlərindən istifadə etməklə, respublikanın iqtisadi, hərbi qüdrətini artırmağa, əhalinin sosial vəziyyətini yaxşılaşdırmağa, beynəlxalq miqyasda dövlətçiliyi möhkəmləndirməyə xidmət edir.

Respublikanın paytaxtı Bakı şəhərinin tikintisində nəzərə çarpan təzadlar nəzəri və memarlıq baxımından nəhəng muzeydir. Burada «köhnə gözəlliklə», daha doğrusu, XIX əsrin ikinci yarısında, XX əsrin əvvəllərində ayrı-ayrı varlılar, milyonerlər tərəfindən tikilən çoxmərtəbəli yaraşıqlı binalarla yanaşı, son illərdəki tikililər şəhərə yaraşıq verir. Son vaxtlarda xarici kompaniyalar tərəfindən yüksək mərtəbəli, zövqü oxşayan binalar, xüsusilə şəhərin mərkəzini gözəlləşdirir. Lakin bunlarla yanaşı, saysız-hesabsız köhnə yaşayış və ictimai binalar şəhərin görkəmini kasadlaşdırır.

İkinci Dünya müharibəsindən sonra Azərbaycanda yeni şəhərlərin salınması iki təmayüllü olmuşdur: a) peyk şəhərləri, mikrorayonlar; b) mühüm sənaye mərkəzləri olan yeni şəhərlər. Birinciyə Bakının «cazibə qüvvəsi» altındakı Qaradağ, Xırdalan qəsəbələri, doqquz mikrorayon, ikinciyə metallurgiya, kimya, sənaye mərkəzi Sumqayıt, neftçıxarma, elektroenergetika mərkəzi Əli-Bayramlı, SES, DRES və sair tikinti komplekslərinə malik Mingəçevir, dağ-mədən sənayesinə malik Daşkəsən şəhərləri daxildir.

Azərbaycanda yeni şəhərlərin yaranması, inkişafı, urbanizasiyanın genişlənməsi yeni istehsal sahələrinin yaradılması, məhsuldar quvvələrin səmərəli yerləşdirilməsinin qanunauyğunluqlarına uyğun aparılmışdır. 1950-ci illərdən sonra yaradılmış şəhərlərin hamısı (*Sumqayıt müstəsna olmaqla*) təbii sərvətlərin – metallurgiya, kimya, hidroenerji, yanacaq-energetika, tikinti sərvətlərinin mənimsənilməsi və istifadəsi, onların bazasında müvafiq sənaye komplekslərinin inkişafına əsaslanmışdır. Müharibədən sonrakı dövrdə «təmiz yerdə» yaranan şəhərlər tam mənada təbii sərvətlərdən istifadə edilməsi ilə əlaqədardır. Bunlara Neft daşları,

Ceyranbatan qəsəbəsi, Daşkəsən rayonunda Alunitdağ, Şəmkir SES yanındakı Kür qəsəbəsi, Naxçıvan MR-də Gümüşlü, Paraqaçay qəsəbəsi Arazqovşağı və s. daxildir.

Sovet hakimiyyəti illərində Azərbaycanda yaradılmış 50-ə qədər şəhərin çoxusu müharibədən sonrakı illərin payına düşür. Əgər 1959-cu ilə qədər Azərbaycan əhalisinin 48,0 faizi şəhərlərdə məskunlaşmışlarsa, indi onların miqdarı 51,0 faiz təşkil edir. 1920-ci, 1940-cı və 1959-cu illərə nisbətən 2000-ci ildə respublikada əhali müvafiq olaraq 4,1-2,5-2,2 dəfə artmışsa, həmin illərdə şəhər əhalisi 10,2-4,1-2,3 dəfə çoxalmışdır.

Göstərilən müddətdə şəhər əhalisi ümumi əhali artımını qabaqlamışdır. Müharibədən sonrakı illərdə yeni şəhərlərin yaranması, tərəqqisi, formalaşması, iqtisadi-sosial, demoqrafik inkişafla əlaqədər daimi təmayül olmuşsa da, son 14-15 ildə göstərilən amillərin zəifləməsi, xarici ölkələrə əhali axını ilə əlaqədər şəhərlər tənəzzülə uğramış, əhali arasında işsizlik artmış, sosial ədalət xeyli zəifləmişdir.

Son 10 ildə istər dünyanın mühüm sənaye rayonlarında, istərsə də Azərbaycanın iri və böyük şəhərlərində müşahidələr, rəsmi sənədlər göstərir ki, atmosfer havasının çirkləndirilməsində energetika, kimya, neft-kimya, neft emalı müəssisələri, avtomobil nəqliyyatı əsas yer tutur. O da məlumdur ki, respublikada bunlara qarşı radikal mübarizə üçün kapital qoyuluşu o dərəcədə azdır ki, hətta ən təhlükəli halların aradan qaldırılması tədbirində belə kifayət deyil.

Respublikada təbiəti mühafizə tədbirləri, təbii sərvətlərdən istifadə edilməsi haqqında bir sıra qanunvericilik aktlarının fəaliyyətdə olmasına baxmayaraq, bu sahədə görülən tədbirlər müasir tələblərdən geri qalır. Burada zəruri tədbirlərin həyata keçirilməsi Bakı, Sumqayıt, Gəncə, Əli-Bayramlı şəhərlərində yanacaq-energetika, kimya-metallurgiya xammallarından istifadə bazasında müvafiq sənaye sahələrinin inkişafının ekoloji-iqtisadi cəhətdən nizama salınmasını tələb edir.

İlk növbədə istehsalın bu yolla təşkili, təbiəti mühafizə tədbirlərinin səmərəli aparılması zəruri şərt kimi qəbul edilməlidir. Burada əsas istiqamət ekoloji mühitin mühafizəsi ilə yanaşı iqtisadi, sosial, texnoloji tədbirlərin səmərəli təşkilindən ibarətdir. Bunlar ekoloji mühitin və təbiətin mühafizəsinə sərf edilən kapital qoyuluşunun qısa müddətdə ödənilməsini təmin edər.

Şəhər mühitində sənayenin, nəqliyyat sahələrinin iqtisadi, ekoloji baxımdan qiymətləndirilməsi müəssisənin maliyyə xərclərində öz əksini tapmaqla müvafiq tədbirlərin yerinə yetirilməsini həyata keçirən vasitədir. Müxtəlif sənaye məhsullarının alınmasında, ümumiyyətlə, sənaye istehsalında keyfiyyət, kəmiyyət göstəriciləri ilə bərabər şəhər mühitində ekoloji şəraitin inkişafının tənzimlənməsi, təbiəti mühafizəi tədbirlərinin həyata keçirilməsi və yerinə yetirilməsi zəruri şərtdir.

Şəhər mühitinə xas olan ərazi fərqləri, mədəni landşaftlar bunlarla əlaqəli əhali məskunlaşmasına, istehsalın təmərküzləşməsinə çoxcəhətli təsir göstərir. Şəhər mühiti daxilində formalaşmış sənaye, qeyri sənaye xidmət sahələri müəyyən qanunlara istinad edir ki, bunun da daxilində diferensiasiya, inteqrasiya prosesləri baş verirdi.

Şəhərdə fəaliyyətdə olan ictimai, fərdi elementlərin iearxiyası və qarşılıqlı əlaqəli inkişafı bütöv orqanizm daxilində mürəkkəb təmayüllü inteqrasiyanın fəaliyyətindən irəli gəlir. Bütövlüyünə, funksional, tarixi əhəmiyyətinə görə inteqrasiya və diferensiasiya proseslərinin öyrənilməsində ən əlverişli obyekt şəhərdir.

Şəhərdə fəaliyyətdə olan ictimai, fərdi strukturların iearxiyası və qarşılıqlı əlaqəli inkişafı bütöv orqanizm daxilində mürəkkəb təmayüllü inteqrasiyanın fəaliyyətindən irəli gəlir. Bütövlüyünə, funksional, tarixi əhəmiyyətinə görə inteqrasiya və diferensiasiya proseslərinin öyrənilməsində ən əlverişli obyekt şəhərdir.

Urbanizasiya proseslərinin hərəkət fəaliyyətindən, xalq

təsərrüfatı konpleksindəki əlamətlərindən başlanğıcını götürən və inkişaf qanunauyğunluğuna münasib fəaliyyətdə olan şəhərlər o mühüti təmsil edirlər ki, sosial proseslərin diferensiyasına, idarə etmənin müxtəlif tiplərinin saflaşdırılmasını, əhali ilə sosial xidmətlər və onların sonrakı inteqrasiyası arasındakı münasibətləri əhatə edir.

Belə inteqrasiya elə sürətlə hərəkət etməlidir ki, cəmiyyətin inkişafının zəruri tamlığını təmin etsin. Şəhər sisteminin müxtəlif hissələrinin, iqtisadi coğrafi mövqedə bir-birindən fərqlənən rolu (*əsl mənada mərkəzin, orta zonanın, ətrafın*) onların mühütə təsir sisteminin müxtəlifliyini göstərir. Mərkəzin (*əsas özəyin*) xüsusi funksional rolu şəhərin ona həyat verən, inkişafını hərəkətə gətirən sosial-iqtisadi problemlərə aid məlumatların toplanmasını, təhlilini, obyektiv nəticələr çıxarılmasını təmin etməyə də şərait yardır.

Şəhərin inkişaf prosesinin, yüksək ali mərhələsinin təşəkkülü olan urbanizasiya mexanizmi mərkəzlə onun ətrafı arasındakı iqtisadi, sosial, mədəni, ekoloji fərqləri yaratmağa, eyni zamanda onların arasındakı uyğunsuzluğu aradan götürməyə kömək edir, şəhər mühütinə yaxınlaşdırır, uyğunlaşdırır.

Şəhərin mərkəzi ilə ətrafı arasında kəmiyyət, keyfiyyət dəyişkənliyi baş verir ki, bu da ərazi sistemində müxtəlif dövrdə yaranan bu və ya digər dalğavari yeniliklərin törəməsindən irəli gəlir.

İqtisadi, sosial, xidmət sahələrində yaranan köhnə funksiyalar şəhər mühitində aparıcı rol oynayan mərkəzdən kənara sıxışdırılır və ya mübadilədən çıxarılıb yeniləri ilə əvəz edilir. Onların arasındakı ikitərəfli istiqamətdə (*mərkəzlə kənar*) iqtisadi, sosial mübadilə əlaqələri fəaliyyətdə olur.

İri şəhərlərə xas olan funksional idarəetmə təşkilatçılıq, diferensiallıq yaradır, belə şəraitdə şəhərin inkişaf elementləri müxtəlif təmayüldə baş verir. Mütəxəssislərin fikrincə, şəhərin layihələşdirilməsi zaman və məkan daxilində «mən-

zil-iş», «yaşayış yeri-mərkəz» arasında olan əlaqə kimi qiymətləndirilməlidir. Təcrübə göstərir ki, nəqliyyat vasitəsi ilə bunların arasındakı məsafəyə sərf edilən vaxt 20-40 dəqiqə müddətinə nəzərdə tutulur.

Əvvəldə deyildiyi kimi, şəhər mühitinin ictimai, iqtisadi, sosial diferensiallığı və inteqrasiyası nəinki mərkəzlə onun ətrafı, eləcə də şəhərlə rayonları arasındakı fərqlərlə ifadə olunur. Bu problemlə əlaqədar şəhərləri müvazinət prinsipi üzrə ümum və xüsusi funksiyalı tiplərə görə ayırmaq olar. Bizim fikrimizcə, şəhərlərin təsiri altında iqtisadi və sosial inkişafa görə respublikada 3 tip ərazi fərqləndirmək olar:

a) şəhər mühitində, onun təsiri altında inkişaf edən ərazi. Bura şəhərətrafı rayonlar daxildir;

b) hərtərəfli intensiv inkişaf etmiş şəhərin mərkəz hissəsi;

c) bu və ya digər inkişaf nöqtələrini əhatə edən şəhərin mövcud sərhədi daxilindəki ərazi.

Şəhərlərdə əhali məskunlaşması xalq təsərrüfatı və xidmət sahələrinin, nəqliyyat vasitələrinin, ictimai, fərdi binaların və s. inkişafı geniş sahədə torpaqları örtür. Göstərilən sahələrin iqtisadi, sosial səmərəsi onların yerləşdiyi torpaqlardan qənaətlə istifadə edilməsindən, məhsul istehsalından, nəqliyyat xidmətindən torpaq tutumluğundan çox asılıdır. Şəhərlərdə nə varsa hamısını üstündə saxlayan «dayaq məntəqəsi» olmaqdan başqa əhalinin ərzaq məhsulları, sənayeni xammalla təmin edən əsas istehsal vasitəsidir.

Şəhər mühitində və onun təsiri altında olan rayonlarda iqtisadi, sosial inkişafın səviyyəsi, istehsalın təşkili torpaq ehtiyatlarından, torpaq tutumluğundan, əhali tələbatını ödəmək məqsədilə kənd təsərrüfatına yararlı sahələrdən istifadə edilməsindən çox asılıdır.

Şəhərlərdə məskunlaşan idarələr, nazirliklər, dövlət təşkilatları və s. əksəriyyəti bu və ya digər dərəcədə torpaqdan istifadə edir. Geniş torpaq sahəsini tutan çoxlu sənaye müəssisələri şəhərin mərkəzində, ondan kənarda ya da ucqarda

yerləşir. 1950-ci illərdən sonra Bakıda, Gəncədə, Mingəçevirdə, Əli-Bayramlıda, Naxçıvanda, Kürdəmirdə, Salyanda və s. şəhərlərdə tikilən sənaye müəssisələri onların mərkəzindən bir qədər kənarda yaradılmışdır. Lakin bunların ətraf mühitə, nizami inkişafa olan neqativ təsiri şəhər mühitində gərginliklər törədir.

Şəhərdə geniş torpaq sahəsi tutan ticarət obyektləri yaşayış yerlərinə istehlakçılara yaxın, ya da xüsusi mərkəzlərdə qruplaşıb fəaliyyət göstərirlər. İndi belə bir vəziyyət yaranıb ki, respublikanın şəhərlərində küllü miqdarda ticarətlə, alverlə məşğul olanlar harada, hansı şəraitdə olduğundan asılı olmayaraq çadırlarını, köşklərini qurub şəhərin görkəmini korlayırlar. Əhaliyə xidmət sahələrinin, xüsusilə saysız-hesabsız ticarət köşklərinin, çadırların parklarda qurulması küllü miqdarda ağacların, yaşıllıqların, çəmən-çiçəklərin məhvinə, torpaqların aşınmasına, korlanmasına səbəb olmuşdur.

Kapitalist istehsal münasibətlərinə əsaslanan bazar iqtisadiyyatı şəraitində torpağın qiyməti artır, kənd yerlərinə nisbətən şəhərlərdə daha baha olur. Keyfiyyət qrupundan, şəhərin mərkəzi hissəsi ilə onun kənarlarında bağ sahələrində yerləşməsindən asılı olaraq Abşeronda bir sot torpağın qiyməti indi 100-200 ABŞ dolları arasında tərəddüd edir, şəhərin mərkəzində isə bundan bahadır.

Son 9-10 ildə şəhərlə Badamdar, Xırdalan, Müşfiq, Hövsan qəsəbələri arasındakı boş torpaqlarda yeni qəsəbələr, fərdi binalar salınmaqdadır. Urbanizasiya, məskunlaşma, istehsalın təmərküzləşməsi ilə torpaq sahələrinin üstü örtülür, adam başına düşən torpaq azalır. İndi torpağa olan ehtiyac artır, torpaqların qiyməti də ildən-ilə bahalaşır.

Əhali artımı nəticəsində sərhədi dəyişməyən torpaqların adambaşına düşən sahəsinin azalması, məhsul istehsalı imkanını məhdudlaşdırır. Əgər min il bundan əvvəl dünyada yaşayan 288 mln. əhalinin hərəsinə 52 ha torpaq sahəsi düşürdüsə, indi 6 mlrd. adamın hərəsinə cəmi 2,48 ha düşür.

O dövrdə dünyada hər kv. km-də orta hesabla 1,9 adam yaşayırdısa, indi 40,28 adam sakinləşib. Həmin dövrdə dünya əhalisi 21,4 dəfə artmışdırsa, adam başına düşən torpaq 19,2 dəfə azalmışdır.

Bu proses Azərbaycanda və onun paytaxtı Bakı şəhərində də davam edir. İndi Bakı şəhərinin hər kv.km-də 883 nəfər adam yaşayır ki, bu da 1939-cu ildə olduğundan azı 3 dəfə, 1959-1970-ci illərdəkindən 1,6-1,5 dəfə çoxdur. İndi böyük Bakı ərazisində, ümumiyyətlə, Abşeron yarımadasında əvvəllərdə torpaqlar, tikililər əkin altında mənimsənildiyindən boş sahələr az qalmışdır.

Bu təmayüldə torpaqlardan səmərəli istifadə şəhər problemləri ilə sıx sürətdə əlaqədardır. Fərdi, ictimai tikililər, sənaye sahələri, kommunikasiyalar altında torpaqların seçilməsi təbii şəraitə, su ehtiyatına, kənd təsərrüfatı üçün yararlı olmasına, nəqliyyat magistrallarına və s. olan qarşılıqlı əlaqələri nəzərə almalıdır.

İntensiv urbanizasiya şəraitində bu zəruri şərt kimi qəbul edilməlidir. Belə olduqda sıx urbanizasiya, sənaye, nəqliyyat təmərküzləşməsinə məruz qalan şəhərlərdə texnogen landşaflar əhatəsində parkların, yaşıllıqların yaradılması, su fəvvarələrinin zəruriliyi ortaya çıxır. Mənfi su balansına malik quraq ərazidə yerləşən Bakı, Sumqayıt, Naxçıvan, Əli-Bayramlı, Mingəçevir, Yevlax, Göyçay, Kürdəmir və s. şəhərlərdə parkların, yaşıllıqların, su fəvvarələrinin genişləndirilməsinə ehtiyac artır.

Son 50 ildə respublika şəhərlərinin yaşıllaşdırılması sahəsində təqdirə layiq çox işlər görülmüşdür. İndi Bakı şəhərində adambaşına 1920-ci ildə olduğundan 5,8, 1975-ci ildə olduğundan 4,7 dəfə çox yaşıllıq düşür.

Son zamanlarda şəhərlərin inkişafına aid aparılmış tədqiqatlar göstərir ki, şəhərlər əhalinin yaşayış tərzinə görə mövcud fərqlərin şəhər tikintisi istiqamətlərində nəzərə alınması şərtlərdən biri yol-nəqliyyat vasitələrinin, yaşayış yerlərinin, ictimai, ticarət təşkilatlarının yerləşməsində, nəqliyya-

tın inkişafında torpaq sahələrinin səmərəli mənimsənilməsi zəruridir.

Şəhərlərdə torpaq tutumlu sahələrdən biri də yollar və nəqliyyat vasitəsidir. Şəhər nəqliyyatının inkişafı marşrut məsafələrindən asılı olaraq dayanacaq yerlərinin məsafəyə münasib seçilməsini tələb edir.

Gələcəkdə nəqliyyat infrastrukturu fəaliyyətinin və bundan irəli gələn nəticələrin nəzərə alınması avtonəqliyyat departamentini düşündürən mühüm məsələlərdən biri də şəhərdə nəqliyyat modellərinin uzlaşdırılmasının inkişafı məsələləridir.

Şəhər-torpaq məsələləri (*ərazi genişliyi*) ilə yol şəbəkəsi, nəqliyyat hərəkəti arasında əlaqənin düzgün uzlaşdırılması şəhər sakinlərinin davranışına, psixologiyasına, əhvali-ruhiyyəsinə təsir edən mühüm amildir.

Müstəqil Azərbaycan respublikasında nəqliyyat vasitələrinin özəlləşdirilməsi, icarədarların, fərdi avtomobil sahiblərinin respublikada, xüsusilə şəhərlərdə yük və sərnişin daşıma problemini demək olar ki, həll edilməkdədir. Belə şəraitdə ortaya çıxan intizamsızlıq başlıca olaraq istər şəhərdaxili, istərsə də ondan kənar sərnişin, yük daşınmasında qiymət hərc-mərcliyi şəraitində bir sıra dövlət ictimai qanunlarına riayət edilməməsidir.

Şəhər təsərrüfatının mühüm problemlərinin öyrənilməsi daxili mühitdən kənara çıxır. Ona görə ki, şəhərdaxili və şəhərətrafı torpaqlardan istifadə edilməsi nəqliyyat vasitələri məskunlaşmanın fəaliyyət modelləri ilə hər zaman üst-üstə düşmür.

Nəqliyyat vasitələrinin iqtisadi, sosial, ekoloji cəhətdən fəaliyyəti geniş infrastruktur əlaqələrdən asılıdır.

Göstərilən amillərə xas olan təsirin öyrənilməsinin dəqiqləşdirilməsi sahəsində kifayət qədər tədqiqatlar aparılmış, təcrübələr əldə edilmişdir. Şəhərlərin inkişafında demoqrafik (*birbaşa və «rəqqas miqrasiyası»*) şəhər bələdiyyə torpaqlarının yaşayış yerlərinin seçilməsi, ticarət, kənd təsərrü-

fatı və sənaye məhsullarının satılması, xidmət sahələri ilə əlaqədar (*inzibati, mədəni əlaqəli, maliyyə-kredit əmanətlərinin yığılması*) kənd yerlərindən gələn işçi qüvvəsi mövsüm vaxtı muzdla işləyənlərin idarə edilməsi və nəzərə alınmasının xüsusi əhəmiyyəti var.

Çoxsahəli ixtisaslaşma, iqtisadi-sosial xidmət səviyyəsindən, bazar münasibətlərində iştirakından asılı olaraq şəhərlərin təsir dairəsini təyin etməklə, şəhərlə kənd arasında qarşılıqlı əlaqələrin, uzlaşdırılması, bunun vasitəsilə istehsal, mədəniyyət, təhsil müəssisələrin mütərəqqi inkişafına şərait yaradar. Bu sahədə Bakı-Sumqayıt şəhər aqlomerasiyasının bilavasitə təsir dairəsinin əhatə etdiyi 140-120 km-lik məsafə bir növ «şəhərləşmiş» regiona çevrilmişdir.

Altıağac, Quba, Xaçmaz, Şamaxı, Dəvəçi, Hacıqabul, Əli-Bayramlı, Ələt yol marşrutu boyu yerləşən ərazi bilavasitə Bakı-Sumqayıt şəhər aqlomerasiyasının inkişaf təsiri altında fəaliyyət göstərir. Bunların təsiri altında fəaliyyətdə olan avtomagistrallar-avtomobil nəqliyyatı ilə bərabər Bakı-Xaçmaz-Dərbənd, Bakı-Ələt-Kürdəmir-Gəncə, Bakı-Lənkəran dəmir yol xətləri böyük iqtisadi və sosial əhəmiyyətli əlaqələrə malikdir.

Ərazi əlaqələrini öyrənən iqtisadçılar istehsal təmayüllü fəaliyyətini bazar münasibətləri məfhumuna istinad edərək, əsas göstərici kimi şəhərlərin bölgüsündə rayonəmələgətirici əhəmiyyətli nəqliyyat magistrallarına istinad edirlər. Bununla belə statistik məlumatlar əsasında böyüklüyündən, zona təsirindən asılı olaraq şəhərlərin yerləşmə qanunauyğunluqlarını araşdırırlar.

Coğrafiyaşunaslara gəldikdə isə demək lazımdır ki, onlar şəhərlərin ierarxiya funksiyasını, konkret coğrafi səciyyəsini, ümumiləşdirici və ya yaradıcı təsnifat sisteminə uyğun təyin edirlər. Ümumiyyətlə, istər şəhər ərazilərinin mənimsənilməsində, istərsə də şəhərsalma tədbirlərinin müəyyən edilməsində mühüm rol oynamaq qabiliyyətinə malik kəmiyyət göstəricilərinə istinad edərək biz əsasən yeddi qiymət-

ləndirmə istiqamətini ayırmağı məsləhət bilirik.

1. Ərazi təhlili növlərinin fəaliyyəti və şəhərlərin funksiyası.

2. Şəhər torpaqlarının qiymətləndirilməsi, keyfiyyət qrupundan asılı olaraq onlara müasir dövrün tələbi səviyyəsində qiymət qoyulması.

3. Şəhərlərin ərazi əmək bölgüsü təmayülü əsasında torpaq sahələrindən səmərəli istifadə edilməsi.

4. Şəhər nəqliyyatı və şəhər sakinlərindən səmərəli istifadəni kompleks inteqrasiya sistemi ilə uzlaşdırılması.

5. Şəhərsalma, şəhərin inkişafı mərhələlərində təbii şəraitin, ekoloji mühitin nəzərə alınması, onların mühafizəsi.

6. Şəhəryanı aqrosənayenin, bağların, torpaq problemləri baxımından inkişaf imkanlarının qiymətləndirilməsi.

7. Şəhərdaxili və şəhərətrafı rekreasiya, istirahət təbii müalicə zonalarının müəyyən edilməsi.

Göstərilən mövzuların hər biri tədqiqat obyekti olmaqla o dərəcədə bir-biri ilə əlaqədardır ki, elmi və təcrübi baxımdan onların oyrənilməsi yerli şəraitdən, şəhərlərin funksiyasından, ixtisaslaşmasından asılı olaraq araşdırılmalıdır.

Müasir dövrdə şəhərlərin inkişafı, istehsalın təmərküzləşməsi, məskunlaşma proseslərinin gərginləşməsi çoxminli qaçqınlar və köçkünlərin şəhərlərdə cəmləşməsi bir tərəfdən, respublikada kənd təsərrüfatı istehsalının tənəzzülü, digər tərəfdən, yerli istehsal hesabına şəhər əhalisinin ərzaq məhsulları ilə təmin edilməsini xeyli məhdudlaşdırmışdır.

Son 10 ildə baş verən belə neqativ halların yaranması keçid dövründə sənayenin, kənd təsərrüfatının, əsas və dövriyyə fondlarının tənəzzülü, ictimai, dövlət və sair sənaye müəssisələrinin özəlləşdirilməsi, dövlətsizləşdirilməsi şəraitində şəhər əhalisinin ərzaq məhsulları, çoxşaheli mallarla təchiz edilməsini xeyli gərginləşdirmişdir. Bu isə başlıca olaraq xarici ölkələrdən gətirilən məhsullar hesabına ödənilir

Mahiyyət etibarı ilə urbanizasiya iqtisadi-sosial, demo-

qrafik proseslərin nəticəsi olub, şəhərlərlə kəndlər arasında əmək bölgüsü, məhsuldar qüvvələrin sənaye əsasında təmərküzləşməsi şəraitində formalaşır və fəaliyyət göstərir. Belə fəaliyyətin nəticələrindən şəhər təsərrüfatı ilə şəhəryanı təbii sərvətlərin, xüsusilə kənd təsərrüfatına yararlı torpaqların, əmək ehtiyatlarının və s. imkanların səmərəli istifadə edilməsi ərzaq bolluğu yaradılmasının əsas yollarından biridir.

Kənd yaşayış yerlərinə nisbətən məhdud ərazidə müxtəlif kommunikasiyaların, infrastruktur əlaqələrin, nəqliyyat, sənaye xidmət sahələrinin, əmək vasitələrinin və s. fəaliyyəti urbanizasiyanın üfüqi və şaquli istiqamətində hərəkətini idarə edir, ərzaq məhsulları istehsalı üçün əmək qabiliyyətli əhali vasitəsilə müəyyən qədər ehtiyat mənbəyi yaradır. Urbanizasiyanın hərəkətdə olduğu şəhər mühiti daxilində hansı səviyyədə olması onların yerləşdiyi lokal ərazi sistemində iqtisadi, sosial inkişafın, ekoloji, təbii mühitin şəraitindən asılıdır.

Hər gün külli miqdarda ərzaq məhsullarına, çoxişlənən mallara tələbatı olan əhalisinin demoqrafik, sosial proseslərinin yaratdığı problemlər ən çox sənaye, nəqliyyat, elmi-texniki cəhətdən inkişaf etmiş şəhərlər üçün səciyyəvidir. Bununla yanaşı urbanizasiyanın səviyyəsi, hərəkət intensivliyi şəhər aqlomerasiyasının miqyasından, təsir dairəsindən, regionun iqtisadi, sosial inkişafından asılıdır.

Bununla qeyd edilməlidir ki, urbanizasiyanın özünün «doyma» həddi vardır. Lakin əhali məskunlaşmasından, təmərküzləşmə səviyyəsindən, iqtisadi-coğrafi mühitdən asılı olaraq bunun həddi dəyişkəndir. Daha dəqiq desək, bu proses urbanilaşmiş ərazinin iqtisadi, sənaye, nəqliyyat sahələrinin intensivliyindən, sosial təminatından, əhaliyə xidmət səviyyəsindən, ərazinin ekoloji tutumluğundan və ekoloji davamlığından asılıdır.

«Doyma» həddinin «səmərəlilik» səviyyəsi urbanilaşmiş ərazi daxilində texnogen, antropogen, intensiv şəhər mühiti

təsirinə məruz qalan rayonlarda bir çox problemlərin həll edilməsi cəmiyyət qarşısında zəruri vəzifələr yaradır.

Qaçqınlar və məcburi köçkünlərlə birlikdə əhalisi 2,7mln. nəfərə yaxın olan Abşeron yarımadasında, Bakı-Sumqayıt aqlomerasiyasında urbanizasiya ilə ərzaq problemi arasında sıx əlaqə mövcuddur və bunlar bir-birini tamamlayır. Qeyd etməliyik ki, Bakı aqlomerasiyasında əhalinin ərzaq məhsullarına olan tələbatla onların ödənilməsi arasında uyğunsuzluq mövcüddur və bunun təsiri ildən ilə artır.

Abşeron yarımadası 3000 kv.km ərazini əhatə edir ki, bunun da demək olar ki, yarısından çoxunu şəhərlər, qəsəbələr, kəndlər, neft, qaz, mədənləri, yollar, kanallar, göllər, bataqlıqlar, elektrik ötürücü xətlər, yerüstü komunikasiyalar, daş karxanaları, yararsız torpaqlar tutur. Burada hər kv. km-də yaşayan 900 nəfər əhalinin hərəsinə düşən 10 sot torpaq sahəsinin cəmi 3,5-4 sotu kənd təsərrüfatına yararlıdır ki, bunun da istifadə edilməsini vegetasiya dövründə su ehtiyatı məhdudlaşdırır.

Bakı şəhər aqlomerasiyası əhalinin ərzaq məhsulları ilə təmin edimәsi hazırda əsasən 3 mənbə hesabına yerinə yetirilir – xaricdən, respublikanın rayonlarından gətirilən və az miqdarda da olsa şəxsi həyətyanı təsərrüfatlar hesabına. Hər üç mənbə ərzaq problemini həll etmir. Birinci ona görə ki, xaricdən gətirilən məhsullar uzun müddət anbarlarda, yollarda, satış yerlərində qaldıqlarından müəyyən qədər keyfiyyətini itirir və bu yolla təminat həmişə etibarlı olmur; ikincisi, hər il xaricdən vaxtı ötmüş, keyfiyyətini itirmiş məhsullar gətirilməsi əhali arasında bir sıra xəstəliklər yayır; üçüncüsü, hazırda respublikının kənd təsərrüfatının böhran keçirdiyi vaxtda yerli istehsalla şəhərin ərzaq məhsulları ilə təmin edilməsi mümkün və qənaətbəxş olmur.

Həyətyanı, fərdi təsərrüfatlara gəldikdə isə demək lazımdır ki, bu yolla təminat demək olar ki, ailə və bazarlarda satış çəvçivəsindən kənara çıxmır, ona görə ki, onların isteh-

salı çox məhduddur. Belə şəraitdə respublikanın iri, orta şəhərlərində əhalinin ərzaq məhsulları ilə gündəlik tələbatının ödənilməsi mühüm problemə çevrilmişdir.

Bunun həlli bir neçə istiqamətdə mümkündür və bizim fikrimizcə, aşağıdakılardan ibarətdir: a) Bakı, Sumqayıt, Gəncə, Quba, Şəki, Lənkəran və s. şəhərlər də daxil olmaqla orta şəhərlərin ətrafında sənaye istehsalı təmayülündə aqrosənayenin istər açıq, istərsə də aralıq sahələrdə ki açıq torpaqlarda tərəvəz, bostan məhsulları yetişdirilməsi; b) respublikada mövcud olan fermer, kooperativ, icarə təsərrüfatlarının inkişafına şərait yaradılması.

Bakı aqlomerasiyasının geniş hissəsini tutan Abşeron iqtisadi rayonundakı torpaqlardan səmərəli istifadə edilməsi şəhəryanı təsərrüfatın inkişafında etibarlı mənbədir. Bu mənada iqtisadi rayon ərazisini 2 hissəyə bölmək olar: birincisi, sənaye əsasında örtülü torpaqlarda il boyu yetişdirilən bostan, tərəvəz məhsulları ilə əhalinin gündəlik tələbatını ödəmək. Bir mühüm məqsəd də belə təsərrüfatlarda ekoloji təmiz məhsulların əldə edilməsidir. Buna nail olmaq üçün mümkün qədər kimyəvi maddələrdən imtina edib, istiliklərə, şitilliklərə, açıq torpaqlara üzvi kübrələr verilməsi, məhsulun saflığı, anbarlarda uzun müddət saxlanılması baxımından sərfəlidir.

İkinci mövsümi xarakter daşıyan kənd təsərrüfatı bitkilərinin açıq torpaqda yetişdirilməsidir. Buna başlıca olaraq süfrə üzümü, tərəvəz və bostan bitkiləri, eləcə də taxıl daxildir.

Sahibkarlığın xüsusi təsərrüfatların, ictimai təsərrüfatların özəlləşdirilməsi şəraitində göstərilən tədbirlərin həyata keçirilməsində Abşeron əhalisinin ərzaq məhsulları ilə təmin edilməsində etibarlı mənbədir. Digər tərəfdən, bu tədbirin həyata keçirilməsi Abşerondakı bol asudə işçi qüvvəsindən, ixtisaslı mütəxəssislərdən istifadə etməyə imkan verər.

Geniş miqyasda ərzaq məhsullarının istehsalı ilə onların qiyməti, vaxtında istehlakçılara çatdırılması, realizasiyası

arasında sıx əlaqə vardır və bu Abşeron iqtisadi rayonu üçün daha böyük əhəmiyyətə malikdir. Ona görə ki, burada istehsal edilən məhsullar şəhər mühiti dairəsində yerinə yetirilir və məhsulların istehlakçılara çatdırılması üçün qısa məsafədə az xərc tələb olunur. Digər tərəfdən, bunun üstünlüyü bir daha ondan ibarətdir ki, istehsalla istehlak prosesi arasında məhsulun anbarlaşdırılmasına ehtiyac qalmır. Bu ondan irəli gəlir ki, məhsul bir başa ticarət obyektlərinə və ya bazara çatdırılır. İstehsalın belə təşkili nəqletmə, qablama və boşaltma vaxtı məhsul itkisini aradan qaldırır.

Məhsulların qablaşdırılması, boşaldılması, vaxtının qısaldılması, onların istehlakçılara çatdırılması prosesində aralıq tədbirlərin aradan götürülməsi vacibdir, çünki bu, yuxarıda göstərilən üç amilin sərfəliliyini artırır; nəqliyyat xərcini azaldır, məhsulun istehlakçılara çatdarılmasının müddətini qısaldır və itkiləri xeyli aradan qaldırır.

Uzun müddət Azərbaycan Respublikasında belə bir fikir mövcud olmuşdur ki, şəhərlərin ərzaqla təmin edilməsi həmişə kəndlərdən asılı olmuş və belə şəraitdə şəhərətrafı rayonlarda yardımçı təsərrüfatlar zəif inkişaf etmişdir. Digər tərəfdən, inzibati yolla ərzaq məhsullarının uzaq məsafədən şəhərlərə daşınması rayon yerlərində əhalinin məhsulla təminatını məhdudlaşdırır, qıtlıq yaradır. Kənd rayonlarından şəhərlərə ərzaq məhsullarının daşınması sonuncuların ehtiyatını ödəyirsə, birincilərdə müəyyən qədər qıtlıq yaradır. Buna yol verməmək məqsədilə bu sahədə şəhəryanı ərazilərin mövcud imkanlarından səmərəli istifadə edilməlidir.

Bu imkanlara və mövcud ehtiyatlara şəhərətrafı yararlı torpaqlar, su ehtiyatları, elektrik enerjisi, zavodlardan, fabriklərdən çıxan isti su, buxar, xüsusi qurğular üçün tikinti materialları, metal quraşdırıcıları və s. daxildir.

Urbanizasiya zonalarında kənd təsərrüfatının inkişafı təbii şəraitdən, təbii sərvətlərdən, xüsusilə torpaqlardan istifadə edilməsi proseslərində ciddi ekoloji problemlər yaradır. Onlara qarşı mübarizə, daha doğrusu, pozulmuş torpaqların

rekultivasiyası, çirklənmiş suların təmizlənməsi, atmosfer havasının saflaşdırılması özləri ciddi problemlər əmələ gətirir. Bunların öhtəsindən gəlmək külli miqdarda kapital qoyuluşu və vaxt tələb edirsə də, onları asanlıqla aradan qaldırmaq olar.

İri, böyük və orta şəhərlərdə fəaliyyətdə olan urbanizasiya prosesi lokal ərazi sistemində inkişaf etdirilən sənaye, nəqliyyət, tikinti və əhaliyə xidmət sahələrinin təmərküzləşməsinin nəticəsi kimi formalaşır. Belə şəraitdə onların yerləşdiyi ərazinin potensial ehtiyatlarından, o cümlədən aqrosənayenin inkişafında torpaq, su sərvətlərindən və sənaye imkanlarından səmərəli istifadəsi mühüm iqtisadi vasitə kimi qəbul edilməlidir.

Bunların maddi nəticələri şəhər aqlomerasiyalarının yaranmasında ərazinin iqtisadi, texniki, təbii potensiallarından məqsədyönlü istifadə edilməsində, onların vasitəsilə şəhər təsərrüfatı inkişafında özünü göstərir. Sənaye potensialına və ixtisaslı işçi qüvvəsinə böyük ehtiyacı olan aqrosənaye istehsalının bu yolla təşkili təbii, iqtisadi, əmək sərvətləri ilə məhsul istehsalı arasında sıx uzlaşma təşkil edir.

İntensiv əhali məskunlaşması, sənaye, nəqliyyat, əhaliyə xidmət sahələrinin təmərküzləşməsi, şəhər aqlomerasiyası kompleks amillərin nəticəsi kimi özünü göstərir. Beləliklə, iqtisadi, sosial amillərin şəhər mühitində təmərküzləşməsi təcrid olunmuş, səpələnmiş təbii, iqtisadi sosial komponentləri bir növ birləşdirir. Belə ki, sonuncuların mənimsənilməsi, istifadə edilməsi daha tez və səmərəli başa gəlir.

Beləliklə, indiki dövrdə şəhər əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsinin yaxşılaşdırılması probleminin həlli, bu məqsədlə onların təbii, iqtisadi zəmindən səmərəli istifadə edilməsi bizim fikrimizcə, aşağıdakı tədbirlərin həyata keçirilməsini tələb edir:

- Şəhər aqlomerasiyası zonalarında aqrosənayenin, şəhəryanı kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə torpaq, su, əmək ehtiyatlarının, maddi-texniki imkanların

iqtisadi-ekoloji qiymətləndirilməsi;

- Ərazidə ərzaq məhsulları istehsalının və onun məhsullarının realizasiyasının təşkili, satışının nizamlanması və tez xarab olan məhsulların uzun müddətli saxlanılması məqsədilə soyuducu anbarların tikilməsi,

- Aqrosənayenin səmərəli təşkili əsasında məhsul istehsalının artırılmasında şəhərlərin iqtisadi-texniki potensialından, işçi qüvvəsindən, ixtisaslı mütəxəssislərdən istifadə edilməsinin təşkili;

- Sənaye məhsulları ilə kənd təsərrüfatı məhsullarının istehlakçılara çatdırılması arasında infrastruktur əlaqələrinin tənzimlənməsi, Bakı, Sumqayıt, Gəncə kimi böyük şəhərlərdə şəhərətrafı təsərrüfatlar hesabına yaxşılaşdırılması. Həmin məqsədlə müvafiq məhsulların artırılmasında mövcud olan təbii, maddi, texniki imkanlardan səmərəli istifadə edilməsi.

Bazar münasibətlərinə keçid, iqtisadi islahatların aparılması və azad sahibkarlığın fəaliyyəti dövründə şəhərətrafı zonalarda aqrosənayenin inkişafı və buna imkan, şərait yaradılması dövlət siyasətinin tərkib hissəsi kimi qəbul edilməlidir. Bu, müasir dövrün tələblərindən irəli gələn mühüm tədbirdir.

### 3.3. İqtisadi-coğrafi amillər və urbanizasiya

İnsanların yaşadığı mühit və onun keyfiyyəti iqtisadi, demoqrafik inkişafın obektiv və subyektiv amillərinin məcmusudir. Şəhər mühitini, onun müxtəlifliyini, əhali məskunlaşmasını, istehsal gərginliyini xarakterizə edən əlamətlər müxtəlif təmayüllərdə təzahür edir. Qeyd etmək lazımdır ki, sosial və fiziki cəhətdən gərgin olan şəhər mühiti ictimai, iqtisadi, sosial birliklərin, əhali urbanizasiyasının «toplusu» olmasına baxmayaraq, sıx məskunlaşan əhali arasında bir növ ayrılıq, özgəlik yaradır, insanların həmrəyliyini, bir-birinə yardım etmə arzusunu, əməlini zəiflədir.

Şəhər mühitində, əhali sıx olan yerdə hərəkət gərginliyi, səsli-küylü ərazi şəraitində mehribançılıq, xoş rəftar müəyyən qədər ortadan götürülür. Sıx əhali məskunlaşmasına, nəqliyyat vasitələrinin fasiləsiz hərəkətinə malik olan şəhərin mərkəzi hissəsi daha ciddi gərginlik yaradan meydandır.

Başqa şəhərlərə nisbətən Bakının dar küçələrində nəqliyyatın gərgin hərəkəti əhalinin hərəkətini sıxışdırır, onların keçidini çətinləşdirir. Belə bir şəraitə malik olan Bakı şəhərində piyadaya nə qədər az səki düşürsə o qədər adamların hərəkət sürəti artır, ətrafa olan diqqəti zəifləyir, sərbəstliyi azalır. Belə ekstremal məskunlaşma yerinin «vətəndaşı» olan şəhərlilər çalışsalar da, burada formalaşan hərəkət davranışını dəyişdirmək üçün az imkana malikdirlər.

İri şəhərlərin mərkəzləri üçün səciyyəvi olan belə vəziyyət, davranış gərginliyi, nəqliyyat hərəkəti nisbətən zəif olan şəhərkənarı zonalarda, mikrorayonlarda bir qədər qənaətbəxşdir. Şəhər mühitinə olan münasibətə uyğunlaşmaq üçün bir sıra təsir amilləri mövcuddur ki, bunlara da ilk növbədə rekreasiya və yaşıllıq zonalarının genişləndirilməsi daxildir.

Əlbəttə, urbanizasiya prosesinə qiymət verilməsində təkcə coğrafi mühit amili kifayət deyil. Respublika şəhərlərinin coğrafi mühiti təbii şərait amilinə görə yerləşmə rayonları müxtəlifdir. Yayda havası isti keçən, güclü Xəzri küləklərinin darıxdırıcı təsirinə məruz qalan ekoloji mühit kasad, atmosfer havası çirklənmiş quraqlıq ərazidə yarımsəhra zonasında yerləşən Bakı intensiv texnogen şəraitə malikdir.

Belə mühitdə çox əhali cəlb edən Bakının üstünlüyü onun coğrafi mövqeyi, dənizlə əhatə edilməsi çoxsaylı işçi qüvvəsi tələb edən istehsal, qeyri-istehsal müəssisələri, xüsusilə əhaliyə xidmət, elm, təhsil, səhiyyə təşkilatlarıdır. Bakıdan fərqli olaraq əlverişli təbii şəraitə, saf təbiətə malik Gəncə, Quba, Şəki, Zaqatala, Mingəçevir, Şəmkir, Qazax və b. şəhərləri orta səviyyəli məskunlaşmaya malikdirlər.

Belə vəziyyət fərdi, şəxsi, özəlləşdirilmiş istehsal münasibətləri dövründə respublikanın iri və orta şəhərlərinin gözəl təbiət mühitinin yaşayış yeri kimi seçilməsinə şərait yaratmışdır. Lakin bu da məlumdur ki, belə əlverişli mövqedə yerləşən şəhərlər indi iqtisadi tənəzzül keçirirlər.

Son 10 ildə istehsal fondları, maddi-texniki baza, sənaye, kənd təsərrüfatı müəssisələri iflasa uğrayan rayon mərkəzi şəhərlərinə gəldikdə isə yaxın vaxtlara qədər onlarda həyat tərzinin yaxşılaşdırılmasına ümüd bəsləmək əbəsdir. Sənaye müəssisələri zəif fəaliyyətdə olan «özünəxidməti» pulla ödənişə keçdiyi şəraitdə yaşayış imkanları bir qədər məhdudlaşır.

Bunlarla yanaşı, gərgin həyat şəraitində sənaye müəssisələrinin, nəqliyyatın inkişaf rəmzi olan səs-küy təbii mühitin çirklənməsində və gərginləşməsində mühüm təsir edir. Ümumiyyətlə, xoşagəlməz və neqativ hal kimi adlandırdığımız «səs-küy» bəzən də bəyəniləsi hal kimi qəbul edilir, ona görə ki, belə vəziyyət tənhalıqda ömür sürənlərin darıxdırıcı əhval-ruhiyyəsini bir qədər yumşaldır. Lakin tərəddüd etmədən ekoloqlar hesab edirlər ki, həddən artıq səs-küy ekoloji mühiti gərgin olan şəhər əhalisinin əhval-ruhiyyəsinə əmək məhsuldarlığına mənfi təsir edir.

Səs-küy həddən çox olarsa insanlara zərər yetirilir və bu vaxt onlar çalışırlar ki, belə yerdən uzaqlaşsınlar, çünki səsdə diqqət yayınır, yaddaş korlanır, əmək qabiliyyəti zəifləyir. ABŞ-ın Nyu-Kempşir şəhərində aparılmış təcrübə göstərir ki, kəskin səs-küy şəraitində bəlaya düçar olmuş şəxsə 15 faiz adam kömək etmək istəmişdir, halbuki adi sakitlik şəraitində 80 faiz adam buna səy göstərmişdir.

İndiki şəhər şəraitində səs-küy coğrafi amilin yaşayış şəraitinin tərkib hissəsinə daxil olmuşdur. Eşitməklə bərabər şəhər mühitində baş verən hadisələrin, təbii və mədəni mühitin, rənglərin qavranılmasında gözlə müşahidə həyatın ayrılmaz və əvəzedilməz rəmzidir. Göz şəhər mühitinə xas olan əlamətləri, əhalinin psixoloji, emosional əhvalını, memarlıq,

tarixi abidələrini seyr edir və bunların özləri də müşahidəçinin əhvalına təsir edir.

Bunlarla yanaşı, Bakı, Sumqayıt, Gəncə və s. kimi atmosfer havası çirklənmiş şəhər sakinləri üçün xas olan bir əlamət də onların iy (qoxu) bilmə qabiliyyətinin zəifləməsidir. İntensiv avtomobil nəqliyyatı hərəkətinə məruz qalan, mülayim-isti qurşaqda, yarımsəhra zonasında yerləşən Bakı, Sumqayıt, Yevlax və s. sənaye istehsalının normal inkişafı illərində (*1990-cı ilə qədər*) şəhərlərdə atmosfer havası zərərli qazlarla, tüstülərlə intensiv çirkləndiyindən çox adamın eşitmə, iy bilmə qabiliyyəti zəifləyib.

Onu da qeyd etmək lazımdır ki, şəhər mühitində atmosfer havasındakı toz, qaz birləşmələri, görmə dairəsini məhdudlaşdırır, müşahidə qabiliyyətini zəiflədir.

İnsan məskunlaşdığı mühitin ayrılmaz tərkib hissəsidir şəhər mühiti onun təsir fəaliyyətinin öbyektidir, ikincisi, bunun özü insanın fəaliyyətinin təsiri altında mühitini dəyişdirir. Beləliklə, şəhər sakinlərinin muxtəlif hadisələri dərk etməsi yaşadıqları mühit daxilində baş verir.

Sosial-iqtisadi, istehsal cəhətdən coğrafi, ərazi eksentrik sistem kimi qəbul edilir. İqtisadi, sosial, demoqrafik baxımdan şəhərlər yerləşdiyi təbii, iqtisadi, coğrafi mühitin təsiri altında formalaşır və burada mərkəzi hissə daha çox fəaliyyət göstərir. Bu ondan irəli gəlir ki, mərkəz daha geniş intensiv infrastrktura malik, istehsal, qeyri-istehsal sahələrinin uzlaşdırıldığı ərazidə yerləşir, necə deyərlər, hər cəhətdən «sıx qarşılıqlı yaradıcı» obyekt kimi fəaliyyət göstərir.

Belə şəraitdə şəhər mühiti başqa yaşayış məntəqələrinə nisbətən mürəkkəbliyi və müxtəlifliyi ilə fərqlənir. Burada müxtəlif sənaye, nəqliyyat, elektrik enerjisi və s. sahələr cəmiyyətin intellektual qüvvəsi, infrastruktur əlaqələri, elmi-texniki potensial istiqamətində fəaliyyət göstərir, müxtəlif problemlər ortaya çıxır və imkan dairəsində həll edilir.

İri və orta şəhərlərin ərazisi bu sistemdə dəyişikliyə məruz qalır ki, bu da əhalinin yaşayış mühitinə təsir göstərir.

Urbanilәşmiş şәhәr mühiti dedikdә, ilk növbәdә әhalinin mәskunlaşma «meydanı», mövcud sәnaye, mülki, mәdәni-mәişәt tәmayüllü fәaliyyәtdә olan infrastruktur müәssisәlәr, xidmәt sahәlәri, onların iqtisadi, sosial әlaqәlәri başa düşülür. Yuxarıda göstәrilәnlәr şәhәrin texnogen muhiti ilә yanaşı әhali vә әtraf rayonlara da qarşılıqlı tәsir göstәrir.

Şәhәr mühitindә yaşamağa, uyğunlaşmağa gәldikdә göstәrmәk lazımdır ki, burada insanların psixoloji xüsusiyyәtlәri ilk yaşlarından başlayaraq bu vә ya digәr şәraitdә adaptasiyaya uyğunlaşması baş verir.

Yuxarıda göstәrilәn amillәrin bir-birinә olan münasibәtlәri bu vә ya digәr yerdә yaşayış sәviyyәsinin әlverişli olmasından, konfortluğundan asılıdır.

Qeyd etmәk lazımdır ki, hәr hansı әrazi daxilindә mәskunlaşmaq üçün ideal şәrait mümkün deyil. Xüsusilә iri şәhәr mühiti, hәddәn artıq sәs-küy, tәngnәfәslik, urәk döyüntüsü yaradır, intensiv çirklәnmә, yaşayış yerlәrindә adaptasiya mexanizminә hәlledici tәsir göstәrir. Lakin adaptasiyanı hәmin yaşayış yerindә daimi mәskunlaşanlar gәlmәlәrә nisbәtәn daha yaxşı qәbul edirlәr. Bunun sәciyyәli cәhәti ondan ibarәtdir ki, şәhәr sakinlәrin yaşadıqları әraziyә uyğunlaşmaqla bәrabәr mümkün qәdәr müvafiq tәdbirlәr görmәklә oranı da özlәrinә münasib dәyişdirirlәr. Şәhәr parklarının abadlaşdırılması, su fәvvarәlәrinin, yaşıllıq zonalarının genişlәndirilmәsi, mәnzillәrin sәrinlәşdirilmәsi vә s. bunlara misaldır.

Şәhәrlәrdә әrazi-istehsal komplekslәrinin, sosial tәmayüllü sahәlәrin inkişafı mәqsәdilә iqtisadi zәminlәrdәn, konstruktiv әhәmiyyәtli tәbii sәrvәtlәrdәn, tәkrar xammal materiallarından, әmәk, torpaq ehtiyatlarından, elmi-texniki potensialdan sәmәrәli istifadә edilmәsi dövlәtin iqtisadi, müdafiә qüdrәtinin möhkәmlәndirilmәsindә, elmi-texniki inkişafda, beynәlxalq iqtisadi әlaqәlәrin genişlәndirilmәsindә hәlledici әhәmiyyәtә malikdir.

Hәr hansı mülkiyyәt formaları şәraitindә xalq tәsәrrüfat

sahələrinin idarə edilməsi, əhali və əmək ehtiyatları ictimai, fərdi istehsalın qurumlarına iqtisadi-coğrafi amil kimi təsir göstərir. İqtisadi-coğrafi mövqedə əhali məskunlaşması və urbanizasiyasının formalaşması qarşılıqlı əlaqədə baş verir.

Coğrafi əmək bölgüsü prinsipilə inkişaf etdirilən istehsalın ərazi təşkili, şəhər əhalisinin məskunlaşması, təbii, sosial, iqtisadi və əmək amillərinin məcmusu kimi mürəkkəb prosesdir. İqtisadi-coğrafi, sosial amillər çərçivəsində respublikadakı əmək ehtiyatlarının çox hissəsinin şəhərlərdə məskunlaşması ciddi problemlər yaradır. Bunu mürəkkəbləşdirən bir mühüm amil də ondan ibarətdir ki, əhalinin təbii və mexaniki artımı şəraitində respublikada ümumi əmək ehtiyatlarının 34,0-35,0 faizi Böyük Bakı ərazisində cəmləşib.

Respublikada demoqrafik prosesi, əmək ehtiyatlarının təkrar istehsalını, əhali məskunlaşmasını siyasi, iqtisadi, sosial inkişafın məhsulu kimi qiymətləndirmək olar. Təbii zəmindən iqtisadi, sosial inkişafdan asılı olaraq əhali və əmək ehtiyatları ərazi üzrə qeyri-bərabər yerləşib. Respublika əhalisinin 51,0 faizi şəhərlərdə, 49,0 faizi kənd rayonlarında məskunlaşıb. Gərgin əhali məskunlaşmasına malik Abşeron məskunlaşan qaçqınların, məcburi köçkünlərin əsas qəbul məntəqəsidir. Rəsmi məlumata görə respublikada olan 1 milyona yaxın qaçqın və köçkünlərin 300 min nəfəri (30 %) Bakı və Sumqayıt şəhərlərində, Abşeron və Xızı inzibati rayonlarında məskunlaşıb.

Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərində qaçqınlar və məcburi köçkünlər hesabına əhali artımı urbanizasiyanı, işsizliyi, mənzil, sosial, ekoloji problemləri gərginləşdirir. Ermənistandan gələn qaçqınların, Gurcüstan köçkünlərinin respublikaya gəlməsindən 10 il keçməsinə baxmayaraq yüzlərlə zavodların, fabriklərin, sair ictimai müəssisələrin fəaliyyətdən dayanması şəraitində iqtisadiyyatın tənəzzülü, 2 milyondan artıq fəhlə və qulluqçuların işdən azad edilməsi şəraitində cüzi miqdarda iş yerləri açılmışdır ki, bunlar da itirilən yerlərin mində biri də deyil.

Belə proses respublikada və onun şəhərlərində, xüsusilə Bakıda. Sumqayıtda, Gəncədə, Naxçıvanda, Əli-Bayramlıda, Mingəçevirdə, Şəkidə və s. işsizlər ordusu yaratmışdır.

Rəsmi məlumata görə 1991-1997-ci illərdə Azərbaycandan Rusiyaya 1,5 mln nəfərdən çox adam köçmüşdür, indi orada 2 mln. Azərbaycan vətəndaşı yaşayır. Rusiya Daxili İşlər Nazirliyinin məlumatına görə indi Moskvada qeydli və qeydsiz 400 min, Moskva vilayəti ilə birlikdə 1 mln. Azərbaycan vətəndaşı yaşayır. Onların miqdarı Sankt-Peterburqda 200 min, Sibirdə, Uzaq Şərqdə və eləcə də Tümen vilayətində 100 min, Omsk, Tomsk şəhərlərində 70 min, Cənubi Sibir şəhərlərində 150 min nəfərdir[1].

Əgər Rusiyadan başqa xaricə üz tutub keçən on minlərlə soydaşlarımızı nəzərə alsaq, onda yuxarıdakı göstərilənlərin miqdarının xeyli çox olması məlum olar.

Ölkənin iqtisadi, sosial, siyasi idarəetmə imkanlarının dünya ölkələrinin müasir səviyyəsinə münasib inkişaf etdirilməsi, şəhər funksiyalarına məxsus kompleks fəaliyyətinin təmin edilməsi ilk növbədə iqtisadi, sosial inkişafın etalonu olan milli sərvətlərin, əmək qabiliyyətli əhalinin, yeraltı və yerüstü ehtiyatların səmərəli istifadə edilməsindən, bunların əsasında müvafiq istehsal sahələrinin yeni tələblər səviyyəsinə uyğun inkişafından, idarə edilməsindən və istehsal sahələrinin səmərəli yerləşdirilməsindən asılıdır.

Bunlarla yanaşı, əhalinin fəal qüvvəsi olan əmək qabiliyyətlilərin miqdarına uyğun iş yerlərinin mövcudluğu, əhalinin işlə təmin edilməsi zəruridir. İşlə təmin edilə bilməyən əmək qabiliyyətli əhaliyə imtiyazlar təyini ümumidövlət qayğısı kimi qiymətləndirilməlidir.

Azərbaycan şəhərlərinin müasir inkişaf məsələsi, əhalinin demoqrafik hərəkəti. məskunlaşması, miqrasiyası, əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin idarə edilməsi, sivil dövlətlər daxilində bazar iqtisadiyyatının qanunlarına

---

[1] Россия и Закавказье: Реалии и независимости и новое портнерство. Москва, ЗАО «Финстатинформ» 2000. с. 112

uyğun nizama salınması dövlətin, hökümət qurumlarının nəzarəti və qayğısı altında formalaşmalıdır.

Respublika şəhərlərinin inkişafına məxsus funksiyalarından asılı olaraq onların formalaşmasında iqtisadi-coğrafi mühitlə, təbii şəraitlə yanaşı, əhali, onun fəal hissəsi olan əmək qabiliyyətlilər xüsusi əhəmiyyət kəsb edir.

Şəhər əhalisinin məskunlaşmasında kənd əhalisi də fəal iştirak edir, müəyyən müddətdən sonra onların da bir qismi «şəhərləşir». Bu mənada şəhərlə kəndin iqtisadi, elmi, mədəni, elmi-texniki, sosial əlaqələrin qarşılıqlı münasibəti, onların nizama salınması, istehsal, mədəni əməkdaşlığı zəruri şərt kimi qəbul edilməlidir. Şəhərlər üzrə elmi axtarışlar, təhlillər, iqtisadi, sosial, demoqrafik proseslər, əmək qabiliyyətli əhalinin məşğulluq məsələlərin şəhərlə kənd arasındakı münasibətlərin qarşılıqlı əlaqələrinin ortaya çıxarılmasını tələb edir.

Digər tərəfdən göstərilən məsələlərin nizama salınması sənaye, kənd təsərrüfatı, ərazi-istehsal komplekslərinin inkişafındakı rolu kəndlə şəhər arasındakı iqtisadi, sosial, elmi, mədəni əlaqələrin genişləndirilməsində zəruri vasitədir. Burada əsas nizamlayıcı amillər sırasına sənaye, kənd təsərrüfatı, əmək qabiliyyətli əhalinin potensial ehtiyatlarından, mövcud təbii sərvətlərdən, təkrar xammal materiallarından, elmi-texniki tərəqqinin nailiyyətlərindən, ixtisaslı kadrların əməyindən səmərəli istifadə etməyi daxil etmək olar.

Məlumdur ki, ictimai, kollektiv təsərrüfatların özəlləşdirilməsi, müxtəlif mülkiyyət təmayüllu təsərrüfatlar yeni iqtisadi, siyasətin formalaşmasında mühüm amil olsa da işsizlik yaradır. Bu, xüsusilə intensiv əmək ehtiyatları urbanizasiyaya malik olan şəhərlərdə daha qabarıq halda özünü göstərir.

İstehsalın, elm və təhsilin, mədəniyyətin, coğrafi amilinin şəhərlərdə əhali məskunlaşmasında rolu rayonun sosial-iqtisadi inkişafından, əmək qabiliyyətli əhalinin dövlətə milli gəlir gətirməsindən, sosial vəziyyətin yaxşılaşdırılmasından-da asılıdır.

İqtisadi-coğrafi mövqe (İCM) iqtisadi-sosial inkişafa mühüm ərazi-dayaq amili olmaqla, şəhərlərin kompleks tədqiqatında böyük əhəmiyyətə malikdir. İCM – özünəməxsus xüsusi fənn kimi tədqiqat obyekti olmaqla, şəhərin formalaşmasında, mərkəzləşmiş istehsal sistemi kimi onların inkişafında mühüm əhəmiyyət kəsb edir. Təbii elementlərlə yanaşı maddi-texniki bazadan, əmək ehtiyatlarından, təbii ehtiyat potensialından istifadə proseslərində formalaşan və inkişaf edən sənaye şahələri geniş yer tutan aqlomerasiya yaradır.

Onların tutduğu məhdud ərazidə əmək, təbii, texniki potensialdan, iqtisadi-ekoloji baxımdan səmərəli istifadə təmayülündə şəhərsalma potensialını artırır. Şəhərlərin inkişafında İCM problemlərin tədqiqatı ilə məşqul olan görkəmli alim İ.M.Mayerqoyz yazmışdır ki, «Ərazi cəhətdən şəhəri dərk etmək onun coğrafi mövqeyinin araşdırılmasını bacarmaq deməkdir»[1].

Bazar münasibətlərinə keçid dövründə şəhərlərin fuksional mövqelərinin möhkəmləndirilməsi və inkişafı istehsal, idarəetmə sisteminin təkmilləşdirilməsində İCM-nın böyük rolu vardır.

İCM-nın klassik tərifini N.N.Baranski belə vermişdir: «Coğrafi mövqe müəyyən ərazinin, məntəqənin və ya arealın tədric olunmuş coğrafi əraziyə olan münasibətidir. İqtisadi coğrafiya hər hansı yerin, rayonun və ya şəhərin vəziyyətinin, ondan kənarda yerləşən, lakin, onunla iqtisadi əlaqədə olan, fərqi yoxdur, təbiətin yaratdığı və tarixi prosesdə yaranan coğrafi məntəqələrə, əraziyə görə nisbətidir»[2]. Sovet coğrafiya elminin əsasını qoyan N.N.Baranski qeyd etmişdir ki, coğrafi mövqe sair coğrafi anlayışda xüsusi yer tutur ki, burada söhbət hər hansı obyektdən deyil, onların arasında olan münasibətdən, qarşılıqlı əlaqələrdən gedir.

---

[1] Маергойз И. М. К экономико-географическому изучению городов. «Вопросы географии» сб 38. 1986

[2] Вопросы географии сб 45. География городских и сельских поселений. Москва. География. 1959. с. 23

Beləliklə, İCM anlayışının qəbulu və onun istifadəsi coğrafi tədqiqatın mühüm meyarıdır. İCM-nın araşdırılması şəhərlərin kompleks xarakterinin öyrədilməsində mühüm amil kimi təzahür edir. Onun funksional quruluşunun formalaşmasında coğrafi mövqeyin bu və ya digər sahəsinin regiona, obyektə olan təsirinin ortaya çıxarılmasına mühüm amil kimi baxmaq lazımdır. Şəhər, şəhərtipli yaşayış məntəqələrinin gələcək inkişaf təmayülünün müəyyənləşdirilməsində hələ istifadə edilməmiş ehtiyatların elmi-təcrübi baxımdan şərh edilməsini məqsədyönlü hesab edirik.

İCM təlimində N.N.Baranski ərazi səviyyəsi haqqında əsasən aşağıdakı anlayışları irəli sürmüşdür: a) İri miqyaslı xəritələr üzrə şəhərətrafı yerlərin öyrənilməsinin **mikromövqeyi**; b) iqtisadi inkişaf baxımından şəhərin öyrənilməsinin ilkin təbii-iqtisadi **(mezomövqeyin)** xarakteristikası; v) ölkə, materik, dünya səviyyəsində coğrafi mövqeyin kiçik miqyaslı xəritələrdə öyrənilməsi səviyyəsini əhatə edən **makromövqey**[1].

Ərazi baxımından mikro-mezo-makro sistemin araşdırılması, onların mürəkkəb əlaqələr quruluşunda öyrənilməsi şəhər üçün mühüm olmaqla, onun hərtərəfli səciyyəsinin ortaya çıxarılmasında zəruri tədbirdir.

Şəhərlərin və hər hansı iri istehsal obyektlərinin məşğulluğunda İCM-nin təsirini öyrənmək, onların bu və digər ərazidə yerləşməsi səbəblərini açıqlayır. Şəhər kompleksinin yaranma, formalaşma səbəblərinin və əlaqələrinin tədqiqində əsas metoddan biri xarici inkişaf tərzindən daxili – ərazi formaları əlaqələrinin qanunauyğunluqlarına doğru hərəkətin araşdırılmasıdır. Buradan şəhərlərin başlanğıc inkişaf nöqtəsinə – yaranma məntəqəsinə görə onun əhatəsində olan mikromövqeyin təsir xüsusiyyətini müəyyən etmək zəruriyyəti ortaya çıxır. Bunun əhəmiyyəti əsasən ondan ibarətdir ki, şəhərətrafı ərazinin təbii şəraitinin, təbii sərvətlərinin, kənd tə-

---

[1] Вопросы географии сб 45. География городских и сельских поселений. Москва. География. 1959. с. 23

sərrüfatının, urbanizasiya mühitinin inkişafına, formalaşmasına olan təsiri - «topoqrafik» mövqedə müəyyən edilir.

Yük və sərnişin daşınması, magistral yollara, yol qovşaqlarına, portlara, limanlara, yaxın şəhərlərin yerləşməsinə, onların nəqliyyat-coğrafi vəziyyətlərinə görə mövqeyin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Mikromövqe təsir dairəsində olan ərazilərdə yolların, nəqliyyat vasitələrinin hərəkət intensivliyinin şəhər təsərrüfatına, sair rayonlara olan iqtişadi əlaqələrə indi çox ehtiyac duyulur.

Şəhərlərin ətrafı ilə təbii mühitin mövqeyi və formalaşmasının ümumi qanunauyğunluqları, müəyyən ərazi sistemində İCM-in, təsərrüfat qarşılıqlı-əlaqəli səviyyəsi ilə bağlıdır. Belə dairəvi inkişafda nəqliyyat-coğrafi əlaqələrin təsiri genişlənir. Şəhərin tutduğu və təsir etdiyi ərazi mövqeyi iqtisadi, ekoloji, sosial inkişafda, demoqrafik proseslərin hərəkətində böyük əhəmiyyət kəsb edir.

Şəhərlərin yaranmasında İCM ilə yanaşı onun təsiri altında formalaşan və inkişaf edən nəqliyyat vasitələrinin, nəqliyyat qovşaqlarının da mühüm təsiri vardır. Nəzərə almaq lazımdır ki, şəhərlərin coğrafi vəziyyətində və inkişafında ən mühüm amil onların nəqliyyat vasitələrilə təmin edilməsidir. Ona görə ki, İCM-in təsiri iqtisadi əlaqələrdə, nəqliyyat vasitələrində özünü göstərir. İstər dünyada, istərsə də Azərbaycanda İCM və nəqliyyatla əlaqədar yaranan şəhərlər buna misaldır. Bakı – port şəhərinin, Lənkəranın, Astaranın Xəzər dənizi sahilində yerləşməsi, Culfanın, Yevlağın, Kürdəmirin yol qovşağında məskən salması, Cəbrayıl şəhərinin Xüdafərin körpüsü önündə yaranması buna misaldır.

Şəhərlərin tədqiqatında əsas məqsədlərdən biri onun infrastkturunda iştirak edən müəssisələrin əhalinin bu və ya digər tələblərini ödəmək vəzifəsindən ibarətdir. Bu məsələnin yerinə yetirilməsi məqsədilə şəhərlərin yerləşdiyi əlverişli ərazi İCM əsas strateji əhəmiyyətli məsələdir.

Bakı (*İçəri şəhər*), Dərbənd kimi qala şəhərləri qurmaq-

da məqsəd onlara kənardan daxil olan strateji yolları nəzarət altında saxlamaq, yadelliləri, işğalçıları ölkə daxilinə buraxmamaqdır. Liman, port, yollar qovşağı üstündəki şəhərlər üçün zəruri vəzifələrdən biri onların arasında yol şəbəkələrinin, uzlaşmanın yaradılmasıdır. Bakı, Sumqayıt, Naxçıvan, Mingəçevir, Salyan şəhərlərinin inkişafında bunlar mühüm rol oynayır.

Müvafiq ərazi daxilində şəhərlərin genişləndirilməsi, şəhər ierarxiyasına uyğun İCM-in miqyasının, funksional keyfiyyətinin əlverişli olması ilə əlaqədardır. Bu sahədə dəniz, çay kənarında yerləşən Bakı, Lənkəran, Mingəçevir, Əli-Bayramlı, Naxçıvan, Astara şəhərlərinin potensial inkişaf şəraiti, iqtisadi əlaqələr digər rayonlara nisbətən daha üstündür. Göstərilən şəhərlərin Kür çayı, Xəzər dənizi, su-anbarları, magistral yollar üstündə yerləşməsilə yanaşı bioloji, enerji yanacaq ehtiyatları onların iqtisadi-coğrafi potensialını artırır.

Tarixi kateqoriya kimi İCM təsərrüfatın ərazi quruluşuna, nəqliyyat magistrallarının formalaşmasına, təbii sərvətlərin mənimsənilməsinə, yeni şəhərlərin bina edilməsinə, şəhər mühitinin ərazi iqtisadi münasibətlərinə təsir edir. Bunlarla əlaqədar ərazi – vaxt amillərində zəruri münasibət kimi İCM-nin təsiri məkan və zaman daxilində dəyişir, şəhərin ilk yaranma dövründən başlayaraq təbii proseslər daha çox iqtisadi, nəqliyyat, sosial təmayüllərə meyl edir, yeni forma alır.

Məsələn, hələ eramızdan əvvəl Araz çayı üstündə Naxçıvanın bina edilməsində ilkin səbəb onun İCM ilə yanaşı, Araz çayının əhəmiyyəti və onun Araz vadisinin əlverişli təbii şəraiti, təbii sərvətləri olmuşdur. Şəhərin sonrakı inkişafında böyük rol oynayan İCM-in Türkiyə, İran, Azərbaycanla Qafqaz arasındakı yollar üstündə yerləşməsi, onun iqtisadi-əlaqələrdə əhəmiyyətini artırır. Digər tərəfdən, Naxçıvanın Azərbaycanın ərazisindən təcrid edilməsi daimi iğtişaş, terrorçu yuvası olan Ermənistana yaxınlığı onun inkişafında

məhdudiyyət yaradan mühüm amillərdən biri olmuşdur.

1924-cu ildə Bakı-Naxçıvan-İrəvan dəmir yolu çəkiləndən və Culfadan İran xəttinə birləşdirilməsi sonra Tbilisidən keçməklə Qara dəniz sahili, Şimali Qafqaz, Rusiya ilə nəqliyyat-iqtisadi əlaqələri genişlənir. Araz çayı üstündəki Naxçıvan şəhəri Yaxın Şərqlə-Qafqaz, Rusiya arasında körpü rolunu oynayır. Naxçıvanın İCM-də olmasının əlverişli imkanlarından istifadə edilməsinin bir nümunəsi də İranla Naxçıvan arasında Araz çayı üstündə qarşısı 85 m.hündürlükdə bəndlə yaradılan göl və onun sahillərində hər birinin 22 min kvt. gücü olan iki SES tikilməsidir. Bunların biri İrana, o biri Azərbaycan Respublikasına xidmət edir.

Su anbarı vasitəsi ilə tənzim edilmiş Araz çayının üstündə ikinci Azərbaycan İran birgə tikintisi olan Mil-Muğan su ötürmə qovşağı vardır. Qovşaqdan başlanan magistral Baş Mil kanalı Azərbaycan ərazisində suvarılan torpaqların su təchizatının yaxşılışdırılmasını təmin edir. İran ərazisindəki magistral Muğan kanalı ilə həmin ölkədə 5 min hektardan çox torpaq suvarılır.

Azərbaycan-İran iqtisadi və texniki əməkdaşlığın genişləndirilməsində mühüm əhəmiyyətə malik Araz su qovşağı kompleksi İCM-nin əlverişli şəraitin məhsuludur. Adətən şəhərlərin inkişafı, trayektoriyası İCM-dən asılı olaraq yüksəliş və tənəzzülü nümayiş etdirir. Bu haqda Ermənistanla sərhəd zonada yerləşən və Azərbaycanın tərkib hissəsi olan Azərbaycandan qoparılıb Ermənistana verilmiş Sisyan, Zəngəzur mahallarını, onların şəhərlərini, yaşayış məntəqələrini misal göstərmək olar. Göstərilən ərazilərin geopolitik vəziyyətindən istifadə edən sabiq Sovet İttifaqının təsiri altında onlar Azərbaycanın çoxəsrlik ərazisinin zorla qoparılıb Ermənistana verilməsi respublikaya edilən təcavüzün nümunəsidir.

Tarixən Şirvan ərazisi tərkibində olan Dərbənd şəhərinin geopolitik və İCM onun Dağıstanla qonşu olması, sabiq SSRİ-nin millətçilik siyasəti onu da Azərbaycandan qoparıb

Rusiya Federasiyasına birləşdirdi. Şirvanşahlar dövlətinin şimal fosportu olan Dərbənd qala şəhərinin Azərbaycandan qoparılıb Rusiya tərkibinə daxil edilməsi respublikaya qarşı Rus şovinizminin, millətçilik siyasətinin təzahürü oldu.

Zaman və məkan daxilində şəhərin inkişafı, nəqliyyat – iqtisadi əlaqələrin genişləndirilməsi, geopolitik vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq İCM-nin təsiri də dəyişir, çox hallarda əvvəlki əhəmiyyətini zəifədir, ya da artırır. Uzun müddət Qazaxıstanın paytaxtı olan Alma-Ati şəhərinin 1997-ci ildən Astana şəhərinə köçürülməsinin əsl səbəbi, başqa məqsədi də nəzərə almaqla, ölkənin ucqarında yerləşməsindən irəli gələn iqtisadi, nəqliyyat əlaqələrinin mürəkkəb, çox əmək, material, maliyyə vəsaitinin sərfi ilə əlaqədar olmuşdur. İCM baxımdan yeni paytaxt Astana iqtisadi, nəqliyyat, ictimai inkişaf baxımından göstərilən əlverişsiz şəraiti xeyli aradan qaldırdı.

Ümumiyyətlə, şəhərlərin yerləşməsindən danışarkən İCM ilə yanaşı onların fiziki-coğrafi, sosial-coğrafi, siyasi-coğrafi mövqelərini də qeyd etmək lazımdır. Bu mənada şəhərlərin İCM-nin prinsipial quruluşu (*M.M.Mayerqoyza görə*)[1] aşağıdakı cədvəldə verilir.

Cədvəldə verilən göstəricilərin araşdırılmasında hər hansı şəhər üçün daha xarakterik olan amillərin təsir dairəsini təhlil etmək zəruriyyəti ortaya çıxır. Misal üçün, Bakı şəhərinin formalaşmasında ən çox onun ətrafında mövcud olan neft, qaz ehtiyatı, istismarı, sahilində yerləşdiyi Xəzər dənizinin, bioloji ehtiyatları; Lənkəran şəhəri üçün sahilində yerləşdiyi Xəzər dənizinin mineral, xammal, enerji, bioloji sərvətləri; Xəzərsahili ərazinin rütübətli, quru subtropik iqlimi, məhsuldar torpaqları səciyyəvidir. Yevlax şəhəri üçün mərkəzi Aran, Kür-Araz ovalığında dörd istiqamətə (*Kəlbəcərə, Gəncə-Tbilisiyə, Şəki-Balakənə, Bakıya*) gedən yollar qovşağında yerləşməsi, Şəki şəhərinin Böyük Qafqazın ecaz-

[1] Майергойз И.М. К экономико-географическому изучению городов «Вопросы географии» Сб 38. Москва 1986

kar dağətəyi yolla, Gürcüstana gedən yol üstündə olması, Şamaxı-Bakı, Gəncə istiqamətində gedən yolların sıx əhali məskunlaşması rayonlarının birləşdirilməsi və sairləri müəyyən qədər İCM-in məhsulu olur.

Buradan belə nəticə çıxarmaq olar ki, Azərbaycan şəhərlərinin inkişafında, formalaşmasında İCM ilə yanaşı fiziki-coğrafi mövqeyin də böyük əhəmiyyəti vardır. Kəlbəcər, Laçın, Qusar, Qəbələ, və s. bina edilməsi, formalaşması ilk növbədə fiziki-coğrafi amillərin, sosial məsələlərin təsiri altında baş verir. Göstərilən şəhərlərin yerləşdiyi orta və yüksək dağ, dağətəyi zonaların kurort əhəmiyyəti, saf iqlimə malik meşə zonası, təmiz, sərin suyu, təbii sərvətlər və s. qədimdən bəri insanların yaşayış məskəninin seçilməsinə, sonralar həmin məntəqələrin böyüyüb şəhərlərə çevrilməsinə səbəb olmuşlar. Bakı şəhəri inkişafının formalaşmasında onun ilk «carçısı» olan fiziki-coğrafi mövqeyi Xəzər dənizi sahilindəki yaşayış məntəqələrinin yaranması «səbəbkar» olmuşdur.

Buradan göründüyü kimi, Azərbaycan şəhərlərinin inkişafında və formalaşmasında fiziki-coğrafi amillərlə İCM qarşılıqlı təsirdə vahidlik yaradır. İri şəhərlərin, sənaye-istesal mərkəzlərinin fiziki-coğrafi mövqeyi, təbii zonaların və vilayətlərin sərhədi, morfoloji quruluşu, yol keçidlərinin, çayların mənsəbi, göllərin sahili və s. insan məskunlaşmasının ilkin məntəqələridir.

İCM-in iqtisadi, ekoloji, insan məskunlaşması baxımından qiymətləndirilməsində şəhərlərin sosial-iqtisadi mövqeyinin iqtisadi təmayülün özünəməxsus təsir dairəsində «coğrafi parametrlərin» böyük əhəmiyyəti vardır. Bu baxımdan şəhərlərin iqtisadi-coğrafi mövqelərinin qarşılıqlı əlaqələrində qonşuluq, yaxınlıq müəyyən edilməsi mühüm məsələdir.

Belə şəraitdə məkan salmış elə şəhərlər var ki, onların coğrafi mövqeyi, sosial, iqtisadi vəziyyəti, gələcək inkişafı daha çox məskən saldıqları yerlə bağlıdır. Bakı, Sumqayıt, Əli-Bayramlı, Mingəçevir, Gəncə yerləşdikləri ərazi ilə o də-

rəcədə möhkəm bağlıdır ki, onları başqa yerlə əvəz etməyi təsəvvür etmək mümkün deyil.

**İCM-in ölçü problemləri** də nəzərə alınası mühüm məsələlərdəndir. Belə ki, çox hallarda İCM bu və ya digər ərazinin bayağı sürətdə «əlverişli» və ya «əlverişsiz» olması ilə qiymətləndirilir. Lakin bu o demək deyil ki, şəhərlərin bu və digər İCM-ni kəmiyyət (ərazi) iqtisadi, sosial, ekoloji baxımdan ona xas olan göstəricilərini qiymətləndirmək mümkün deyil. Burada nəzərə almaq gərəkdir ki, hər «əlverişli», «əlverişsiz» mövqelərin özlərinə məxsus təsir dairəsi var. Bir obyekt üçün «əlverişsiz» olan mövqe başqaları üçün «əlverişli» ola bilər, bu və ya digər şəhər salınmasında, oradakı sənaye obyektinin tikilməsində, inkişafında İCM-nin seçilməsinin çətinliyi onun müxtəsər əraziyə olan təsirinin qiymətləndirilməsindədir. Ona görə ki, İCM ən mühüm elementlərinin uzlaşmasında müxtəlif şəhərlər üçün birmənalı təsir göstərmir. Buna görə İCM inteqral qiymətləndirməsinə ümumi yanaşmaqdan başqa onun ayrı-ayrı elementləri təsirinin müəyyən edilməsi zəruridir.

Hər hansı şəhərin, iri sənaye mərkəzinin yaranmasında, formalaşmasında iştirak edən İCM-lərin seçilmə amillərinin, məsələn Bakı üçün dəniz kənarı, yol qovşağı, neft-qaz mədənləri, Sumqayıt üçün dəniz kənarı kimya, metallurgiya kompleksi, Bakı şəhərinə yaxınlıq, Mingəçevir üçün çay sahili, su-enerji ehtiyatı, energetika kompleksi, balıq ehtiyatı, bol işçi qüvvəsi, Gəncə üçün konstruktiv əhəmiyyətli mineral və xammal mənbələrinə yaxınlıq, əlverişli torpaq, iqlim şəraiti, ticarət mərkəzi, kimya-metallurgiya kompleksi, kənd təsərrüfatı istehsalı mərkəzi və s. amillər mövcud və perspektiv inkişafın qiymətləndirilməsində ilk plana çəkilir.

Bunlardan belə nəticə çıxarmaq olar ki, kompleks məhiyyətinə, sənaye mərkəzlərinin inkişafındakı əhəmiyyətinə görə, şəhərlərin İCM-ni renta sistemi kimi qiymətləndirmək olar. Belə nəticə ondan irəli gəlir ki, «renta» müxtəlif təyinatlı mövqeyin qiymətləndirilməsi təmayüllərindən biridir.

Şəhərlərin, sənaye obyektlərinin yerləşməsində İCM-dən istifadə edilməsi iqtisadi-ekoloji səmərənin yüksəldilməsi ilə düz mütənasibdir. Ərazinin təbii şəraitinə, coğrafi mövqeyinə görə iqtisadi, sosial təmayüllü obyektlərin, sənaye müəssisələrinin, ticarət, səhiyyə, mədəniyyət obyektlərinin, nəqliyyat yollarının inkişafı, sair xidmət sahələrinin düzgün yerləşdirilməsi istehsalın, demoqrafik proseslərin, ictimai inkişafın, ekoloji mühitin səmərəliliyinin artırılmasında zəruri şərtdir.

Şəhər onu əhatə edən ərazi sistemi ilə sıxı sürətdə əlaqədə inkişaf edir və fəaliyyətdə olur, məskunlaşan əhalinin istehsal, xidmət sahələrinin tələbatını ödəyir, başqa rayonlarla, xarici dövlətlərlə əlaqə yaradır. Digər tərəfdən, inkişafı üçün onlardan müxtəlif xammallar, kənd təsərrüfatı məhsulları, işçi qüvvəsi, materiallar alır.

Bu təmayüldə şəhəri əhatə edən, onun təsiri altında olan ərazi iqtisadi, siyasi, mədəni fokus kimi fəaliyyət göstərir. Bunun sərhədi təbii şəraitlə yanaşı şəhərin iqtisadi inkişafından asılı sürətdə urbanizasiya səviyyəsi və müxtəlif nəqliyyat vasitələrinin hərəkət dairəsi ilə müəyyən edilir.

Bakı, Sumqayıt şəhər sakinlərinin ərzaq məhsullarına olan tələbatını şəhəryanı aqrosənaye ilə yanaşı respublikanın rayonları ödəyir. Son vaxtlarda göstərilən sahələrin xeyli tənəzzülü şəhərlərin ərzaq məhsullarına olan tələbatını xarici ölkələr hesabına yerinə yetirir. Belə proses əhalinin maliyyə vəsaiti ilə alıcılıq qabiliyyətləri arasında gərginlik yaradır.

Bunlardan fərqli olaraq Gəncə, Əli-Bayramlı, Mingəçevir, Naxçıvan, Şəki, Lənkəran, Quba və s. şəhərləri müxtəlif keyfiyyət dərəcələrinə malik torpaqlarda inkişaf etdirilən əkinçilik və heyvandarlıq təsərrüfatları əhatəsindədir, onların ərzaq məhsulları ilə iqtisadi, ekoloji, sosial cəhətdən təminatında həlledici əhəmiyyətə malikdir.

Göstərilən şəhərlərdə qarşılıqlı həyat şəraiti, istehsal sahələri, aqlomerasiya, urbanizasiya proseslərinə tam daxil olmayıb, kənd yaşayış məntəqələrinin sosial, iqtisadi həyat

tərzi böyük şəhərlərlə əlaqəli inkişaf etdirilir.

Böyük və orta şəhərlərin inkişafının təsir dairəsinin miqyasını təyin etmək üçün onların əhatəsinin «şəhərləşməyə uyğunlaşmasının» öz təsiri altına alması, emaledici sənayenin, sənətkarlığın əhaliyə xidmət sahələrinin inkişafı ilə təyin etmək olar. Böyük şəhərlərin təsiri altında olan ərazinin sosial-iqtisadi baxımdan kamilliyində bunun böyük əhəmiyyəti vardır.

Şəhərlərin inkişafında İCM-in, ətraf rayonların əhəmiyyətinin zəruriliyi çoxdan dərk edilmiş sübutdur. Hələ XII-XIII əsrlərdə Yunanıstanda, İtaliyada, Rusiyada, Misirdə şəhərlərin bina edilməsində ətrafdakı boş torpaqların olması nəzərə alınırdı. Bina edilməsindən bu vaxta qədər Bakı əhalisinin bostan, tərəvəz, üzüm, süd məhsulları ilə təmin edilməsində Abşeron yarımadası şəhəryanı təsərrüfat rolunu yerinə yetirmişdir.

Bakı, Sumqayıt, Hacıqabul, Altıağac, Salyan-Neftçala, Sabirabad, Mərəzə-Şamaxı dairəsindəki torpaqlar kənd təsərrüfatına cəlb edilmişdir. Belə dairədə Bakı, Sumqayıt şəhərlərinin tutduğu ərazinin iqtisadi inkişafında, sosial həyatda, ticarət və nəqliyyat əlaqələrində ətraf mühitin təsiri özünü göstərir. Şəhərlərdən uzaq, bilavasitə onlarla əlaqəli olmayan rayonlarda sosial-iqtisadi inkişaf, həyat tərzi çox hallarda ekstensiv və ləng assosiasiya şəraitində gedir. Belə rayonlar şəhərlərin, şəhər əhalisinin müəyyən dayaq məntəqəsidir və müasir nəqliyyat növləri uzağı yaxınlaşdırır.

Şəhərlə kəndi qarşı-qarşıya qoymaq düzgün deyil, ona görə ki, müasir cəmiyyətdə hər ikisi özlərinə xas olan iqtisadi, sosial, təsərrüfat qurumları təmayülündə fəaliyyət göstərir. Təbiət qoynunda, insanların, meyvə bağlarının, meşələrin, çayların, çeşmələrin, bulaqların, çəmən-çiçəklərin arasında yaşayan insanlar təbii mühitin qüdrətini, təsirini, zənginliyini özlərində birləşdirir, fiziki və mənəvi qidasını alır.

İnsan intellektinin yaratdığı şəhər mühiti adamların sosial həyatında, müasir intellektual şüurun, elmi-texniki tə-

rəqqinin, texnikanın nailiyyətləri haqqında təsəvvürlərini, dünya görüşlərini genişləndirir, dövrün tələblərinə uyğun həyat tərzinin formalaşmasında mühüm rol oynayır.

İri və orta şəhərlərin inkişafında və formalaşmasında kənd əhalisi də fəal iştirak edir. Beləliklə, «kənd mühitində yaşayan əhali ərazi sistemində baş verən infrastrukturda müəyyən formasiyadan» keçib şəhərə münasib adaptasiyaya uyğunlaşır. Belə mühitdə bir-biri ilə əlaqəli şəraitdə dialektik və müntəzəm inkişaf baxımından kəndlə şəhər əhalisi arasında qarşılıqlı münasibətlər baş verir, keçmişdə mövcud olan bir sıra ziddiyyətlər ortadan götürülürsə də, müəyyən fərqlər saxlanılır.

Azərbaycanın təbii şəraiti mürəkkəb olduğundan onun ərazisindəki şəhərlər də müxtəlif İCM-də, ekoloji mühitdə yerləşir. Bu mənada onları əsasən üç qrupa ayırmaq olar:

1. Yüksək dağ zonasında yerləşən şəhərlər. Kəlbəcər, Laçın, Daşkəsən, Lerik;

2. Orta dağlıq və dağətəyi şəhərləri: Şahbuz, Ordubad, Xankəndi, Ağdərə, Şamaxı, Şəki, Oğuz, Qəbələ, Qax, Yardımlı;

3. Ovalıq və düzənlik şəhərləri:- Bakı, Sumqayıt, Gəncə, Qazax, Ağstafa, Quba, Lənkəran, Astara, Qusar, Kür-Araz ovalığında, Qarabağ düzənliyində və b. sahələrdə yerləşən şəhərlər.

İCM şəhər mühitinə təsir etdiyi kimi, şəhərlərin özü də «cazibə» ərazisində ətrafa, təbii mühitə təsir göstərir və bununla qarşılıqlı əlaqədə inkişaf edir.

İri və orta şəhərlər ətrafındakı iqtisadi, ekoloji, tibbi, məskunlaşma, memarlıq, ticarət və s. əlaqəli inkişafda olan şəhəryanı zonalarda sıx əlaqəli inkişaf edir. Şəhəryanı zonaların yerləşdiyi ərazinin təbii şəraitindən, iqtisadi, xidmətedici (*məsələn, kurort, sanatoriya, ticarət, rekreasiya, ictimai iaşə və s.*) sahələrindən asılı olaraq müəyyən qədər ixtisaslaşma baş verir. Şəhəryanı təsərrüfatlar təmayülü şəraitində gündəlik ərzaq məhsulları istehsal edən təsərrüfatların inki-

şafı şəhəryanı zonalarda məskunlaşmış əmək qabiliyyətli əhalinin işlə təmin edilməsində şəhərlər etibarlı məntəqə rolunu oynayır. Şəhəryanı zonalarda bir çox sənaye, nəqliyyat, xidmətedici sahələri ayrı-ayrı istehsal müəssisələri, məsələn, aeroport, istilik təsərrüfatları, su təchizatı, su tənzimləyici obyektləri, ticarət, təchizat bazaları və s. yerləşir, bu sistemdə fəal iştirak edir. Şəhəryanı ərazidəki kənd təsərrüfatına yararlı torpaqların bir hissəsi ərzaq təmayüllü bitkiçiliyin inkişafında ət, süd heyvandarlıq fermalarının yetişdirilməsində istifadə edilir.

Abşeron yarımadasının ərazisi bütünlüklə Bakı və Sümqayıt şəhərətrafı təsərrüfatlarının özülünü təşkil edir. Burada fəaliyyətdə olan Abşeron, Xırdalan, Buzovna, Mərdəkan tərəvəzçilik, quşçuluq heyvandarlıq, Məhəmmədli, Şuraabad, Giləzi və s. üzümçülük-tərəvəzçilik-hevandarlıq təsərrüfatları əhalinin müvafiq məhsullarla təmin edilməsində etibarlı mənbədir.

Şəhəryanı zona kimi Abşeron yarımadası Bakı və Sumqayıt şəhərlərini ərzaq məhsulları ilə yanaşı, şirin su, kurort, rekreasiya, təbii müalicə, sanatoriya xidməti, tikinti materialları (*mişar daşları, qum, çınqılla*), yanacaq-enerji sərvətləri (*neft, təbii qazla*) ilə təmin edir. Mərdəkan, Buzovna, Bilgəh, Şüvəlan, Pirşağı kimi kurort-rekreasiya zonaları şəhər əhalisinin mühüm müalicə istirahət ocaqlarıdır. 300 min nəfərə yaxın əhalisi olan Gəncə yaxınlığındakı Hacıkənd iqlim kurortu respublikanın qərb rayonları əhalisinin əsas istirahət və müalicə yeridir. Göstərilən sərvətlərdən istifadə edilməsi indiki istehsal münasibətləri şəraitində əhalinin yaşayış tərzinin yaxşılaşdırılmasında mühüm vasitədir.

# ŞƏHƏRİN İNKİŞAF POTENSİALI, DEMOQRAFİK XÜSUSİYYƏTLƏRİ, MƏSKUNLAŞMA VƏ MİQRASİYA

## 4.1. Müasir dövrdə Azərbaycan şəhərlərinin inkişaf potensialının qiymətləndirilməsi və tənzimlənməsi

Respublika şəhərlərinin inkişaf potensialı çoxsahəli kompleks amillərdən ibarətdir. Bunun əsasını təsərrufatın, xususilə sənaye sahələrinin ərazi-istehsal qrupu kimi birləşməsindən yaranan intensiv istehsal prosesləri, iqtisadi, texniki, texnoloji amillərin tətbiqi ilə istifadə edilən ehtiyat mənbələri, bunlarla yanaşı formalaşan intellektual səviyyəli əhali, əmək ehtiyatları, müxtəlif sahələr üzrə ixtisaslaşmış mütəxəssislər təşkil edir. Xüsusilə istehsal və qeyri-istehsal sahələrinin, təbii sərvətlərin, işçi qüvvəsinin istifadəyə cəlb edilməsi üçün küllü miqdarda maliyyə, material sərfi tələb olunur. Buna münasib investisiya resurslarının, şəhərlərin inkişaf potensiallarının hərəkətə gətirilməsində, şəhərdaxili, şəhərətrafı imkanlardan səmərəli istifadə edilməsində, iqtisadi əlaqələrin inkişafında aparıcı qüvvədir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Dövlət Mühəndis Tikinti Universitetində aparılan şəhərsalma, layihə, memarlıq fakültəsi Bakı Şəhər İcra Hakimiyyəti şəhər-layihə şöbəsi və bir sıra digər institutlar olsa da hazırda respublikada şəhərlərin kompleks inkişafı ilə bilavasitə məşğul olan müəssisə yoxdur. Şəhərlərin inkşaf təmayülündə kompleks tədqiqatla məşğul olan müəssisələrə, mütəxəssislərə indi böyük ehtiyac vardır.

Şəhərlərin inkişaf potensialının iqtisadi qiymətləndirilməsi üçün ilk növbədə kompleks tədqiqata təsir edən amilləri ortaya çıxarılmalıdır. İxtisaslaşmasına, funksiyasına görə

onların tipoloji quruluşunu müəyyənləşdirmək və dövrün tələblərinə uyğun abadlıq işlərinin aparılması zəruri tədbir kimi qarşıda durur. Bu baxımdan təxmini də olsa, bizim fikrimizcə, respublika şəhərlərinin funksiyasına görə tipoloji quruluşunu aşağıdakı qaydada müəyyən etmək olar:

1. Çoxfunksiyalı xarakterli Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri bazar iqtisadiyyatına keçid şəraitində ölkənin iqtisadi, sosial, siyasi, inzibati, elmi-mədəni, maarif, səhiyyə, nəqliyyat, sənaye müəssisələrinin idarə edilməsində, şəhər təsərrüfatının inkişafında aparılan tədbirlərin həyata keçirilməsində böyük əhəmiyyətə malikdir. Bakı, Sumqayıt şəhərlərinin, Abşeron inzibati rayonunun şəhəryanı ərazisi, şəhər təsərrüfatı, aqrosənayenin əsasən sənaye istiqamətində formalaşmasında fəal iştirak edir.

Buna şərait yaradan təkcə Bakı şəhərinin mərkəzi, onun idarəetmə aparatları deyil, həm də şəhərətrafı ərazinin, Abşeron yarımadasının güclü potensiala malik neft, qazçıxarma və emalı neft-maşınqayırma, dəqiq cihazqayırma, təmir-texniki və s. müəssisələri, əhaliyə xidmət, elm, mədəniyyət sahələrinin inkişaf potensialları, mərkəzi və ətraf rayonları özünə cəlb edən məntəqə olmasıdır.

2. Əhalisinin sayına, sənayenin, nəqliyyatın inkişaf potensialına görə ikinci yerdə duran Sumqayıt şəhəri metallurgiya, kimya sənaye mərkəzi kimi tanınır və respublikada bir sıra aparıcı sahələr üzrə kadr hazırlığında mühüm yer tutur.

Burada metallurqiya, kimya sənayesi mütəxəssislərinin hazırlığında görkəmli yer tutur. 1990-cı ilə qədər gərgin istehsal proseslərinin fəaliyyəti vaxtında ölkədaxili və bir sıra xarici dövlətlərlə aparılan iqtisadi əlaqələrdə fəal iştirak edirdi.

Uzun müddət şəhər mühitini narahat edən ekoloji gərginlik, son illərdə təbiətə çoxlu tullantı verən sənaye istehsalının tənəzzülü ilə əlaqədar xeyli azalmışdır. Gələcəkdə Sumqayıt sənaye kompleksinin dövrün tələblərinə uyğun

bərpa edilməsi və yenidən qurulması məqsədilə layihələrdə şəhərin ekoloji tutumluğunun, ekoloji mühafizə problemlərinin,texniki-iqtisadi-ekoloji tədbirlərin həyata keçirilməsi qarşıda durur.

3. Respublika tabeliyində olan Gəncə şəhəri müharibədən sonrakı illərdə çoxsahəli istehsal sahələrinə malik olmaqla, əsasən əlvan metallurgiya, cihazqayırma, yüngül və yeyinti sənaye mərkəzinə çevrilib. 300 min əhalisi olan Gəncə şəhərinin sənaye inkişaf potensialında mühüm rol oynayan Daşkəsən dəmir filizi, zəylik alunit və Daşsalahlı bentonit gil mədənlərinin, pambıqçılığın, üzümçülyün və b. iflasa uğraması şəhərin iqtisadiyyatını dərin tənəzzülə uğratmışdır.

Metallurqiya, kimya, yeyinti, yüngül sənayenin kompleks inkişafı üçün geniş təbii zəminə, iqtisadi imkanlara malik olan Gəncə şəhərinin perspektiv inkışafı hər şeydən əvvəl onun sənaye potensialının, əhaliyə xidmət sahələrinin iqtisadi əlaqələrinin bazar münasibətləri tələblərinə uyğun təkmilləşdirilməsini tələb edir.

Enerqetika, sənayesi üzrə ixtisaslaşmış Mingəçevir, Əli-Bayramlı şəhərləri eyni zamanda neft, qazçıxarma, tikinti sənaye mərkəzləri kimi formalaşmışdır. Respublikanın inzibati rayon mərkəzlərində, xususilə kiçik şəhərlərdə əsasən kənd təsərrüfatı məhsullarını emal edən, yerli əhəmiyyət daşıyan yeyenti və yüngül sənaye sahələrinin inkişafı da son 10 ildə əvvəlki əhəmiyyətini itirmişdir.

Azərbaycanın iqtisadi potensialı, təbii şəraiti, təbii sərvətləri müxtəlif olduğundan onun şəhərləri, rayonları da çoxsahəli istehsal üzrə ixtisaslaşmışdır. Belə şəraitdə respublika şəhərləri aşağıdakı istehsal və qeyri-istehsal sahələr üzrə ixtisaslaşmışlar:

a) aparıcı sənaye sahələrinin, əhaliyə xidmət, elmi, texniki, mədəni, maarif, səhiyyə müəssisələrinin, neft-qaz istehsalı, maşınqayırma, cihazqayırma, nəqliyyat kompleksinin nəhəng mərkəzi kimi fəaliyyət göstərən Bakı şəhəri;

b) iri qara və əlvan metallurgiya, kimya, tikinti istehsal

kompleksi mərkəzi olan Sumqayıt, Gəncə şəhərləri. Yerli və gətirilmə xammala əsaslanan qara, əlvan metallar, müxtəlif kimya, cihazqayırma, yüngül sənaye məhsullarının istehsalı üzrə ixtisaslaşan bu şəhərlərin perspektiv inkişafının əsas təmayülü bazar münasibətlərinə uyğun rəqabət tutumlu keyfiyyətli məhsullar istehsalını təşkil etməkdən ibarətdir.

Bunun həlli küllü miqdarda sərmayə xərci şəraitində təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə, respublikanın aparıcı sənaye müəssisələrinin dünya standartı səviyyəsinə uyğun yenidən qurulmasını tələb edir.

Belə ciddi problemin həlli bazar münasibətləri şəraitində dünya rəqabəti və yeni iqtisadi əlaqələr sisteminin iştirakından asılıdır. Bunun üçün göstərilən şəhərlər geniş imkanlara, iqtisadi-texniki potensiallara və təcrübəyə malikdir.

Hazırda dərin durğunluq və tənəzzül keçirməkdə olan yeyinti, yüngül sənaye müəssisələrini təmsil edən Gəncə, Şəki, Ordubad, Mingəçevir şəhərləri əvvəlki şöhrətlərini itirmişlər. Götərilən şəhərlərin uzun müddət ixtisaslaşmış sahələri üzrə müasir tələbata uyğun mütərəqqi inkişafına böyük ehtiyac vardır.

c) iri nəqliyyat qovşaqları olan Yevlax, Xaçmaz, Ələt, Salyan, Culfa şəhərləri dəmir yolu nəqliyyatının perspektiv inkişafında irimiqyaslı texniki-iqtisadi imkanlara malikdir. Dövrümüzün son illəri yeni, daha sürətli nəqliyyat vasitələrinin fəaliyyəti ilə səciyyələnir. Respublika iqtisadiyyatının gələcək inkişafı sərnişin və yük dövriyyəsinin artmasını da təmin edəcəkdir.

Nəzərə alsaq ki, yük, sərnişin dövriyyəsinin artması arasında düz mütənasiblik artır, onda şəhər mühitində avtomobil yolları təsiri altındakı urbanilləşmiş ərazilərdə istehsalın inkişafının təkmilləşdirilməsini, texniki cəhətdən yenidən qurulmasını vacib problem kimi qiymətləndirmək olar;

ç) dənizsahili ölkə olan Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri beynəlxalq liman kimi Xəzəryanı dövlətlərlə nəqliyyat-iqtisadi əlaqələrin inkişafında böyük əhə-

miyyət kəsb edir. Belə mövqedə respublikanın muasir inkişafı dövründə, bazar istehsal münasibətlərinə keçid şəraitində istər rayonlararası, istərsə də dövlətlərarası yük və sərnişin daşınması artacaqdır.

Bu baxımdan Sumqayıt sənaye mərkəzi ilə Bakı arasında gərgin yük daşınmasının nizamlanmasına və Bakı dəniz limanının üzərinə düşən yüklərin xeyli azaldılmasına kəskin ehtiyac duyulur. Bu məqsədlə çoxdan bəri Sumqayıtda tikilməsi nəzərdə tutulan, muasir tələbata uyğun dəniz limanının inşasına tələbat artır. Respublikanın daxili təbii potensialından, texniki, iqtisadi imkanlarından, bol və ixtisaslı əmək ehtiyatlarından səmərəli istifadə edilməsi bu məsələnin həllində mühüm vasitədir;

v) Azərbaycanda elm və təhsil müəssisələri əsasən dörd şəhərdə-Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda mərkəzləşib. Bunlar xüsusi tip şəhərlər olmaqla respublika hökümətinin qərar və sərəncamlarına əsasən elm və texnikanın inkişafında, yüksək səviyyəli kadrlar yetişdirilməsində, elmi nailiyyətlərin istehsala tətbiq edilməsində görkəmli yer tuturlar. Göstərilən şəhərlərdə elm və texnikanın gələcək inkişafı dövlətin himayəsi, investisiya, maddi-texniki baza ilə təmin edilməsi, ixtisaslı kadrların, ali təhsilli mütəxəssislərin işlə təmin edilməsi əsasında mümkün hesab edilə bilər;

d) Qalaltı, Hacıkənd, Astara, Qusar, Şamaxı, İlisu, Nabran, Yalama, Lənkəran, Şuşa kurort, sanatoriya, istirahət müəssisələrinin, Abşeronun kurort-rekreasiya kompleksinin xidmətləri SSRİ-nin süqutundan sonra xeyli zəifləmişdir. Respublikanın kurort, bolneoloji-müalicə və turist mərkəzlərinə Abşeron yarımadasında dəniz sahili boyu yerləşən Bilgəh, Buzovna, Mərdəkan, Şüvəlan, Pirşağı qəsəbələri, eləcə də Nabran, Yalama rekreasiya, iqlim-kurort müalicə ocaqları daxildir və onlar perspektiv inkşaf üçün geniş potensiala malikdir.

Yuxarıda adları çəkilən bu və ya digər istehsal, nəqliyyat, xidmət elm və təhsil mərkəzləri olan şəhərlərin pers-

pektiv inkişafı üçün əsasən aşağıdakı sahələr üzrə kapital qoyuluşunu tələb edir:

a) sosial-demoqrafik inkişafa;

b) şəhərin inzibati quruluşu, idarəedilməsi, məskunlaşmanın tənzimlənməsi dövlət və qeyri-dövlət tabeliyində, nazirliklər və onlara daxil olan şirkətlər, müəssisələr və onların fəaliyyəti, istehsal etdikləri məhsulların fiziki həcmi, ixrac, idxal məhsullarının perspektiv inkişafı və s.;

c) elmi-texniki, mədəni potensial; dövlət tabeliyindəki ali, orta ixtisas, orta məktəbləri, onlarda təhsil alanların miqdarı, elmi, elmi-tədqiqat, mədəniyyət, incəsənət sahələri və əhaliyə xidmət müəssisələri;

ç) nəqliyyatın vəziyyəti və xidməti, bura beynəlxalq və respublika əhəmiyyətli aeroportlar, dəmir və avtomobil yolları, dəniz nəqliyyatı, dəniz və çay limanları, su, qaz, neft kəmərləri daxildir;

d) maliyyə vasitələri və dünya iqtisadiyyatına inteqrasiya dərəcəsi: bura bank aktivləri və sair maliyyə mənbələri hesabına kapital qoyuluşu, birgə müəssisələrin fəaliyyəti, ixrac və idxal daxildir. Bunlardan başqa, şəhərlərin mövcud və perspektiv inkişafında əhalinin həyat səviyyəsi (*əmək haqqı, onların əmanət kassalarında saxladıqları pul, adam başına mal dövriyyəsi, məşğulluq və s.*) yaşayış binalarının fondu, sosial-məişət müəssisələrinin, mühəndis-texniki sistemlərinin vəziyyəti, ekoloji vəziyyət, atmosferin, suyun çirkləndirilməsi, onlara qarşı mübarizə tədbirləri, torpaqların rekultivasiyası, tikintinin və şəhər təsərrüfatlarının maliyyələşdirilməsi.

Şəhərlərin kompleks inkişafı, istehsalın, xidmət sahələrinin, əhali məskunlaşmasının nizama salınması, istər daxili, istərsə də xarici iqtisadi əlaqələrin aparılması dövlətin siyasi və idarəçilik qabiliyyətindən çox asılıdır. Bunun da yerinə yetirilməsində qanunverici, idarəedici təşkilatların, onların sərəncamlarının yerinə yetirilməsinin böyük əhəmiyyəti vardır.

Şəhər mühiti üçün xarakterik olan, kriminal hallara qarşı (*cinayətin artması, irimiqyaslı oğurluqlar və s.*) mübarizə tədbirləri, asayişin bərpa edilməsi küllü miqdarda maliyyə sərfi tələb edir.

Yuxarıda göstərilən halların müasir vəziyyətdə baş verməsinə, onlara qarşı mübarizə tədbirlərinin həyata keçirilməsinə görə ayrı-ayrı şəhərlər üzrə tədbirlərin aparılması dövrün tələblərindən irəli gəlir. Ətrafı ilə birlikdə 2 mln nəfərdən çox əhalisi olan Bakı bu təmayüldə xüsusi yer tutur.

~~Bakıdan sonra~~ investisiyaya çox ehtiyacı olan, ~~metallurgiya~~, kimya-~~metallurgiya~~ mərkəzləri ~~Sumqayıt~~, Gəncə və energetika mərkəzləri olan Əli-Bayramlı, Mingəçevir şəhərləridir.

~~Respublikanın~~ qalan orta və kiçik şəhərlərinin də investisiya təminatı məhduddur. Onlara ayrılan kapital qoyuluşundan, rayonların daxili imkanlarından, təbii sərvətlərindən, əmək ehtiyatlarından istifadə edilməsi bazar münasibətləri dövründə iqtisadi, sosial inkişafın təmini üçün indi kifayət deyil.

~~Bakı, Sumqayıt, Gəncə, Naxçıvan~~, Əli-Bayramlı, Mingəçevir ~~də daxil olmaqla respublikanın bütün~~ şəhərlərinə ayrılan investisiya qoyuluşu, istehsal şahələrinin fəaliyyətinin bərpa edilməsi, mövcud olanların yenidən qurulması, yenilərinin yaradılması, əmək qabiliyyətli əhalinin dövlət müəssisələrində, təşkilatlarında, təhsil, səhiyyə maarif sahələrində işlə təmin edilməsi üçün azlıq edir.

Ərazi istehsal sistemində şəhərlərin inkişafının layihələşdirilməsi, planlaşdırılması nəzəri və praktiki amil kimi ~~müəyyən~~ rayonda istehsal müəssisələrinin, kommunikasiyaların, məskunlaşma yerinin coğrafi, iqtisadi, memarlıq-tikinti, mühəndis-texniki şəraitdən asılı olaraq inkişaf edir. Şəhər təsərrüfatının planlaşdırılması, layihələşdirilməsi müəyyən ərazidə istehsalın inkişaf proqnozlarının təmayüllərinin, proqramlarının, istehsal komplekslərinin ərazi sistemində yerləşdirilməsilə formalaşmasına xidmət edir, urba-

nizasiya və məskunlaşmanı genişləndirir. Göstərilən amillərin şəhər kompleksi sistemində proqnozlaşdırılması əlaqələndirici tədbir kimi şəhər təsərrüfatına dair aşağıdakı kompleks vəzifələrin yerinə yetirilməsini qarşıda qoyur:

- Təbii sərvətlərin, maddi-texniki, əmək ehtiyatlarının, təkrar xammalların səmərəli istifadə edilməsi, oxşar təmayüllü sənaye müəssisələrinin kombiləşdirilməsi və kooperasiyası, mühəndis qurğuları ilə tikinti bazası arasındakı əlaqələrin uzlaşdırılması, elmi-texniki tərəqqinin iqtisadiyyatda tətbiqi əsasında istehsal və qeyri-istehsal sahələrin şəhərin zonal sistemində səmərəli yerləşdirilməsi, bazar iqtisadiyyatına uyğun müvafiq ixtisaslaşmış sahələri nəzərə almaqla şəhərətrafı aqrosənaye təsərrüfatının səmərəli təşkilini;
- Formalaşmış aqlomerasiya daxilində məskunlaşma və urbanizasiyanın inkişafının nəzərə alınması;
- Şəhər mühəndis quğularından istifadə etməklə nəqliyyatın, rabitənin, su təchizatı xidmətinin optimal səviyyədə aparılması;
- Kurort-rekreasiya sərvətlərindən istifadənin səmərəli təşkili, onların bazasında müvafiq təsərrüfatların yaradılması, ətraf mühitin, təbii sərvətlərin səmərəli istifadə edilməsi və mühafizəsi;
- Ərazinin məqsədyönlü funksional zonalaşdırılması və istifadəsinin təşkili;

Yuxarıda göstərilənləri nəzərə alaraq şəhər kompleksinin planlaşdırılması qarşısında aşağıdakı vəzifələr durur:

- Ərazi-istehsal kompleksində yerli şəraitə uyğun şəhərdaxili, şəhərətrafı istehsalın səmərəli uzlaşdırılmasına aid məqsədyönlü tədbirlərin müxtəsərləşdirilməsi ilə ərazi-istehsal planının tərtibi;
- Şəhər ərazisi daxilində məskunlaşma arealının, seliteb zonalarının məqsədyönlü seçilməsi və onlardan istifadənin istiqamətləndirilməsi;
- Təbii mühitin və təbii sərvətlərin istifadəsində, müha-

fizəsində iqtisadi-ekoloji, texnoloji tədbirlərin həyata keçirilməsi prosesində ortaya çıxan neqativ hallara qarşı mübarizə, mövcud ehtiyatların istehsal, ekoloji cəhətdən qiymətləndirilməsi, ətraf mühitin çirkləndirilməsinə qarşı tədbirlər sisteminin həyata keçirilməsi. Bunlarla yanaşı, şəhərlərdə və onların ətrafında kommunikasiya və mühəndis texniki-texnoloji imkanlardan səmərəli istifadəsi, şəhər ərazi kompleksinin coğrafi mühitə uyğun inkişafının optimal variantının seçilməsinə dair tədbirlər sisteminin hazırlanması zəruri hesab edilməlidir.

– İctimai əməyin səmərəli təşkili, əhalinin sağlamlığının qorunması, rayonun konstruktiv əhəmiyyətli təbii sərvətlərini, təkrar xammalın gələcək nəsl üçün də saxlanılmasını, səmərəli istifadəni təmin etmək məqsədilə onların proqnozlaşdırılması və s.

Şəhər təsərrüfatına dair kompleks məsələlərin diferensial həllini, onun yerləşdiyi rayonun təbii-iqtisadi, demoqrafik, urbanizasiya şəraitinin nəzərə alınması ilə ərazi sistemində yeni şəhərlərin layihələşdirilməsi nəqliyyat - iqtisadi, rayonlararası əlaqələrin nəzərə alınmasını tələb edir.

Bununla əlaqədar şəhər layihələşdirmə sənədlərinin tərtibində ayrı-ayrı avtonom məsələlərlə yanaşı, əsas etibarı ilə kompleks vəzifələrin həllinə dair tədbirlər sistemlərinin tərtibi zəruriyyətinə daha çox üstünlük verilməsi məqsədyönlü hesab edilir.

Bütün bu məsələlərin tədqiqi prosesində ortaya çıxan vəzifələrin kompleks həlli müvafiq mütəxəssislərin, iqtisadçıların, coğrafiyaşünasların, memarların, ekoloqların, şəhərşünasların iştirakını tələb edir. Qeyd etməliyik ki, belə mürəkkəb məsələlərin həlli istər rayon, istərsə də şəhər mühitinin planının tərtibində kəmiyyət və keyfiyyət baxımından mütərəqqi prosesdə gedən dəyişikliyin nəzərə alınmasını qarşıya qoyur.

Son əlli ildə Azərbaycanda sənaye məhsulları 22 dəfə, əhali 4,1 dəfə artmışdır. Respublikanın şəhər əhalisi həmin

dövrdə 1320 mindən 4100 min nəfərə çataraq, 3,1 dəfə çoxalmışdır. Həmin dövrdə respublikada 60 dan çox şəhər və şəhər tipli qəsəbə yaranmışdır. Rəqəmlərdən götürdüyü kimi, respublikanın iqtisadi rayonlarında və şəhərlərində sənayenin inkişafı əhalinin artması urbanizasiyanın səviyyəsinə də təsir göstərmişdir. Rayonun iqtisadi, sosial, demoqrafik tərkibi, ərazi strukturunda istehsal sahələrinin inkişafı və yerləşdirilməsində mühüm əhəmiyyət kəsb edən amildir, ərazi-istehsal sənaye, nəqliyyat sisteminin təkmilləşdirilməsinə təsir edən tədbirdir.

Bunun əhəmiyyəti şəhər mühiti üçün ona görə zəruridir ki, rayonların, şəhərlərarası iqtisadi, sosial əlaqələrin təkmilləşdirilməsində, elmi-texniki potensialın səfərbər edilməsində mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın iri və orta şəhərlərinin inkişafında, formalaşmasında mühüm sənəd olan və rayon planının tərtibində müvafiq mütəxəssislər, şəhərşünaslar iştirak edir, bunun üçün elmi-tədqiqat layihə müəssisələri materiallarından istifadə edilir. Belə hesab edirik ki, göstərilən sənədlərin tərtibində iqtisadi – coğrafiyaşunasların, ekoloqların iştirakı da vacibdir.

Bu və digər rayonun kompleks inkişafını təmin etmək məqsədilə şəhərlərin layihələşdirilməsində, müvafiq sənədlərin tərtibində hər hansı məntəqənin özünəməxsus urbanizasiya, demoqrafik, təbii, iqtisadi, şəraitinin coğrafi mövqeyinin nəzərə alınması zəruri şərt kimi qəbul edilməlidir.

Coğrafi, təbii sərvət baxımından kompleks səciyyəli hər hansı rayonun, şəhər ərazisinin planlaşdırılmasının tərtibinə sistemli yanaşmağın həlledici əhəmiyyəti vardır. Ümumilikdə, şəhərin tutduğu ərazinin iqtisadi, texniki, ekoloji sistemli quruluşunu görmək, onun ayrı-ayrı elementləri arasındakı qarşılıqlı əlaqələri, sıx məskunlaşmaya malik lokal ərazi daxilində istehsalla əhali, xidmət müəssisələri arasındakı uzlaşmanı öyrənmək məqsədilə şəhər daxilindəki regional problemlərin həlli, müasir strateji tələblər səviyyəsində mühüm vəzifədir.

Rayon planlaşdırılması təcrübəsi göstərir ki, yerli xüsusiyyətləri nəzərə alan bir sıra əlaqələndirici işlər və tədbirlər şəhərlərin inkişafı və formalaşmasında mühüm əhəmiyyətli tədbirdir.

«Rayon planlaşdırılma» anlayışı, şəhər region layihələndirilməsi prosesində iqtisadi-sosial sahələrin inkişafı və yerləşdirilməsi mühüm vasitədir. Sabiq Sovet İttifaqı dövründə beşilliklər üzrə qəbul edilən xalq təsərrüfatının inkişaf planlarıda şəhərlərin, sənaye komplekslərinin, kurort-müalicə müəssisələrinin, memarlıq, tikinti, mühəndis-iqtisadi, texniki layihə sənədləri öz əksini tapırdı. İndi də şəhərlərin, iqtisadi rayonların istehsal əlaqələrinin formalaşmasında sənaye sahələri aparıcı mövqedə durur. Bu mənada onların planlaşdırılmasında əsas amilləri aşağıdakı göstəricilər üzrə verməyi məsləhət bilirik:

**Şəhərlərin planlaşdırılmasının və sənaye amillərinin göstəriciləri**

**Cədvəl 13**

| Amillər qrupu | | Amillər göstəricisi |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | Xammal mənbəyinə, yanacağa, enerjiyə, su ehtiyatına və istehlak məhsulları istehsalına yaxınlıq | Xammal, yanacaq, elektrik enerjisi, su ehtiyatları, məhsulların istehlak rayonları |
| 2. | Əmək ehtiyatları | Sərbəst əmək ehtiyatları, o cümlədən ixtisaslaşmış kadr potensialı, işçi qüvvəsi, əhali adət-ənənəsinin tarixən yaranması, elmi-texniki kadrlar potensialı. |
| 3. | Urbanizasiya və məskunlaşmanın iqtisadi, təbii şəraiti. | İstehlak və xidmət sahələrinə, şəhərdaxili məskunlaşmanın nizamlanmasına çəkilən xərclər, sakinlərin, fizioloji, psixoloji amilləri. |

| 1 | 2 | 3 |
|---|---|---|
| 4. | Sənayenin, nəqliyyatın yerləşməsi, istehsalın əhalinin məskunlaşma vəziyyəti və mühəndis-tikinti şəraiti. | İqtisadi inkişaf, kurort, rekreasiya sərvətlərinin mənimsənilməsi. Ərazi genişliyi, konfiqurasiya rahatlığı, relyefin, yeraltı suların hidrogeoloji, fiziki-coğrafi vəziyyəti. Torpaq-bitki örtüyü, faydalı qazıntıların su mənbələrinə, saf mühitə, rekreasiya zonalarına yaxınlığı, dəmir yollarına, şose yollarına görə yerləşməsi. Səhiyyə-gigiyena şəraiti |
| 5. | İnfrastruktur: rayonun xidmət sahələri sənaye, tikinti, nəqliyyat əlaqələri. | Nəqliyyat şəraiti: nəqliyyat magistrallarının mövcudluğu, onlara yaxın obyektlərin və s. müəssisələrin yerləşmə şəraiti. Yüksək gərginlikli elektrik ötürücü xətlərə yaxınlıq. Enerji, istilik təchizatının vəziyyəti. |
| 6. | Tikinti, mənzil-məişət şəraiti. | Tikinti və tikinti təşkilatlarının, onların təmir bazalarının mövcudluğu. Azad olunmuş mənzil fondlarının istifadəsi, yarımçıq tikinti-quraşdırma işlərinin aparılması, faydalı qazıntıların istismarı. Müxtəlif obyektlərin, sənaye müəssisələrinin vəziyyəti. Ərzaq məhsulları bazası. Elmi-texniki, mədəni, tibbi xidməti. |
| 7. | Sənaye müəssisələrinin kooperasiya və kombiləşmə şəraiti. | İstehsal proseslərinin kombiləşdirilməsi, kooperasiyalaşdırılması. Təmir-texniki təsərrüfatın təşkili. Nəqliyyat fəaliyyətinin əlaqələndirilməsi. Vahid elektrik təchizatının və energetika təsərrüfatının təşkili. Su toplayıcı və su təmizləyici qurğuların birləşdirilməsi. Əmək ehtiyatlarının səmərəli istifadəsi. Məskunlaşmanın təşkili, yerli və rayonlararası istehlakla və istehsallaəlaqədar müəssisələrarası kooperasiya əlaqələrinin təşkili. |

## 4.2. Şəhərlərin tipoloji quruluşu, ixtisaslaşma və paytaxtın funksiyası

Azərbaycanın şəhərləri və ŞTQ-ləri mürəkkəb funksional quruluşa malik olub özlərinə məxsus ixtisaslaşma təmayülündə inkişaf edir. Şəhər funksiyalarının özlərinə məxsus ixtisaslaşma təmayülünün, bu sahədə onların fəaliyyətinin araşdırılmasının böyük elmi və təcrübi əhəmiyyəti var. Funksiyalar bu və ya digər istehsal sahəsi üzrə ixtisaslaşmış ictimai əmək bölgüsündə şəhərin tütduğu yeri, onun təsərrüfat, əhaliyə xidmət üzrə strukturunu öyrənməyə imkan verir, ictimai əmək bölgüsündə fəaliyyəti ortaya çıxarır. Şəhər bütövlükdə məskunlaşma mərkəzi, əhalinin, onun fəal hissəsi olan əmək ehtiyatlarının, işçi qüvvəsinin təmərküzləşdiyi yer, istehsal və qeyri-istehsal sahələrinin, nəqliyyat qovşaqlarının, inzibati, təşkilat-təsərrüfat və ticarətə meyl edən ərazisinin mədəni-məişət mərkəzidir.

Şəhərin optimal ölçüsünün hansı səviyyədə olması sualına düzgün cavabı bilavasitə şəhər yaşayış məntəqələrinin elmi cəhətdən əsaslandırılmış təsnifatı ilə əlaqədardır. Təsnifatın əsasında şəhərin sosial və iqtisadi cəhətdən düzgün qiymətləndirilməsində üç əsas əlamət: şəhərin böyüklüyü, urbanizasiya, təsərrüfatın funksiyası və təmərküzləşmə səviyyəsi durur.

İtisadi coğrafiyaçılar tərəfindən qəbul olunmuş şəhər yaşayış məntəqələrinin ümumi təsnifatı aşağıdakılardan ibarətdir:

a) əhalinin sayına və urbanizasiya səviyyəsinə görə (*şəhərin böyüklüyü*);

b) xalq təsərrüfatı, xüsusilə sənaye istehsalının funksiyalarına görə;

c) genetik xüsusiyyətlərinə (*mənşəyinə*) görə;

ç) iqtisadi-coğrafi, təbii şəraitinə, əhali məskunlaşması mövqeyinə və mövcud təbii sərvətlərinə görə;

d) əmək qabiliyyətli əhalinin məşğulluğuna və onların ictimai əmək bölgüsündə tutduğu mövqeyə görə.

Bunların əsasında Azərbaycan şəhərlərinin təsnifatın aşağıdakı cədvəldə verildiyi kimi şərh etmək məqsədyönlü hesab edilir.

**Azərbaycan şəhərlərinin təsnifatı**

**Cədvəl 14**

| Qr. | Əsas ixtisaslaşma təmayülü | Şəhərlər |
|---|---|---|
| 1 | 2 | 3 |
| | **I. Paytaxt şəhəri** | |
| 1 | İqtisadi, siyasi idarəetmə, müxtəlif təmayüllü sənaye, nəqliyyat, mədəni quruculuq, elmi, maarif, səhiyyə, beynəlxalq iqtisadi əlaqələr, dövlətin hökümət mərkəzi. | Bakı |
| | **II. İri şəhərlər- respublika tabeliyində** | |
| 2 | Metallurgiya, kimya, tikinti sənaye kompleksi, yüngül, yeyinti sənaye, elm, səhiyyə, mədəni mərkəzi. | Gəncə, Sumqayıt |
| | **III. Orta şəhərlər** | |
| 1 | Yüngül, yeyinti sənaye, tikinti materialları, kənd təsərrüfatı, aqrosənaye inzibati mərkəzi. | Ağdam, Ağdaş, Bərdə, Cəlilabad, Fizuli, Göycay, Quba, Sabirabad, Şamaxı, Şəmkir, Şəki |
| 2 | Yüngül, yeyinti, kənd təsərrüfatı, dəmir yolu, avtomobil nəqliyyatı, inzibati rayonu | Qazıməmməd, Xaçmaz, Ağcabədi. |
| 3 | Yeyinti, yüngül, energetika, maşınqayırma, kimya, neftqazçıxarma, dəmir yolu, avtomobil nəqliyyatı, tikinti materialları, | Salyan, Əli-Bayramlı, Yevlax, Siyəzən, İmişli, Dəvəçi. |
| 4 | Yüngül, yeyinti, cihazqayırma, elektroenergetika, dağ-mədən sənaye, kurort, inzibati mərkəzi | Mingəçevir, Xankəndi, Naxçıvan, Lənkəran. |

| 1 | 2 | 3 |
|---|---|---|
| **IV. Kiçik şəhərlər-rayon mərkəzləri** | | |
| 1 | Yeyinti, yüngül sənaye, kənd təsərrüfatı, inzibati mərkəz, kurort, rekreasiya | Ağstafa, Ağsu, Astara, Balakən, Beyləqan, Biləsuvar, Cəbrayıl, Kəlbəcər, Qax, Qazax, Qəbələ, Oğuz, Saatlı, Şuşa, Tovuz, Qubadlı, Qusar, Laçın, Masallı, Culfa, Sədərək, Kürdəmir, Tərtər, Zaqatala, Zəngilan, Zərdab, Xocalı, Xocavənd, Beyləqan İsmayıllı, Göranboy. |
| 2 | Yüngül, yeyinti, kənd təsərrüfatı, neftçıxarma, dağ-mədən, dəmir yolu, avtomobil nəqliyyatı, inzibati mərkəzi. | Ucar, Neftcala, Ordubad, Şərur, Balakən, Gədəbəy. |

Şəhərlərin böyüklüyünü əhalisinin sayına və məskunlaşma səviyyəsinə görə müəyyənləşdirmək ilk baxışda sadə deyil, çünki onların ölçüləri ilə funksiyaları arasında birbaşa mürəkkəb asılılıq və əlaqələr vardır. İqtisadi, sosial, xidmət sferası baxımından şəhərin funksiyasının mürəkkəbliyi ilə əhalisinin məskunlaşması arasında uzlaşma mövcuddur. Böyük şəhərlər öz təsir dairəsinə müvafiq olaraq bir sıra əlavə funksiyalara, kiçik şəhərlər isə adətən məhdud imkanlara malikdir.

Şəhərlərin təsnifatı onların müxtəlif xalq təsərrüfatı funksiyalarının məzmununu ifadə edən əlamətlərə görə qruplaşdırılması ictimai əmək bölgüsündəki yerini və rolunu müəyyənləşdirməyə imkan verir. Biz şəhərlərin funksional tiplərini əməyin istehsal strukturuna əsasən və əhalinin məşğulluq dərəcəsinə görə müəyyən etmişik. Funksional əlamətlərinə görə Azərbaycanda aşağıdakı tip şəhərləri ayırmaq olar:

1) inkişaf etmiş polifunksional şəhərlər;
2) sənaye şəhərləri;
3) qarışıq tipli şəhərlər;
4) inzibati şəhərlər;
5) kurort şəhərləri;
6) şəhər tipli qəsəbələr;

Azərbaycan şəhərlərinin funksional əlamətlərinə görə təsnifatı ilk dəfə 60-cı illərin əvvəllərində akademik A.A. Nadirov tərəfindən aparılmışdır[1].

Öz dövrü üçün onun təsnifat çox ətraflı olub respublika şəhərlərinin iqtisadi mənzərəsini düzgün əks etdirir. Lakin o dövrdən sonrakı 40 illik müddət ərzində şəhərlərin iqtisadi həyatında əsaslı dəyişikliklər baş vermişdir ki, bu da onların təsnifatı məsələsinə yenidən baxmaq zərurətini yaratmışdır. Bu baxımdan təklif etdiyimiz təsnifat A.A.Nadirovun təsnifatından bir qədər fərqlənir. Beləliklə, Azərbaycan şəhərlərinin funksional təsnifatı ilə yanaşı, onları aşağıdakı genetik tiplərə ayırmışıq. Bunlara aşagıdakılar daxildir:

a) istehsal və xidmət profilini xeyli dəyişdirmiş, müasir dövrə uyğun təkmilləşdirilmiş qədim şəhərlər;

b) keçmişə xas olan profilini az dəyişdirmiş qədim şəhərlər;

c) kapitalizm dövründə yaranmış və sonralar öz funksiyasını yeni dövrün tələblərinə uyğun genişləndirmiş şəhərlər;

ç) yerli təbii ehtiyatlardan, xüsusilə faydalı qazıntılardan istifadə olunması əsasında yaranan yeni şəhərlər;

d) əlverişli iqtisadi-coğrafi mövqeyinə görə kəndlərdən törəmiş şəhərlər;

Göstərilən amillərə uygun tərtib edilmiş xəritədə şəhərlərin funksional-genetik tipləri haqqında məlumat verilir. Polifunksional şəhərlərin (*Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Əli-Bayramlı, Mingəçevir*) inkişafı öz sənaye-nəqliyyat, siyasi, in-

---

[1] Надиров А.А. Вопросы экономического развития городов Азербайджанской ССР. Баку-1966.

zibati, təşkilat-təsərrüfat, elmi və mədəni-maarif, ticarət funksiyalarının miqyasına görə bir çox şəhərlərdən fərqlənir. Təbii ki, göstərilən çoxpilləli funksiyalara görə Bakı daha çox geniş ərazilərdə inkişaf etmişdir. Azərbaycanın siyasi-iqtisadi, mədəni həyatına, regionun ekoloji şəraitinə öz təsirini göstərən Bakı respublikanın şəhərlər sistemində xüsusi yer tutur. Onun 150-km-dən də artıq məsafədə cazibə dairəsinin funksiyası əsasən sənayenin, nəqliyyatın, mədəni-maarifin inkişafı, əhalinin tələbatı altında baş verir. Buna oxşar funksiyaları Bakıdan başqa Sumqayıt, Naxçıvan, Gəncə, Mingəçevir, Əli-Bayramlı şəhərləri də yerinə yetirir. Sənaye istehsalı, nəqliyyat xidməti, respublikanın orta şəhərləri üçün də səciyyəvi əlamətdir. Göstərilən şəhərlərin çoxsahəli emaledici sənaye sahələri içərisində maşınqayırma (*o cümlədən cihazqayırma, elektrotexnika*), yüngül və yeyinti sənaye əsas yer tutur.

Dəmir yolu, şose yolu, hava, dəniz, boru-kəmər nəqliyyatı qovşağına malik olan Bakı beynəlxalq əlaqələrdə fəal iştirak edir. Polifunksional şəhərlər çoxçeşidli istehsal müəssisələrinə malik olmaqla yanaşı, həm də əsas istehlak mərkəzləridir. Bu şəhərlərdə iri kommersiya strukturları, banklar, şirkətlər və s. fəaliyyət göstərir, onlar inkişaf etmiş sosial infrastruktura görə fərqlənir.

Polifunksional şəhərlər elm və mədəniyyət sahələrində də geniş fəaliyyət göstərirlər. Bunlarda ali, ali-orta ixtisas məktəbləri, teatrlar, muzeylər, mərkəzləşdirilmiş səhiyyə müəssisələri, digər xidmət sahələri və obyektləri mövcuddur.

Sənaye şəhərləri ixtisaslaşmış qrup tərkibi etibarilə müxtəlif səviyyədə fəaliyyət göstərirlər. Bunlarda əsasən emaledici sənaye sahələri (*Məsələn, Əli-Bayramlı və Siyəzən şəhərlərində neftçıxarma*) inkişaf etmişdir. Çoxsahəli sənaye müəssisələrinə görə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şəki şəhərləri xüsusilə fərqlənirlər. Sənaye məhsulunun həcminə görə Sumqayıt və Gəncə Bakıdan sonra Azərbaycanda 2-ci, 3-cü yeri tuturlar. Polifunksional səviyyəli

olan şəhərlərdə məskunlaşan əmək qabiliyyətli əhalinin yarısından çoxu yüngül və yeyinti sənayesində işləsə də metallurgiya, cihazqayırma, tikinti sənayesi müəssisələri iqtisadi inkişafda mühüm yer tutur. Sumqayıt şəhərinin genetik inkişafının əsasını təşkil edən əlvan, qara metallurgiya, kimya sənayesi müəssisələri əhali məskunlaşmasının, sənaye təmərküzləşməsinin, beynəlxalq münasibətlərdə iqtisadi əlaqələrin özülünü təşkil edir.

~~Gəncə, Sumqayıt,~~ Mingəçevir və Əli-Bayramlı şəhərlərində iri elektrik stansiyaları fəaliyyətdədir. Sənaye mərkəzləri respublikanın digər qruplardan olan şəhərləri ilə sıx istehsal-iqtisadi, mədəni, ticarət-təchizat əlaqələrinə malikdirlər. Bakı və Sumqayıtla respublikanin rayonları arasında sıx istehsal əlaqələri mövcuddur.

İqtisadi-coğrafi, nəqliyyat xidməti baxımından ~~Azərbaycanın bütün~~ şəhərləri əlverişli mövqedə, magistral yollar üstündə, ya da onlara yaxın ərazidə yerləşir. Bununla belə, aran zonalarında yerləşən bir çox şəhərlərin yay aylarında sudan korluq çəkməsi əhalinin həyat səviyyəsinə neqativ təsir edir.

Azərbaycan Respublikasının təbii şərati, əlverişli iqtisadi-coğrafi mövqeyə və ərazisinin 60 faizə qədərinin dağlıq, dağ ətəyi yerlərə malik olması kurort, rekreasiya, balneoloji əhəmiyyətli şəhərlərin formalaşmasına səbəb olmuşdur. Abşeron yaramadasının iqlim-kurort əhəmiyyətli Mərdəkan, Şüvəlan, Buzovna, Bilgəh, Pirşağı ŞTQ-ləri, Qusar, Şamaxı, Hacıkənd, Qax (*İlisu*), Kəlbəcər (*İstisu qəsəbəsi*) rayonları meşələrini, Astara rayonunun müalicə-mineral bulaqlarını, Naxçıvandakı Şahbuz, Badamlı kurort-rekreasiya məntəqələrini, iqlim-kurort şəhəri olan Şuşanı, Şəkini, Astaranı, Lənkəranı və s. göstərmək olar.

Beynəlxalq əhəmiyyətli Naftalan nefti palçıqla müalicə sahəsində dünyada oxşarı olmayan müəssisədir. İnzibati mövqeyə malik olan şəhərlər rayon mərkəzləri iqtisadi-sosial baxımdan geniş fəaliyyətə malikdir. Bu qrupa daxil olan şə-

hərlərdə yerli kənd təsərrüfat məhsullarını emal edən sənaye müəssisələri, konserv zavodları, yağ-pendir emalı müəssisələri, şərab zavodları müxtəlif məhsullar buraxan yüngül sənaye müəssisələri, bəzilərində isə maşınqayırma, tikinti materialları və digər sənaye sahələrinə aid olan obyektlər vardır. Bu şəhərlərin bir çoxu nisbətən yaxın zamanlarda şəhər adı aldıqlarına görə müvafiq həyat tərzi xüsusiyyətlərini saxlamaqdadır.

Azərbaycan şəhərlərinin funksional tipləri kecici xarakter daşıyır. Məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılı olaraq onların ümumi təsnifat cədvəlində tutduqları yer daim dəyişmiş və gələcəkdə də bu proses davam edə bilər.

Müasir dövrdə şəhərlərin coğrafiyasının tədqiqatı əsasında küllü miqdarda materiallar toplanmış və elmi araşdırmalar aparılmışdır. Həmin istiqamətdə şəhərlərin iqtisadi, sosial elmi-texniki vəziyyəti və onlaran tərkibləri haqqında araşdırmaların genişləndirilməsi zəruri hesab edilir.

Şəhər və ŞTQ-lərin funksional və inkişaf xarakteristikasının müəyyən edilməsi məqsədilə iqtisadi – coğrafi amillərin və onların arasındakı əlaqələrin araşdırılması zəruridir. Məşhur coğrafiyaşunas N.N.Baranskiyə görə, şəhərlər yerləşdiyi ərazi fokusunun əhatə etdiyi rayonlardan seçmə (*fərqlərinə*) mövqedə olduğunu əks etdirir. Şəhərlərin özünəməxsus sisteminin öyrənilməsi, yerləşdiyi ərazidə iqtisadi-coğrafi xüsusiyyətləri, onların arasındakı fərqlərin dərindən öyrənilməsini, elmi araşdırılmasını tələb edir, belə halda rayonun özünəməxsus ərazi, təbii xüsusiyyətlərinin əks etdirilməsi zəruri hesab edilir. Bununla əlaqədar ümumiləşmiş elmi əsas kimi şəhərlərin tipologiyası geniş əhatəlidir. Buna görə məsələnin metodoloji əhəmiyyəti, «təsnifatının» və tipologiyasının araşdırılması məqsədyönlü tədbirdir.

Bizə elə gəlir ki, hər hansı məsələnin elmi, praktiki baxımdan hərtərəfli araşdırılmasına keçməzdən əvvəl bu sahədə işlədilən terminin məzmununu izah etmək yerinə düşərdi. Bununla əlaqədar nəzərə almaq lazımdır ki, hər hansı elmin,

o cümlədən coğrafiya elminin dəqiq sərhədi yoxdur və bu dialektik məntiqi baxımdan obyektiv prosesdir. Bu sahədə aparılan elmi tədqiqatlar daima inkişafdadır, təkmilləşir, nəzəri, təcrübi məlumatlarla terminoloji, metodoloji yeniliklərlə zənginləşməkdə davam edir.

Müasir coğrafiya elmində şəhərlərin təsnifatı və tipoloji xüsusiyyəti məntiqi kateqoriya kimi qəbul edilir və bunun əsasında yaşayış məntəqələri xüsusi qruplara ayrılır. Bunlar mövcud şəhərlərin inkişafının obyektiv və subyektiv səbəblərini əks etdirir, bir sıra təsnifat qruplarında müasir ərazi üçün daha xarakterik olan əlamətləri ortaya çıxarır.

Şəhərlərin təsnifatı və tipologiyasının tədqiqatı iqtisadi coğrafiyanın elmi təlimidir. Bu təlim şəhər fərqlərinin formalaşmasının qanunauyğunluqlarını əks etdirir. Buna görə coğrafi ədəbiyyatlarda «təsnifat» və «tipologiya» adətən bir-biri ilə yanaşı işlədilir. Lakin deyildiyi kimi, məzmun etibarilə «təsnifat» «tipologiyadan» ayrılır. Birinci halda təsnifatı əmələ gətirən iqtisadi, sosial, təbii əlaqələr, ikinci halda yaranma və fəaliyyətinə görə bir-birindən fərqlənən şəhər tipləri iştirak edir.

Görkəmli coğrafiyaşunas, E.B.Alayev qeyd edir ki, bir ictimai formasiyadan başqasına keçmək üçün təsnifatın aparılmasında müəyyən kəmiyyət sərhədlərini açmaq lazımdır. Tipologiyada bir tipdən başqa tipə keçmək üçün şəhərdə baş verən hadisələrin funksiyasını öyrənməklə, onların mahiyyətinin yenidən qurulmasını və dəyişdirilməsini tələb edir. Beləliklə, təsnifat əsas etibariilə kəmiyyət fərqini, tipologiya isə keyfiyyət fərqini əks etdirir[1].

Biz belə hesab edirik ki, şəhərin kəmiyyət, keyfiyyət göstəriciləri və onların zaman məkan daxilində dəyişilməsi qarşılıqlıdır.

Buradan belə nəticə çıxır ki, şəhərlərin təsnifatı və tipologiyası onların şəbəkəsinin təhlilində iki müxtəlif metod

---

[1] Алаев Э.Б. Социально-экономическая география. Понятийный терминологический словарь. Москва. Мысль. 1983.

deyil, bir vahidin sistemləşdirilməsində aşağı mərhələdə durur. Bunu tipologiya zəmininin birinci mərhələsi kimi qəbul etmək olar. Məsələn, şəhər əhalisinin sayına görə qruplara ayrılır və buna uyğun onların təsnifatı aparılır. Tipologiya isə şəhərlərin sistemləşdirilməsinin yüksək və mürəkkəb səviyyəsidir. Coğrafiya elmində tipologiya iki əsas vəzifəni yerinə yetirir:

– Birinci, tədqiqata məruz qalan obyektlər əsasən şəhərlərin sistemləşdirilməsində iştirak edir;

– İkinci, mühüm evristika (*nəzəri tədqiqatın məntiqi və metodiki üsullar sistemi*) funksiyasını yerinə yetirməklə tədqiq olunan obyektlər arasında bu vaxta qədər məlum olmayan fərqlər ortaya çıxır, ərazi sistemində onların qanunauyğunluqlarını müəyyən edir, nəzəri və praktiki baxımdan təhlil edilmiş şəhərlər arasında əlaqələri, əlamətləri şərh etməklə ümumi hipotezlərin nəzəriyyəsinin məzmunu formalaşır. O mənada qeyd etmək lazımdır ki, şəhərlərin tipologiyasına həsr edilmiş əsərlərdə, məqalələrdə adları çəkilən funksiyalardan ikincisi (*evristika*) haqqında məlumat verilir.

Elmi və nəzəri baxımdan şəhərlərin funksional genetik mənşəli tipologiyasını araşdıran bir sıra görkəmli mütəxəssislər son nəticədə tiplərə görə şəhərlərin ərazi üzrə yerləşməsi qanunauyğunluğunu verərkən onların tipoloji əsasını yaddan çıxarırlar.

Yerləşməsinə, ixtisaslaşmasına və funksiyasına görə şəhərlərin tiplərə ayrılması geniş informasiya məlumatlarının toplanmasını və ümumiləşdirilməsini tələb edən mühüm vasitədir. V.V. Pokşişevskinin qeyd etdiyi kimi, tipoloji yanaşma xüsusilə o vaxt qiymətlidir ki, informasiya məlumatları dürüstləşmiş mənbələrdən alınsın, bunun əsasında onların təhlilindən əldə edilən kifayət qədər mərkəzləşmiş, etibarlı diaqnoz səciyyəli nəticələr əldə edilsin[1].

Məskunlaşma problemlərinin tədqiqatı ilə məşqul olan

---

[1] Покшишевский В.В. Население и география. Географические очерки Москва, «Мысль», 1978.

coğrafiyaşünaslar tərəfindən sistemləşdirilən, onları nizama salan kütləvi materialların səmərəli nəticəsi bununla ifadə edilir. Bu mənada şəhərlərin tipologiyası coğrafiyaşünasların diqqətini daima cəlb edir.

Coğrafiyaşünasların belə marağı köklü surətdə qanunauyğundur. Bu məsələlərə öz münasibətini bildirən məşhur iqtisadi coğrafiyaşünas S.A.Kovalyov yazır: «Hər hansı ölkənin əsas məhsuldar qüvvəsi olan əhalinin yerləşməsi xalq təsərrüfat funksiyasına və zahiri görünüşünə görə bir-birilə əlaqəli yaşayış məntəqələrinin xəritəyə köçürülmüş məcmusunu ifadə edir[1].»

Tarixən formalaşmış və fasiləsiz inkişafda olan belə mürəkkəb sistemi – şəhər yaşayış məntəqələrinin müxtəlifliyi, onların yerləşməsinin araşdırılması bu və ya digər təsiredici əlamətlərin məskunlaşmadakı əhəmiyyətinin açıqlanması, müxtəlif tarixi coğrafi şəraitdə onların inkişafı səbəblərinin ortaya çıxarılması, müvafiq amillər, informasiya materiallarının təhlili ilə mümkündür.

Şəhəri, şəhər tipli qəsəbələri, kənd yaşayış məntəqələrini öyrənmədən ölkə əhalisinin mədəni, intellektual, mənəvi siması haqqında fikir söyləmək olmaz. S.A.Kovalyovun dediyi kimi, bununla əlaqədar coğrafiyaşünasların yaşayış məntəqələrinin tipologiyasına verdiyi tərif tam qanunauyğundur.

Mütərəqqi mənada şəhərlər mədəni, intellektual təmayüldə yaşayış məntəqələri mövcudluğunun ifadəsidir və məskunlaşma sistemi elementlərinin hamısı səmərəli təsirgöstərmə qabiliyyətinə malikdir. Buna görə şəhərlərin inkişaf qanunauyğunluqlarının öyrənilməsi, zəruri hallarda elmi tədqiqatlar aparılması, ölkənin inkişaf səviyyəsindən, urbanizasiya vəziyyətindən asılı olaraq bütün məskunlaşma sisteminin təkmilləşdirilməsi zəruriliyini qarşıda qoyur.

Qeyd etmək lazımdır ki, şəhərlərdən əlavə məskunlaşma anlayışına başqa yaşayış məntəqələrini da daxil etmək olar.

---

[1] Ковалев С.А.Ковальская Н.Я., География населения. Москва, 1980.

Bunların idarə edilməsini, təqdimat elementlərinin öyrənilməsini zəruri hesab edirik. Lakin onların hamısının daxilində şəhərlər xüsusi yer tutur. N.N. Baranski qeyd etmişdir ki, «iqtisadi-coğrafi baxımdan şəhərlər, üstəgəl yol şəbəkəsi karkas təşkil edir ki, bu da ərazini formalaşdıran və ona konfiqurasiya verən nə varsa hamısı onların üstündə qurulur. Təsərrüfat, sənaye, mədəni cəhətdən mühüm rol oyna-yan şəhərlər ölkənin yaradacı, fəaliyyətverici prosesinin tərkib hissəsidir[1].

Bu baxımdan Azərbaycanda şəhərlər iqtisadi, ixtisaslaşma, tipoloji, siyasi, idarəetmə cəhətdən müxtəlif təmayüllüdür. Onların hərəsinə mənsub vəzifəsi və ərazi cəlbedici qüvvəsi vardır. Onlar istər respublika daxilində, istərsə də əhatə etdikləri ətraf rayonlarda istehsal təminatı, iqtisadi, əhaliyə xidmət sahəsi üzrə və ərazi istehsal bölgüsündə müxtəlif funksiyaları yerinə yetirir. Azərbaycan şəhərlərinin funksional genetik tipləri haqqında 15-ci cədvəldə məlumat veririk.

Ən əsas təsir xüsusiyyətlərini ortaya çıxaran şəhər tipologiyası nəinki təcrübəvi, eləcə də tədris-metodiki cəhətdən böyük əhəmiyyətə malikdir. O, ayrı-ayrı respublikaların, ölkə iqtisadiyyatının; iqtisadi-coğrafi səciyyəsinin, əhalinin xeyli hissəsinin özünəməxsus məskunlaşmanın xüsusiyyətlərini ortaya çıxarır, tədqiqat prosesində şəhərlərin öyrənilməsini asanlaşdırır.

Şəhərlərin təsnifləşdirilməsinin və tipologiyasının əsas məqsədlərindən biri də əhali məskunlaşmasının, urbanizasiya qanunauyğunluqlarının dərk edilməsinin elmi, təcrübi cəhətdən araşdırılmasıdır. Şəhərlərin tipologiyası insanların yaşayış mühitinin formalaşmasının elmi əsaslandırılmasında, müxtəlif iqtisadi, sosial problemlərin yerinə yetirilməsində əməyə, maliyyə vəsaitlərinə, materiallara qənaət edilməsində, ayrı-ayrı şəhərlərdə məhsuldar qüvvələrin yerləşdirilməsində, məskunlaşma sisteminin təkmilləşdirilməsində mühüm vasitədir.

---

[1] Баранский Н.Н. Научные принципы география. Москва, 1980.

**Azərbaycan Respublikası şəhərlərinin funksional-genetik tipləri (2000-ci ilin səviyyəsinə görə)**

Cədvəl 15

| Funksional tiplər | Şəhərlərin adı | Genetik tiplər | Əhalinin sayı (min nəfər) | İstehsal sahələri | Qeyri-istehsal sahələri |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1. Ən inkişaf etmiş polifunksional şəhərlər | Bakı | A | 1788,9 | Maşınqayırma, neft-qazçıxarma, neft-qaz emalı, təmir-texniki, tikinti sənayesi, yüngül, yeyinti sənayesi, elektroenergetika, nəqliyyat. | İnzibati, siyasi, mədəni-maarif, ticarət, elm, səhiyyə. |
| 2. Sənaye şəhərləri | Naxçıvan | A | 63,2 | Yeyinti və yüngül sənaye, nəqliyyat, elektroenergetika, tikinti sənayesi. | İnzibati, mədəni-maarif, ticarət. |
| | Gəncə | A | 299,8 | Yüngül, yeyinti metallurgiya, maşınqayırma, nəqliyyat | Mədəni-maarif, ticarət, elm, səhiyyə. |
| | Sumqayıt | Q | 283,2 | Kimya, metallurgiya, yüngül sənaye | Mədəni-maarif, səhiyyə, elm, nəqliyyat. |
| | Mingəçevir | Q | 97,0 | Maşınqayırma, yüngül, energetika, kimya, yeyinti sənayesi, tikinti kompleksi. | Mədəni-maarif. |
| | Şəki | B | 61,4 | Yeyinti və yüngül sənaye. | Mədəni-maarif. |
| | Əli-Bayramlı | Q | 61,4 | Maşınqayırma, neftçıxarma, elektroenerji, yeyinti sənayesi, nəqliyyat qovşağı. | Mədəni-maarif. |
| | Xankəndi | D | 54,5 | Yüngül, yeyinti, maşınqayırma sənayesi, tikinti kompleksi. | Mədəni-maarif. |
| | Siyəzən | Q | 54,5 | Neftçıxarma, qaz emalı, yeyinti, kənd təsərrüfatı. | Mədəni-maarif. |

**Cədvəlin ardı**

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | Ağdərə | D | 8,8 | Yeyinti, meşə sənayesi. | Mədəni-maarif. |
| | Xudat | D | 13,0 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | Mədəni-maarif. |
| 3. Qarışıq şəhərlər | Göytəpə | D | 9,1 | Maşınqayırma, metal emalı, kənd təsərrüfatı. | Mədəni-maarif, səhiyyə, elm, nəqliyyat. |
| | Liman şəhəri | D | 93,0 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | Mədəni-maarif. |
| | Xocavənd | D | 13,0 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | Mədəni-maarif. |
| 4. Kurort şəhərləri | Naftalan | Q | 7,5 | Bioenerji –kurort yeyinti, rekreasiya. | Mədəni-maarif. |
| | Hacıkənd | | | Kurort, rekreasiya, iqlim, boleoloji. | Mədəni-maarif. |
| 5.İnzibati şəhərlər | Ağdam | B | 7,2 | Yüngül və yeyinti sənayeləri, maşınqayırma. | İnzibati, mədəni-maarif. |
| | Ağdaş | B | 22,5 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Ağcabədi | D | 33,7 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı | İnzibati, mədəni-maarif. |
| | Ağstafa | D | 11,9 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | Mədəni-maarif, səhiyyə, elm, nəqliyyat. |
| | Ağsu | D | 16,25 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Astara | D | 4,4 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Bərdə | A | 5,9 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Beyləqan | D | 13,9 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Biləsuvar | D | 17,3 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Qazıməmməd | D | 22,0 | Yüngül sənaye, nəqliyyat, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Qəbələ | B | 11,2 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Göyçay | V | 48,0 | Yüngül və yeyinti sənayeləri, nəqliyyat. | İnzibati, mədəni-maarif. |
| | Goranboy | D | 7,1 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Cəbrayıl | D | 7,5 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Dəvəçi | D | 20,3 | Neft, qazçıxarma, yeyinti sənayeləri, kənd təsərrüfatı | İnzibati, mədəni maarif |

Cədvəlin ardı

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | Yevlax | D | 52,0 | Yüngül və yeyinti sənayeləri, nəqliyyat. | İnzibati, mədəni-maarif. |
| | Zaqatala | D | 13,2 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Zəngilan | D | 13,2 | Yüngül sənaye, nəqliyyat, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Zərdab | D | 9,9 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | İmişli | D | 30,7 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | İsmayıllı | D | 13,1 | Yeyinti sənayesi, meşə və ağac emalı sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Qazax | V | 18,8 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Qax | D | 11,2 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Gədəbəy | D | 2,4 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Kəlbəcər | D | 8,0 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Qubadlı | D | 6,5 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Quba | V | 22,0 | Yüngül və yeyinti sənayeləri, elektrotexnika, aqrosənaye. | İnzibati, mədəni-maarif. |
| | Qusar | D | 15,5 | Yüngül və yeyinti sənayeləri, kurort, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Kürdəmir | D | 17,6 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Laçın | D | 10,8 | Yeyinti sənayesi, kənd təsərrüfatı, kurort. | İnzibati, mədəni-maarif. |
| | Lənkəran | D | 48,1 | Yeyinti sənayesi, meşə və ağac emalı sənayesi, aqrosənaye. | İnzibati, mədəni-maarif. |
| | Masallı | D | 9,3 | Yeyinti sənayesi, kənd təsərrüfatı . | İnzibati, mədəni-maarif. |
| | Tərtər | D | 17,9 | Yüngül və yeyinti sənayeləri, elektrotexnika, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Neftçala | Q | 17,8 | Kimya sənayesi, yüngül sənaye, balıq emalı. | İnzibati, mədəni-maarif. |
| | Oğuz | D | 6,4 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Ordubad | D | 9,8 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |

**Cədvəlin ardı**

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| | Saatlı | D | 16,4 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Sabirabad | D | 27,3 | Yüngül və yeyinti sənayeləri, kənd təsərrüfatı, tikinti sənayesi. | İnzibati, mədəni-maarif. |
| | Salyan | V | 39,3 | Yüngül, maşınqayırma, yeyinti sənayesi. | İnzibati, mədəni-maarif. |
| | Tovuz | D | 12,8 | Yüngül və yeyinti sənayeləri, aqrosənaye. | İnzibati, mədəni-maarif. |
| | Ucar | D | 15,5 | Yüngül və yeyinti sənayeləri, nəqliyyat. | İnzibati, mədəni-maarif. |
| | Fizuli | V | 24,8 | Yeyinti sənayesi, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Xanlar | D | 17,5 | Yeyinti sənayesi, maşın və metal emalı, aqrosənaye. | İnzibati, mədəni-maarif. |
| | Xaçmaz | D | 35,1 | Yüngül sənaye, aqrosənaye. | İnzibati, mədəni-maarif. |
| | Xocalı | D | 6,6 | Yüngül sənaye, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Culfa | D | 10,1 | Kənd təsərrüfatı, nəqliyyat, yeyinti, sənayesi. | İnzibati, mədəni-maarif. |
| | Şəmkir | V | 34,6 | Yeyinti sənayesi, aqrosənaye. | İnzibati, mədəni-maarif. |
| | Şamaxı | B | 27,5 | Kurort, yeyinti sənayesi, aqrosənaye. | İnzibati, mədəni-maarif. |
| | Şərur | D | 6,5 | Yeyinti sənayesi, inşaat materialları, kənd təsərrüfatı. | İnzibati, mədəni-maarif. |
| | Şuşa | B | 6,8 | Yüngül sənaye, kurort. | İnzibati, mədəni-maarif. |

Şəhərin tipologiya qurumu çoxcəhətli funksiyanı yerinə yetirən, məskunlaşmanın, şəhərlərin sistemləşdirilməsi və onlara «vahid» nəzərsalma məntəqəsi kimi baxılmasını tələb edir. Şəhərlərin funksiyaları tipologiyasının düzgün təyini üçün şəhər məfhumuna hansı komponentlərin daxil edilməsini aydınlaşdırmaq məsələsini ortaya çıxarır.

Şəhərin tədqiqatı proseslərində funksional xidmətinə daxil olan aşağıdakı amillərin araşdırılması zəruridir: a) əhalinin, əmək ehtiyatlarının miqdarı və istifadə edilməsi; b) şəhəri formalaşdıran kompleks, aqlomerasiya infrastruktur səviyyəsi; c) yuxarıdakı amillərin qarşılıqlı əlaqəsi.

Fəlsəfi termin kimi qəbul etsək, demək olar ki, şəhər özünəməxsus «forma» və «məzmundan» ibarətdir. Şəhərin «forması» onun ərazisini təşkil edən tikintilərin, yeraltı, yerüstü kommunikasiya yollarının ifadəsidir. Burada daima hərəkətdə olan urbanizasiya səviyyəsi, iqtisadi, sosial inkişaf müəyyən, dəyişkənliyə məruz qalan taksonomik vahidlikdə fəaliyyət göstərir.

Yuxarıda deyildiyi kimi, yaşayış məntəqəsi kimi şəhəri əmələ gətirən üç elementin məzmunu aşağıdakı göstəricilərdən ibarətdir. Şəhər əhalisinə coğrafi mühitdə tədqiqat predmeti kimi müəyyən nöqteyi-nəzərdən baxılmalıdır.

Burada tədqiqatın mürəkkəbliyi şəhərin yaratdığı və istifadə etdiyi maddi forma ilə əhali arasında qarşılıqlı əlaqələrin seçilməsində və onların şərh edilməsindədir.

Şəhər sakinlərinin sayı yaş, cins baxımından, sosial-iqtisadi coğrafiyanin və demoqrafiyanın tədqiqat predmetini təşkil edir. Lakin şəhərlərin coğrafiyası məskunlaşma və infrastrukturla əlaqədar ayrı-ayrı məsələlərin tədqiqatı ilə məhdudlaşır. Onların arasında başlıca rolu xalq təsərrüfatının müxtəlif bölmələrində əhali məşğulluğu oynayır.

Şəhərin sosial, iqtisadi həyatı onun inkişafının ilk bazisi olmaqla təyinedici amildir, ikincisi, şəhərin morfologiyasına təsir etməklə onun iqtisadi inkişaf formasında mövcud olan mühüm fərqlərin məcmusudur. Şəhər həyat fəaliyyətini idarə

edən mühüm tədbirlərin mahiyyətini yüksəltmək coğrafiyaşunaslardan iqtisadi, ictimai təsərrüfat amillərinin hesaba alınmasını və onların hərəsinin özünəməxsus əhəmiyyətini açıqlamağı tələb edir.

Ölkənin, regionun iqtisadi, sosial həyatında şəhərin tutduğu mövqeyi, eyni zamanda özünün iqtisadi, sosial inkişaf səviyyəsini müəyyən edir. Şəhər mühitində baş verən iqtisadi, sosial, mədəni, elmi inkişaf səbəblərinin nəzərə alınması rayonlararası, şəhərlərarası qarşılıqlı əlaqələrin öyrənilməsini tələb edir. Şəhərin məhəllələri, mikrorayonlar arasında nəzərə çarpan iqtisadi, sosial fərqlər ayrı-ayrı istehsalın, qeyri-istehsal sahələrinin, əhalinin yerləşməsindən irəli gəlir. Möhkəm maddi-texniki bazaya, intellektual səviyyəli əhaliyə, sənaye, nəqliyyat təmərküzləşməsinə, elmi potensiala malik olan şəhərlərdə göstərilən amillərə uyğun əmək qabiliyyətli əhali, işçi qüvvəsi formalaşır.

İstehsalın, xidmət sahələrinin, urbanizasiyanın inkişafı şəhərin müasir tələblərə uyğun formalaşmasında böyük əhəmiyyət kəsb edir. İstehsalın təmərküzləşməsi, urbanizasiya, şəhərin funksiyası, tipologiya təmayülünü müəyyən edən əsas bir sıra şərtləri birləşdirir. Bunlara məşgul əhalinin quruluşu, şəhərlərin funksiyası, məhsullar, kəmiyyət, keyfiyyət göstəriciləri, əhalinin sosial vəziyyəti və s. daxildir.

Qeyd etmək lazımdır ki, şəhər əhalisinin məşgulluq strukturu həmişə onun funksiyasını təyin etmir. Supermarketlərin, sair iri müəssisələrin yaranması ilə şəhərin ticarət şəbəkələri, bunlarda işləyən əhalinin sayı artır.

Bunlarla yanaşı, Azərbaycanın şəhərlərində, məsələn, Bakıda, Sumqayıtda, Gəncədə, Naxcıvanda göstərilən istiqamətdə çox işlər görülmüşdür.

Energetika mərkəzləri Əli-Bayramlıda, Mingəçevirdə, Şəmkirdə muasir dövrün tələbatına uyğun avtomatlaşdırılmış, mexanikləşdirilmiş böyük sənaye müəssisələrinin azlığı, şəhər funksiyasını zəiflədir, məşğul əhali quruluşunun qeyri-təkmilliyinə şərait yaradır. Buradan belə nəticə çıxarmaq olar ki, şəhərin funksional tipinin müəyyən edilməsində və

əhali məşğulluğunu mühüm amil kimi götürmək lazımdır. Əhalinin tələbatını ödəyən məhsulların idxal və ixracı da mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, şəhər funksiyası ilə əhali məşğulluğu arasında müəyyən qədər uyğunsuzluq yaranır ki, bunu da aşağıdakı sxemdə veririk.

Şəhərlərin səciyyəsi, tipologiyası, quruluşunun şərhi üçün onların funksiyası ilə əhalinin sosial vəziyyətinin əks etdirilməsi zəruridir. Belə tədqiqat əsasında məşğul olan əhali tərkibinin quruluşu ilə yanaşı sosial vəziyyətini vermək olar. Digər tərəfdən, şəhərin funksiyası və sosial xarakteristikası ilə sosial səmərə arasında mövcud balansın nizamlanması ortaya çıxır.

Qeyd etmək lazımdır ki, əhali məşğulluğunun şərhində tipologiyanın əsas elementlərindən biri də əmək qabiliyyətli əhalinin hansı məsafədən iş yerlərinə gedib-gəlməşilə əlaqədardır. Bu baxımdan respublikanın iri şəhərlərini üç qrupa bölmək olar:

a) mikrorayonlardan, şəhərətrafı qəsəbələrdən ibarət yaşayış və «Yataq yeri»;

b) «rəqqas miqrasiyası» ilə gedib-gələnləri işə qəbul edən istehsal-sənaye, əhaliyə xidmət göstərən mərkəz və ya rayon;

c) iri sənaye mərkəzlərindən uzaq yaşayış məntəqələri.

Belə tipologiya bu və ya digər şəhərdə xidmət sahələrinin, istehsalın, şəhərətrafı təsərrüfatın, nəqliyyatın səmərəli yerləşdirilməsindən və onların xidmətlərindən istifadə etmək üçün mühüm vasitə kimi qəbul edilir.

Şəhərlərin coğrafiyasının tədqiqat predmetinə texno-gen landşaftların mühüm hissəsi olan tikintilər, qurğular, kommunikasiyalar, yollar, su, neft, qaz kəmərləri, bir sözlə, sənayeləşmiş, texnikiləşmiş ərazi daxildir. Landşaftın texnogen elementi kimi şəhərin iqtisadi, sosial, ekoloji xarakteristikasını vermək iqtisadi, sosial coğrafiyanın tədqiqatının mühüm tərkib hissəsidir.




**Şəkil 4. Şəhərin funksiyasını müəyyən edən əlamətlər**

Şəhərin funksional xarakteri öz ifadəsini nəinki əhali məşğulluğunda, eləcə də onun yerləşdiyi ərazidəki binalardan, qurğulardan, torpaqdan istifadədə və şəhərətrafı təsərrüfatın inkişaf prosesində tapır. Şəhərin ümumi təsnifatının araşdırılmasında xüsusi olaraq morfoloji tipologiyanın verilməsi zəruridir. Belə araşdırma mühüm iqtisadi, sosial, ekoloji element kimi makro və mikro ərazi sistemində şəhərdaxili məskunlaşmanın rayonlaşdırılmasında mühüm vasitədir.

Qeyd etmək lazımdır ki, morfoloji və buna müvafiq tipoloji yanaşma nəinki şəhərlərdəki binaların, qurğuların muxtəlif növlərinə, eləcə də onların tədqiqatında qarşılıqlı əlaqələrdə baş verən antropogen və texnogen proseslərin təsirlərinə məruz qalmasına dair məsələlərin araşdırılmasında

mühüm rol oynayır.

Şəhərin funksional təmayüllü əhalisinin məskunlaşması, onun yerləşdiyi ərazinin coğrafi mövqeyi ilə sıx əlaqədardır. Mütəxəssislər belə hesab edirlər ki, şəhərlə onun yerləşdiyi ərazinin qarşılıqlı əlaqəsi bir-birilə ikili istiqamətdə fəaliyyətdədir: fiziki coğrafi və iqtisadi-coğrafi mövqeyi ilə. Bu baxımdan, şəhərləri müxtəlif qruplara ayırmaq və aşağıdakı fiziki-coğrafi mövqelərini qeyd etmək məqsədyönlüdür. Çay, göl və dəniz kənarlarında, dağ ətəyində, dağ yaylasında, meşə əhatəsində yerləşməyini şərh etmək, iqtisadi-coğrafi mövqeyə gəldikdə isə infrastruktur obyektlərə – dəmir yollarına, şose yollarına, dəniz və çay portlarına, sənaye mərkəzlərinə, sənaye xammalına, elektrik stansiyaları və enerji mənbələrinə yaxınlığın nəzərə alınması vacib şərtdir.

Beləliklə, şəhərin yerləşdiyi ərazidə onun fiziki, coğrafi vəziyyətilə yanaşı, iqtisadi əhəmiyyəti haqqında araşdırmaları da aparmaq zəruridir. Şəhərin yerləşdiyi təbii mühitin-relyefin, torpağın, su, yanacaq, enerji ehtiyatları, nəqliyyat, sənaye, iqtisadi, sosial əhəmiyyəti mühüm şərt kimi qəbul edilir.

Hər şəhər özünə məxsus tarixi inkişaf yolu keçmişdir. Qədim şəhərlərin formalaşması keçmişdə fəaliyyətdə olan iqtisadi, sosial amillərlə əlaqədardır. Şəhərin mənşəyi, tarixi mərhələlərdə inkişafı onun morfoloji, iqtisadi və fiziki-coğrafi mövqeyində əksini tapır. Bu mənada tarixi varislik bu və ya digər ərazidə şəhərlərin yetişməsində, inkişafında, funksiyasında müxtəliflik yaradan mühüm amildir.

Bütün şəhərlər iki məntəqə arasında fəaliyyətdədir: a) nqliyyat iqtisadi əlaqələrdə, ictimai əmək bölgüsündə zəif iştirak edənlər; b)yerinə yetirdiyi funksiyaya görə beynəlxalq əhəmiyyətli şəhərlər. İkinci qrup daxilində fəaliyyət göstərən Bakıdan başqa Azərbaycanın böyük və orta şəhərləri birinci qrupa aiddir.

Şəhərlər ərazi məskunlaşma sisteminin tərkib hissəsidir və onların tipalogiyasını bu nöqteyi-nəzərdən araşdırmaq

lazımdır. Bu yolla araşdırılan tipologiyada kənd yaşayış məntəqələri aqrosənaye əhatəsində olan şəhərlər ölkələrarası problemlərin həllindən təcrid olunmuş halda fəaliyyət göstərir. Belə təmayüllü tipologiya mürəkkəb şəbəkəli urbanizasiya hərəkətində böyük əhəmiyyətə malik olmaqla şəhər aqlomerasiyasının inkişafını nizamlayır.

Tipologiyanın belə aspektdə aparılması tədqiqatın bir hissəsidir. Şəhərlərin coğrafi aspektdə öyrənilməsinin mühüm hissəşini «mikrocoğrafi» tədqiqat təşkil etdiyindən tipologiyada onu əsas amil kimi qəbul etmək olar.

Burada vahid şəhər kompleksi ilə mərkəzi və peyk sistemli şəhərlər qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Mahiyyət etibarilə şəhərlərin «dərinliyinə» daxil olmaqla və onun ayrı-ayrı hissələri arasındakı əlaqələri ayırmaqla ərazi məskunlaşma sisteminin öyrənilməsi mühüm amildir. Nəhayət, şəhərlərin öyrənilməsində iqtisadi-coğrafi mövqeyin müxtəlifliyi onun amillərinin təsiri ilə əlaqədar tipologiyasının öyrənilməsi mühüm yer tutur.

Belə aspekt, yəni şəhərlərin İCM-nə görə inkişafı ilk dəfə N.N.Baranski tərəfindən öyrənilmişdir. O, bu anlayışa birinci olaraq şəhərin iqtisadi-coğrafi mövqeyini, ikincisi, onun bu və ya digər təbii sərvətə (*faydalı qazıntıya, meşə sərvətlərinə, torpaq örtüyünə, su ehtiyatına və s.*) olan yaxınlığı.

Hər hansı şəhər müəyyən İCM-də ictimai əmək bölgüsündə ərazi məskunlaşma sistemini idarə edir, formalaşdırır. Onun inkişafı müvafiq şəhərsalma funksiyası və İCM ilə əlaqədardır, digər tərəfdən, o, İCM-in təsirini müəyyən qədər dəyişdirir. Məsələn, iri yaşayış massivləri, yollar, müxtəlif kommunikasiyalar bir tərəfdən şəhərin təbii şəraitinə müəyyən qədər təsir edir, digər tərəfdən, onların təsirinə məruz qalır.

Eyni zamanda şəhərlər İCM-də elə bir xüsusiyyətə malikdir ki, təbii sərvətlərin, iqtisadi tərəqqinin, əmək qabiliyyətli əhalinin imkanlarından istifadə edir. Beləliklə, İCM daxilində şəhərlərin tipologiyasına ehtimal ki, xüsusi tipoloji

xətt kimi baxıla bilər.

Başqa tipoloji xətlər kimi İCM-də şəhərlərin tipologiyasının aparılması bir sıra iqtisadi, sosial məsələlərin araşdırılmasını tələb edir. Bu mənada ictimai əmək bölgüsündə nəqliyyat və iqtisadi əlaqələr xüsusi əhəmiyyətə malik olmaqla, coğrafi əmək bölgüsünün dayaq nöqtələri kimi qəbul edilir. Yollar, nəqliyyat vasitələri ilə birlikdə şəhərlər elə sıx əlaqədə inkişaf edir ki, ümumi kompleksdə bir-birini tamamlayır, iqtisadi, sosial prosesdə və şəhərin cazibəsində «rəqqas miqrasiyası» hərəkətini «idarə» edir.

Miqrasiya proseslərinin yük və sərnişin daşınmasındakı məcmusu, «fəaliyyəti»nin, şəhərin kopleks inkişafında mühüm rol oynayan nəqliyyatın İCM-də öyrənilməsi ona görə vacibdir ki, şəhərlərin formalaşması onun təsiri ilə əlaqədardır.

Nəqliyyat və yollar şəbəkəsi mühüm amil olduğu kimi də özünün ayrı-ayrı bölmələrinin müəyyən qarşılıqlı əlaqələrində «qapalı uzlaşma sistemindən» ibarətdir.

Buna görə İCM baxımından nəqliyyat şəbəkəsinin fəaliyyətinin elmi şərhi şəhər inkişafında iqtisadi, nəqliyyat əlaqələri arasındakı uzlaşmanı öyrənir. Burada o da nəzərə alınmalıdır ki, tədqiq olunan şəhər xüsusi nəqliyyat məcmusu fonunda şəhərdaxili və şəhərlərarası nəqliyyat vasitələrini – avtomobil, dəmir yolu, dəniz, boru-kəmər nəqliyyatının uzlaşma fəaliyyətini yaradan amilləri aşkar etsin.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, hər hansı şəhərin tipologiyası yalnız müəyyən tarixi mərhələyə şamil edilməklə aparılmalıdır. Şərti də olsa Azərbaycanda tarixi mərhələlər üzrə şəhərlərin inkişafını aşağıda olduğu kimi vermişik:

1. 1920-ci ildən, yəni Azərbaycanda Sovet hakimiyyəti qurulmasına qədər;
2. 1920-1940-cı illər arası dirçəlmə və inkişaf dövrü;
3. 1941-1960-cı illər – müharibə və ondan sonrakı bərpa illəri;
4. 1961-2000 sürətli inkişaf, şəhərsalmanın, urbaniza-

siyanın intensiv və mütərəqqi irəliləmə illəri;

Şəhərin funksional tipologiyası məsələlərinin şərhi nəzəri və praktiki əhəmiyyətə malikdir. Bunun zəruri olması bir daha ondan irəli gəlir ki, funksional ixtisaslaşma probleminin araşdırılmasında bunlar əsas amil kimi iştirak edir. Əsas funksiyaya görə bu və ya digər şəhərin özünəməxsus tipinin müəyyən edilməsi iqtisadi, sosial coğrafiyanın tərkib hissəsidir. Coğrafiyada geniş işlədilən «port şəhəri», «energetika şəhəri», «kurort şəhəri», «kimya şəhəri», «metallurgiya şəhəri» tiplərini buna misal göstərmək olar.

Funksiya özlüyündə fəlsəfi anlayışdır və o, şəhərin ictimai, iqtisadi orqanlarında (*müəyyən vəzifə daşıyan hissə ilə*) bir sırada qoyulur. Müəyyən qədər ixtira xarakteri daşıyan bu anlayış ilk dəfə 1891-ci ildə ədəbiyyata daxil edilmiş və indiyə qədər coğrafiyaşünaslar, urbanistlər bunu qəbul edirlər.

Şəhərlərin və sair şəhər tipli yaşayış məntəqələrinin təsnifatında əhalinin əmək ehtiyatlarının hesaba alınması ona görə mühüm şərt kimi qəbul edilir ki, bu, sadəcə olaraq, forma və statistik anlayış deyil, iqtisadi, sosial, demoqrafik, coğrafi əhəmiyyətli göstəricidir.

Buna coğrafi baxımdan yanaşarkən qeyd etmək lazımdır ki, hər hansı şəhər özünəməxsus cəlbedici zonaya malikdir, bu və ya digər ərazinin iqtisadi, sosial, mədəniyyət, ticarət mərkəzidir. Təbii ki, bunun da əhəmiyyəti şəhərin böyüklüyündən, iqtisadi, ictimai, sosial qurumda tutduğu vəziyyətdən asılıdır. Şəhər nə qədər çox əhaliyə, istehsal, ticarət, mədəni fəaliyyətə malik olarsa, sahəsi də, iqtisadi-sosial təsiri də o dərəcədə geniş olar. Şəhərlə onun əhatə etdiyi ərazinin qarşılıqlı əlaqəsi iqtisadi-coğrafi mövqeyin, iqtisadi əlaqələrin öyrənilməsində böyük əhəmiyyətə malikdir. Bu mənada şəhər və şəhər tipli yaşayış məntəqələrinin təsnifatının, iqtisadi-coğrafi baxımdan öyrənilməsi coğrafi tədqiqatın tərkib hissəsidir.

Əhalinin sayına görə şəhərlərin təsnifatı sosial, iqtisadi

vəziyyəti ilə urbanizasiya arasındakı fərqləri nəzərə alır. Əksəriyyət tədqiqatçılar tərəfindən qəbul olunmuş bu qayda ilə yanaşı coğrafiyaşunasların qarşısında duran bir vəzifə də şəhərlərin böyüklüyü ilə onların funksiyası arasındakı qarşılıqlı əlaqələrənin regionlar üzrə tədqiqat işlərinin davam etdirilməsidir.

Ərazisi Azərbaycan Respublikasından 211 dəfə geniş, şəhərləri ondan 103 dəfə (6500/63) çox olan müxtəlif təbii, iqtisadi şəraitdə yerləşən Rusiya Federasiyası şəhərin tipologiyasına, funksiyalarına görə nəhəng laboratoriyadır.

Şəhərsalma işlərinin müasir tələbata uyğun aparılmasında region fərqinin, urbanizasiya, təmərküzləşmə proseslərinin nəzərə alınması zəruridir. Lakin şəhərlərin təsnifatı və tipologiyasında vahid sxem qəbul edilməsi mümkün deyil, onların təsnifatında, tipologiyasında regionların xüsusiyyətinin nəzərə alınması tədqiqatın düzgün aparılmasını təmin edir. Şəhərlərin təsnifatını və tipologiyasını apararkən regionlar üzrə şəhər əhalisinin miqdarı, strukturu, əmək ehtiyatları nəzərə alınır.

Şəhərlərin tipi onlarda aparılan tikinti, abadlıq işləri, istehsalın ixtisaslaşması, əhali urbanizasiyası ilə əlaqədardır ki, bunlar ərazinin miqyasını, yük, nəqliyyatının işini tənzim edən mühüm amillərdir və burada məskunlaşma, urbanizasiya böyük rol oynayır. Bundan əlavə, urbaniləşmiş ərazinin iqtisadi, ictimai, sosial mövqeyi «rəqqas miqrasiyası»nın axınına şərait yaradan, onu idarə edən mühüm amildir. Ərazinin genişliyindən, nəqliyyatın hərəkətindən asılı olaraq sakinlərin şəhərdaxili və şəhərətrafı hərəkətində vaxt sərfinin nəzərə alınması iqtisadi, sosial inkişafda mühüm amildir.

Şəhərlərin böyüklüyü ilə iqtisadi təsir, ərazi, əmək bölgüsündəki yeri, xalq təsərrüfat kompleksində tutduqları mövqeyi, şəhərin funksiyasının formalaşması və idarə edilməsi iqtisadi amillər kimi çıxış edir. Tipologiya, təsnifat baxımından respublika şəhərlərini 16-cı cədvəldə verilən qruplara ayırmağı məqsədyönlü hesab edirik.

**Azərbaycan Respublikası ərazisinin əhali məskunlaşmasına görə zonalaşdırılması (*şəhərsalma kompleks şəraitinə*)**

**Cədvəl 16**

| Ərazi qrupu | Şəhərsalma kompleksində ərazinin əlverişlilik vəziyyəti | Zonalar |
|---|---|---|
| I. | Ən əlverişli | Gəncə, Qazax, Quba Xacmaz, Abşeron |
| II. | Əlverişli | Naxçıvan, Mil-Qarabağ, Şirvan, Muğan-Salyan, Araz sahili, Lənkəran-Astara, Şamaxı-İsmayıllı |
| III. | Nisbətən əlverişli | Şəki-Zaqatala, Yüksək, orta dağ zonaları, Xızı-Altıağac, Laçın-Kərbəcər və s. |

Paytaxt və iri şəhərlərə gəldikdə onlar genişmiqyaslı idarəetmə təşkilatı və özünəməxsus xususiyyətlərə malikdir. Paytaxtın ümümdövlət (*respublika*) əmək bölgüsü sistemində tutduğu mövqeyi, rolu, ona məxsus olan idarəetmə infrastruktur vəzifəsinin təkmilləşdirilməsi fəaliyyətinin müasir tələblər səviyyəsində davam etdirilməsindən ibarətdir.

Bu problemin xarici tərəfi ilə yanaşı, ölkənin xalq təsərrüfat sistemində qarşılıqlı əlaqəsinin nizama salınması paytaxtın təsərrüfat strukturunun təkmilləşdirilməsinin mühüm obyektidir. Şəhərdaxili ziddiyyətlərin və müvəffəqiyyətlərin balanslaşdırılması (*uzlaşdırılması*) əsasında xalq təsərrüfat elementləri ilə onların arasında optimallaşdırma mövcuddur.

Mürəkkəb sosial-iqtisadi qurum kimi paytaxt şəhəri polistruktur sistemə malikdir. Elmi-konstruktiv mövqey baxımından iqtisadi, sosial, xidmət, istehsal, qeyri-istehsal sahələri arasında müvazinət yaradılmasında şəhər mühüm obyektdir. Bu sahədə mövcud imkanlardan istifadə edilməsində, müvafiq tədbirlərin həyata keçirilməsində vahid pay-

taxt kompleksində bir-birindən fərqlənən iki-funksional-sahəvi və ərazi proeksiyasına ayrılır.

Şəhərin kompleks öyrənilməsində bu strukturın müqayisəsi və dinamik inkişafı elmi-texniki tərəqqinin təsiri şəraitində paytaxtın fəaliyyət mexanizminin, onun idarə edilməsinin əsasıdır. Praktiki əhəmiyyətə malik olan bu tədbir iqtisadi-sosial problemlərin həyata keçirilməsinə yardım edir..

Paytaxt şəhərin fəaliyyəti bütöv sistem kimi onunla ölkə arasında daxili və xarici əlaqələrdən asılıdır. Ən mühüm və aktual məsələ struktur inkişafı baxımından şəhərin özünün çoxvəzifəli bütövlüyə malik olma şəraitində mühüm obyekt kimi fəaliyyətdədir. Şəhərlər mühüm xalq təsərrüfat əhəmiyyətinə malik olmaqla elmi-tədqiqat işlərinin yerinə yetirilməsində istehsal, qeyri-istehsal komponentləri və perspektiv inkişaf arasındakı münasibətdə ictimai, sosial əlaqələrin yaradılmasını idarə edir, ona şərait yaradır.

Burada müxtəlif və kompleks sosial-iqtisadi qurum mürəkkəb sistem kimi fəaliyyət göstərir. Bu mənada onun tədqiqinə başlayarkən əvvəlcədən şəhərin strukturunu müəyyən edən kompleks sistemin özünəməxsus xüsusiyyətini müəyyənləşdirmək lazımdır.

Tədqiqatın qarşısında duran ən zəruri məsələlərdən biri ölkənin (*respublikanın*) muasir inkişafına, struktur elementinə göstərdiyi «tarixi» təsir mühitində, paytaxt şəhərlərinə xas olan əlamətlərdən biri kimi iqtisadi sistemdə kompleks inkişafı təmin edən mühüm parametrlərin öyrənilməsidir.

Digər əlamətlərdən biri şəhərin gələcək inkişafında, onun istehsal, əhali, nəqliyyat quruluşunda əvvəlcədən görünməyən və nəzərə alınmayan amillərin ortaya çıxarılması və paytaxtın onları qəbul etmə bacarığıdır. Bütün sosial-iqtisadi sistemlər üçün mütləq zəruri olan ən mühüm əlamət geteronik, yəni iqtisadi – sosial, demoqrafik quruluşun müxtəlifliyidir.

Onların hərəsinin öz xususiyyəti, funksional sistemi şəraitində ümumi məqsəd urbanizasiya ilə istehsalın əlaqəli

təmərküzləşməsidir. Yuxarıda deyilən göstəricilər obyektiv proses olmaqla paytaxtın kompleks inkişaf qurumuna şərait yaradan inteqral amil kimi çıxış edir.

Lakin vahid status sistemində nəzərə çarpan ümumi əlamət fərdiləşmiş, xususiləşdirilmiş qrup fəaliyyəti ilə bəzən barışmaz mövqedə durur. Paytaxt şəhərində nəzərə çarpan bu amillər müxtəlif fəaliyyət təməyüllü olmaqla onun formalaşmasına, iqtisadi-sosial xidmət sferalarının inkişafına çoxşaxəli təsir göstərir, burada xarici və daxili təsirlər də özünü ğöstərir.

Birinci halda elementlərin transformasiyası və şəhər sisteminin əlaqəsi xarici mühitin dəyişməsindən, ikinci halda onun özünün inkişafından irəli gəlir. Tarixi-coğrafi və sosial - iqtisadi şəraitdən asılı olaraq ümumi və fərdiləşmiş amillərin bir- birinə olan münasiblərindən uyğun nəticə ortaya çıxır.

Hər hansı şəhər sistemi kimi paytaxt bir-birilə vahid əlaqədə olan ərazi tərkibində fəaliyyət göstərən üç yarım sistemdən ibarətdir: 1) əhali; 2) maddi və istehsal; 3) infrastruktur.

Məlumdur ki, ölkənin mikrosistem çərçivəsində yarım sistem adlanan hər bir element bir-birindən fərqli fəaliyyət göstərir.

Birinci halda göstərilən yarımsistemlərin fəaliyyətini özündə birləşdirən paytaxt ilk növbədə iri yaşayış məntəqəsi, ikinci halda iqtisadi mərkəz, üçüncü halda- ekoloji tənəzzül meydanıdır.

Ərazi vahidliyi nöqteyi-nəzərindən göstərilən amillərin hər birinin ayrılıqda fəaliyyəti şəhərin inkişafına təsir edir. Paytaxt, məskunlaşma mərkəzi kimi urbanizasiya şəraitində insanların istehsal yaradıcı fəaliyyətini ifadə edir, ərazi-istehsal infrastruktur kimi çıxış edir.

Burada, yarımsistemlərin iqtisadi, sosial inkişafı, ümumsistem qanunauyğunluğuna tabe olmaqla özünə məxsus daxili inkişaf proseslərini hərəkətə gətirir. Lakin idarəetmə sisteminə yalnız bir-birilə qarşılıqlı əlaqəli prosesdə

fəaliyyətini saxlayır, ərazi daxilində onu idarə edir.

Göstərilən prosesin fəaliyyəti iqtisadi, sosial əlaqələrin inkişafında, xarici və daxili dəyişmələrdə, şəhər problemlərinin həllində mühüm rol oynayır.

Bunlara xas olan əsas əlamət ondan ibarətdir ki, məkan və zaman daxilində şəhərlər iqtisadi, sosial, demoqrafik dəyişkənliyə məruz qalır. Bu da obyektiv olaraq onların kompleks fəaliyyətindən, təmayülündən, mövcud olan sahələrarası diferensial münasibət və əlaqələrdən irəli gəlir. Paytaxt şəraitində təsərrüfat fəaliyyətinin, daxili xarici əlaqələrin təkmilləşdirilməsi istehsalın idarəemə sistemindən, maddi-texniki və sosial təminatdan asılı olur.

Belə olduqda paytaxt-şəhər və onu əhatə edən mühit qarşılıqlı təsərrüfat, sosial əlaqələrdə müvafiq mədəni-iqtisadi-coğrafi mövqedən çıxış edir. Lakin statistik məlumatların kasadlığı və qeyri-ardıcıllıgı yuxarıdakı amillərin təsirini bir qədər zəiflədir. Qeyd edək ki, belə vəziyyətdə qəbul ediləsi ən sərfəli metod müasir tələbata cavab verən məlumatlardan istifadə etməklə şəhərin iqtisadi, sosial, ekoloji vəziyyətinin araşdırılmasıdır. Burada alınan nəticənin müvafiq sahələrə şamil edilməsi, istehsal və qeyri-istehsal sahələrarası əlaqələrin səmərəli aparılması üçün zəruri amil kimi qəbul edilə bilər.

Məlumdur ki, paytaxtın istehsal, sosial münasibətlərində mövcud olan qarşılıqlı əlaqələrin fəaliyyətindən bacarıqla istifadə edilməsi respublika şəraitində iqtisadi inkişafın mütərəqqi və məqsədyönlü təşkilində böyük əhəmiyyətə malikdir. Beləliklə, iqtisadi, sosial infrastruktur elementləri və onların arasındakı əlaqələri ümumilikdə paytaxt sistemində çoxcəhətli karkas təşkil edir.

İqtisadi, sosial inkişafdan asılı olaraq şəhərin istehsal strukturu keçici və dövri olaraq dəyişkənliyə məruz qalır. Fəaliyyətdə olan təsərrüfat, demoqrafik amillərin təsiri altında şəhər infrastrukturunda mürəkkəb və qarşılıqlı inkişaf prosesləri baş verir, «meyletmə» rayonlarına olan təsir də

buna müvafiq dəyişir, lakin bu, şəhərlə onun ətraf rayonları arasındakı fərqi aradan qaldıra bilmir. Ona görə ki, bu fərqlər iqtisadi və sosial inkişafda, ekoloji vəziyyətdə, nəqliyyat vasitələrinin fəaliyyətində yaranır.

Belə vəziyyətdə də kəmiyyət, keyfiyyət dəyişkənliyinə məruz qalan şəhər mühiti «meyletmə» rayonlarını təsiri altında saxlaya bilir. Belə şəraitdə şəhər strukturunun trayektor istiqamətdə formalaşması, genişlənməsi, istehsalın, əhalinin təkrar istehsalına inkşafına təsir edən mühüm amildir.

Qeyd etmək lazımdır ki, paytaxt mühitində şəhər kompleksi strukturunun formalaşması müəyyən qədər mücərrəd səciyyə daşıyır. Şəhərin fəaliyyət sisteminin hərtərəfli öyrənilməsi onun «meyletmə» qüvvəsi altındakı şəhəryanı əraziləri nəzərə alır. Paytaxtın ərazi-təsərrüfat quruluşunun, xalq təsərrüfat tamlığının formalaşmasında, uzlaşdırılmasında onlara təsir edən elementlər müxtəlif səviyyədə iştirak edir ki, bu da aşağıdakı sxemdə verilir.

İstehsal sahələrinin, xüsusilə sənayenin, nəqliyyatın inkişafında istifadə edilən əsas istehsal fondları şəhər təsərrüfatının təkrar istehsalında əhalinin işlə təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Sxemdə göstərildiyi kimi, təkrar istehsal prosesində hər yarımsistem öz vəzifəsinin öhdəsindən gəlmək qabiliyyətinə malikdir.

Bundan əlavə, yarımsistemlərin hərəsi özünəməxsus ərazi-funksional quruluşa malikdir və bütünlükdə əmək tətbiqi, istehsal şəraitində bu və ya digər rayonda fəaliyyətini artırır. Göstərilən sxem əsasən ərazi-təsərrüfat sistemində formalaşmış quruluşu olan münasibliyi müəyyən edir.

Paytaxtın funksional təsir sistemi sahələrarası əlaqələrin fəaliyyətini də əhatə edir ki, bu da istehsalın inkişafını, sosial mahiyyəti əks etdirir.

İri şəhərlərin, o cümlədən respublikanın paytaxtı olan Bakının iqtisadi, sosial, mədəni, səhiyyə sahələrinin və sairlərinin inkişafında, əhali, onun fəal tərkibi olan əmək qabiliyyətlilər həlledici əhəmiyyətə malikdir.

Respublika şəhərlərində məskunlaşmış 4085,5 min nəfərdən 2283,0 min nəfəri, yəni 51%-in yarısı Bakı-Sumqayıt aqlomerasiyasında, o cümlədən Bakı şəhərində 1789 min, 283 mini Sumqayıt şəhərində cəmlənmişdir.

Respublika tabeliyində olan Əli-Bayramlı, Mingəçevir, Naftalan, Şəki, Yevlax şəhərlərində 283 min nəfər, yəni ümumi şəhər əhalisinin 16,9 faizi yaşayır. Azərbaycanın qalan şəhərlərində, şəhər tipli qəsəbələrində 1817,0 min adam məskunlaşıb.

Respublika əhalisinin 24,0 faizi yaşayan Böyük Bakıda (*Şəhər İcra Hakimiyyəti ərazisində*) qaçqın və köçkünlərin 30,0 faizə qədəri, Sumqayıt şəhərində isə 3,5 faizi yaşayır. Abşeron və Qaradağ inzibati rayonlarında onların 4,3 faizi məskunlaşıb.

Statistik məlumatlara əsasən respublikada olan 198 minə yaxın qaçqın və köçkün ailələri və onları təmsil edən 1 milyona qədər əhalinin müvafiq olaraq 72,1 mini və 311 min nəfəri Abşeron iqtisadi rayonunda (*o cümlədən 54,5 mini və 230 min nəfəri Bakıda*) məskunlaşıb. Bu sahədə Sumqayıt şəhəri daha gərgin vəziyyətdədir. Buraya orta hesabla hər 16 nəfərə bir ailə, 4 nəfərə bir qaçqın və məcburi köçgün düşür.

Hesablama göstərir ki, Böyük Bakı ərazisində 1 kv. km-də yaşayan 900 nəfərə qədər adamın 104 nəfəri qaçqın və köçgünlərdir. Əhalinin belə sıxlığı şəraitində Nəsimi rayonunda 20 minə yaxın, Yasamal rayonunda 14 min qaçqın və köçkün məskunlaşıb. Belə vəziyyətdə yaşayış qeydiyyatı olmayan şəxslərin də şəhərə axını «rəqqas miqrasiyası» hesabına məskunlaşma sıxlığını artırır, nəqliyyat, mənzil-kommunal, sosial və s. vəziyyəti gərginləşdirir. Qaçqınlar və köçkünlərlə birlikdə ümumi əhalinin hesabına yaranan həddən artıq sıxlıq, gərginlik, kütləvi işsizlik əhali arasında ciddi iqtisadi və sosial, ekoloji narahatlıq yaradır.

| | | | | | |
|---|---|---|---|---|---|
| | | Maddi istehsal | | | |
| Qarşılıqlı amillər | Maddi istehsal | Fondların, fəaliyyətləri və istifadəsi | İşçi qüvvəsi | Maddi nemətlər tələbatı | İstehsal xarakterli xidmət |
| | Əhali | Əmək tətbiqi yerləri | Əhali demoqrafik kateqoriya kimi | | Sosial |
| | | Maddi nemətlər istehsalı | | | Əmək tədbiqi yerləri |
| | İnfrastruktur əlaqələri | Məhsulların məcmusu, texniki visitələr | Maddi nemət lər tələbatı | İşçi qüvvəsi | Fondların məcmusu, fəaliyyət və istifadəsi |

Struktur aspekti

| | | | | | |
|---|---|---|---|---|---|
| Qarşılıqlı amillər | Maddi istehsal | Maddi istehsalın sahəvi quruluşu | | | İstehsal xarakterli xidmət |
| | Əhali | Əmək tətbiqi yerləri | Demoqrafik vəziyyət | | Sosial |
| | | Sosial təmayüllü istehsal quruluşu | | | Əmək tətbiqi yerləri |
| | İnfrastrukrur əlaqələr | Məhsulların infrastruktur təmayülü və quruluşu | Qeyri-maddi istehsal quruluşu | Məşğul əhalinin quruluşu | İnfrastrukturun sahəvi quruluşu |

**Sxem 5. Paytaxt şəhərinin əsas iqtisadi, sosial inkişafı sxemi**

## 4.3. Müasir dövrdə Azərbaycan şəhər əhalisinin demoqrafik xüsusiyyətləri, milli tərkibi və beynəlxalq miqrasiyası

Cəmiyyətin inkişaf mərhələlərində demoqrafik proseslər sosial-iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən olmuşdur. İctimai inkişafın demoqrafik faktorları iqtisadi, sosial və milli amillər kimi mürəkkəb sistem təşkil edir. Sosial-iqtisadi inkişafın demoqrafik şəraitin yalnız əhalinin təbii hərəkətindən, yeni doğum və ölümdən ibarət deyil, sosial və miqrasiya proseslərinin, şəhərəmələgətirici amilləri əhatə edən sistemdir. Demoqrafik amilin ictimai inkişafda oynadığı rolu ortaya çıxarmaq üçün əhalinin kəmiyyət xüsusiyyətlərinin araşdırılması mühüm şərtdir.

Demoqrafik amillərin ictimai inkişafdakı rolunu təhlil edərkən biz bu amili cəmiyyətdən kənar halda deyil, onun nəticəsi kimi qiymətləndiririk. Gələcəyin sosial-iqtisadi tərəqqi göstəricilərindən biri kimi demoqrafik amil ictimai inkişafın həm məhsulu və həm də onun tərkib hissəsi kimi fəaliyyət göstərir. Əhali ictimai istehsalın, demoqrafik-sosial inkişafın hərəkətverici və əsas subyekti kimi mövcuddur. O, əmək ehtiyatları törəməsinin mənbəyi, maddi və mənəvi sərvətlərin istehsalçısı və istehlakçısıdır.

Demoqrafik inkişaf problemləri nizami inkişafın, sosial-iqtisadi siyasətin əsas hissəsidir. Ona görə ki, əhali tərkibində baş verən dəyişikliklər iqtisadiyyatın inkişafına, ictimai tərəqqinin gedişinə nəzərəçarpacaq dərəcədə təsir göstərir.

Rəsmi məlumatlara əsasən son 25 ildə Azərbaycanda şəhər əhalisinin illik artım sürəti bir qədər azalmağa meyl edir. Bu artım 1975-ci ildə 2,8, 1980-cı ildə 2,2, 1990-cı ildə 1,8 faiz olduğu halda, 1995-ci ildə 0,4, 1999-cu ildə isə 0,2 faizə enmişdir. Belə proses bir neçə səbəb üzündən yaranır: birincisi, son 10 ildə şəhərlərdə sənaye istehsalının, sair istehsal təmayüllü müəssisələrin, xidmət sahələrinin tənəzzülü ilə əlaqədar əmək qabiliyyətli əhalinin iş yerlərindən məhrum olması, əhalinin xeyli hissəsinin respublikadan kənara

## 4.3. Müasir dövrdə Azərbaycan şəhər əhalisinin demoqrafik xüsusiyyətləri, milli tərkibi və beynəlxalq miqrasiyası

Cəmiyyətin inkişaf mərhələlərində demoqrafik proseslər sosial-iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən olmuşdur. İctimai inkişafın demoqrafik faktorları iqtisadi, sosial və milli amillər kimi mürəkkəb sistem təşkil edir. Sosial-iqtisadi inkişafın demoqrafik şəraitin yalnız əhalinin təbii hərəkətindən, yeni doğum və ölümdən ibarət deyil, sosial və miqrasiya proseslərinin, şəhərəmələgətirici amilləri əhatə edən sistemdir. Demoqrafik amilin ictimai inkişafda oynadığı rolu ortaya çıxarmaq üçün əhalinin kəmiyyət xüsusiyyətlərinin araşdırılması mühüm şərtdir.

Demoqrafik amillərin ictimai inkişafdakı rolunu təhlil edərkən biz bu amili cəmiyyətdən kənar halda deyil, onun nəticəsi kimi qiymətləndiririk. Gələcəyin sosial-iqtisadi tərəqqi göstəricilərindən biri kimi demoqrafik amil ictimai inkişafın həm məhsulu və həm də onun tərkib hissəsi kimi fəaliyyət göstərir. Əhali ictimai istehsalın, demoqrafik-sosial inkişafın hərəkətverici və əsas subyekti kimi mövcuddur. O, əmək ehtiyatları törəməsinin mənbəyi, maddi və mənəvi sərvətlərin istehsalçısı və istehlakçısıdır.

Demoqrafik inkişaf problemləri nizami inkişafın, sosial-iqtisadi siyasətin əsas hissəsidir. Ona görə ki, əhali tərkibində baş verən dəyişikliklər iqtisadiyyatın inkişafına, ictimai tərəqqinin gedişinə nəzərəçarpacaq dərəcədə təsir göstərir.

Rəsmi məlumatlara əsasən son 25 ildə Azərbaycanda şəhər əhalisinin illik artım sürəti bir qədər azalmağa meyl edir. Bu artım 1975-ci ildə 2,8, 1980-cı ildə 2,2, 1990-cı ildə 1,8 faiz olduğu halda, 1995-ci ildə 0,4, 1999-cu ildə isə 0,2 faizə enmişdir. Belə proses bir neçə səbəb üzündən yaranır: birincisi, son 10 ildə şəhərlərdə sənaye istehsalının, sair istehsal təmayüllü müəssisələrin, xidmət sahələrinin tənəzzülü ilə əlaqədar əmək qabiliyyətli əhalinin iş yerlərindən məhrum olması, əhalinin xeyli hissəsinin respublikadan kənara

getməsi üzündən, şəhərlərdə doğumun azalmasıdır. 1960-cı ildə şəhər əhalisinin hər 1000 nəfərinə görə 34,7 nəfər doğulanların və 7,1 nəfər ölənlərin müqabilində 27,6 adam artmışsa, 1970-ci ildə bu rəqəmlər müvafiq olaraq 24,4-6,5-17,9, də 20,2-6,0-13,2 miqdarda olmuşdur. Rəqəmlərdən göründüyü kimi son 40 ildə respublikanın şəhər sakinləri arasında hər 1000 nəfərə doğulanların 14,5 nəfər azalması, ölənlərin 1,1 nəfər çoxalması müqabilində təbii artım 14,4 nəfər olmuşdur. Bununla əlaqədar respublikada kənd əhalisi ilə şəhər əhalisi arasında da birincinin xeyrinə məskunlaşma səviyyəsi dəyişir. Bu 1990-cı ildə ümumi əhali tərkibində şəhər sakinlərinin 53,8 faizini təşkil etmiş, 1999-cu ildə isə göstərici 51% olmuşdur.

Son 10 ildə baş verən radikal dəyişikliklər SSRİ-nin süqutundan sonra müstəqil Aəzərbaycan Respublikasının yaranması və suveren dövlət kimi inkişafı, erməni işğalçılarının Azərbaycan torpaqlarının 20,0 faizini zəbt etməsi və bu yerlərdən əhalinin zorla qovulması, Ermənistan və Gürcüstandan respublikaya üz tutan çoxsaylı qaçqınlar, eləcə də Azərbaycandan 850 min nəfərə yaxın başqa millətlərin getməsi respublika əhalisinin milli tərkibində xeyli dəyişiklik əmələ gətirmişdir.

Belə şəraitdə son 20 ildə Azərbaycan əhalisinin milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1979-cu ildəki 78,2 faizdən 1999-cu ildə 90,6 faizə qalxmışdır. Həmin müddətdə olan göstəricilərdə müvafiq olaraq ruslar və ermənilər 7,9-1,8 faiz təşkil etmişdir.

Respublika əhalisinin milli tərkibinin dəyişməsi və müasir vəziyyəti haqqında məlumatlar 17-ci cədvəldə verilir.

Bununla yanaşı, respublika əhalisi arasında baş verən demoqrafik inkişafda göstərilən müddətdə xeyli tənəzzül nəzərə çarpır. Belə proses əhali arasında ölümün nisbətən çoxalması şəraitində əmək qabiliyyətli əhalinin azalmasını və eyni zamanda əhalinin yaş tərkibində ahılların artması müqabilində əhali arasında qocalma təmayülünün artdığını göstərir.

**Azərbaycan əhalisinin milli tərkibi (2000-ci ilin statistik məlumatına əsasən)[1]**

**Cədvəl 17**

| Milliyyəti | Əhalinin cəmi (min.nəf) | O cümlədən | | | | Şəhər əhalisi | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | faizlə | | Cəmi | ondan | | faizlə | |
| | | kişilər | qadınlar | kişilər | qadınlar | | kişilər | qadınlar | kişilər | qadınlar |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| **Ölkə üzrə cəmi:** | 7953,4 | 3883,1 | 4070,3 | 48,8 | 51,2 | 4053,6 | 1970,0 | 2083,6 | 48,5 | 51,5 |
| O cümlədən: | | | | | | | | | | |
| azərbaycanlı | 7205,5 | 3540,2 | 3665,2 | 49,1 | 50,9 | 3692,2 | 1814,5 | 1877,7 | 49,1 | 50,9 |
| ukraynalı | 29,0 | 12,0 | 17,0 | 40,0 | 60,0 | 27,8 | 11,8 | 16,0 | 42,2 | 57,2 |
| rus | 141,7 | 52,4 | 89,3 | 36,9 | 63,1 | 13,5 | 5,0 | 8,5 | 38,5 | 61,5 |
| türk | 43,5 | 21,5 | 22,0 | 48,8 | 51,2 | 5,1 | 2,7 | 2,5 | 54,0 | 61,5 |
| tatar | 30,0 | 13,2 | 16,8 | 43,3 | 56,7 | 29,6 | 13,1 | 16,5 | 43,3 | 46,0 |
| talış | 76,8 | 37,6 | 39,3 | 48,6 | 51,4 | 2,0 | 1,0 | 1,0 | 50,0 | 56,7 |
| ləzgi | 178,0 | 86,3 | 91,7 | 48,3 | 51,7 | 65,4 | 11,1 | 34,2 | 47,7 | 50,0 |
| yəhudi | 8,9 | 4,1 | 5,0 | 44,4 | 55,6 | 8,8 | 4,1 | 4,7 | 44,4 | 52,3 |
| kürd | 13,1 | 6,6 | 6,5 | 46,2 | 53,8 | 2,9 | 1,5 | 1,4 | 66,6 | 55,6 |
| erməni | 120,7 | 57,9 | 62,3 | 48,3 | 51,7 | 63,1 | 30,2 | 32,9 | 47,6 | 33,4 |
| avar | 50,9 | 24,8 | 26,1 | 49,0 | 51,0 | 3,9 | 1,8 | 2,2 | 46,2 | 52,4 |
| gürcü | 14,5 | 7,3 | 7,2 | 50,0 | 50,0 | 5,9 | 2,9 | 3,1 | 49,2 | 53,8 |
| udin | 4,1 | 2,3 | 2,1 | 50,0 | 50,0 | 0,2 | 0,1 | 0,1 | 50,0 | 50,8 |
| saxur | 15,9 | 7,8 | 8,0 | 49,0 | 51,0 | 2,6 | 1,3 | 1,4 | 50,0 | 50,0 |
| tat | 10,9 | 5,5 | 5,4 | 50,0 | 49,6 | 3,2 | 1,5 | 1,6 | 46,8 | 53,2 |
| digərləri | 9,5 | 3,9 | 5,6 | 42,1 | 57,9 | 5,8 | 2,2 | 3,6 | 33,3 | 66,7 |

[1] Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika sorğu kitablarının məlumatlarına əsasən tərtib edilmişdir

**Cədvəlin ardı**

| Cəmi | Kənd əhalisi | | | | Əhalinin milli tərkibi | | |
|---|---|---|---|---|---|---|---|
| | ondan | | faizlə | | 1979 | 1989 | 1999 |
| | kişilər | qadınlar | kişilər | qadınlar | | | |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 3899,9 | 1913,1 | 1986,8 | 49,1 | 50,9 | 100,0 | 100,0 | 100,0 |
| 3512,2 | 1725,8 | 1787,5 | 49,1 | 50,9 | 78,2 | 82,7 | 90,6 |
| 1,2 | 0,2 | 1,0 | 16,7 | 83,3 | 0,4 | 0,5 | 0,4 |
| 6,9 | 2,1 | 4,8 | 30,4 | 69,6 | 7,9 | 5,6 | 1,8 |
| 38,3 | 18,8 | 19,5 | 49,1 | 50,9 | 0,1 | 0,2 | 0,5 |
| 0,4 | 0,1 | 0,3 | 25,0 | 75,0 | 0,5 | 0,4 | 0,4 |
| 74,5 | 36,5 | 38,0 | 49,0 | 51,0 | - | 0,3 | 1,0 |
| 112,6 | 55,2 | 57,4 | 49,0 | 51,0 | 2,6 | 2,4 | 2,2 |
| 0,06 | 0,02 | 0,04 | 33,3 | 66,7 | 0,6 | 0,4 | 0,1 |
| 10,1 | 5,1 | 5,0 | 50,1 | 49,9 | 0,1 | 0,2 | 0,2 |
| 57,6 | 27,7 | 29,9 | 48,1 | 51,9 | 7,9 | 5,6 | 1,5 |
| 46,9 | 23,0 | 23,9 | 49,0 | 51,0 | 0,6 | 0,6 | 0,6 |
| 8,9 | 4,4 | 4,5 | 49,4 | 50,6 | 0,2 | 0,2 | 0,2 |
| 4,0 | 2,0 | 2,0 | 50,0 | 50,0 | 0,1 | 0,1 | 0,05 |
| 13,2 | 6,5 | 6,7 | 49,2 | 50,8 | 0,1 | 0,2 | 0,2 |
| 7,7 | 3,9 | 3,8 | 50,1 | 49,9 | - | - | 0,13 |
| 3,7 | 1,7 | 2,0 | 45,9 | 54,1 | 0,8 | 0,6 | 0,12 |

Demoqrafik proseslərin gedişinə dövlət elə bir əlverişli imkan və şərait yaratmalıdır ki, ölkənin sosial-iqtisadi, sosial, geosiyasi inkişafını təmin edə bilsin. Bu mənada müxtəlif istehsal, xidmət sahələrinin təmərküzləşməsinin obyekti olan şəhərlər daha aktualdır. Bunlarla əlaqədar demoqrafik siyasət ölkənin uzun müddətli inkişafının mühüm elementidir.

Təbii ki, müəyyən tədbirlər sisteminin köməyi ilə demoqrafik proseslərin idarə olunmasının özünəməxsus xüsusiyyətləri vardır. Demoqrafik siyasətin strateji tədbirlərinin işlənib hazırlanması şəhərlərin, məskunlaşma rayonlarının iqtisadi-coğrafi mövqeyinin, xalq təsərrüfatı sahələrinin inkişafının nəzərə alınmasını tələb edir.

Ölkənin demoqrafik inkişaf konsepsiyasında bunların nəzərə alınması zəruridir. Bunlarla yanaşı, sosial-iqtisadi, demoqrafik inkişafın müəyyən mərhələlərində təbii-iqtisadi və şəraitindən asılı olaraq rayonların, şəhərlərin ərazi-istehsal kompleksinin urbanizasiyanın demoqrafik siyasətə uyğun formalaşmasını nəzərə almaq lazımdır. Bu baxımdan, məskunlaşma regional ərazi-istehsal siyasəti yaradan əsas amildir.

Demoqrafik siyasətin əsas məqsədindən biri əhali məskunlaşmasının kəmiyyət və keyfiyyət baxımından nizama salınması, bunların isə ölkənin sosial-iqtisadi inkişafı ilə əlaqələndirilməsidir. Bu baxımdan demoqrafik, sosial-iqtisadi, sosial problemlər ictimai inkişafı təmin edən kompleks tədbirlər sisteminə daxildir.

Komplekslilik demoqrafik siyasətin mühüm elementlərindən biri olub əhalinin dinamik hərəkətini, keyfiyyət göstəricilərini idarə edən tədbirlərlə yanaşı, həm də peşə, yaş-cinsi strukturuna, o cümlədən təhsil, peşə tərkibini əhatə edir.

Keyfiyyət dəyişməsi son nəticədə demoqrafik proseslərin intensivliyinə, gələcəkdə əhalinin inkişafına bir başa təsir göstərən amildir. Demoqrafik siyasət müxtəlif təmayüldə doğum, ölüm və miqrasiya, dəyişikliyinə məruz qalır.

Ölkədə müsbət demoqrafik fəaliyyətin əsasını iqtisadi,

sosial inkişaf dövründə, xüsusilə gənclər arasında nikahların elə səviyyədə gedişinə ehtiyac var ki, əhalinin artımını mənfi saldodan uzaqlaşdırsın. Bu tədbirə kompleks yanaşmadan, kəmiyyət və keyfiyyət amillərinin birliyini nəzərə almadan həyata keçirilməsi, ölkədə əhali artımının, işçi qüvvəsinin təkrar istehsalının təmin edilməsi mümkün deyil.

Hər hansı ölkədə yaranmış demoqrafik vəziyyət, müəyyən konkret dövr ərzində buna qarşı yönəldilmiş siyasət, ona müvafiq sosial-iqtisadi, tarixi-siyasi proseslərin ümumi axarının tərkib hissəsi olmaqla, zaman və məkan daxilində əsaslı dəyişikliklərə məruz qalır. Bu baxımdan, Azərbaycanda demoqrafik siyasət tənəzzül və inkişaf mərhələləri zaman və məkan daxilində bir-birini əvəz edir.

Keçən əsrin 50-ci ilinə kimi Azərbaycanda baş verən inqilabi, mübarizə hərəkətləri, erməni işğalçılarının millətimizə qarşı soyqırımı, vətəndaş müharibəsi, Sovet dövlətinin Azərbaycan xalqının xeyli hissəsinə qarşı «qırmızı terroru», 1941-1945-il İkinci Dünya müharibəsi, dövrünün aclıq illəri və s. demoqrafik inkişafa güclü zərbə vurmuşdur. Bunun təsiri indiyə qədər demoqrafik inkişafın dinamikliyini pozmaqdadır.

Respublikada demoqrafik inkişafa mənfi təsir edən bir amil də ondan ibarətdir ki, ümumilikdə və ayrı-ayrı iqtisadi inzibati rayonlar, xüsusilə irimiqyaslı sənaye müəssisələri tikilərkən şəhərlərdə və bütövlüklə respublikada demoqrafik vəziyyət ailə tənzimlənməsi yolu ilə deyil, həyat şəraitinin pisləşməsi ilə əlaqədardır. Son 10 ilin hadisələri, qaçqınlar, mənzil şəraitinin pisləşməsi, kütləvi işsizlik və nikahların sayının azalması meyli davam etdiyindən doğumun daha da aşağı düşəcəyi gözlənilir. 1999-cu ildə (*1 yanvar*) respublikada 40851, o cümlədən əhalinin hər 1000 nəfəri hesabı ilə 5,2, şəhər yerlərində isə 6,8 nikah bağlanmışdır ki, bu da 1990-cı ildəkindən 32268 nəfər və ya 1,8 dəfə azdır. Həmin ildə ümumi nikahlardan 5657 ailə (*13,8 faiz*) və ya 100 nəfərə 13,8 ailə boşanmışdır.

Məlumdur ki, azərbaycanlı ailələr həmişə məskən mobilliyi ilə fərqlənmişlər. Lakin son zamanlar nikah pozulmaları meylinin çoxalması bu mobilliyi bir qədər dəyişmişdir. Son 30 ildə Azərbaycanın şəhərlərində ölümün ümumi əmsalı 6,5 faiz səviyyəsində sabitləşmişdir ki, bu da 1990-cı ilin səviyyəsindən bir qədər çox olsa da sabitlik meyli nəzərə çarpır.

Bir yaşa qədər uşaqların ölümü sabitləşsə də, ayrı-ayrı şəhərlərdə onun sayı az da olsa davam edir. Uşaq ölümünün həyat səviyyəsindən asılı olduğunu nəzərə alsaq, respublika üçün bu problemin nə qədər böyük sosial-iqdisadi əhəmiyyət kəsb etdiyi aydın olar. Doğum və ölümün nisbətinin xeyli dəyişməsi, miqrasiya saldosunun isə mənfi kəmiyyətlərlə xarakterizə olunması əhalinin artım sürətini ləngidən əsas amillərdir. Son iki-üc ildə respublikada, o cümlədən şəhərlərdə miqrasiya saldosu mənfiyə doğru etməkdədir.

Təbii və mexaniki hərəkət göstəricilərinin qənaətbəxş olmaması əhalinin cins-yaş tərkibinin pozulmasına şərait yaradır. İkinci Dünya müharibəsi (*1941-1945*) illərində cəbhədə həlak olanlar, aclıq, yoxsulluq üzündən çoxlu ölənlər respublikada əhali artımına ciddi zərbə vurmuşdur. Hazırda respublikada şəhər əhalisinin 51,0 faiz olduğu halda 15 yaşa qədər uşaqların xüsusi çəkisi 31,0 faiz təşkil edir. Buna müvafiq olaraq nasib ümumi əhalinin tərkibində yaşlıların xüsusi çəkisi artır.

Müharibə vəziyyəti, iqdisadi böhran, investisiya catışmazlığı, iqdisadiyyatın tənəzzülü keçid dövründə Azərbaycan Respublikasında son dərəcə gərgin işsizlik problemi yaradır. Sovet İttifaqı dövründə mövcud olan küllü miqdarda sənaye müəssisələrinin işləməməsi iqdisadi tənəzzül, yoxsulluq yaradan əsas mənbələrdən biridir.

Əgər 90-cı illərə qədər əmək qabiliyyətli əhalinin 27,6%-i içtimai istehsaldan kənarda qalmışdırsa, hazırda bu rəqəm müqayisə olunmaz dərəcədə artmışdır. Sosialist istehsal münasibətlərindən bazar iqdisadiyyatına keçid mərhələsində işsizlik artımı müəyyən dərəcədə qanunauyğun haldır.

İçtimai, dövlət əmlakının özəlləşdirilməsi, xüsusi, fərdi tə-

sərrüfatların, obyektlərin, şirkətlərin və s. yaradılması əvvəllərdə mövcud olan məşğulluğu ixtisara salmaqla işsizliyi artıran obyektiv prosesdir. Lakin belə hallarda inkişaf etmiş ölkələrdə ya müvəqqəti ya da daimi işsizlərin sosial vəziyyətinin yaxşılaşdırılması, onlara maddi yardım edilməsi dövlətin qanun tələblərindən irəli gəlir. Belə humanist tədbirin respublikada tədbiq edilməsi dövlət siyasətinin tərkib hissəsi olmalıdır. 2001-ci ildə Azərbaycan Respublikasında 48,4 min nəfər işsiz statusu almışdır, ki, bunlardan da 3,1 min nəfərinə (6,4%-ə) müavinət verilir.

Suveren dövlətin yeni mülkiyyət formaları və postkapitalist istehsal münasibətləri şəraitində inkişafı, sahibkarlığın, şəxsi, fermer təsərrüfatlarının, dövlət müəssisələrinin, xüsusilə iri şəhərlərdə xarici dövlətlərin, şirkətlərin fəaliyyətindən genişləndirilməsi şəraitində, potensial işçi qüvvəsindən səmərəli istifadə etmək əsas vəzifədir.

Sosial-iqdisadi coğrafiyanın aktual məsələlərindənöiri də ərazi sistemində əhalinin məskunlaşması, regionlarda və şəhərlərdə onların işlə təmin edilməsidir. Hazırda dünya əhalisinin 40,0 faizdən çoxu şəhərlərdə yaşayır, hansı ki, yüz il, bundan əvvəl onların xüsusi çəkisi cəmi 15,0 faiz idi. Nəzərə alsaq ki, urbanizasiya prosesi XX əsrin ikinci yarısında sürətlə davam etməsi göstərir ki, bundan sonra bir neçə on ildə də şəhərlərdə məskunlaşma daha sürətlə davam edəcəkdir. Ona görə də şəhərlərin məskünlaşma sisteminin öyrənilməsi aktual problem kimi qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, şəhər əhalisinin sürətlə artması ilə yanaşı, onların iqdisadi, sosial strukturu, peşə səviyyəsi də dəyişir. Tarixi məlumatlar göstərir ki, qədimdə də yüksək əhali sıxlığına malik olan şəhərlər olmuşdur. XIX əsrin ortalarından başlamış sənaye istehsalının, dəmir yollarının, avtomobil nəqliyyatının inkişafı şəhər urbanizasiyasını genişləndirməklə, iri şəhər arealını yaratmışdır.

Zaman keçdikçə suburbanizasiya prosesləri mərkəzi şəhərlərdən uzaq rayonları da əhatə edir, kəndlərin, sair ya-

şayış məntəqələrinin funksional ixtisaslaşmasına təsir edir. Onların arasındakı iqdisadi, sosial, elm və texniki tərəqqi sahəsində yaxınlığını, oxşarlıq amillərini, əlaqələrini yaxınlaşdırır. Nəqliyyatın, infrastrukturun inkişafı, müasir informasiyanın geniş vüsət alması şəraitində şəhər və kənd arasında olan fərqləri müəyyən qədər aradan qalxır.

Şəhər kompleksinin strukturunun öyrənilməsi haqqında müasir elmi anlayış XIX-XX əsrdə təşəkkül tapmışdır. Alman coğrafiyaşünası F.Averbax hələ 1913-cü ildə nəşr etdiyi məqaləsində məskunlaşma sistemində şəhərin böyüklüyü ilə onun ranqı arasında əlaqələrin mövcudluğunu sübüt etmişdir.

Bu sahədə onun qəbul etdiyi qanunauyğunluğa görə məskunlaşma sistemində şəhər əhalisinin sayı urbanizasiyanın böyüklüyünü əks etdirən mövqeyin münasibətindən ibarətdir və sistem üzrə bundan sonra gələn şəhərin miqyasına, əhalinin sayına görə tərs mütənasiblik nəzərə çarpır.

Məskunlaşmanın ərazi sistemi üzrə paylaşdırılması «ranq-ölçüsü» zaman daxilində əvvəllər tərəqqidə, sonralar isə zəifləməkdə davam edir.

Son 10 ildə respublikanın müharibə şəraitində olması, keçid çətinlikləri əhali məskunlaşmasını, demoqrafik-sosial problemləri xeyli çətinləşdirir. Qarabağ münaqişəsinin uzun müddət davam etməsi, ərazisinin 20 faizinin erməni işğalçıları tərəfindən zəbt edilməsi, bir milyona qədər qaçqın və köçkünlər respublikanı iqtisadi, sosial çətinliklər məngənəsinə salmış, demoqrafik inkişafa mənfi təsir etmişdir.

Həmin müddətdə əhali arasında ölüm əmsalının demək olar ki, dəyişməz qalması şəraitində, təbii artım iki dəfə azalaraq 1990-cı ildəki 140,2 min nəfərdən, 1999-cu ildə 72,1 min nəfərə enmişdir. Məsələn, əhalinin hər min nəfərinə doğum 1990-cı ildə 20,2 nəfər, 1995-ci ildə 12,3, 1998-ci ildə 9,8, 2000-ci ildə 9,0 nəfər olmuş və son 10 ildə 2,1 dəfə azalmışdır.

Mexaniki hərəkət balansı ildə hər 1000 nəfər adama görə 40 nəfərə yaxınlaşmışdır. Bu sahədə ən çox gərginliyə mə-

ruz qalan Abşeron iqtisadi rayonudur. Son ilin məlumatına əsasən respublikada olan qaçqın və köçkünlərin 40 faizə qədəri Abşeron iqtisadi rayonunda cəmlənmişdir.

1990-cı ildən 2000-ci ilə qədər respublikada 800 min nəfər (*ildə orta hesabla 80 min*) əhali artmışdır. Şəhər əhalisinin sayı 327 min nəfər, yəni 5,9 faiz, ildə orta hesabla 227 nəfər çoxalmışdır. Göstərilən dövrdə şəhər əhalisi 3898,3 min nəfərdən 4085,5 min nəfərə çataraq, ümumi əhalinin 51 faizi qədər olmuşdur.

Yaş quruluşunda məşğullüq həddinin müəyyənləşdirilməsi, məskunlaşma hərəkətində, iştiraketmə proseslərində əhalinin təkrar istehsalda iştirakı böyük əhəmiyyətə malikdir. Respublikada qüvvədə olan qanuna əsasən ailə qurmağın aşağı həddi qadınlar üçün 17 yaş, kişilər üçün 18 yaş götürülür.

Əhalinin yaş qrupu onun sabit inkişafının, demoqrafik fəaliyyətinin, məskunlaşmasının göstəricisidir. Tədqiqat apardığımız 30 il müddətində respublikada əhalinin yaş quruluşunda ciddi dəyişiklik baş vermişdir. Belə ki, 0-19 yaşlıların xüsusi çəkisi son 10 ildə respublikada 42,0 faizdən 41,4 faizə enmiş, 16-59 yaşlı kişilərin və 16-54 yaşlı qadınların xüsusi çəkisi müvafiq olaraq 48,0 faizdən 53,0 faizə, pensiya yaşında olanların miqdarı 12,0 faizdən 17,0 faizə qalxmışdır. Cavan yaşda olan əhalinin xüsusi çəkisinin azalması və təqaüd yaşında olanların ona nisbətən artması ümumilikdə əmək qabiliyyətli fəal əhalinin orta hesabla respublikada son 25-30 ildə 2,3 faiz, Böyük Bakıda isə 4,9-5 faiz azalmasına səbəb olmuşdur. Məlumdur ki, əvvəlki illərə nisbətən doğumun və onunla əlaqədar yeniyetmə yaşa qədər olanların və təqaüd yaşında olanların artması əhalinin «qocalması» hesabına olmuşdur. Son 30 ildə respublika əhalisinin yaş qrupu 18-ci cədvəldə verilir.

Sosial-iqtisadi inkişafın tənəzzülü, işsizliyin artması, bir sözlə, yaşayış səviyyəsinin aşağı düşməsi, bunlarla əlaqədar cavan yaşlıların respublikadan kənara, xüsusilə xarici ölkələrə axını nikahların azalmasına və boşanmanın artmasına

gətirib çıxarmışdır ki, bu da 19-cu cədvəldə verilir.

Mühüm proses kimi respublika daxilində əhalinin yaş qrupu demoqrafik fəaliyyətin, işçi qüvvəsinin təkrar istehsalın, əhalinin sosial vəziyyətinin hərəkətini əks etdirən mühüm amil kimi qiymətləndirilir. Yaş qrupunun dəyişkənliyi ilk növbədə əhalinin sosial həyatının, demoqrafik proseslərin, ümumiyyətlə, həyat səviyyəsinin vəziyyətindən irəli gələn amildir.

18-ci cədvəldən göründüyü kimi, son 30 ildə respublikada və onun şəhərlərində 0-15 yaşında olan uşaqların, yeniyetmələrin ümumi əhali tərkibində xüsusi çəkisinin azalması (*1970-ci ildə 40,0 faizdən 1999-cu ildə 29,5 faizə enməsi*) şəraitində əmək qabiliyyətli əhalinin sayı 48,0 faizdən 55,0 faizə qalxmışdır. Şəhərlərdə isə bu rəqəmlər müvafiq olaraq 36,5-26,1 faiz və 53,2-57,4 faiz olmuşdur.

Böyük Bakıda bu sahədə daha gərgin vəziyyət yaranmışdır. Belə ki, son 30 ildə Böyük Bakıda 0-15 yaşlı uşaqların və yeniyetmələrin xüsusi çəkisi 31,6 faizdən 27,2 faizə enmiş, əmək qabiliyyətli əhalinin 1,4 faiz azalması müqabilində təqaüd yaşında olanların miqdarı 8,9 faiz çoxalmışdır.

19-cu cədvəldən göründüyü kimi, son 5 ildə nikahın əmsalı kəskin sürətdə aşağı düşdüyü halda, boşanma göstəricisi də buna nisbətən az dəyişmişdir. Belə vəziyyətdə Bakı ilə respublika göstəriciləri arasında xeyli fərqlər yaranmışdır. Respublikada nikaha daxil olanların 1998-2000-ci ildə 14-13 faiz boşanırdısa, Bakıda bu nisbət 30-31 faiz olmuşdur. Belə proses Sumqayıtda, Əli-Bayramlıda, Mingəçevirdə, Naxçıvanda olduğundan bir qədər (*orta hesabla 7-8 faiz*) çoxdur.

Respublika daxilində və xaricində yerli sakinlərin yerdəyişməsi əhalinin maddi rifah halının aşağı düşməsi dövlətin iqtisadi, sosial siyasətin nəticəsi olmaqla şəhər urbanizasiyasına, miqrasiyaya təsir edən mühüm amildir. Uzun müddət azərbaycanlılara səciyyəvi olan və hörmət edilən qayda ondan ibarət olmuşdur ki, bütün rayonlarda əhali məskunlaşması nisbətən sabit olmuşdur. Zəruri hallarda əmək qabiliyyətli əhali iş dalınca və s. məsələlər üçün müvəqqəti olaraq yer dəyişmişdir.

## Azərbaycan əhalisinin yaş qrupu (faizlə)[1]

Cədvəl 18

| Rayonlar/ illər | YAŞ QRUPU | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 0-15 yaşlılar | | | | | 16-59 kişilər, 16-54 qadınlar | | | | | Təqaüd yaşlılar | | | | |
| | 1970 | 1979 | 1989 | 1995 | 1999 | 1970 | 1979 | 1989 | 1995 | 1999 | 1970 | 1979 | 1989 | 1995 | 1999 |
| Azərbaycan Respublikası | 40,0 | 38,1 | 34,5 | 29,6 | 29,5 | 48,0 | 51,0 | 59,6 | 55,0 | 53,3 | 12 | 11 | 14,0 | 15,3 | 17,2 |
| Şəhər əhalisi | 36,5 | 34,4 | 32,5 | 28,6 | 26,1 | 53,2 | 54,1 | 54,4 | 55,2 | 57,4 | 10,3 | 11,5 | 15,2 | 15,9 | 16,5 |
| Böyük Bakı | 31,6 | 29,1 | 29,1 | 28,2 | 27,2 | 55,6 | 56,4 | 54,1 | 54,4 | 52,3 | 12,8 | 14,5 | 16,8 | 17,4 | 18,4 |
| O.c. Bakı şəhəri | 28,9 | 26,4 | 27,3 | 23,7 | 21,6 | 57,5 | 58,5 | 55,8 | 56,9 | 56,0 | 13,6 | 15,1 | 16,9 | 19,4 | 22,5 |

Cədvəl 19

| **Rayonlar** | **Nikahların sayı** | | | **Boşanmaların sayı** | | | **Boşanmanın nisbəti** | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **1990** | **1996** | **1999** | **1990** | **1996** | **1999** | **1990** | **1996** | **1999** |
| Azərbaycan: | 10,5 | 5,7 | 5,2 | 1,92 | 1,3 | 1,4 | 13,0 | 14,1 | 13,1 |
| o cümlədən: | | | | | | | | | |
| Böyük Bakı | 6,0 | 5,4 | 5,1 | 1,9 | 1,7 | 1,6 | 31,7 | 30,0 | 31,0 |
| Gəncə | 5,3 | 3,7 | 3,0 | 1,2 | 1,0 | 0,9 | 22,6 | 26,0 | 27,0 |
| Sumqayıt | 5,4 | 4,0 | 3,6 | 1,4 | 0,9 | 0,9 | 26,0 | 21,0 | 19,0 |

[1] Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika sorğu kitablarının məlumatlarına əsasən tərtib edilmişdir

Belə olduğu şəraitdə kənd əhalisi nisbətən gec şəhərləşməyə məruz qalır. Son 10 ildə respublikada elə bir vəziyyət yaranmışdır ki, köçkünlər, qaçqınlar da daxil olmaqla kənd yerlərindən şəhərlərə, xüsusilə Bakıya, Sumqayıta, Gəncəyə, Naxçıvana, Mincəçevirə köçüb gələn kəndlilər indi şəhərləri «kəndləşdirirlər» və onlar uzun müddət adət etdikləri kəndin həyatını bir növ şəhərləşdirirsə, ümumi fonda buna çox gec də olsa nail ola bilirlər.

Bazar iqtisadiyyatına keçid, ictimai istehsalın, dövlət mülkiyyətinin özəlləşdirilməsi şəraitində, əvvəllərdə mövcud olan iş yerlərinin itirilməsi şəraitinə əsasən 10 ilə yaxındır ki, işləməyənlər artmış, əsas fondları dağılmış, sənaye, kənd təsərrüfatı müəssisələrində işləyənlərin yerləşdirilməsi, işsiz qalmışların rayondaxili və rayonlararası miqrasiyasında xeyli dəyişiklik olmuşdur.

Əvvəlki dövrdən fərqli olaraq indi respublikanın iri şəhərlərində, aqlomerasiya mərkəzlərində ictimai dövlət müəssisələrinin, fabriklərin, zavodların, tikinti müəssisələrinin tənəzzülü ilə əlaqədar yüz minlərlə fəhlə və qulluqçular iş yerlərindən məhrum olmuşlar. Belə şəraitdə elm və texnikanın müəyyən sahələrinə yiyələnmiş peşəkar mütəxəssislər, fəhlələr, ziyalılardan ibarət işsizlər ordusu yaranmışdır. Bu da rayondaxili, ölkədaxili və xarici miqrasiyanı genişləndirmiş, əmək ehtiyatlarından istifadə edilməsində, istehsal və qeyri-istehsal sahələrinin inkişafanda hərc-mərclik və xoşagəlməz uyğunsuzluqlara səbəb olmuşdur.

Belə vəziyyət respublikanın böyük və orta şəhərlərinin timsalında aydın görünür. Son 10 ildə Bakıda, Gəncədə, Sumqayıtda, Naxçıvanda, Şəkidə, Mingəçevirdə, Əli-Bayramlıda uzun illər yetişmiş peşəkar mütəxəssislərin, intellektual ziyalıların xeyli hissəsi iş axtarmaq məqsədilə vətəni tərk edib Rusiya Federasiyasına, Ukraynaya, Belorusiyaya və digər xarici ölkələrə köçmüşdür.

Belə şəraitdə şəhər əhalisinin xeyli hissəsi ticarət və muzdla iş axtarmaq dalınca respublikanın iri şəhərlərinə gələrək onların sosial tərkibini xeyli kasadlaşdırmışlar. Bun-

dan başqa, şəhərlər «rəqqas miqrasiyası» ilə hər gün alver və başqa məqsədlərlə gələn əhalini qəbul edib yola salır və bununla da nəqliyyatın hərəkətini gərginləşdirir.

Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən son 10 ildə xarici ölkələrdən respublikaya118,4 min əhali gəlmişdir ki, bunlardan 60%-i MDB ölkələrindən, qalanı ölkəsi göstərilməyən və sair ölkələrdən gələnlərdir.

Həmin müddətdə respublikadan başqa dövlətlərə 212,4 min nəfər adam getmişdir. Bunların 92,4 %-i MDB və Baltikyanı dövlətlərə, qalanları başqa ölkələrə getmişdir. Statistika Komitəsinin rəsmi məlumatlarına görə, son 10 ildə gələnlərin sayı gedənlərdən 940 nəfər çox olmuşdur.

1990-2000-ci illərdə xarici ölkələrdən Azərbaycana gələnlər və gedənlər haqqında 20-ci cədvəllərdə məlumat verilir.

Bununla yanaşı, göstərmək lazımdır ki, başqa rəsmi məlumatlarda respublika əhalisinin beynəlxalq miqrasiyada iştirakı üzrə cədvəldə verilən rəqəmlərdən fərqli məlumatlar verilir.

Rəsmi məlumata görə, hazırda Rusiyada 500 mindən artıq azərbaycanlı yaşayır. Lakin bu son dərəcə azaldılmış rəqəmdir ki, bunu da bir çox təşkilatlar da təstiq edir. Mötəbər məlumatlara görə, son 10 ildə Azərbaycandan Rusiyaya 1,5 milyondan çox əhali gedib. Hazırda bu ölkədə 2 milyon azərbaycanlı yaşayır ki, bu da onun ümumi əhalisinin 1,1 faizini təşkil edir. Rusiya Federasiyasının rəsmi məlumatına əsasən indi Molskva və Moskva vilayətində 1 mil., Sankt-Peterburqda 200 min azərbaycanlı məskunlaşıb. Azərbaycanlılar indi Rusiya Federasiyasının Şimal qütb zonasında, Uzaq Şərqdə, Sibirdə, Uralda, Murmanskda, Arxangelskdə məskən salmışlar. Tomsk vilayətində100 min, Omsk və Tümen vilayətlərində 70 min, Primorsk, Vladivostok şəhərlərində 70 min azərbaycanlının məskunlaşdığı qeydə alınıb[1].

---

[1] Россия и Закавказье: Реалии независимости и новое портнерство. Москва ЗАО «Финстайшинформ» 2000. стр. 112

Maraqlıdır ki, azərbaycanlılar Rusiya Federasiyası rayonlarında coğrafi nişanəsinə görə məskunlaşmağa cəhd göstərirlər. Məsələn, Qazax, Ağstafa, rayonlarından gedənlər əsasən Sibirin Koqalın, Surqut, Omsk, Tomsk, Tümen şəhərlərində məskunlaşıblar. Əvvəllər Moskvada və Sankt-Peterburqda məskunlaşmağı üstün tutan bakılılar və abşeronlular gül biznesinin iflasından sonra indi əsasən Uzaq Şərqdə-Vladivostok, Xabarovsk şəhərlərinə və Saxalinə üz tuturlar. Qəribədir ki, Lənkəran, Masallı, Astara subtropik rayonlarının əhalisi sərt soyuqdan qorxmayaraq Rusiyanın iqlimi şaxtalı olan şimal rayonlarında-Murmanskda, Arxangelskdə və Zapolyariyanın sair yaşayış məntəqələrində məskunlaşırlar.

Qarabağdan gedənlər əsasən Samarada, Nijni-Novqorodda, gəncəlilər Moskvada, Moskva ətrafı rayonlarda və Sankt-Peterburqda yaşamağı üstün tuturlar. Hazırda Qarabağın tərkib hissəsi olan Ağdam, Fizuli, eləcə də Naxçıvan əhalisinin nümayəndələri Moskvada məskən salmaqla onun bazarlarının ticarətində fəal iştirak edirlər.

Rusiyada azərbaycanlıların fəaliyyət sferası genişdir. Rusiyada doğulanlar və Sovet hakimiyyəti illərində təhsil almaq, işləmək üçün gələnlərin çoxu elm, mədəniyyət, incəsənət sahəsində çalışır, ya da iri bizneslə məşğul olurlar. Adətən bunlar Moskvada, Sankt-Peterburqda və s. şəhərlərdə Azərbaycan icmalarına başçılıq edir, bu sahədə idarəetmə sistemində mühüm rol oynayır.

Qarabağ münaqişəsindən və SSRİ dağılandan sonra Rusiyaya, Ukraynaya, Belorusiyaya gedən azərbaycanlıların xeyli hissəsi istehsal və qeyri-istehsal sahələrində, mövsümü işlərdə, tikintidə, sənaye və nəqliyyatda, xidmət sahələrində və hüquq mühafizə orqanlarında, ticarətdə işləyirlər[1].

[1] Россия и Закавказье: Реалии независимости и новое портнерство. Москва ЗАО «Финстайшинформ» 2000. стр. 112

**Azərbaycan əhalisinin beynəlxalq miqyasda iştirakı (min nəfərlə)**

**Cədvəl 20**

| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 1990-2000 illərdə cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycana gələnlərin cəmi, o cümlədən | 84279 | 6222 | 5781 | 7528 | 5404 | 4806 | 4361 | 118381 |
| MDB və Baltikyanı ölkələr | 83607 | 6002 | 5642 | 7447 | 5350 | 4780 | 4250 | 65684 |
| Rusiyadan | 30857 | 5968 | 5800 | 3588 | 2826 | 2952 | 2710 | 48701 |
| Ukraynadan | 4355 | 367 | 385 | 743 | 390 | 300 | 291 | 6561 |
| Belorusiyadan | 549 | 51 | 45 | 56 | 25 | 37 | 29 | 792 |
| Özbəkistandan | 7057 | 336 | 462 | 647 | 248 | 146 | 142 | 9038 |
| Qazaxıstandan | 3190 | 341 | 339 | 405 | 306 | 183 | 150 | 4914 |
| Gürcüstandan | 637 | 942 | 656 | 986 | 496 | 354 | 307 | 10378 |
| Litvadan | 119 | 5 | 3 | 14 | 7 | 22 | 16 | 186 |
| Moldovadan | 144 | 6 | 11 | 6 | 18 | 10 | 2 | 197 |
| Latviyadan | 237 | 35 | 19 | 31 | 12 | 4 | 1 | 339 |
| Qırğızıstandan | 1562 | 38 | 27 | 61 | 29 | 35 | 35 | 1787 |
| Tacikistandan | 147 | 31 | 32 | 27 | 24 | 9 | 6 | 276 |
| Türkmənistandan | 1336 | 165 | 202 | 268 | 187 | 137 | 175 | 2470 |
| Estoniyadan | 67 | 9 | 13 | 19 | 1 | 3 | - | 45 |
| Ölkəsi göstərilməyənlər | 27350 | 708 | 648 | 866 | 781 | 588 | 386 | 31327 |
| MDB və Baltik-yanı ölkələr istisna olunmaqla | 672 | 220 | 139 | 81 | 54 | 26 | 111 | 1303 |
| Almaniyadan | - | - | - | - | - | - | - | 2 |
| İsraildən | - | 6 | 2 | 6 | 4 | - | 25 | 43 |
| ABŞ-dan | - | - | 1 | 1 | - | - | 5 | 7 |
| Türkiyədən | - | 23 | 10 | 12 | 6 | 3 | 17 | 71 |
| İraqdan | - | 31 | 40 | 41 | 14 | 9 | 44 | 179 |
| Pakistandan | - | 2 | - | - | 1 | - | 1 | 6 |
| Polşadan | - | - | - | - | - | - | - | - |
| Yunanıstandan | - | - | - | - | - | - | - | - |
| Digər ölkələrdən | 972 | 158 | 86 | 19 | 29 | 14 | 17 | 995 |

**Azərbaycan əhalisinin beynəlxalq miqyasda iştirakı (min nəfərlə)**

| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 1990-2000 illərdə cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycanдан gedənlərin cəmi, o cümlədən | 137900 | 16033 | 13151 | 15703 | 10498 | 9142 | 9947 | 212374 |
| MDB və Baltikyanı ölkələrə, onlardan | 128756 | 13685 | 111031 | 14594 | 10063 | 8658 | 9521 | 196308 |
| Rusiyaya | 77452 | 11312 | 8149 | 12363 | 9175 | 7118 | 8393 | 133962 |
| Ukraynaya | 12794 | 860 | 704 | 1116 | 381 | 655 | 513 | 170023 |
| Belorusiyaya | 1904 | 151 | 111 | 173 | 65 | 132 | 148 | 2684 |
| Özbəkistana | 1234 | 144 | 94 | 148 | 45 | 103 | 46 | 1814 |
| Qazaxıstana | 1975 | 204 | 188 | 189 | 156 | 153 | 174 | 3039 |
| Gürcüstana | 1934 | 178 | 193 | 224 | 81 | 129 | 97 | 2836 |
| Litvaya | 104 | 7 | 4 | 11 | 1 | 5 | 2 | 134 |
| Moldovaya | 228 | 12 | 17 | 11 | 5 | 8 | 7 | 288 |
| Latviyaya | 239 | 5 | 5 | 2 | 1 | 2 | 1 | 255 |
| Qırğızıstana | 212 | 41 | 34 | 73 | 18 | 30 | 31 | 439 |
| Tacikistana | 128 | 7 | 3 | 2 | 1 | 6 | 3 | 150 |
| Türkmənistana | 1406 | 118 | 1235 | 86 | 37 | 187 | 63 | 3132 |
| Estoniyaya | 113 | 2 | 58 | 4 | - | 3 | 1 | 181 |
| Ölkəsi göstərilməyənlərə | 29033 | 644 | 236 | 192 | 97 | 127 | 42 | 30371 |
| MDB və Baltikyanı ölkələr istisna olunmaqla | 9144 | 2348 | 2120 | 1109 | 435 | 484 | 426 | 16066 |
| Almaniyaya | 20 | 74 | 407 | 6 | 120 | 127 | 62 | 816 |
| İsrailə | 8442 | 1688 | 1253 | 643 | 153 | 179 | 199 | 12557 |
| ABŞ-a | 543 | 570 | 445 | - | 103 | 92 | 103 | 1856 |
| Türkiyəyə | 2 | 3 | 1 | 113 | 39 | 56 | 23 | 237 |
| İraqa | - | 3 | 6 | 2 | 10 | 6 | 24 | 51 |
| Pakistana | - | - | - | - | - | - | - | - |
| Polşaya | 4 | 3 | - | - | 2 | 7 | - | 16 |
| Yunanıstana | 35 | 3 | 5 | - | - | - | 3 | 46 |
| Digər ölkələrə | 98 | 4 | 3 | 345 | 8 | 12 | 12 | 482 |

Ümumiyyətlə, müvəffəqiyyətlə Rusiya cəmiyyəti ilə inteqrasiyaya girən azərbaycanlılar, Rusiya Federasiyasının mötəbər orqanlarının verdiyi məlumata görə, hər il Azərbaycana-öz ailələrinə, qohumlarına 2,5 mlrd. ABŞ dolları göndərirlər ki, bu da respublikaya daxil olan xarici kapitaldan demək olar ki, 2,5 dəfə çoxdur[1]. Bundan əlavə, Ukrayna, Belorusiya, Pribaltika və s. regionlarda yaşayan azərbaycanlılar da ailələri və qohumları üçün xeyli miqdarda pul göndərirlər. Beləliklə, onların hesabına Azərbaycanda yaşayan çoxlu insanlar, ailələr dolanırlar. Onu da qeyd etmək lazımdır ki, 1998-ci ilin avqust ayında Rusiyada baş vermiş iqtisadi, maliyyə böhranından sonra oradan respublikaya daxil olan maliyyə vəsaiti təxminən 800 min dollara qədər azalmışdırsa da, sonrakı illərdə bunun miqdarı yavaş-yavaş artmağa başlamışdır.

Belə vəziyyəti də nəzərə almaq vacibdir ki, respublikadan kənara gedənlər bir sıra ciddi neqativ problemlər yaradır. Bunun səbəbi ondan irəli gəlir ki, gedənlərin əksəriyyəti gənc yaşlı subay kişilərdən ibarətdir. Belə bir vəziyyət əhalinin cins qrupunda uyğunsuzluq yaradır, demoqrafik inkişafı pozur, əhali artımını azaldır. Qarabığ münaqişəsində ölənlər, yaralananlar, əlil olanlar 2 milyondan artıq RF-yə və sair xarici ölkələrə gedənlər Azəlbaycanda milyondan artıq yaşayan cavan qadınların və qızların tənha qalmasına səbəb olun ki, bu da əhalinin tərkibində ciddi neqativ hallar yaradır, nəsil artımını ləngidir, əhalinin adət-ənənəsinə, ləyaqətinə ciddi nöqsan gətirən vəziyyət yaradır.

Azərbaycanda, xüsusilə 4 milyondan artıq əhali məskunlaşmasına malik olan şəhərlərdə gərgin sosial vəziyyətlə əlaqədar iş yerlərinin məhdudluğu əsasən cavanların xarici ölkələrə getməsinə səbəb olur.

Aqlomerasiya daxilində və ondan kənarda iş yerlərinin məhdudluğu sosial qurumda, iri şəhərlərdə, xüsusilə Bakıda

---

[1] Россия и Закавказье: Реалии независимости и новое портнерство.. Москва ЗАО «Финстайшинформ» 2000. стр. 112

ciddi problemlər yaradır. Belə şəraitdə respublikanın şəhərlərində bir sıra proseslər baş verir. Bu ondan ibarətdir ki, bir çox xarici şirkətlər, kompaniyalar tərəfindən ictimai, yaşayış binalarının tikintisi, abadlıq işləri aparılsa da, cüzi miqdarda əhalini işlə təmin edə bilmir.

Son illərdə xarici şirkətlərin, imkanlı şəxslərin Bakıda tikdikləri yaraşıqlı binalar şəhər mühitini gözəlləşdirmişdir. Lakin elə etmək lazımdır ki, xarici şirkətlərin tikdikləri komfortabelli, yaraşıqlı binalar şəhərin özünəməxsusluğuna xələl gətirməsin.

İmkanlılar və varlılar şəhər daxilində, kənarındakı boş yerlərdə yeni seliteb yaşayış massivləri yaradırlar, bunlar da kiçik və orta biznesin köməyi ilə şəhər infrastrukturunu genişləndirir və bir növ yeniləşdirir. Ümumiyyətlə, müasir urbanizasiya şəraitində dövlət, ictimai tabelikdə olan müəssisələrin özəlləşdirilməsi, əhali arasında təbəqələşmənin formalaşması şəraitində mexaniki hərəkət və «rəqqas miqrasiyası» əvvərdə məskunlaşmış yerlərdən şəhərlərə, xarici ölkələrə əhali axını artır.

Son illərdə respublika şəhərlərində miqrasiya və məskunlaşma proseslərinin qaçqınlar, köçkünlər və iş axtaranlar hesabına intensiv hal alması xalq təsərrüfatı sahələrinin tənəzzülü şəraitində əmək qabiliyyətli əhali arasında işsizliyi artırmışdır.

Bütün bunların sayəsində son 10 ildə respublikada elə bir vəziyyət yaranmışdır ki, əhalinin mexaniki hərəkəti mənfi saldo vəziyyətini almış və bu proses indi də davam etməkdədir. Belə şəraitdə respublikada miqrasiya mənfi saldoya malik olmaqla 1994-cü ildə 45,0 faiz, 1995-ci ildə 49,0 faiz, 2000-ci ildə isə 56,0 faiz, Bakı üzrə müvafiq olaraq 20,0, 22,0, 28,0 faiz təşkil etmişdir.

Ən kəskin vəziyyət Bakı aqlomerasiyasında yaranmışdır. Böyük Bakı aqlomerasiyasından kənara gedənlərin sayı təbii artımdan 2 dəfə çox olmuşdur ki, bu da onun əhalisinin xeyli azalmasına səbəb olmuşdur. Sumqayıtda 1999-cu ildə 3500-

nəfərlik təbii artım müqabilində, 2800 nəfər kənara getmişdir ki, bu da əhali artımını xeyli məhdudlaşdırmışdır.

Şəhərlərdə əhalinin məskunlaşması onların iqtisadi, ictimai urbanizasiya inkişafının etalonu kimi qiymətləndirilir.

Bakı və Sumqayıt şəhərləri respublika ərazisinin 6,9 faizinə, əhalinin 28,8 faizinə respublikada şəhər əhalisinin 56,0 faizinə malikdir. Burada olan kəndlər məzmunca məskən statusunu dəyişərək, əksəriyyət şəhər tipli, az hissəsi isə fəhlə qəsəbələri adını almışlar. Say etibarı ilə respublikadakı qəsəbələrin 44,0 faizi yəni 50 ŞTQ olan Bakı və Sumqayıtdadır.

Göstərilən ŞTQ-lər respublikanın iqtisadi, sosial həyatında mühüm əhəmiyyət kəsb etməklə, yaşayış məntəqələrinin, məhsuldar qüvvələrin inkişafına təsir edir. Son illərdə Bakı və Sumqayıt şəhərlərinin respublika sənayesindəki xüsusi çəkisi 1980-ci illərə nisbətən aşağı düşsə də, hakim mövqeyini saxlayır.

Son 10 ildə maşınqşayırma, gəmi təmiri, cihazqayırma, yüngül, yeyinti sənayesi, tikinti kompleksinin, sənaye müəssisələrinin tənəzzülə uğraması şəraitində, neft və qazçıxarma müəssisələri 14 xarici kompaniya və şirkətlərin iştirakı ilə bağlanmış kontraktlar əsasında Xəzər dənizində neftçıxarma sənayesi inkişafını davam etdirir.

1990-cı ilə qədər Abşeron iqtisadi rayonunda tikinti və tikinti quraşdırma işləri ilə məşğul olan 100-ə yaxın yerli müəssisələrin 90 faizi fəaliyyətdən dayanmışdır. Hazırda burada xarici şirkət və kompaniyalar fəaliyyət göstərir. Abşeron iqtisadi rayonunda yerləşən sənaye müəssisələrində 1980-cı illərdə işləyən 100 min nəfərə qədər fəhlə və qulluqçuların çox hissəsi işsizlər ordusuna daxil olmuş, bir hissəsi iş dalınca başqa regionlara getmişlər.

Suveren Azərbaycan Respublikasının xalq təsərrüfatının müxtəlif mülkiyyət formalarına münasib intensiv istehsal quruluşunun təkmilləşdirilməsi zəruriyyəti ortaya çıxır. Mülkiyyət sahibliyindən, formalarından asılı olmayaraq bazar münasibətlərinə uyğun mütərəqqi texnikaya, texnoloji

üsullara əsasən istehsal, qeyri-istehsal sahələrinin inkişafına münasib kadrlar, mütəxəssislər hazırlanması dövrün tələblərindən irəli gəlir.

Rayonlararası miqrasiyanın, şəhərətrafı «rəqqas miqrasiyasının» nizama salınması bu və ya digər istehsal komplekslərində, şəhərlərdə, ŞTQ-lərdə əmək qabiliyyətli əhalinin mobilliyində, işlə təmin edilməsində optimal səviyyəyə nail olmaq, bazar münasibətlərini də nəzərə almaqla əhalinin, regionun təklif və tələbatından asılı olaraq əmək, enerji, elm tutumlu elə istehsal sahələrinin yerləşdirilməsi lazımdır ki, onlar geniş kooperasiya, iqtisadi əlaqələrə, yüksək məhsuldarlıq qabiliyyətinə malik olsun.

Əmək tutumlu istehsal sahələrinə gəldikdə isə burada ən çox şəhərətrafı zanolarda, rayonlarda kənd təsərrüfatının aqrotexnikanın elmi əsaslar üzərində inkişaf etdirilməsinin təmin edilməsidir. Bu sahəyə dövlət yardımının göstərilməsi, kəndlinin, fermerin xeyrinə vergi siyasətinin tənzimlənməsi dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olmalıdır. Bununla yanaşı, sıx əhaliyə malik superurbanizasiya mərkəzlərində ekoloji cəhətdən təmiz mütərəqqi texnoloji üsullara əsaslanan enerji, əmək, elm tutumlu sahələrin inkişafı ön plana çəkilməlidir.

Müasir dövrdə istehsal sahələrinin elmi-texniki tərəqqinin tələblərinə uyğun yerləşdirilməsi, əhalinin səmərəli məskunlaşmasında, miqrasiyanın nizama salınmasında, yerli əhalinin başqa rayonlara axınının qarşısının alınmasında əsas tədbir kimi qiymətləndirilməlidir.

Abşeronun urbanilәşdirilmiş rayonlarında, xüsusilə şəhər daxilində əhalinin, nəqliyyatın hərəkətində gərginlik yaradan bir səbəb də ondan ibarətdir ki, şəhər və şəhəryanı təsərrüfatlarda torpaqlardan səmərəli istifadə edilmiir, çox hallarda normativ və aqrotexniki qaydalar pozulur.

Rəsmi məlumatlara əsaslanaraq demək olar ki, Bakı və Sumqayıt da daxil olmaqla, respublikanın iri şəhərlərində müxtəlif tikinti obyektləri altında normadan xeyli artıq tor-

paq sahələri qalmışdır. Belə proses şəhər ərazisini eninə və uzununa örtərək, aqrosənaye üçün torpaq çatışmazlığı, nəqliyyatın, əhalinin hərəkətində xeyli gərginlik yaradır. Öz növbəsində, bunlar torpaq ehtiyatlarından səmərəsiz istifadə, ekoloji mühitin pozulması şəraitində baş verir. Belə neqativ hallar şəhər mühütində yaşıllıqların, parkların bağbostan sahələrinin inkişafını məhdudlaşdırır.

Azərbaycan Respublikasında əhali sıx məskunlaşmışdır. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına əsasən 86,6 min kv. km ərazi tutan (*erməni işğalı altında olan torpaqlar daxil olmaqla*) respublika ərazisində indi 8080 min (*2000-ci il*) adam məskunlaşıb və hər kv. km-də orta hesabla 93,3 adam yaşayır. Respublikada ərazi üzrə əhali məskunlaşması arasında xeyli fərqlər vardır. Ən sıx əhali Abşeron iqtisadi rayonunda məskunlaşıb və burada hər kv. km-də orta hesabla hazır 380 adam yaşayır ki, bunun da 98,4 faizi Bakı, Sumqayıt şəhərlərinin, şəhər tipli qəsəbələrin payına düşür.

Şəhər insan əli və zəkası ilə yaranmış intensiv məskunlaşma, sənaye istehsalı, nəqliyyatın təmərküzləşmə yeridir. Bu, daimi artmaqda, inkişaf etməkdə olan insanların yaşayış mühiti, müxtəlif təmayüllü istehsal və qeyri-istehsal sahələrinin, elmi-texniki tərəqqinin obyekti, intellektual səviyyəli kadr potensialının, dövlətin qanunverici və idarəedici təşkilatlarının (*bu paytaxt şəhərinə aiddir*) məskunlaşdığı ərazidir. Şəhərlər cəmiyyətin tərəqqi yolunda hərəkətverici mərkəzi olmaqla yeniləşdirici, yaradıcı, tətbiqedici qüvvəsidir, texniki, texnoloji mütərəqqi «laboratoriyasıdır», insanların mənəvi, intellektual elm və maarif, səhiyyə tərəqqisinin «emalatxanasıdır», bu və ya digər dərəcədə məskunlaşma siyasətinə malik olan iqtisadi, sosial, elm, texnika, mədəniyyət, maarif və s. cəhətdən üstünlüklərə malikdir. Belə bir səviyyəyə malik olan şəhər eyni zamanda sosial, ekoloji, bəşəri intizam baxımından bir sıra nöqsanlar, neqativ hallar yaradır, mütərəqqi inkişafla bir cərgədə xoşagəlməz fəaliyyət göstərir.

Şəhərin miqyası, fəaliyyət funksiyası bəşəriyyətin, isteh-

salın inkişafının qanunauyğun istiqamətlərindən irəli gəlir və bu iki proses ümumi inkişafın vahidliyi-ayrılmaz qoludur. Belə olduqda bizə elə gəlir ki, məhdud, dəyişməyən sərhədi olan yer kürəsində geometrik sürətdə artmaqda olan çoxmilyardlı əhali gələcəkdə ən çox sığınacaq yerini əsasən şəhərlərdə tapacaqdır ki, bu da obyektiv proses kimi super şəhərlərin miqdarını artıracaqdır.

Bəşəriyyətin qarşısında duran ən vacib problem ondan ibarət olacaqdır ki, nəhəng və super nəhəng şəhərlərin «təbiətləşdirilməsi» qeydinə qalsın, onların mərkəzi hissəsindən başlamış kənarlarına-«cəzb edən ərazisinə» qədər yerlər, yaşıllıqlar, parklar içərisində olsun. Bu urbanizasiyanı məskunlaşmanı yaradan əsas proses ekoloji mühitin təbii nizamlayıcısı kimi qiymətləndirilməlidir.

Urbanizasiya dövrü olan XX əsrin sonunda şəhərlərdə dünya əhalisinin 40 faizi cəmləşib (*Azərbaycanda 51,0 faiz*). Gözlənildiyinə görə XXI əsr urbanizasiya notasına son qoymalıdır. Bu o deməkdir ki, dünya əhalisinin çox hissəsi şəhərlərdə, onların yarısından çoxu isə super şəhərlərdə yaşayacaqdır. Dünya iqtisadi, ictimai, sosial, elm və texnika, mədəni inkişafda insanların intellektual səviyyəsinin artırılmasında şəhərlərin rolu daim fəaliyyət göstərir.

Şəhərlərin tarixi abidələrini-mədəniyyət, hərbi, sənətkarlıq nişanələrini, «əsərlərini» saxlayıb bizə qədər çatdıran Qəbələ, Bərdə, Gəncə, Bakı, Naxçıvan, Mingəçevir şəhərlərinin arxeoloji qazıntıları bizdən əvvəl yaşayan əhalinin həyat tərzi, mədəniyyəti haqqında son dərəcə qiymətli məlumatlar verir və qədim dövrün informasiya arsenalı kimi zəngin, elmi, tarixi sərvət mənbəyidir. Göstərilən tarixi məlumatlar müasir sivilizasiyanın inkişafında yol göstərən qiymətli xəzinədir.

Şəhərlər insanlar arasında ünsiyyət məskəni olmaqla, cəmiyyətin çoxlu problemlərinin yaradıcısı və onların həlli istiqamətində qərar qəbuledici məntəqədir.

İstər məskunlaşma, istərsə də iqtisadi, sosial, ekoloji cə-

hətdən respublika şəhərlərinin tarixi mərhələlər üzrə öyrənilməsi, ölkənin inkişafı və əhalinin yaşayıb yaratması ortaya çıxan hər hansı neqativ halların əvvəlcədən qarşısının alınması, mütərəqqi tədbirlərin həyata keçirilməsi üçün bir sıra qiymətli məlumatlar əldə etmək zəruri vəzifədir.

Bundan əlavə, əhali urbanizasiyanın, istehsal təmərküzləşməsinin çox hallarda sosial gərginliklərin ocağı olan şəhərlərin coğrafi mövqeyinin, ərazi xüsusiyyətlərinin, məskunlaşmanın insan potensialının şərhi də böyük əhəmiyyətə malikdir. Bununla belə, elmi tədqiqat işləri şəhərin inkişafında, sosial iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən şəhəryanı ərazi kompleksi ilə bir sırada öyrənilir.

Şəhərin iqtisadi, sosial, demoqrafik tədqiqatı konstruktiv olduğu kimi, iqtisadi-coğrafi mövqedə onun layihələşdirilməsi şəhərsalma problemləri ilə aparılır. Müxtəlif istehsal təmayüllü müəssisələrin və qurğuların məcmusu kimi ətraf mühitə geniş miqyasda təsir edən şəhər mühiti gərgin ekoloji şəraitdə fəaliyyət göstərir, təbii – iqtisadi görkəmi dəyişdirən amilə çevrilir.

Azərbaycanın müxtəlif təbii şəraiti, relyef quruluşu, təsərrüfat əhəmiyyətli yeraltı, yerüstü sərvətləri, geosiyasi mövqeyi, əhali artımı, müasir urbanizasiya səviyyəsində, şəhərlərin inkişafı və funksiyalarının formalaşmasında mühüm rol oynayır. Göstərilən amillərin iqtisadi, ekoloji baxımdan düzgün qiymətləndirilməsi onların strateji inkişafının əsasını təşkil edir.

SSRİ-nin süqutundan sonra rayonlararası, rayondaxili iqtisadi, elmi-texniki əlaqələrin zəifləməsi, pozulması ilə yanaşı əhali məskunlaşmasında, miqrasiya prosesində kəmiyyət və keyfiyyət dəyişkənliyi baş verir.

Bunların ortaya çıxması və inkişaf etməsində şəhərlərin yerləşdiyi coğrafi mövqe mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, məntiqi olaraq iqtisadi coğrafiya üçün mühüm obyekt olan şəhərə coğrafi əmək bölgüsü məntəqəsi kimi yanaşmaq lazımdır.

Samkir

Şəhər sakini ərazi, əmək bölgüsünün mühüm amilidir. Bu mənada şəhəri iqtisadi, sosial, demoqrafik baxımdan təhlil edərkən kompleks yanaşmaq zəruriyyəti ortaya çıxır. Şəhər təkcə iqtisadi, sosial qurum olmayıb, həm də sənayenin, mədəniyyətin, maarifin, incəsənətin və mənəvi varlıqların mərkəzidir. Hər şeydən əvvəl şəhəri sakinləşdirən, urbanizasiya yaradan əhalidir.

Şəhərdə bir çox nəsillərin həyatı və fəaliyyəti ənənə, peşəkarlığı, yaşayış tərzinə, mədəniyyətə, memarlığa, təsərrüfata malik müəyyən mühit yaratmışdır. Şəhərin çoxsahəli iqtisadi, sosial qurumluğu, mürəkkəb funksional struktura malik olması, başqa regionlarla, şəhərlərlə iqtisadi əlaqələrin aparılmasını zəruri şərt kimi qarşıya qoyur. Burada məqsədyönlü vəzifələrdən biri də sənətkarlığın, ixtisaslaşmanın bu və ya digər şəhərlərdə necə, hansı yollarla təşəkkül tapması, inkişaf etməsi və belə şəraitdə demoqrafik inkişaf proseslərinin araşdırılmasından ibarətdir.

Şəhər mövzusunun tədqiqatı, onun obyektiv nəticələrinin həyatda tətbiqi rayonun və ölkənin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Şəhərin yerləşdiyi əraziyə xas olan iqtisadi, sosial, demoqrafik, ekoloji amillər onun sakinlərinin yaşayış tərzini, məşğulluğunu, ixtisaslaşmış istehsal sahələrini, memarlıq sənətini və abidələrini, iqtisadi, coğrafi xarakteristikasını, şəhər mühitində təbii landşaftlardan istifadə edilməsini əks etdirir.

Şəhər mövzusu nəinki daxili coğrafi əlaqələrin möhkəmləndirilməsi üçün, eləcə də iqtisadi, sosial ictimai, sahəvi istehsala, ərazi-istehsal kompleksləri arasında olan əlaqələrin təhlili üçün zəruridir.

Şəhər çox mərhələli qurum olmaqla, müxtəlif dövrlərə məxsus iqtisadi, sosial demoqrafik inkişaf tərzlərini özündə əks etdirir. Şəhərin binaları, küçələri, meydanları, mədəni və tarixi abidələri keçmişin şahididir. Onun bina edilməsi, keçdiyi yol tarixi mərhələdə dövlətin iqtisadi, hərbi-strateji inkişafa yönəldilmiş cəhdlərinin məhsuludur.

## 4.4. Şəhər mühitində məskunlaşma və miqrasiya

Əgər yaşayış məntəqələri arasında əhali gediş-gəlişinin potensial imkanları konkret rayona məxsus olan sosial-iqtisadi vəziyyətin kompleks şəraitindən asılıdırsa, onların həyata keçirilməsi nəqliyyat vasitələrinin hərəkət fəaliyyətindən asılıdır. Müasir dövrdə şəhəryaradıcı, rayonəmələgətirici vəzifənin yerinə yetirilməsində şose, dəmir yollarının, müxtəlif nəqliyyat vasitələrinin böyük əhəmiyyəti vardır. Onların vasitəsilə əhalinin rayonlararası, rayondaxili, rəqqasın gediş-gəlişi, miqrasiya hərəkəti fəaliyyət göstərir.

Əhalinin şəhərdaxili, rayonlararası, hərəkəti şəraitində dövlət tabeliyindəki avtomobil, dəmir yolları nəqliyyatı, sərnişin və yük daşınmasının öhdəsindən gələ bilmir və bu proses ölkə daxilində narahatlığa səbəb olur. Hazırda bu sahədə geniş fəaliyyətə başlayan özəl, icarə, şəxsi nəqliyyat vasitələrinin yük və sərnişin daşınmasında istədikləri kimi aldıqları yol haqları əksər hallarda şəxsi mənfəətə xidmət edir.

Yüksək kapital, material, yanacaq tutumluğu ilə fərqlənən nəqliyyat vasitələrinin əsas əhəmiyyəti şəhərarası və şəhərdaxili, kəndlərarası ərazidə yük və sərnişin daşınmasında kompleks vəzifənin həyata keçirilməsidir. Azərbaycan Respublikası ərazisində dəmir yolu, şose yolu, dəniz yolu, boru kəmər xətləri, hava yolları bir-birilə əlaqəli surətdə uzlaşan sərnişin və yük daşınmalarında fəaliyyət göstərirlər. Uzun illərdir ki, respublikada dəmir yolu və şose yollarının uzunluğu dəyişilməmiş, əksinə, çox yerlərdə şose yollarının keyfiyyəti pisləşməkdədir, onların təmiri isə maliyyə vəsaiti çatışmazlığından vaxtında aparılmır. Belə şəraitdə dəmir yolu ilə 2000-ci ildə 15876 min.t avtomobil nəqliyyatı ilə 8934 min ton yük daşınmışdır ki[1], bunlar da 1990-cı ildə olduğundan müvafiq olaraq 5 və 17 dəfə azdır. Həmin il av-

---

[1] Müstəqil Azərbaycan 10 il. Bakı –2001. Səh.541.

tomobil nəqliyyatı ilə daşınan yük dəmir yolunda olduğundan iki dəfə az idı.

Müasir dövrdə şəhərdaxili, şəhərlərarası nəqliyyat xidmətinin qiymətləndirilməsində məntəqələrarası yol xidmətləri nəzərə alınmalıdır. Təcrübə göstərir ki, respublikanın şəhərlərində, xüsusilə Bakıda sair iri və orta yaşayış məntəqələrində 1-2 km. (*15-30 dəqiqəlik*) məsafədə əhali əsasən piyada gedir. Belə məsafədə nəqliyyat hərəkətinin nəzərə alınması ümumilikdə şəhər nəqliyyatının qiymətləndirilməsində əsas şərt kimi götürülə bilməz.

Əlbəttə, iri və orta şəhərlərdə 1-2 km məsafənin nəqliyyatla təmin olunması üzrə sərhəd qoymaq olmaz, çünki məskunlaşma genişdir, burada gediş-gəliş intensiv olduğundan mikrorayonlar, şəhərətrafı kəndlər, qəsəbələr arasında hərəkət nəqliyyat vasitəsilə aparılır.

Azərbaycanın rayon mərkəzlərində, nisbətən kiçik ərazi tutan şəhərlər daxilində əhalinin əksəriyyəti piyada hərəkət edir. Bakı ilə respublikanın şəhərləri, rayon mərkəzləri arasında əlaqələr avtonəqliyyat və dəmir yolları ilə aparılır. Burada avtomaşınların sürəti yolların keyfiyyətindən asılı olaraq nizamlanır.

Şəhərlərarası, kəndlərarası xidmətdə, sərnişin və yük daşınmasındakı fəaliyyəti istehsal komplekslərinin, əhali hərəkətinin cazibə zonalarının təsiri altında formalaşır.

Göstərilən ərazidə nəqliyyatın intensivliyi, yol şəbəkələrinin sıxlığı, şəhər mərkəzi, ərazi-istehsal kompleksi ilə əlaqəsi, yolların yük, sərnişindaşıma qabiliyyəti (*kateqoriyalar üzrə*) ayrı-ayrı, marşrutlar arasında hərəkət sürəti, bunların fəaliyyət zonalarında məskunlaşan əhalinin miqdarından çox asılıdır.

Bundan əlavə, nəqliyyat xidmətlərindən istifadə edilməsi, buna uyğun yolların vəziyyəti şəhərdaxili və şəhərlərarası nəqliyyatın inkişafını qiymətləndirən mühüm göstəricidir.

Şəhərlərarası, şəhərdaxili nəqliyyat kompleksinin, yolların vəziyyəti qiymətləndirilməsində xəritəçilik və qrafioana-

litik metodlardan istifadə edilir.

Bunlara əsasən apardığımız tədqiqatlardan belə nəticə əldə edilmişdir ki, respublikada orta hesabla 1 kv km-ə 0,02 km dəmir yolu, 0,38 km şose yolları düşür. Abşeron yarımadasını əhatə edən Bakı və Sumqayıt şəhər sovetləri ərazisi nisbətən rahat yollar şəbəkəsinə malikdir. Bakı-Qazax, Yevlax-Mingəçevir, Bakı-Xaçmaz-Quba zonalarında rayon, mərkəz şəhərləri ilə kənd yaşayış məntəqələri arasında avtomobil, dəmir yolları ilə hərəkət vaxtı orta hesabla 30-35 dəqiqəlik vaxt tələb edir.

Azərbaycan Respublikası inzibati rayonlarda dəmir yolları vağzalına və rayon mərkəzlərinə getmək avtomaşınla orta hesabla 40-45 dəqiqəlik məsafə qət edilir. İndi respublikanın kəndləri orta hesabla magistral yollardan və şəhər mərkəzlərindən 10-15 km məsafədə yerləşir, Təhlil göstərir ki, bir neçə məsafədə hərəkət edən magistral yolları çıxmaqla inzibati rayonlarda kəndarası yollarla rayon mərkəzi arasındakı yollar çınqıl örtüyə malik olduğundan müasir tələbatı ödəmir, maşınların hərəkət sürətini azaldır, aşınma və təmir işlərini artırır.

Respublikanın böyük və orta şəhərlərində, onların ətrafında hərəkətdə olan avtomaşınların iş rejimi elədir ki, kənarda yaşayanlar axşamdan keçmiş mədəni tədbirlərdən istənildiyi kimi istifadə edə bilmir, çünki geri qayıtmaq üçün nəqliyyat seyrək işləyir. Kəndlə şəhər əlaqələri arasında olan bir mənfi cəhət də ondan ibarətdir ki, yaşayış məntəqələri arasında nəqliyyat əlaqələri qənaətbəxş deyil. Belə halda sərnişin xeyli vaxt itirməli olur.

Şəhərlə şəhərətrafı nəqliyyatda bu proses müəyyən qədər çatışmazlığa səbəb olur, ona görə ki, bu qədər vaxt itirilməsi əhalini müəyyən qədər işdən ayırır. Bunun aradan qaldırılmasını bizim fikrimizcə, iki yolla həll etmək olar: birincisi, şəhərətrafı rayonlarda və ya kəndlərdə əhalinin sənaye və kənd təsərrüfatı məhsullarına, mədəni və tibbi xidmətə olan tələbatının ödənilməsini yaxşılaşdırmaq; ikincisi,

rəqqasvari və birbaşa miqrasiyanın fəaliyyətinə uyğun nəqliyyatın işini təkmilləşdirmək.

İstər sosial, demoqrafik aspektdə, istərsə də ümumiyyətlə, ərazi istehsal istiqamətində şəhəri müəyyən edən əlamətlərdən biri «rəqqas miqrasiyası»dır. Bu proses respublikanın iri və böyük şəhərlərinə xas olan təsiredici əlamət kimi fəaliyyət göstərir. Lakin son 10 ildə Bakı, Sumqayıt, Gəncə şəhərlərindəki sənaye müəssisələrinin əksəriyyətinin fəaliyyətinin dayanması və ya tənəzzülü sayəsində şəhərətrafı rayonlardan başlayan «rəqqas miqrasiyası»nın hərəkəti xeyli zəifləmişdir.

Ümumiyyətlə, «şəhərətrafı» yaşayış məntəqələri hesabına «rəqqas miqrasiyası»nın genişləndirilməsi, ona şərait yaradılması iqtisadi-sosial, istehsalın ərazi təşkili baxımından neqativ hal kimi qiymətləndirilməlidir. Bunun obyektiv səbəbi ondan ibarətdir ki, bu və ya digər şəhər aqlomerasiyası daxilində yerli təbii şəraitdən, təbii sərvətlərin istifadəsindən, əhalinin məşğulluğunun səmərəli təşkilindən, istehsalla istehlakın, onlara olan tələbatın qarşılıqlı əlaqəsinin uzlaşdırılmasından, planlaşdırılmasından asılı olaraq, təsərrüfat, xidmət sahələrinin münasib düzgün yerləşdirilməsi nəqliyyatı, «kəfkir miqrasiyası»nın hərəkətini gərginləşdirir.

Bu şəhərin tutduğu ərazinin, urbanizasiya proseslərinin normal inkişafından kənara çıxır. Bunlardan nəticə çıxarıb demək olar ki, başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da iri və böyük şəhərlərin «rəqqas miqrasiyası»nın məhdudlaşdırılması qarşıda duran zəruri problemlərdən biridir.

Həqiqətdə «rəqqas miqrasiyası» urbanizasiyanın müasir mərhələsinin təbii və son dərəcə səciyyəvi təzahürüdür. Respublikanın iri və orta şəhərlərini, rayon mərkəzlərini, onların ətrafındakı yaşayış məntəqələrini əhatə edən rayonlarda əhalinin sosial mobilliyinə, peşə seçilməsinə şərait yaradılması, boş vaxtların səmərəli keçirilməsi, şəhərlə ətraf ərazilərdə nəqliyyatın hərəkətinin səmərəli təşkili, miqrasiyanın nizama salınması əsas tədbirlər sisteminə daxildir.

İqtisadi, sosial, elmi-texniki baxımdan şəhərlə kəndlərin «yaxınlaşması», şəhər aqlomerasiyasının genişlənməsi «rəqqas miqrasiyası» ilə əvəz edilməsinə şərait yaradır. Nəqliyyatın intensiv inkişafı, respublikanın urbanizasiya areallarında – Ələtdən başlamış Bilgəh, Buzovna, Mərdəkan, Qala, Pirallahı qəsəbəsinə qədər, Mingəçevir-Yevlax, Gəncə-Xanlar, Hacıqabul-Əli-Bayramlı, Salyan-Neftçala, Quba-Xaçmaz ərazisində «rəqqas miqrasiyası»nın hərəkətini artırır. Abşeron yarımadasında bu hərəkət 100-110 km, yuxarıda göstərilən qalan aqlomerasiyalarda 15-20 km arasında tərəddüd edir.

Bazar münasibətlərinə keçid dövründə, müxtəlif mülkiyyət formalarının inkişaf etdirilməsi, şəhər aqlomerasiyasından kənarlarda sərbəst əmək ehtiyatlarının işlə təmin edilməsi və məhsul bolluğu yaradılması hesabına miqrasiyanın, xüsusən «rəqqas miqrasiyası»nın hərəkət radiusunu xeyli qısalda bilər.

Bu, şəhər urbanizasiyasının gərginliyini xeyli yumşaltmaqda mühüm vasitədir. Məlumdur ki, yaşayış yerindən asılı olmayaraq hər hansı şəxsin harada olur-olsun işləməyə ixtiyarı var. Lakin nəzərə alsaq ki, bu «ixtiyar» hər şeydən əvvəl maddi maraqdan, sosial vəziyyətdən, yaşayış yeri ilə iş yeri arasında olan məsafədən, əməyin ödənilməsindən irəli gəlir, onda bunun əsasında əlverişli, yaşayış yerlərinə daha yaxın əmək tədbiqi obyektlərinin, müəssisələrin seçilməsi zəruriliyi ortaya çıxır.

Belə şəraitdə yol-nəqliyyat hərəkətini gərginləşdirən, aqlomerasiya daxilində urbanizasiyanı artıran, müvafiq əhali arasında yorğunluq yaradan «rəqqas miqrasiyası»nın nizamlanması zəruri hal hesab edilməlidir.

Lakin belə miqrasiyanı yaradan şəraiti, səbəbləri təhlil edib onları araşdırmadan bu sahədə səmərəli tədbirlər irəli sürüb həyata keçirmək mümkün deyil.

Belə hesab etmək olar ki, «rəqqas miqrasiyası» rayon, respublika daxilində urbanizasiya yaradan meyarlardan biridir. Hazırda hər gün respublikanın rayonlarından, Abşeron

**Ərazi statusundan asılı olaraq əhalinin yaşayış məntəqələri arasındakı «rəqqas miqrasiyası»nın məqsədli quruluşunda baş verən dəyişiklik**

**Cədvəl 21**

| Şəhərə nisbətən individin ərazi statusu | Yaşayış məntəqələri arası gediş-gəlişi nizamlayan əsas dəlillər (*şəhər mərkəzilə əlaqədar*) | Ərazi statusunda mümkün olan dəyişiklik | Yaşayış məntəqələri arası hakim səbəblər | | | |
|---|---|---|---|---|---|---|
| | | | Ərazi statusu dəyişməsinin ilk ilində | | Daha uzaq perspektivdə | |
| | | | Müntəzəm gediş-gəliş | Dövri gediş-gəliş | Müntəzəm gediş-gəliş | Dövri gediş-gəliş |
| «Rəqqas miqrasiyası», təzə köçənlər | əmək<br>qonaq | yeni sakin<br>əsl sakin | qonaq<br>rekreasiya | qonaq<br>qonaq | rekreasiya<br>rekreasiya | qonaq<br>rekreasiya |
| | mədəni-məişət | yeni sakin | qonaq | qonaq | rekreasiya | qonaq |
| Şəhərə yaxın rayon sakini (*şəhərdən 1,5-2 km. saatlıq yol*) | (şəhər mərkəzinə yaxın köçmüş rəqqas | | | | | |
| Həmin sakin | miqrant<br>şəhər mərkəzinə rekreasiya məqsədilə gəlməyənlər | mədəni-məişət | əmək | mədəni-məişət<br>qonaq | əmək | mədəni-məişət |
| Uzaq rayonların sakini | | yeni sakin | rekreasiya | | rekreasiya | qonaq |

iqtisadi rayonu qəsəbəsindən, kəndlərindən Bakı şəhərinə təxminən 300-310 minə qədər adam gəlib-gedir. Ümumi əhali tərkibində bu qədər əhalini də şəhər əhalisi tərkibinə daxil etmək olar, çünki onlar müvəqqətidə olsa şəhərliyə məxsus olan «vəzifələri» yerinə yetirirlər.

«Rəqqas miqrasiyası»nda iştirak edən şəhər əhalisi tərkibində fəhlələrin, qulluqçuların ümumi məşğul əhali tərkibində xüsusi çəkisinin müəyyən edilməsi zəruri hesab edilir. Təxmini hesablamalara görə, respublikada «rəqqas miqrasiyası»nda iştirak edən fəhlələr, qulluqçular, tələbələr və s. ümumi əhalinin 9,0-10,0 faizini təşkil edir. Rəsmi məlumatlara əsasən, Polşada, Almaniyada bu rəqəm 18,0-20,0 faiz, Rusiya Federasiyasında, Macarıstanda 12,0-13,0 faiz arasında tərəddüd edir.

1990-cı illərdən əvvəl Azərbaycan Respublikasının normal iqtisadi-sosial inkişafı dövründə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Əli-Bayramlı şəhərləri müəssisələrində, xüsusilə, ağır sənaye sahələrində işçi qüvvəsinə çox ehtiyac duyulduğundan şəhəryanı kəndlər və rayonlar hesabına miqrasiya hərəkəti geniş fəaliyyətdə olub. Lakin Bakı, Sumqayıt, Gəncə kimi böyük şəhərlərdə kənardan gələn əhalinin yaşayış yerlərində qeydiyyata alınmasının məhdudluğu üzündən miqrasiya şəhərətrafı ərazilərdə yeni yaşayış məntəqələrinin yaratmışlar. Belə şəraitdə şəxsi təsərrüfatlarda, fərdi şəxslərdə olan avtomobillər miqrasiyasını bir növ «mexanikləşdirir», şəhərin və onun ətrafında yol-nəqliyyat hərəkətini gərginləşdirir.

Yuxarıda deyilənlərdən belə məlum olur ki, «şəhər anlayışı» urbanizasiya proseslərini ifadə etmək üçün heç də kifayət deyil. İnkişafın dialektik yolu belədir ki, şəhərlərin böyüməsi tam transformasiya yaradır. Belə şəraitdə urbanizasiya terminologiyasının son dərəcə şərti olmasını nəzərə almaq lazımdır və onunla da razılaşmaq zəruri hesab edilməlidir ki, onlar şəhər mühitində yaşayışın ziddiyyətli və dinamik olmasını əks etdirir.

İlk məlumatların çox hallarda amorflu olması (*forma-*

*sız, şəkilsiz)* və bu prosesin kəmiyyət ifadəsi mərhələsində ciddi çətinliklərin ortaya çıxmasına baxmayaraq urbanizasiyanın fəaliyyətini tam müəyyən etmək olar.

Hər yerdə urbanizələşmiş areal, «rəqqas miqrasiyası», qeyri-kənd təsərrüfatı kimi əlamətləri hesaba almaqla urbanizasiya proseslərini səciyyələndirən göstəricilərin müəyyən edilməsinə indi ehtiyac duyulur. Polşa şəhərşünası Y.Qorınskinin dediyi kimi, ümumi əhali nisbətinə görə «şəhər mühitində yaşayan əhalinin say meyarına əsasən «urbanizasiya ölçüsünü» axtarmaq faydasızdır və metodiki cəhətdən düzgün deyil»[1].

«Urbanizasiya mexanizmi»ni və «kanallarını» aydınlığı ilə dərk etmək üçün onun hansı təsirlər altında inkişafına, haradan başlanmasına nəzər salaq. Bunlar aşağıdakılardır: birincisi, şəhər əhalisinin təbii artımı; ikincisi, kənd əhalisi hesabına, mexaniki artımı; üçüncüsü, boş yerdə yeni şəhərlərin yaranması; dördüncüsü, şəhəryanı ərazinin şəhər hüduduna daxil edilməsi; beşincisi, kənd yaşayış məntəqələrinin şəhərə çevrilməsi.

Yuxarıda göstərilən beş şərt urbanizasiyanın miqyasına təsir edir. Lakin müəyyən edilmiş şəhər hüdudundan kənara çıxan şəhərin faktiki inkişafı daha bir «kanalla» gedir. Urbanizasiya proseslərində, ümumiyyətlə, məskunlaşmada statistik məlumatların nəzərə alınması zəruridir, bunsuz hər hansı tədqiqatın aparılması faydasızdır.

Müasir dövrdə o, da nəzərə alınmalıdır ki, şəhərlərdə əhalinin təbii artımının azalması şəraitində mexaniki artım (*miqrasiya*) nəticəsində urbanizasiya sabitliyini saxlayar və ya artıra bilər. Bu proses hazırda nəinki Bakı, Sumqayıt, Gəncə, eləcə də respublikanın orta şəhərlərinə xas olan əlamətdir. Bu, kənd yerlərində elektrik işığının, yanacağın, qazın, çatışmazlığı, işsizliyin artması üzündən kənd əhalisinin

[1] Горынский Ю. Проблемы градостраительства в свете современной урбанизации. В сб. К вопросу теории и методики исследований территориально-экономического развития. Варшава.- 1987.

bir hissəsinin şəhərlərə miqrasiya etməsi ilə əlaqədardır.

Ola bilər ki, kənd sakinlərinin şəhərə gəlməsi ləng getsin, dayansın, hətta şəhərdən kəndlərə əhali köçməsi baş versin. Son 4 ildə respublika şəhərlərindən əhalinin başqa rayonlara köçüb gedənlərin hesabına ümumi əhalidə şəhər əhalisinin xüsusi çəkisi 54,0 faizdən 51,0 faizə enmişdir. Belə şəraitdə şəhərə əhali axınının zəifləməsi mövqeyində miqrasiya hesabına kənd əhalisinin artımı müşahidə edilə bilər.

Beləliklə, urbanizasiya prosesini yuxarıda göstərilən halda bir tərəfli əlaqələndirmək bizim fikrimizcə, düzgün deyil. Kəndlərdən şəhərlərə axını, «qarşılıqlı» surətdə şəhər həyat tərzinin yayılması və aqlomerasiyanın inkişafı urbanizasiyanı formalaşdıran kompleks amillər hesab edilir. Bununla əlaqədar urbanizasiya prosesində baş verən interpretasiya hərəkətinin müəyyən məhdudluğunu qeyd etmək olar. Yuxarıda qeyd etdiyimiz amillər urbanizasiya proseslərinin məzmununu əks etdirən başlıca xüsusiyyətlərdən biridir.

Bunlardan başqa, müasir dövrdə urbanizasiyanın başqa aspektləri, texniki tərəfləri də məlumdur. Bu problemlərin əsaslı surətdə elmi-texniki tərəqqi əsasında həll edilməsində yeraltı, yerüstü, dənizin sərvətlərindən istifadə «kosmik» şəhərlərin tikilməsi müasir dövrdə şəhər sivilizasiyasının əsasında durur.

Ənənəvi urbanizasiya haqqında olan mübahisələr, fikir ayrılığı bu sahədə zəruri olan bir sıra məsələlərin həllini, «şəhərin yeni konsepsiyasını», təmayülünü müəyyən etməyi tələb edir.

Əhalinin ənənəvi məskunlaşma forması kimi fəaliyyət anlayışı haqqındakı mübahisəli fikirlər ona səbəb olur ki, məzmun etibarı ilə bir sıra müəlliflər şəhərin urbanizasiya prosesinə insanlar arasında münasibət seçimi kimi baxırlar. Əlbəttə, bununla razılaşa bilmərik ona görə ki, urbanizasiya və şəhər anlayışı vahidlik təşkil edir.

Şəhər anlayışı hər hansı sənaye, inzibati mərkəz, məskunlaşma, mənzil-məişət şəbəkəsi ilə sıx surətdə bağlıdır və

belə şəhərlər uzun müddət xalq təsərrüfatının ərazi strukturu və məskunlaşma sistemi kəsimində dayanan mühüm obyektdir. Şəhərin belə anlayışı, nəzəri cəhətdən onun sosial, xalq təsərrüfatı, demoqrafik, texniki, informasiya baxımından xüsusiyyətini müəyyən edir.

Şəhər əhalisinin, istehsal alətlərinin, kapitalın, zövqün, istehsalın, təmərküzləşməsi faktını təmsil edir, halbuki kənddə bir-birindən təcrid olunmuş və əlaqəsizlik kimi diametral ziddiyyətlər mövcuddur. Göstərilən planda şəhərlərin özünəməxsus xüsusiyyətini müasir dövrdə heç də tükənən hesab etmək olmaz.

Şəhərlə kənd arasındakı əlaqələrin aparılmasında indi mövcud olan nöqsanlardan biri də sərnişin və yük daşınmasından alınan gəlirin az hissəsi nəqliyyatın təşkilinə və iqtisadi səmərəliliyin yüksəlməsinə az sərf edilir ki, bu da xalq təsərrüfatı kompleksində nəqliyyat sisteminin son səmərəliliyinə cavab vermir.

Bizim fikrimizcə, nəqliyyatın kompleks fəaliyyətinin təkmilləşdirilməsi, yük və sərnişin daşınmasının yaxşılaşdırılması və bu sahədə ayrı-ayrı nəqliyyat vasitələrinin uzlaşdırılması naminə sahəvi prinsiplərindən imtina edilməli və nəqliyyata kompleks baxımdan yanaşılmalıdır. Ən zəruri məsələlərdən biri də sərnişin daşınması ilə yanaşı yük dövriyyəsinin səmərəli təşkili, nəqliyyat-iqtisadi əlaqələrin yaxşılaşdırılmasıdır.

Nəqliyyatın belə hərəkəti müvafiq yolların rahatlığı şəraitində vaxta qənaət edilməsinə imkan yaradar, sərnişin hərəkətinin nəqliyyat xərcini xeyli azaldar. Hazırda respublikanın ayrı-ayrı şəhərlərində, xüsusilə Bakı, Sumqayıt şəhərləri ərazisində avtonəqliyyatda gündəlik gediş-gəliş təxminən iki min manata başa gəlir. İstər indi, istərsə də gələcəkdə şəhərdaxili və şəhərlərarası nəqliyyat hərəkətinin yaxşılaşdırılması yol şəbəkəsinin marşrutlara uyğun təkmilləşdirilməsini və yol örtüyünün yaxşılaşdırılmasını, əhalinin iqtisadi imkanlarına uyğun sərnişin haqqının nizamlanma-

sını tələb edir.

Dünya təcrübəsi göstərir ki, yol-nəqliyyat vasitələrinin bu üsulla yaxşılaşdırılması onların buraxılış qabiliyyətini iki dəfə artırar, yanacağa, əməyə qənaət edər. İstehsalın belə təşkili yolların rahatlığını təmin edər, xidmət xərclərinin məsrəfçiliyini aradan qaldırar.

Yol-nəqliyyat xidmətinin təkmilləşdirilməsi müvafiq texniki-iqtisadi layihə sənədlərinin tərtib edilməsini tələb edir. Burada, belə bir sual meydana çıxır ki, respublikada hər kvadrat kilometr ərazidə nəqliyyat şəbəkəsinin sıxlığı nə qədər olmalıdır. Əlbəttə, bunun üçün ümumi qəbul edilmiş qayda yoxdur, çünki nəqliyyatın sıxlığı ərazinin relyefindən, bu və ya digər rayonda istehsalın inkişafından, əhalinin, yaşayış məntəqələrinin məskünlaşmasından, sosial-iqtisadi inkişafın səviyyəsindən asılıdır.

Ən sıx nəqliyyat şəbəkəsinə malik olan Abşeron iqtisadi rayonunda dəmir yolu, şose yolu, elektrik ötürücü xətləri, yeraltı metro, su, neft, qaz kəmərləri fəaliyyətdədir. Bunların vasitəsilə daşınan yüklər, dəmir yolu və dəniz nəqliyyatının yüklərini formalaşdırır. Beləliklə, Abşeron yarımadasında mövcud olan bütün nəqliyyat növləri bir-birilə uzlaşma şəraitində inkişaf etdirilir.

Şəhərlər respublika rayonları ilə iqtisadi, nəqliyyat əlaqələri saxlayır. Burada mövcud olan avtovağzallar, dəmir yol vağzalları, dəniz limanı, müvafiq nəqliyyat növlərinin qarşılıqlı hərəkətini nizama salır və formalaşdırır. Göstərilən vağzallar şəhər daxilində əhalinin sıxlığından və intensivliyindən asılı olaraq maşınların fəaliyyətini, «rəqqas miqrasiya» hərəkətini nizamlayır.

Bununla yanaşı, bu sahədə bir sıra neqativ hallar mövcuddur. Belə ki, şəhərin ayrı-ayrı rayonlarında nəqliyyatın təşkilində yaranan nöqsanların aradan qaldırılması üzrə əsas tədbirlərdən biri avtonəqliyyat vağzallarının şəhər ərazisində əhalinin yerləşmə rayonlarına münasib seçilməsi və texniki təchizatın yaxşılaşdırılmasıdır. Bunlar isə nəqliyyatın

izoxronoqrammasının tərtibini tələb edir.

Şəhər daxilində yol şəbəkəsinin sıxlığı nəqliyyatın konfiqurasiyasının, yeni hərəkət modelinin tərtib edilməsindən çox asılıdır. Buraya hərəkətin nizama salınması məqsədyönlü nəqliyyatın təşkili bu və ya digər ərazinin hərəkət yollarından, dayanacaqların məsafəsindən asılıdır.

Şəhərdaxili və şəhərətrafı əhali məskunlaşmasından, istehsal və xidmət sahələrinin yerləşməsindən asılı olaraq yol şəbəkələrinin sıxlığı yük, sərnişin buraxma qabiliyyəti, nəqliyyatın hərəkət intensivliyi ilə müəyyən edilir.

Şəhərin mərkəzilə onun təsiri altında yerləşən ərazinin radiusu ilə nəqliyyatın fəaliyyəti arasındakı yol hərəkət əlaqələri, fəaliyyət zonasının mənimsənilməsinin, idarə edilməsinin məhsuludur. Şəhər mərkəzinin və müəssisələrinin fəaliyyət dairəsi nə qədər böyük olarsa, o qədər də nəqliyyatın xidmətinə tələbat artır.

Dağlıq zonalarını çıxmaqla respublika daxilində şəhərlərin və onlarda yaşayan əhalinin sıxlığı arasında o qədər də fərq yoxdur. Respublika şəhərlərinin arasındakı radius məsafəsi orta hesabla 20-25 km arasında tərəddüd edir, lakin dağ rayonları müstəsnalıq təşkil edir. Əhalisi seyrək, relyefi mürəkkəb olan belə yerlərdə yaşayış məntəqələri bir-birindən xeyli aralı yerləşir. Əlbəttə, belə şəraitdə yol şəbəkəsi sıxlığından, nəqliyyatın hərəkət intensivliyindən bəhs etmək faydasızdır.

Şəhərlərarası və kəndlərarası «rəqqas miqrasiyası» səviyyəsində əhalinin iş, təhsil və s. məqsədlər üçün gəlib-getməsi ümumi miqrasiyada ikinci yeri tutur. Şəhərətrafı və şəhərlərarası sistemdə kütləvi nəqliyyat üzrə sərnişin və yük daşınması Azərbaycan şəhərləri üzrə ümumiyyətlə, 18-20 faiz təşkil etdiyi halda, Bakı və Sumqayıt üzrə 28-30 faizə qədər qalxır. Beləliklə, ümumi əhali axınında iş axını miqrasiyasının iri şəhərlərdə yüksək mövqe tutması, onların mərkəzi hissəsində istehsalın və xidmət sferasının intensiv təmərküzləşməsindən asılıdır.

Bakı, Sumqayıt, Gəncə, Naxçıvan şəhərləri üçün xarakterik xüsusiyyət ondan ibarətdir ki, öz ətrafında şəhəryanı təsərrüfatı və aqlomerasiyanı formalaşdırır. Şəhər, qəsəbə, kəndlər arasında əhalinin hansı məqsədlər üçün gedib-gəlməsinin təhlilini verməzdən əvvəl, bunları törədən forma və səbəbləri araşdırmaq lazımdır. Bizim fikrimizcə, bu mənada «rəqqasmiqrasiyası» ilə «ümumi miqrasiyanı» eyniləşdirmək elmi-praktiki baxımdan düzgün deyil. Çünki ətraf rayonlardan və şəhərətrafı zonadan gəlib şəhər əhalisinin sayını artıran miqrantlar arasında mövsüm ərzində çox fərq ortaya çıxır. Sözün əsl mənasında geniş miqyasda əhali miqrasiyasının fəaliyyəti yerdəyişmə ilə yanaşı şəhər mühitində vətəndaşlıq hüququ qazanmaqdan ibarətdirsə və burada «əsl miqrasiya» hərəkətdədirsə, «rəqqas miqrasiyası» ona nisbətən yaxın məsafədə fəaliyyət göstərir.

Əhali hər hansı səbəb üzündən həm «rəqqas miqrasiyası»nda, həm də ümumi fonda miqrasiya etməklə sakinləşir. Məlumatların təhlili sübut edir ki, kütləvi hərəkət miqyasına görə «rəqqas miqrasiyası» öz məzmunu etibarı ilə birbaşa miqrasiyanın əksi deyil.

Belə hesab edirik ki, «rəqqas miqrasiyası» şəhərdə yaşamaq məqsədilə şəhər mühitinə daxil olmaq üçün atılan ilk addımdır. Şəhərdəki müəssisələrdə idarə və təşkilatlarda işləyən, tədricən onun mühitinə alışıb müxtəlif yollarla orada yaşamaq üçün işlədiyi yerlərdə mənzil almaq ixtiyarına sahib olurlar. Bu, şəhərlə kənd arasında fəaliyyətdə olan qarşılıqlı «rəqqas miqrasiyası»nın son təzahürü kimi meydana çıxır.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən məqsədli vəziyyət mütləqdir. Şəhərə yaxın şəhərətrafı zonaların əhalisi şüurlu olaraq «rəqqas miqyasına» qoşulurlar və şəhər mühitində yaşamaq hüququ qazanırlar. Başqaları isə şəhərdə işləyib onun ətrafındakı kənd mühitində yaşamağı üstün tuturlar.

«Rəqqas miqrasiyası»nda iştirak edənlərin çox hissəsi

böyük şəhər mühitində yaşamaq üçün adaptasiyaya-adət etmə mühitinə uyğunlaşma qabiliyyətinə yiyələnirlər. İqtisadi-sosial nöqteyi-nəzərdən yeni həyat şəraitinə yuğunlaşmağın belə forması yüksək səviyyədə səmərə verməklə sosial aspektdə daha çox üstünlük təşkil edir. Sübut edilmişdir ki, «rəqqas miqrasiyası»nın iştirakçısı olan insanlar şəhərdə yaşayış hüququ qazandıqda onların həyat tərzi tədricən yeni mühitə uyğunlaşır, kənd təsərrüfatı məhsulları istehsalından istehlakçıya çevrilir, beləliklə də onların hesabına əhali arasında müəyyən struktur dəyişikliyi baş verir.

«Rəqqas miqrasiyası»nın ərazi statusunun dəyişilməsini stimullaşdıran əsas amillərdən biri də gediş-gəlişə vaxt sərf edilməsidir. Bu amilin təsiri iki istiqamətdə özünü göstərir: nəqliyyatla hərəkətində çoxlu xərc sərfində və yaşayış yerindən nəqliyyatla şəhərə gəlib-getməyin yorğunluğunda.

Səciyyəvi haldır ki, müasir dövrdə daha uzaq rayonlardan respublikanın iri şəhərlərinə – Bakıya, Sumqayıta, Gəncəyə xas olan «rəqqas miqrasiyası» geniş vüsət alır. Hərəkət məsafəsinə uyğun itirilmiş vaxt və buna münasib xərclər artır. Belə olduqda gediş-gəliş məsafəsinin artması ilə nəqliyyatın inkişafı uzlaşdırılmır. Çünki göstərilən məsafə artıqca vaxt uzanır, yol xərci də bahalaşır.

Belə proses istər rəqqas, istərsə də «ümumi miqrasiya» iştirakçılarının xeyrinə deyil. Vaxta və yol xərcinə qənaət məqsədilə miqrantların bir hissəsi şəhərə yaxın yerlərdə məskən salır və bununla onlar «ümumi miqrasiya» prosesində fəallıq göstərirlər. Digər tərəfdən, uzun müddət ərzində kənd həyatında tutduqları istehsalçı fərdiliyindən şəhər mühitində istehlakçıya çevrilirlər və bu da bir növ istehsal prosesini məhdudlaşdırır.

Kütləvi xarakter alan belə vəziyyət şəhərlərdə gərgin olan urbanizasiyanı, çətin həyat tərzini daha da gərginləşdirir. Son on ildə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan əhalisinin bu istiqamətdə artması sosial-iqtisadi baxımdan bir sıra xoşagəlməz problemlər yaradır.

Miqrantların məskunlaşması, hərəkət radiusunun məsafəsi, yaşayış səviyyəsi göstərir ki, Bakı, Sumqayıt, Gəncə şəhərlərinin təsir dairəsi ərazisində sakinlərin yenidən bölüşdürülməsi, əvvəllərdə boş olan yerlərin mənimsənilməsi vəzifəsi ortaya çıxır. Son illərdə Abşerona, Gəncəyə, Sumqayıta, Naxçıvana, Əli-Bayramlıya, Mingəçevirə, Şamaxıya və s. qaçqın, köçkün axını, miqrantların gəlməsi ilə əlaqədar yeni kəndlər salınmış, qəsəbələrin əhalisi artmış əvvəllərdə boş olan geniş ərazilər yaşayış məntəqələri adı altında mənimsənilmişdir. Bunlarla əlaqədar Bakı, Sumqayıt şəhər İcra Hakimiyyətləri ərazisində, həmçinin yuxarıda göstərilən şəhərlərdə əhali artır, onun tərkibində kəmiyyət dəyişkənlikləri baş verir, əmək qabiliyyətli əhalinin sayı çoxalır.

Belə şəraitdə iş yerlərinin məhdudluğu, sabit Sovet İttifaqı dövründə fəaliyyətdə olan küllü miqdarda sənaye, kənd təsərrüfatı, tikinti materialları istehsalı, tikinti komplekslərində və s. sahələrdə istehsal fəaliyyətinin dondurulması işsizliyin artmasına səbəb olur, yerli istehsal hesabına maddi nemətlər istehsalının məhdudlaşdırdığı zaman sosial-iqtisadi vəziyyəti gərginləşdirir.

Avtobusla 40-45 dəqiqəlik məsafədə Bakı Dəmir Yolu Vağzalı dairəsində 0,5 milyondan çox əhali məskünlaşmışdır ki, bunlardan da təxminən 280-300 min nəfəri «rəqqas miqrasiyası» ilə şəhərin mərkəzi hissəsinə gəlib gedənlərdir.

Rəqqas miqrantların hərəkət dairəsinin şəhər mərkəzinə nisbətən məsafəsi və bunun gələcəkdə hansı ölçüdə qəbul edilməsi mübahisəlidir. Qəbul edilmiş ümumi rəyə görə gələcəkdə şəhərlərin böyüməsi, əhalinin artması və urbanizasiyasının sıxlığı, şəhərətrafı təsərrüfatın genişləndirilməsi «rəqqas miqrasiyası» məsafəsini artıracaqdır. Əhali axını ilə əlaqədar şəhərl daxili ərazidə baş verən sosial-iqtisadi proseslərin dinamikasının açıqlanması məqsədilə müvafiq materialların təhlil edilməsi zəruriliyi ortaya çıxır.

Dövlət statistika orqanları tərəfindən hər il şəhərlərdə, şəhər tipli qəsəbələrdə işləyən əhalinin hesabatı aparılır.

«Rəqqas miqrasiyası» haqqında statistik məlumatların bir başqa növü də yaşayış yerlərində işləyənlərin dövrü olaraq hesabatının aparılmasıdır. «F-1» formasında kəndlərdə, şəhərlərdə yaşayan əhalinin «rəqqas miqrasiyası» üzrə hərəkəti nəzərə alınır ki, bu da əsasən müəssisələrin göstəriciləri əsasında yerinə yetirilir. Hər iki halda hüquqi baxımdan harada qeydiyyatda olmalarından asılı olmayaraq «rəqqas miqyasında» iştirak edən şəxslərin hərəkət fəaliyyətləri nəzərə alınır.

Şəhərdə çoxlu müəssisələr var ki, onlar işçi qüvvəsini cəlb edərkən harada qeydiyyatda olmalarına əhəmiyyət vermir. Yuxarıda deyilən materialların təhlili göstərir ki, əhali miqrasiyası üzrə bu və ya digər informasiya kanallarının istifadəsində olan daban-dabana ziddiyyətlərin ortaya çıxmasına səbəb olur. Bizə elə gəlir ki, iri şəhər mərkəzlərinə doğru hərəkətdə olan «rəqqas miqrasiyası» fəaliyyətdə olan urbanizasiya şəraitində əmək etiyatlarından istifadə ilə əlaqədardır.

Dünyanın bir sıra dövlətlərində, məsələn, ABŞ-da, Almaniyada, Çexiyada, Yaponiyada, Koreyada sənayenin, nəqliyyat parklarının səmərəli yerləşdirilməsi, istehsal proseslərinin düzgün təşkili şəhərlə kənd arasında ictimai-iqtisadi fərqlərin aradan qaldırılması sayəsində «rəqqas miqrasiyası» üzrə gediş-gəliş xeyli azalmışdır. Əgər 1960-cı illərdə ABŞ-da hər gün şəhərətrafı rayonlardan şəhərlərdə işləməyə gələn 32 faizi «rəqqas miqrasiyası»nın payına düşürdüsə, son 35-40 ildə bunların miqdarı yarıbayarı azalmışdır.

Müasir dövrdə suveren Azərbaycan Respublikasının qarşısında duran problemlərdən biri də şəhər təsərrüfatının, nəqliyyatın, istehsalın səmərəli təşkili sayəsində rayonlar-arası, şəhərlərarası «rəqqas miqrasiyası»nın qarşılıqlı əhali axınının nizamlanmasıdır.

# V FƏSİL

# ŞƏHƏR VƏ URBANİZASİYA

## 5.1. Urbanizasiyanın məzmununun elmi əsasları və problemləri

İlk baxışdan urbanizasiyanın inkişafı ümumi əhali məskunlaşmasına nisbətən şəhər əhalisinin artımı ilə yanaşı, şəhər həyat tərzinə uyğunlaşma prosesi kimi gedir. Buradan sual meydana çıxır. Şəhər nədir, onun hansı amilləri kənd həyatından fərqlənir, hansı yaşayış məntəqələrini və nəyi şəhər statusuna, şəhər tipologiyasının məzmununa aid etmək olar?

İstər dünya, istərsə də keçmiş Sovet ədəbiyyatında elmi cəhətdən şəhər termininin müəyyən edilməsinə, «şəhər» anlayışına, onun miqyasına, yerinə yetirdiyi funksiyanın xarakterinə dair kifayət qədər məlumatlara baxmayaraq bu sahədə xeyli fikir ayrılığı mövcuddur.

Şəhər urbanizasiyasının genişlənməsi prosesi ilə yanaşı zahiri görünüşlə hamı tərəfindən qəbul edilməyən mübahisəli məsələlər ortaya çıxır. Kütləvi miqyaslı məlumatların təhlili göstərir ki, şəhərin müasir anlayışı iqtisadi, ərazi və sosial-demoqrafik baxımdan geniş surətdə transformasiyaya məruz qalır.

İnzibati və idarəetmə baxımından şəhər anlayışı müxtəlif ölkələrdə bir mənalı qəbul edilmir, müəyyən fikir dəyişkənliyinə məruz qalır. Bu da iqtisadi, ərazi, sosial, demoqrafik meyarların məzmunu və fərqindən irəli gəlir.

İqtisadi mənada şəhər, şəhər yaşayış məntəqəsi, kənd yerindən fərqli olaraq lokal miqyasda əhali məskunlaşma ərazisidir. İstər keçmiş Sovet İttifaqında, istərsə də uzun zaman onun tərkibində olan Azərbaycanda bu əlamət qanunverici aktlara əsasən yeni şəhərlərin, şəhər tipli yaşayış

məntəqələrinin yaranmasında əsas meyar kimi qəbul edilir. Bu və ya digər millətin ictimai-əmək bölgüsü, hər şeydən əvvəl sənaye, ticarət, əkinçilik əməyinin ayrılmasına və bununla da şəhərin kənddən seçilməsinə gətirib çıxarır və bu proses urbanizasiyanı formalaşdırır, ərazi miqyasını genişləndirir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə urbanizasiya təkcə şəhərlərdə və onların mühitində yaranmır. Faktlar göstərir ki, sanaye ilə məşğul olan əmək ehtiyatları kənd yerlərində də artaraq çoxlu miqdarda yaşayış məntəqələrini qeyri-kənd təsərrüfatı, sənaye, nəqliyyat, xidmət sahələrinə, eləcə də onları böyük şəhərlərin bir növ filiallarına çevirir.

Böyüklüyü və ixtisaslaşmasına görə kəndlər şəhər tipli qəsəbələr səviyyəsinə çatır, bunlar da öz növbəsində şəhərlə kənd arasında keçid məntəqəsini təşkil edir. Nəhayət, elm və texnikanın inkişafı, istehsalın sənayeləşdirilməsi, fermer təsərrüfatlarının aqrosənaye əsasında inkişaf etdirilməsi, kəndin, sosial qurumun dövrün tələbinə uyğun dəyişməsini və onun şəhər mühitinə yaxınlaşmasını təmin edir. Burada qarşılıqlı əlaqələr də ortaya çıxır və onların məzmunu bundan ibarətdir ki, sənaye istehsalı və münasibətləri əsasında şəhərətrafı kənd təsərrüfatının inkişafı müəyyən qədər sənaye əməyini kəndli əməyinə yaxınlaşdırır.

Bu proses Abşeron iqtisadi rayonunda daha geniş miqyasda baş verir. Azərbaycanda olan 114 STQ-in 50-si Abşeron iqtisadi rayonundadır və bunların əhalisinin əksəriyyəti ya sənaye müəssisələrində, ya da sənaye əsasında inkişaf etdirilən kənd təsərrüfatı ilə məşğuldur.

Kənd yaşayış məntəqələrinə nisbətən istehsalı bir növ «sənayeləşmiş» STQ-də iqtisadi, urbanizasiya kənd əhalisi əməyinin sənayeləşməsi istiqamətində inkişaf edir. Bu proses respublikanın kiçik, orta şəhərlərində, STQ-də baş verir və tədricən sonuncuların müəyyən hissəsinin şəhərə çevrilməsinə şərait yaradır. Respublikada, xüsusilə Abşeron iqtisadi rayonunda bir çox yaşayış məntəqələri mövcuddur ki, əhali-

sinin peşə ixtisasına görə şəhərlə kənd arası mövqedə durur.

Ərazi aspektində urbanizasiyanı təhlil edərək şəhərin təkcə qeyri-kənd təsərrüfatı fəaliyyəti ilə bağlılığını deyil, eləcə də sıx əhali urbanizasiyasına malik olan, yollar ayrıcında, yaşayış və sair binaların mərkəzləşdiyi ərazidə yerləşən iri məntəqə olması onu fərqləndirir.

Bu mənada şəhər anlayışı funksional, yaşayış, mənzil-məişət, yollar, sənaye, ticarət müəssisələri, xidmət sahələri şəbəkəsi daxilində fəaliyyətdə olan mərkəz, deməkdir ki, bunlar da bir növ idarəetmə funksiyasını yerinə yetirir. Mərkəzi mövqedə duran şəhərlər məskunlaşmanın ərazi sistemi fonunda özünəməxsus mövqe tutmaqla bərabər yerli əhali və ətraf rayonların miqrasiyası hesabına «urbanizasiya yaradıcı» obyektdir, xəritələrdə, atlaslarda əksini tapan ayrıca fokus «nöqtəsidir». Ərazi aspektində daimi hərəkətdə olan urbanizasiyanın təsiri altında baş verən dəyişiklik xəritələrdə nöqtə kimi göstərilən ayrıca şəhər, «şəhər-rayon», «şəhər-qəsəbə» və s. kimi urbanizasiya zonasına çevrilir.

Şəhər mühitinin təsiri altında, magistral yollara, sənaye müəssisələrinə yaxın kəndlər, STQ-lər tədricən «şəhərləşərək» urbanizasiya prosesini artırır. Belə şəraitdə Bakı, Gəncə, Sumqayıt, Əli-Bayramlı, Mingəçevir və s. «şəhərləşmiş» yaşayış məntəqələri hesabına ərazilərini genişləndirir.

Respublika şəhərlərinin ərazi urbanizasiyası bir sıra amillərin təsiri altında baş verir. Bura şəhərə bitişik, şəhərətrafı qəsəbələr – suburbanizasiya (*ingiliscə şəhərətrafı deməkdir*) daxildir.

Ona bitişik və şəhərətrafı qəsəbələrdə, sair yaşayış məntəqələri ilə birlikdə geniş ərazidə məskunlaşmaya məruz qalan, «şəhər aqlomerasiyası» və ya «konurbasiya» yaradan xüsusi ərazi bölgüsüdür. «Şəhər aqlomerasiyası» ən çox keçmiş Sovet və Fransa ədəbiyyatında, «konurbasiya», o cümlədən, Azərbaycanda onlar bir-birini əvəzedici sinonim kimi qəbul edilir, çünki hər ikisi şəhər mühitinin özünəməx-

sus quruluşunu, şəraitini, məskunlaşma sistemini, istehsal və qeyri-istehsal sahələrinin təmərküzləşməsini əks etdirir.

Son 25-30 ildə Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Mingəçevir şəhərlərinə xas olan əlamət ondan ibarətdir ki, hərəkətdə olan urbanizasiya konurbasiyaya çevrilmişdir və bu da aqlomerasiya (*xüsusilə Bakı-Sumqayıt şəhərlərində*) əmələ gətirmişdir. Respublikada intensiv urbanizasiyaya malik olan Bakı şəhəri, Ələtdən başlamış Qaradağa, oradan da Mərdəkan-Buzovna-Bilgəh-Sumqayıt istiqamətlərində konurbasiya ərazi sistemi yaratmışdır.

Sosial və demoqrafik baxımdan STQ-lər şəhər mühiti ilə bir cərgədə durur. Bir çox mütəxəssislər «həlledici amil» kimi şəhərin tərəfini «şəhər həyat tərzi» olaraq qələmə verirlər və eyni zamanda bu meyarın müəyyən edilməsinin çətinliyini qeyd edirlər. Şəhər yaşayış tərzinin kəndlə əks cərgədə durması «şəhər mühitini yaradır».

Y.Qorınski şəhər həyat tərzinin özünəməxsus əlamətlərini belə qeyd edir: a) qeyri-kənd təsərrüfat əməyi; b) iş və yaşayış yerlərinin sərbəst seçilməsi; c) sənaye, sənətkarlıq təmayüllü iş fəaliyyətinin genişləndirilməsi; ç) yaşayış mühitinin sərbəst seçilməsi və ondan asanlıqla ayrılma imkanı; d) müəyyən vaxt müddətində nizamlanan və planlaşdırılan iş vaxtı; e) ailənin dezinteqrasiyası, ictimai, şəxsi təsərrüfat bölmələri həcminin nizamlanması[1].

Sosial baxımdan müasir urbanizasiya böyük şəhərlərə məxsus yaşayış tərzini, adət və ənənəsini, onları kiçik şəhərlərə, kəndlərə geniş yayan hərəkət amilidir. Belə olduqda fəaliyyətdə olan hərəkət demoqrafik aspektdə şəhər urbanizasiyasının, kəndlərdən şəhərə kütləvi surətdə əhali axınının müəyyən qədər qarşısını alır.

Bu halda şəhərə yaxın və onun mühitinin təsiri altında olan yaşayış məntəqələrindən əhali şəhərə köçür, digər tə-

---

[1] Горинскию. Проблемы градостроительство в свете современной урбанизации. В сб. К вопросу теории и методики исследований территориально-экономического развития страны. Варшава. 1987

rəfdən, uzun müddət şəhərlərə məxsus yaşayış tərzi ondan uzaqda yerləşən əhali davranışına daxil olur. Göstərdiyimiz qarşılıqlı vəhdət şəhərlə kənd arasında sosial-mədəni, elm-maarif, səhiyyə fərqlərini yaxınlaşdırır, ciddi ayrılıqları aradan qaldırır.

Marksist mövqedən şəhərləşmənin sosial-iqtisadi məsələlərini öyrənən Q.Şmidt-Renner ictimai inkişafda şəhəri bir çox sosial hadisələrin, proseslərin üst-üstə yığıldığı, lokal sıxlaşmış mürəkkəb forma kimi qəbul edir, şəhərəmələgəlmə proseslərini nəinki ictimai əmək bölgüsünün, eləcə də əməyin ərazi kooperasiyasının tərkib elementinin keyfiyyət amili kimi daxil olur»[1].

Təmərküzləşmə konsepsiyasından asılı olaraq bir sıra müəlliflər şəhərlərin özünəməxsus xüsusiyyətlərini onların mərkəzi funksiyalarının səviyyəsi, regional mərkəzə xidmət rolu kimi qiymətləndirirlər. Buna Belçika coğrafşünası Lefevrini göstərmək olar. O, coğrafi cəhətdən şəhəri sıx əhali məskunlaşan, sakinlərin şəhər funksiyasını, onun ətrafı ilə birlikdə ticarət, sənaye, xidmət, inzibati vəzifələrinin yerinə yetirildiyi məntəqə kimi qəbul edir.

Şəhər yaşayış məntəqələrinin böyüklüyü əsasən onlarda yaşayan əhalinin miqdarı, urbanizasiya sıxlığı və demoqrafik təmərküzləşmə ilə ifadə edilir. Qanunvericilik aktları ilə nizamlanan şəhərin belə funksiyası, nisbətən lokal-ərazi tutumuna, az əhaliyə malik olan şəhər tipli qəsəbələrə da şamil edilir.

Ümumiyyətlə, əhalinin və istehsalın təmərküzləşməsi həmişə şəhər əlaməti olmuşdur, kənd təsərrüfatı sahələrinə nisbətən sənaye müəssisələri istehsalın yüksək təmərküzləşmə forması kimi qəbul edilir. Öz özlüyündə istehsalın təmərküzləşməsi və əhali urbanizasiyası şəhərin əsas funksiyasını təşkil edir və bu da sənayenin yerləşdiyi yer istehsal mallarının, istehsal məhsullarının alınıb-satılması, mülki, ali, hərbi

---

[1] Schnnidi-Rcnncrl. Upsahin dcislool lcbicgiung, Pcici mannes geografical Mlicilugcu, Vol, 109, 1995, №1.

hakimiyyətin məskunlaşdığı ərazi kimi köhnə təsəvvürlərdən fərqli olaraq daha müasirliklə qəbul edilir.

Təmərküzləşmə nöqteyi-nəzərdən Macarıstan şəraitində məskunlaşma yerlərinin şəhər və kəndlərə bölünməsi şəhərşünaslar, coğrafsünaslar arasında maraq doğuran məsələdir. Burada, ilk növbədə əsas funksiyanın inkişaf dərəcəsi, yaşayış məntəqəsinin «şəhər» səciyyəsini və onun cazibə sferasını müəyyən etməkdən ibarətdir. Buraya aşağıdakı amillər daxil edilir: a) inzibati, istehsal və sair müəssisələrlə birlikdə rayon mərkəzinin kompleks funksiyası (*şəhərə və rayona xidmət edən əhalinin sayının 20 mindən az olması*); b) səhiyyə, tibbi və təhsil müəssisələrinin mövcudluğu. (*tibbi müəssisələrin arealı, 20 mindən az olmayan əhaliyə xidməti, təhsil isə orta məktəblərdən ibarət*); c) 500 nəfərdən az olmayaraq məşğul əhalisi olan sənaye müəssisələri; ç) inkişaf etmiş təchizat funksiyası.

Burada ticarət şəbəkələri, xüsusilə ixtisaslaşmış ticarət müəssisələri əsas meyar kimi qəbul edilir və əhalisi 2000-5000 və ondan az olan yaşayış məntəqələrini kənd, əhalisi 5000-dən artıq olanları isə şəhər adlandırılır.

Şəhərin «haradan başlanmasını» müəyyən etməkdə «şəhər», «qəsəbə», «kənd» təkcə onların əhalisinin sayına görə təyin etmək kifayət deyil. Burada istehsalın təmərküzləşməsi, əhali urbanizasiyası, xalq təsərrüfatının sosial-iqtisadi əsası üzrə «şəhər» «kənd» bölgüsü prinsipi üzrə yaşayış məntəqələrinin vahid sistem üzrə təsnifatının aparılması lazım gəlir.

Onu da nəzərə alaq ki, indiki dövrdə «kənd təsərrüfatı sahəsi» ehtimal ki, təkcə əkinçilik və heyvandarlıqdan ibarət deyil, eləcə də buraya balıqçılıq, meşə təsərrüfatı, ovçuluq, sənətkarlıq, xalçaçılıq, yerli xammal bazası əsasında emal sənayesi və s. daxildir. Hər hansı şəraitdə mürəkkəb təmərküzləşməyə malik şəhər konsepsiyasının müəyyən edilməsində yaşayış məntəqələrinin iqtisadi, inzibati təsnifatı məskunlaşmanın nəzəri və metodiki konsepsiyasına, əhali urba-

nizasiyasına, sənaye istehsalının təmərküzləşməsinə əsaslanmalıdır.

Mürəkkəb təmərküzləşmə öz başlanğıcını məzmun etibarilə «şəhər məskunlaşma» hərəkətindən alır. Bunun da əsasında müvafiq ərazidə «vahid məskunlaşma prosesi», ərazi-iqtisadi, sosial, demoqrafik sistemdə bütün yaşayış məntəqələrinin qarşılıqlı əlaqələri durur.

Müasir şəhərin iqtisadi-inkişaf konsepsiyası ilə əlaqədar urbanizasiyanın məzmununu, təmərküzləşmə, inteqrasiya və yaşayış yerləri funksiyasının gərginləşdiyi obyekt-ərazi kimi başa düşülür.

Əhali məskunlaşmasının və urbanizasiyasının, ərazi inkişafının problemlərindən biri iqtisadi-coğrafiya elmində geniş yayılmış «sistemli yanaşma» üsuludur. Qeyd etmək lazımdır ki, «məskunlaşma sistemi»ndə olduğu kimi sistem ierarxiyası haqqında vahid fikir birliyi yoxdur. Məsələn, polşalı coğrafşünas Boleslav Maliş sistem əmələgətirici əlaməti əmək tətbiqi yeri kimi qəbul edərək məskunlaşma sistemini dörd tipə ayırır: a) iş yeri olan müəssisə daxilində məskunlaşma; b) kənd-şəhər məskunlaşma; c) müxtəlif qrup halında birləşən, çox tətbiqli və aparıcı mərkəzə tabe olan, bir neçə yaşayış məntəqəsini birləşdirən aqlomerasiya; ç) çoxpilləli mürəkkəb intensiv istehsal, əmək, texniki tutumlu istehsal əlaqələri olan sistemli məskunlaşma;

Fikrimizcə, yuxarıda göstərilən funksiyalardan asılı olaraq yaşayış məntəqələrini aşağıdakı ierarxiya tiplərinə ayırmaq olar:

a) kiçik şəhər və yaşayış məntəqələri əsasında formalaşan aşağı (*yerli*) ierarxiya sistemi;

b) yaşayış məntəqələri bazasında formalaşan aralıq mövqe sistemindən ibarət olub mərkəz rolunu oynayan orta və böyük şəhərlər. Bu sistemlər 30-50 km. radiusda olan birneçə kənd təsərrüfatı, inzibati rayonları əhatə edir.

c) bir-neçə lokal sistem bazasında formalaşan mərkəzə iri və böyük şəhərlərə meyl edən regional sistem. Burada sis-

temamalagatirici amil üstünlük taşkil edən istehsal əlaqələrilə yanaşı, mədəni-məişət, səhiyyə və s. əlaqələrdə mühüm rol oynayır. Bu sistem 130-150 km məsafə daxilində bir neçə rayon ərazisində, daha geniş iri ierarxiya sistemində fəaliyyət göstərir[1].

Bunlarla əlaqədar Azərbaycan şəhərlərini aşağıdakı ieararxiya təbəqəli sistemdə birləşdirmək olar: Buraya:

- Bakı və Naxçıvan paytaxt şəhərləri.
- Respublika tabeliyində, beynəlxalq əmək bölgüsündə iştirak edən Sumqayıt, Gəncə, Mingəçevir, Əli-Bayramlı kimi iri sənaye mərkəzləri,
- Respublika tabeliyindəki Şəki, Daşkəsən, Yevlax, Naftalan və erməni işğalı altında olan Xankəndi, Şuşa inzibati rayon mərkəzləri daxildir.

Beləliklə, Azərbaycanın şəhər ierarxiya tabeliyində paytaxt, iri sənaye mərkəzləri, respublika tabeliyindəki və inzibati rayon mərkəzləri, şəhərləri fəaliyyət göstərir.

Əhali məskunlaşması, urbanizasiya, nəqliyyat və iqtisadi əlaqələrin inkişafında yuxarıda göstərilən ierarxiya tabeçiliyinə uyğun işkişaf edir və istehsalın ərazi-sahəvi sisteminin «məkan karkasını» təşkil edir.

Ərazi məskunlaşmasında, urbanizasiya sistemində ierarxiya dedikdə o da nəzərdə tutulur ki, onların səviyyəsi, intensivliyi, yerləşdikləri rayonların iqtisadi, sosial inkişafı səviyyəsinə uyğun gəlir. O, mənada ki, ictimai əmək bölgüsündə əmək qabiliyyətli əhalinin məskunlaşması ilə əmək tətbiqi sahələrində uyğunsuzluq yaratmasın.

Məşhur şəhərşunas alim B.S.Xorev yazır: «Ölkənin məhsuldar qüvvələrinin ərazi konsepsiyasını düzgün izah etmədən urbanizasiya və məskunlaşma proseslərini dərk etmək mümkün deyil. Bunların idarə edilməsi iqtisadi rayonlaşma aparmadan həyata keçirilə bilməz. Beləliklə, məskun-

---

[1] Стронгина М. Л. Социально-экономические проблемы больших городов. Москва. 1989 с.72

laşma sisteminin delimitasiyası problemi müxtəlif taksonomik ranqda mövcud olan iqtisadi rayonların delimitasiya probleminə çevrilir[1]».

Mərkəzləşdirilmiş ierarxiya sistem üzrə respudlikada mövcud olan və bir neçə inzibati rayonları birləşdirən iqtisadi rayonları nəzərə almaq lazımdır. Məlumdur ki, əhalinin məskunlaşdığı yaşayış məskənləri ərazisində etdirilən istehsal və xidmət sahələri, müvafiq ixtisaslaşmaya uyğun iqtisadi rayonların sərhədini formalaşdırır və bunun özü iqtisadi-coğrafi baxımdan rayonlaşma istiqamətini müəyyən edir.

Gələcəkdə göstərilən bütün səviyyələrdə iqtisadi rayonlaşmanın inkişafının nəzəri və praktiki məsələlərinin öyrənilməsinin zəruriliyi ortaya çıxır. Bunlardan elə nəticə çıxarmaq olar ki, bazar münasibətləri və iqtisadi islahatlar şəraitində müvafiq problemlərin bunlara uyğun tədqiqatına ehtiyac duyulur. Bununla əlaqədar hər hansı taksonomik ranqda regional sistemin, şəhər və kənd məskünlaşmasının dialektik vahidliyi ərazi məskunlaşmasında ardıcıllıqla öyrənilməlidir. Ümumi halda məskunlaşma, urbanizasiya taksonomik vahiddə və çoxpilləli idarəçilik sistemi şəraitində iqtisadi, demoqrafik, sosial baxımdan nizamlanan yaşayış məntəqələri nəzərdə tutulur.

Burada əsas inkişaf konsepsiyasının məzmunu ondan ibarətdir ki, gələcəkdə respublikanın ayrı-ayrı iqtisadi rayonlarında məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi əsasında regional məskunlaşma sosial-iqtisadi baxımdan əlaqəli sürətdə inkişaf etdirilən və bir-birindən fərqlənən yaşayış məntəqələri fəaliyyət göstərməlidir.

Onu da əlavə etmək lazımdır ki, məskunlaşma sistemində yaşayış məntəqələrinin həcmi (*böyüklüyü*), ictimai istehsalın tələbatı iqtisadi, coğrafi-ekoloji səviyyəyə uyğun obyektiv imkanlarla müəyyən edilməlidir. O haldakı şəhərşünas mütəxəssislər tərəfindən məskunlaşma sistem kimi qə-

---

[1] Хорев Б.С. Районирование и расселение. Развитие и регулирование систем расселения в СССР, Статистика Москва.1974 с.19.

bul edilir, onda bu ideyanı əsas tədqiqat problemləri kimi qəbul etmək lazımdır. Bu mənada, ərazi-məskunlaşma sistemi dayaq obyekti kimi yaşayış məntəqələrinə doğru səmtləşdirilməlidir. Lakin bu o, demək deyil ki, kəndlərin müəyyən hissəsi şəhərə çevrilməlidir. Burada sosial-iqtisadi, mədəni, elmi-texniki baxımdan məkan, zaman daxilindən asılı olaraq kəndlərin «şəhərləşməsi» nəzərdə tutulur.

Bunlardan əlavə, şəhərlərdə olduğu kimi, kəndlərdə də yeni mülkiyyət formalarının fəaliyyəti, istehsal münasibətlərinin təkmilləşməsi proseslərində sahibkarlıq baxımından kənd təsərrüfatının idarə edilməsi çoxpilləli sistem alır. Bu xalq təsərrüfatını əsasən aqrosənaye sahələrinin inkişafı təmayülünə yönləndirilməsini tələb edir.

Çalışmaq lazım deyil ki, ərazi tutumluluğu və əhalinin miqdarı baxımından kənd yaşayış məntəqələri şəhər sistemi istiqamətinə yönəldilsin. Kəndlərin özlərinə məxsus vəzifəsi, şəhərlərdən seçilməsi, yeni mülkiyyət formaları, torpaqların, təbii sərvətlərin mənimsənilməsi, münasib texnika və, onları idarə edən kadrlar tələb edir.

Bu proses şəhərlə kənd arasında sıx əlaqə yaradır. Regional daxili məskunlaşma arasında fərq olduğu kimi, onların təşkili arasında da qeyri-mütənasiblik mövcuddur. Regional sistemlə qarşılıqlı fəaliyyətdə olan kənd və şəhər yaşayış məntəqələri ictimai-iqtisadi baxımdan vahidlik təşkil edir, şəhərlərin peyki olan mikrorayonlar onun vahid ərazi sisteminə daxildir. Lakin bu o demək deyil ki, istehsalın ixtisaslaşması, sənayenin inkişafı şəhərdaxili rayonlaşma səviyyəsinin şəhərətrafı ərazisidə sıxı sürətdə aparılmasını tələb etsin.

Şəhər əhalisinin ixtisasının artması işçi qüvvəsinin xalq təsərrüfatı kompleksində və ərazi-istehsal sistemində mütərəqqi təmayülüdür. Bu və ya digər ərazidə mövcud olan, şəhər daxilində baş verən təmərküzləşmə, əhali urbanizasiyası müasir dövrün mütərəqqi prosesi kimi qiymətləndirilir. Bunların müasir vəziyyəti və gələcək inkişafı, əməkdən istifa-

dədə optimal şəraitin yaradılması, əmək qabiliyyətlilərin işlə təmini, əhalinin çoxişlənən mallara, ərzaq məhsullarına olan tələbatının ödənilməsi, ekoloji mühitin nizamlı inkişafı və ətraf mühitin mühafizəsi kimi problemlər irəli sürür.

Son 50 ildə baş verən elmin, texnikanın, sənaye istehsalının inkişafı şəraitində əhali artımı, mütərəqqi təmayülün təhlili gələcəkdə şəhər aqlomerasiyasının, urbanizasiyasının artacağını göstərir. İqtisadi, sosial inkişaf, elmi-texniki tərəqqidə baş verən bu amil şəhərin şaquli və üfiqi istiqamətində genişlənməsinə şərait yaradan mühüm amildir.

Bütövlükdə rayonlarla şəhər mərkəzlərinin əlaqəli öyrənilməsi mühüm nəzəri və praktiki əhəmiyyətə malikdir. Tədqiqat obyekti kimi əsas məsələlərdən biri olan şəhər təsərrüfatının səmərəli fəaliyyətini indiki tələblər səviyyəsində elə qurmaq lazımdır ki, əhalinin normal yaşayışını təmin etsin.

Orta və kiçik şəhərlərdə əhalinin işlə təmin edilməsi qarşısında duran əsas məsələ yerli şəraitə uyğun kənd təsərrüfatı məhsullarını emal edən yeyinti, yüngül sənaye müəssisələrində ixtisaslı işçi qüvvəsinin məşğulluğunu, bazar tələbatına uyğun məhsul istehsalını təmin etsin. Bu sahədə şəhərlər üstünlüyə malikdir, ona görə ki, burada göstərilən məqsədlər üçün əmək tədbiqinə geniş imkan, intellektual səviyyəli işçi qüvvəsi boldur.

İri şəhərlərin üstünlüyünü qeyd edərkən deməliyik ki, onların hiportrofiya (*həddən artıq inkişafına*) hərəkətinə yol vermək sərfəli deyil. Əhalisinin geniş ərazidə yerləşdiyi Çin, Hindistan, Rusiya Federasiyası, texniki-iqtisadi məşğulluq baxımından daha üstün şəraitdə yaşayan Yaponiya, Koreya üçün belə şəhərlərin olması müəyyən qədər qanunauyğundursa, kiçik ərazidə müxtəlif istehsal, xidmət sahələri intensif inkişaf etdirilən, iqtisadi geriliyə malik Azərbaycanda məqsədə müvafiq deyil.

Respublika əhalisinin 27,0 faizinin sakinləşdiyi, Bakı-Sumqayıt alomerasiyasında demoqrafik, ərzaq, işsizlik, eko-

loji problemlərin yaranması buna misaldır. Bakı şəhərində, onun mikrorayonlarında aparılan yeni tikililər, abadlıq işləri, şəhər və onun ətrafında əmək ehtiyatlarını özünə cəlb edərək «rəqqas miqasiyası»nı genişləndirir, işə gedib-gəlməyin, nəqliyyatın fəaliyyətini, müəyyən qədər mərkəzlə mikrorayonlar arasında yol-nəqliyyat əlaqələrini gərginləşdirir. Belə vəziyyətin nizama salınması o şərtlə mümkündür ki, şəhərsalma işlərinin aparılmasında yaşayış massivləri ilə yanaşı əlavə iş yerləri yaradılsın, şəhərin mərkəzində mövcud olan sənaye, nəqliyyat əhaliyə xidmət müəssisələrinin rekonstruksiyası (*seyrəldilməsi*) aparılsın.

Ümumiyyətlə, yüksək inkişaf etmiş dövlətlərdə elmi-texniki tərəqqinin enerji, əmək, elm tutumlu sənayenin inkişafı şəraitində böyük şəhərin fəaliyyəti müsbət hal kimi qiymətləndirilir. Lakin bu da o halda özünü doğruldur ki, böyük şəhərlər peykləri ilə yanaşı əhalini iş yeri, ərzaq məhsulları, çox işlənən mallarla, istirahət yerləri ilə təmin etməkdə normal şəraitə və imkanlara malik olsun.

Bunların həyata keçirilməsinin əsas yolu iqtisadi, təbii, əmək ehtiyatları, kapital qoyuluşu və s. məqsədyönlü istifadəsidir. Bu tədbirlərin miqyası şəhərin xalq təsərrüfat kompleksində tutduğu mövqeyindən, beynəlxalq iqtisadi, ticarət əlaqələrindəki əhəmiyyətindən asılıdır.

Şəhər hər şeydən əvvəl sənaye istehsalının, nəqliyyatın, əhali urbanizasiyasının, bunlara xidmət sahələrinin təmərküzləşməsi deməkdir. Belə şəraitdə şəhərlərdə sənaye müəssisələri, qeyri- istehsal sahələri elə yerləşdirilməlidir ki, ictimai əmək, iş vaxtından səmərəli istifadə edilməsi, əhalinin həddən artıq sıxlığı, ekoloji mühitin gərginliyi aradan qaldırıla bilsin.

Bu mənada sıx əhali məskunlaşmasına malik Bakı aqlomerasiyasında fəaliyyət göstərən, əsasən XIX əsrin sonu XX əsrin əvvəllərində aparıcı sənaye müəssisələrinin, xüsusilə neft emalı, neftmaşınqayırma, gəmi təmiri zavodlarının yenidən qurulmasına ehtiyac duyulur. Bunların yerinə yeti-

rilməsi küllü miqdarda kapital qoyuluşu, əmək, material sərfi tələb edir və sənayenin inkişafı müasir dövrdə bir sıra tədbirlərin həyata keçirilməsi ilə əlaqədardır.

Dünya təcrübəsində indi hamı tərəfindən elə bir ənənə qəbul edilmişdir ki, paytaxt kimi böyük şəhərlərin mərkəzi hissəsində sənaye müəssisələrinin tikilməsindən imtina edilir, ekoloji, təbiəti mühafizə təhlükəli sənaye müəssisələri kənarda yerləşdirilir.

Müharibədən sonrakı illərdə Bakı Kondisioner Zavodunu çıxmaq şərtilə, Bakı şəhərində iri sənaye müəssisələri tikilməsi məhdudlaşdırılmışdır. Müsbət hal kimi qiymətləndirilən sənayenin bu istiqamətdə inkişaf etdirilməsi «sənaye obyekti» kimi seçilən hər hansı şəhərdə məhsuldar qüvvələrin səmərəli təşkilində mühüm vasitədir.

Respublikanın orta və kiçik şəhərləri sənaye istehsalının inkişaf etdirilməsində mühüm obyekt olmaqla, çoxlu işçi qüvvəsi cəlb edən geniş məntəqələrdir. Müstəqil dövlət kimi inkişaf edib formalaşmaqda olan Azərbaycan Respublikasının gələcək iqtisadi, sosial qurumu, beynəlxalq iqtisadi əlaqələrdə tutduğu mövqeyi onun əhalisinin 51 faizinin, sənaye istehsal fondunun 70 faizdən artıq cəmləşdiyi şəhərlərin inkişafından asılıdır.

Gələcəyin əsas problemi Bakı şəhəri urbanizasiyasının, istehsal sahələrinin təmərküzləşməsinin məhdudlaşdırılmasından, sənaye, elm, səhiyyə, maarif müəssisələrinin bir hissəsinin respublikanın başqa rayonlarına köçürülməsi hesabına müəyyən qədər seyrəldilməsindən ibarətdir.

Müasir dövrdə şəhərlərin inkişaf taleyi şəhərsalma mütəxəssislərinin, memarların, iqtisadçıların, sosioloqların, filosofların, coğrafiyaşünasların elmi, təcrübi fəaliyyətindən asılıdır. Bu haqda Azərbaycan mətbuatında, Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya, İqtisadiyyat, Fəlsəfə, İqtisadi İslahatlar elmi-tədqiqat institutları, Azərbaycan İnşaat Mühəndisləri Universiteti, Bakı Dövlət Universiteti, Dövlət İqtisad Universiteti, Dövlət İqtisadi-İnkişaf Nazirliyi

məcmuələrində çoxlu məqalələr yazılmış, elmi konfranslar, müzakirələr keçirilmişdir. Bu sahədə bir sıra dəyərli, nəzəri metodoloji, praktiki tədqiqat işlərinin olmasına baxmayaraq orta və kiçik şəhərlərin funksional inkişafına təsnifatına, dair elmi araşdırmalar aparılmasına ehtiyac duyulur.

Xüsusi, fərdi mülkiyyətə əsaslanan kapitalist istehsal münasibətləri bazar iqtisadiyyatına keçid şəraitində əmək ehtiyatlarından istifadə edilməsi probleminin öyrənilməsi zəruri məsələ kimi qarşıda durur. Bu sahədə Sovet hakimiyyəti illərində Azərbaycanda çox mühüm işlər görülüb, məqalə nəşr edilib, elmi müşavirələr keçirilib. Lakin göstərilən problemlərin ayrı-ayrı şəhərlər üzrə aparılmasını hələ qənaətbəxş hesab etmək olmaz.

Respublikanın şəhərləri ərazi istehsal kompleksinin tərkib hissəsidir, regional tədqiqatın mühüm obyektidir. Onların tədqiqatı əmək ehtiyatlarından istifadə edilməsi üzrə rayon fərqlərinin (*diferensiyasının*) ortaya çıxarılması, səmərəli istifadə edilməsi yollarının müəyyən edilməsinə imkan verir.

Urbanizasiya - geniş mənada çoxcəhətli sosial-iqtisadi inkişafın məhsuludur, şəhər əhalisinin məskunlaşma prosesinin nəticəsidir. Urbanizasiya lokal-regional təmayüldə baş verir və intensiv, kompleks inkişafda olan fəaliyyət prosesidir. E.B.Alayev urbanizasiyanı elmi-texniki inqilab dövründə şəhər məntəqələrinin səciyyəvi xüsusiyyətlərini, xüsusilə böyük şəhərlərdə əhali təmərküzləşməsini ifadə edən yaşayış məntəqələri sistemində müvafiq yaşayış tərzinin yayılmasını, müasir dövrdə iqtisadi və sosial həyatda dərin struktur dəyişikliyi əks etdirən proses kimi qiymətləndirir.

Urbanizasiyanın coğrafi anlayışı məskunlaşma ilə sıx əlaqəsində ifadə edilir. Məskunlaşma termini birmənalı deyil və bunu bizim fikrimizcə, belə ifadə etmək olar: bu və ya digər ərazidə əhalinin yer dəyişməsi və lokal ərazidə yerləşməsi.

«Ubanizasiya», «məskunlaşma» anlayışına, onların

müqayisəli fəaliyyətinə müxtəlif mənalarda baxmaq olar. Məskunlaşma proseslərinin təsiri altında formalaşan urbanizasiya geniş anlayışdır, məzmun etibarilə şəhər aqlomerasiyasını fomalaşdıran əsas əlamətlərdən biridir. Bunun əsasında məhsuldar qüvvələrin inkişafı və ərazi sistemində yerləşməsi durur. İnkişaf proseslərində məskunlaşma ictimai istehsal münasibətlərindən və cəmiyyətin sosial-iqtisadi quruluşundan asılıdır.

Belə hala yeni münasibət ondan ibarətdir ki, xammal, enerji, yanacaq sərvətlərinin, istehsalın yerləşməsinə və inkişafına təsir edən əmək ehtiyatlarının, onların ixtisas peşə səviyyəsinin, elm və informasiya rolunun artması məhsuldar qüvvələrin ərazi təşkilinə olan təsirini gücləndirir. Bunun məhsuldar qüvvələrin ərazi kompleksinə etdiyi belə təsirin miqyası sonuncunun inkişaf sürətindən asılıdır. İstər şəhərlərdə, istərsə də iqtisadi rayonlarda əhali məskunlaşmasının istehsalın yerləşməsinə olan təsiri məşğulluq səviyyəsindən, aldıqları məhsulların kəmiyyət və keyfiyyət göstəricilərindən asılıdır.

Bunlar şəhər yaşayış məntəqələri üçün daha səciyyəvi amildir. Əvvəldə deyildiyi kimi,- əhalisi 5-10 min və ondan artıq olan, əsas etibarilə sənayedə, ticarətdə, xidmət sahələrində, nəqliyyatda, elm və mədəniyyət, maarif, səhiyyə sahələrində məşgul olan yaşayış məntəqələri şəhər adlanır.

Eyni zamanda şəhər müəyyən sərhəd daxilində ətraf rayonların inzibati, mədəni mərkəzi kimi özündən kənar rayonları cəlb edən məntəqədir. Belə yaşayış məntəqəsinin şəhər kimi qəbul edilməsinin əsas meyarı əhalinin sayı, onların yerinə yetirdiyi funksiya – sənayedə təsərrüfat-təşkilat, mədəni, siyasi, inzibati, istirahət, müalicə işləri ilə məşgul olmasıdır. Sənaye, elmi-mədəni, sağlamlıq, nəqliyyat mərkəzi, əmək qabiliyyətli əhalinin intensiv yerləşdiyi, istehsalın, qeyri-istehsal sahələrinin kompakt inkişaf etdiyi mərkəz-məntəqədir.

Əhali müxtəlif istehsal, elmi-mədəni və s. sahələrin in-

frastruktur ərazi daxilindəki ekoloji mühitdə, təbii sərvətlərdən istifadə etməklə əlaqəli inkişaf edir, bu prosesdə onun əhatə etdiyi gündəlik tələbatı ödəyən tərəvəz, bostan, meyvə, heyvandarlıq məhsulları istehsal edən şəhərətrafı zonalara da təsir edir. Bu zonada yerləşən aqrosənaye təsərrüfatlarında istehsalın rayonlaşdırılması bilavasitə şəhərin, onun cəzbedici rayonlarının təbii şəraitindən və təbii sərvətlərindən, iqtisadi inkişaf səviyyəsindən asılıdır.

Şəhər kateqoriyasına malik yaşayış məntəqələri müəyyən sərhəd daxilində təhkim edilmiş torpaqlardan istifadə edir. Lakin urbanizasiyanın mövcud və perspektiv inkişafı, məskunlaşma inersiliyi müəyyən dəyişikliyə uğrayır. Şəhərlərin inkişafı, istehsal, qeyri-istehsal sahələrinin qurumu, nəqliyyat vasitələrinin, eləcə də məskunlaşmaya təsir edən bir sıra amillərin təkmilləşdirilməsi istiqamətində aparılır, elmi-texniki inqilabın təsiri altında, fəaliyyət miqyası genişlənir.

Aqlomerasiyanın miqyası məskunlaşma proseslərinin ərazi sistemindəki fəaliyyətindən və bir sıra konseptual məsələlərin xalq təsərrüfatı kompleksində tutduğu mövqeyindən asılıdır.

Bunların sırasına böyük şəhərlər və onların kənar xarici zonalarının, iqtisadi-coğrafi problemlərinin tədqiqatını daxil etmək olar. Qeyd etmək lazımdır ki, coğrafi ədəbiyyatda «şəhər aqlomerasiyası» termini ilə yanaşı «məskunlaşmanın qarşılıqlı arealı», «şəhərlərin yaranması», metropoliten arealı», «metropoliten rayonları», «konurbasiya» terminləri də işlədilir. «Aqlomerasiya» anlayışı şaxəlidir, şəhər mühiti inkişafının ayrı-ayrı mərhələlərinin araşdırılmasını əks etdirir.

Coğrafi terminlərin ensiklopedik lüğətində (*rusça*) «yaşayış məntəqələrinin aqlomerasiyası» ilə «şəhərlərin aqlomerasiyası», «şəhər qrupu», «çox hallarda bütöv şəhər tikililərini yaradan şəhər», «yaşayış məntəqələrinin toplusu» kimi ifadələr vermişdir. Göstərilən məxəzlərdə verilən izahların məzmunu şəhər məntəqələrinin fəaliyyətini ifadə edir.

BSE-nin 7-ci cildi aqlomerasiyanın tərifinə bir qədər başqa cür yanaşır: «Yaşayış məntəqələrinin aqlomerasiyası başlıca olaraq şəhərlərin, eləcə də kəndlərin şəhərlərlə qovuşduğu yerləri ilə bir-birinə yaxın, gərgin təsərrüfat, əmək-mədəni-məişət əlaqələri» toplusu deməkdir.

Q.M.Lappo yazır «Aqlomerasiya müxtəlif növlü mürəkkəb dinamik sistemi birləşdirən yaşayış məntəqələrinin qruplaşdırılmasıdır»[1]. Şəhərşunasların, müvafiq mütəxəssisələrin və s. fikirlərini yekunlaşdırsaq, aqlomerasiyanın məqsədini aşağıdakı kimi vermək olar.

İri şəhər bazasında aqlomerasiya müxtəlif yaşayış məntəqələri yaradan geniş və mühüm əhəmiyyətli, müxtəlif təmayüllü məskunlaşma zonasıdır, ərazi-istehsal, xüsusilə sənaye, infrastruktur obyektlərinin, elm və təhsil müəssisələrinin, eləcə də əhalinin yüksək dərəcəli təmərküzləşməsi obyektidir.

Ətraf ərazilərin məskunlaşması iqtisadi inkişafa, sosial aspektin dəyişməsinə, təsərrüfat elementlərinin ərazi inteqrasiyasına olan təsiri artırır. Aqlomerasiyaya eyni zamanda xalq təsərrüfatı sistemində, istehsalın yerləşməsi aspektində məskunlaşmanın amili kimi baxmaq lazımdır.

E.B.Alayevin fikrincə, ənənəvi olaraq aqlomerasiya məskunlaşma, az miqdarda istehsalın yerləşdirilməsi forması kimi öyrənilir. Halbuki ancaq aqlomerasiya sisteminə nəqliyyat, sair mühəndis kommunikasıyası mənzil-məişət xidmətinin təbii sərvətlərin, əmək ehtiyatlarının, müəssisələrin kooperasiya əlaqələrinin birgə istifadəsinin öyrənilməsində iqtisadi səmərə ortaya çıxır. Buna görə «şəhər aqlomerasiyası» ilə «ərazi-istehsal kompleksləri» anlayışı arasında müəyyən oxşarlıq vardır.

Bir sıra mənfi cəhətlərinə baxmayaraq (*nəqliyyatın, su problemlərinin mürəkkəbliyi, ekoloji mühitin gərginliyi, əhalinin saf təbiət mühitindən təcrid olunması, səs-küy və s.*) böyük

---

[1] Лаппо Г.М. География городов. Москва. Гуманитарный издательский центр Владос. 1997

şəhərlər istehsal, qeyri-istehsal sahələrini, çoxsaylı əhalini özünə cəlb edən, müasir dövrün tələbləri səviyyəsində onların inkişafını idarə edən, tənzimləyən urbaniləşmiş yaşayış məntəqəsidir.

İnkişaf etməkdə olan böyük şəhərlərdə əhali təmərküzləşməsi yerlərində texniki, sosial, iqtisadi, maddi inkişaf potensialı və bunlarla yanaşı nəhəng iqtisadi, elmi, intellektual potensial yaranır. Böyük şəhərlər təbii, maddi-texniki, əmək ehtiyatlarını istehsala cəlb etməklə, emal proseslərində sənaye müəssisələri arasında kooperasiya əlaqələrini genişləndirir.

Aqlomerasiya böyük şəhərlərdə xalq təsərrüfatı, xidmət sahələrinin intensiv inkişafı ilə yanaşı şəhər mühitində neqativ hallara qarşı mübarizə tədbirlərinin aparılması üçün əməli imkanlara malikdir. Belə üstünlüyə görə aqlomerasiya şəhərlərin yerləşdiyi iqtisadi-coğrafi mövqedən səmərəli istifadə etməklə onların ehtiyat potensiallarını artırır.

Böyük və orta şəhərlərin inkişaf proseslərində baş verən neqativ halların məhdudlaşdırılması ətraf mühit üçün zərərli sənaye müəssisələrinin başqa yerə köçürülməsi, memarlıq baxımından ərazinin düzgün təşkili, nəqliyyat hərəkətlərinin nizama salınması mühəndis qurğuları kommunikasiyaları arasındakı kooperasiya əlaqələrinin yaradılmasını, şəhərin ətraf zonası ilə mərkəzi arasında aqrosənaye təmayüllü iqtisadi əlaqələrin uzlaşdırılmasını tələb edir. Bunlar eyni zamanda aqlomerasiya inkişafının etibarlı və səmərəli idarə edilməsində mühüm vasitədir.

Bir sıra şəhərşunas mütəxəssislərin fikrincə, vahid mexanizm kimi aqlomerasiya müxtəlif elementlərin birləşməsi olmayıb, bütövlükdə funksional, ərazi sistemində şəhər və kənd məntəqələrinin inteqral komponentləridir. Onların vahidliyi qarşılıqlı əlaqə və əlavə inkişaf prinsiplərinə əsaslanır.

Şəhər aqlomerasiyaları arealında müxtəlif təmayüllü istehsal sahələrinə, urbanizasiyaya malik zonaların formalaşması özünəməxsus müəyyən funksiyaları yerinə yetirir.

İqtisadi, təbii, əmək potensialına, yaşıllıq, təbii mühafizə zonası kimi istirahət və müalicə yerlərinə malik olan ərazi-şəhər peykləri olan mikrorayonlar aqlomerasiyanın törəməsidir.

Yuxarıda göstərilən ümumi sxem müxtəlif hallarda aqlomerasiyanın intensivliyindən asılı olaraq əsaslı surətdə dəyişə bilər. Belə ki, Bakı aqlomerasiyası üçün göstərilən konsentrik zona quruluşu onun özünəməxsus xassələrin görə daimi hesab edilə bilməz. Şəhər ərazisinin neft, qaz mədənləri əhatəsində olması ilə əlaqədar yaşayış sahəsinin məhdudluğu ondan kənardaki çoxlu müəssisələrin, əhalinin mərkəzdən kənara gediş-gəlişini, eləcə də kənardan mərkəzə gəlib-gedənlərin miqdarını artırır.

Hər hansı aqlomerasiyanın ərazi quruluşunda əsas iki zona ayrılır: mərkəzi özəyini təşkil edən hissə, onun ətrafındakı peyk və ya şəhərətrafı zona. Abşeron yarımadasında Bakı və Sumqayıt aqlomerasiyası mövcuddur. Birinciyə daxil olan Bakı şəhəri və onun tabeliyində olan şəhər tipli və fəhlə qəsəbələrində 2,2 mln. əhali yaşayır. Burada əhali sıxlığı hər kv.km-də orta hesabla 980 nəfərdir. İkinci, Sumqayıt aqlomerasiyasına daxil olan Sumqayıt şəhərində və onun tabeliyindəki ştq-də 320 min nəfər əhali sakinləşib.

Abşeron yarımadasında yerləşən və mərkəzi Xırdalan qəsəbəsi olan Abşeron inzibati rayonunda yaşayan 90 min əhali seyrək səpələnmiş kəndlərdə yerləşdiyindən aqlomerasiya yaratmır, lakin xalq təsərrüfatının inkişafında iştirak edir.

Böyük Bakı aqlomerasiyası başlıca olaraq neft, qazçıxarma, şəhərətrafı təsərrüfatlarda, kurort-rekreasiya xidməti ilə məşğul olan şəhər tipli və fəhlə qəsəbələri bazasında formalaşıb. Metallurgiya, metal istehsalı, kimya, tikinti materialları üzrə ixtisaslaşmış Sumqayıt aqlomerasiyasında məşğul olan əmək ehtiyatları göstərilən sahələrdə çalışır.

Bir qayda olaraq baş şəhər ətrafında birləşən şəhər yaşayış məntəqələri qrupundan ibarətdir. Belə təmərküzləşmə

və yaşayış məntəqələrinin ərazi yaxınlığı nəticəsində şəhərin mərkəzilə ondan kənarda yerləşən yaşayış məntəqələri arasında vəzifə bölgüsü olur. Bunların vasitəsilə şəhərlərə məxsus qəsəbələr arası möhkəm və etibarlı əmək, mədəni-məişət, tibbi-müalicə, istirahət rekreasiya əlaqələri yaranır.

Bunlar da öz növbəsində istehsalın, qeyri-istehsal sahələrinin nəqliyyat, fəaliyyətinin iqtisadi, kooperasiya əlaqələrinin genişlənməsi ilə inkişaf etdirilir. Bunların məzmun və məqsədinə uyğun olaraq Bakı və Sumqayıt, Gəncə, Naxçıvan-Babək-Arazqovşağı, Əli-Bayramlı-Hacıqabul, Mingəçevir-Yevlax, Siyəzən-Dəvəçi-Xaçmaz aqlomerasiyaları formalaşmışdır.

Gəncə aqlomerasiyası Gəncə şəhərinin Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu qəsəbəsini, Xanlar-Hacıkənd qrup yaşayış məntəqələrini, Naftalan balneoloji kurort qəsəbəsini əhatə edir. 400 min nəfərə yaxın əhalisi olan aqlomerasiyanın təsərrüfatı əsasən üç istiqamətdə kimya-metallurgiya, kənd təsərrüfatı məhsullarının emalı, kurort-rekreasiya xidməti də ixtisaslaşıb. Aqlomerasiyanın xarici zonasında yerləşən Daşkəsən rayonunda çıxarılan alunit xammalı QQTK-da əsasən alüminium oksidi, kükürd turşusu, kalium gübrəsi alınmasında istifadə edilir. Gəncə şəhərinin mərkəzi hissəsi çoxsahəli funksiyaya malik olmaqla elmi, mədəni-maarif, tibbi müəssisələrin, əhaliyə xidmət sahələrinin inkişafında mühüm əhəmiyyət kəsb edir.

Bakı və Sumqayıtdan fərqli olaraq, Gəncə aqlomerasiyasının geniş seliteb zonalarına, konstruktiv əhəmiyyətli mineral xammal sərvətlərinə, geniş torpaq sahələrinə, bol su ehtiyatına malik olduğundan daha böyük perspektiv inkişaf imkanlarına malikdir. Burada 200 min əmək qabiliyyətli adamlara münasib iş yerlərinin açılması, intellektual səviyyəli kadrların fəaliyyətinə münasib yerli təbii ehtiyatlardan, iqtisadi potensialdan istifadə əsasında bazar münasibətləri tələbatına uyğun mütərəqqi təmayüllü sənaye, kənd təsərrüfatı istehsalının, əhaliyə xidmət sahələrinin inkişaf etdirilməsi aqlomera-

siyanı genişləndirən perspektiv tədbirlərdir.

Mingəçevir-Yevlax aqlomerasiyasına eyni adlı şəhərləri, onların ərazisində yerləşən Sağ Sahil qəsəbəsi, Ağdaş şəhəri, Varvara, Xaldan qəsəbələri daxildir. Aqlomerasiyanın mərkəzi olan Mingəçevir şəhəri, su-elektrik kompleksinə (*SES, su anbarı, suvarma kanalları*), Sağ Sahildə yerləşən Dövlət Rayon Elektrik Stansiyasına, Varvara SES, rezin-texniki, kənd təsərrüfatı maşınqayırma, dəmir-beton zavodlarına, əyirici-trikotaj fabriklərinə malikdir.

Respublikanın mərkəzi hissələrində dəmir yolu və şosse yolu qovşağında yerləşən tütün, ilk yun emalı fabrikinə, pambıqtəmizləmə, dəmir-beton, təmir texniki zavodlarına malik Yevlax şəhəri Mingəçevirlə birlikdə əmələ gətirdiyi aqlomerasiya respublikanın infrastrukturunda, istehsalın kompleks inkişafında iştirak edir. Bunların inkişafında, Yevlax şəhərinin yol qovşağında, Mingəçevirin göl və çay sahilində, suvarma kanallarının mənbəyində yerləşməsi böyük rol oynayır.

Bakı, Sumqayıt aqlomerasiyalarına nisbətən əhalisi, kommunikasiya sistemi, istehsal sahələri seyrək olan Yevlax–Mingəçevir aqlomerasiyasını yarımsentrik qrupa daxil etmək olar. Lakin burada istehsal sahələrinin (*sənaye, kənd təsərrüfatı, xidmət*) respublikanın mərkəzlərində yerləşən iqtisadi əlaqələrin inkişafı şəraitində aqlomerasiyadan kənar zonalardan işçi qüvvəsi, xammal materialları gətirilməsinə tələbatı artırır.

Mingəçevir toxucu kombinatı, dəmir-beton məmulatları, rezin-texniki zavodları, Yevlax şəhərindəki sənaye müəssisələri mərkəzlə ətraf zonalar arasında iqtisadi, kooperasiya əlaqələrinin formalaşmasında, yük, sərnişin daşınmasında iqtisadi amillər mənbəyidir.

Belə iqtisadi, kooperasiya əlaqələri dəmir yolu və avtomobil yolu vasitəsilə aqlomerasiyanın mərkəzi Mingəçevirlə və ondan ətraf rayonlarla istehsal, əmək bölgüsünü formalaşdırır. Bunun səmərəli təşkili ilk növbədə onların arasında

əmək, istehsal, məişət məqsədilə evdən işə və digər gediş-gəlişdə vaxt və xərcdən asılıdır.

Urbanizasiya proseslərinin və əhalinin miqrasiya hərəkətinin inkişafı respublikanın ictimai-iqtisadi-coğrafi rayonlaşmasına, əhali məskunlaşmasına təsir edir ki, bunlar da rəqqas miqrasiyasına da, köçkünləri də daxil etməklə yaşayış məntəqələri arası münasibətdə sıx əlaqəli fəaliyyət göstərir.

Müxtəlif dərəcəli sosial-iqtisadi mərkəzlər üçün rayonlararası miqrasiya istehsal, ticarət, rekreasiya, əmək ehtiyatlarının istifadəsində ölçülüb-biçilmiş orta məxrəcli radiusun müəyyən edilməsi məqsədilə tədqiqat aparılmasına indi ehtiyac duyulur.

Göstərilən fəaliyyət səviyyəsindən, demoqrafik, iqtisadi, sosial inkişaf qanunauyğunluqlarının, onların uzlaşdırılmasının dərk edilməsindən asılı olaraq, müxtəlif yaşayış məntəqələri əlaqələrinin bazar münasibətlərinin inkişafına uyğun optimallaşdırılması gələcəkdə ərazi-quruluş modelində, dayaq məntəqələri şəbəkələrinin formalaşmasında aktual vəzifə kimi özünü göstərir.

Şəhərlərdə və onların cazibə dairəsində məhsuldar qüvvələrin yerləşdirilməsinin elmi əsaslandırılması, məskunlaşmanın inkişafı, şəhər mühitinin genişləndirilməsi, böyük planda iqtisadi rayonlarda, ayrı-ayrı şəhərlərdə, kənd təsərrüfatı, sənaye rayonlarında, kurort zonalarında mikrorayonlarda urbanizasiya və məskunlaşma sisteminin fəaliyyətini nizamlayır.

Bu mənada urbanizasiya, əhali məskunlaşmasına uyğun ərazi layihələşdirilməsinə, şəhər mühitinin planlaşdırılmasına xüsusi diqqət yetirilməlidir, çünki onların vasitəsilə respublikada təbii iqtisadi imkanların istifadəsini, məhsuldar qüvvələrin yerləşdirilməsini, əhali məskunlaşmasını dövrün tələblərinə uyğun nizamlamaq olar. Bunun üçün ən zəruri tədbirlərdən biri rayon planlaşdırılmasının ərazinin inkişaf təmayülü ilə uzlaşdırılmasıdır.

Respublikanın ərazi sistemində xalq təsərrüfatı sahələrini iqtisadi inzibati rayonlar və şəhərlər üzrə inkişafı mövcud əmək, iqtisadi potensialdan müasir tələblər səviyyəsində istifadəsini zəruri şərt kimi qəbul edilməlidir.

Respublika əhalisinin 51 faizinin yerləşdiyi şəhərlərdə əhali məskunlaşmasının və istehsalın təmərküzləşməsinin sənaye müəssisələrinin, sənaye-istehsal fondlarının 70 faizdən artıq yerləşməsini nəzərə alaraq, iqtisadi-sosial inkişafda, sahəvi istehsalda regional istehsal sahələrinin inkişafı arasında uzlaşma yaradılması və sonuncuya üstunlük verilməsi bazar münasibətlərindən irəli gəlir.

Respublikanın əmək ehtiyatlarının 55-56 faizinin cəmləşdiyi 60-dan çox şəhər və 114 ştq-lərdə bazar istehsal münasibətlərinə əsaslanan müxtəlif mülkiyyət formalarının fəaliyyəti şəraitində, xalq təsərrüfatı kompleksi sistemində regional və sahəvi istehsal arasında müvazinəti saxlamaqla iqtisadiyyatın kompleks inkişafını təmin etmək indi zəruri məsələdir. Bunun həllində iqtisadi rayonlarda təsərrüfat, sosial, ekoloji baxımdan şəhərlərin mövqeyi, məskunlaşma, yaşayış məntəqələrinin yol nəqliyyat səviyyəsi və s. nəzərə alınmalıdır.

Uzun müddət əhali məskunlaşmasına, istehsal təmərküzləşməsinin təsirinə məruz qalan Bakı-Sumqayıt şəhər aqlomerasiyasında, Abşeron sənaye kompleksində istehsal-urbanizasiya gərginliyi davam edir. Geniş mənada iri şəhər üçün gərginliyi zəiflətmək məqsədilə gələcəkdə «giqantomaniyadan» əl çəkməklə respublikanın iqtisadi rayonlarında, kiçik, orta şəhərlərində «mini», «orta» istehsal güclü sənaye müəssisələrinin tikilməsi, istehsalın bu təmayüldə inkişafı mülkiyyət formalarından asılı olmayaraq təbii sərvətlərdən, əmək xammal ehtiyatlarından, əsaslı fondlardan səmərəli istifadə edilməsində mühüm vasitədir.

Fəaliyyətdə olan sənaye, nəqliyyat kompleksinə, elm, mədəniyyət, təhsil müəssisələrinin mövcudluğuna əhali məskunlaşması səviyyəsinə uyğun normativ göstəricilər əsasında

respublika şəhərlərinin məqsədyönlü ölçüsünü (*böyüklüyünü*) göstərmək, bununla əlaqədar iqtisadi rayonlarda şəhər məskunlaşma proseslərinin müasir və perspektiv inkişafını müəyyən etmək urbanizasiya tədqiqatının tərkib hissəsidir. Burada əsas məqsədlərdən biri təbii şəraitdən, iqtisadi imkanlardan, şəhərin optimal ölçüsündən kənar inkişafının, ekoloji tənəzzülə uğramasının, istehsalın faydasızlığa aparıb çıxarılması səbəblərinin araşdırılmasıdır.

Suveren Azərbaycan Respublikasının yeni ictimai-siyasi quruluşuna, iqtisadi-sosial inkişafın bazar münasibətinə uyğun təkmilləşdirilməsinə və islahatların aparılması dövrünə uyğun əmək ehtiyatlarının şəhərlərdə, sair yaşayış məntəqələrində səmərəli istifadəsinin zəruriliyi ortaya çıxır.

Bu səpkidə şəhərlərdə istehsalın, əhalinin yerləşməsinin, urbanizasiya proseslərinin araşdırılması, bunlara münasib funksional rayonlaşdırılması mühüm əhəmiyyətə malikdir. Şəhərlərin iqtisadi-coğrafi mövqeyi, əhali məskunlaşmasının intensivliyi, iqtisadi inkişafı, demoqrafik vəziyyəti urbanizasiya hərəkətinə təkan verən proseslərin dövrün tələbatına uyğun öyrənilməsindən çıxan, praktiki nəticələrin istehsala tətbiq edilməsini faydalı hesab edirik.

### 5.2. Şəhərsalma, şəhər nəqliyyatı və urbanizasiya

Sovet hakimiyyəti illərində və Azərbaycan Respublikasının müstəqilliyi dövründə, əsasən kənd rayonlarından miqrasiya hesabına şəhər əhalisinin artım sürəti ümumi əhalinin artım sürətindən çox yüksək olmuşdur. Belə proses şəhərlərin idarəçiliyini, əhalinin işlə təmin edilməsini, istehsalın inkişafı və yerləşdirilməsini infrastrukturun elmi əsaslar üzrə təkmilləşdirilməsini, nəqliyyatın şəhərdaxili və şəhərətrafı hərəkətini, ticarətin, əhaliyə xidmət sahələrinin yaxşılaşdırılmasını tələb edir. İqtisadi-coğrafi proseslərin təsiri altında regional təmayüllü elm, enerji, əmək tutumlu istehsal sahələrinin inkişafı, «rəqqas miqrasiyası» yolu ilə şəhərlərin

formalaşmasında, xalq təsərrüfatının region-ərazi istiqamətində genişləndirilməsində ətraf rayonlardan miqrantları cəlb edir, əhali və əmək potensialını artırır.

İntensiv urbanizasiya, istehsalın təmərküzləşməsi şəraitində kənardan cəlb edilən əmək qabiliyyətli əhalinin və yerli sakinlərin rahat yaşaması, istirahət etməsi üçün müasir tələbata uyğun şəhər mühitinin saxlanılması zərurəti ortaya çıxır.

Şəhər salınmasının, tikinti işlərinin bu məqsədə yönəldilməsi, sosial, iqtisadi, demoqrafik miqrasiya amilləri ilə yanaşı, tarixi, təbii, iqtisadi, geomorfoloji mövqeyi şəhərdaxili və şəhərətrafı ərazilərin mənimsənilməsi, müasir tələbata uyğun aparılması, tarixi abidələrin saxlanılması zəruri şərt kimi qiymətləndirilməlidir.

Bununla yanaşı, şəhərətrafı zonalarda əhalinin ərzaq, çox işlənən mallarla istirahət zonaları ilə təmin edilməsi, şəhərətrafı şəxsi bağların, əkin yerlərinin, rekreasi zonalarının mövcudluğu və onların abad saxlanılması zəruridir.

Qədim Bakı, onun şəhər sivilizasiyası Abşeron yarımadasının quraq iqlimə malik zonasında, Xəzər dənizi sahilində məskən salmış və formalaşmışdır. Burada əkinçilik, xüsusilə üzüm, bostan, tərəvəz, zəfəran, zeytun və s. yetişdirilməsi nəsildən-nəsilə keçmiş və suvarma əkinçiliyi şəraitində inkişaf etdirilir.

İçərişəhər ətrafında və ümumiyyətlə, Abşeron yarımadasında arxeoloji qazıntı yerlərində tapılmış alətlər, məişət əşyaları burada qədim əkinçilik mədəniyyətinin, şəhər tikintisinin mövcudluğunu sübut edir. Bakıda və onun ətrafında şəhər təsərrüfatının inkişafı, xüsusilə XX əsrin ikinci yarısından – neftin sənaye üsulu ilə istismarı dövründən başlayır.

Bakı şəhərinin geniş əhatəli plan-layihə üzrə inkişafı ilk dəfə 1925-1927-ci illərdə həyata keçirilməyə başlayır, bu da mərkəzi hissəni əhatə edir, 1934-1937-ci illərdə şəhərin geniş inkişafına dair tədbirlər həyata keçirilir.

Göstərilən layihə sənədlərinə görə, sonralar şəhərin mərkəzi ilə yanaşı, onun kənar rayonlarında da xeyli abadlıq işləri aparılmağa başlanıb. Bu vaxta qədər qəbul edilmiş baş layihə plan sənədləri içərisində xüsusi əhəmiyyətə malik Azərbaycan SSR Nazirlər Sovetinin 14 may 1970-ci il tarixli qərarına əsasən 2000-ci ilə qədər Bakı şəhərinin inkişafına dair texniki-iqtisadi əsaslandırma haqqında qərardır.

Texniki-iqtisadi əsaslandırma sənədi şəhərin geniş miqyasda inkişafına, boş ərazilərin mənimsənilməsinə, funksional zonalaşdırılmasının təkmilləşdirilməsinə, mədəniyyət, mülki tikintilər, yaşıllıq, bərpa, mühəndis, yol tikinti işlərinə dair tədbirlər irəli sürülür. Bununla yanaşı, şəhərin memarlıq kompozisiya vəziyyətinin yaxşılaşdırılmasına dair sərəncamlar verilmişdir. Başqa iri şəhərlər kimi Bakının iqtisadi, sosial inkişafında, şəhər aqlomerasiyasında mühüm rol oynayan iqtisadi-coğrafi mövqeyin, yerli təbii sərvətlərin, xüsusilə yanacaq-enerji, kimya, tikinti materialları ehtiyatının böyük əhəmiyyəti vardır. Şəhər aqlomerasiyası mühitinə texnogen, antropogen təsirlər ərazinin ekoloji tənəzzülü, nəqliyyatın yaratdığı səs-küy şəraitində əhalinin istirahətinin səmərəli təşkilinə rekreasiya zonalarına, istirahət və müalicə yerlərinə tələbatı artırır.

Göstərilən tədbirlərin həyata keçirilməsinin zəruriliyi əsasən ondan irəli gəlir ki, Bakı və Sumqayıt şəhərlərinin təbii şəraiti, şəhərdaxili istehsal prosesləri, nəqliyyatın fəaliyyəti elə mürəkkəb vəziyyət yaratmışdır ki, bunun aradan qaldırılması geniş tədbirlər sisteminin aparılmasını tələb edir.

Müasir dövrdə şəhərdə tikinti işlərinin aparılmasına, onun kompleks inkişafına səciyyəvi olan əlamət xalq təsərrüfatının inkişafı ilə əmək qabiliyyətli əhalinin məşğuliyyəti məqsədilə əlavə iş yerlərinin yaradılması uzlaşma təşkil etməlidir. Son mərhələdə bu proses məskunlaşmanın, təmərküzləşmənin bir-birilə əlaqəli qrup halında formalaşmasına şərait yaradır.

Şəhər mühitində iqtisadi, sosial inkişaf, infrastruktur əlaqələr şəhərətrafı və ətraf rayonlarla sıx sürətdə aparılır. Quraq iqlimə, mənfi su balansına malik ərazidə yerləşən Bakı və Sumqayıt aqlomerasiyasında, eləcə də respublikada şəhərətrafı kənd təsərrüfatının yerli iqlim-torpaq şəraitindən asılı olaraq suvarmanın mühəndis-sənaye sistemi istiqamətində mühüm tədbirdir.

Respublika şəhərlərində yaşayan 4,1 mln. əhalinin kənd təsərrüfatı təmayüllü xammallara, ərzaq məhsullarına artan tələbatı göstərilən tədbirlərin aktuallığını artırır. Şəhərətrafı aqrosənayenin intensiv inkişafa tələbat doğuran obyektiv səbəblərdən biri də odur ki, şəhərdaxili və şəhərətrafı zonalarda müxtəlif tikinti, yol, rabitə şəbəkəsinin və s. inkişafı məhsuldar torpaq sahələrini tutaraq ərzaq məhsulları istehsalını məhdudlaşdırır.

Son 25-30 ildə Bakı və onun mikrorayonlarında hündür mərtəbəli binaların tikilməsi ilə əlaqədar şəhər mühitinin torpaq tutumluluğunun xeyli azaldılmasına baxmayaraq şəhərətrafı zonalarda kənd təsərrüfatının ekstensiv yolla inkişafı torpaq sahələrindən səmərəsiz istifadə edilməsi ilə nəticələnir.

Artmaqda olan şəhər əhalisi, yollar, müəssisələr, geniş sahələrdə torpaqların üstünü örtməklə onları kənd təsərrüfatı mübadiləsindən çıxarır. Belə şəraitdə iki mühüm tədbirə əməl edilməsi ortaya çıxır; buraya şəhər tikintilərinin, sair obyektlərin torpaq tutumluğunu azaltmaq, şəhərətrafı aqrosənayenin intensiv inkişafını təmin etmək tədbirləri daxildir.

Respublikada kənd təsərrüfatının tənəzzülü, yerli istehsal hesabına ərzaq, xammal məhsulları ilə tələbatın ödənilməməsi bir tərəfdən, xaricdən gətirilən ərzaq məhsullarının bahalığı və aşağı keyfiyyətə malik olması başqa tərəfdən, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Əli-Bayramlı ətrafında şəhərətrafı təsərrüfatların yaradılmasının zəruri olmasını irəli sürür.

Bakı şəhəri hər tərəfdən yüksəkliklər və dənizlə əhatə

olunub. İnzibati, ictimai, dövlət idarələrinin hökumət təşkilatlarının yerləşdiyi mərkəzi hissədə hündür, yaraşıqlı binalar, banklar, ali təhsil müəssisələri fəaliyyət göstərir. Şəhərin mərkəzindən şərq istiqamətində səkkizinci kilometr, Əhmədli, Yeni Günəşli, Zığ yaylası massivləri yüksək (*əsasən 9-10*) mərtəbəli binalarla örtülmüşdür. Şimal hissəsində mikrorayonlar arasında yüksələn 10-17 mərtəbəli binalar, əsasən 5-9 mərtəbəli yaşayış evləri geniş yer tutur. Ərazi mənimsənilməsi və məskunlaşması baxımından Bakı şəhərində indi 4 zona formalaşmışdır: sıx yaşayan massivlərin maşınqayırma, metal emalı, təmir zavodlarının sərnişin və yük dəmir yolu stansiyalarının yerləşdiyi şərq zona; Böyük Şor gölü ətrafı; Binəqədi sənaye rayonu; neft emalı zavodlarının yerləşdiyi Qaraşəhər massivində daxil olmaqla mərkəzi sənaye rayonu; Bayıl Badamdar yaşayış massivi; əsasən inzibati, ticarət, elm, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin yerləşdiyi mərkəzi hissə.

Bakı şəhəri ərazisində 200-dən artıq memarlıq, 80-dən çox tarixi, 30-a qədər arxeoloji abidələr, 40-dan çox monumental incəsənət abidələri vardır ki, bunların da əksəriyyəti İçərişəhərdə yerləşir. Müharibədən sonrakı illərdə şəhərdə çoxlu parklar yaradılmışdır. Gözəlliyinə və genişliyinə görə üstünlük təşkil edən görkəmli mədəniyyət və istirahət parkı indi Şəhidlər Xiyabanına çevrilmişdir. Son 6-7 ildə şəhərdə yaradılmış onlarla istirahət və mədəniyyət parkları Bakı, Sumqayıt və s. şəhərlərin rekreasiya, estetik görkəmini gözəlləşdirir.

Hazırda Bakı şəhərinin yaşayış fondu 2,0 min kv. km ərazini tutur. Bakı şəhər İH-nin məlumatına əsasən indi şəhər sakinlərinə orta hesabla 10,8 kv. m. mənzil sahəsi düşür və adambaşına düşən mənzil sahəsinə görə Bakı sabiq SSRİ-də olan 50 iri şəhərdən 40-cı yerdə durur. Erməni işğalçılarının zəbt etdiyi rayonlardan və Ermənistandan qovulan 1 mln. nəfərə qədər əhalinin 350-360 min nəfərinin Bakı şəhərində sakinləşməsi mənzil fondunda gərginlik ya-

ratmışdır.

Böyük Bakı ərazisində təbii artım, miqrasiya, qaçqınlar, köçkünlər hesabına əhali artımı əhalinin su, yanacaq, mənzillə təmin edilməsində gərginlik yaradır.

Hazırda Bakı şəhəri və Abşeron yarımadası 5 mənbədən su ilə təchiz edilir. Bunlar aşağıdakılardır: müharibədən sonra Kür çayından çəkilmiş su kəməri, 1915-ci ildə çəkilmiş Şollar – Bakı su kəməri, Ceyranbatan su kəməri, Ceyranbatan su anbarı, Ceyranbatan gölündən mənbəyini alan Abşeron suvarma kanalı.

Göstərilən su kəmərləri Ceyranbatan su anbarı vasitəsilə hər il şəhərə verilən 800 mln. kub metr suyun 550-560 mln. kub metri, yəni 68 faizi istifadə edilir, qalan hissəsi ya yolda, ya da istifadə vaxtı itirilir. Bu mütəxəssislərin fikri, nəşr edilmiş məqalələrin qənaəti və müşahidəmizin nəticəsindən irəli gələn qənaətdir. Şəhərə verilən su ayrı-ayrı əhaliyə hissə-hissə verilir. Bir çox sənaye müəssisələri özünün su kəmərindən, bir çox qəsəbələr, kəndlər isə quyulardan istifadə edir.

Hazırda şəhəri içməli su ilə təmin edən yeraltı qurğuların çoxunun mənəvi və fiziki cəhətdən sıradan çıxması su təchizatını bir qədər məhdudlaşdırır. İndi elə vəziyyət yaranmışdır ki, Bakı, onun qəsəbələri və ətraf rayonlarının içməli su ilə texniki su təchizatı arasında uyğunsuzluqlar vardır.

Abşeronda su qatlığını aradan qaldırmaq üçün respublika geniş imkanlara malikdir. İqtisadi-texniki baxımdan əlverişli və real imkan Altıağac yaxınlığında, düz istiqamətdə Bakıdan 95-100 km məsafədə daim fəvvarə vuran Çistıye Kluçi adlanın su mənbəyidir.

Dəniz səviyyəsindən 1900-2000 m yüksəkdə yerləşən Çistıye Kluçi bulaqlarından Bakı şəhərinə su çəkilməsi ildə şəhər əhalisinə 180-200 mln. $m^3$ təmiz, şəffaf, sərin su verər ki, bu da qənaət rejimi ilə hər il 210-220 min əhalinin tələbatını ödəyər. Çistıye Kluçi bulaqlarından 2000 m aşağıda yer-

ləşən Bakı şəhərinə su kəmərinin çəkilməsi iqtisadi baxımdan ona görə çox sərfəlidir ki, 95-100 km-lik məsafə boyu mexaniki qüvvə tətbiq etmədən suyu istehlakçılara çatdırmaq olar.

Sərfəli su təchizatı sistemində suya qənaət edilməsinin əsas tədbirlərindən biri də mənzildə su sayğaclarının quraşdırılması, yeraltı və yerüstü paylaşdırıcı su şəbəkəsinin təmiri, təmizləyici qurğulardan istifadə edilməsidir.

1990-cı ildə Bakı Şəhər İH-nin ərazisində aparılmaş təcrübə-sınaq sənədlərindən məlum olmuşdur ki, 1990-cı ildə su şəbəkələrində müxtəlif səbəblər üzündən təxminən 40 faizə qədər su itirilir.

Qeyd etmək lazımdır ki, 1985-ci ildə respublikanın bir çox sənaye müəssisələrindən qapalı su təchizatı sistemi tətbiq edilmir. Bu, su itkisini xeyli azaltmışsa da, optimal səviyyədə çatdırılmasını təmin etməmişdir. Yazılanlardan belə nəticə çıxarmaq olar ki, Bakı və Sumqayıt şəhər sovetləri ərazisində əhalinin, kənd təsərrüfatının suya olan tələbatının ödənilməsi üçün indi mövcud olan su sistemlərində, paylaşdırıcı su şəbəkələrində su itkisinin aradan qaldırılması, mənzillərdə sayğaclar qoymaqla sudan qənaətlə istifadə edilməsi, sənaye müəssisələrinin qapalı su təchizatına keçirilməsi, əkin yerlərinin hidrant sistemi və süni yağışla suvarılmasının təmin edilməsidir. Belə olarsa, Abşerona əlavə su kəməri çəkilməsinə ehtiyac qalmaz. Müasir şəhər problemi həllində ən vacib məsələlərdən biri mənzillərin, ictimai binaların sənaye və s. müəssisələrin yanacaq və enerji ilə təmin edilməsidir.

Abşeron iqtisadi rayonunun, o cümlədən Bakı və Sumqayıt şəhərlərinin yanacaqla, xüsusilə qazla, mazutla təmin edilməsi yerli neft, qaz ehtiyatları və emaldan çıxan mazut hesabına aparılır. XVII əsrin əvvəllərində Suraxanıdan Sabunçuya qədər çəkilmiş qaz kəməri yarımadada sənaye üsulu ilə qaz təchizatının əsasını qoydu. Hələ XVIII əsrin ortalarında Nobel qardaşları tərəfindən ilk neft emalı zavodunun tikildiyi vaxtdan sonra Bakıda dairəvi qaz kəməri çə-

kilmişdir. İndi Bakı şəhəri əhalisinin hərəsinə 5 m-dən artıq qaz kəməri düşür ki, bunların da yarısından çoxunun təmirə, yenidən dəyişilməyə ehtiyacı vardır.

Son illərdə kapital qoyuluşunun kəskin çatışmazlığı, əsas fondların sürətlə sıradan çıxması, qaz hasilatının aşağı düşməsi şəraiti yeni qaz kəmərlərinin çəkilməsini, mövcud olanların isə dəyişilməsinin illərini məhdudlaşdırır, daha doğrusu, imkan daxilindən xaricdə qoyur. Xəzər dənizi akvatoriyasında neft, qaz hasilatının artırılması yaxın vaxtlarda Abşeron aqlomerasiyası ilə yanaşı, respublika rayonlarının qazla təmin edilməsinə imkan verəcəkdir.

Bununla əlaqədar respublikanın şəhər və kəndlərində qaz kəmərlərinin tələbata uyğun yenidən qurulması zəruri tələbat kimi qarşıya qoyulur. Nəzərə alsaq ki, qazın 69-70 faizi kommunikal-mənzil təsərrüfatlarının, qalan hissəsi başqa sahələrin payına düşür, yuxarıda göstərilən tədbirin daha zəruri olması məlum olur.

Respublikanın rayonlarında, o cümlədən şəhərlərində qazın, sair yanacaq növlərinin işlədilməsi mövsümü səciyyəlidir və sutka ərzində bir bərabərdə deyil. İlin başqa vaxtlarına nisbətən yanacaq qışda 2-2,5 dəfə artıq yandırılır. Lakin son 7-8 ildə Bakı, Sumqayıt şəhərlərində istixanaların yaradılması üzündən qazın, mazutun sərfi kəskin sürətdə azalmışdır. Ehtiyat yanacağın məhdudluğu şəraitində qışda mənzillərin normal qızdırılmasının təmin edilməsi məhdudlaşmışdır.

Bakıda, Sumqayıtda və sair iri, orta şəhərlərdə qaz borularının, qaz paylaşdırıcı kommunikasiya şəbəkələrinin çox hissəsinin sıradan çıxması, texniki cəhətdən tələbata cavab verməməsi, qaz ölçü cihazlarının nasazlığı çox yerdə qaz itirilməsinə səbəb olur.

Bundan əlavə, qaz boruları çəkilən yerlərdə torpağın şorluğu, həddən artıq rütubətliyi korroziyanı sürətləndirir ki, bu da onların vaxtından tez sıradan çıxmasına səbəb olur. Bakıda, Sumqayıtda, ümumiyyətlə, respublikanın sair şəhərlərində, şqt-də qazdan səmərəli istifadə etmək, itkiləri

aradan qaldırmaq məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edirik:

a) mənzilləri, ictimai binaları, sənaye müəssisələrini, kooperativləri, şirkətləri və s. iqtisadi cəhətdən sərfəli qaz hesablayıcı cihazlarla təmin etmək;

b) magistral və qazpaylaşdırıcı şəbəkələrin texniki-təmir tələbatından asılı olaraq yenidən qurulması;

v) qaz istehsalının artırılması və itkilərin aradan qaldırılması hesabına müəssisələrin, mənzil-məişət bölməsinin, fərdi təsərrüfatların qaz təminatını tələbata uyğun vermək;

q) respublika şəhərlərinin qazla təmin edilməsinin təxirəsalınmaz zəruriliyi bundan irəli gəlir ki, qaz təminatı şəraitində meşələrin, tarla qoruyucusu olan meşə zolaqlarının, meyvə bağlarının kəsilməsi dayandırılar, ekoloji təhlükənin qarşısı alınır.

Şəhər və nəqliyyatın vahidi orqanizmin bölünməz hissəsidir.

Əhalinin urbanizasiyası, istehsalın təmərküzləşməsi, inkişafı, şəhərdaxili-xarici iqtisadi əlaqələr, müasir nəqliyyat vasitələri və rahat yollar olmadan mümkün deyil. Şəhərin şah damarı hesab edilən nəqliyyatın neqativ tərəfi də vardır. Bu ondan ibarətdir ki, üzvü yanacaqdan (*benzindən, solyar yağından*) çıxan qurğuşunlu və sair zərərli qarışıqlı qazları atmosferə buraxır, ekoloji mühiti korlayır, səs-küy yaradır.

Bakı böyük nəqliyyat düyümüdür, yük dövriyyəsinə görə Zaqafqaziyada birinci yerdə durur. Buradan Mahaçqala – Rostov, Tbilisi-Batumi, Naxçıvan-İrəvan, Naxçıvan-Culfa, Tehran istiqamətinə dəmir yolları və onlara paralel şose yolları gedir. Bakı limanı Türkmənbaşı, Mahaçqala, Həştərxan, Aktau, Artau limanları ilə, İranın Xomeyni (*keçmiş Pəhləvi*) portu ilə əlaqə saxlayır. Bakı limanı Volqa-Don kanalından keçməsi ilə Rusiya Federasiyasının şimal dənizləri, Qara Dənizlə birləşmişdir. XX əsrin əvvəlində Bakıdan Batumiyə neft kəməri çəkilmişdir.

Suveren Azərbaycan Respublikasının Xəzər akvatoriya-

sında 1992-ci ildən bəri neft hasilatı üzrə bağlanan 15 kontrakta uyğun Bakıdan müxtəlif istiqamətlərə - Qara Dəniz sahilindəki Supsa (*Gürcüstan*), Novorossiysk (RF) limanlarına neft kəməri çəkilmişdir. Aralıq dənizi sahilindən Ceyhan (*Türkiyə*) portuna neft kəməri çəkilməsinə dair dörd dövlətin-Azərbaycan, Gürcüstan, Türkiyə, ABŞ dövlət başçılarının imzası ilə kontrakt bağlanmışdır. Bu kəmərlə Qazaxıstan neftinin də ötürülməsi üzrə kontrakt imzalanıb.

* * *

Cəmiyyətin inkişafında şəhərlərin sosial-iqtisadi, ekoloji, elmi-texniki, iqtisadi əlaqələr baxımından çoxsahəli funksiyasının böyük əhəmiyyəti vardır. Tarixi təhlil aparmadan şəhərlərin iqtisadi, ekoloji, təbiəti mühafizə əhəmiyyətini müəyyən etmək mümkün deyil. İctimai istehsal, demoqrafik, urbanizasiya proseslərinin inkişafında, tarixi mərhələlərin təhlili çəmiyyət sistemində, əhalinin məskunlaşmasında, iqtisadi-ekoloji təmayüldə, elmi-texniki tərəqqidə şəhərlər üzrə qarşılıqlı əlaqələrin təhlili zəruridir. Ayrı-ayrı regionlarda yuxarıda göstərilən funksional sistemlərin təhlili, şəhərlərin layihələşdirilməsi, onların daxilində istehsalın təmərküzləşdirilməsi məqsədilə statistik materialların, ərazinin təbii şəraiti göstəricilərinin toplanıb, təhlilini verməkdən asılıdır. Şəhərlərin əmələ gəlməsi və inkişafı insan zəkasının, onun dahi yaradıcılığının məhsulu olmaqla, istehsalın formalaşması, təmərküzləşməsi, inkişafı ilə əlaqədardır ki, burada da insan amili əsas yer tutur.

Azərbaycanın bir sıra şəhərləri – Bakı, Şamaxı, Naxçıvan, Şəki, Bərdə, Qəbələ, Gəncə feodal münasibətləri və ondan əvvəlki dövrdə yaranıb formalaşmışlar. Sonralar kapitalist istehsal münasibətlərinin inkişafı ilə əlaqədar göstərilən şəhərlərin sənətkarlıq, əmək alətləri istehsal üzrə sənayenin bəsit sahələri yaranıb və bu yolla da kənd və şəhər arasında əlaqələr genişləndirilir. Belə halda şəhərlər ətraf rayonları özünə cəlb edən məntəqəyə çevrilir. Respublikanın

cox qədim şəhərlərində iqtisadi, sosial, içtimai tərəqqinin inkişafı kəndlərlə olan ziddiyyəti artırır. Şəhər mühitinə nisbətən iqtisadi-texniki baxımdan geridə qalan kəndlərin əhalisi iş axtarmaq, sənətkarlıqla məşğul olmaq məqsədilə şəhərə axışırlar. Bir tərəfdən şəhərlərdə sənaye istehsalının inkişafı, digər tərəfdən ətraf rayonlardan şəhərə gələn əhali hesabına urbanizasiya və istehsalın təmərküzləşməsi prosesi genişlənir. Bu proseslər kənd təsərrüfatı məhsullarının emalı hesabına şəhərlərdə yeyinti və yüngül sənayenin inkişafını genişləndirir. Bununla yanaşı, ticarət, nəqliyyat, xidmət sahələrinin inkişafı, təhsil, mədəni-maarif sahəsində olan irəliləmə burada fəhlə sinfinin, ziyalıların formalaşmasına şərait yaradır.

Bakı və onun ətrafında neftcıxarma, neft emalı sənayesinin, bunlara xidmət edən muvafiq maşınqayırma müəssisələrinin inkişafı şəhərlərin formalaşmasında, beynəlxalq aləmdə nəqliyyat-iqtisadi əlaqələrin genişləndirilməsində böyük əhəmiyyət kəsb etmişdir. Beləliklə, keçmişdə uzun müddət dünyanın böyük şəhərlərindən bir qədər təcrid olunmuş Bakı zaman kecdikcə beynəlxalq əhəmiyyətli şəhərə cevrilir. İpək yolu üstündə yerləşən Bərdə, Qəbələ, Gəncə şəhərləri də getdikcə inkişaf edir, aqrar sənaye mərkəzlərinə cevrilir.

XIX və XX əsr üçün xarakterik cəhət ondan ibarətdir ki, Azərbaycan şəhərləri Şərq ölkələrinin təsiri altında formalaşıb Rusiya ilə birləşəndən sonra Şimalın və Qərb ölkələrinin, xüsusilə Rusiyanın təsiri altında inkişaf edib. Bu dövrdə Azərbaycan şəhərləri, xüsusilə Bakı yeni inkişaf mərhələsinə daxil olur, neft sənayesinin inkişafı həm Rusiyadan, həm də Yaxın Şərq ölkələri olan İrandan, Türkiyədən işçi qüvvəsi cəlb edir, göstərilən ölkələrlə yanaşı, Azərbaycanın özündən də daxil olan miqrantlar hesabına şəhər urbanizasiyası genişlənir.

Dövrün tələbinə müvafiq peşə əldə etmək üçün o zaman maraqlandırıcı olan bu proses tədricən fəhlə sinfinin formalaşması ilə yanaşı, müxtəlif təmayüllü, ixtisaslı mütəxəssislə-

rin intellektual səviyyəli fəal əhalinin yetişdirilməsində, eləcə də çox əmək, enerji, elm tutumlu məhsulların istehsalında böyük əhəmiyyət kəsb edir. Bu baxımdan şəhərlər sərbəst iş adamlarının yetişməsində, onların həyat fəaliyyətinin formalaşmasında, texniki, elmi, sosial-iqtisadi, ekoloji problemlərin həll edilməsində fəal iştirak edib.

Azərbaycanın qədim şəhərlərinin sosial-iqtisadi əsası quldarlıq quruluşuna əsaslanırdı. Bundan sonrakı dövrdə feodal-istehsal münasibətlərinin yaranması ilə əlaqədar şəhərlərdə, əvvəldə deyildiyi kimi, kənd təsərrüfatı məhsullarını emal edən, istehsal vasitələri, əmək alətləri hazırlanması ilə məşğul olan müəssisələr formalaşır.

Bu dövrdə Azərbaycanın qədim şəhərlərində kəndli əməyi sənətkarlıqdan, yəni bəsit sənaye istehsalından ayrılır. Göstərilən ictimai proses emaledici sənayenin ilk mərhələsində meydana çıxan sənətkarlığın bazasının ilk mənbəyi olur. Eyni zamanda bu proses kənd yaşayış məntəqələrinin şəhərlərə çevrilməsində əsas amil kimi çıxış edir.

Kapitalist istehsal münasibətləri dövründə Bakı, Gəncə, Şamaxı, Naxçıvan, Quba, Bərdə, Şəki şəhərlərinin iqtisadi funksiyası dairə, qəza, quberniya kimi inzibati idarəçilik üsulu ilə müşayiət edilirdi. Bütün bunlar şəhərlərdə dövlət hakimiyyəti (*hökumət, məmur, polis, hərbi və s. kimi*) təşkilatların birləşməsi obyektinə çevirildi.

Sənətkarlığın, ticarətin, tibb xidməti müəssisələrinin inkişafı şəhərin özünəməxsus fəaliyyətini, istehsal, sənaye obyektlərini genişləndirir. Göstərilən proseslər şəhərətrafı və uzaq rayonlardan birbaşa və «rəqqas miqrasiyası» hesabına əhali axınını sürətləndirir.

Azərbaycanda 1896-cı ildə 1806,7 min əhali olub ki, bunun da 19-20 faizi şəhər sakinləri idi. 1913-cü ildə əhalinin miqdarı 2839 minə, 1950-ci ildə 2952 minə, 1960-cı ildə 3979 minə, 1980-ci ildə 6117 minə, 2000-ci ildə 8,1 milyona çatır. Əhali artımına nisbətən şəhər əhalisinin artımı daha da sürətlə gedir. Hazırda şəhər əhalisinin miqdarı respublikada

51 faizdir ki, bu da dünyanın inkişaf etmiş bir sıra sənaye ölkələri ilə eyni durur.

Müharibədən sonrakı illərdə respublika əhalisi demək olar ki, 3 dəfə artığı halda, şəhər əhalisi 3,6 dəfə artıb (*qaçqın və köçkünləri nəzərə alınmadan*). Azərbaycanda şəhər əhalisinin artımı ümumi əhali sayını qabaqlamışdır. Bu, ilk növbədə respublikada sənaye istehsalının ərazi üzrə yerləşməsindən, əhaliyə xidmət sahələrinin, əsas istehsal fondlarının Bakı-Sumqayıt şəhəri ərazisində toplanmasından asılı olmuşdur. Bu isə şəhərlə kənd arasında nəqliyyat-iqtisadi əlaqələrin gərginləşməsinə, şəhərlərə işçi qüvvəsi axınının sürətləndirilməsinə və işsizlər ordusunun yaranmasına gətirib çıxarır.

Bu dövrdə Bakının və onun ətraf rayonlarının intensiv inkişafı, neft və qaz yataqlarının istismarı, onların bazasında neftayırma, qaz-kondensat müəssisələrinin, neft-qaz avadanlıqları üzrə maşınqayırma komplekslərinin, nəqliyyat vasitələrinin güclü inkişafı baş vermişdir.

Bundan əlavə, yaşayış məntəqələrinin stq-lərə çevrilməsində, mövcud şəhərin böyüməsində və formalaşmasında kənd təsərrüfatı məhsullarının emalı üzrə xalçaçılıq, ipəkçilik, toxuculuq, tikiş fabriklərinin, mebel istehsalının, mənzil-məişət əşyalarının, eləcə də müxtəlif yeyinti sənaye məhsullarının istehsalı mühüm əhəmiyyət kəsb etmişdir.

Təhkimçilik hüququnun ləğv edilməsi Bakı şəhəri və onun ətrafında, eləcə də Gəncə, Naxçıvan, Şamaxı, Bərdə və s. şəhərlərdə yeni-yeni müəssisələrin inkişafına şərait yaratdı. Bundan sonrakı dövrdə, xüsusilə respublikanın paytaxtı Bakı şəhərində genişlənməkdə olan yeni kvartallarda hündür binalar tikilir. Respublika Dövlət Neft Şirkəti, Elmlər Akademiyası, Əlyazmalar İnstitutu, Dövlət İqtisad Universiteti, "Bakı Soveti" metrosu ilə üzbəüz olan yeddimərtəbəli möhtəşəm bina, Tərlan bəy Əlyarbəyov, Hacı Zeynalabdin Tağıyev küçələrindəki yaşayış evləri və s.-ləri indi də Bakıya xüsusi yaraşıq verir.

Şəhərlərin inkişafında və sosial-iqtisadi əhəmiyyətində

şəhər tikintisinin əhəmiyyəti çox böyükdür. Ayrı-ayrı şəhərlərin sosial-iqtisadi inkişafında ekoloji mühitdə, təbiəti mühafizədə olan əhəmiyyətini araşdırmadan onun tarixi inkişafının təhlilini vermək mümkün deyil.

Şəhərlərin tarixi inkişaf yolunu, onlarda yaşayan əhalinin ictimai-sosial vəziyyətini araşdırmadan, təsərrüfat, demoqrafik, tarixi, urbanistika proseslərini təhlil etmək əhali məskunlaşmasının sosial vəziyyətini, elmi-texniki tərəqqinin nailiyyətləri ilə qarşılıqlı əlaqəsini təşkil edir.

Dünyanın ayrı-ayrı yerlərində, o cümlədən Azərbaycan Respublikasında şəhərsalmanın funksional təhlili ilə şəhər təsərrüfatının, urbanizasiyanın, istehsalın təmərküzləşməsinin perspektiv planda layihələşdirilməsi külli miqdarda statistik materialların yığılmasını, təhlilini tələb edir.

Burada şəhərlərin yerləşdiyi təbii şəraitin, mühitin təhlilinə böyük ehtiyac vardır. Şəhərlərin yaranması və inkişafı insan zəkasının məhsuludur. Bunlar şəhər təsərrüfatında yerləşən istehsalın, sosial bölmələrin, intellektual qurumun inkişafında yaradıcı qüvvə kimi çıxış edir.

Feodal ictimai münasibətləri dövründə yaranan Şamaxı, Naxçıvan, Şuşa, Bərdə, Qəbələ, Gəncə şəhərləri müasir dövrə qədər tarixi yol keçmişdir. Sonrakı dövrlərdə yaranan müxtəlif iqtisadi-sosial-ictimai proseslərlə müəyyən zaman və məkan daxilində ziddiyyətli münaqişələr yollarında şəhərlərin inkişafında da geriliklər və irəliləmələr olmuşdur.

Bütün ictimai-iqtisadi proseslərdə Azərbaycanın qədim şəhərləri mübarizələrə, münaqişələrə məruz qalmış və müasir dövrə qədər inkişaf yolu keçmişdir.

İnkişaf dövründə şəhərlər sənətkarlığı, emal sənayesini, xidmət sahələrini özündə cəmləşdirərək əhali urbanizasiyası, istehsal-təmərküzləşməsi yaratmışdır. Onların idarə edilməsində və inkişafında şəhərlər istər öz daxilində, istərsə də təsir etdiyi ərazilərdə işçi qüvvəsinin yetişdirilməsi və təkmilləşdirilməsi ilə məşğul olur. Bu mənada kəndlə şəhər arasında mədəni, elmi-texniki, sosial əlaqələr yaranır. Bu proses

şəhərlərin formalaşmasında, qarşılıqlı əlaqəli inkişafda mühüm amil kimi çıxış edir.

Respublikada əhali məskunlaşması, rayondaxili miqrasiya hesabına şəhər urbanizasiyası formalaşır. Bu, öz növbəsində intellektual səviyyənin, ixtisaslı kadrların, mütəxəssislərin hazırlanmasında, əmək, enerji, elm tutumlu istehsal sahələrində müvafiq məhsul istehsallarının əldə edilməsini təmin edir.

Bu təmayüldə şəhərlər sərbəst və iş adamlarının istehsala cəlb edilməsində, istehsal və qeyri-istehsal sahələrinin inkişaf etdirilməsində qlobal texniki, sosial-iqtisadi, ekoloji problemlərin həll edilməsində mühüm rol oynayır.

Kapitalist istehsal münasibətlərinin inkişafı dövründə Bakı, Gəncə, Şamaxı, Naxçıvan, Şuşa, Bərdə, Quba inzibati idarələrin-quberniyaların, qəzaların, dairələrin yaranma və fəaliyyət obyektləri olmuşdur.

Göstərilən proseslər şəhərləri dövlət əhəmiyyətli hakim dairələrin qanunverici və idarəedici, ticarət istehsal mərkəzlərinə çevirmişdir. Ticarətin, sənətkarlığın, maarifin, mədəniyyətin, elm və texnikanın, təbabətin inkişafı mərkəzin ətraf rayonlara təsirini artırmışdır. Öz növbəsində bunların özü də şəhərlərin inkişafına, onların ərazisinin genişləndirilməsinə təsir edən proseslərdir.

Əvvəldə deyildiyi kimi, 1986-cı il əhalinin siyahıyaalma məlumatına əsasən, Azərbaycanda olan 1807 min nəfər əhalinin 360 min nəfəri, yəni 20 faizi şəhərlərdə yaşamışdır. 1913-cü ildən bu vaxta qədər respublika əhalisinin 4,4 dəfə artdığı şəraitdə, şəhər əhalisi ona nisbətən 7,4 dəfə artmışdır.

Respublikada şəhər əhalisinin belə sürətlə artmasına əsas səbəb, xüsusilə Bakı və Sumqayıt sənaye mərkəzlərinin böyüməsi, şəhər aqlomerasiyasının genişləndirilməsi olmuşdur. Respublikanın paytaxtı Bakı şəhərinə gəldikdə isə əsrimizin əvvəllərindən bu vaxta qədər onun ətrafında neft və qaz mədənlərinin istismarı ilə əlaqədar maşınqayırmanın, nəqliyyatın, neft emalı sənayesinin və onlarla sahələrin inki-

şafı olmuşdur. Gəncə, Naxçıvan, Şuşa, Bərdə kimi qədim şəhərlərin formalaşması və inkişafında kənd təsərrüfatı məhsulları emalı əsasında xalçaçılıq, ipəkçilik, tikiş, trikotaj, mebel istehsalı və yeyinti sənayesinin inkişafı olmuşdur.

Bunların da inkişafı və genişləndirilməsində hələ bizim eradan əvvəl başlayıb Azərbaycandan keçib şimala doğru gedən İpək yolunun böyük təsiri olmuşdur.

Müharibədən sonra yaranmış Sumqayıt, Əli-Bayramlı, Mingəçevir, Daşkəsən şəhərləri respublikada istehsal edilən neftin, qazın emalı, metallurgiya sərvətlərinin bazasında inkişaf etdirilən sənaye müəssisələri-metallurgiya kimya, neftkimya, elektrik enerjisi sənayesi hesabına formalaşmışdır.

Bakı, Sumqayıt, xüsusilə Mingəçevir, Naxçıvan, Əli-Bayramlı şəhərlərində yüksək mərtəbəli evlər, yeni kvartallar tikilmişdir ki, bunlar da urbanizasiya, konsenrasiya prosesləri ilə yanaşı, infrastruktur fəaliyyətini artırmışdır. Bakı şəhərinin inkişafında Abşeronun yanacaq-energetika ehtiyatlarından istifadə edilməsinin həlledici rolu olmuşdur. Bütün bunlar əmək kapitalının fəaliyyətini artırır, şəhərin ətraf rayonlarla əlaqəsini genişləndirir.

1901-ci ildə Abşeronda 11 milyon ton neft çıxarılıb ki, bu da dünya neft ehtiyatlarının yarısına bərabər olmuşdur[1]. Həmin vaxt və ondan xeyli əvvəl Bakı sənayesi xarici monopolistlərin əlinə keçir və onlar neft sənayesinə, neftin çıxarılmasına və emalına, şəhərin abadlaşdırılmasına, yeni-yeni yaraşıqlı və hündür binaların tikilməsinə külli miqdarda kapital qoyuluşu sərf edirlər. Bununla əlaqədar Bakı şəhərində o dövrün tələbatına uyğun gəmi təmiri, maşınqayırma, metal emalı zavodları, tikinti materialları istehsalı müəssisələri (*sement zavodu, dəmir-beton məmulatları zavodu, buxar qazanları, toxucu, trikotaj fabrikləri, istilik elektrik stansiyaları, buxar dəyirmanları, tütün, qənnadı fabrikləri və s.*) fəaliyyətə başlayır. Göstərilən müəssisələr çoxlu miqdarda iş yerləri yaradaraq yüz minlərlə fəhlə və qulluqçuları özlərinə cəlb

---

[1] Народное хозяйство Азербайджанской ССР в 1972 г. Баку-1973

etmişlər.

Şəhərdə yaşayış fondunun genişlənməsi külli miqdarda müxtəlif təmayüllü sənaye müəssisələrinin yaranmasına şərait yaradır və idarəedici, inzibati təşkilatlar fəaliyyətini genişləndirməyə başlayır. Bu dövrdə sənayenin, xüsusilə neft sənayesinin, şəhər təsərrüfatının elektrik enerjisinə olan tələbatını ödəmək məqsədilə Bakı şəhəri və onun ətrafında istilik elektrik stansiyaları (*Krasin adına, «Qırmızı Ulduz», Şimal DRES*) istifadəyə verilir.

Elektrik enerjisi istehsalının artması ilə əlaqədar Bakıda enerji tutumlu istehsal sahələri – cihazqayırma, neft-kimya müəssisələri fəaliyyətə başlayır. Beləliklə, Sovet hakimiyyəti illərində Bakı dünyanın böyük şəhərlərindən birinə çevrilir.

Bakı şəhərinin irimiqyaslı inkişafında onun coğrafi mövqeyi – Qərblə Şərq arasında yerləşməsi, Zaqafqaziyadan, Şimali Qafqazdan, Ukraynadan gələn yüklərin Xəzər dənizi vasitəsilə Orta Asiyaya daşınması iqtisadi əlaqələrin qurulmasında mühüm rol oynamışdır.

İri nəqliyyat qovşağı olan Bakı dəmir yolu, avtomobil yolu, dəniz, hava yolu arasında yük, sərnişin daşınmasının uzlaşdırılmasını nizama salan böyük məntəqədir və Sovet İttifaqı dövründə yük və sərnişin daşınması üzrə həmişə birinci yerdə olmuşdur.

* * *

Müasir şəhərlərin iqtisadi, sosial fəaliyyətində, regionlararası əlaqələrdə nəqliyyat həlledici əhəmiyyətə malikdir. Şəhər əhalisinin miqdarından, aqlomerasiyanın genişliyindən, coğrafi şəraitdən asılı olaraq nəqliyyat xidmətləri fəaliyyət göstərir. Müasir şəhərlərdəki çoxsahəli təsərrüfatların kompleksliyi, funksional fəaliyyəti müxtəlif nəqliyyat növlərinin – avtomobil və dəmir yolları, tramvay, trolleybus, metropoliten, müvafiq şəraitdə dəniz, çay yollarının inkişafı ilə müşayiət edilir.

Bakı kimi paytaxt şəhərlərdə sərnişin daşınmasında metropolitenin üstünlüyü şəraitində avtobus, trolleybus,

qismən də tramvay nəqliyyatı fəaliyyət göstərir. Bakı limanı vasitəsilə Rusiya Federasiyası, Qazaxıstan, Türkmənistan və İran arasında dəniz nəqliyyatı işləyir.

Bu nəqliyyat dəmir yolu, avtomobil nəqliyyatları arasında uzlaşma şəraitində inkişaf etdirilir. Dəniz nəqliyyatı vasitəsilə Həştərxandan keçməklə Bakı limanı Volqa-Don, Volqa-Baltik gəmiçilik kanalları vasitəsilə Qara dənizlə, oradan da Atlantik okeanın şimal tərəfdən Baltik və Şimal dənizlərilə əlaqə saxlayır.

Böyük Bakıda avtomobil, metro, dəmir yolu nəqliyyatı vasitəsilə rayonlararası, rayondaxili əlaqələr aparılır. Metropoliten də daxil olmaqla, texniki məlumata görə, Böyük Bakı ərazisində hər il milyon nəfər nəqliyyat vasitələrindən istifadə edir. Son zamanlarda avtomobil nəqliyyatının özəlləşdirilməsi, icarədarlaşdırılması şəhər nəqliyyatının hərəkətini xeyli gərginləşdirmiş və elə bir ekstremal şərait yaratmışdır ki, külli miqdarda maşın yığnağı olan dayanacaqlar əhalinin keçilməz «qalasına» çevrilmişdir. Sakinlərin gündəlik hərəkəti miqyasının demək olar ki, dəyişilməsi şəraitində şəxsi, fərdi icarə avtomaşınların hədsiz dərəcədə artması şəhərdə, xüsusilə onun mərkəzində hərəkəti gərginləşdirməkdən başqa tüstü, dəm qazları ilə ekoloji mühiti çirkləndirir, səs-küyü artırır.

Hazırda respublikanın orta və böyük şəhərlərində, xüsusilə Böyük Bakıda gündəlik sərnişin daşınmasının demək olar ki, yarısı avtobusların payına düşür.

Avtomobil nəqliyyatının üstünlüyü ondadır ki, tramvaya, trolleybusa nisbətən yüksək sürətə (*saatda 30-40 km*) istənilən yerdə dayanmaq, geniş manevr etmək, müxtəlif tərəfli marşrut hərəkət etmə inkanına malikdir.

Belə əlverişli mövqe ilə yanaşı, bu nəqliyyatın neqativ tərəfi ondan ibarətdir ki, əvvəldə dediyimiz kimi, şəhərin atmosferini çirkləndirir, səs-küy əmələ gətirir, əhalinin əhvalına, sağlamlığına mənfi təsir edir. Son vaxtlar avtobusların daxili mühərriki sisteminin təkmilləşdirilməsi sahəsində apa-

rılan elmi-praktiki işlər göstərilən zərərli amillərin ortadan götürülməsində mühüm vasitədir.

Göstərilən dövrdə maye qazla (*propan-butan qarışığı*) işləyən avtomobillərin hərəkəti bu sahədə mühüm müvəffəqiyyət olsa da, hələ bunlar müasir tələbatdan xeyli uzaqdır. Benzinə nisbətən maye qazın (*propanın*) daxili mühərriklərdə tam yanması ətrafa buraxılan zərərli maddələrin miqdarını azaldır. Bunlarla avtomobillərin elektromühərrikli akkumulyatorlar sisteminə keçirilməsi daha üstün əhəmiyyətə malikdir. Elektromühərrik akkumulyatorlarının yanacaqla birdəfəlik doldurulması 350-400 km məsafə qət etməyi təmin edir ki, bu da maye qaza nisbətən 6-7 dəfə artıq məsafədir.

Bakı şəhəri və dairəsi daxilində avtonəqliyyatın nizama salınmasında ən mühüm məsələlərdən biri onun mərkəz hissəsində gərginliyi yumşaltmaq üçün həddən çox maşınların sayını azaltmaq, müasir tələbata görə optimal səviyyəyə çatdırmaqdır.

1967-ci ildə Bakı Metropoliteninin istismara verilməsi nəqliyyat probleminin həllində böyük dönüş yaratdı. 1999-cu ildə Bakı Metropoliteni 119,2 mln. sərnişin daşımışdır. Bu, respublikanın şəhərlərində daşınan sərnişinlərin təxminən 25-26 faizini, respublika üzrə 8 faizini təşkil edir ki, bu da 1995-ci il səviyyəsinin yarısı qədərdir.

Qeyd etmək lazımdır ki, son 10 ildə Bakı metrosu ilə sərnişin daşınması ildən-ilə azalır: 1990-cı ildə 167,4 mln, 1995-150 mln., 1999-cu ildə 119,2 mln., son 10 ildə metropolitenlə sərnişin daşınmasının 30 faiz azalmasının əsl səbəbi Böyük Bakı əhatəsində metroya nisbətən «qapıdan-qapıya» sərnişin daşıyan minik avtomobillərinin, taksilərin sayının artması olmuşdur.

SSRİ-nin süqutundan sonra Bakı Metropoliteni texniki-təchizat baxımından ciddi çətinliklərə məruz qalmışdır. Sovet İttifaqının süqutundan sonra çoxlu miqdarda sıradan çıxan vaqonların, elektrovozların, sair texniki təmiri yenilərinin alınması, ümumiyyətlə, maddi-texniki bazanın təzə-

lənməsi ciddi problemə çevrilmişdir. Şəhər başqa nəqliyyat növlərinə nisbətən metropolitenin gediş haqqının ucuz olmasından artan xərcləri ödəmir.

Nəzərə alsaq ki, metropolitenin 1 km dəmir yolu tikintisi 35-36 milyard manat (*8 mln. dollara*) başa gəlir və illik amortizasiya xərcləri bunun 20-25 faizini təşkil edir. Rusiya Federasiyasından bir metro vaqonu almaq üçün külli miqdarda xərc sərf edilirsə, onda bu nəqliyyatın fəaliyyətinin nəyə başa gəldiyi məlum olar.

İndi Bakı şəhəri nəqliyyatı qarşısında duran ən ciddi problemlərdən biri hazırda 19 stansiyası, 40 km-ə yaxın dəmir yolu xətti olan Bakı Metropoliteninin yüksək texniki səviyyədə saxlanılmasıdır. Bu məsələ ciddi dövlət qayğısı, külli miqdarda kapital qoyuluşunu tələb edir.

Bakı Metropoliteninin əsas göstəriciləri aşağıdakılardan ibarətdir:

**Cədvəl 22**

| | | |
|---|---|---|
| 1. | Metropolitenin istismara verilən vaxtı | 1967-ci il |
| 2. | Həmin ildə şəhər əhalisi | 1167 min |
| 3. | 2000-ci ildə şəhər əhalisi | 1780 min |
| 4. | Metro xəttinin uzunluğu | 34,2 km |
| 5. | Stansiyaların miqdarı | 19 ədəd |
| 6. | Stansiyaların arasında orta məsafə | 1,8 km |
| 7. | 2000-ci ildə sərnişin daşıyıb | 119,2 min |
| 8. | Bakı şəhəri üzrə daşınan sərnişinlərin miqdarında metropolitenin xüsusi çəkisi | 28 faiz |
| 9. | Saatda orta hesabla qatarın sürəti | 28-30 km |
| 10. | Qatarın orta texniki sürəti | 45 km |

Respublikanın dövlət büdcəsinin müəyyən kasadlığına baxmayaraq Bakı Metropoliteni avadanlığın, vaqonların, elektrovozların təzələnməsi, yenilərinin alınması, yolların təmiri sahəsində işlər görülür. Son illərdə «28 May», «Xətai» stansiyaları yenidən qurulmuş bu hissədə mövcud olan gərginliyi aradan qaldırmış, sərnişin hərəkətini nizama salmışdır.

«Əhmədli» metro stansiyasının davamı olan «Həzi Aslanov» stansiyası istismara verilmə ərəfəsindədir.

Bakı Metropoliteni istifadəyə verildikdən sonra şəhərdə işləyən tramvay nəqliyyatı son dərəcə məhdudlaşdırılmış, onun dəmir yolu xətləri sökülmüşdür. İndi respublika şəhərlərində (*o cümlədən Bakı şəhərində*) demək olar ki, tramvay nəqliyyatı aradan götürülüb.

Tramvay nəqliyyatının ixtisara salınması onunla izah edilir ki, avtobusa nisbətən az sürətə malik, çox səs-küy verən və məhdud manevr hərəkətinə malikdir. İndiki dövrdə bunu əsas səbəb kimi qəbul etmək düz olmazdı, ona görə ki, dünyanın iri şəhərlərində səssiz, komfortabelli tramvaylar işləyir və külli miqdarda sərnişin daşıyır.

Hələ keçən əsrin altmışıncı illərinin sonu, yetmişinci illərinin əvvəllərində Bakı şəhərində tramvay xətlərinin götürülməsində iqtisadi cəhətdən ciddi təxribata yol verilməsi ilə aparılmışdır. Belə ki, tramvay vaqonlarının yığışdırılması vaxtı bütün marşrutlar üzrə 100 km-dən artıq qoşa polad rels, hər km-də 600-650 ədəd şpal, 2 tondan artıq keyfiyyətli dəmir bərkidiciləri olan metallar çıxarılmayıb asfalt altında basdırılmışdır.

Bu qədər poladın, dəmirin, emal edilmiş (*mazutla hopdurulmuş*) şpalların həmişəlik torpağa basdırılması cəmiyyətə milyard manatlarla ziyan vermişdir. Bəzi rəhbərlər tərəfindən göstərilən bacarıqsız, fəaliyyətsiz tədbir tramvay nəqliyyatının əsassız olaraq sıradan çıxarılması ilə nəticələnmişdir. Müasir iri şəhərlərdə indi geniş fəaliyyətdə olan səssiz, sürətli, ekoloji cəhətdən ən sərfəli müəyyən qrafik üzrə fasiləsiz hərəkət edən tramvaylara Bakı şəhərinin, mikrorayonların çox ehtiyacı vardır.

Azərbaycan Respublikasının indiki sosial-iqtisadi yerli istehsal hesabına sənaye mallarının qıtlığı keçmişdə fəaliyyətdə olan sənaye, kənd təsərrüfatı müəssisələrinin tənəzzülü şəraitində indi Bakı tramvay nəqliyyatının bərpa edilməsi reallıqdan kənardır və bu məsələ gələcəyin prob-

şin daşınmasında üstün mövqedə durur. 2000-ci ilin statistik məlumatına əsasən Azərbaycanda avtomobil nəqliyyatı ilə aparılan 1 mln. sərnişinin 40-41 faizi Abşeron iqtisadi rayonunun payına düşür.

İctimai dövlət avtonəqliyyatından başqa, Böyük Bakı və ümumiyyətlə, Abşeron ərazisində fərdi, şəxsi, icarə avtomaşınları geniş fəaliyyət göstərir.

Ümumiyyətlə, respublikanın yük və sərnişin daşınmasında avtomobil nəqliyyatı üstün mövqedə durur. Dəmir yolu, dəniz, hava nəqliyyatının sərnişin və yük vurulması, boşaldıqdan sonra müvafiq yerlərə daşınması avtomobil nəqliyyatı vasitəsilə aparılır. İki böyük şəhər 100-dən çox STQ və fəhlə qəsəbəsi olan Bakı-Sumqayıt aqlomerasiyasında avtomobil, dəmir yolu, dəniz və hava nəqliyyatı əhali məskunlaşmasında onların sosial inkişafında, ümumiyyətlə, infrastruktur əlaqələrində böyük əhəmiyyətə malikdir. Sənaye məhsullarının, inşaat materialları istehsalının, tikinti sahələrinin, şəhərətrafı, şəhərlərarası iqtisadi əlaqələrin, ticarətin inkişafı, əhalinin mədəni istirahətini kurort, rekreasiya xidmətlərinin təşkili müasir dövrdə bir-birilə uzlaşan nəqliyyat növlərinin xidmətlərindən asılıdır.

Qeyd etmək lazımdır ki, Böyük Bakı aqlomerasiyasında nəqliyyatın inkişafında bir sıra amillər iştirak edir: a) yaramadada neft və qazçıxarma mədənlərinin bir-birindən ayrı müxtəlif məsafələrdə yerləşməsi, nisbətən az işçi qüvvəsinə malik və geniş ərazi tutan kənd təsərrüfatı sahələrinin, bağların, xırda ərazilərin bir-birindən aralı olması; b) yarımadanın şimal-şərq istiqamətində kurort, balneoloji müəssisələrin fəaliyyəti; v) çox hallarda bunların arasında avtonəqliyyatın müasir tələbatına çavab verməyən yollar.

Respublikada sənaye məhsulları istehsalının həmişə 64-65 faizi verən əhalisinin 30 faizə qədərinə malik olan Azərbaycanda hərəkətdə olan avtomaşınların təxminən yarısını özündə cəmləşdirən Abşeron yarımadasında nəqliyyatın müasir tələblər səviyyəsində inkişafı avtomobil yollarının

yaşayış məntəqələri arasında gediş-gəliş xeyli azalıb.

Əgər 1990-cı ilin əvvəlinə qədər elektrik qatarlarından istifadə edən ümumi sərnişinlərdən 60 faizdən çoxu iş yerlərinə, 1,5-1,6 faizi məişət məqsədləri üçün gedib-gəlmək idisə, indi birincinin xüsusi çəkisi xeyli azalmışdır.

Elektrik qatarları ilə sərnişin daşınması mövsümi xarakter daşıyır. Yayda və payızın ilk aylarında iş yerinə gedib-gələnlərin xüsusi çəkisinin azalması şəraitində bağlara, istirahətə, çimərliklərə gedib-gələnlərin miqdarı 70-75 faiz azalır. Yayda şənbə, bazar günlərində ümumi sərnişin hərəkətində bağlara və çimərliklərə gedənlər 60 faiz artıq olur.

Məişət məqsədilə gedib-gələnlər ümumi sərnişinlərin 21-22 faizini təşkil edir. Yay ayları məzuniyyət mövsümü olduğundan elektrik vaqonlarında işə gedib-gələnlərin miqdarı xeyli azalır. Ümumiyyətlə, Abşeron yarımadasında sərnişin daşımasında avtomobil nəqliyyatı həmişə hakim mövqeyini saxlamaqdadır. Buradan əsasən 5 istiqamətdə şose yolları çıxır:

1. Bakı-Xaçmaz-Dərbənd-Mahaçqala;
2. Bakı-Kürdəmir-Yevlax-Gəncə-Qazax, Yevlaxdan Şəkiyə və Kəlbəcər istiqamətinə yol ayrılır;
3. Bakı-Ələt-Salyan-Astara, Ələtdən Naxçıvana, Sabirabada yol ayrılır;
4. Bakı-Xırdalan-Sumqayıt;
5. Bakı-Şamaxı-Ağsu buradan da Kürdəmirə-Göyçaya yol ayrılır.

Sovet İttifaqının süqutuna qədər sərnişin və yük daşınmasında uzaq məsafə yollarında Bakı-Xaçmaz-Dərbənd-Mahaçqala-Rostov istiqaməti üstünlük təşkil edirdi. İndi ciddi sərhəd və gömrük nəzarəti, Rusiya Federasiyası ilə mal mübadiləsi kəskin sürətdə azaldığından bu yol əvvəlki mövqeyini bir qədər zəiflətmişdir. Hazırda bu mövqedə birinci yeri Bakı-Kürdəmir-Gəncə-Tbilisi marşrutu tutur. Qısa məsafəli Bakı-Sumqayıt yolunda (*40 km*) avtomobil nəqliyyatı intensiv hərəkətdədir. Abşeron rayonunda da yük və sərni-

şıma qabiliyyəti və fəaliyyəti xeyli tənəzzülə uğramışdır ki, bu da aşağıdakı səbəblərdən irəli gəlmişdir:

a) dəmir yolları ilə paralel gedən şose yollarında dəmir qatarlarına nisbətən daha çox sürətlə sərnişinlər üçün sərfəli dayanacaqlarda duran avtomobillərin işləməsi;

b) dəmir yoluna nisbətən avtobus yolları yaxınlığında yerləşən neft mədənlərinin istismarı və bu zonalarda sənaye, mülki tikintilərin, yaşayış məntəqələrinin mövcudluğu;

v) quruda neft mədənlərinin xeyli tənəzzülü şəraitində dənizdə neft çıxarılmasının sürətli inkişafı ilə əlaqədar burada işləyənlərin dəniz nəqliyyatı ilə iş yerlərinə gedib-gəlmək;

q) elektrik dəmir yolu qatarlarının hərəkət intervalı arasındakı məsafənin nisbətən uzun olması;

d) son illərdə Abşeron bağlarının xeyli hissəsinin sıradan çıxması ilə onlara olan gediş-gəlişin xeyli azalması və bunların içərisinə daxil olan avtobus marşrutlarının fəaliyyəti.

Bütün bunlara baxmayaraq, Abşeron iqtisadi rayonunda elektrik dəmir yolunun çox üstünlüyü vardır. Bunun texniki-iqtisadi fəaliyyətinin müasir tələblər səviyyəsinə qaldırılması ən zəruri vəzifə kimi dövlət qayğısı tələb edir. Bunun üçün ilk növbədə sərnişinlərin tələbatına cavab verən, zövqünü oxşayan rahat vaqonlardan istifadə edilməsi, hərəkət distansiyası arasındakı məsafənin əhalinin hərəkətinə uyğun nizama salınması qatarların sürətinin artırılması zəruridir. Bu tədbirlər ilk növbədə ən çox sərnişin daşınan (*51-57 faiz*) Bakı-Sabunçu-Mərdəkan-Suraxanı, Bakı-Biləcəri (*33-39 faiz*) arasında həyata keçirilməsidir.

Əgər 1980-ci illərdə orta hesabla 1,8 milyonluq əhaliyə görə Abşeronun şəhərlərarası elektrik dəmir yolunda sutkada orta hesabla 95-100 min sərnişin daşınırdısa, indi 2,5 mln.-luq əhaliyə görə ondan 25-30 faiz aparılır.

Bunun bir səbəbi də ondan ibarətdir ki, son 10 ildə Abşeronda sənaye, aqrosənaye, tikinti komplekslərinin əksəriyyəti işləmir və bu səbəbdən Bakı və Sumqayıtla Abşeronun sair

lemi olaraq qalmaqdadır. Məsələnin həlli texniki-iqtisadi cəhətdən optimal sürətə malik avtomat idarə sistemi və tramvayların istismara verilməsi ilə əlaqədardır.

Bakı Metropoliteni şəhərdə hərəkətdə olan ictimai, şəxsi, fərdi saysız-hesabsız avtobuslar trolleybuslarla rəqabətdə üstünlük əldə edən nəqliyyatdır. Belə şəraitdə bir neçə marşrutda saxlanılan, əsasən köhnə, müasir tələbata cavab verməyən trolleybuslar ümumi sərnişin daşınmasında cüzi yer tutur. Belə şəraitdə nəqliyyatın perspektivi haqqında danışmaq belə əsassız olardı.

Avtobuslara nisbətən trolleybusların ləng hərəkəti, texniki nasazlıqdan, elektrik enerji xəttində gərginliyin kəsilməsi ilə tez-tez yollarda dayanması və s. üzündən avtobuslarla rəqabətə davam gətirməyib sıradan çıxır. 1990-cı ildə Bakı və Sumqayıt şəhərlərində olan 30 km-lik trolleybus xətlərindən indi çox az hissəsi saxlanmışdır.

Gələcəkdə respublikada elektrik enerji istehsalının artması Böyük Bakı rayonunda çoxalmaqda olan əhalinin intensiv nəqliyyat hərəkətinin nizama salınması elektrik istifadə təmayüllü, ekoloji cəhətdən təmiz nəqliyyatın inkişafını ya da sərnişin, yük avtomobillərinin elektromobillərlə əvəz edilməsini qarşıda qoyur. Şəhərin sərnişin nəqliyyatı kompleksində yeni metropoliten stansiyalarının tikilməsilə əhali sıx məskunlaşan mikrorayonların bu sistemə cəlb edilməsi də zəruri problem kimi qarşıda durur.

Hazırda Bakı-Sumqayıt İH-də, qismən Abşeron inzibati rayonu ərazisində sərnişin daşımasında avtobuslarla yanaşı, elektrikləşmiş dəmir yolları da geniş miqyasda iştirak edir. Bakı sərnişin stansiyasından başlanan elektrikləşmiş dəmir yoluna Bakı-Sabunçu, Mərdəkan-Qala-Sabuncu dairəsinin Sabunçu-Maştağa, Pirşağı-Sumqayıt xəttinin uzunluğu 280 km-ə çatır.

Elektrikləşmiş dəmir yolu xətləri Abşeron rayonunda 40-a qədər stansiyanı birləşdirir. Lakin son 30 ildə Abşeron rayonunda göstərilən dəmir yolu nəqliyyatının sərnişin da-

yük və sərnişin daşınması tələblərinə uyğun təkmilləşdirilməsi zəruri problem kimi qarşıda durur.

Bunların həyata keçirilməsində indi Böyük Bakının nəqliyyat fəaliyyətinə təsir edən aşağıdakı amillərin nəzərə alınmasını zəruri hesab edirik:

a) nisbətən seyrək əhali məskunlaşması ilə fərqlənən neft mədənləri, kənd təsərrüfatı rayonlarına sərnişin və yük daşınması əsasən avtomobil yolları vasitəsilə yerinə yetirilir. Ən sərfəli yüksək manevr, «qapıdan qapıya» daxil olan avtonəqliyyat üstünlüyü saxlamalıdır. Bu isə yolların müasir tələblər səviyyəsinə uyğun təkmilləşdirilməsinin yaxşılaşdırılmasını tələb edir;

b) Abşeronda istər quruda, istərsə də dənizdə istismarda olan dəmir yollarına yaxın böyük neft, qaz mədənlərinin kurort bolneoloji müəssisələrinin, rekreasiya zonalarının nəqliyyat xidməti elektrik dəmir yolu və dəniz nəqliyyatı vasitəsilə aparılmalıdır. Bunun üçün hər iki nəqliyyat vasitəsinin xidmətinin yaxşılaşdırılması, texniki vəziyyətin təkmilləşdirilməsi sürətinin artırılması ilə sərnişinlərin rahatlığı təmin edilməlidir. Böyük Bakı əhalisinin nəqliyyat, iqtisadi əlaqələrinin, məişətinin mövcud şəraitini öyrənmək məqsədilə şəhərətrafı rayonların qrafotəhlil tədqiqatı işlərini aparmışıq. Bu metod rayonun məskunlaşması ilə nəqliyyat sistemlərinin birgə, əlaqəli sürətdə öyrənilməsində mühüm vasitədir. Bununla əlaqədar metodla tədqiqat işlərinin aparılması aşağıdakı tədbirləri əhatə edir:

1) əhalinin miqdarından asılı olaraq Böyük Bakı daxilində məntəqələrin nəqliyyat xidmətinə cəlb edilməsi;

2) Böyük Bakının baş nəqliyyat qovşağına Bakı mərkəzi hissəsi əsasən dəmir yolu, dəniz limanı ilə avtomobil qovşaqları, dəmir yolu və dəniz vağzalı, həm də yeni avtofağzal ərazisi kimi qəbul edilmişdir;

3) mövcud nəqliyyat vasitəsilə əhali ən çox şəhərin mərkəzinə doğru və buradan əks məsafəyə hərəkət edir ki, bu da bir növ «rəqqas» rolunu oynayır. Bu istiqamətlərdə

əhalinin ümumi sayından, şəhərə gəlib gedənləri də nəzərə alınmaqla gündəlik sərnişinlərin sayı təxmini də olsa müəyyən edilir;

4) əhalinin nəqliyyat hərəkətində mühüm göstəricilərdən biri onların Böyük Bakı mərkəzindən hansı məsafədə yerləşməsini göstərir ki, bu da sərnişinlərin bir nöqtədən başqasına getməkdə vaxt itirməsi ilə əlaqədardar. Belə nəqliyyat əlaqələrinin xüsusiyyəti üçün şəhərətrafı ilə mərkəz arasında olan məsafənin hansı vaxtda qət edilməsi təxmini də olsa, müəyyən edilir. Ona görə ki, burada dəqiqlik axtarmaq mümkün deyil, çünki nəqliyyatın sutkalıq hərəkətinin gərginliyindən, sərbəstliyindən asılı olaraq vaxt amili dəyişir.

Nəqliyyatın hərəkətini nizamlayan, qiymətlərindən zəruri şərtlərdən biri də fəaliyyət zonasında şəhərətrafı ərazi ilə mərkəz arasında əhalinin sıxlığının müəyyən edilməsidir.

Yuxarıda göstərilən amillərin araşdırılmasından alınan nəticələr şəhərətrafı zona ilə mikrorayonlarda mərkəz arasındakı nəqliyyat əlaqələri haqqında informasiya almağı reallaşdırır.

Son illərdə Abşeronda avtomobil nəqliyyatının inkişafı fərdi, özəl, icarə avtomaşınlarının çoxalması, sahibkarların qazanc əldə etməsi məqsədilə fəaliyyəti Böyük Bakıda, Sumqayıt şəhər İH-də baş verən nəqliyyat qovşaqları ilə şəhərətrafı ərazi nəqliyyatı arasındakı məsafə fərqini xeyli aradan götürmüşdür. Məsələn, 10-12 il bundan əvvəl əgər şəhərin baş nəqliyyat qovşaqları olan indiki «28 May» metrosu, Səməd Vurğun adına dəmir yolu vağzalı meydanı, avtovağzal ilə şəhərətrafı rayonlar arasında sərnişin daşınması problemlərini həll edilmiş hesab etmək olardısa, indi «20 yanvar» metrosu və yeni avtovağzal belə qovşağa çevrilə bilər. Bu sahədə həll edilməsi zəruri olan problem mədəni xidmətin yol-nəqliyyat haqqının salınmasından ibarətdir. Vətəndaşların imkanına uyğun nəqliyyatda gediş haqqının bahalığı, rəsmi olaraq nəqliyyat haqqından azad edilmiş şəxslərə qarşı bir çox hallarda sürücülərin kobud rəftarı ciddi narazılığa səbəb olur.

Böyük Bakı ərazisində olduqca gərgin nəqliyyat hərəkətinə məruz qalan Bakı-Sumqayıt, şəhərlə aeroport, Mərdəkanla-Sabunçu arasında olan yolları çıxmaqla, başqa səmtlərə gedən yolların nasazlığı, sərnişin buraxma qabiliyyəti müasir tələbata cavab vermir. Belə vəziyyət avtomaşınların hərəkət sürətini (*saatda təxminən 20-25 km.*) məhdudlaşdırır. Nəticədə mikrorayonlardan və şəhərətrafı rayonlardan şəhərin mərkəzinə gəlmək üçün orta hesabla 30 dəqiqədən çox vaxt itirilir.

Şəhərətrafı rayonların qrafotəhlil göstəriciləri aşağıdakı cədvəldə verilir:

**Cədvəl 23**

| | **Göstəricilər** | **Ölçü vahidi** |
|---|---|---|
| 1. | Böyük Bakının əhalisi (*ətrafı ilə birlikdə*) | 2200 min nəfər |
| 2. | Böyük Bakının ərazisi | 2200 kv.km. |
| 3. | Şəhərətrafı rayonların ərazisi | 800 kv.km. |
| 4. | Burada əhalinin sıxlığı | 450 kv.km./ adam |
| 5. | Buranin əhalisinin düz istiqamətdə şəhərin mərkəzlərindən uzaqlığı | 18-20 km. |
| 6. | Əslində yol boyü uzaqlığı | 21-22 km. |
| 7. | Həmin məsafədə şəhərin mərkəzinə gəlmək üçün vaxt itirilməsi | 30-35 dəqiqə |
| 8. | Bu yolda avtomaşınların orta hərəkət sürəti | 21-22 saat/km |

Apardığımız təcrübə və tədqiqatın nəticələrində belə qərara gəlmişik ki, respublikanın iri və böyük şəhərlərində yaşayan əhali gündə işə gedib-gəlmək üçün orta hesabla 1-1,5 saata qədər vaxt sərf edir.

Apardığımız tədqiqat işlərindən müəyyən etmişik ki, Bakı şəhərətrafı ərazisində yaşayan əhali mərkəzdən orta hesabla 45-50 dəqiqəlik məsafədə 70 faizi, 75-80 dəqiqəlikdə 18,0 faiz, bir saatlıq məsafədə 13,0 faiz adam yaşayır.

## 5.3. Şəhər və paytaxt fenomeni: tədqiqatın nəzəri aspekti, ümumi və fərdi xüsusiyyətləri

Şəhərin yaranması və inkişafı coğrafi, ictimai əmək bölgüsünün təkmilləşdirilməsi, istehsalın təmərküzləşməsi əhali məşkunlaşmasının urbanizasiyaya çevrilməsinin nəticəsidir. Belə prosesdə "şəhər daxilində" əmək fəaliyyətinin diversifikasiyası və kənd yerlərinə nisbətən ixtisaslaşmanın dərinləşməsi baş verir. Bunun məzmununu məşhur Sovet coğrafiyaşünası N.N.Baranski belə izah etmişdir ki, şəhərlər ölkənin hər cəhətdən təsərrüfat, siyasi-inzibati, mədəni inkişafını təmsil edən komanda amilidir.

Müəyyən tarixi mərhələdə formalaşan şəhər yaşayış mühiti əhalinin, əmək alətlərinin, kapitalın, sənayenin müxtəlif məhsullara, xidmət sahələrinə olan tələbatının təmərkəzləşmə mərkəzi olduğu halda, kəndlərdə fərdiçilik, ictimai baxımdan bir-birindən təcrid olunan əlaqəsizlik mövcuddur.

Əlbəttə, tarixən belə vəziyyətdə çox ömür sürmüş şəhərlər texnikanın, texniki tərəqqinin, nəqliyyatın, iqtisadi və sosial inkişafın sayəsində son 45-50 ildə-şəhərlə kənd arasındakı uzun müddət davam edən ziddiyyət və fərqləri xeyli aradan qötürmüşdür. Şəhər mühitinin təsiri altında kəndlərin inkişafı "şəhər adətlərinə" uyğun bir növ "şəhərləşmiş", kənd və şəhər arasındakı fərqlər xeyli aradan qalxmışdır.

Belə şəraitdə şəhər, kənd yaşayış məntəqələri müəyyən dərəcədə ierarxiya sisteminə yiyələnən, müvafiq tabeçilik, uzlaşma təmayülündə hər hansı qurum müəyyən vəzifəsini, fəaliyyəti, təsir dairəsini və cəzbetmə əhatəsini idarə edir. Əhalinin sayına, iqtisadi, sosial ixtisaslaşma, idarəetmə səviyyəsinə görə şəhərlərarası fərqlər mövcuddur. Belə şəraitdə hansı mülkiyyət formasında olursa-olsun idarəetmə qabiliyyətinə malik, dövlətin mənafeyinə xidmət qöstərən qanunların verilməsinə və icrasına xidmət edən ölkədaxili beynəlxalq iqtisadi əlaqələri idarə edən lider-paytaxt rolunu oy-

nayan şəhər seçilir.

İndi kifayət qədər ərazi-əmək bölqüsü şəraitində və dövlət daxilində kamil formalaşmış cəmiyyətdə elə bir mərkəz seçilməsinə ehtiyac ortaya çıxır ki, orada ictimai- zəruri funksiyalar hər şeydən əvvəl dövlətin siyasi, hüquqi, təsərrüfat, təşkilati, sosial, ekoloji və s. məsələlərin həlli idarəetmə, icraetmə qanun-qaydalarının həyata keçirilməsini təmin edə bilsin.

Məlumdur ki, şəhər - "paytaxt" bu səviyyədə öz vəzifəsinin idarəetmə, icraetmə qabiliyyətinə malik olmalıdır. Paytaxt formalaşmis idarəetmə, iqtisadi, sosial, hüquqi baxımdan səfərbəredici qabiliyyətə, milli adət-ənənəyə riayət etməklə, onun hakim orqanlarında ərazinin iqtisadi, sosial inkişafının təmin edilməsində yüksək bacarıq, idarəçilik səriştəsi tələb edir.

Bundan əlavə, ölkənin iqtisadi, idarəedici liderliyində, idarəetmənin özünəməxsus fəaliyyətində şəhərin qüclü demo-iqtisadi potensiala malik olması zəruridir. Üçüncü tərəfdən dövlətin istər milli, istərsə də beynəlxalq əlaqələrini uzlaşdırmaq məsələsinin həyata keçirilməsi şəhərin əlverişli iqtisadi-coğrafi mövqedə olmasından çox asılıdır.

Yuxarıda göstərilən şərtlərin, amillərin mövcudluğunun məcmusu ölkənin iqtisadi-siyasi, sosial, iqtisadi əlaqələrin inkişafında və idarəetməsində paytaxt şəhər "vətəndaşlıq" hüququnun sakinlərin vəzifəsinin qaranti olmalidır.

Azərbaycan Respublikasının Böyük Bakı üçün qədimdən bəri səciyyəvi olan bu xüsusiyyətləri onun paytaxt kimi funksiyalarını formalaşdırır və genişləndirir. Səhərin yaranmasında maddi əsas kimi iki amil iştirak edir: bir tərəfdən, daha yüksək ierarxiya səviyyəsində sahəvi, diqər tərəfdən, reqional sistem elementləridir ki, bunlar da sərbəst və əlaqəli orqanizm kimi fəaliyyət göstərir. Burada şəhər fenomeninin öyrənilməsində müxtəlif səciyyəli ikitərəfli yanaşma zəruriliyi ortaya çıxır.

Paytaxt şəhəri ölkənin inkişafının mühüm demoqrafik,

iqtisadi, ictimai, sosial obyekti kimi ictimai əmək bölgüsündə özünəməxsus funksiyasını, xarici və daxili amillərin fəaliyyətini idarə edən obyektdir.

Paytaxt şəhərin fəaliyyəti özündən xaric beynəlxalq problemlərlə yanaşı, şəhərdaxili iqtisadi, sosial, nəqliyyat, demoqrafik, əhaliyə xidmət sahələrinin quruluşunu, əlaqələrin təkmilləşdirilməsini idarə edir. Paytaxtlıq şəhərin inkişaf amili kimi iqtisadi, sosial, demoqrafik proseslərin formalaşmasında dövrün tələbatından asılı olaraq yeni elementlərə istinad edir, onların həyata keçirilməsinə şərait yaradır.

Paytaxtın öyrənilməsində istehsal, qeyri-istehsal quruluşunun məsələsi prinsip etibarilə mühüm əhəmiyyətə malik infrastruktur əlaqələrin, demoqrafik proseslərin funksiyasını müəyyən edir. Məlumdur ki, mürəkkəb sosial-iqtisadi sistemin istehsal quruluşunun təyini ixtisaslaşmasını formalaşdıran amillərin öyrənilməsi, müxtəlif metodlarla araşdırıla bilər ki, burada çox məlumatların təhlili tələb olunur. Bakı şəhəri üçün funksional sahəvi-ərazi aspektinin "xarici" və "daxil" mühitlə əlaqəsi əsas amil kimi qəbul edilir. Bunun əsasında tərtib etdiyimiz aşağıdakı sxemdə paytaxt şəhərinin formalaşmasında məntiqi blok alınır ki, bu da 6 saylı sxemdə verilir.

Paytaxtın aparıcı xüsusiyyətini əks etdirən mühüm tipoloji əlamətlərdən biri şəhərdə dövlət və müxtəlif təmayüllü ictimai, fərdi idarələrin yerləşməsidir. Belə şəraitdə, xalq təsərrüfatı sistemində hakim olan təşkilat – idarəçilik funksiyasını şəhər özündə birləşdirir, bundan əlavə, siyasi mərkəz kimi milli şüurun inkişafında bu, mühüm əhəmiyyət kəsb edir.

Paytaxta xas olan başlıca əlamətlərdən biri istər milli, istərsə də beynəlxalq əhəmiyyətli ictimai təşkilatların yüksək dərəcədə təmərküzləşməsi, xarici səfirliklərin və nümayəndəliklərin yerləşməsidir. Bu əlamətlər paytaxtın yuxarı səviyyəli indikatorudur. Aysberqin görünən hissəsi kimi göstərilən əlamətlər ierarxiya tabelik piramidası şəhərin ali kateqoriyaya daxil olmasını sübut edir.




**Sxem 6. Paytaxt şəhərlərinin tarixi-coğrafi formalaşmasının blok sxemi**

Mütərəqqi formaların, elmi-texniki, iqtisadi, sosial amillərin paytaxtda yerinə yetirilməsinin əks-sədası başqa rayonlarda da özünü göstərir. İqtisadi, sosial qurumlarda yeniliklərin, mütərəqqi tədbirlərin həyata keçirilməsi rayondaxili və rayonlararası əlaqələri genişləndirir, ərazi-istehsal sistemində olan uzlaşmanı təkmilləşdirir, mərkəzdənqaçma yolu ilə şəhərin cazibə qüvvəsini artırır.

Beləliklə, şəhərətrafı zonalarda "cazibə qüvvəsinə" məruz qalan rayonlarda "paytaxt istehsalı", "paytaxt elm və mədəniyyəti" inkişaf edir. Bu şəhərlərdə "rəqqas" miqrasiyasının hərəkəti nəqliyyatın fəaliyyətini və ərazi baxımından paytaxta səciyyəvi olan müəssisələrarası əlaqələri genişləndirir.

Başqa iri şəhərlərdən fərqli olaraq paytaxt üçün səciyyəvi cəhət ölkə ərazisi daxilində kompleks iqtisadi, texniki, texnoloji tədbirlərin yerinə yetirilməsinin təmin edilməsidir. Paytaxt şəhərinin tipoloji xüsusiyyətlərinin və "daxili" infrastruktur aspektinin müəyyən edilməsində aparıcı mövqeyi şəhər blokunun iqdisadi və idarəedici inkişafdakı fəaliyyəti təşkil edir, iqtisadi, sosial, geosiyası aspektdə mütərəqqilik, pionerlik paytaxta səciyyəvi olan komplekslik, novatorluq və gərqinlik mühüm rol oynayır.

Yəqin ki, yeniliklərin nəticələrinin bu və ya digər sahələrdə tətbiq edilməsi, mütərəqqi tədbirlərin həyata keçirilməsi, bu sahədə mövcud olan elmi nailiyyətlərdən istifadə etmədən mümkün deyil. Bu mənada elmi-tədqiqat fəaliyyəti, "elmilik" paytaxt şəhərinə səciyyəvi olan mühüm atributdur.

Bütün bu göstəricilər paytaxt şəhərlərinin funksional-sahəvi quruluşunun diferensial formalaşmasına təsir edən mühüm amillərdir. Coxlu və müxtəlif təmayüllu tədbirlərin, vəzifələrin həlli, zəruri qöstərişlərin yerinə yetirilməsi şəhərin demoqrafik, iqtisadi-sosial potensialının qanunauyğun inkişafı üzrə tələbatı artırmaqla onun fəaliyyətini «ölkələşdirir». Burada elmi-texniki bazanın, elm, enerji tutumlu istehsalın inkişafında intellektual kadrların böyük rolu vardır.

Şəhərdaxili istehsal, sosial və əhaliyə xidmət sahələrinin

formalaşmasında paytaxt özünəməxsus funksional - ərazi strukturunu dərinləşdirir, kompleks inkişafa tələbatı və marağı artırır. Belə olduqda xalq təsərrüfatı quruluşunun kompleks sahələrində fəaliyyət genişlənir. Uzun müddət davam edən belə prosesdə ayrı-ayrı sahələrin ixtisaslaşma səviyyəsi dərinləşir ki, bu da bir növ onun istehsala tətbiq edilməsinin nəticəsi kimi qiymətləndirilir.

Sənaye müəssisələri fəaliyyətinin intensivləşdirilməsi prosesinin sonrakı mərhələsində paytaxt və ya «milyoner» şəhərlərdə qeyri-istehsal, əhaliyə xidmət sahələri də inkişaf edir, bunların fəaliyyəti şəhər sakinlərinin miqdarı, sosial vəziyyəti ilə əlaqədar olaraq artır.

İstehsal və qeyri-istehsalın, əhaliyə xidmət sahələrinin funksional fəaliyyət bloku sahəvi, istehsal-ərazi quruluşunda «paytaxtın» mövqeyini yüksəldir və ölkədaxili əmək bölgüsündə onu artırır. Bir çox böyük şəhərlər kimi paytaxtların ərazi quruluşunda əhatəli təsir mövqeyinə malik olması fonunda hərtərəfli vəzifələrin, tədbirlərin həyata keçirilməsində urbanizasiya və məşğulluq obyektlərinin arasındakı əlavələrin diferensləşdirilməsində ictimai-siyasi, mədəni, elmi cəhətdən tarixən formalaşmış mərkəz mühüm rol oynayır. Siyasi, mədəni, elmi, maarif və mədəniyyətin inkişafında paytaxt tarixən formalaşmış mərkəz kimi fəaliyyət göstərir.

Bütün bunlar «şəhərdaxili» ərazi baxımından şaquli və üfüqi istiqamətdə «paytaxtın» funksional əhəmiyyətinin genişləndirilməsini tələb edir. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, paytaxta xas olan fəaliyyət istər ümumiyyətlə, istərsə də ərazi-istehsal sistemində urbanizasiya, məskunlaşma ilə iqtisadi, sosial, demoqrafik prosesin uzlaşdırılmasını nizamlamaqdan ibarətdir.

Əlbəttə, burada bir sıra ziddiyyətlər ortaya çıxır. Bu ziddiyətlərə demoqrafik proseslə əhali, əmək ehtiyatları ilə iş yerləri arasındakı uyğunsuzluq, istehsalla tələbat, malların, məhsulların bölüşdürülməsi, əhaliyə xidmət, nizami inkişaf, ekoloji mühit, «şəhərdaxili» əlaqələr daxildir.

Göstərilən problemlərin həlli şəhərin funksional struktur şəraitində inkişafı paytaxtda ərazi demo-iqtisadi resurslarının fəaliyyətinin artırılmasını tələb edir.

Elm və texnikanın, sənaye istehsalının, yeni texnika və texnologiyanın tətbiqi, urbanizasiyanın inkişafı, şəhərdaxili, ölkələrarası iqtisadi əlaqələrin genişləndirilməsi sahəsində şəhərin funksiyasının, istehsal fəaliyyətinin artırılması, eləcə də əsas fondların, fiziki və mənəvi cəhətdən sıradan çıxmış texnikanın, avadanlıqların yeniləri ilə əvəz edilməsini qarşıya qoyur.

Müasir dövrdə bunların iri şəhərlərdə həyata keçirilməsinə hazırkı maliyyə çatışmamazlığı, maddi-texniki bazanın zəifliyi şəraitində xarici şirkətlərin, kompaniyaların mənafeləri xeyrinə fəaliyyət göstərdikləri, sənaye istehsalının sürətli tənəzzülü şəraitində çətinlik törədir.

Məlumdur ki, yerləşdiyi və cazibəsi altında olan ərazidə, iqtisadi-sosial, xidmət sahələrinin inkişafında şəhərlərin qarşısında geniş perspektivlər açılır ki, bunların da həyata keçirilməsi bir sıra problemlərlə əlaqədardır. Birinci paytaxt iqtisadi, siyasi, geosiyasi, demoqrafik inkişafa dair perspektiv planların icrasını həyata keçirir, onların həllinə dair tədbirlər sistemini irəli sürür. İkinci, dövlət tabeçiliyində ən mühüm obyekt və idarəetmə mərkəzi olan paytaxt regionunun kompleks inkişafı üçün işlər inersion, istərsə də optimallaşdırılmış metodların tətbiqində iştirak edir.

Bu məsələlərin həllində iqtisadiyyatın və idarəetmənin aparılmasında subyekt-obyekt mövqelərinin araşdırılmasında optimallaşdırılmış, imitasiya edilmiş metodların tətbiqi tələb olunur. Üçüncüsü, paytaxtın planlaşdırılmasında bu və ya digər məsələlərin həllini çətinləşdirən bir sıra mənfi halları ortaya çıxaran «volyuntarist» yanaşmaya yol verilməsi böyük şəhər regionunun inkişafında çətinliklər yaradır.

İqtisadi-coğrafi fenomenin araşdırılması paytaxt şəhərlərində təkraredilməz və unikallığın özlərinə məxsus xüsusiyyətlərinin dərk edilməsində həlledici vasitədir.

Əvvəllər də deyildiyi kimi, paytaxtlıq fenomeni «dövlətçiliyin» inkişafı, formalaşmasını vahid sistem kimi qəbul edir. Öz mahiyyətinə görə paytaxtlıq özünəməxsus xarakterə malik olan şəhərin iqtisadi inkişaf mövqeyinə təsir göstərir. «Paytaxtçılığın» mühüm təzahürü kimi şəhərin inzibati əhəmiyyəti başlıca olaraq dövlət hakimiyyətinin «yuxarı» təbəqəli aparatının mövcudluğu ilə ifadə edilir. Belə şəraitdə şəhərin siyasi və iqtisadi inkişafı paralel istiqamətdə sərbəst idarəçilik və avtonom istiqamətdə fəaliyyət göstərir.

Göstərilən amillərin nəzərə alınması ilkin mərhələdə fabrik, zavod sənayesinin inkişafı və paytaxtın formalaşmasının tədqiqatında xüsusi əhəmiyyətə malikdir. Məsələ bundadır ki, sənətkarlıq və yerli istehsalın inkişaf etdirilməsi ilk növbədə şəhərin tələbatının ödənilməsinə xidmət edir. Müəyyən istehsal münasibətləri şəraitində alınan məhsulların mübadilə məntəqəsi kimi şəhərlər özlərinə və əhatəsindəki əraziyə xidmət edir.

Belə şəraitdə paytaxt kimi formalaşan iri şəhərlər tabeliyindəki dövlətin inzibati-siyasi, iqtisadi, beynəlxalq əlaqələr istiqamətində yerinə yetirdiyi vəzifələr daha geniş miqyaslı fəaliyyətə malik olur. Paytaxtçılıq müəyyən qədər şəhərin «istehlak» quruluşunun formalaşmasını, onun fəaliyyət sistemində ərazi-istehsalı rayonları ilə bağlılığını təmin edir.

Paytaxtda idarəetmə hakimiyyətliliyin təmərküzləşməsi məhsuldar qüvvələrin inkişafında, urbanizasiya proseslərində və ictimai, ərazi əmək bölgüsündə rolu başqa şəhərlərə nisbətən daha qüvvətli olur. Praktiki olaraq ölkədəki təbii sərvətlərin, iqtisadi inteqrasiyanın və s. imkanlarının qarşılıqlı surətdə səmərəli istifadə edilməsi təsərrüfatın hərtərəfli inkişafında güclü təkan verir.

Bu mərhələdə şəhərin tabeliyində və imkanlarında iqtisadi-coğrafi mövqeyin əhəmiyyəti əvəzedilməzdir. Bu, paytaxtın dominantlığının və funksional strukturunun dəyişdirilməsinə, təkmilləşdirilməsinə, iqtisadi potensialın artırıl-

masına təsir göstərir.

Yuxarıda deyilənlərlə əlaqədar Bakı şəhəri də daxil olmaqla, müasir paytaxtların iqtisadi-coğrafi təhlilində əsas iki amilə diqqət yetirilməsi vacibdir: birincisi, şəhərin paytaxtlıq hüquqi vəzifəsi, fəaliyyəti; ikinci də ölkənin tarixi inkişafında onlar üçün mühüm əhəmiyyətə malik əsaslı inkişaf mərhələlərinin müəyyən edilməsidir. Ölkənin iqtisadi, sosial, siyasi quruluşunun idarə edilməsi, təkmilləşdirilməsi paytaxt şəhərlərinin fəaliyyətində böyük əhəmiyyətə malikdir.

Paytaxt öz dövləti ilə bərabər inkişaf edir, yüksəlir, bir çox hallarda geriləyir, tənəzzülə uğrayır. Bu planda paytaxt sərbəst, lakin ölkənin iqtisadi, siyasi, sosial inkişafından asılı olaraq fəaliyyət göstərir.

Ölkənin, paytaxtın iqtisadi, siyasi cəhətdən formalaşmasında və inkişafında aparıcı amil kimi iqtisadi-coğrafi mövqeyin təsirinin yerli şəraitə uyğun öyrənilməsi zəruri problem kimi ortaya çıxır.

Bakının paytaxt şəhəri kimi ümumdövlət (*respublika*) əmək bölgüsündə tutduğu mövqeyi və rolu, ona məxsus olan idarəetmə, infrastruktur vəzifəsinin təkmilləşdirilməsindən, bunun fəaliyyətinin müasir tələblər səviyyəsində davam etdirilməsindən ibarətdir. Bu problemin xarici tərəfi ilə yanaşı, ölkənin xalq təsərrüfatı sistemində qarşılıqlı əlaqəsinin nizama salınmasının, paytaxtda təsərrüfat kompleksi strukturunun təkmilləşdirilməsinin mühüm obyektidir.

Bu baxımdan, şəhərdaxili ziddiyyətlərin və müvəffəqiyyətlərin balanslaşdırılması (*uzlaşdırılması*) əsasında xalq təsərrüfatı elementləri ilə onların arasındakı optimallaşdırma mövcuddur.

Mürəkkəb sosial-iqtisadi qurum kimi paytaxt şəhəri polistruktur sistemə malikdir. Elmi-konstruktiv mövqe baxımından onun iqtisadi, sosial, xidmət, istehsal, qeyri-istehsal sahələri arasında müvazinət yaradılmasında şəhər mühüm obyektdir. Bu sahədə mövcud imkanlardan istifadə edilməsində, müvafiq tədbirlərin həyata keçirilməsində, vahid pay-

taxt kompleksində bir-birindən fərqlənən iki funk-sional-sahəvi və ərazi proyeksiya ayrılır.

Şəhərin iqtisadi, sosial, demoqrafik, ekoloji problemlərinin kompleks öyrənilməsində bunların dinamik inkişafı, elmi-texniki tərəqqinin təsiri altında fəaliyyət mexanizmi, idarə edilməsinin təmərküzləşməsi, müvafiq tədbirlərin həyata keçirilməsi mühüm vasitədir.

Paytaxt şəhərinin mövcudluğu, fəaliyyət növü bütöv sistem kimi onunla ölkə daxilində və xaricində baş verən qarşılıqlı əlaqələrdən asılıdır. Ən mühüm və aktual məsələ struktur inkişaf baxımından şəhərin özünün çoxvəzifəli bütövlüyə malik olma şəraitində mühüm obyekt kimi fəaliyyət göstərir.

Mühüm xalq təsərrüfatı əhəmiyyətinə malik olmaqla elmi-tədqiqat işlərinin yerinə yetirilməsində istehsal, qeyri-istehsal komplekslərin perspektiv inkişafı arasındakı münasibətdə müvafiq əlaqələrin yaradılması mühüm vasitədir.

Paytaxt sosial-iqtisadi xarakterdə fövqəladə mürəkkəb sistemə malikdir. Bu mənada onun iqtisadi, sosial, ekoloji tədqiqatına başlayarkən əvvəlcədən şəhərin strukturunu müəyyən edən kompleks sistemin özünəməxsus xüsusiyyətini araşdırmaq lazımdır. Burada tədqiqatın qarşısında duran ən zəruri məsələlərdən biri ölkənin (*respublikanın*) müasir inkişafına, struktur elementlərinə göstərdiyi «tarixi», təbii, iqtisadi-coğrafi təsir sistemi, paytaxt şəhərlərinə xas olan xarici mühitin təsirinə davamlılığını, inkişafını yerinə yetirən mühüm parametrlərin təhlilidir.

Digər əlamətlərdən biri də şəhərin inkişafında, onun struktur formasında əvvəlcədən bilinməyən və nəzərə alınmayan keyfiyyətlərin ortaya çıxarılmasında paytaxtın iştirakıdır.

Bütün sosial-iqtisadi sistemlər üçün mütləq zəruri olan ən mühüm əlamət iqtisadi, sosial demoqrafik quruluşun müxtəlifliyinin təhlilidir. Onların hərəsi öz xüsusiyyəti, funksional sistem üzrə müəyyən qanunauyğunluğa tabe olan iqtisadi sosial inkişaf problemlərinin nizamlanmasıdır. Bunlar

obyektiv xarakterli olmaqla kompleks halda paytaxtın ümumi inkişaf qurumuna şərait yaradan inteqral amil kimi çıxış edir.

Lakin vahid statusa uyğun olaraq şəhər kompleksinin ümumi əlaməti fərdiləşmiş, xüsusiləşdirilmiş qrup fəaliyyəti ilə barışmaz mövqedə durur, onların hamısını özünəməxsus ictimai, mütərəqqi istiqamətə yönəldir. Paytaxtda nəzərə çarpan bu amillər müxtəlif fəaliyyət təmayüllü olmaqla, şəhər strukturunun formalaşmasına, onun iqtisadi, sosial, xidmət sferalarının inkişafına çoxşaxəli təsir göstərir.

Paytaxt şəhərinə münasib göstərilən amilləri xarici və daxili təsir vasitəsinə ayırmaq olar. Birinci halda elementlərin transformasiyası və şəhər sisteminin əlaqəsi xarici mühitin dəyişməsindən, ikinci halda – onun özünün inkişafından irəli gəlir.

Tarixi-coğrafi və sosial-iqtisadi şəraitdən asılı olaraq ümumi və fərdiləşmiş amillərin bir-birinə olan əlaqələrinə və s. xüsusiyyətlərinə uyğun olaraq hər hansı şəraitdə onların özlərinin fəaliyyətinə münasib nəticə verir. Bunlar şəhər sisteminin parametrini və onun fəaliyyət xüsusiyyətini müəyyən edən amillərdir.

Hər hansı şəhər sistemi kimi paytaxt bir-birilə vahid əlaqədə olan, ərazi tərkibində fəaliyyət göstərən altı yarımsistemdən ibarətdir: a) əhali; b) maddi və qeyri-maddi istehsal; c) infrastruktur; ç) iqtisadi-coğrafi şərait; d) ekoloji mühit; e) nəqliyyat. Məlumdur ki, ölkənin mikrosistem çərçivəsində yarımsistem adlanan hər element bir-birindən fərqli fəaliyyət göstərir. Birinci halda – göstərilən yarımsistemlərin fəaliyyətini özündə birləşdirən paytaxt ilk növbədə iri yaşayış məntəqəsi, ikinci halda – iqtisadi mərkəz, üçüncü halda – infrastruktur özəyi, dördüncü halda – daxili və xarici iqtisadi əlaqələr regionu, beşinci halda – ekoloji tənəzzül meydanıdır.

Ərazi vahidliyi nöqteyi-nəzərindən yanaşdıqda göstərilən amillərin hərəsinin fəaliyyəti şəhərin inkişafına təsir edir. İlk növbədə paytaxt məskunlaşma mərkəzi kimi insanların

müəyyən ümumiliyini ifadə edir. İkinci halda – ərazi-istehsal və ya infrastruktur kimi çıxış edir.

Yarımsistemlərin hər biri iqtisadi, sosial inkişafın ümumisistem qanunauyğunluğuna tabe olub, özünün daxili quruluşuna malikdir. Lakin bir-birinə qarşılıqlı əlaqəli prosesdə onlar özlərinin inkişaf mövcudluğunu təmin edir və ümumiyyətlə, qlobal sistemin müxtəsər quruluşunu formalaşdırır.

Məkan və zaman daxilində istifadə edilən komponentdən fərqli olaraq şəhərin iqtisadi, sosial inkişafı dəyişkənliyə məruz qalır. Bu da obyektiv olaraq onların müxtəlif kompleksli təmayülündən, məzmunu etibarilə istehsal sahələri arasındakı diferensiallıqdan irəli gəlir. Paytaxt şəhərində təsərrüfat fəaliyyətinin ümumiləşdirilməsi, mürəkkəb struktura malik olması iqtisadi, sosial infrastrukturda fəaliyyəti prinsipial olaraq aşağıdakı amillərdən asılıdır: daxili və xarici mühitdən, şəhəryaradıcı inteqral səviyyədən, ixtisaslaşma, idarəedici sistemdən, İCM-dən. Belə asılılıq şəhərin müasir, kompleks idarəedici sistemindən, iqtisadi əlaqələrindən, maddi-texniki təminatından irəli gəlir. Burada paytaxt və onu əhatə edən mühit qarşılıqlı sosial, iqtisadi əlaqədə çıxış edir.

Lakin statistik məlumatların kasadlığı yuxarıda göstərilən amillərin yüksək səviyyədə təhlilini, elmi araşdırılmasını çətinləşdirir. Qeyd edək ki, belə vəziyyətdə qəbul ediləsi ən sərfəli metod statistik məlumatlardan istifadə etməklə paytaxtın iqtisadi, sosial, ekoloji, coğrafi vəziyyətinin müqayisəli surətdə araşdırılmasıdır. Bundan alınan nəticənin başqa oxşar aspektlərə şamil edilməsi sahələrarası əlaqələrin səmərəli aparılması üçün zəruri amil kimi qəbul edilə bilər.

Məlumdur ki, paytaxt sistemində fəaliyyətdə olan qarşılıqlı əlaqələrin elmi təcrübəsindən bacarıqla istifadə edilməsi respublika səviyyəsində şəhərin transformasiyasının mütərəqqi və məqsədyönlü aparılmasında böyük əhəmiyyətə malikdir.

Beləliklə, iqtisadi, sosial infrastruktur elementləri və on-

ların arasındakı əlaqələr ümumilikdə paytaxt sistemində çoxsahəli karkas təşkil edir. İqtisadi, sosial inkişafdan asılı olaraq şəhər strukturunun inkişafı dəyişgən xarakter daşıyır və dövrü olaraq intensiv urbanizasiya, istehsalın təmərküzləşməsi, nəqliyyat fəaliyyəti şəraitində infrastruktur sistemə müəyyən qədər təsir edir.

Fəaliyyətdə olan amillərin təsiri altında şəhər strukturunda parmanent proseslər baş verir və müvafiq şəraitdə şəhərin «cazibə» rayonlarına olan təsiri dəyişir. Əlbəttə, bu proses şəhərlə onun ətraf rayonları arasındakı fərqləri aradan qaldıra bilmir, ona görə ki, bu fərqlər iqtisadi və sosial inkişafda, ekoloji vəziyyətdə nəqliyyatın, istehsalın, istehsal münasibətlərinin qarşılıqlı əlaqəsi nəticəsində yaranır. Belə vəziyyətdə kəmiyyət, keyfiyyət dəyişkənliyinə məruz qalan şəhər mühitinin özünə xas olan strukturunu və bunun «cazibə» rayonlarına olan təsirini saxlaya bilir ki, bu da bütün şəhərlər üçün səciyyəvidir.

Şəhər strukturunun trayektor istiqamətdə formalaşması, dəyişkənliyi, təkrar istehsalın intensiv inkişafını əks etdirən sxemdir. Buradan yeni keyfiyyətə keçid, dəyişkənliyə məruz qalan kəmiyyət parametri şəhər strukturunun mütərəqqi təkmilləşdirilməsi hesabına həyata keçirilir.

Qeyd etmək lazımdır ki, paytaxt mühitində şəhər kompleksi strukturunun formalaşması müəyyən qədər abstrakt xarakter daşıyır, onun fəaliyyət sisteminin hərtərəfli öyrənilməsi «cazibə» qüvvəsi altındakı şəhərətrafı rayonların da cəlb edilməsini tələb edir.

Maddi istehsal sahələrinin inkişafında istifadə edilən əsas və dövriyyə fondları şəhər təsərrüfatında, işçi qüvvəsinin təkrar istehsalında fəal iştirak edir və əhalinin işlə təmin edilməsində mühüm əhəmiyyət kəsb edir.

Bundan əlavə, yarımsistemlərin hərəsi özünəməxsus ərazi-funksional quruluşa malikdir və bütünlükdə əmək tətbiqi istehsal şəraitində bu və ya digər rayonda fəaliyyət təsiri altında formalaşır.

Paytaxtın funksional sistemi sahələrarası əlaqələrin fəaliyyətini də əhatə edir, bu da ki, istehsal sisteminin vəziyyətini əks etdirir. Şəhər strukturu istehsal sahələri arasındakı əlaqələri əks etdirməklə paytaxtın, ölkənin istər ərazi əmək bölgüsündə, istərsə də bütövlükdə özünəməxsus yer tutmaq kimi xarakterizə olur.

Məlumdur ki, paytaxtın inkişafında ictimai əmək bölgüsü ilə yanaşı, daxili və xarici iqtisadi əlaqələr və İCM-in təsiri fəal iştirak edir. Maddi istehsalla yanaşı, qeyri istehsal şəhər inkişafında mühüm amil kimi çıxış edir. İstər coğrafi əmək bölgüsü, istehsal, ekoloji-demoqrafik sistem, istərsə də əmək məhsuldarlığının yüksəldilməsi hesabına şəhər təsərrüfatı üfüqi və şaquli istiqamətdə fəaliyyət göstərir. Digər tərəfdən, maddi istehsalın inkişafı, urbanizasiyanın geniş ərazidə yayılması qeyri-istehsal sferasının genişlənməsinə, əhalinin müxtəlif mallara, rekreasiya, kurort xidmətinin artırılmasına olan tələbatı obyektiv surətdə artırır. Bu baxımdan, şəhərsalma, şəhər təsərrüfatında paytaxtın sahəvi və ərazi üzrə genişliyi ölkə daxilində aparıcı mövqeyi müqayisəli surətdə genişlənir.

Müxtəlif təmayüllü inkişafa və təsirə malik istehsal qrupları paytaxt şəhərində mürəkkəb sistem yaradır. Respublikanın ictimai-ərazi, əmək bölgüsündə paytaxtın tutduğu mövqedə idarəetmə, planlaşma infrastrukturunun fəaliyyətlərinin ardıcıl təkmilləşdirilməsi müxtəlif mülkiyyət formalarına uyğun aparılması zəruriliyi ortaya çıxır.

# NƏTİCƏ

Şəhərlər və onların peyki olan urbanizasiya, istehsal və qeyri-istehsal sahələrinin təmərküzləşməsinin, dinamik fəaliyyətinin, zaman və məkan daxilində dəyişkənliyinin, təbii, iqtisadi-coğrafi, iqtisadi, əhali resurslarının, onlardan istifadə edilməsinin qarşılıqlı əlaqələri ilə müəyyən edilir. Təbii, iqtisadi, texniki, əmək potensialı, coğrafi yerləşməsi şəhər və urbanizasiya amillərinin yaratdığı elementlərin vahid sistemdə qarşılıqlı təsir əlaqələrini formalaşdırır. Ümumi və ayrılıqda götürülmüş iqtisadi, təbii, əhali potensialların fəaliyyəti, onlardan istifadə edilməsi, istehsalın inkişafı şəhərlərdə əhali məskunlaşmasının, onun yüksək mərhələsi olan urbanizasiyanın perspektiv təmayülünə imkan və şərait yaradır.

Azərbaycan Respublikasının şəhər və yaşayış sistemləri 1 paytaxt, 2 böyük, 24 orta, 42 kiçik, 114 şəhər tipli qəsəbələrdən ibarətdir. İqtisadi-coğrafi mövqe və urbanizasiyanın inkişafı nöqteyi nəzərindən şəhərlərin tipoloji təsnifatı, əhəmiyyətinə görə ayrı-ayrı qruplara ayrılmasının xüsusi növünü təmsil edir. Funksional təmayülünə və iqtisadi-coğrafi mövqelərinə görə Azərbaycan şəhərlərinin tiplərə ayrılmasına indi böyük ehtiyac vardır.

Birinci ona görə ki, şəhərlərin iqtisadi-coğrafi mövqeyi, istehsalın inkişafı, əhaliyə xidmət sferası, demoqrafik göstəricilər, urbanizasiya və təmərküzləşmə üzrə təsnifatı, təbii, iqtisadi, elmi-texniki potensiallardan, əmək ehtiyatlarından istifadə etməkdə mühüm əhəmiyyətə malikdir.

İkincisi, müasir dövrün iqtisadi, elmi-texniki, sivil inkişafı şəraitində intellektual qüvvələrə, elmi potensiala malik olan Azərbaycan Respublikasında şəhərlərin tipoloji təsnifatının aparılması aspektində olan boşluğun (*buna çox ehtiyac vardır*) aradan qaldırılması, müasir dövrün tələbatı şəraitində zəruri problem kimi həll edilməsidir. Şəhər və urbanistika problemləri sahəsində elmi-tədqiqat işlərinin nəticə-

lərindən belə qənaətə gəlirik ki, Azərbaycan şəhərlərinin təsnifatını əsasən aşağıdakı amillər üzrə aparmaq olar:

a) xalq təsərrüfatı (*istehsal və qeyri-istehsal*) sahələrinin təmərküzləşməsi, əhalinin məşğulluğu və strukturu;

b) demoqrafik (*əhalinin sayı, sıxlığı, yaş qrupu*);

c) şəhərin böyüklüyü və rayonəmələgətirici əhəmiyyəti;

s) ictimai-ərazi bölgüsündə, iqtisadi əlaqələrdəki mövqeyi;

d) etnik, milli xüsusiyyətləri;

e) iqtisadi-coğrafi mövqeyi.

Yuxarıda göstərilən təsnifatın aparılmasında şəhərlərə sənaye, nəqliyyat, urbanizasiya, təmərküzləşmə məqsədindən başqa, müxtəlif təşkilati, idarəedici, ticarət-paylaşdırıcı, mədəni-maarif, səhiyyə və sosial bölmələrin yerləşdiyi ərazi kimi baxmaq lazımdır.

Nəzərə alsaq ki, iqtisadi coğrafiya kompleks, sintez təmayüllü elmdir, onda özünün mahiyyətinə görə urbanistikanın öyrənilməsi dar ixtisaslaşma, təkcə «təbii-tarixi», «təbii-ictimai», «iqtisadi-sosial» təmayüldə deyil, kompleks aspektdə aparılmalıdır.

Bununla yanaşı, urbanizasiyanın birtərəfli, dar ixtisas çərçivəsində öyrənilməsini də inkar etmək olmaz. Çünki bu, başqa elm sahələrinin əhali, sənaye, nəqliyyat coğrafiyasının, demoqrafiyanın tədqiqat xüsusiyyətindən irəli gəlir. İqtisadi-coğrafiyaşünas isə bu təmayüldən bir qədər kənara çıxmalıdır, ona görə ki, şəhər urbanizasiyasının formalaşmasını və inkişafını əhali, tikinti-abadlıq, onların yerləşdiyi ərazi, sənayeləşmiş istehsal və intensiv nəqliyyat vasitələri təşkil edir.

Nəzərə alsaq ki, urbanişləşmiş, təmərküzləşmiş, nəqliyyat yollarının kəsişdiyi fonunda yerləşən şəhər əhatə etdiyi ərazinin iqtisadiyyatının, sosial, geosiyasi, demoqrafik qurumunun səciyyəvi xüsusiyyətlərini də əks etdirir, onda bunların tədqiqatında iqtisadi-coğrafi mövqeyin, təbii-sərvətlərin istifadəsinin, ekoloji mühitin mühafizəsinin, iqti-

sadi əlaqələrin tədqiqatının mühüm tərkib hissəsi kimi qəbul edilməlidir.

Azərbaycanın şəhərləri şəklində şəhər tipli qəsəbələri iearxiya sistemilə qarşılıqlı əlaqəli şəkildə inkişaf edir. Urbanizasiya ranqı sistemində bu aspektdə funksional quruluşu və cazibə zonası daxilində Azərbaycan şəhərlərinin sistemələgətirici amillərinin aşağıdakı qrupda formalaşdırılmasını məqsədyönlü hesab edirik:

1) sırf sənaye istehsalı zonasında intensiv təmərküzləşməyə, urbanizasiyaya malik, ətrafında aqrosənaye sahələri inkişaf etdirilən şəhərlər (*Bakı, Sumqayıt*);

2) iqtisadiyyatın, xüsusilə sənayenin inkişaf bazasını təmsil edən yanacaq-energetika, su energetika, metallurgiya sərvətləri təşkil edən, kənd təsərrüfatı məhsulları əsasında işləyən yeyinti, yüngül sənaye müəssisələrinə malik şəhərlər (*Gəncə, Əli-Bayramlı, Mingəçevir, Naxçıvan*);

3) əsasən yerli kənd təsərrüfatı məhsullarının emalı üzrə ixtisaslaşan, əhalisinin məşğuliyyətində kənd təsərrüfatı mühüm yer tutan, seyrək urbanizasiyaya malik şəhərlər (*buraya əsasən orta şəhərlər daxildir*);

4) - yerli kənd təsərrüfatı məhsullarını emal-edən, yeyinti, yüngül sənaye müəssisələrinə, seyrək əhali məskunlaşmasına, əhalisinin əksəriyyəti qeyri-sənaye sahəsində, inzibatçılıq, idarəçilik xidmətilə məşğul olan kiçik şəhərlər (*rayon mərkəzləri və s.*);

5) qarışıq tipli yerli sənaye sahələrinə, xidmət sferasına, seyrək əhali məskunlaşmasına malik şəhər tipli qəsəbələr.

Tədqiqat nəticəsində əhali məskunlaşması dərəcəsinə görə Azərbaycan şəhərlərinin aşağıdakı qruplara ayrılmasını da məqsədyönlü hesab edirik:

1) əhalisi iki milyon nəfərdən çox Böyük Bakı – paytaxt şəhəri;

2) əhalisi 300 minə çatan Gəncə, Sumqayıt şəhərləri;

3) əhalisi 20 mindən 100 min nəfərə qədər (24) orta şəhər;

4) əhalisi 5 mindən 20 minə qədər (42) kiçik şəhər;

5) əhalisi min nəfərdən 7 min nəfərə qədər olan 114 şəhər tipli qəsəbələr.

Belə hesab edirik ki, urbanizasiyanın tədqiqatını müəyyən ierarxiya ardıcıllığı və mütləq sistem metodunun tətbiqi ilə məskunlaşma təmayülündə taksonomik vahidlər obyektinin formalaşması ilə əlaqəli aparılmalıdır və məskunlaşmaya iqtisadi, sosial, xidmət sahələrinin ərazi-istehsal sistemində məkan karkası kimi baxılmalıdır.

Əhali məskunlaşmasının ierarxiya sistemində və inkişafında belə bir qənaətə gəlmək məqsədyönlüdür ki, məskunlaşma prosesinin taksonomik amili ilə iqtisadi rayonlar eynilik təşkil etməlidir və bu baxımdan tədqiq etdiyimiz mövzu (*problem*) onun tərkib hissəsi kimi qiymətləndirilməlidir. Burada B.S.Xorevin fikrinə şərik olaraq (51, s.117) qeyd etmək lazımdır ki, «Ölkənin məhsuldar qüvvələrinin konsepsiyasından kənar urbanizasiya prosesləri düzgün aydınlaşdırıla və öyrənilə bilməz və bu proseslərin idarəetmə vəzifələri konstruktiv təmayüldə istifadə edilən iqtisadi rayonlaşma aparmadan mümkün deyil».

Elmi-tədqiqatın təhlilindən aşağıdakı nəticə və təkliflərin ortaya çıxarılmasının iqtisadi-coğrafi baxımdan əsaslandırılmasını müəyyən etmişik:

1. Cəmiyyətin, xüsusilə şəhər mühitinin inkişafında mühüm rol oynayan urbanizasiya miqyasının genişlənməsi, çoxcəhətli fəaliyyəti, apardığımız tədqiqatın elmi-praktiki baxımdan əsaslandırılmasını və aktuallığını sübut edir.

2. Təmərküzləşmə, ixtisaslaşma, müəssisələrarası kooperasiya, istehsalın kombiləşdirilməsi, eləcə də müasir cəmiyyətdə sosial, iqtisadi, mədəni, elmi idarəetmə işlərinin səmərəli təşkili, onların təsiri altında yaranan urbanizasiya şəhərlərin sosial-iqtisadi inkişafının təzahürüdür. Bununla belə, urbanizasiyanın inkişafı dövründə də şəhərlə kənd, yaşayış məntəqələrinin kateqoriyaları arasında müxtəliflik mövcuddur.

3. Məkan daxilində urbanizasiyanın inkişafı bir tərəfdən müxtəlif ölçülü və funksiyalı ayrı-ayrı yaşayış məntəqələrinin formalaşmasında, digər tərəfdən, iqtisadi-coğrafi mövqedə təzahür edir. Bununla belə, istər respublikanın sərhədi daxilində urbanilaşmiş şəhərlər ümumilikdə, istərsə də ayrıca yaşayış məntəqələri təkrar istehsalın inkişafında zəruri vasitə kimi fəaliyyət göstərir.

İqtisadi-coğrafi mövqedə şəhər urbanizasiyasının ərazi təşkilində ən zəruri və aktual məsələlərdən biri şəhərlə kənd arasındakı sosial-iqtisadi, mədəni-məişət əlaqələrinin uzlaşdırılması, mövcud fərqlərin aradan qaldırılması, eləcə də süni və təbii mühit arasında ekoloji müvazinətın yaradılmasının zəruriyyəti ortaya çıxır.

4. Urbanizasiyanın ərazi təşkili, respublika daxilində məskunlaşma baxımından müxtəlif miqyaslı yaşayış məntəqələrində istehsalın inkişafı sosial-iqtisadi, təbii iqtisadi-coğrafi şəraitdə, regional mövqedə qarşılıqlı əlaqələrin fəaliyyəti ilə sıx bağlıdır.

5. Şəhər məskunlaşması obyektiv qanunauyğunluqlar əsasında inkişaf edən ərazi-istehsal, əhali yerləşməsinin tərkib hissəsidir. Məhsuldar qüvvələrin ərazi sistemində istehsalın, əhalinin, infrastruktur sahələrinin səmərəli yerləşməsi məskunlaşmanı, bir və ya bir qrup yaşayış məntəqələrinin inkişafını, onun digərləri ilə iqtisadi mövqedə uyğunlaşma aparılmasını qarşıya qoyur.

6. Hər hansı aspektdə məskunlaşma sisteminin tədqiqatı zamanı şəhər və kənd yaşayış məntəqələrinin inkişafı iqtisadi-coğrafi mövqedə qarşılıqlı qanunauyğunluqlar nəzərə alınmalıdır. Belə şəraitdə kənd yaşayış məntəqələrinin ümumi məskunlaşma sistemində rolu şəhər yaşayış məntəqələrinin dayaq mərkəz səmtinə uyğun aparılması onlarla qarşılıqlı əlaqədə olmasından asılıdır.

7. İstehsalın ərazi təşkili kimi hər hansı rayonda məskunlaşma sisteminin səmərəli təşkilinin rayon layihələşdirilmə əsasında aparılması səmərəlidir. Bu mənada şəhərlərin, urba-

nizasiyanın tədqiqatında coğrafiyaşünasların təşəbbüsü, rolu geniş sahəlidir və bunlara uyğun istiqamətdə aparılır.

8. Şəhərlər urbanizasiyanın kompleks tədqiqat, rayondaxili, rayonlararası inkişaf konsepsiyasının qarşılıqlı əlaqələrini genişləndirir və təkmilləşdirir. Bunlara şəhərdaxili ərazi-istehsal komplekslərinin urbanizasiya səviyyəsinin iqtisadi rayonlaşması, vahid məskunlaşma sistemində, istehsalın ərazi quruluşunda, müəyyən coğrafi mühitə, təbii-iqtisadi-ekoloji tarazlığın mühafizəsi və saf saxlanılması daxildir.

9. Şəhər urbanizasiyasının inkişafında, formalaşmasında ərazi fərqləri daxili uyğunsuzluqlar şəraitində şəhərlərarası və rayonlararası aspektdə, aqlomerasiya proseslərinin şaquli və üfuqi istiqamətdə qiymətləndirilməsi əhali məskunlaşması inkişafının nizama salınmasının mühüm tərkib hissəsidir. Bununla yanaşı, şəhərin yerləşdiyi və onun cazibə qüvvəsi ərazisində təbii şəraitin, iqtisadi-coğrafi baxımdan qiymətləndirilməsi, antropogen, texnogen təsirlərə qarşı mübarizə tədbirlərinin işlədilməsi şəhərlərin inkişafı strategiyasının əsas əməli tədbirlərindən biridir.

Şəhər urbanizasiyanın istehsalın təmərküzləşməsinin, sosial cəmiyyətin perspektiv inkişafının proqnozlaşdırılması metodlarının tərtibi, tədqiqat proseslərində onlardan istifadə edilməsinin iqtisadi-coğrafi aspektdə əsaslandırılması, elmi-praktiki sistemin tərkib hissəsi kimi qiymətləndirilməlidir.

10. Müasir urbanizasiyanın səciyyəvi xüsusiyyətlərindən biri də aqlomerasiyanın fəaliyyəti sayəsində şəhər yaşayış məntəqələri formasında iqtisadiyyatın bazar münasibətinə uyğun keyfiyyətli dəyişkənliyə məruz qalmasıdır. Buna səbəb vahid dəyişkənliyin bir-birindən ayrı və funksional asılılıq nəticəsində təcrid olunmuş yaşayış məntəqələrinin məkan və zaman daxilində müəyyən müddətdə birləşib şəhər tipli qəsəbələr əmələ gətirməsindən, onların tədricən şəhərə çevrilməsindən ibarətdir. Son mərhələdə bunlar inkişaf edib böyüyərək, respublikanın şəhərlərində aqlomerasiyanı əmələ

gətirib.

11. Müasir aqlomerasiya səviyyəsinin mövcudluğu şəraitində və onun tədqiqatının zəruri olmasının qəbul edilməsinə baxmayaraq, bu vaxta qədər şəhər aqlomerasiya məzmununun və sərhədinin müəyyən edilməsi haqqında vahid fikir birliyi yoxdur.

Oxuduğumuz və təhlil etdiyimiz çoxsaylı ədəbiyyatlarda bu haqda şərh edilən yazılı mülahizələrdən, belə nəticəyə gəlmək olar ki, aqlomerasiyanın delimitasiya aspektinin müəyyən edilməsi meyarını yaşayış məkanları ilə əmək sərfi yerləri arasındakı əlaqələr təşkil edir. Bu, ondan irəli gəlir ki, şəhər aqlomerasiyası və urbanizasiya vahid orqanizm kimi fəaliyyət göstərir. İqtisadi, sosial, əmək əlaqələrinin yaradıcı fəaliyyətindən ortaya çıxan nəticələr əsasında vahid orqanizm sistemində şəhərlər ekzogen təsirlərə məruz qalır.

Beləliklə, bizim fikrimizə görə, urbanizasiyanın yüksək pilləsi olan aqlomerasiya vahid şəhər orqanizminin inkişaf prosesi olmaqla yanaşı, həm yaşayış yeri, əmək tədbiqi, həm də təhsil, mədəniyyət, səhiyyə, əhaliyə xidmət sahələrinin fəaliyyət məkanıdır. Prinsip etibarılə şəhər aqlomerasiyasının obyektiv olaraq tənəzzülü və fəaliyyəti regional sistemdə əhali məskunlaşmasının ümumdövlət əhəmiyyətli prosesidir.

12. Ümumrespublika və regional sistemdə şəhər əhalisinin məskunlaşması ərazi-istehsal kompleksinin tərkib hissəsi kimi şəhər yaşayış məntəqələrinin əsas hərəkətverici elementlərinin necə, hansı şəraitdə fəaliyyət göstərməsindən iş yerlərinə nisbətən əhalinin hansı məsafədə yaşamasından asılıdır.

Apardığımız tədqiqat işləri göstərir ki, Azərbaycan Respublikası şəhərlərinin (*Bakı və Sumqayıtdan başqa*) bir-birindən yerləşmə məsafəsi orta hesabla 25-30 km. arasında tərəddüd edir. Lakin əsasən 1-2, nadir hallarda isə 4-5 mərtəbəli binalardan ibarət olan orta və kiçik şəhərlər geniş ərazi tutduğundan çox torpaq sahəsi örtür ki, bu da kənd təsərrüfatında ondan istifadə edilməsini məhdudlaşdırır.

Lakin indiki mülkiyyət münasibətləri şəraitində şəhərlərarası ərazilərdə müəyyən məsafədə sıx əhali məskunlaşması rayonlarında torpaq sahələrindən istifadə edilməsi üçün geniş imkanlar vardır. Bu imkanlardan səmərəli istifadə etmək üçün özəlləşdirilmiş torpaq sahiblərinin - fermerlərin, kooperativlərin, icarədarların və sair iş adamlarının güzəştlərlə, maddi-texniki təchizatla təmin edilməsi, vergi rüsumlarının nizama salınması problemi dövlətin iqtisadi siyasətinin tərkib hissəsi kimi həll edilməlidir. Bu da məhsul bolluğunu yaratmaqla respublika şəhərlərini ərzaq məhsulları ilə təmin etmək, xarici ölkələrdən asılılığını xeyli azaltmağa imkan verər.

13. Şəhər tikintisi zaman və məkan daxilində inkişaf edir, onun əhalisi sabit qalsa da, ətraf rayonlarda yerləşən kəndlərlə təmasda olur. Bunları nəzərə alaraq torpaqlardan səmərəli istifadə edilməsi və ərzaq bolluğu yaradılmasına, hansı mülkiyyət münasibətindən asılı olmayaraq şəhərin kəndə göstərdiyi maddi-texniki yardımın indi daha çox artırılmasına ehtiyac var.

Ümumiyyətlə, bütün şəhərlərin ictimai, fərdi yaşayış məntəqələri ətrafında pozulmuş və istifadə üçün yararsız hala salınmış torpaqlar (*Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Daşkəsən, Əli-Bayramlı, Mingəçevir, Dəvəçi və s. şəhərlər ətrafında*) geniş sahə tutur.

Şəhər əhalisinin ərzaq məhsullarına artan tələbatı şəraitində mülkiyyət formalarından, torpaq sahibkarlığından və kapital qoyuluşu məhdudluğundan asılı olmayaraq, şəhərətrafı zonalarda yararsız, pozulmuş torpaqların rekultivasiya edilməsi, istifadə üçün yararlı hala salınması dövlətin yardımı və iqtisadi siyasəti sayəsində həll edilməlidir.

14. Urbanilәşmiş, təmərküzləşmiş Bakı-Sumqayıt aqlomerasiyası, Əli-Bayramlı, Mingəçevir, Gəncə, Siyəzən şəhərləri, Abşeronda yerləşən çoxlu qəsəbələr və s. müəyyən qədər kasadlaşmış təbii sərvətlər, çirkləndirilmiş təbii mühit daxilində inkişaf edir ki, bu da ekoloji müvazinəti pozur,

şəhərlərin normal iqtisadi, sosial, ekoloji şəraitini məhdudlaşdırır.

Atmosfer havası, torpağı, təbii bitki örtüyü antropogen, texnogen təsirlərə məruz qalmış şəhərlər ərazisində məskunlaşanların təbii landşaftlara, rekreasiya, kurort zonalarına kəskin ehtiyacı vardır. Bunları nəzərə alaraq Bakı, Sumqayıt, Gəncə, Əli-Bayramlı, Mingəçevir kimi böyük şəhərlərin ətrafında bağların genişləndirilməsi, rekreasiya, kurort zonalarının abadlaşdırılması zəruri şərt kimi həll edilməlidir.

Müəllif ümid edir ki, bu kitabın tədqiqatından əldə edilən nəticələrin istehsala tətbiq edilməsi, müvafiq tədbirlərdə onların nəzərə alınması, əhali coğrafiyasının əsas qollarından biri olan şəhər məskunlaşmasının, urbanizasiyasının məkan və zaman sistemində nəzəri, praktiki baxımdan inkişafına kömək edəcək, müvafiq sahədə çalışan mütəxəssislər, elmi işçilər, ali məktəb tələbələri üçün faydalı olacaqdır.

# ƏDƏBİYYAT


1. Абалкин Л. Отложенные перемены или потерянный год. Москва.,1997
2. Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə uyğun qurulması və tənzimlənməsinin sosial-iqtisadi, hüquqi problemləri. Bakı, 1996
3. Azərbaycan tarixi, II cild, Bakı-1980.
4. Azərbaycanın neft və qaz sənayesi XXI əsrin astanasında. Bakı-2000.
5. Алаев Э.Б. Социально-экономическая география. Понятийно-терминологический словарь. Москва. «Мысль», 1983
6. Алиев Дж, Каспийское море на исторических картах, Баку, изд. «Элм», 1973
7. Алиев Ф.М. Города и городская торговля в Азербайджане во второй половине XVIII в. Баку – 1958.
8. Ализаде А.А. Социальная и политическая история Азербайджана в XIII-XIV вв. Баку – 1956.
9. Алымов А.Н. Производительные силы. Проблемы развития и размещения. Москва – Экономика, 1981.
10. ASE, I-X cildlər.
11. Ахметов Д.К. Проблемы устойчивости социально-экономического развития региона. Москва, 2000.
12. Баку к 2000 году (Гигиенические основы окружающей среды). Азернешр, 1981.
13. Баранский Н.Н. Научные принципы географии. Москва, 1980.
14. Баранский Н.Н. Становление советской экономической географии, Москва – 1980.
15. Бретаницкий и Саламзаде А.С. Градостроительство в Азербайджане XIV-XIX в. В кн. Искусство Азербайджана. т.VII Баку-1959.
16. BSE. I-VII, XI cildlər. III nəşr.
17. Будагов Б.А. Об основных направлениях географических исследований в Азербайджане (состояние и проблемы XXI века) Azərbaycan XXI əsrin astanasında. Elmi praktik konfransın materialları. Bakı – 1998.
18. Бутов В.И., Игнатов В.Г., Кетова Н.П. Основы региональной экономики. Ростов на Дону, 2000.

19.Васьков С.Т. Территориальное управление в новых хозяйственных условиях. М. Экономика, 1990.
20.«Вопросы географии» сб. 45. География городских и сельских поселений. Москва. «География».
21.Гаджизаде А.М. Азербайджанский промышленный комплекс, Баку, Азернешр, 1975.
22.Гаджизаде А.М., Ковальская Н.Я. Экономико-географический очерк Баку, Азернешр, 1970.
23.Гейдаров М.Х. Города и городское ремесло Азербайджана в XIII-XIV в. Баку - 1982.
24.Географический энциклопедический словарь. Москва, «Советская энциклопедия», 1989.
25.Геокчайский Ш.Ю. Эфендиев В.А. Географические проблемы окружающей среды Бакинской агломерации. В кн. Материалы научно-практической конференции. «Университетская наука – производству». Баку, 1984.
26.Гольц Г.А. Теоретические основы взаимосвязанного развития транспорта и расселения. Автореферат диссертации на соискание уч.степ.канд.геогр.наук, Москва, 1975.
27.Гольц Г.А. Транспорт и расселение. Москва. 1981.
28.Город и село. Проблемы формирования интегрированной экономической системы. Отв. редактор к.э.н. Никифорова Л.В. Москва – 1987.
29.Город. Количественные методы изучения. Москва, «Прогресс», 1977.
30.Город. Проблемы социального развития. Ленинград. «Наука» - 1982.
31.Горынский Ю. Проблемы градостроительства в свете современной урбанизации. В сб., К вопросу теории и методики исследований территориально-экономического развития страны. Варшава. 1987.
32.Гусейнов Ф., Эфендиев В.А., Салманов А.А. Пространственные проблемы управления городом и пути их решения Изв.АН Азерб ССР. Серия наук о Земле, 1983 №4.
33.Гутков Л.В. Развитие градостроительства. Москва. 1984.
34.Демографические аспекты ускорения социально-экономического развития. Тезисы докладов. Всесоюзная научная конференция. Часть IV, Киев, 1987.

35.Дубровин П.И. Агломерации городов (генезис, экономика, морфология). Вопросы географии, сб. 45. География городских и сельских поселений. Москва, Географгиз, 1959.
36.Имре Перени. Город, человек, окружающая среда. Проблемы рекреации в градостроительстве. Изд-во АН Венгрии. Будапешт, 1981.
37.Исмаилов Ч.Н. Нефтяной комплекс прикаспийского региона. Проблемы функционирования и развития. Баку, 2000.
38.Кирсанова А.Ю. Географические аспекты развития городской среды. Автореферат диссертации на соискание уч. степ. канд. географ. наук. Москва, 1996.
39.Ковалев С.А., Ковальская Н.Я. География населения. Москва. 1980.
40.Кочетков А.В. Проблемы комплексного управления развитием городов и система населенных мест. Автореферат диссертации на соискание уч. степени доктора экономических наук. Москва, 1977.
41.Крупный город: проблемы, тенденции развития. Ленинград, «Наука», 1988.
42.Лаппо Г.М. География городов. Москва, Изд-во Владос, 1997.
43.Лаппо Г.М. Город на пути в будущее. Москва, «Мысль», 1987.
44.Лаппо Г.М. Развитие городских агломераций Москва. 1978.
45.Маергойз И.М. К экономико-географическому изучению городов. Вопросы географии. сб. 38, 1956.
46.Мехралиев Э.Г. Географические проблемы формирования населения Азербайджанской ССР, Баку, Елм, 1984.
47.Mehrəliyev E.Q., Əyyubov N.H., Sadıqov M.O. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Bakı, Elm, 1988.
48.Muradov Ş.M. Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri, «Elm» nəşriyyatı, Bakı – 1974.
49.Muradov Ş.M. Bazar mexanizmi sistemində əmək bazarının öyrənilməsinin bəzi nəzəri-metodoloji əsasları haqqında. Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri (*məqalələr toplusu*) VI buraxılış. Bakı-Elm-2000.
50.Məmmədov Z.S. Naxçıvanın təbii sərvətləri.Bakı, Azərnəşr, 1993.

51.Nadirov A. Azərbaycan Respublikasının iqtisadi inkişaf mərhələləri. Bakı. Elm. 2002

52.Надиров А.А. Вопросы экономического развития городов Азербайджанской ССР. Баку, 1966.

53.Население мира. Демографический справочник. Москва. 1989.

54.Никитин Д.П. Новиков Ю.В. Окружающая среда и человек. Москва «Высшая школа», 1986.

55.Новиков Ю.В. За город чистоты и здоровья, Московский рабочий, 1987.

56.Nəbiyev N.Ə. İqtisadiyyat, cəmiyyət və ekoloji mühit. Bakı. Elm, 2000.

57.Nəbiyev N.Ə., Vəliyev N.A. Təbii sərvətlər və ekoloji mühit. Bakı, «Maarif», 1987.

58.Озерова Г.Н., Покшишевский В.В. География мирового процесса урбанизации. Москва, «Просвещение», 1981.

59.Окружающая среда крупного города. Ленинград «Наука», 1988.

60.Перцик Е.Н. География городов.(Геоурбанистика), Москва, «Мысль», 1980.

61.Перцик Е.Н. Города мира, География мировой урбанизации. Москва «Международные отношения», 1999.

62.Покшишевский В.В. Население и география. Теоретические очерки. Москва, «Мысль», 1978.

63.Проблемы расселения: история и современность, Сборник статей, Москва 1997.

64.Проблемы усиления роли государства в стабилизации и подъеме экономики. Москва, 2000.

65.Производительные силы: Новые развития. Москва, «Мысль», 1989.

66.Ресурсы, среда, расселения. Изд-во «Наука», Москва, 1974.

67.Роль государства в становлении и регулировании рыночной экономики. Москва, 1999.

68.Росин В.И., Попов Ю.С. Развитие больших городов в условиях переходной экономики. Системный подход. Москва, 2000.

69.Россия и Закавказье: Реалии независимости и партнерства. Москва ЗАО, «Финстатикформ», 2000.

70.Salmanov A., Həsənov T. İqtisadi və sosial coğrafiyanın müa-

sir problemləri yeni inkişaf mərhələsində. Azərbaycan XXI əsrin astanasında. Elmi-praktik konfransın materialları. 1998.
71. Саушкин Ю.Г. Введение в экономическую географию. Изд. Московского Университета, М. 1958.
72. Саушкин Ю.Г. Глушкова В.Г. Москва среди городов мира. М., 1983.
73. Симагин Ю.А. Изменение соотношения городского и сельского населения в регионах России за период 1991-1997 г. Известия АН России. Серия: географическая, 2000, №4.
74. Слука Н.А. Урбанистическая панорама мира XXI века. Вестник Московского Университета. Сер. 5. География, 2000, №2.
75. Стронгина М.Л. Социально-экономические проблемы больших городов. Москва, 1989,
76. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку 1964.
77. Şəmədzadə Z. Azərbaycan iqtisadiyyatı XX əsrdə: inkişaf mərhələləri problemlər, XXI əsrin birinci onilliyində iqtisadi inkişaf konsepsiyası haqqında düşüncələr. Elmi-praktik konfransın materialları. Bakı, 1997.
78. Тимчук Н.Ф. Методы экономического обоснования городов и районов. Киев, 1974.
79. Трушков В.В. Население города и пригорода. Москва, Финансы и статистика, 1983.
80. Умудова Р.И. Региональные особенности маятниковой миграции населения в крупном городе (на примере Баку). В кн. Географические основы формирования народнохозяйственных комплексов и систем расселения.
81. Харитонов В.М. Урбанизация США. Москва.- 1983.
82. Хорев Б.С. Проблемы городов, Москва 1975.
83. Хорев Б.С. Районирование и расселение. В кн. «Развитие и регулирование систем расселения в СССР. Москва, Статистика –1974.
84. Хорев Б.С. Территориальная организация общества. Изд. «Мысль», Москва – 1981.
85. Чепурных Н.В., Новоселов А.Л. Экономика и экология. Развитие, катастрофы. Москва, «Наука», 1996.
86. Шманьска Данеля. Новые города в системах расселения. Автореферат диссертации на соискание научной степени докто-

ра географических наук. Москва, 1992.
87. Həsənov T.K. Coğrafiyanın tədqiqat metodları. Bakı Dövlət Universiteti, 1990.
88. Экология и экономика природопользования. Москва, 2000.
89. Экономика природопользования и рынок. Москва, «Закон и право», 1997.
90. Экономическая альтернатива. Москва, «Прогресс» 1990
91. Экономическое и социальное развитие Баку. 1981-1985. Баку-1982.
92. Энциклопедический словарь географических терминов. Москва.-1968.
93. Эфендиев В.А. Большие города – как искусственная среда, объект урбанизации и концентрации производства. «Вестник» БГУ, (серия естественных наук) 1999 №4.
94. Эфендиев В.А. Географические проблемы терреториальной организации внешней зоны Бакинской агломерации как составные элементы планирования Большого Баку, Всесоюзное совещание по проблемам районной планировки, Ленинград-Новгород, 1983.
95. Эфендиев В.А. Географические проблемы территориальной организации внешней зоны Бакинской агломерации. Журнал «Народное хозяйство Азербайджана». Баку 1985, №1
96. Эфендиев В.А. Дамиргаяев Ш.Г. Основные этапы формирования городского расселения Азербайджана. В сб. Научных трудов «Географические проблемы совершенствования и комплексное развитие народного хозяйства». Баку. АГУ-1988.
97. Эфендиев В.А. Ермолаева И.В. К вопросу взаимосвязи уровня занятости населения с коэффициентом семейности в Бакинской агломерации. В кн. Материалы научно-практической конференции. Университетская наука. Баку, БГУ.Апрель 1984 г.
98. Эфендиев В.А. Пути развития и современные тенденции формирования поселений западных районов Азербайджана «Вестник» БГУ (серия естественных наук). Баку 1998, №1
99. Эфендиев В.А. Социально-экономические предпосылки формирования Бакинской агломерации. Вестник научных докладов «Территориальный и социально-пространственный ком-

плекс формирования и развития экономических районов. Баку-АГУ, 1984
100. Эфендиев В.А. Социально-экономические предпосылки формирования городов Азербайджана. Ученые записки БГУ, серия естественных наук, №2 1990,.
101. Эфендиев В.А. Сравнительная характеристика урбанизированности западных районов Азербайджана. «Вестник» БГУ (серия естественных наук),1999 №1.
102. Эфендиев В.А. Территориальная организация внешней зоны Бакинской агломерации. Автореферат диссертации на соискание ученой степени кандидата географических наук, Баку, 1985.
103. Эфендиев В.А. Урбанизация и развитие производства. «Вестник» БГУ (серия естественных наук). 1999 №3.
104. Эфендиев В.А. Экономико-географическое положение - как важный фактор развития города Баку. Вестник Московского университета. Серия 5, География, №1 2001
105. Эфендиев В.А. Эюбов Н.Г. Место Бакинской агломерации в системе городских агломераций СССР. Известия АН Азерб ССР. Серия наук о земле, 1989, №5
106. Эфендиев В.А., Набиев А. Прогнозные объяснения и базы данных для анализа социально-экономического развития городского и сельского населения. Доклад на международной конференции. Пекин 1992.
107. Göyçaylı Ş. Azərbaycan Respublikasının yeni inkişaf mərhələsində coğrafiya elminin problemləri haqqında. Azərbaycan XXI əsrin astanasında. Elmi-praktiki konfransının materialları, Bakı, 1998.
108. Göyçayski Ş. Əhali coğrafiyası. Bakı, 1979.
109. Яницкий О.Н. Экологическая перспектива города Москвы «Мысль», 1991.
110. Яншин А.Л., Медуа А.И. Уроки экологических проесретов. Москва, «Мысль», 1991.
111. Əfəndiyev V.A. Dəmirqayayev Ş.Q. Keçid dövründə Azərbaycan Respublikası şəhərlərinin iqtisadi-coğrafi inkişaf problemləri. Azərbaycan Elmlər Akademiyasının xəbərləri, İqtisadiyyat bölməsi, 1997, №3.
112. Əfəndiyev V.A. Dəmirlaqayev Ş.Q. Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri «Nicat» nəşriyya-

tı (monoqrafiya). Bakı 1995.
113. Efendiyev V.A.. Characteristic features of the urbanization Azerbaigan in the modern stage. Journal of the Blak Sea Universities Network. V.1., Constantza, Romania .2002.
114. Efendiyev V.A. City and city phenomenon. Theoretical and methodical aspects of the investigation. Sixth Baku International Conqress «Enerqi, Ecoloqy, Economy». Baku.-2002.
115. The informative cartographic reverence book of Azerbaijan. Chevron. Baku – 2000.
116. Time almanac 2001: Vith informion. Please
117. Байнхауер Х., Шмикке Э. Мир в 2000 году. М, «Прогресс», 1973.
118. Боже-Горнье Ж., Шибо Ж. Очерки по географии городов (пер. с франц.) М, «Прогресс», 1967.
119. Валев П. Города будущего. Bolqar dilindən tərcümə, 1965.
120. Донелла Х. Медеуз., Донелла Л. Медеуз, Иорган Рандерс. За пределами роста (пер. с англ.). Москва, «Прогресс», 1994.
121. Лиффи Р. Американский город (сокр. пер. с англ.) Москва, «Прогресс», 1972.
122. Мерлен П. Город (пер. с франц.). Москва, 1977.
123. Статистический ежегодник Южно-Кавказских стран. Армения, Азербайджан, Грузия. 2000.
124. Уоллворк К. Нарушенные Земли. Сокращенный перевод с английского. Москва, «Прогресс», 1989.
125. Azərbaycan Respublikası əhalisinin siyahıya alınması 1999-cu il Bakı, 2000, I, II, III, V, VI cildlər.
126. Azərbaycan Respublikasında ətraf mühit. Bakı, 1999.
127. Azərbaycan Respublikasının siyahıya alınması. Bakı 1989 – cu il.
128. Azərbaycan rəqəmlərdə. Bakı, 2000.
129. Azərbaycan rəqəmlərdə. Bakı, 2001.
130. Azərbaycan XX əsrdə 1 hissə. Azərbaycan Respublikasi Dövlət Statistika Komitəsi. Bakı 2001
131. Azərbaycan XX əsrdə, II hissə. Azərbaycan Respublikasi Dövlət Statistika Komitəsi. Bakı-2001
132. Azərbaycanda qadınlar və kişilər. Bakı, 1999.
133. Azərbaycanda demoqrafik vəziyyət və sosial inkişaf. Bakı, 1999.

134. Azərbaycanın regionları. Bakı-2001
135. Azərbaycanın statistik göstəriciləri, 2000 il, Bakı, 2000.
136. Müstəqil Azərbaycan. «Səda» nəşriyyatı, Bakı, 2001.
13.. ародное хозяйство СССР в 1990 г. Статистический ежегодник.
..аселение Азербайджанской Республики, статсборник. Баку – 1991.
139. Naxçıvan statistika güzgüsündə. Bakı, 1999.
140. Gürcüstan SSR Mərkəzi Arxiv Fondu 2-ci toplu. 182s.
141. Əmək bazarı. Bakı, 2000.

## İXTİSARLA YAZILMIŞ SÖZLƏR

AMEA – Azərbaycan Milli Elmlər Akademiyası
AR – Azərbaycan Respublikası
DRES – Dövlət Rayon Elektrik Stansiyası
ET – Elmi-tədqiqat
İQ – İqtisadi qiymətləndirmə
İES – İstilik-Elektrik Stansiyası
MDB – Müstəqil Dövlətlər Birliyi
MR – Muxtar Respublika
SES – Su-Elektrik Stansiyası
TİƏ – Texniki-iqtisadi əsaslandırma
ŞTQ – Şəhər tipli qəsəbələr
İCM – İqtisadi coğrafi mövqe

Nəşriyyatın direktoru: Balakişi Ağaev
Nəşriyyat redaktoru: Şəhla Tahirqızı
Kompüter tərtibatı: Məcid Qocayev

*Kitab Bakı Dövlət Universitetinin Kompüter mərkəzində yığılıb, səhifələnmişdir.*
*Mərkəzin rəhbəri* **Qafar Atayev**

**Vüsət ƏFƏNDİYEV**
**Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri**
**(*monoqrafiya*)**

Yığılmağa verilmişdir: 12.05.2002.
Çapa imzalanmışdır: 23.07.2002
Formatı: 60x84 1/16.
Həcmi: 24,75 nəşr . ç.v.
Sifariş: 19 . Tiraj: 500 nüsxə

Qiymәti müqavilə ilə

**Azərbaycan Dövlət İqtisad Universiteti Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən istifadə edilərək çap olunmuşdur.**

# AZƏRBAYCAN



45°
46°
47°
RUSİYA FE
D A Ğ
GÜRCÜSTAN
Balakən
91
79
Zaqatala
Qax
34
Alazan
Kür
49
Ağstafa
116
Qazax
Tovuz
75
Şəki
65
30
Qanıx
41°
Samux
Mingəçevir su anb.
MİNGƏÇEVİR
34
104
2721
Şəmkir
GƏNCƏ
23
48
70
Ağdaş
85
67
Gədəbəy
52
29
Göranboy
YEVLAX
Xanlar
Göyçə gölü
ERMƏNİSTAN
Daşkəsən
Tərtər
46
135
Kəlbəcər
22
Ağdam
Xocalı
26
133
61
40°
XANKƏNDİ
581
27
Ağcabədi
Xocavənd
Laçın
34
83
Arpaçay
95
Şərur
Şuşa
Füzuli
98
Şahbuz
22
41
56
36
Qubadlı
NAXÇIVAN
Cəbrayıl
Culfa
50
Babək
61
Ordubad
36
41
Zəngilan
39°
45°
İ R A N
Rayonların
əhalisi
Azərbaycan Respublikası əhalisinin artım dinamikası
Ümumi əhali
Ondan şəhər əhalisi
8000
7000
6000
5000
4000
3000
2000
1000
1913
1920
1939
1959
1970
1975
1980
1989
2000

# RESPUBLİKASI



# AZƏRBAYCAN RESPUBLİKASI

